

# Mehriban Əliyeva

TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ

# Mehriban Əliyeva

## TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ

*(2 cilddə)*

**I cild**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**BAKI – 2014**

Elmi redaktor və ideya müəllifi:
**Aqiyə Həbib qızı NAXÇIVANLI,**
*siyasi elmlər doktoru, professor*

Elmi məsləhətçi:
**Kamilə Ramiz qızı ƏLİYEVA,**
*psixologiya elmləri doktoru, professor*

**"Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə"** *(2 cilddə).* **I cild.** 412 səh.
*(Azərbaycan dilində).*

***Kitabda YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinin və mədəniyyətinin inkişafı sahəsində gördüyü işlər, ölkəmizi beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsi və xeyriyyəçilik fəaliyyəti ilə bağlı materiallar toplanmışdır.***

***Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab Mehriban xanım Əliyevanın nəcib və xeyirxah əməlləri, onun Azərbaycanın dünyada tanınmasında, tərəqqisi və çiçəklənməsində müstəsna rolu ilə daha yaxından tanış olmaq baxımından mühüm əhəmiyyət kəsb edir.***

ISBN 978-9952-435-38-2
ISBN 978-9952-435-39-9



*Bizim hər bir nailiyyətimizin arxasında Azərbaycan vətəndaşının zəkası, biliyi, bacarığı, istedadı və əməyi durur. Azərbaycan gələcəyə istiqamətlənən dövlətdir. Biz böyük yolun əvvəlindəyik.*

*Müstəqil və dünyəvi dövlət olaraq, tariximizə və köklərimizə sadiq olaraq, mədəniyyətimizi və ənənələrimizi qoruyaraq biz ümumdünya dəyərlərinə, azadlıq, demokratiya, aşkarlıq, dünya birliyinə inteqrasiya yolunu seçmişik.*

**Mehriban Əliyeva,**
*YUNESKO və İSESKO-nun xoşməramlı səfiri,*
*Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı*

# GİRİŞ SÖZÜ

Oxuculara təqdim edilən bu kitab Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çoxşaxəli və geniş fəaliyyətini yalnız qismən əks etdirir. Burada dərc olunan materiallar göstərir ki, bütün dünyada tanınan bir azərbaycanlı xanımın siyasi, sosial, mədəni-mənəvi, maarifçilik fəaliyyətinin nədən başlandığını müəyyən etmək çox da asan deyildir. Ancaq aydındır ki, bu geniş əhatəli və qibtə ediləcək dərəcədə uğurlu fəaliyyətin başlanğıcı Heydər Əliyev Fondunun yaradılması olmuşdur.

Mehriban xanım bu nüfuzlu təşkilatın ləyaqətli prezidenti kimi qısa müddətdə respublikada maddi köməyə ehtiyacı olan yüzlərlə, minlərlə vətəndaşa, o cümlədən qocalara və uşaqlara, həmçinin xəstəliklərdən əziyyət çəkənlərə hərtərəfli kömək göstərilməsini daima ön plana çəkmişdir. Buna görə də Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti ictimai, fərdi və kütləvi şüurda bir assosiasiya – ehtiyacı olanlara kömək göstəriləcəyinə, ideya və təşəbbüslərin dəstəklənəcəyinə ümid və inam hissləri doğurur.

Əlbəttə, qısa müqəddimədə ölkənin birinci xanımının hərtərəfli, çoxşaxəli və dolğun fəaliyyətinin geniş xarakteristikasını vermək mümkün deyil. Ona görə də biz bu fəaliyyətin yalnız bir neçə əsas parametrlərini qeyd edəcəyik.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsləri və fərdi qayğısı sayəsində, Fondun təsis edildiyi vaxtdan Azərbaycanda təhsil və səhiyyə sistemlərində başlanmış əsl "tikinti bumu" bugünədək davam edir. Yenidən tikilmiş və əsaslı təmir edilmiş ümumtəhsil məktəblərinin sayı çoxdan 1000-i keçmişdir – bu rəqəm hətta çox təcrübəli mütəxəssisləri də heyrətləndirir. Azərbaycanda heç vaxt, heç bir əsrdə bu qədər məktəb və başqa təhsil müəssisələri tikilməmişdi.

Yaxın keçmişimizdə nəinki əyalətlərdə, hətta respublikamızın paytaxtında da xəstəxanaların necə acınacaqlı vəziyyətdə olması hamımızın yadındadır: baxımsız qalmış palatalar, köhnə mebel, köhnəlmiş texnika, cansıxıcı dəhlizlər – bütün bunlar, demək olar ki, səhiyyə müəssisələrinin hamısı üçün səciyyəvi göstərici idi. İndi isə ən bahalı və müasir avadanlıqla təchiz olunmuş yeni, müasir, rahat xəstəxana binaları, həm xəstələr, həm də tibbi heyət üçün yaradılmış əla şəraiti ilə heyranlıq doğurur. Görülmüş işləri nəzərdə tutaraq vurğulamaq lazımdır ki, heç də hər şey asanlıqla başa gəlməmişdir. Öz təsdiqini tapan bu işlərin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Burada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, bütövlükdə Azərbaycan dövlətinin rolu danılmazdır, amma bütün bunlarla bərabər, birinci xanımın "dəst-xətti" də aşkar görünür.

Bu kitabda toplanmış materiallar belə deməyə əsas verir ki, əgər biz Mehriban Əliyevanın baş çəkdiyi bütün xəstəxanaları, uşaq bağçalarını, uşaq evlərini, ümumtəhsil məktəblərini və

ixtisaslaşdırılmış tədris müəssisələrini sadalamaq, onun ölkəmizin təhsil, tərbiyə və səhiyyə sisteminə aid çıxışlarını və nitqlərini şərh etmək istəsək, bu məlumatlar onlarca səhifə yer tutar və bu məsələ məşhur "hüdudsuz olanı əhatə etmək" aforizmi ilə səsləşərdi.

Biz cəmiyyətin sosial təbəqələşməsi, çox zəngin, orta və aztəminatlı insanlardan ibarət sosial təbəqələrin yaranması şəraitində yaşayırıq. Keçmiş sovet məkanında yaranmış suveren dövlətlərin təcrübəsi göstərir ki, əhalinin ən aşağı təminatlı təbəqələrini təmsil edən insanlara, xüsusilə uşaqlara və yaşlılara dövlət yardımı heç də həmişə kifayət qədər olmur. Bu incə məqamı hamıdan yaxşı duyan Mehriban xanımın təşəbbüsü ilə yaradılmış və onun stimullaşdırdığı səhiyyə mərkəzləri və tərbiyə müəssisələri, ilk növbədə, aztəminatlı insanların qeydinə qalır.

Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyətindən danışanda bu fəaliyyət sahələrindən hər hansı birinə üstünlük vermək çətindir. Amma onun sosial fəaliyyətinin bir sıra üstün istiqamətləri var. Bu istiqamətlərin məcmusunu bir sözlə ifadə etmək olar: XEYRİYYƏÇİLİK!

Artıq neçə illərdir ki, Azərbaycanın valideyn qayğısından məhrum olmuş balaca vətəndaşları, qocalar evində yaşayan tənha ahıl insanlar, qaçqın və məcburi köçkün ailələri Mehriban xanım Əliyevanın xeyriyyəçilik fəaliyyəti ilə əhatə olunmuşlar. Onun xeyriyyəçilik fəaliyyətinin mərkəzində Azərbaycanın bu günü və gələcəyi ideyası dayanır.

Əlbəttə, burada Heydər Əliyev Fondunun çoxşaxəli, olduqca zəngin və səmərəli fəaliyyəti ilə bağlı məsələləri bir və yaxud iki kitabla əhatə etmək mümkün deyildir. Ona görə də kitab tərtib olunarkən bir neçə xüsusi aktuallıq kəsb edən problemə üstünlük verilmişdir. Onlardan biri Azərbaycanın müasir dünyada özünün layiqli yerini tutmaq məsələsidir. Azərbaycanın bu tərzdə beynəlxalq və Avropa strukturlarına inteqrasiyası xalq tərəfindən yeni və perspektivli hadisə kimi qiymətləndirilir. Bu barədə Mehriban xanım Əliyeva Bakıda Heydər Əliyev Mərkəzinin açılışı və ümummilli liderin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş tədbirdəki çıxışında daha ətraflı danışmışdır.

Bir halda ki Mehriban xanım Əliyeva öz çıxışında rəhbəri olduğu Heydər Əliyev Fondunun fəaliyyətinin mühüm tərəflərinin ümumi səciyyəsini verir və diqqəti onun perspektivlərinə yönəldir, ona görə də biz hətta bir qədər xronologiyanı pozmuş olsaq da, onun bu çıxışını kitabın əvvəlində vermişik.

Mehriban xanım rəsmən iki beynəlxalq qurumun Xoşməramlı Səfiri titullarına malikdir. Bununla əlaqədar xüsusi vurğulamaq lazımdır ki, tariximizdə azərbaycanlı qadının bu titullara layiq görülməsi ilk dəfədir və Mehriban xanım bu adı ləyaqətlə daşıyır. Mehriban xanım bütün xalqın nəzərində Azərbaycan mədəniyyətinin tanınmış elçisidir.

Bu nəşrdə təqdim edilən materiallar Mehriban xanım Əliyevanın həqiqətən titanik, Azərbaycan xalqının mədəni irsinin və onun mənəvi dəyərlərinin müdafiəsinə yönəlmiş səylərini açıqlayır. O deyir: “Mədəni irs hər bir xalqın qürurudur. Ölkəmizin tarixinə nəzər





salsaq görərik ki, mühüm geosiyasi məkanda yerləşən Azərbaycan əsrlər boyu müxtəlif imperiyaların tərkibində olmuşdur. Bütün çətinliklərə baxmayaraq, biz öz mədəniyyətimizi, dilimizi, ədəbiyyatımızı, adət və ənənələrimizi, milli dəyərlərimizi qoruyub saxlaya bilmişik. Bu, bizim milli bənzərsizliyimizi itirməyin qarşısını almışdır. Biz onu qoruyub saxlamış və güclü müstəqil dövlətə çevrilmişik”.

Təqdim olunan kitabda Mehriban xanım Əliyevanın Avropa, Amerika, Rusiya və Şərq ölkələrinin müxtəlif salonlarında Azərbaycan xalqının zəngin və təkrarolunmaz mədəniyyətini və tarixini məhəbbətlə təbliğ etməsi təsvir olunur. Mehriban xanım Azərbaycan xalqının mədəniyyətini hər anda, hər şəraitdə sevgi və məharətlə təbliğ etməsi ilə bizim mədəniyyətimizə və qabiliyyətimizə qara yaxan nankor qonşulara böyük bir ordunun gücünə bərabər zərbələr endirir. Çox təəssüflə qeyd etmək lazımdır ki, nə sovet dövründə, nə də ondan öncə biz öz mədəniyyətimizi yetərincə təbliğ edib, dünyaya göstərə bilməmişdik. Mehriban xanım bu çatışmazlığı nəinki aradan qaldırdı, o, bu sahədə əsl inqilab etdi. Bu insanın məqsədyönlü fəaliyyəti, hərtərəfli düşünülmüş səyləri nəticəsində Azərbaycan xalqının zəngin və qədim mədəniyyəti dünyanı lərzəyə gətirdi.

Məhz Mehriban xanımın məhsuldar fəaliyyətinin nəticəsidir ki, son 10 ildə Azərbaycan mədəniyyət problemlərinə həsr olunmuş bir sıra beynəlxalq forum və simpoziumların keçirilməsinə ev sahibliyi etmişdir.

Ulu öndər Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva – bu üçlüyün bir-birini davam etdirən və tamamlayan məqsədyönlü fəaliyyətləri nəticəsində dünya Azərbaycanı nəhəng bir mədəniyyətə malik olan ölkə kimi tanımağa başlamışdır. Kitabda oxucuya bu haqda zəngin material təqdim olunmuşdur.

Bu materiallarla tanış olduqca, Mehriban xanımın müxtəlif forumlarda, konfranslarda və simpoziumlarda çıxışlarını və nitqlərini oxuyub təhlil etdikcə, həm onun qüsursuz məntiqinə, həm də bütövlükdə musiqi sahəsində, Azərbaycan ifaçılıq sənəti, rəssamlıq, ədəbiyyat və incəsənət sahəsində malik olduğu mükəmməl biliyə və dünyagörüşünə heyran olursan.

Mehriban xanımın dövlətçilik və siyasi fəaliyyəti diplomatiya, siyasət sahələrinə, çoxsaylı məsələlərin praktik həllinə yönəlmiş fəal təşəbbüslərin spesifik sistemini təşkil edir.

Kitabda toplanmış materialları oxuyarkən Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə xüsusi bütövlük verən keyfiyyətlər – ziyalılıq, dərin intellektual potensial, geniş ürək, vətənpərvərlik və əməksevərlik haqqında kifayət qədər məlumat əldə etmək olar. Birinci xanımın məramı onun aşağıdakı sözlərində çox dəqiq ifadə edilmişdir: “Bizim mövqeyimiz həmişə ondan ibarət olmuşdur ki, hər bir insanı, hər bir təşkilatı, hər bir qurumu səciyyələndirən təmtəraqlı ibarələr və parlaq epitetlər deyil, görülmüş iş və əldə edilmiş nəticələr olmalıdır”.

Birinci xanımın bu sözləri ilə tam razılaşaraq onu qeyd etmək yerinə düşərdi ki, cəmiyyətdə, real həyatda biz tez-tez elə çıxışlar, elə yazılarla rastlaşırıq ki, onların əsas qayəsini təmtəraqlı

sözlər, saxta təriflər, özlərindən uydurulmuş epitetlər təşkil edir. Mehriban xanımın çıxışları, nitqləri, məruzələri və praktik fəaliyyəti ilə tanış olarkən, tamamilə əks mənzərəni müşahidə edirik. Onun yazılarında, çıxışlarında müşahidə olunanlar aşağıdakılardır: sağlam düşüncə, səmimiyyət, ən mürəkkəb problemləri, prosesləri sadə və səlis dillə ifadə etmək məharəti, məntiqi ardıcıllıq, fikirləri inkaredilməz dəlillər ilə əsaslandırmaq. Mehriban xanım çıxışlarında, nitqlərində diqqətini konkret işə, konkret fəaliyyətə, dərin məzmunlu ideyalara yönəldir. Onun bu xüsusiyyətlərinin böyük tərbiyəvi əhəmiyyəti var

Birinci xanımın fəaliyyətinin strukturunda onun deputat fəaliyyəti xüsusi yer tutur. O, öz seçiciləri ilə mütəmadi və sistematik görüşür, onların ehtiyac və problemlərinə qayğı və diqqətlə yanaşır. Mehriban Əliyeva Milli Məclisin tərkibində olduğu illər ərzində öz şəxsi nümunəsi ilə göstərmişdir ki, deputatın və ya dövlət rəhbərinin işi nə qədər çox olsa da, o istəsə, mənafelərini parlamentdə və ya dövlət strukturunda təmsil etdiyi insanlarla ünsiyyət qurmaq üçün bir qədər vaxt tapa bilər. Seçicilərlə ünsiyyətdə o öz sadəliyi və səmimiyyəti, insanları dinləmək və onları anlamaq bacarığı ilə fərqlənir və sevilir. Mehriban xanım Əliyevanın seçiciləri onun bu keyfiyyətlərini dəfələrlə vurğulamışlar. Bu faktlar təqdim edilən kitabda geniş əks olunmuşdur.

Birinci xanımın fərdi statusu və sosial mövqeyi ilə müəyyən edilmiş özünəməxsus ünsiyyət səviyyəsi var. O, müxtəlif sosial qrupları və təbəqələri təmsil edən sadə insanlarla yanaşı, müxtəlif ölkələrin görkəmli dövlət xadimləri və siyasətçiləri, məşhur alimlər, görkəmli mədəniyyət və incəsənət nümayəndələri ilə də tez-tez görüşür. Bu görüşlərdə onun söhbətlərinin leytmotivi Azərbaycandır, Azərbaycan xalqının böyük mədəniyyəti, həyatımızın bugünkü reallıqları, dünya birliyində Azərbaycanın yeri və əlbəttə, Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi mövzularıdır. O, Azərbaycan xalqının xoşməramlı və etibarlı elçisi kimi Azərbaycan mədəniyyətini dünyanın bütün ölkələrində ləyaqətlə təmsil edir, dərin biliklərə malik olan səriştəli bir insan, siyasətçi, ziyalı kimi öz həmsöhbətləri ilə diskussiyalar aparır.

Sadaladıqlarımızın sırasında Mehriban xanım Əliyevanın siyasi fəaliyyətinin daha bir məqamına da diqqət yetirmək lazımdır. Bu, onun müxtəlif ölkələrin birinci xanımları ilə görüşləridir. Bu görüşlərdə və söhbətlərdə Mehriban Əliyeva həm Azərbaycan mədəniyyətinin səlahiyyətli nümayəndəsi, həm ulu öndər Heydər Əliyevin ideyalarının təbliğatçısı, həm də ki əlbəttə, Azərbaycan Respublikasının Prezidentinin – onunla birlikdə yeni Azərbaycanı quran şəxsin xanımı rolunda çıxış edir.

Bu ikicildliyi oxuyarkən Mehriban xanım haqqında kifayət qədər obyektiv və dolğun fikir formalaşdırılmasına nail olmaq mümkündür. Lakin onun praktik fəaliyyətinin elə cəhətləri var ki, onlar kitabda dərc olunan mətnlərdə əks olunmamışdır. O cəhətlərdən biri Bakının və Azərbaycanın regionlarının gündən-günə gözəlləşməsində Mehriban xanımın inkarolunmaz roludur. Bir-birindən yaraşıqlı salonların, Azərbaycan paytaxtına xüsusi yaraşıq verən Bakı Dənizkənarı parkının, mənəviyyatımızın inkişafına yeni impuls verən Muğam Mərkəzinin, Xalça Muzeyinin və onlarla başqa mədəniyyət, incəsənət və təhsil müəssisələrinin görkəmində Mehriban xanımın zövqü və xətti duyulur.

Əziz oxucu, Sizə təqdim edilən kitabdan bütün bu məsələlər barədə ətraflı məlumat əldə etmək olar. Ümid edirik ki, bu kitab vasitəsilə Siz intellekt, harmoniya, ədalət, mədəniyyət, gözəllik, mənəviyyat, vətəndaş məsuliyyətinin təcəssümü olan Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti ilə daha yaxından tanış ola biləcəksiniz!

İdrak yolunuz uğurlu olsun!

**Aqiyə NAXÇIVANLI,**
*Milli Məclisin deputatı,*
*Azərbaycan Müəllimlər İnstitutunun rektoru,*
*siyasi elmlər doktoru, professor*

**Kamilə ƏLİYEVA,**
*Bakı Dövlət Universitetinin*
*Sosial və pedaqoji psixologiya*
*kafedrasının müdiri,*
*psixologiya elmləri doktoru, professor*



MEHRİBAN ƏLİYEVA: TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ


FONDAZIONE
HEYDAR ALIYEV

*· I fəsil ·*

# Mehriban Əliyeva: çıxışlar, nitqlər



## BAKIDA HEYDƏR ƏLİYEV MƏRKƏZİ AÇILMIŞ, ULU ÖNDƏRİN ANADAN OLMASININ 89-cu İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 8 İLLİYİ MÜNASİBƏTİ İLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

Mərasimdə çıxış edən Fondun prezidenti Mehriban xanım Əliyeva dedi:

– Hörmətli cənab Prezident! Hörmətli xanımlar və cənablar! Əziz qonaqlar, əziz dostlar!

Sizi səmimi qəlbdən salamlayır və Heydər Əliyev Mərkəzinin açılışı münasibətilə təbrik edirəm.

Bu gün qapılarını açan bu möhtəşəm memarlıq əsəri böyük insan, dahi şəxsiyyət Heydər Əliyevin unudulmaz xatirəsini yaşadan bir abidədir. Heydər Əliyev bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycanın tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük. Ölkəmizin bugünkü uğurları, bugünkü nailiyyətləri, müstəqilliyimizin güclənməsi Heydər Əliyev yolunun, Heydər Əliyev azərbaycançılıq ideyasının davamıdır.

Heydər Əliyevin adını daşıyan Fond fəaliyyətə başlayan ilk anlarından daşıdığı yüksək ada





layiq olmağa, xalqımıza və ölkəmizə xidmət etməyə, Azərbaycanı dünyada layiqincə təmsil etməyə, humanizm və insanseverlik ideallarına arxalanmağa çalışıb. Bu 8 il ərzində Fond ölkəmizin ictimai həyatının, demək olar ki, bütün sahələrində fəal iştirak edib. Fond öz işləri, öz konkret layihələri ilə hər zaman adi insanların maraqlarını qorumaqla, köməyə ehtiyacı olana kömək etməklə həm Azərbaycanda, həm də ölkəmizdən kənarda hörmət və etimad qazanıb.

Ötən ildə Fond tərəfindən bir sıra vacib işlər həyata keçirilib. Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü münasibətilə Fransa, Rusiya, Almaniya, İtaliya və Vatikanda geniş tədbirlər keçirilib və beynəlxalq ictimaiyyətin diqqəti bir daha Azərbaycanın tarixinə, mədəniyyətinə və incəsənətinə yönəldilmişdir. Fondun dəstəyi ilə İngiltərədə və Fransada baş tutmuş, Almaniyada və İtaliyada keçirilməsi nəzərdə tutulmuş "Bakıya uçuş: Müasir Azərbaycan İncəsənəti" sərgisi Azərbaycan rəssamlarının beynəlxalq miqyasda tanıdılması üçün yeni imkanlar yaradır.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Fondun dəstəyi ilə ölkəmizdə məktəblərin, internatların, uşaq evlərinin, bağçaların təmiri və bərpası davam edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar daim Fondun diqqət mərkəzindədir. Biz humanitar sahədə fəaliyyətimizi genişləndiririk. Sirr deyil ki, müasir dünyada humanitar əməkdaşlıq mövcud problemlərin, münaqişələrin aradan qaldırılmasında, müxtəlif xalqlar arasında qarşılıqlı hörmət və anlaşma yaradılmasında ən vacib vasitələrdən biridir. Məhz buna görə də Fond ötən il bu sahədə bir çox vacib işlər həyata keçirib. Luvr Muzeyinin, İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində qorunan orta əsr əlyazmalarının bərpasında, Haitidə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasında, Afrika "İrs" məktəbinin yaradılmasında Fond çox fəal iştirak edib.

Fond ilk illərdən bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən BMT, YUNESKO, İSESKO ilə çox sıx və uğurlu əməkdaşlıq qurub. Bu gün qeyd etmək istəyirəm ki, bizim birgə layihələrimiz həm Azərbaycanda, həm xaricdə uğurla həyata keçirilir.

Əziz dostlar, bizim yeni ideyalarımız vardır. Qarşımızda yeni məqsədlər durur və mən ümidvaram ki, gələcəkdə də bizim bütün planlarımız həyatda öz reallığını tapacaqdır. Mən bu gün Fondla əməkdaşlıq edən, layihələrdə iştirak edən, bizdən öz dəstəyini əsirgəməyən hər bir kəsə, hər bir təşkilata dərin minnətdarlığımı çatdırıram.

Bu günlər biz hamımız paytaxtımızda keçirilən "Eurovision-2012" mahnı müsabiqəsinin rəsmi başlanmasını gözləyirik. Biz, Heydər Əliyev Fondunun işçiləri, fəxr edirik ki, məhz Fondun təşəbbüsü ilə və birbaşa dəstəyi ilə bir neçə il bundan əvvəl ölkəmiz müsabiqəyə qatıldı və cəmi 4 ildən sonra bizim istedadlı gənclər Nigar və Eldarın qələbəsi nəticəsində bu mahnı bayramı ölkəmizə gəldi.

Heydər Əliyev Fondu "Eurovision-2012"nin rəsmi tərəfdaşı olaraq bu müsabiqənin ölkəmizdə ən yüksək səviyyədə keçirilməsi üçün bütün səylərini göstərir. Artıq bir neçə

gündən sonra şəhərimiz müsabiqənin iştirakçılarını və qonaqlarını salamlayacaqdır. Onların əksəriyyəti üçün yəqin ki, bu, ölkəmizlə ilk tanışlıq olacaqdır. Mən çox istərdim və ümidvaram ki, şəhərimizə gələn hər bir qonaq Bakının gözəlliyinə, qədim Bakının müasir simasına, Bakının təkrarolunmaz ab-havasına vurulsun və ən əsası isə insanlarımızın, Azərbaycan xalqının qonaqpərvərliyini hiss etsin. Mən əminəm ki, Bakıda "Eurovision-2012" unudulmaz bir bayrama çevriləcəkdir.

Sonda, əziz qonaqlar, bir daha sizi bu gün münasibətilə təbrik edirəm. Ümidvaram ki, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış bu axşam sizə xoş anlar bəxş edəcəkdir. Sizə və sizin yaxınlarınıza cansağlığı, xoşbəxtlik və məhəbbət arzulayıram.

*"Xalq" qəzeti,*
*12 may 2012-ci il*





## PARİSDƏ YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK İCLASI BAŞLANMIŞDIR

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva xoşməramlı səfirlərin illik iclasında iştirak etmək üçün Fransa paytaxtına gəlmişdir.

2005-ci ilin martın 3-də iclas öz işinə başlamışdır. YUNESKO-nun iqamətgahında Mehriban xanım Əliyevanı təşkilatın Baş direktoru Koişiro Matsuura və digər rəsmi şəxslər səmimiyyətlə qarşılamışlar. Baş direktor iclası açaraq xoşməramlı səfirlərin beşinci görüşünün iştirakçılarını salamlamış, son bir ildə iki nəfərin xoşməramlı səfir adına layiq görüldüyünü xatırlatmışdır. Xoşməramlı səfir adına layiq görülmüş Mehriban xanım Əliyevanın ölkəmizdəki fəaliyyətindən məlumat verən K.Matsuura bildirmişdir ki, o, 1995-ci ildən qeyri-hökumət təşkilatı olan Azərbaycan Mədəniyyətinin Dostları Fonduna rəhbərlik etməklə yanaşı, mədəni irsin qorunması, 2003-cü ildə YUNESKO-nun bəşəriyyətin mədəni irs siyahısına daxil etdiyi muğamların təbliği və zəngin Azərbaycan musiqisinin inkişafı sahəsində xüsusi xidmətlər göstərmişdir. Xoşməramlı səfir kimi Mehriban Əliyeva mədəni irsin qorunub saxlanmasına dair Konvensiyanın təqdimatı ilə bağlı 2004-cü ilin dekabr ayında Kazan şəhərində keçirilmiş tədbirdə iştirak etmişdir. Baş direktor son zamanlar Mehriban xanım Əliyevanın xəstə və valideyn himayəsindən məhrum uşaqlara göstərdiyi qayğını yüksək qiymətləndirmişdir. Sonra Koişiro Matsuura dünyanı təhdid edən hadisələrə xoşməramlı səfirlərin göstərdiyi münasibətdən, xüsusilə QİÇS kimi təhlükəli xəstəlikdən əzab çəkən xəstələrə onların köməyindən söhbət açmış, rəhbərlik etdiyi qurumun təhsil sahəsində BMT ilə əlaqəsindən ətraflı danışmış və YUNESKO-nun tədrisin keyfiyyətini daim diqqət mərkəzində saxladığını vurğulamışdır. Baş direktor bildirmişdir ki, Cənub-Şərqi Asiyadakı dağıdıcı sunami zamanı valideynlərini itirmiş uşaqlara qayğı göstərmək məqsədi ilə YUNESKO xüsusi layihə hazırlamışdır. Cənab K.Matsuura İraq və Əfqanıstanda müharibələr nəticəsində tarixi abidələrin dağılmasından narahatlıqla bəhs etmiş, mədəniyyətin inkişafına göstərdikləri xidmətlərinə görə bir çox xoşməramlı səfirə, o cümlədən Mehriban xanım Əliyevaya təşəkkür etmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva iclasda çıxış etmişdir. O demişdir:

– Əvvəlcə, burada olmağımdan məmnunluq duyduğumu demək istəyirəm. Bildiyiniz kimi, ilk dəfədir ki, bu görüşdə iştirak edirəm və mən YUNESKO ailəsi ilə sizinlə birgə olmağımdan çox sevinirəm.

Bu gün 2004-cü ilin sentyabr ayından xoşməramlı səfir kimi mədəni irsin qorunmasına cəlb olunduğum bir sıra layihələr barədə qısa məlumat vermək istəyirəm.

Bizim layihəmiz milli musiqimiz olan muğam və onun müxtəlif sahələrini əhatə edir. Ümumilikdə biz 10-dan çox layihə üzərində işləyirik. Bunlardan bəziləri artıq başa çatmışdır, bəziləri icra olunur. Digərləri isə yaxın gələcək üçün nəzərdə tutulmuşdur. İcazə verin yenicə

99681



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

başa çatmış bir layihə – Azərbaycan muğam sənətkarlarının əvvəllər yazılmış musiqi parçalarının təmizlənməsi və yenidən yazılması barədə danışım. Onların orijinallarının bir çoxunu xaricdə axtarmalı olduq. Buna baxmayaraq, biz uğur əldə etdik və onları CD disklərə köçürə bildik. Sizə musiqi dəstini təqdim etmək istəyirəm. Ümid edirəm ki, bu musiqini dinləməklə Siz zövq alacaqsınız. Buna əlavə olaraq, biz məşhur xanəndələrin haqqında və muğam fəlsəfəsinə aid bir sıra kitablar nəşr etməyi də planlaşdırırıq. Bizim diqqətimiz başlıca olaraq bir məsələyə – Bakı şəhərində Beynəlxalq Musiqi Mərkəzinin yaradılmasına yönəldilmişdir. Bu musiqi Mərkəzini yaradarkən nəinki musiqiçilərin, həm də musiqisevərlərin buraya gələrək musiqini dinləməsini, ənənəvi musiqimiz barədə müzakirələr aparmağı və yaşlı nəsildən olan sənətkarların öz təcrübələrini, biliklərini və ustalıqlarını yeni nəsillə bölüşdürməsini nəzərdə tutmuşuq. Ümid edirik ki, bu Mərkəz həm də müxtəlif ölkələrdən olan insanların görüş yerinə çevriləcək, dünya mədəni irsinin qorunub saxlanması yolunda daha bir addım olacaqdır.

Sonda demək istəyirəm ki, Azərbaycan YUNESKO ilə yaxın əməkdaşlıqdan qürur duyur və onun dünyadakı layihələrinin bir hissəsi olmasına həmişə hazırdır. Sizinlə bir yerdə olmaqdan qürur duydum. Çox yaxın gələcəkdə sizi Azərbaycanda salamlamağa ümid edirəm. Çox sağ olun!

Mehriban xanım Əliyevanın çıxışı çox maraqla dinlənilmiş və sürəkli alqışlarla qarşılanmışdır.

*"Azərbaycan" qəzeti,*
*4 mart 2005-ci il*








## "QARABAĞ XANƏNDƏLƏRİ" ALBOMUNUN TƏQDİMAT MƏRASİMİ

2005-ci ilin aprelin 8-də "Gülüstan" sarayında YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" albomunun təqdimatı keçirilmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimi açaraq dedi:

– Hörmətli mərasim iştirakçıları!

"Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminə xoş gəlmisiniz.

"Qarabağ xanəndələri" albomu "Muğam-irs" layihəsinin ilk albomudur. Siz hər biriniz bu albomu hədiyyə olaraq almısınız. Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də, böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq.

Bu ilin mart ayında YUNESKO-nun qərargahında xoşməramlı səfirlərin illik toplantısında bu albom təqdim olunmuş və çox böyük diqqət və maraq cəlb etmişdi. Mənim muğam ustaları

ilə ilk görüşümdən çox az vaxt keçib, amma bu müddətdə kifayət qədər iş görülübdür. Artıq muğam dəstgahlarının filarmoniyada səslənməsi bir ənənəyə çevrilibdir. Muğam mərkəzinin inşası barəsində qərar qəbul olunub, muğam ensiklopediyası hazırlanır. Muğam sənətinə həsr olunmuş traktatlar tərcümə edilir və çapa hazırlanır. Bütün bu addımlar bizim birgə səylərimizin nəticəsidir. Mən bu gün Azərbaycanın bütün muğam ustalarına, sənətkarlarımıza, alimlərimizə, muğamı sevən hər bir insana çox dərin minnətdarlığımı və hörmətimi bildirmək istəyirəm.

Muğam artıq təkcə bizim Azərbaycanın yox, bütün dünyanın sərvətidir. Bizim məqsədimiz muğamı qorumaq, inkişaf etdirmək, muğamın gözəlliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaqdır. Bu yolda hər birimizə uğurlar arzulayıram və mərasimi açıq elan edirəm.

Sonra "Qarabağ xanəndələri" albomunda səs yazısı olan 24 sənətçinin ifasında muğam parçaları səsləndirildi. Xalqımızın bənzərsiz muğam sənəti nümunələri bütün Şərqin əvəzsiz ifaçılarından Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Məşədi Məhəmməd Fərzəliyevin, Məcid Behbudovun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, İslam Abdullayevin, Bülbülün, Zülfü Adıgözəlovun, Əbülfət Əliyevin, müasir muğam ustalarının ifası böyük maraqla qarşılandı. Muğam ustalarının ürəkləri riqqətə gətirən ifası layihə çərçivəsində "Salnamə" studiyasında rejissor Xamis Muradovun rəhbərliyi ilə hazırlanmış sənədli filmin kadrlarının nümayişi ilə müşayiət olunur, belə nadir sənətkarlar yetirən Azərbaycan torpağının misilsiz gözəllikləri bir daha göz önündə canlanır, sanki indi yağı tapdağında, işğal altında olan doğma torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə səsləyirdi. Bəli, belə möcüzəli musiqinin beşiyi olan torpaq düşmən əlində qala bilməz!

"Qarabağ bülbülləri"nin ecazkar səsi, gözəl ifası isə əmin etdi ki, xalqımızın zəngin mədəniyyət xəzinəsi olan muğam sənətimizin gələcəyi etibarlı əllərdədir.

Xalq artisti Habil Əliyev mərasimin sonunda sənət yoldaşları adından çıxış edərək dedi: "Bu gün xalq musiqisi ifaçılarının bayramıdır, amma bu, təkcə musiqimizə, ifaçılara yox, xalqımızın milli mədəni sərvətinə verilən qiymətdir. Mən muğamlarımızın qorunmasına, təbliğinə göstərdiyi qayğıya görə YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanıma bütün sənət adamları adından təşəkkür edirəm. Həqiqətən çox böyük iş görülmüşdür və bu xeyirxahlığa görə hamımız ona minnətdarıq".

***"Azərbaycan" qəzeti,***
***9 aprel 2005-ci il***








## HEYDƏR ƏLİYEV FONDUNUN HAZIRLADIĞI "AZƏRBAYCAN" İNTERNET PORTALININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLMİŞDİR

2005-ci ilin iyulun 22-də Azərbaycan Dövlət Filarmoniyasında Heydər Əliyev Fondunun yeni layihəsi olan "Azərbaycan" internet portalının təqdimat mərasimi keçirilmişdir.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Mərasimi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva açaraq dedi:

– Hörmətli cənab Prezident! Xanımlar və cənablar!

Əziz qonaqlar!

Sizi Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Azərbaycan" internet portalının təqdimat mərasimində salamlayıram və bu axşam bizimlə olduğunuz üçün Sizə dərin minnətdarlığımı bildirirəm.

Heydər Əliyev Fondu artıq bir ildən çoxdur ki, fəaliyyətə başlayıbdır. Biz qarşımıza çox böyük vəzifələr qoyaraq onların həllinə nail olmağa, konkret layihələr işləyib həyata keçirməyə çalışırıq.

Yardıma ehtiyacı olan hər bir insana qayğı və diqqət Heydər Əliyev Fondunun əsas vəzifələrindən biridir. Ölkəmizdə sosial problemlərin həllində Fond çox fəal iştirak edir və bir sıra humanitar layihələr hazırlayıb həyata keçirir. "İnternat məktəblərinin və uşaq evlərinin inkişafı" layihəsi çərçivəsində indi Bakıda 12 məktəbdə əsaslı təmir aparılır. Demək olar ki, bu məktəblərin əksəriyyəti yenidən inşa edilir. "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri ilə yanaşı, cəmiyyətimizin bu cür problemlərinə yeni bir nəzər nöqtəsindən baxmağa çağırırıq. Fondun təşəbbüsü ilə respublikamızın bütün guşələrində ən ağır vəziyyətdə olan 132 məktəb üçün bina tikilir. Məktəblər yerli şəraitlərə uyğun layihələrlə inşa edilir. Bu gün, demək olar ki, məktəblərin əksəriyyətində tikinti başlanıb. Ölkəmizin tarixi abidələrinin qorunmasında da Fond fəal iştirak edir. Gəncə şəhərində Cavad xan türbəsi, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpa edilməsi, Abdulla Şaiqin ev muzeyinin təmir edilməsi Fondun bu istiqamətdə gördüyü tədbirlərin yalnız bir neçəsidir.

Amma Fondumuzun ən məsul və ən şərəfli vəzifəsi Heydər Əliyev tərəfindən yaradılan azərbaycançılıq ideyasını, azərbaycançılıq fəlsəfəsini təbliğ etməkdir. Biz çalışırıq ki, bu ideyanı davam etdirək. Bu gün diqqətinizə çatdırılan layihə də bu məqsədə xidmət edir.

Portalın üzərində işə başlamazdan əvvəl biz "Azərbaycan və internet" adlanan maraqlı bir araşdırma aparmışıq. Azərbaycanın dünya informasiya məkanına inteqrasiya olunması, Azərbaycan dilində internet resursları bizi maraqlandırıbdır. Bu araşdırmaların bəzi nəticələrini sizin diqqətinizə çatdırmaq istərdim. Bəzi mənbələrə görə, Azərbaycanda internetdən istifadə edənlərin sayı 300 min, digərlərinə görə isə 400-450 min nəfərə çatır. Yer kürəsində internet istifadəçilərinin sayı 1 milyarda çatır ki, bu da dünya əhalisinin 14 faizini təşkil edir. Məlumdur ki, Azərbaycanda internet poçt sistemi 1991-ci ildən fəaliyyət göstərir. İndi artıq Azərbaycanda internet resurslarının mövcudluğundan danışmaq mümkündür. Hazırda ölkəmizdə 3145 azərbaycandilli, 830 türkdilli, 1300 ingilisdilli, 1600 rusdilli sayt mövcuddur. Saytların məzmununu təhlil etsək, onların 150-si dövlət qurumlarına, nazirliklərə, siyasi partiyalara, ictimai təşkilatlara məxsusdur. Azərbaycanın rayonları barədə ümumi məlumatları əks etdirən cəmi 15 sayt mövcuddur. Qarabağ müharibəsinə, Xocalı soyqırımına, erməni vəhşiliklərinə həsr olunmuş 17 sayt mövcuddur. 26 sayt diasporla bağlı məsələləri əhatə edir.

Çox yaxşı haldır ki, dünyada gedən qloballaşmanın aparıcı qüvvələrindən biri olan informasiya və kommunikasiya texnologiyaları da Azərbaycanda öz yerini tutur. İnternet ölkəmizdə dinamik inkişaf edir.

Yeni texnologiyalarla məşğul olan təşkilatların sayı günbəgün artır. Bizdə indi kifayət qədər internet resursu var. Amma məsələni daha dərindən öyrənəndə bir sıra daha ciddi nöqsanlar üzə çıxır. Şəbəkənin abreviaturası ilə bağlı problemlər, yüksək səviyyəli axtarış sistemlərinin olmaması, saytların yeni informasiyalarla təmin edilməməsi, konkret bir problemə həsr olunmuş saytlarla yanaşı çox formal, müasir tələblərə cavab verməyən saytlar da vardır. Ölkəmizin beynəlxalq imicinə zərbə vuran, böhtan, yalan yayan, yanlış mövqeli, o cümlədən xalqımızın ən böyük





problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə Ermənistanın mövqeyini əks etdirən külli miqdarda müxtəlifdilli saytlar da mövcuddur. Məhz bütün bunlara görə biz "Azərbaycan" portalının yaradılmasını çox zəruri hesab etdik. Bunu vaxtında atılmış bir addım kimi qiymətləndiririk. Əminəm ki, ölkəmizin ən qədim tarixindən tutmuş bugünkü reallığına qədər bu portal çox problemlərin həllində mühüm rol oynayacaqdır.

Portal 3 dildə – Azərbaycan, ingilis və rus dillərində tərtib olunmuşdur. Yaxın gələcəkdə portalın alman, fransız, ərəb versiyalarının da hazırlanması nəzərdə tutulur. Mən portalın hazırlanmasında fəal iştirak edən bütün təşkilatlara, hər bir insana Heydər Əliyev Fondu adından dərin minnətdarlığımı bildirmək istəyirəm. İnanıram ki, "Azərbaycan" internet portalı çox qısa bir zamanda qiymətli və dəqiq informasiya mənbəyinə çevriləcəkdir.

Əziz qonaqlar, çıxışımın sonunda sizə işlərinizdə böyük uğurlar, həyatınızda çoxlu işıqlı və xoşbəxt günlər arzulayıram. İndi isə sizi "Azərbaycan" portalı haqqında filmə baxmağa dəvət edirəm.

Çox sağ olun.

***"Azərbaycan" qəzeti,***
***23 iyul 2005-ci il***

# AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN YUBİLEYİ PARİSDƏ YUNESKO-nun İQAMƏTGAHINDA QEYD EDİLMİŞDİR

Parisdə YUNESKO-nun iqamətgahında görkəmli Azərbaycan alimi akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Tədbirdə iştirak etmək üçün Parisə gəlmiş Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanı YUNESKO-nun iqamətgahında təşkilatın baş direktorunun xanımı Takaka Matsuura, baş direktorun müavini Valter Erdelen və digər rəsmi şəxslər qarşılamışlar.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə çıxış edərək demişdir:

– Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanın görkəmli alimi Yusif Məmmədəliyevin 100 illiyinə toplaşan bütün qonaqları ürəkdən salamlayıram. Bu yubiley bayramının təşkilində əməyi olan hər bir insana, xüsusilə YUNESKO-nun rəhbərliyinə və əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm.

Son zamanlar Azərbaycanla YUNESKO arasındakı münasibətlər çox parlaq şəkildə özünü büruzə verir. Bu, çox sevindirici haldır. Bu, keçirilmiş tədbirlərdə, bizim rəsmi və qeyri-rəsmi görüşlərimizdə, YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranın ölkəmizə səfərlərində, ən əsası, adi insanlarda bu quruma olan məhəbbətdə və diqqətdə əks olunur. Mən çox şadam ki, bu gün yubiley mərasimləri həm Azərbaycanda, həm də Fransanın paytaxtı Parisdə keçirilir.

Yusif Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-nun təqviminə salınması onun elmi fəaliyyətinə verilən yüksək qiymətdir. Bu insan həm şəxsiyyəti, həm də elmin və təhsilin inkişafı sahəsində gördüyü işləri ilə tarixdə və insanların qəlbində yaşayır. Biz indi deyə bilərik ki, görkəmli Azərbaycan alimi YUNESKO-nun ideyalarına xidmət etmişdir.

Yusif Məmmədəliyev sanki bir ömürdə bir neçə həyat yaşamışdır. İlk növbədə, bu, istedadlı alimin tədqiqatçı həyatıdır. O, Azərbaycanda Üzvi Kimya məktəbinin əsasını qoymuşdur. Onun adı neft elmi və neftə aid olan elmi sahələrlə sıx bağlıdır. Ölkəmizin ən böyük sərvətlərindən olan neft sanki bu insana öz sirlərini açmağa qərar vermiş, onun tükənməz enerji mənbəyinə çevrilmişdir. Biz Yusif Məmmədəliyevin hər hansı tədqiqatına nəzər salsaq, orada belə bir sözə rast gələrik: ilk dəfə. Ona görə də təsadüfi deyil ki, bütün dünya Yusif Məmmədəliyevi sanballı tədqiqatçı və novator kimi tanıyır.

Yusif Məmmədəliyevin həyatı mürəkkəb bir dövrə təsadüf etmişdir. İkinci Dünya müharibəsi zamanı o, elmi-tədqiqat işləri ilə bağlı fəaliyyətini davam etdirirdi. XX əsrin 40-cı illərində keçmiş Sovet İttifaqında hasil edilən neftin 70-80 faizi Azərbaycanın payına düşürdü. Ölkəmiz həm təbii ehtiyatları hesabına, həm də elmi potensialı ilə faşizm üzərində qələbənin qazanılmasında çox böyük rol oynamışdı.





Yusif Məmmədəliyev həm də böyük bir maarifçi həyatı yaşamışdır. Demək olar ki, görkəmli alim müəllimlik istedadına da malik idi. O, ilk dəfə dərs demək üçün sinfə daxil olanda cəmi 16 yaşı vardı. Azərbaycan Dövlət Universitetinin dosenti, kafedra müdiri, professoru və nəhayət, rektoru olarkən belə o, öyrənmək və öyrətməkdən çox böyük zövq alan bir insan idi. Alimin qoyub getdiyi irs təkcə onun kitablarında və elmi ixtiralarında yox, həm də bir çox gənclərin taleyindədir.

YUNESKO-nun yarandığı 1945-ci ildə Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının banilərindən biri kimi, onu təsis etmişdir. Qısa bir müddətdən sonra akademiyanın prezidenti seçilmiş və müasir tələblərə cavab verən elm ocağı yaratmışdır.

Bu insanın ömrü təzadlarla da dolu idi. Yusif Məmmədəliyev çox sülhsevər insan idi. Lakin onun yaratdığı maddələr inanılmaz gücə malik idi. O, çox təmkinli adam idi. Lakin onun ixtiraları maşınların, təyyarələrin sürətinin artmasına imkan vermişdir. O, olduqca açıqqəlbli bir insan idi. Lakin kifayət qədər bağlı cəmiyyətdə yaşayıb-yaradırdı.

Yusif Məmmədəliyevin ömrü çox qısa, lakin çox parlaq olmuşdur. O işlədikcə, yaratdıqca, qurduqca yenə də işləməyə, yaratmağa və qurmağa çalışırdı. Sanki harayasa tələsirdi. Kim bilir, bəlkə də qeyri-adi intuisiya ona xəbər verirdi ki, vaxt az, amma görülesi işlər çoxdur.

Bu gün Yusif Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-da keçirilməsinin çox böyük rəmzi mənası var. Bu insan bütün ömrünü elmə, təhsilə və mədəniyyətə həsr etmişdir. YUNESKO, əslində, bu gün öz sadiq əsgərlərindən birinin yubileyini qeyd edir. Məhz bu mənada, mən deyərdim ki, Yusif Məmmədəliyev xoşbəxt insan idi.

Əziz dostlar, çıxışımın sonunda mən sizi bu bayram münasibətilə bir daha təbrik edirəm. Azərbaycanla YUNESKO-nun əməkdaşlığına yeni uğurlar və böyük gələcək arzulayıram.

Çox sağ olun!

*"Azərbaycan" qəzeti,*
*15 sentyabr 2005-ci il*

# BƏDİİ GİMNASTİKA ÜZRƏ 27-ci DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

2005-ci ilin oktyabrın 3-də Bakıda Heydər Əliyev adına İdman-Konsert kompleksində bədii gimnastika üzrə 27-ci Dünya çempionatının təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa mərasimdə iştirak etmişlər.

Mərasimi Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva açaraq dedi:

– Möhtərəm Azərbaycan Respublikasının Prezidenti! Möhtərəm Latviya Respublikasının Prezidenti! Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bədii gimnastika üzrə 27-ci Dünya çempionatının açılış mərasiminə xoş gəlmisiniz! Paytaxtımıza dünyanın 47 ölkəsindən gələn qonaqları Azərbaycan torpağında salamlayıram. Mən bu sözləri böyük fərəh və sevinc hissi ilə söyləyirəm və əminəm ki, Azərbaycanın hər bir vətəndaşı həmin hissləri keçirir.

Bizim idman tariximiz olduqca zəngindir. İdmançılarımız bir sıra Beynəlxalq yarışlarda Azərbaycan bayrağını yüksəklərə qaldırıb, himnimizin səslənməsinə nail olublar. Biz bununla fəxr edirik.

Bu gün Azərbaycan idman tarixində yeni səhifə açılır – ilk dəfədir ki, Azərbaycanın paytaxtı Bakı şəhərində Olimpiya idman növü üzrə Dünya çempionatı keçirilir. Bu şərəf başqa idman növlərinə də nəsib ola bilərdi.

Ölkəmizdə son illər idmanın fantastik sürətlə inkişafı bunu deməyə əsas verir və mən inanıram ki, gələcəkdə belə də olacaqdır. Lakin dünya miqyaslı belə bir hadisə ilk dəfə məhz bədii gimnastikada baş verir.

Bədii gimnastika təkcə idman növü deyildir. Bədii gimnastika gözəllik, zəriflik, yüksək sənət rəmzidir. Biz bu çempionatın keçirilməsini arzulayırdıq və arzumuz həyata keçdi.

Son 10 ildə ölkəmizdə inşa olunan hər yeni idman salonu, tikilən hər yeni stadion, olimpiya idman kompleksi bizi bu şərəfli günə yaxınlaşdırırdı.

Mən bu gün çox böyük qürur hissi ilə deyirəm ki, belə bir çempionatın ölkəmizdə keçirilməsi Azərbaycan idmanına verilən yüksək qiymətdir.

Bədii gimnastika üzrə 27-ci Dünya çempionatının ölkəmizdə keçirilməsi bir çox insanın əməyinin bəhrəsidir. Bu, ilk növbədə, Beynəlxalq Gimnastika Federasiyasının rəhbərliyinin qəbul etdiyi qərarın nəticəsidir. Bu, Azərbaycan Gimnastika Federasiyasının uğurlu fəaliyyətinin nəticəsidir. Çempionatın Təşkilat komitəsi üzvlərinin zəhmətidir. Mən bütün bu insanlara təşəkkürümü bildirirəm.

Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə xüsusi minnətdarlığımı





bildirirəm. Ölkə Prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti kimi onun gördüyü işlər göz qabağındadır. Sözsüz ki, biz hamımız ona minnətdarıq. Gimnastika Federasiyasının rəhbəri və ölkə Prezidentinin xanımı kimi mən xüsusi vurğulamaq istəyirəm ki, onun qayğısı, yardımı, onun diqqəti olmasaydı, yəqin ki belə bir çempionatın keçirilməsi yalnız arzu olaraq qalardı. Çox sağ olun, cənab Prezident!

İdman sağlamlıq rəmzidir, idman gözəllik rəmzidir, idman milli qürur və milli həmrəylik rəmzidir. Bir daha Sizi bu möhtəşəm bayram münasibətilə təbrik edirəm, Azərbaycana gəlmiş qonaqları salamlayıram, idmançılara qələbə sevinci arzulayıram. Sağ olun.

Sonra Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandiyə söz verildi.

Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandi çıxış edərək demişdir:

– Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev!

Azərbaycan Gimnastika Federasiyasının prezidenti hörmətli Mehriban xanım Əliyeva!

Azərbaycan Respublikasının hörmətli dövlət nümayəndələri! Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Burada yenidən görüşmək bizim üçün çox sevindiricidir. Bu Dünya çempionatında həyatımızın çətin məqamlarını, gündəlik problemlərimizi bir az da olsa unudub, maraqlı və mənalı anlar yaşamaq üçün Bakıda, Azərbaycanda – gözəl ənənələrin yaşadığı və gələcəyə qəti addımlarla irəliləyən bir ölkədə qonaq olmaq üçün gözəl fürsətdir.

Təsəvvürünüzə belə gətirə bilməzsiniz ki, Bakıdakı Təşkilat komitəsi bütün dövlət orqanlarının, könüllülərin və sponsorların dəstəyi ilə Dünya çempionatını texniki göstəricilər və yaradıcılıq baxımından əsl sənət əsərinə çevirmək üçün nə qədər qayğı, peşəkarlıq və canfəşanlıq göstərmişdir. Məhz buna görə də onlara dərin minnətdarlığımızı bildiririk.

Əziz gimnastlar! Bu həm də sizin üçün çətin idman mübarizəsində öz qüvvənizi sınamaq üçün əlverişli imkandır. Bütün bunlarla yanaşı, gəlin, idman etikasını və ədalət prinsiplərini də unutmayaq.

Sonra andiçmə mərasimi oldu. Hakimlər adından Beynəlxalq Gimnastika Federasiyasının hakimi İzabel Dekonsiyo, gimnastlar adından Azərbaycan təmsilçisi Vəfa Hüseynova and içdilər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandi 27-ci Dünya çempionatını açıq elan etdi.

***«Azərbaycan» qəzeti,***
***4 oktyabr 2005-ci il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVAYA "YAQUT XAÇ" ORDENİ TƏQDİM EDİLMİŞDİR

2005-ci ilin oktyabrın 13-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeninin təqdim edilməsi mərasimi olmuşdur.

Mərasimi Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullayev açaraq dedi ki, bu gün respublikanın həyatında əlamətdar hadisədir – YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni təqdim olunur. Biz onu ürəkdən təbrik edirik.

Mehriban xanımın xeyriyyəçilik fəaliyyətindən bəhs edən natiq bildirdi ki, bu fəaliyyətin xüsusi bir cəhəti var və onu bir kəlmə ilə nəciblik adlandırmaq olar. Onun gördüyü bütün işlər, ölkəmizin müxtəlif guşələrində ayrı-ayrı adamlarla keçirdiyi görüşlər məhz bu sözlə ifadə edilir. Bütün bu işləri Mehriban xanım təbiətdən ona xas olan çox böyük nəcibliklə görür.





Düşünürəm ki, bu da təsadüfi deyildir, çünki onun dahi azərbaycanlı, unudulmaz Prezidentimiz Heydər Əlirza oğlu Əliyevin yanında necə böyük, məzmunlu, kamil, gözəlliyinə görə möcüzəli bir məktəb keçdiyini hamımız bilirik. Bu həyat məktəbi Mehriban xanıma indi də kömək edir.

Bu gün bütün dünyada xeyriyyəçiliklə çoxları məşğul olur. Lakin ziyallılarımızın, cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri Mehriban xanım Əliyevanın nəinki bu gün gördüyü işlərə, həm də bu işləri necə gördüyünə heyrandırlar. Bu mənəvi ülviliyin ikitərəfli əlaqəsi var. Zənnimcə, Mehriban xanımın özü də mənən ucalır və çalışır ki, diqqət və qayğının yönəldildiyi və bu fəaliyyətin, missiyanın ünvanlandığı insanlar da mənən zənginləşsin, ucalsınlar. Mehriban xanım Əliyevanın bu gün Azərbaycanda fəaliyyətini fərqləndirən böyük mənəvi qovuşma baş verir. Bu təkcə Azərbaycanda deyil, onun olduğu hər bir yerdə də müşahidə olunur.

Mən XX əsrin görkəmli Amerika yazıçısı O`Henrinin gözəl sözlərini xatırlayıram. O demişdir: "Biz o insanlara minnətdar olmalıyıq ki, onlara kömək göstərməyimizə imkan verirlər". Məhz belə münasibət – təkcə nə isə verən tərəfin deyil, həm də onu qəbul edən tərəfin bu prosesin subyekti olduğu münasibət, belə qarşılıqlı mənəvi zənginləşmə Mehriban xanımın həmin istiqamətdə fəaliyyətini səciyyələndirir.

Daha sonra natiq Azərbaycan ziyallıları adından, yaradıcı ziyallıların nümayəndələri adından Mehriban Əliyevaya şəxsi xoşbəxtlik, millətin rifahı naminə çoxşaxəli fəaliyyətində, xeyriyyəçilik işində böyük uğurlar arzuladı.

Sonra Milli Məclisin deputatı, Azərbaycanın rus icmasının sədri Mixail Zabelin çıxış edərək Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səmərəli xeyriyyəçilik fəaliyyətindən danışdı, bunun Azərbaycan xalqı tərəfindən dəstəkləndiyini bildirdi. O, Fondun prezidentinin xeyriyyəçiliyini Rus icmasının da öz üzərində hiss etdiyinə dair misal çəkdi: İcmanın nəzdində fəaliyyət göstərən uşaq düşərgəsinə Mehriban xanımın adından televizor, müxtəlif hədiyyələr verilmişdir. Bunları mərasimi əsl bayrama çevirən onun qızı Leyla təqdim etmişdir. Özü də bu, tamamilə gözlənilməz olmuşdur, çünki Fonda heç bir müraciət edilməmişdi. Bütün bunlar həssas və kövrək uşaq qəlbində öz əksini tapmışdır.

Mixail Zabelin uşaq evlərinin tikintisi və abadlaşdırılması, mədəniyyət sahəsində böyük humanist missiyaya görə Fondun prezidentinə təşəkkür etdi. Bildirdi ki, Azərbaycanın Rus icması, digər ictimai təşkilatlar Heydər Əliyev Fondu prezidentinin məhz xeyriyyəçilik xidmətlərini yüksək qiymətləndirərək, Rusiyanın Bakıdakı səfirliyinin dəstəyi ilə Mehriban xanım Əliyevanı "Yaqut xaç" ordeninə təqdim etmişlər.

"Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondu idarə heyətinin üzvü, Rusiyanın əməkdar artisti Angelina Vovk çıxışında vurğuladı ki, humanizm və başqasının dərdinə şərik olmaq bütün dövrlərdə insan cəmiyyətində üstünlük verilən əbədi dəyərlərdir. Zəmanəmizin böyük şəxsiyyəti Heydər Əliyev öz ölkəsinə, insanlara, xeyirxahlıq və haqq-ədalət amallarına xidmət etməklə belə təmənnasız, fədakar həyat nümunəsi göstərmişdir.

A.Vovk Heydər Əliyevin qızı Sevil Əliyevanın yenicə oxuduğu müsahibəsi barədə təəssüratını bölüşərək dedi ki, Sevil xanım bu gözəl insanın həyatının bir çox səhifələrini açmışdır.

Angelina Vovk Rusiya Prezidentinin İşlər İdarəsinin, Federasiya Şurasının, Dövlət Dumasının, Moskva hökumətinin və bir sıra başqa rəsmi orqanların dəstəyi ilə yaradılan "Yüzilliyin mesenatı" Beynəlxalq Xeyriyyə Fondunun məqsəd və vəzifələrindən danışaraq bildirdi ki, digər görkəmli müasirlərin adları ilə birlikdə Mehriban Əliyevanın adı da bütün zəmanələrin ən böyük xeyriyyəçiləri və mesenantlarının siyahısına qızıl hərflərlə yazılacaqdır. Xüsusi memorialın təməlinin qoyulması mərasimi 2005-ci ilin oktyabrın 15-də Moskvada olacaqdır.

Angelina Vovk dedi ki, Mehriban Əliyeva özünün təşkilatçılıq məharəti sayəsində bir sıra humanitar proqramlar – Azərbaycanı beynəlxalq aləmdə sülhə, yaradıcı inkişafa və digər ölkələrlə əməkdaşlığa çalışan dövlət kimi tanıdan proqramlar həyata keçirir. Onun misilsiz fəaliyyəti Azərbaycan xalqının çox zəngin mədəni ənənələrinin qorunub saxlanılmasına, əhalinin sosial cəhətdən ən zəif təbəqələrinin – qaçqınların, məcburi köçkünlərin, aztəminatlı ailələrdən olan uşaqların, yetimlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdir. Onun başçılıq etdiyi və Azərbaycan xalqının əfsanəvi ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fond bir çox sosial əhəmiyyətli layihələr həyata keçirir. Onların arasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat uğrunda" proqramı xüsusi qeyd edilmişdir.

Bildirildi ki, Mehriban Əliyeva "Yaqut xaç" ordeni ilə təltif olunanlar arasında yeganə qadındır.

Rus Soydaşlar Beynəlxalq Şurasının idarə heyətinin sədri, "Yüzilliyin mesenatı" Beynəlxalq Fondunun idarə heyətinin üzvü qraf Pyotr Şeremetyev "Yaqut xaç" ordenini Heydər Əliyev Fondunun prezidentinə təqdim edərək bildirdi ki, Mehriban Əliyevanın fəaliyyəti yüksək insani özünüdərkə, alicənablığa, niyyətlərin paklığına nümunədir. O əmin olduğunu söylədi ki, Mehriban Əliyevanın səyləri Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edəcəkdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, ilk növbədə, fəaliyyətimə belə yüksək qiymət verdiyinə görə "Yüzilliyin mesenatı" Fonduna, hörmətli Pyotr Pyotroviç, şəxsən Sizə, Angelina Mixaylovna, Sizə çox böyük təşəkkür və minnətdarlıq hisslərimi ifadə edim. Burada mənim ünvanıma söylədiyiniz sözlərə görə sağ olun. Mən bundan çox təsirləndim.

Mən Fondumuzun fəaliyyətindən bir qədər danışmaq istərdim. Angelina Mixaylovna onun haqqında çox yaxşı və müfəssəl danışdı. Buna baxmayaraq, bir neçə kəlmə demək istərdim.





Fondumuz nisbətən yaxınlarda, bir ildən bir qədər əvvəl fəaliyyətə başlamışdır. Bu müddət ərzində, – mən bunu iftixarla deyirəm, – biz ölkəmizdə çox nüfuzlu və çox hörmətli təşkilat ola bildik. Yəqin burada xeyriyyəçilik fəaliyyətimizin çox böyük rolu var.

Biz işimizə yenicə başlayanda bildirdik ki, ölkəmizdə ictimai-siyasi həyatın bütün sahələrində Fondun iştirak etdiyi qlobal, genişmiqyaslı, uzunmüddətli layihələr ilə yanaşı, cəmiyyətimizin ən aztəminatlı təbəqələri olan insanlara, valideynlərindən məhrum uşaqlara, qaçqın və məcburi köçkünlərə, yoxsulluq həddindən aşağı səviyyədə yaşayan adamlara, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara çox böyük diqqət yetirəcəyik.

Budur, indi, aradan bir ildən bir az vaxt keçəndən sonra iftixarla deyə bilərəm ki, məhz həmin istiqamətdə görülmüş bütün işlər öz nəticələrini, öz real bəhrələrini verir. Məktəblərə gedəndə özümü çox xoşbəxt hiss edirəm. Mən demişəm ki, Azərbaycandakı hər bir internat məktəbinə, hər bir uşaq evinə şəxsən özüm gələcəyəm. Bu günədək biz 40 uşaq evində olmuşuq. İnanın ki, indi onların təxminən 30-u, demək olar, təzələnmiş, yenidən tikilmişdir, yəni biz real şərait yaratmışıq, bu uşaqların yaşayışı və təhsili üçün şəraiti yaxşılaşdırmışıq. Bununla yanaşı, uşaqlar hiss etmişlər ki, unudulmayıblar, onlarla maraqlanırlar, onlar cəmiyyətimizə gərəkdirlər. Bir növ zəncirvari reaksiya getmişdir, onlarla maraqlanmağa, onlara baş çəkməyə, diqqət yetirməyə başlamışlar. Bu isə onları isti yaşayış yeri ilə təmin etməkdən və onlara təhsil verməkdən heç də az vacib deyildir.

Bu ilin mayında Fondun təşəbbüsü ilə irəli sürülmüş "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı respublikada çox böyük əks-səda doğurdu. Respublika ərazisindəki bütün məktəblərin monitorinqini keçirdik və öyrəndik ki, elə məktəblər var, burada nəinki oxumaq, hətta həmin binalara daxil olmaq mümkün deyildir. İnanmaq çətin olsa da, 4 ayda 90 yeni məktəb tikilib istismara verildi, daha 40 məktəb isə bu ilin sonunadək hazır olacaqdır.

Mədəniyyət, səhiyyə sahəsində bir sıra iri layihələr, məsələn, diabetdən əziyyət çəkən uşaqlara yardım layihəsi var. Biz digər ictimai təşkilatlarla birlikdə ona nail olduq ki, indi respublikada bu xəstəliklərə tutulmuş uşaqların hamısı lazımi dava-dərman alır. Genetik cəhətdən keçici xəstəlik olan talassemiya Azərbaycanda böyük problemdir. Aralıq dənizi bölgəsinin bir sıra ölkələrində bu xəstəliyin, demək olar, öhdəsindən gəlmiş, ona son qoymuşlar. Odur ki, biz bu ölkələrin müsbət təcrübəsindən bəhrələnərək, beynəlxalq dərəcəli ekspertlər cəlb edərək, Azərbaycanda talassemiyanın ləğv olunmasına dair proqram hazırlamışıq. Bu ilin oktyabrında biz ixtisaslaşdırılmış Talassemiya Mərkəzinin tikintisinə başlayacağıq. Qan xəstəliyindən əziyyət çəkən hər bir uşaq burada ən səmərəli tibbi yardım ala biləcəkdir. Mədəniyyət sahəsində fəaliyyətimizi elə qurmağa çalışırıq ki, dövrlərin və nəsillərin varisliyi saxlanılsın. Çünki bunsuz nə yüksək mədəniyyət, nə incəsənət, nə də milli ruhun formalaşması mümkündür. Həyata keçirdiyimiz bütün layihələrin ümummədəni əhəmiyyəti var. Burada mən yaxın gələcəkdə həyata keçiriləcək "Üzeyir Hacıbəyov" layihəsindən danışmaq istərdim. Layihə Azərbaycanın bu musiqi dühasının, əslində, bütün irsini əks etdirir.

Digər layihə – "Qalina Vişnevskaya və Mstislav Rostropoviç" layihəsi ilə də fəxr edirik. O artıq həyata keçirilib və layihə qəhrəmanlarının özləri musiqi ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilmişdir.

2006-cı ilin fevralında biz ölkəmizin paytaxtında – Bakıda böyük musiqiçi Dmitri Şostakoviçin 100 illiyinə həsr edilmiş festival keçirməyi planlaşdırırıq. Bizim çox böyük planlarımız, çox böyük layihələrimiz var. Dediyim kimi, qlobal layihələrimiz var. Lakin bununla yanaşı, iftixarla deyirəm ki, biz Fondumuza müraciət edən hər bir insanı heç vaxt unutmamağa çalışırıq. Biz minlərlə məktub alırıq. İndi mən ayrı-ayrı hallardan, konkret köməkdən danışmaq istəmirəm. Təkcə onu deyim ki, belə insanlar yüzlərlə deyil, minlərlədir. Mühüm vəzifələrin həlli ilə yanaşı, xəbər tutduqda və hay vermək mümkün olduqda belə adamlara yardım göstərməyi Fondumuzun ən böyük xidmətlərindən biri hesab edirəm.

Hörmətli qonaqlar! Mən Fondun fəaliyyətindən çox danışa bilərəm, lakin diqqətinizdən və vaxtınızdan sui-istifadə etmək istəmirəm. İndi biz elə bir dünyada yaşayırıq ki, ətrafda diqqət yetirilməsi və düzgün dərk olunması tələb edilən problem və məsələlər lap çoxdur. Biz bugünkü gündən danışdıqda "qloballaşma", "inteqrasiya", "elmi-texniki tərəqqi", "yüksək texnologiyalar" kimi sözləri daha tez-tez eşidirik və, siz mənimlə razılaşarsınız ki, bu sözlər həqiqi insanpərvərlik, mərhəmət, xeyirxahlıq, mənəviyyat kimi anlayışlardan daha tez-tez səslənir. Biz bu ümumbəşəri və əbədi dəyərləri ikinci sıraya keçirmirikmi? Xeyriyyəçilik missiyası bu gün həmişəkindən daha vacibdir. Vaxt vardı, Azərbaycanda xeyriyyəçilik ümummilli ideya, ümummilli miqyaslı iş idi. Bu gün mən iftixarla deyə bilərəm ki, siz bu ənənənin dirçəlməsinin şahidisiniz. Bizim təcrübəmiz, Fondumuzun təcrübəsi göstərdi ki, ölkəmizdə çağırışa hay verməyə, təmənnasız yardım göstərməyə, kömək əli uzatmağa hazır olan insanlar çoxdur. Yaxşılıq yaxşılıq doğurur, yəqin ki bu, Fondumuzun, fəaliyyətimizin əsas xidmətidir.

Fəaliyyətimiz haqqında dediyiniz sözlərə görə çox-çox sağ olun. Mükafat almaq həmişə xoşdur. Lakin hər bir mükafat həm də onu dərk etmək deməkdir ki, sən cavabdeh olduğun işə daha məsuliyyətlə yanaşa bilərsən və yanaşmalısan. Əminəm ki, sizin təşkilatınız öz nominantlarını mükafatlandırdıqda onların nəinki keçmiş xidmətlərini nəzərə alır, həm də ümid edir ki, bu xeyirxah işlər gələcəkdə də davam etdiriləcəkdir.

Hamını əmin etmək istəyirəm ki, biz nail olduğumuz uğurlarla kifayətlənməyəcəyik. Bizim böyük planlarımız var. Fondun fəaliyyətini, ilk növbədə, xeyriyyəçilik fəaliyyətini genişləndirəcəyik.

Sonda demək istəyirəm ki, dünyanı, hər halda, xeyirxahlıq xilas edəcəkdir.

***"Azərbaycan" qəzeti,***
***14 oktyabr 2005-ci il***








## HEYDƏR ƏLİYEV FONDU QARABAĞ HƏQİQƏTLƏRİNİN DÜNYAYA YAYILMASINA ÖZ TÖHFƏSİNİ VERİR

2006-cı ilin yanvarın 24-də Heydər Əliyev Fondunda "Qarabağ həqiqətləri" bukletlər toplusunun təqdimat mərasimi keçirilmişdir. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimi açaraq dedi:

– Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, sizi Heydər Əliyev Fondunda salamlayır və əsl qış havasına baxmayaraq, bugünkü mərasimdə bizimlə birlikdə olduğunuza görə minnətdarlığımızı bildirirəm.

Heydər Əliyev Fondu artıq bir ildən çoxdur ki, fəaliyyət göstərir. Bu gün mən çox böyük qürur hissi ilə demək istərdim ki, Fond həm ölkəmizin ictimai həyatının fəal iştirakçısıdır, həm də cəmiyyətimizdə böyük əks-sədaya və hörmətə malik olan bir təşkilatdır. Qısa zamanda belə yüksək nüfuz qazanmağın səbəbi Fond tərəfindən hazırlanıb həyata keçirilən müxtəlif proqramlar və layihələr, görülən konkret işlər və əldə edilən nəticələrdir. Təhsil, səhiyyə, sosial

problemlər, idman və gənclərin problemləri, mədəni irsin qorunması – bütün bu sahələrdə Fond konkret layihələr həyata keçirmiş və uğurlu nəticələr əldə etmişdir.

Yaradılan ilk gündən bəyan etmişik ki, Heydər Əliyev Fondu Azərbaycanın firavan gələcəyi naminə, Azərbaycan xalqının bu günü və xoşbəxt sabahı naminə fəaliyyət göstərir. Biz çalışırıq ki, cəmiyyətimizin ən aktual, ən vacib problemlərini, suallarını diqqət mərkəzində saxlayaq və bunların həlli yolunda əlimizdən gələni əsirgəməyək.

Bu gün Azərbaycanın ən böyük, ən ağrılı problemi Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ölkəmizin qarşısında duran ən mühüm məsələ budur. Min il öncə olduğu kimi, bu gün də hər bir millətin qarşılaşa biləcəyi ən böyük haqsızlıq, ən böyük faciə təcavüz və torpağının işğalıdır. Azərbaycan xalqı artıq 17 ildir ki, belə bir haqsızlıqla üzləşmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. 20 mindən artıq insan həlak olmuş, 50 mindən çox adam yaralanmış və əlil olmuşdur. 1 milyondan artıq insan 10 ildən çoxdur ki, öz doğma torpağından didərgin düşərək qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycanlılar ermənilər tərəfindən soyqırıma və etnik təmizləmə siyasətinə məruz qalmışlar. Bir milyondan çox soydaşımızın insan hüquqları tapdanmışdır. Bütün bəşəriyyətə qarşı tarixi bir cinayət olan Xocalı soyqırımı Azərbaycanın XX əsr tarixinin ən ağır faciəsidir.

Bütün bu reallıqlar, bütün bu həqiqətlər bizim ən ağır problemimizdir və biz artıq bu reallıqlarla, bu həqiqətlərlə XXI əsrə qədəm qoymuşuq.

Bütün bu həqiqətləri, bütün bu hadisələri, faktları, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəb və nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaq, informasiya blokadasını yarmaq, on illərdir erməni diasporu tərəfindən yayılan yalan və uydurmaların qarşısını almaq Heydər Əliyev siyasətinin ayrılmaz bir hissəsi idi. Heydər Əliyev hər bir xarici səfərinə Azərbaycanın xəritəsini də aparardı və orada keçirilən görüşlər zamanı rastlaşdığı insanlara bütün əsl həqiqətləri, faktları çatdırırdı və bunu hər bir azərbaycanlıya tövsiyə etmişdir.

Bu gün də həmin siyasət davam etdirilir. Keçən il Milli Elmlər Akademiyasının 60 illik yubileyinə həsr edilmiş toplantıda Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışında demişdir ki, Qarabağ mövzusunda çoxsaylı elmi işlər yaradılmalıdır, kitablar yazılmalıdır, müxtəlif dillərə tərcümə edilib dünyaya yayılmalıdır. Biz, Heydər Əliyev Fondu da ulu öndərimizin ideyalarına sadiq qalaraq bu işi davam etdirməyi özümüzə mənəvi borc sayırıq. Bu gün təqdim olunan layihə – "Qarabağ həqiqətləri" silsiləsi bu istiqamətdə bir addımdır.

İdeoloji iş ardıcıl, intensiv və zamanın tələblərinə cavab verən fəaliyyət tələb edir. Müasir dünyada böyük həcmli kitablara marağın azaldığını nəzərə alaraq biz daha qısa bir formata üstünlük verdik və bizim bu toplumuz beş bukletdən ibarətdir. Bunlarda Qarabağın tarixi, Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə vurulan ziyan, Xocalı soyqırımı və ermənilərin törətdiyi terror aktları haqqında çox dəqiq məlumat toplanmışdır. Bu, beynəlxalq aləmə ünvanlanan bir nəşrdir və ona görə ingilis,





fransız, alman, ərəb və rus dillərində çap olunacaqdır. Bukletləri əlinə alan hər bir kəs çox az bir vaxt sərf edərək ədalətli və düzgün faktlara əsaslanan məlumat əldə edə biləcəkdir.

Heydər Əliyev Fondu tərəfindən yaradılan işçi qrupu hazırda silsilənin ikinci hissəsi üzərində çalışır. Burada daha çox Qarabağın Qafqaz Albaniyası dövləti dövründən Azərbaycanın sovet dövrünə qədər olan tarixi faktlar əksini tapacaqdır. Mən inanıram ki, "Qarabağ həqiqətləri" silsiləsi Azərbaycanın haqq sözünü bütün dünya ictimaiyyətinə çatdırmaqda mühüm və vacib bir addım olacaqdır.

Sonda mən bu layihə üzərində çalışan hər insana minnətdarlığımı bildirirəm. Diqqətinizə görə çox sağ olun.

Sonra ekranda "Qarabağ həqiqətləri" toplusunun elektron variantı nümayiş etdirildi.

Mərasimdə iştirak edən xarici ölkələrin, beynəlxalq təşkilatların nümayəndələrinə, tanınmış elm və mədəniyyət xadimlərinə, Milli Məclisin deputatlarına toplunun nüsxələri paylandı.

***"Azərbaycan" qəzeti,***
***25 yanvar 2006-cı il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVAYA "2005-ci İLİN ADAMI" MÜKAFATI TƏQDİM OLUNMUŞDUR

Milli Qəhrəman Çingiz Mustafayev Fondu, ANS Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, geniş-miqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı "2005-ci ilin adamı" elan etmişdir. 2006-cı ilin yanvarın 31-də "Park İnn" hotelinin böyük mərasim salonunda mükafatın təqdim edilməsi mərasimi olmuşdur. Tədbirdə Mehriban xanım Əliyeva çıxış edərək dedi:

– Hörmətli xanımlar və cənablar!

İlk növbədə, Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupuna fəaliyyətimi





yüksək qiymətləndirib məni "İlin adamı" elan etdiklərinə görə öz dərin minnətdarlığımı bildirirəm.

2005-ci il Azərbaycanın tarixində və insanların yaddaşında bir sıra mühüm və həlledici hadisələrlə yadda qalacaqdır: Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi, parlament seçkiləri, ölkəmizin iqtisadiyyatında misli görünməyən nailiyyətlər, ölkəmizdə olimpiya idman növü olan bədii gimnastika üzrə ilk dəfə dünya çempionatının keçirilməsi. Yəqin ki, bu siyahını davam etdirmək olar və belə bir gərgin hadisələrlə dolu ilə yekun vurularkən "İlin adamı" elan edilməyim, əlbəttə, mənim üçün bir tərəfdən çox böyük şərəf, digər tərəfdən isə çox böyük məsuliyyətdir.

Təbiidir ki, mən öz işlərimi qurub-planlaşdıranda heç bir mükafat barədə düşünmürdüm. Mən, sadəcə, öz səylərimi, qüvvəmi qarşıya qoyduğum bir sıra məsələlərə yönəltmişdim. Mən hər hansı bir fəaliyyətimə başlayarkən məsuliyyətimi hiss edirdim.

Hesab edirəm ki, işin vacibliyi və xarakterindən asılı olmayaraq, əsl məsuliyyət insanın özü qarşısında, özünə verdiyi vədləri qarşısında olan məsuliyyətdir. Bir daxili tələb olaraq mən hər addımımda bu məsuliyyəti hiss edirəm. Digər tərəfdən, bu sizlərin, cəmiyyətin, millətin qarşısında olan məsuliyyətdir və onun böyüklüyü inkaredilməzdir. Bu sırada mənə ünvanlanan məktubların, göstərilən etimadların sayı nə qədər çox idisə, məni bu işləri bir o qədər çox davam etdirməyə çağırır, bunların mənə arxa olduğunu və qüvvə verdiyini duyurdum.

Bu gün mən ANS Şirkətlər Qrupu və Milli Qəhrəman Çingiz Mustafayevin adını daşıyan Fondla yanaşı, mənə inanan, etimad göstərən, məni dəstəkləyən hər bir insana öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hesab edirəm ki, bu mükafat Heydər Əliyevin adını daşıyan və onun siyasətini davam etdirən Fondun fəaliyyətinə verilən yüksək qiymətdir.

Fond yaradılan ilk gündən qarşısına çox böyük və mühüm məqsədlər qoymuşdur. Biz arzu edirdik ki, cəmiyyətimizdə adımıza layiqli bir yer tutaq və Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik fəlsəfəsini davam etdirməyə qadir olaq. Bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, hər bir insanı, hər bir təşkilatı, hər bir qurumu təmtəraqlı sözlər yox, tərif və parlaq epitetlər yox, gördüyü işlər və əldə edilən nəticələr xarakterizə etməlidir. "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəbləri və uşaq evlərinin inkişafı" proqramları, "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız yaşam" layihələri, "Qarabağ xanəndələri" və "Qarabağ həqiqətləri" albomları – bütün bunlar Heydər Əliyev Fondunun 2005-ci ildəki fəaliyyətinin yalnız bir qismidir. Məhz bu əməllərə görə Heydər Əliyev Fondu bu gün cəmiyyətdə böyük nüfuza malikdir və böyük dəstəyə, hörmətə malik olan bir qurumdur.

2005-ci ilin ən parlaq aksiyalarından biri "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin gerçəkləşməsi oldu. Bu layihənin hazırlanması dövründə ölkəmizdəki bütün kənd məktəbləri təhlil edildi və ən yararsız vəziyyətdə olanların siyahısı tutuldu. İkinci mərhələdə, çox qısa bir zamanda 132 məktəb inşa olunub istifadəyə verildi. Azərbaycanın tarixində heç vaxt belə bir qısa zamanda bu qədər məktəb tikilməyibdir. Misal üçün demək istərdim ki, sovet dövrünün

rekordu 110 məktəb olub və həmin məktəblərin əksəriyyəti şəhərlərdə tikilibdir. Bizim layihə isə kənd məktəblərinin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir.

Biz 2005-ci ildə bu layihə çərçivəsində 22 min şagird yeri yaratmağa nail olduq və mən inanıram ki, bu il də layihəmiz davam etdiriləcəkdir.

Fürsətdən istifadə edərək, Heydər Əliyev Fondunun təşəbbüsünə cavab verən hər bir quruma, təşkilata, yerli və xarici şirkətlərə, sahibkarlara, iş adamlarına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Fondun daim diqqət mərkəzində olən layihələr ölkəmizdə mövcud olan internat məktəbləri və uşaq evlərinin fəaliyyəti ilə bağlıdır. Bu müəssisələrin maddi-texniki bazalarının yenidən qurulması ilə yanaşı, biz çalışırıq kimsəsiz uşaqlara mənəvi dayaq olaq, onlar üçün bir növ ailə mühiti yaradaq. Artıq mən deyə bilərəm ki, bütün bu uşaqlar bizim üçün əziz və doğma olublar, biz mütəmadi olaraq onlarla görüşürük və bu gün mən bütün cəmiyyətimizi bu problemə diqqət yetirməyə çağırıram.

Mədəni irsimizin qorunması, zəngin tariximizi və ənənələrimizi, gözəl musiqimizi və ədəbiyyatımızı qoruyub saxlamaq və gələcək nəsillərə, bütün dünyaya çatdırmaq Heydər Əliyev Fondunun mənəvi borcudur. Keçən il işıq üzü görən "Qarabağ xanəndələri" albomu cəmiyyətimizdə çox böyük diqqət və maraqla qarşılanmışdır. Yaxın gələcəkdə muğam sənətinə həsr olunmuş bir sıra yeni kitablar da işıq üzü görəcəkdir. Gələcəkdə bu istiqamətdə olan fəaliyyətimizi genişləndirməyə çalışacağıq.

Səhiyyə ilə bağlı olan layihələri xüsusi vurğulamaq istərdim: diabet xəstəliyinə tutulmuş uşaqlara kömək, talassemiya və başqa irsi xəstəliklərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlər. Bizim ünvanımıza yüzlərlə məktub gəlir və müxtəlif xəstəliklərdən əzab çəkən insanlar bizdən kömək istəyir və biz də çalışırıq ki, bu köməyi daim onlara göstərək.

2005-ci ilin ən uğurlu layihələrindən biri "Azərbaycan portalı"nın yaranmasıdır. Üç dildə olan bu portal dünya ictimaiyyəti üçün ölkəmiz barədə ətraflı, dolğun və ədalətli bir məlumat mənbəyinə çevrilibdir.

Bir sözlə, 2005-ci ildə Heydər Əliyev Fondunun fəaliyyəti çox zəngindir və bütün layihələr, proqramlar barədə çox söz demək olar. Bir neçə gün bundan əvvəl biz ilə yekun vurduq, hesabatı ictimaiyyətə təqdim etdik. Fondun fəaliyyətinin bütün istiqamətlərinin hamısını açıqlamağa çalışdıq. Ona görə bu gün mən yalnız layihələrimizin, proqramlarımızın yalnız bir qismi haqqında bir neçə söz dedim.

Heydər Əliyev Fondu hər bir təşkilatla, hər bir qurumla və hər bir vətəndaşla əməkdaşlığa daim açıq olan qurumdur və mən inanıram ki, biz birlikdə ölkəmizin inkişafı və xalqımızın gələcəyi naminə hələ çox-çox böyük işlər görəcəyik.

Əziz dostlar, bu gün biz müasir texnika, yüksək texnologiya və qloballaşma dövründə yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da,





gerçək həyatda biganəlik artır, insanların arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu-qonşunu eşitmir, qardaş-qardaşa kömək əlini uzatmaq istəmir. Bu gün bütün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi ideallların ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir. Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda o, üzünü bizim Fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun probleminin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və bu gün biz Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq.

Hər bir insanın, yəqin ki, öz yaşam fəlsəfəsi var. Hökm deyil ki, bu fəlsəfəni sözlərlə izah etsin. Onun hərəkətlərində, əməllərində istər-istəməz özünü büruzə verəcəkdir. Bizim Fondumuzun da belə bir fəlsəfəsi var. Bu fəlsəfənin əsasında çox sadə bir ideya, əməl durur: insanlara yaxşılıq etmək. Hər bir insan nəinki çətin anlarında, həm də gündəlik həyatında özünə qarşı xoş münasibəti hiss etsə, bu, onun ömrünü başqa bir məna ilə doldurmağa qadirdir. Mən inanıram ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

Sonda bir arzumu da diqqətinizə çatdırmaq istərdim. Bildiyiniz kimi, Heydər Əliyevin təşəbbüsü ilə yaranan Silahlı Güvvələrə Yardım Fondu ictimaiyyətin dəstəyi ilə fəaliyyət göstərir. ANS teleradio şirkəti millətçiliyə, vətənpərvərliyə, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü mövzusuna hər zaman böyük diqqətlə yanaşır və bu, təqdirəlayiq bir faktdır. Mən istərdim ki, bu gün mənə verilən pul mükafatını məhz həmin Fondun hesabına keçirim.

Bir daha ANS Şirkətlər Qrupuna və Milli Qəhrəman Çingiz Mustafayev Fonduna öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Arzu edirəm ki, 2006-cı il sizlər üçün, bütün ölkəmiz üçün daha uğurlu, daha işıqlı və bütün arzularınızın gerçəkləşdiyi il olsun. Çox sağ olun.

*"Azərbaycan" qəzeti,*
*1 fevral 2006-cı il*




## PARİSDƏ YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRLƏRİNİN YIĞINCAĞI KEÇİRİLMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva xoşməramlı səfirlərinin illik yığıncağında iştirak etmək üçün Parisə gəlmişdir.

2006-cı ilin martın 15-də YUNESKO-nun iqamətgahında xoşməramlı səfirlərin illik yığıncağı keçirildi. Mehriban Əliyevanı YUNESKO-nun protokol rəhbəri Jan Lui Şan və xoşməramlı səfirlər proqramının başçısı xanım Basma İrşeyd qarşıladılar.

Yığıncaq başlamazdan əvvəl YUNESKO-nun baş direktoru Koişiro Matsuura Mehriban Əliyevanı Azərbaycan parlamentinin deputatı seçilməsi münasibətilə bir daha təbrik etdi. Xoşməramlı səfirlər də Mehriban xanımı təbrik etdilər və deputatlıq fəaliyyətində müvəffəqiyyət arzuladılar.

Sonra yığıncaq başlandı. Yığıncağı giriş sözü ilə açan YUNESKO-nun baş direktoru Koişiro Matsuura yenidən bu vəzifəyə seçilməsi münasibətilə ona təbrik məktubu göndərənlərə minnətdarlığını bildirdi, yığıncağın gündəliyi barədə məlumat verdi. O, ötən il ərzində mədəniyyət, elm və təhsil sahəsində görülmüş işlərdən danışdı, dünyanı narahat edən problemlərin aradan qaldırılmasında YUNESKO-nun yaxından iştirakından bəhs etdi və bu sahədə əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladı.





YUNESKO-nun əsas prinsiplərindən biri olan mədəni və bəşəri irslərin qorunmasında 30 xoşməramlı səfirin gördüyü işlərə toxunan baş direktor Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi xidmətlərini qeyd etdi və ona təşəkkürünü bildirdi. Koişiro Matsuura YUNESKO tərəfindən həyata keçirilən "Hamı üçün təhsil" layihəsinin müvəffəqiyyətlə reallaşdırıldığını xatırlatdı.

Yığıncaqda çıxış üçün söz Mehriban Əliyevaya verildi.

– Hörmətli baş direktor! Hörmətli xoşməramlı səfirlər! Xanımlar və cənablar!

Bu, YUNESKO-nun 60 illiyini qeyd etdikdən sonra bizim ilk görüşümüzdür. 60 il ərzində bu təşkilat özünün ən yüksək ideyalarına xidmət etmişdir. Həmin müddət ərzində gözəçarpacaq nailiyyətlər əldə olunmuş, böyük işlər görülmüş və bir çox mühüm layihələrdə uğurlar qazanılmışdır. Cənab Matsuura, icazə verin, YUNESKO-nun 60 illiyi münasibətilə sizi bir daha səmimi qəlbdən təbrik edim və bütün YUNESKO ailəsinə təhsilin, mədəniyyətin və elmin inkişaf etdirilməsində uğurlar arzulayım, müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında konstruktiv dialoqun daha da möhkəmləndirilməsində nailiyyətlər diləyim.

YUNESKO-nun baş direktorunun rəhbərlik etdiyi böyük bir nümayəndə heyətinin qurumun 60 illiyi ərəfəsində Azərbaycana səfəri ölkəmizin tarixində daim yaşayacaqdır. Buna görə də mən öz səmimi minnətdarlığımı, nümayəndə heyətinin tərkibində Azərbaycana səfər etmiş xoşməramlı səfirlərə səmimi qəlbdən təşəkkürümü bildirirəm. Biz onlarla birlikdə təhsil problemlərini müzakirə etdik. Çünki bu problemlər hər bir ölkənin gələcəyi üçün çox vacibdir.

Biz birlikdə tarixi Qobustana səfər etdik. Tanınmış Norveç alimi Tur Heyerdalın dediklərinə görə, Qobustan bizim hamımızın eyni köklərə, eyni keçmişə malik olduğumuzu sübut edir. Biz Suraxanıda Atəşgahda təşkil olunmuş gözəl konsert dinlədik və bu tarixi Atəşgah onu nümayiş etdirir ki, Azərbaycan müxtəlif mədəniyyətlərə məxsus irsi lazımınca qorumaq iqtidarında olmuşdur. Biz hamımız Muğam Mərkəzinin təməl daşını qoyduq və ümidvaram ki, yaxın gələcəkdə biz onun açılış mərasimində iştirak edəcəyik.

Mən bütün həmkarlarımı məlumatlandırmaq istəyirəm ki, rəhbərlik etdiyim Heydər Əliyev Fondu Azərbaycanda öz fəaliyyətini genişləndirmişdir. 2005-ci ilin mart ayında keçirilmiş illik konfrans zamanı bildirdim ki, YUNESKO-nun tədbirlərində iştirak etmiş hər kəs "Hamı üçün təhsil" proqramının vacibliyini, onun həyata keçirilməsinin əhəmiyyətini lazımınca qeyd etmişdir. Lakin eyni zamanda, mən xüsusilə aydın şəkildə vurğulamaq istəyirəm ki, dünyanın hər bir guşəsində bu proqramın həyata keçirilməsi müxtəlif millətlərə qeyri-tarazlı münasibətdən, yanaşmadan azad olmalıdır. Misal üçün, önəmli bir faktdır ki, YUNESKO-nun İşçi qrupu Azərbaycanda qaçqın və məcburi köçkünlərin uşaqlarının təhsil problemlərinin həllinə yardım etmək üçün ölkəmizə gəlmişdir.

Nəhayət, 2006-cı ildə həyata keçirdiyimiz ilk layihə iki xoşməramlı səfir tərəfindən təşkil olunmuş festival oldu. Bu, Mstislav Rostropoviçlə həyata keçirdiyimiz birgə layihə idi. Fevralın 20-dən etibarən bir həftə ərzində biz Azərbaycanda dünya şöhrətli bəstəkar Dmitri Şostakoviçin 100 illiyini qeyd etdik. Mən belə gözəl musiqi bayramına görə, festivaldan dərhal sonra Azərbaycanda qızılcaya qarşı aparılmış genişmiqyaslı peyvənd kampaniyasına görə Mstislav Rostropoviçə bu gün öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli dostlar, mən sizi bir daha görməyimdən çox şadam. Sizə çoxlu uğurlar, möhkəm cansağlığı və səadət arzulayıram.

Fasilə zamanı YUNESKO-nun baş direktoru və xoşməramlı səfirlər xatirə şəkli çəkdirdilər. Sonra YUNESKO-nun baş direktoru Koişiro Matsuura xoşməramlı səfir Mehriban Əliyevanı qəbul etdi. Görüş zamanı baş direktor ölkəmizdə təhsil, mədəniyyət və elm sahəsində gedən proseslərlə maraqlandı.Yığıncaqdan sonra YUNESKO-nun baş direktoru adından xoşməramlı səfirlərin şərəfinə ziyafət verildi.

*"Azərbaycan" qəzeti,*
*16 mart 2006-cı il*







## HEYDƏR ƏLİYEV FONDUNDA "YENİLƏŞƏN AZƏRBAYCANA YENİ MƏKTƏB" PROQRAMININ İKİNCİ MƏRHƏLƏSİNİN TƏQDİMATINA HƏSR OLUNMUŞ "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR

2006-cı ilin aprelin 6-da Heydər Əliyev Fondunda "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinin təqdimatına həsr olunmuş "dəyirmi masa" keçirilmişdir. Respublika hökumətinin, xarici ölkələrin səfirliklərinin, beynəlxalq humanitar təşkilatların və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbiri Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva açaraq dedi:

– Hörmətli xanımlar və cənablar!

İlk növbədə, sizi Heydər Əliyev Fondunda salamlayıram. Bugünkü "dəyirmi masa"mıza xoş gəlmisiniz.

Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə də Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir. Əgər xatırlayırsınızsa, ötən ilin iyun ayında Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində hazırlanmış ən iri layihə olan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının təqdimat mərasimində iştirak etmişdik.

Bizim məqsədimiz yeniləşən təhsil sisteminə yardım etmək, müasir təhsil komplekslərinin yaradılması, ölkəmizin hər bir yerində, ən ucqar kəndində də məktəbə gedən hər bir şagird

üçün normal, gözəl şərait yaradılması idi. Bununla yanaşı, biz təhsildə olan problemlərə bütün cəmiyyətimizin diqqətini cəlb etməklə, bunların həllində fəal iştiraka dəvət edirdik. Həmin görüşdə biz belə təklif səsləndirdik və ölkəmizdə fəaliyyət göstərən iş adamlarına, sahibkarlara, yerli və xarici şirkətlərə, qeyri-hökumət təşkilatlarına, diplomatik korpusa müraciət etdik və onları bu layihədə fəal iştiraka dəvət etdik. Ondan çox az bir vaxt keçdi və bu təklif ölkədə böyük əks-səda, rezonans yaratdı. Bizi dəstəkləyən, təşəbbüsümüzə qoşulan insanların və Heydər Əliyev Fondunun birgə səyləri nəticəsində "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ilk mərhələsi çox böyük uğurla başa çatdı. Ötən il ərzində ölkəmizin 52 rayonunda 132 yeni məktəb inşa olunub istifadəyə verildi, ən müasir avadanlıqla təmin edildi, 22 mindən artıq yeni şagird yeri açıldı.

Mən bu gün fürsətdən istifadə edərək həmin layihədə iştirak edən, bizi dəstəkləyən, bizə yardım edən, bu gözəl işə qatılan hər bir insana, hər bir təşkilata öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Heydər Əliyev Fondunun prezidenti kimi mən ölkəmizin müxtəlif rayonlarında inşaat işlərinin gedişi ilə tanış olurdum. Mütəxəssislərin, yerli camaatın – şagirdlərin, müəllimlərin fikirlərini və təkliflərini dinləyirdim. Bir sıra məktəblərin açılışında iştirak etdim. Hesab edirəm ki, il ərzində 132 məktəbin tikintisi bütün Azərbaycanın, bütün cəmiyyətin uğurudur, qazancıdır. Belə böyük nailiyyətlə yanaşı, bu mühüm layihəni həyata keçirərkən biz böyük təcrübə də qazandıq. İnanıram ki, gələcəkdə Heydər Əliyev Fondu tərəfindən hazırlanıb həyata keçiriləcək başqa proqramlarda, layihələrdə bu təcrübədən səmərəli istifadə olunacaqdır.

Hazırda ölkəmizdə yeni tədris binasına, müasir avadanlığa ehtiyacı olan yüzlərlə məktəb mövcuddur. İstilik sistemi olmayan, dam örtüyü axan, qış zamanı bağlanan, tədrisə yararsız olan məktəblərdə, əlbəttə ki, təhsilin də səviyyəsi bizi qane etməz. Ona görə Heydər Əliyev Fondu bu istiqamətdə işləri davam etdirməyi qərara alıb və biz "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinə başlayırıq.

Fond tərəfdən hazırlanmış işçi qrupu artıq fəaliyyətə başlayıb və 100 məktəbdən ibarət olan yeni siyahı hazırlanıbdır. Bu siyahıya Bakıda, Abşeronda və respublikamızın müxtəlif rayonlarında yerləşən məktəblər daxil edilmişdir. Həmin məktəblərin yeni tədris ilinin başlanmasına qədər istifadəyə verilməsi nəzərdə tutulur.

Xüsusi vurğulamaq istərdim ki, bu siyahıda olan məktəblərin çoxu Bakıətrafı qəsəbələrdə yerləşən, 500 və daha çox şagirdlik məktəblərdir. Təbii ki, belə böyük məktəblərdə idman kompleksi, kitabxana, yeməkxana da nəzərdə tutulmalıdır.

Mən inanıram ki, biz bu proqramın ikinci mərhələsini də birlikdə uğurla həyata keçirəcəyik.

***"Azərbaycan" qəzeti,***
***7 aprel 2006-cı il***








## BAKIDA "AZƏRBAYCAN: SİVİLİZASİYALARARASI DİALOQUN KEÇMİŞİ VƏ BU GÜNÜ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİR

2006-cı ilin aprelin 19-da Heydər Əliyev Fondunda "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda beynəlxalq konfrans başlanmışdır. Azərbaycanın tarixi və mədəni ənənələrini, tarixi İpək yolu regionundakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyası özünün sayca XIII konfransını Heydər Əliyev Fondu ilə birgə keçirir. Konfransa 30-dan artıq latın mənşəli xarici ölkədən görkəmli mədəniyyət və ədəbiyyat xadimləri dəvət olunmuşlar.

Konfrans başlanmazdan əvvəl iştirakçılar Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmiş, dünyamiqyaslı siyasi və dövlət xadiminin əziz xatirəsini ehtiramla anaraq, abidəsi önünə tər qərənfillər düzmüşlər.

Daha sonra qonaqlar Heydər Əliyev Fondu ilə tanış olmuşlar. Fondun icraçı direktoru Anar Ələkbərov Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın adından qonaqları salamladı. O, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu,

dahi şəxsiyyət Heydər Əliyevin xatirəsinə yaradılmış Fondun məqsəd və vəzifələri barədə məlumat verdi.

Qonaqlar Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Ulu öndərin şəxsi arxivindən götürülmüş və onun uşaqlıq, gənclik illərini, fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən nadir sənədlər, həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillər, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdiyi hədiyyələr, dahi şəxsiyyət haqqında yazılmış kitablar, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkilləri qonaqlarda böyük maraq doğurdu. Konfrans iştirakçıları keçmiş SSRİ-nin müxtəlif guşələrində, respublikamızın ayrı-ayrı şəhər və rayonlarında keçirilən tədbirlərdə çəkilmiş fotoşəkillərə, görkəmli dövlət xadiminin iş otağındakı əşyalara, valideynləri, sevimli ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva və övladları ilə çəkdirdiyi fotoşəkillərə xüsusi maraqla tamaşa etdilər.

Sonra Heydər Əliyev Fondunda "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda beynəlxalq konfransın açılışı oldu. Konfransı Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açaraq dedi:

– Hörmətli xanımlar və cənablar, əziz qonaqlar! "Sivilizasiyalararası dialoqun dünəni və bu günü" mövzusunda keçirilən beynəlxalq konfransın bütün iştirakçılarını Heydər Əliyev Fondunda ürəkdən salamlayıram. Latın Mədəniyyəti Akademiyasını təmsil edən və xarici ölkələrdən gəlmiş qonaqlarımıza ən xoş arzularımı çatdırmaq istəyirəm və inanıram ki, bu gün Heydər Əliyev Fondu ilə başlanan əməkdaşlıq gələcəkdə daha da səmərəli olacaqdır. Konfransda Azərbaycan Respublikasını təmsil edən bütün nümayəndələrə, ictimai xadimlərə, müxtəlif təşkilatlardan olan insanlara "Xoş gəlmisiniz!" deyirəm. Fondumuzun qapıları Azərbaycanı dünya birliyində layiqli təmsil etməyə qadir olan bütün təşəbbüslərə, bütün təkliflərə, layihələrə daim açıqdır. Konfransın bütün iştirakçılarına cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Latın Mədəniyyəti Akademiyasının rəmzini görərkən, yəqin ki, bizim hər birimizin yadına Azərbaycan narı düşdü. Bu, nar çiçəyidir və biz hər birimiz onu görəndə Azərbaycan narını yadımıza salırıq. Nar Azərbaycan torpağının ən gözəl nemətlərindən biridir və bizim dastanlarda, mahnılarda, nağıllarda çox böyük yer tutur. Məlumdur ki, Məhəmməd peyğəmbər narı insanları nifrətdən azad etməyə qadir bir nemət sayırdı. Digər rəvayətə görə, nar İsa peyğəmbərin göylərdən gətirdiyi bir nemətdir. Buddizmdə üç xüsusi fərqlənən nemətlərdən biri də nardır. Bir çox qədim mədəni ənənələrdə nar həyat ağacının meyvəsi sayılır. Bu gün isə biz deyə bilərik ki, nar dünyada olan müxtəlif mədəniyyətlərin eyni kökə malik olmasının rəmzidir.

Əziz dostlar, Latın Mədəniyyəti Akademiyası 2000-ci ildə latın mənşəli ölkələrin mədəni irsini qorumaq məqsədi ilə yaradılmışdır. Eyni zamanda, dünyada gedən mürəkkəb siyasi





proseslərə cavab olaraq son bir neçə ildə bu akademiya "Latın dünyası və islam aləmi" adlı konfranslar keçirir. Bütün müsəlman aləmində çox müsbət qarşılanan bu təşəbbüs konkret dialoqun nə qədər faydalı olduğunu nümayiş etdirir. Bu gün biz sivilizasiyalararası dialoqun keçmişindən söhbət açaraq xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin Yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Müsəlman renessansı kimi tarixə düşən bu dövrdə müsəlmən ölkələrində ən mütərəqqi, ən qabaqcıl ideyalar yaşadılıb, inkişaf etdirilibdir. Şərq alimlərinin və filosoflarının əsərləri ilə zənginləşən bu irs orta əsrlərdə yenidən Avropaya qaytarılıbdır. Bütün Şərqin, müsəlman aləminin bu irsin qorunmasında rolu əvəzsizdir.

2006-cı ildə konfransın məhz Bakı şəhərində keçirilməsini ölkəmizin mədəniyyətlərarası dialoq sahəsində çox müsbət təcrübə toplaması ilə əlaqələndiririk. Həqiqətən də, əsrlər boyu Böyük İpək Yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu, bizim qürur duyduğumuz keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu oynayacaqdır.

Məlumdur ki, bu gün bəşəriyyət çox mürəkkəb bir dilemma qarşısındadır. Bu həm siyasi, həm də elmi müstəvidə olan problemdir. Müasir alimlərin bir qismi sivilizasiyaların toqquşmasından söhbət açır və bunu elmi cəhətdən əsaslandırmağa çalışırlar. Digər mövqedə olan insanlar isə hesab edirlər ki, bizim zəngin müxtəlifliyimiz bəşəriyyətin ən böyük sərvətidir. Onlar dialoqun tərəfdarıdırlar və biz bu insanlarla həmfikirik. Belə bir dialoqun reallaşması üçün hər bir ölkədə konkret işlər görülməlidir. Biz çox yaxşı bilirik ki, cəmiyyətdə olan mühit, formalaşan ənənələr insanları bir-birinə qarşı ya düşmən, ya da dost etməyə qadirdir. Bu istiqamətdə ən vacib amillərdən olan təhsil və mədəniyyəti xüsusi qeyd etmək istərdim. Bu gün biz elə bir təhsil sistemi qurmağa çalışmalıyıq ki, müasir dünyada layiqli yaşamağa qadir olan, humanizm və sülh ideyalarına sadiq olan vətəndaş tərbiyə edə bilək.

Mən konfrans iştirakçılarının diqqətinə çatdırmaq istərdim ki, Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb" adlı irimiqyaslı layihə həyata keçirilir. Layihənin ilk mərhələsi təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə xidmət edir. Biz yeni məktəblər tikir, onları müasir avadanlıqla təchiz edirik. Ancaq bu yalnız ilk addımdır. Bizim ali məqsədimiz ölkəmizdə ən müasir, ən yüksək tələblərə cavab verən təhsil sistemi yaratmaqdır. Biz heç zaman unutmamalıyıq ki, uşaqlar məktəbdə təkcə müxtəlif biliklər qazanmırlar, həm də bir şəxsiyyət kimi formalaşırlar, onların əsas dəyərlər sistemi formalaşır. Bu gün biz ənənələrə sadiq qalaraq gənc nəsli tolerantlıq ruhunda tərbiyə etsək, sabah onlar sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa daha hazır olacaqlar.

Təbiidir ki, hər bir xalqın öz tarixi var, öz xüsusiyyətləri, öz ənənələri, öz yolu var. Amma yəqin ki, hər bir xalqın gələcəyi üçün, sabahı üçün ən mühüm amillərdən biri mədəniyyətdir. Mən bu sözü çox geniş mənada işlədirəm. Fikrimcə, elm, dil, təhsil, incəsənət, hətta iqtisadi nailiyyətlər də mədəniyyətin tətkib hissəsidir. Öz mədəniyyətinə, öz tarixinə, öz

ənənələrinə hörmətlə yanaşan xalq gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın. Ksenofobiya, faşizm, digər millətlərə nifrət hissi – bunlar hamısı çox təhlükəli hallardır. Bu baxımdan, mən qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan çox yüksək tolerantlığa malik ölkə kimi bütün dünyaya nümunə ola bilər. Əsrlər boyu karvan yolları üstündə yerləşən bu diyar digər millətlərin və dinlərin nümayəndələri ilə təmas qurmağı bacarır. Bu gün də bizim ölkədə məscid, sinaqoq, katolik və pravoslav kilsələri mövcuddur. Torpağımızda yaşayan hər bir millətin təmsilçisi eyni hüquqlu Azərbaycan vətəndaşıdır. Başqa dinə dözümlülük və hörmət var. Elə bilirəm ki, bunlar hamısı bütün dünya üçün mesaj ola bilər.

Hörmətli konfrans iştirakçıları, belə bir tədbirin ölkəmizdə keçirilməsi heç də təsadüfi deyildir. Bu gün Azərbaycan dünya birliyinə inteqrasiya edən, Şərq və Qərb, Avropa və Asiya mədəniyyətlərini özündə birləşdirən, fərqli düşüncəyə çox hörmətlə yanaşan bir ölkədir. İnanıram ki, bu konfransın nəticələri və əldə olunan təcrübə gələcəkdə dialoqa yardım edəcəkdir.

Bir daha sizə cansağlığı, konfransa uğurlar arzulayıram. İndi isə sizi "Azərbaycanda dini dözümlülük və qarşılıqlı anlaşma" mövzusunda filmə baxmağa dəvət edirəm.

Fond tərəfindən ingilis dilində hazırlanmış "Tolerantlığın ünvanı – Azərbaycan" filmi göstərildi. On beş dəqiqəlik film Azərbaycan xalqının soykökündən, dini inanclarından, ölkəmizdə mövcud olan dinlərin tarixindən və dini konfessiyaların müasir vəziyyətindən bəhs edir.

Sonra Latın Mədəniyyəti Akademiyasının baş katibi Kandido Mendes çıxış edərək dedi:

– Əziz dostlar!

Azərbaycanın birinci xanımının çıxışında və peşəkarlıqla çəkilmiş filmdə bizim dəstəklədiyimiz dəyərlər barədə çox müfəssəl məlumat verildi. Azərbaycanın məhz bu yolla qəti addımlarla gələcəyə irəliləməsi bizə aydındır. Müxtəlif dinlər arasında Allahın istədiyi kimi münasibətlərin məhz Azərbaycanda yaradılması bizi sevindirməyə bilməz. Biz böyük bir öhdəliyi yerinə yetirərək latın mənşəli ölkələrin mesajını sizə çatdırırıq.

Latın Mədəniyyəti Akademiyası siyasətdən tamamilə uzaq olan və mövcud problemləri sırf intellektual, əqli yolla, təhsil yolu ilə həll etməyə çalışan beynəlxalq qurumdur. Latın Amerikası mədəniyyətinin görkəmli xadimlərinin, ən qabaqcıl alimlərin bu gün bu salonda bir yerə toplaşması bizi sevindirməyə bilməz. Professor Jan-Mişel Blanquer dünyada bu problemlərlə məşğul olan ən aparıcı mütəxəssisdir.

Konfransda Latın Amerikasının sosiologiya alimləri də iştirak edirlər. Biz Azərbaycanın səylərinə dəstək göstəririk. Bu konfransı Xəzər sahillərində keçirməyimiz də təsadüfi deyildir. Biz digər ölkələrə gəlməklə öz imkanlarımızı və potensialımızı artırırıq. Azərbaycanın burada toplaşan xadimlərinin rolunu etiraf edərək ev sahiblərinə, bizə verilən kitablara görə təşəkkürümüzü bildiririk.





Hörmətli sədr, biz əsas və aparıcı ideyaların mübadiləsini aparacağıq. Siz öz çıxışınızla bizə gözəl bir ritm verdiniz. Biz təkcə nəzakət xətrinə danışmayacağıq, adi elmi ritorika aparmayacağıq. Biz fundamental məsələləri qaldırmaq istəyirik. Nə edə biləcəyimizi, dünyada sözümüzü necə deyə biləcəyimizi aydınlaşdırmaq istəyirik. Ətalət ritorikasına uğramış bu dünyada əsas dəyərlər üzərində öz səylərimizi birləşdirməli, sözümüzü geniş auditoriyaya çatdırmalıyıq. Terrorçuluğun tarixi elmi cəhətdən araşdırılmalıdır. Universitetlərin, məktəblərin rolunu necə dərk etməliyik. Biz bilirik ki, dünyada müxtəlif təmayüllər var. Xanım sədr, bizim akademiya mövcud vəziyyəti real yollarla dəyişməyə çalışır. Konfrans da məhz bu istiqamətdə təşkil olunmuşdur. İndiyədək Tehranda, İskəndəriyyədə, İstanbulda, Ankarada konfranslar keçirmişik və nəhayət, Bakıdayıq. Gələn il bu konfrans Omanda təşkil olunacaqdır.

Biz çox az tanınan bir dövlətdə, qədim tarixə malik, Afrika ilə Latın Amerikası arasında yerləşən Haitidə konfrans keçirmişik. Bəzi adamlar elə fikirləşirdilər ki, bu, Allah tərəfindən unudulmuş bir ölkədir. Bu il Ekvadorda konfrans təşkil etmək niyyətindəyik.

Bizim toxunacağımız əsas məsələ nədən ibarətdir? Mən bunların üçünü qeyd etmək istəyirəm. Zənnimcə, bunlar çox vacibdir. Ümumiyyətlə, tarix boyu bütün imperiya konsepsiyaları məhz sərhədyanı dövlətlərin zəbt edilməsindən irəli gələn bir konsepsiya olmuşdur. Amma biz bu konsepsiyaya yenidən yanaşmalıyıq. Sərhəd, imperiyalar və millətlərin formalaşması baxımından biz əsas suallara cavabları arayacağıq. Sizin çıxışınızda gözəl əksini tapan məsələlərdən biri odur ki, Azərbaycanı nadir edən amillər nədən ibarətdir. Siz dünyəvi bir dövlətsiniz və müxtəlif dinlərin və mədəniyyətlərin birgə yaşamasına nail olmusunuz. Bu, həqiqətən, təqdirəlayiq nailiyyətdir və Azərbaycanı nadir bir ölkəyə çevirir. Bizim bəzi fikirlərimiz var. Biz Stokholmda konfrans keçirəcəyik. Bu konfransda islam dünyası mütəfəkkirlərinin dərinliyini iştirakçılara çatdırmalıyıq. Onlar islam aləminə yeni gözlə, mütəxəssis gözü ilə baxmalıdırlar. Qərbə bu ideyaları aşılamaq üçün məncə, İsveç, Stokholm ən münasib yerlərdən biridir.

Rasionalizm təkcə Qərbə məxsus olan bir dəyər deyildir. Bu, bizim əsas fikrimizdir. Rasionalizmi davam etdirərək onu islam mədəniyyəti ilə zənginləşdirməliyik və bununla hegemonçuluğun qarşısını almalıyıq. Burada rasionalizmin Qərbdən gəlməsindən söhbət getmir. Bütün bunlardan danışarkən sizin müxtəlif millətlərin birgə yaşamasını təmin edən böyük ölkənizi səciyyələndirən məsələlərə qayıdırıq. Böyük gələcək perspektivlərə malik bir ölkə kimi, Azərbaycan xüsusi diqqətə layiqdir. Siz sırf Avrasiya ölkəsi deyilsiniz. Siz bu iki geosiyasi xətlərin tarazlaşdırılmasını təmin edəcək bir ölkəsiniz. Məhz buna görə Latın Mədəniyyəti Akademiyası slavyanların, türklərin, digər Avrasiya millətlərinin arasında körpü yaratmağa çalışır. Xanım sədr, onu da demək istəyirəm ki, Qafqaz regionunun rolu inkaredilməzdir. Çünki Qafqaz böyük bir arteriyadır, böyük bir yoldur. Avrasiyanın qaynar qanı, döyünən ürəyi, ola bilsin ki, Qafqazdır. Məhz bu baxımdan, sizin gələcəyə ümidlə

baxmağınız Azərbaycanın yenilik ölkəsinə çevrilməsinə imkan verir.

Tarixin nə cür, nə məcrada inkişaf etməsinin məhz Azərbaycandan görünüşü bizim üçün vacibdir. Buna görə qarşınızda baş əyirik və bu gözəl dialoqu məhz sizin ölkənizdə həyata keçirdiyimizə görə təşəkkürümüzü bildiririk.

Belə bir fikrimi bölüşmək istəyirəm ki, qarşıda üçüncü dünya müharibəsi təhlükəsi durur. Tehranla ABŞ arasında gərginliyin artdığını görərkən, bu prosesdə hegemonçuluğun nəyə gətirib çıxardığını anlamalıyıq. Dünya üçün çox dramatik bir vaxtda buraya yığışmışıq. İordaniya Şahzadəsi buradadır. O, çox nüfuzlu bir şəxsiyyətdir, insan hüquqları üzrə komissar və kimsəsiz, imkansız, yoxsul insanlara yardım edən bir adamdır. Məhz belə adamları eşitmək lazımdır ki, biz arzuolunmaz vəziyyətlərə düşməyək. Biz sülh ritorikasını, humanizm fikirlərini daha geniş davam etdirmək istəyiriksə, təzadları bilməli, ziddiyyətləri dərk etməli və onlardan çıxış yolları axtarmalıyıq. Bu gün bizimlə olan şahzadə Əl-Həsən bin Talalın dünyanı narahat edən məsələləri daha dərindən dərk edilməsinə yardım göstərəcəyinə ümid bəsləyirik.

İordaniya Haşimilər Krallığının Şahzadəsi, Roma Klubunun sədri Əl-Həsən bin Talal çıxışında dedi:

– Əziz bacım, xanım Mehriban Əliyeva! Siz, yəqin, bilirsiniz ki, mənim anam İstanbulda dünyaya göz açmışdır. Mən ərəb və türk dünyaları arasında bir körpü kimi fəaliyyət göstərən bir şəxsəm. Mən Roma Klubunun birinci asiyalı sədri qismində fəaliyyət göstərirəm və Azərbaycanın böyük dostu İhsan Doğramacı ilə birlikdə Mədəniyyətlər Parlamenti adlandırılan böyük təşkilatı təmsil edirəm. Bu təşkilat Türkiyədə yerləşir və dünyanın ən böyük mütəfəkkirləri sayəsində fəaliyyət göstərir. Elə bir vaxt gəlmişdir ki, biz bir-birimizə qarşı deyil, irqi ayrı-seçkiliyə, bu ağır fəsadlara qarşı mübarizə aparmalıyıq. Biz təzyiqlərə müqavimət göstərməliyik və müəyyən təşəbbüs modelləri irəli sürməliyik ki, mədəniyyətlər arasında dialoq aparmaq mümkün olsun. Dünya sivilizasiyasında minlərlə mədəniyyət mövcuddur. Mən başa düşürəm ki, onlar üçün bir-biri ilə görüşmək və danışmaq çətindir. İsrailin keçmiş Baş naziri Şimon Pereslə danışarkan, o, mənə gileyləndi ki, ətrafımda düşmənlərim yığışmışdır. Mən ona dedim ki, bəli, sizin problemləriniz çoxdur. Ancaq mən dostlarım arasında fəaliyyət göstərirəm. Plüralizm olmadan dialoqu necə aparmaq olar? Sizin milli şairiniz Nizami Gəncəvi məgər deməmişdirmi ki, dünyanın yeddi gözəli var. Bu yeddi gözəli vəsf edən əsər nəinki Azərbaycan ədəbiyyatının şah əsəridir, eyni zamanda, bütün bəşəriyyətə mesajdır ki, biz istəsək də, istəməsək də bir dünyanın övladlarıyıq, qarşıdurmaya səcdə etməkdənsə, Şərqlə Qərb arasında müsbət əlaqələrin yaradılmasına çalışmalıyıq. Çox ehtiyac duyduğumuz bu müdrik sözləri Nizami hələ XII əsrdə bizə çatdırıbdır. Bu dünyada çoxlu müdrik adamlar olub, ancaq bununla belə, tarix boyu müdrikliyin çatışmazlığı hiss edilmişdir.

Latın Mədəniyyəti Akademiyası çox gözəl standart müxtəlif mədəniyyətlər arasında





dialoqu həyata keçirə biləcək bir təşkilatdır. Münasibətlərimizi təkcə dialoq üzərində qurmamalıyıq. Burada tərəfdaşlıq olmalıdır. Sufi ənənələrini davam etdirərək biz bir-birimizi maarifləndirməli, artıq vaxtı çoxdan çatmış təşəbbüslərə qoşulmalıyıq. Mən əminəm ki, Qara dənizlə Xəzər dənizinin arasında yerləşən bu mədəniyyət ocağı, Avropa ilə Asiyanı birləşdirən bu region vasitəsilə tolerantlıq, bir-birimizə hörmət, ehtiram təbliğ edəcəyik. Çox kəskin problemlərin, o cümlədən etnik və dini zəmində çoxlu münaqişələrin olduğu dünyada yaşayırıq. Mən Haşimilərin nümayəndəsi kimi deyil, bir müsəlman kimi çıxış edirəm. Haşimilər Məhəmməd peyğəmbərdən gələn bir qoldur. Biz özümüzü böyük bir nəslin, İbn Rüştün, İbn Sinanın nümayəndələri kimi təqdim edirik. İbrahim peyğəmbər bütün müsəlmanların atası ola-ola, eyni zamanda, xristianlara, yəhudilərə də atalıq edirdi. Mən Oksfordda İbrahim peyğəmbərlə bağlı keçirilən tədbirdə, bəlkə də, yeganə müsəlman nümayəndə idim. Biz böyük bir təhlükə qarşısındayıq, ideoloqlar bizi uçuruma aparırlar. İdeoloqlar belə fikirləşirlər ki, yalnız onların dediyi həqiqətdir. Xristian aləmində deyirlər ki, İsa Məsih gəlməlidir və o, xristianlığın düşmənlərini məhv edəcəkdir. Müsəlman aləmi isə gözləyir ki, Məsih islam dininin düşmənlərini məhv edəcəkdir. Biz özümüzdən soruşmalıyıq ki, bu qarşıdurma üzərində qurulan dünyada uşaqlarımızın gələcəyi necə olacaq? Belə vəziyyətdə biz gələcəyə inana bilərikmi? Özümüzün yaratdığımız problemlərin girovu olmayacağıqmı? Biz öz övladlarımıza hansı irsi qoyuruq? Onlar sivilizasiya çərçivəsində öz müxtəliflik problemlərini həll edə biləcəklərmi? Müxtəlif mədəniyyətlərin nümayəndələri kimi biz mövcud olan bu problemlərə hansı səpkidən yanaşmalıyıq? Sözsüz ki, emosiyalarla deyil, ağılla. Müsəlman əhali özünü daha çox qurban kimi qələmə verməyə meyillidir. Ləyaqətsiz rəftar gələcəkdə partlayışlar törətməklə öz hüquqlarını bərpa etmək səylərinə gətirib çıxarmayacaqmı? Məhz buna görə maliyyə qurumları, imkanlı qurumlar ilə imkanlardan məhrum olan qüvvələr arasında körpü çəkmək lazımdır. Bunlar sakit deyil, sakitləşdirilmiş əksəriyyətdir ki, bir gün partlayışa gətirib çıxara bilər.

Xanım Əliyeva, Siz qarşıya qoyulan məsələlərin təhsil yolu ilə həllinin tərəfdarısınız. Mənim baldızım Banqladeşdə 20 il müsəlman əhalisini maarifləndirməyə çalışmışdır. Biz vətəndaşlığı Allahdan verilən bir nemət kimi qiymətləndiririk. Əgər biz imkansızlara kömək etməsək, onlar heç vaxt bu proseslərdə iştirak etməyəcəklər. İmkanlardan məhrum olmuş insanlara imkanlar verilməsə, onlar istər-istəməz ekstremist qüvvələrə tuş gələcəklər. Mənim baldızımın dəfn mərasimində müsəlman üləmaları dedilər ki, siz çıxış edə bilərsiniz. Mən dedim ki, biz kişi evində yox, qadın evində yox, Allah evindəyik. Nəyə görə siz Allahın bəndələri olan qadınları məscidə buraxmırsınız? Biz məzlum əksəriyyətin hüquqlarını dəstəkləməliyik. Məcburiyyət qarşısında susmağa məcbur olan kütlə üçün imkanlar yaratmalıyıq. Əgər Helsinki Assambleyası vasitəsilə biz Avropada maneələri aşmağa nail olmuşuqsa, islam dünyasında da sülh yarada bilərikmi?

Asiyadan Atlantik okeanınadək Böyük İpək Yolunu çəkə bilərikmi? Mariya Rabirus Riges

ötən il Ankarada bizə demişdir ki, qorxudan təhlükəli şey yoxdur. Mənim fransalı həmkarım Domenik Moyzi demişdir ki, Avropa və Qərb ölkələri indi üç qorxu qarşısında yaşayırlar. Mən nə almaya, nə də portağala sitayiş etmirəm, mən nara sitayiş edirəm. Amma biz Qərblə islamı bir-birinə qarşı tutmamalıyıq. Qərb dünyanın bir tərəfidir. İslam isə bir tərəf deyil, islam bir mədəniyyətdir. Qərblə islamı biz necə bir-birinə zidd tuta bilərik. Qədim Yunan-Roma mədəniyyətindən qalan irsi Qərb ölkələrinə çatdıran elə müsəlmanlardır, elə ərəb mərkəzləridir. Qərb üçün üç qorxu – mühacirlər, islam və Asiyada yaranan yeni sistemlərdir. Mənə elə gəlir ki, mütərəqqi idarəetmə yolu ilə və ictimai dəyərlərə hörmət edərək biz bu üç qorxunu üç böyük ümidə çevirə bilərik. Bunun nəticəsi başqa cür olar. Bunun əsasında biz mədəniyyətlərin həmrəyliyinə, birləşməsinə lazımi şərait yaradacağıq. Yeni iqtisadi modellər dünyanı, sözsüz ki, daha da zənginləşdirər. Biz yalnız tərəfdaşlıqla inkişaf edə, onun bəhrələrini görə bilərik.

Yaxın Şərqdən danışarkən Mərakeşdən Banqladeşədək, əslində, dünyanın ən böyük əhali sıxlığı olan, yoxsul, ən təhlükəli regionundan söhbət açırıq. Məhz buna görə də mən yüz islam mütəfəkkiri komitəsinin yaradılmasını təklif etmişəm. Həmin komitədə azərbaycanlılar da iştirak etsinlər. Burada qadınlar, kişilər, yaşlılar, gənclər, dövlət nümayəndələri və vətəndaş cəmiyyətinin təmsilçiləri də olmalıdır. Bakıdakı bu konfransın mesajını geniş auditoriyaya çatdırmaq istəyirəm. Mən intiharçı terrorizm üzərində qurulan demokratiyanın tərəfdarı deyiləm. İstərdim ki, biz kütlələri tamamilə başqa bir səmtə səfərbər edək.

Bir də çoxşaxəliliyə diqqət yetirməliyik. Biz öz regionumuzu ölkələrin bir-birindən asılı olduğu regiona çevirməliyik. Yəni 5-8 nüvə dövlət tərəfindən idarə edilən yox, inteqrasiya olunmuş dünya görmək istəyirik. Biz 10 nüvə dövlətinin komitəsini yaratmaq istəyirik. Biz bilirik ki, hazırda 5 nüvə dövləti var. Bəs Şimali Koreya, Hindistan, Pakistan, İran və İsrail necə olsun? Mənə elə gəlir ki, enerji ehtiyatları ilə zəngin olan bu region nüvə silahından azad bir regiona çevrilməlidir. Mən onun tərəfdarıyam ki, Yer üzü bəşəriyyətə xidmət edən enerji mənbəyinə çevrilməlidir. Yaxın günlərdə mənim Türkiyədə xarici işlər naziri Abdullah Güllə görüşüm olacaqdır. Biz "Asiyanın sədaları" adlı təşəbbüs üzərində işləyirik. Beyrutdan Sinqapuradək 9 komitə vasitəsilə bu təşəbbüsü həyata keçiririk. Ticarət, investisiya, siyasət və sair kimi məsələlər müzakirə olunur.

Maarifləndirməni ön plana çəkməli, dini dözümsüzlüyə yol verməməliyik. Məlumatın azad mübadiləsini təmin edərək, dünyaya, öz müqəddəs kitablarımıza, digər dinlərin müqəddəs kilablarına yeni gözlə baxaraq bizi ayıran cəhətləri aradan götürməli, bizi birləşdirən cəhətləri ümumiləşdirməliyik.

Sonra çıxış edən YUNESKO baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Jerom Binden dedi:

– Mən YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranın adından sizi salamlayıram və konfransın işinə uğurlar arzulayıram.





Siz bilirsiniz ki, YUNESKO da artıq neçə illərdir ki, bu dialoqlar üçün çalışır. Bu konfransda mədəniyyətlərin yaxınlaşmasından danışacağıq ki, bu da heç vaxt öz aktuallığını itirmir. Texniki sivilizasiyanın monomədəniyyəti haqqında danışacağıq ki, bu da özlüyündə mədəniyyətlərin fərqli olduğunu izah edir. Mənim bəzi fikirlərim sizi təəccübləndirə bilər. Ancaq bəşəriyyət elə həddə çatıb ki, mədəniyyət evlərimizə təkcə xüsusi dəyişikliklər gətirmir. Eyni zamanda, bioloji və texnoloji vasitələrdən istifadə edilməklə xüsusi dəyişikliklər insanların davranışlarına müəyyən mədəniyyətlər gətirməyə başlamışdır. Bu, təkamül yolu ilə gedən bir faktdır. Bu faktın xüsusi təzahürləri özünü büruzə verir. Ona görə də biz sivilizasiyaların dialoqunun uğurlu olmasını istəyiriksə, monomədəniyyətin və özündən təcrid olunmuş mədəniyyətin bütün təfərrüatlarını araşdırılması üçün xüsusi proqramın tərtib edilməsinə və həyata keçirilməsinə diqqət yetirməliyik. Bu gün monomədəniyyətdən söhbət gedirsə, onun qapılarının artıq bütün dünyaya açılması mümkündür.

Lakin bu sahədə vasitələr hansılar olmuşdur? Hətta ailə mədəniyyətləri qaliblərinə də müəyyən dəyişikliklər gətirmişdir. İngiltərədə insanların mədəniyyətini və davranışını araşdıran alimlər yeni həyat üslubunun mədəniyyətə təsiri məsələsinə diqqət yetirmişlər. Belə nəticəyə gəlmişlər ki, əfsuslar olsun, bizim bəzilərimiz hesab edə bilər ki, dünyanın müxləlif guşələrində və fərqli ölkələrdə bu cəhətlər insanın mədəniyyətinə mənfi təsir göstərmişdir. Ona görə də insan başqa mədəniyyətlərə başqa bir tərzdə baxmaq məcburiyyətində qalmışdır. Qırğınlar, soyqırımlar baş vermişdir. Bütün bu bəlaların baş verməsi, insanların məhv edilməsi onların beyninə xoşagəlməyən psixoanalitik dəyişikliklər gətirmişdir. Belə halların araşdırılması üçün YUNESKO-da komissiya yaradılmışdır.

Bir fikir də var ki, vaxt gələcək, mədəniyyətlər insanların nəinki davranışlarında, hətta anatomiyasında, fizionomiyasında da dəyişikliklərə gətirib çıxaracaqdır. Artıq insanların xasiyyətində, genetik quruluşunda müəyyən dəyişikliklər baş vermişdir. Biz özümüzə sual verməliyik ki, bunun hüdudları hansı dərəcəyə qədərdir. Bugünkü bioloji reallıq, klonlaşdırma özlüyündə sübuta yetirir ki, bəşəriyyət təhqirin qarşısını almalıdır.

İnsan sənayenin bugünkü inkişafı çərçivəsində öz davranışını qoruyub saxlaya biləcək, ya yox? Bu dəyişiklik dinlərə normal yanaşmaya təsir göstərəcək, ya yox? Bu təsir müsbət olacaq, ya mənfi?

Mən hesab edirəm ki, bəşəriyyət nəzərə almalıdır ki, böyük sürətlə gedən sənaye dəyişiklikləri, texniki tərəqqi insanın davranışına, mədəniyyətinə hansı şəkildə təsir göstərir? Əgər yaxşıdırsa, onda hansı yanaşmalar əsas götürülməlidir? Bəzi ekspertlərin qeyd etdiyi kimi, söhbət ondan getmir ki, tibb elminin inkişafına biz belə baxmalıyıq ki, o, insanın tərəqqisinə xidmət etməlidir. Bununla bağlı xüsusi layihə də hazırlanmışdır. Biz bioloji etikaya xüsusi əhəmiyyət verəcəyik. Üzv ölkələr tərəfindən bizə müraciətlər edilmiş və bir sıra təkliflər verilmişdir. Hazırlanan sənədlərə hamı tərəfindən riayət edilməlidir. İnsan doğulduğu andan etibarən bir çox mənfi təsirlərə məruz qalır. İnsan özünü belə şəraitdə

necə qoruya bilər? Belə yollardan biri təhsilin inkişaf etdirilməsi, insanın müəyyən mədəni çərçivədə qalması imkanıdır.

Kandido Mendes: Xanım Mehriban Əliyeva çıxışında nardan danışdı. Nar çox cazibədar bir meyvədir. Doğrudan da, narın dənələrində həyat bəxşetmə imkanları var. Mən xanım sədrə müxtəlif mədəniyyətləri təmsil edən aparıcı alimlərin hamısının adından Latın Mədəniyyəti Akademiyasının rəmzi olan çiçəyin təsvirini təqdim etmək istəyirəm. Siz bu gündən bizim Akademiyamızın fəxri üzvü olacaqsınız.

Mehriban Əliyevaya Akademiyanın fəxri üzvü diplomu və braziliyalı ustalar tərəfindən xüsusi olaraq hazırlanmış hədiyyə təqdim edildi.

Mehriban Əliyeva: Hörmətli konfrans iştirakçıları, mən bütün iştirakçılara, dəyərli qonaqlarımıza bir daha "Ölkəmizə xoş gəlmisiniz!" demək istəyirəm. Bu günlərdə Azərbaycanla yaxından tanış olmaq üçün sizə kifayət qədər imkan yaradılacaqdır. Konfransın açılışında çox dərin nitq ilə çıxış edən cənab Mendesə və cənab Jerom Bindenə öz dərin minnətdarlığımı bildirirəm. İnanıram və ümidvaram ki, müasir dünyanın ən mürəkkəb problemlərinə həsr olunmuş bu konfrans səmərəli və uğurlu keçəcəkdir. Çox sağ olun.

Tədbir iştirakçıları Heydər Əliyev Fondunun vəsaiti və layihələri əsasında hazırlanmış və çapdan buraxılmış müxtəlif dillərdə dərsliklərdən, xarici dillərdən tərcümə edilmiş bədii və elmi-kütləvi ədəbiyyat nümunələrindən, musiqi albom disklərindən ibarət sərgiyə baxdılar.

*"Azərbaycan" qəzeti,*
*20 aprel 2006-cı il*








## BAKIDA "ORTA ƏSR ƏLYAZMALARINDA TİBB VƏ ƏCZAÇILIQ" MÖVZUSUNDA I BEYNƏLXALQ KONFRANS İŞƏ BAŞLAMIŞDIR

2006-cı ilin iyunun 12-də Bakıda Heydər Əliyev Fondunda bu qurumun və Vaşinqton Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfrans işə başlamışdır. Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsini andılar, məzarı önünə əklil qoydular.

Beynəlxalq konfransın iştirakçıları məşhur oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı önünə də çiçəklər düzdülər.

Sonra konfrans iştirakçıları Heydər Əliyev Fonduna gəldilər. Burada qonaqlara ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu və zəngin siyasi, dövlətçilik fəaliyyəti ilə bağlı bütün məlumatları qayğıkeşliklə toplayaraq etibarlı surətdə qoruyub saxlayan Fondun məqsəd və məramı barədə ətraflı məlumat verildi. Bu işdə Fondun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulandı.

Müxtəlif ölkələri təmsil edən qonaqlar dahi şəxsiyyət Heydər Əliyevin həyatının müxtəlif

məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, Ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə baxdılar.

Qonaqlar əsas məqsəd və vəzifəsi Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq ideologiyasını təbliğ etmək və gələcək nəsillərə çatdırmaq, ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələrə dəstək verməkdən ibarət olan Fondun fəaliyyətini yüksək dəyərləndirdilər.

Heydər Əliyev Fondunda təşkil edilmiş qədim əlyazmalar və kitablar sərgisi də qonaqlarda böyük maraq doğurdu.

Məlumat verildi ki, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılan 11 minə qədər əlyazmanın 364-ü tibbə aiddir. Həmin əlyazmalardan xüsusi əhəmiyyət daşıyan 3-ü YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq registrinə daxil edilmişdir. Bunlar XI əsrdə yaşamış Əbülqasim Zəhrəvinin "Əl-Məqalət əs-Səlasun" ("Cərrahiyyə və alətlər haqqında") çoxcildlik əsərinin 13-cü hissəsi, Əbu Əli İbn Sinanın XII əsrdə Bağdadda üzü köçürülən "Əl-Qanun fit Tibb" ("Tibb qanunları") kitabının 2-ci cildi və Rüstəm Cürcaninin XII əsrdə yazdığı, XVII əsrdə üzü köçürülmüş "Zahireyi-Nizamşah" ("Nizamşahın ehtiyatları") əlyazmasıdır. Ümumbəşəri sərvət olan və dövrün məşhur xəttatları tərəfindən üzü köçürülmüş bu mədəni irs nümunələri Əlyazmalar İnstitutunda qorunub saxlanılır.

"Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfransın açılış mərasimində ABŞ, Almaniya, Böyük Britaniya, Belçika, Bəhreyn, Estoniya, Gürcüstan, İran, İsrail, Misir, Rusiya, Suriya, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələrdən 50-dən çox nümayəndə, bir sıra beynəlxalq təşkilatların təmsilçiləri, Azərbaycanın dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, tanınmış elm xadimləri, xarici ölkələrin səfirləri iştirak edirlər.

Konfransı giriş nitqi ilə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva açaraq dedi:

– Hörmətli qonaqlar! Xanımlar və cənablar!

"Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda keçirilən beynəlxalq konfransın bütün iştirakçılarını ürəkdən salamlayıram. Sizi Heydər Əliyev Fondunda görməyə çox şadam.

Əminəm ki, konfransda iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən paytaxtımıza gələn qonaqların qədim Azərbaycan torpağı ilə tanışlığı unudulmaz olacaq, konfrans çox səmərəli keçəcək və gələcək əməkdaşlığımıza güclü təkan verəcəkdir.

Heydər Əliyev Fondu yarandığı ilk gündən qarşısına çox mühüm vəzifələr qoymuşdur. Sosial problemlərin həlli, cəmiyyətimizin ən zəif təbəqələrinə yardımla yanaşı, tarixi, mədəni, mənəvi irsimizin qorunub saxlanılması, ona dərin hörmətlə yanaşma Fondun ən vacib məqsədlərindən biridir.





Fəaliyyət göstərdiyi iki il ərzində Fond təhsil, səhiyyə, elm və texnologiya, beynəlxalq əməkdaşlıq sahəsində mühüm layihələr həyata keçirmiş, bir çox uğurlar əldə etmişdir. Konfrans iştirakçılarına Fondun fəaliyyətini əks etdirən kitab təqdim olunacaqdır. Ona görə mən yalnız səhiyyə sektorunda görülən bəzi layihələr barəsində məlumat vermək istərdim. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində respublikamızda 14 yaşınadək olan və bu xəstəlikdən əziyyət çəkən uşaqların tibbi preparatla təmin edilməsi həyata keçirilmiş, eyni zamanda, cəmiyyətimizin diqqətini bu problemə cəlb etməyə, insanlara müxtəlif cür kömək göstərilməsinə çalışırıq. "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində ölkəmizdə müasir talassemiya diaqnostika və müalicə mərkəzinin yaradılması nəzərdə tutulub və artıq inşaat işləri başlanmışdır.

Səhiyyə sektorunda həyata keçirilən layihələrdə dünya təcrübəsini öyrənib istifadə etmək üçün Fond beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edir.

Biz müxtəlif ölkələri, xalqları, dinləri təmsil edən insanların dialoqunu beynəlxalq əməkdaşlığın qurulmasında ən optimal yol hesab edirik və bu sahədə keçirilən tədbirlərin sayı getdikcə artır.

Bu ilin aprelində Latın Akademiyası ilə birgə "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda keçirilən beynəlxalq konfransı qeyd etmək olar. Hər bir belə tədbir mühüm elmi nəticələr verməklə yanaşı, ölkəmizi dünyada olduğu kimi tanıdır, bu gün Azərbaycanda olan yeniləşməni, inkişafı, reallıqları göstərir.

Əziz dostlar!

Heydər Əliyev Fondunun milli-mədəni irsimizin qorunub saxlanılması, qədim mədəniyyət və tariximizin dünyada təbliği istiqamətində gördüyü işlərə YUNESKO tərəfindən böyük maraq göstərilir və dəstək verilir. Son illər biz dünyada böyük nüfuza malik olan təşkilatlarla çox səmərəli əməkdaşlıq edirik və bugünkü konfransı da Heydər Əliyev Fondu və YUNESKO arasındakı əməkdaşlığın növbəti mərhələsi kimi qiymətləndiririk. Azərbaycanda saxlanılan tibbə dair 3 nadir əlyazma 2005-ci ilin iyulunda YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq registrinə daxil edilmişdir.

Mən fərəh hissi ilə qeyd etmək istərdim ki, Dünya Yaddaşı Proqramına yalnız ayrı-ayrı dövlətlər və xalqlar üçün deyil, ümumilikdə bəşəriyyət üçün əhəmiyyət daşıyan yazılı abidələr daxil edilir və cəmi 120 nadir əlyazmanın daxil edildiyi bu proqramda artıq Azərbaycana məxsus 3 əlyazma da var.

Yeri gəlmişkən, Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda hazırda XIII-XIV əsrlərə aid olan 12 minə yaxın əlyazma saxlanılır. Xalqımızın milli sərvəti hesab etdiyimiz bu əlyazmalar tariximizin və mədəniyyətimizin ayrılmaz bir hissəsidir.

Tibb elminə aid olan 3 nadir əlyazmamıza YUNESKO tərəfindən bu cür yüksək qiymət verilməsi, onların qədim yazılı abidə olması ilə yanaşı, həm də orta əsrlərdə Azərbaycanda tibb

elminin yüksək inkişaf səviyyəsinə çatmasının göstəricisidir.

Biz bu gün texnika və yüksək texnologiyalar əsrində yaşayırıq. Ümumiyyətlə, elm və xüsusilə tibb elmi XX əsrdə inanılmaz kəşflər və qələbələr əldə edibdir. Tibb elmində bir sıra yeni istiqamətlər aşkar olunub və bu da insan ömrünün uzadılmasına xidmət edir.

Eyni zamanda, tarixin qaranlıq qalmış səhifələri çoxdur. Elm sübut edir ki, bütün kəşflər və yeniliklərin kökündə əsrlər boyu yoxlanılmış və təsdiqlənmiş həqiqətlərin toplusu durur. Bu toplunun əsasını isə əsrdən-əsrə, nəsildən-nəslə keçərək bizim dövrümüzədək gəlib çatmış qədim əlyazmalar təşkil edir. Bu əlyazmaların hər biri ayrı-ayrı dövrlərin, bizim ümumi tariximizin və mədəniyyətimizin məhsuludur. Ona görə də onların qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün biz məsuliyyət daşıyırıq.

Məhz bu nöqteyi-nəzərdən Heydər Əliyev Fondu və Vaşinqton Elmlər Akademiyası Bakı şəhərində "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfransın təşkil edilməsini qərara almışdır.

Çıxışımın sonunda mən bir daha bütün qonaqlarımızı zəngin tarixə malik olan Azərbaycan torpağında salamlayıram və konfransın işinə uğurlar arzulayıram.

İndi isə sizi Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Yaşayan tarix" filminə tamaşa etməyə dəvət edirəm.

Film Azərbaycan tarixi, mədəniyyəti, abidələri, eləcə də bunların qorunub saxlanmasına Azərbaycan Prezidenti İlham Əliyevin göstərdiyi ardıcıl diqqət və qayğı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fondun ulu öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsinə verdiyi töhfələr, qurumun beynəlxalq əlaqələri barədə geniş təsəvvür yaradır. Xüsusilə, ölkəmizdə xalq təbabətinin qədim, tarixi ənənələri, Azıx mağarasından tapılan əşyalar, Qəbələ, Təbriz, Şamaxıda VII-XIV əsrlərdə mövcud olan əczaxanalar, tibb məktəbləri, alim-həkimlər, Azərbaycanın flora və faunası, dərman bitkiləri, onlardan istifadə qaydaları, mineral ehtiyatları barədə verilən elmi-tarixi məlumatlar konfrans iştirakçıları tərəfindən maraqla qarşılandı.

Mehriban xanım Əliyeva: Hörmətli qonaqlar! Mən bayaq çıxışımda qeyd etdim ki, Heydər Əliyev Fondu son illər YUNESKO ilə çox sıx əməkdaşlıq edir. Mən çox şadam ki, YUNESKO-nun baş direktoru Koişiro Matsuura konfrans iştirakçılarına təbrik məktubu ünvanlayıbdır. Məktubu oxumaq üçün söz YUNESKO-nu konfransda təmsil edən Əbdüləziz Abidə verilir.

Əbdüləziz Abid: Çox sağ olun. Bugünkü bu mühüm konfransda sizin qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir. Mən YUNESKO-nun baş direktorunun məktubunu oxumaq istəyirəm. O, bu beynəlxalq konfransa gələ bilmədiyi üçün təəssüfləndiyini bildirir və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı kimi Mehriban Əliyevanın gördüyü işləri yüksək qiymətləndirir. Mən xüsusi məmnunluq hissi ilə ona YUNESKO-nun adından minnətdarlığımı bildirmək istəyirəm və indi burada söylədiyi





xoş sözlərə görə təşəkkür edirəm. İcazənizlə, məktubu oxuyuram:

"Tibb elminə və əczaçılığa həsr olunmuş bu birinci beynəlxalq konfrans yazılı irsin qorunmasının vacibliyini diqqətə çatdırmaq üçün mühüm fürsətdir. Bu bizə qədim ənənəvi üsullarla, həm də müasir informasiya texnologiyaları vasitəsilə əlyazmaları qoruyub saxlamaq üçün imkan verir. Bu günlər biz Azərbaycanın zəngin əlyazmalar irsinin ən mühüm hissəsinin Dünya Yaddaşı Proqramına daxil olunmasını qeyd edirik. Biz bilirik ki, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalar Dünya Yaddaşı Proqramının mühüm məqsədinə xidmət edən vacib sənədlərdir. Bu sənədlərin dünya yaddaşı siyahısına salınması barədə qərar beynəlxalq məşvərət komitəsinin 2005-ci il iyunun 13-15-də Çində keçirilmiş 7-ci iclasında qəbul edilmişdir. Həmin iclasın iştirakçıları Cürcani, İbn Sina və Əbu əl-Qasım əl-Zəhrəviyə məxsus bu nadir yazıların çox vacib və qiymətli olduğunu vurğulamış və bildirmişlər ki, bu əlyazmaların siyahıya daxil edilməsi dünyada tibb elminin inkişafına Azərbaycanın töhfəsini bütün dünyaya nümayiş etdirəcəkdir.

Sizin zəngin tarixiniz nəticəsində formalaşmış bu yazıların siyahıya daxil edilməsi böyük işin başlanğıcıdır.

Əfsuslar olsun ki, bir sıra ölkələr belə nadir əlyazmaları lazımi səviyyədə saxlaya bilmir. Bu, müxtəlif səbəblərdən, məsələn, təsadüfən və ya bilərəkdən kitabxanaların, arxivlərin dağılmasından və ya tarixi irsə biganə münasibətdən irəli gəlir. Buna görə də YUNESKO bəşəriyyət adından çıxış edərək bu cür mühüm əlyazmaların qorunub saxlanması üçün çalışır.

Qarşımızda çox böyük vəzifələr durur. YUNESKO və digər qeyri-hökumət təşkilatları, beynəlxalq, milli və özəl qurumlar bütün qüvvələrini bu problemin aradan qaldırılmasına sərf etməlidirlər.

YUNESKO hazırda dünya irsinin beynəlxalq səviyyədə qorunmasının təşviq olunmasına xüsusi çalışır. Dünya mədəni abidələrinin qorunması YUNESKO-nun daim diqqət mərkəzindədir. Əlyazmaların vəziyyəti bir çox ölkələrdə qənaətbəxş deyildir. Odur ki, bu yazıların dünya yaddaşı siyahısına daxil edilməsi onların qorunmasına xüsusi diqqət yetirilməsindən xəbər verir.

YUNESKO audiovizual və rəqəmsal arxivlər sahəsində mühüm proqram həyata keçirir. Fikrimizcə, müasir üsullarla saxlanılan sənədlər təhlükələrlə üzləşir. Biz bütün alimləri və siyasətçiləri bu məsələdən xəbərdar olmağa çağırırıq. Dünya Yaddaşı Proqramı inkişaf edən ölkələrdə əlyazmaların qorunub saxlanmasını yüksək qiymətləndirir. Bu proqram təhsil və tədqiqatlar sahəsinə diqqəti yönəltməklə mühüm əlyazmaların qorunması üçün yeni imkanlar açır. Proqramın maliyyələşdirilməsinə gəldikdə bildirmək istərdim ki, YUNESKO-nun bu proqramı tam maliyyələşdirməyə imkanı yoxdur. Buna görə də konfrans iştirakçılarının diqqətini bu məsələlərə cəlb etmək istəyirəm, siz bu məsələlərə xüsusi önəm yetirməlisiniz".

Sonra Vaşinqton Elmlər Akademiyasının vitse-prezidenti, Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin baş katibi Alen Tuveyd çıxış etdi. O dedi:

– Xanım sədr, çox sag olun. Hörmətli həmkarlar, xanımlar və cənablar!

Sizi Ümumdünya Tibb Tarixçiləri Cəmiyyəti adından salamlayıram.

Biz Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimovla əvvəllər də əməkdaşlıq etmişik.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu konfransda iştirakı onun bu tədbirə böyük əhəmiyyət verdiyini göstərir. Burada iştirak etməsinə və xüsusi qayğısına görə ona dərin minnətdarlığımı bildirirəm.

Mən burada YUNESKO-nun bu işə verdiyi əhəmiyyət barədə deyilən sözləri dinlədim və hesab edirəm ki, Azərbaycanın 3 nadir əlyazmasının Dünya Yaddaşı Proqramının siyahısına daxil edilməsi əlamətdar hadisədir. Biz yazılı tarixi irsin qorunub saxlanması və təşviq olunmasına diqqətlə yanaşmalıyıq. Zənnimcə, Azərbaycanda bu cür tədbirin keçirilməsi ölkənin rəhbərliyinin bu istiqamətə, bu sahəyə xüsusi önəm verdiyini göstərir. Konfrans bu sənədlərin YUNESKO ilə əməkdaşlıq çərçivəsində təbliğinə və onlara marağın artmasına xidmət edəcəkdir. Bu, sadəcə tarixi və ya arxeoloji iş deyildir. Biz hamımız bu sahədə səylərimizi birləşdirməliyik və bütün cəmiyyət bu əlyazmalar barədə məlumatlandırılmalı və onların qorunub saxlanmasında iştirak etməlidir. Bu sahədə müasir texnologiyalardan da istifadə edilməlidir. Bu tarixi sənədlər ölü bir sənəd kimi qəbul edilməməlidir. Tarixçilər bu əlyazmaları müəyyən kataloqlara daxil edərək onlar barədə məlumatları cəmiyyətə çatdırırlar. Lakin bu, işin bir hissəsidir. Digər sahələrdə çalışan alimlər də bu işə öz töhfələrini verməlidirlər.

Zənnimcə, bu konfrans çox səmərəli olacaqdır. Artıq indidən konfrans iştirakçılarının bu tədbirə maraqla yanaşdıqlarını hiss edirəm. Buna görə də YUNESKO-nun nümayəndəsinə və doktor Mehriban xanım Əliyevaya bildirmək istəyirəm ki, mən üzvü olduğum qurumu burada təmsil etməkdən qürur duyuram və eyni zamanda, sizə əməkdaşlıq təklif etmək istəyirəm. Sizin birgə tədqiqat proqramlarında iştirak etmək istəyirəm. Bu, qədim yazıların qorunub saxlanmasına yönəldilmiş çox vacib işdir və bu baxımdan biz bütün vasitələrdən – müasir texnologiyalardan, internetdən istifadə etməklə bunu yaymağa, öz təhlillərimizi aparmağa, tövsiyələrimizi verməyə və daha çox insanların, elmi işçilərin bu işə cəlb olunmasına çalışmalıyıq. Hesab edirəm ki, Heydər Əliyev Fondu ilə belə əməkdaşlıq tibb sahəsində tədqiqat proqramına nümunə ola bilər. Zənnimcə, digər ölkələrdə fəaliyyət göstərən qurumlar da bizimlə əməkdaşlıq edə bilər. Əgər belə bir iş birliyi alınarsa, əsrlərdən qalmış nadir yazıların bəşəriyyətin inkişafında vacib rol oynamasına nail ola biləcəyik.

Bu konfrans gələcək əməkdaşlıq proqramlarının əsasını qoyacaqdır. Mən bütün konfrans iştirakçılarına, xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasına, cənab Fərid Ələkbərova, YUNESKO-ya, bütün iştirakçılara öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən böyük iftixar hissi ilə Mehriban Əliyevaya Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin diplomunu təqdim edirəm. Fondun yardımı və köməyi olmasaydı, bu konfrans da mümkün olmazdı. Mən ümidvaram ki, konfrans və Heydər Əliyev Fondu bu istiqamətdə işləri davam etdirəcəkdir.





Bir daha sizin hamınıza minnətdarlığımı bildirir və uğurlar arzulayıram.

Sonra Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin prezidenti Afanasios Diamandopoulos çıxış edərək dedi:

– Hörmətli xanım Mehriban Əliyeva, konfrans iştirakçıları, hamınızı səmimi qəlbdən salamlamaq istəyirəm və məni buraya dəvət etdiyiniz üçün minnətdarlığımı bildirirəm.

Mənim buraya gəlməyimin iki əsas səbəbi var idi. Burada böyük bir cəmiyyəti təmsil etmək və ölkənizdə səfərdə olmaq mənim üçün şərəfdir. Əminəm ki, siz hamınız bu konfransdan bəhrələnəcəksiniz.

İkinci səbəb təsisatla bağlıdır. Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin prezidenti kimi bu proqram məni çox ruhlandırdı. Çünki siz burada tibbə dair əlyazmaları araşdırırsınızsa, tibb tarixinin bununla birbaşa əlaqəsi vardır və mən bu konfransın iştirakçıları qarşısında çıxış etmək imkanı yaranmasından çox şad oldum.

Bizim cəmiyyət də bu sahədə bir çox işlər görmüşdür. Biz Qərb ilə Şərq arasındakı sərhədləri keçərək dünyanın müxtəlif ölkələrinin tarixi sənədləri ilə tanış olmaq imkanı əldə etmişik.

Dünya əhalisinin 70 faizi Asiyada yaşayır. Onların əksəriyyəti səfalət və yoxsuluq içindədir. Bu səbəbdən də onlar öz yazılı tarixi abidələrinin qorunub saxlanmasını təmin etmək imkanlarına malik deyillər. Buna görə də ətrafa baxıb, kimin bizə nümunə ola biləcəyini axtarmalıyıq. Azərbaycanı misal gətirmək olar. Çünki Azərbaycan hələ qədimdən alimləri, tibb araşdırmaları ilə tanınmışdır. Bu baxımdan tədbirin xüsusi əhəmiyyətini qeyd etmək istəyirəm.

Mən bu regionun bir çox ölkələrində olmuşam, bir çox toplantılarda iştirak etmişəm. Lakin Azərbaycanın gördüyü iş məni çox fərəhləndirir və sizin ölkənizdə olmağıma çox şadam.

Diqqətinizə görə çox sağ olun.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimova söz verildi. O dedi:

– Hörmətli Mehriban xanım!

Hörmətli konfrans iştirakçıları, xanımlar və cənablar!

Heydər Əliyev Fondu ilə Vaşinqton Elmlər Akademiyası tərəfindən təşkil edilmiş bu beynəlxalq konfransın iştirakçılarını Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti adından ürəkdən salamlayır, konfransın səmərəli və uğurla keçməsini arzu edirəm.

Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun səmərəli səyləri nəticəsində Bakıda ilk dəfə olaraq, qədim tibb və əczaçılıq üzrə beynəlxalq konfrans keçirildi. Bu konfransda dünyanın 20-dən çox ölkəsindən nümayəndələr, tanınmış alimlər gəlmişdir.

Burada bir çox beynəlxalq və milli təşkilatların nümayəndələri iştirak edirlər. Məsələn: YUNESKO, Ümumdünya Tibb Tarixçiləri Cəmiyyəti, İngiltərə Tibb Tarixi Cəmiyyəti, Türkiyə Tibb Tarixi Cəmiyyəti, Azərbaycan Tibb Tarixçiləri Birliyi, Vaşinqton Elmlər Akademiyası, Azərbaycan Milli Elmlər Akademiyası, Beynəlxalq Əczaçılıq Tarixi Cəmiyyəti, Beynəlxalq

İslam Təbabəti Cəmiyyəti və bir çox başqa qurumlar təmsil olunur.

Konfrans çox mühüm bir hadisəyə həsr edilmişdir. Keçən il Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda mühafizə olunan orta əsr tibb əlyazmaları kolleksiyası YUNESKO-nun Dünya Yaddaşı Proqramına daxil edilmişdir.

Bu əlamətdar hadisəni qeyd etmək üçün Heydər Əliyev Fondu və Vaşinqton Elmlər Akademiyası Bakıda "Orta əsr əlyazmalarında ənənəvi tibb və əczaçılıq" adlı beynəlxalq konfrans təşkil etdilər.

Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti var. Bizə gəlib çatmış qədim əlyazmalar bunu tam aydınlığı ilə sübut edir. Azərbaycan Milli Emlər Akademiyasının Əlyazmalar İnstitutunda 11 mindən çox qədim əlyazma qorunur. Onlar müxtəlif zamanlarda, müxtəlif dillərdə, müxtəlif müəlliflər tərəfindən yazılmışdır. Bu əlyazmaların arasında şeir və nəsr əsərləri, eləcə də müxtəlif mövzularda kitablar vardır. O cümlədən, tibb və əczaçılığa aid 360-dan çox əlyazma qorunur.

YUNESKO bu əlyazmalardan üçünü seçib dünya yaddaşı siyahısına daxil etdi. Bunlar Əbu Əli İbn Sinanın, Əbülqasim Zəhravinin və Rüstəm Cürcaninin əsərlərinin əlyazmalarıdır.

Bu üç əlyazma, həqiqətən də, ümumdünya əhəmiyyəti kəsb edir. Məsələn, İbn Sinanın Azərbaycanda qorunan əsəri onun dünyada mövcud olan ən qədim əlyazmalarından biridir. Zəhravinin əlyazmasında yüzlərcə cərrahiyyə aləti təsvir edilmişdir. Rüstəm Cürcaninin əlyazması isə, ümumiyyətlə, Azərbaycandan başqa heç yerdə yoxdur.

Ümid edirəm ki, bu üç əlyazmanın dünya yaddaşı siyahısına salınması Azərbaycan əlyazmalarının dünyada tanınması istiqamətində atılmış ilk addımdır və gələcəkdə başqa qiymətli əlyazmalarımız da bu siyahıda yer alacaqdır.

Qədim Azərbaycan təbabəti və əczaçılığının çoxəsrlik irsini araşdırmaq və müasir tibb elminin istifadəsinə qaytarmaq alimlərimizin vacib vəzifələrindən biridir. Hazırkı konfrans bu istiqamətdə atılmış mühüm addımlardan biridir. İndi öz tariximizə yeni gözlə baxdığımız, elmi və mədəni dəyərlərimizin qaynaqlarını daha obyektiv meyarlarla araşdırmağa başladığımız bir vaxtda bugünkü konfrans sanki bizim zəngin keçmişimizə açılan pəncərədir.

Mən bir daha konfrans iştirakçılarını salamlayır, konfransın faydalı, səmərəli keçməsini arzulayıram.

Sonda konfransı təşkil edən Heydər Əliyev Fonduna və Vaşinqton Elmlər Akademiyasına dərin təşəkkürümü bildirirəm.

Sonra YUNESKO-nun informasiya cəmiyyəti bölməsinin direktoru Əbdüləziz Abid çıxış edərək dedi:

– Çox sağ olun, Mehriban xanım!

Bu konfrans sizin bu sahəyə verdiyiniz əhəmiyyətin bariz nümunəsidir. Mən sizə məlumat vermək istəyirəm ki, Dünya Yaddaşı Proqramı YUNESKO-nun dünyanın bütün xalqlarının irsinin qorunması sahəsində həyata keçirdiyi dünyamiqyaslı bir proqramdır. Bizim işimiz





bununla bitmir. Bu proqramın uğurlu olması üçün işlərimizi davam etdirməliyik. Bu proqram 1992-ci ildən gerçəkləşdirilir. Təbii fəlakətlər, müharibələr və münaqişələr nəticəsində bir çox mühüm tarixi sənədlər məhv olmuşdur. Lakin bu proqamın həyata keçirilməsi sayəsində qiymətli əlyazmalar rəqəmsal formata keçirilmişdir.

Proqramın iki əsas məqsədi var. Birincisi, ən müasir texnologiyalardan istifadə etməklə bu yazıları qorumaq və onları gələcək nəsillərə ötürmək.

İkinci məqsədimiz müasir texnologiyalar vasitəsilə bu sənədə çıxışı təmin etməkdir. Proqramın digər elementi YUNESKO-nun üzvü olan ölkələr arasında bu yazılı tarixi abidələr haqqında təşviqat kampaniyası aparmaq və insanları daha çox məlumatlandırmaqdır.

Proqramımız çox genişdir və biz tərəfdaşlarımızı, alimləri, jurnalistləri, tələbələri bu işə səfərbər edirik.

YUNESKO-nun Beynəlxalq Məşvərət Komitəsi artıq yeddi görüş keçirmişdir. Bu yaxınlarda keçirilmiş 7-ci iclasda bildirilmişdir ki, çox ölkələrdəki tarixi sənədlər müasir texnologiyalar vasitəsilə yazılmalı və ümumdünya mübadilə proqramına daxil edilməlidir.

Beynəlxalq Məşvərət Komitəsi 69 ölkədə öz ofisini açmışdır. Əminəm ki, Azərbaycanda da komitənin ofisi açılacaqdır. Komitənin əsas məqsədi YUNESKO-nun üzvü olan ölkələrə mədəni və tarixi irsin qorunması sahəsində öz tövsiyələrini verməkdir. Biz bu yaxınlarda Asiya və Sakit okean regionu, habelə Latın Amerikası və Karib dənizi ölkələrində regional layihələrin reallaşdırılması üçün bir sıra tədbirlər keçirmişik. Onlardan öz tarixi sənədlərini beynəlxalq siyahıya təqdim etmələri xahiş olunmuşdur. Bu siyahı üç hissədən ibarətdir. Sənədlərin siyahıya salınması onların təşviq olunmasına xidmət edir. Sənədlər məşvərət komitəsinin iclasının qərarı əsasında beynəlxalq siyahıya salınır. Bu, YUNESKO-nun mədəni irsin qorunması ilə bağlı digər proqramlarına bənzəyir. Hazırda beynəlxalq siyahıya 77 ölkədən tibb elminə və əczaçılığa aid 120-dən çox mühüm əlyazma daxil edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası da bu sahəyə öz töhfəsini vermişdir. Hazırda Azərbaycanda ən mühüm əlyazmalardan ibarət milli registrin yaradılmasına başlanılmışdır. Biz bunu çox yüksək dəyərləndiririk. Bu siyahıların tərtib olunması tarixi sənədlərin qorunub saxlanmasına böyük əhəmiyyət verildiyini göstərir.

Dünya Yaddaşı Proqramına təqdim olunan sənədlər müxtəlif meyarlar baxımından öyrənilir və sonra Məşvərət Komitəsi tərəfindən nəzərdən keçirilir. Siyahı olduqca mühüm siyahıdır və hər hansı sənədin oraya daxil edilməsi o qədər də asan prosedura deyildir. Bu proqram bir sıra pilot layihələrlə başlanmışdır və bunlardan əsas məqsəd sənədlərin saxlanmasının müasir və ənənəvi metodlarının öyrənilməsi, onların veb saytlara çıxarılması, dərc olunması yollarının araşdırılmasıdır. Bir çox sahələrdə proqramlarımız var. Məsələn, 6-7 il bundan əvvəl Praqada əlyazmalar rəqəmsal formata salınmışdır. Hazırda orada 30 min tarixi əlyazması rəqəmsal formatda saxlanılır.

Digər layihəni Yəməndə həyata keçirmişik. Bu layihə çərçivəsində müqəddəs Quranın

əlyazmasının müasir üsullarla qorunub saxlanmasına yönəldilmişdi. İstanbul Universitetində də mühüm layihə həyata keçirmişik. Burada da əlyazmaların saxlanması üsulları müzakirə edilmişdir.

Qahirədə islam dininə aid sənədlərin qorunub saxlanması ilə əlaqədar layihə həyata keçirmişik. Bu sənədlər kompakt disklərə köçürülmüş və çox yüksək keyfiyyətlə arxivləşdirilmişdir. Bu sənədlərdə islam alimlərinin tibb sahəsinə töhfələri əksini tapmışdır.

Hindistanın Mədrəs şəhərindəki institutda da bir layihə həyata keçirmişik. Oradakı sənədlərdə otlarla ənənəvi müalicə üsulları göstərilir. Özbəkistanda Əl-Biruni institutunda saxlanılan XIV-XVII əsrlərə aid əlyazmalarla bağlı layihə həyata keçirilmişdir.

Sonda demək istəyirəm ki, bir çox proqramlar var, biz onlar üzərində daim işləyirik. Bu sahədə həyata keçirilən layihələri əvvəlcə texniki komitəyə təqdim etmək lazımdır.

YUNESKO-nun üzvü olan ölkələrdən xahiş edirik ki, öz fikirlərini təqdim etsinlər. YUNESKO beynəlxalq siyahının tərtib edilməsi üçün xüsusi vəsait ayırmışdır.

Sonda sizin hamınızı YUNESKO-ya yardım etməyə çağırıram.

Çünki YUNESKO ümumbəşəri, tarixi əlyazmaların qorunmasına çalışır və bu sahədə mübarizə aparır.

Diqqətinizə görə çox sağ olun!

Mehriban Əliyeva: Çox sağ olun, cənab Abid!

– Əziz dostlar! Bununla da bizim konfransın açılış mərasimi başa çatır. Konfrans iyunun 13-14-də öz işini davam etdirəcəkdir.

Mən qeyd etmək istəyirəm ki, konfrans təkcə Bakı şəhərində keçirilmir, iyunun 14-də Yevlax şəhərində də davam edəcəkdir. Hesab edirəm ki, bu çox yaxşı haldır, çünki qonaqlarımız regionlarla, bölgələrlə də tanış olacaqlar.

Bir daha bütün qonaqlarımızı salamlayır, sizə cansağlığı arzulayıram, konfransda uğurlar arzulayıram. Sonda bir də qeyd etmək istəyirəm ki, Heydər Əliyev Fondu bütün beynəlxalq təşkilatlarla əməkdaşlığa açıq və hazır olan bir təşkilatdır.

Çox sağ olun.

Konfransın iştirakçıları Fondun foyesində Heydər Əliyev Fondunun layihələri çərçivəsində çapdan buraxılmış ayrı-ayrı nəşrlərlə, Azərbaycan mədəniyyəti və tarixinə həsr edilmiş audio-video albomlar, dərs vəsaitləri, məktəb ləvazimatları, musiqi diskləri ilə də tanış oldular.

Qonaqlar həmçinin Bakının görməli yerləri, tarixi, memarlıq, mədəniyyət abidələri ilə tanış olmaq, klassik muğam musiqisini dinləmək imkanı da əldə etdilər.

***"Azərbaycan" qəzeti,***
***13 iyun 2006-cı il***







## PARİSDƏ "QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI HAQQINDA" KONVENSİYANI RATİFİKASİYA ETMİŞ ÖLKƏLƏRİN BAŞ ASSAMBLEYASININ İLK İCLASI KEÇİRİLMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Assambleyasının YUNESKO-nun mədəniyyət bölməsinin təşəbbüsü ilə keçirilmiş ilk iclasında iştirak etmək üçün 2006-cı ilin iyunun 26-da Parisə gəlmişdir. Mehriban Əliyeva YUNESKO-nun baş direktoru tərəfindən yığıncağa dəvət olunmuş yeganə xoşməramlı səfirdir.

YUNESKO-nun iqamətgahına gələn Mehriban xanımı qurumun xoşməramlı səfirlər proqramının rəhbəri Basma İrşeyd, protokol rəhbəri Jan-Lük Şan və Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəliyinin başçısı, səfir Eleonora Hüseynova qarşıladılar.

Yığıncağı giriş sözü ilə baş direktorun mədəniyyət üzrə köməkçisi Fransuaz Ribiyer açdı. YUNESKO-nun baş direktoru Koişiro Matsuura qonaqları, o cümlədən ölkəmizdə şifahi

mədəni irsin qorunması və inkişaf etdirilməsində xüsusi xidmətləri olan, yeganə xoşməramlı səfir kimi belə mötəbər tədbirdə iştirak edən Mehriban Əliyevanı salamladı.

Baş direktor "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı artıq 45 ölkənin ratifikasiya etdiyini, son bir neçə ayda daha 7 dövlətin bu konvensiyaya qoşulduğunu xatırlatdı. Qeyri-maddi mədəni irsin hər bir xalqın tarixinin güzgüsü olmaqla yanaşı, bütün dünyanın sərvəti olduğunu vurğulayan cənab Koişiro Matsuura dedi ki, bu sərvətin qorunması hamının işidir. Baş direktor rəhbərlik etdiyi beynəlxalq təşkilatın bu sahədə gördüyü işlər barədə də məlumat verdi.

Əlcəzairin xarici işlər naziri, Yaponiyanın elm, təhsil və texnologiya naziri öz çıxışlarında ölkələrində qeyri-maddi mədəni irsin qorunması ilə bağlı görülən işlərdən söhbət açdılar, hər bir ölkənin konvensiyaya qoşulmasının vacibliyini xüsusi vurğulayaraq xalqların keçmişindən xəbər verən istər maddi, istərsə də qeyri-maddi mədəni irsin son vaxtlar bəzi ölkələr tərəfindən vəhşiliklərə məruz qaldığını bildirdilər və YUNESKO-nu öz nüfuzundan istifadə edərək belə halların qarşısını almağa çağırdılar.

İbtidai icma dövründən bu günə kimi yaradılmış və nəsildən-nəslə ötürülmüş qeyri-maddi mədəni irsin mənsub olduğu xalqın tarixini özündə əks etdirdiyini söyləyən nazirlər bu irsin qorunması sahəsində ölkələrarası əməkdaşlığın yaranması və inkişaf etdirilməsinin vacibliyini, bu sahədə xüsusi səriştəsi olan ölkələrin təcrübəsindən istifadənin əhəmiyyətini vurğuladılar.

Mehriban xanım Əliyeva iclasda çıxış edərək dedi:

– Cənab baş direktor, xanımlar və cənablar!

İlk növbədə, qeyri-maddi mədəni irsin qorunması haqqında konvensiyanın qüvvəyə minməsi kimi əlamətdar hadisə münasibətilə sizin hamınızı təbrik etmək istəyirəm.

Mən iştirakçı dövlətlərin Baş Assambleyasında iştirak etmək üçün dəvətinə, eləcə də bu konvensiyanın üzv dövlətlər tərəfindən tezliklə ratifikasiyasına yönəlmiş səylərinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya minnətdarlığımı bildirirəm.

Qeyri-maddi mədəni irs dünya xalqlarının genetik əsasını təşkil edir. Həmin əsas əsrlər boyu qurulmuş və xalqların, etnik qrupların formalaşmasında, özlərinin ümumilliyinin dərk edilməsində və sonra isə millətlərin və dövlətçiliyin formalaşmasında vacib rol oynamışdır.

Bu gün biz dünya xəritəsində bir çox millətlərin yaşadığı 190-dan çox dövlət görürük. Onların hər birinin özündə maddi və qeyri-maddi mədəni dəyərləri birləşdirən özünəməxsus tarixi irsi var. Hər bir dövlətin vəzifəsi nəinki həmin dəyərlərin qorunması, həm də yeni nəsillərin həmin dövlətin özünəməxsus adət və ənənələri əsasında tərbiyələndirilməsi üçün şərait yaradılmasından ibarət olmalıdır.

Bəşəriyyətin hazırkı inkişaf mərhələsi insanın praktik olaraq bütün fəaliyyət sahələrini əhatə etmiş qloballaşma ilə səciyyələnir. Təbii ki, qloballaşma özü ilə bir çox üstünlüklər gətirir və bəşəriyyət qarşısında duran problemlərin həlli üçün yeni imkanlar açır. Xüsusən





də müxtəlif mədəniyyətlərin bir-birinə qovuşması və hər mədəniyyətin bütün bəşəriyyət üçün dəyərinin qavranılması baş verir. Lakin eyni zamanda, qloballaşma yeni təhdidlər və çağırışlarla müşayiət olunur. Onlardan ən təhlükəlisi isə stereotiplərin diktə olunmasıdır. Bunların sırasında ən zəifi məhz qeyri-maddi mədəni dəyərlərdir. Bu gün nəinki incəsənət əşyalarının, həm də adət-ənənələrin, ritualların, yeni mədəniyyətin ən qədim ifadə formasının qorunmasına ehtiyac duyulur.

Bu, həmçinin yaranmış qeyri-dözümsüzlük, dinlərarası toqquşma, terrorçuluq və ekstremizm meylləri qarşısında mühüm əhəmiyyət kəsb edir. Bir çox hallarda həmin meyllərin əsasında mədəni bələdçi istiqamətlərin və dəyərlərin itirilməsi durur. Bütün sivil xalqlar bu bəlaya qarşı mübarizədə öz səylərini birləşdirməlidir, çünki bu maneəni yalnız birbaşa və səmimi dialoq vasitəsilə aradan qaldırmaq olar.

Bu baxımdan Konvensiyanın qüvvəyə minməsi bəşəriyyətin mədəni irsinin qorunub saxlanılmasına yönəlmiş və vaxtında atılmış addımdır.

"Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya dünya mədəniyyətinə böyük töhfə vermiş Azərbaycan xalqı üçün də böyük əhəmiyyət daşıyır.

Azərbaycan qədim ölkədir, lakin gənc müstəqil dövlətdir. Azərbaycanın əsrlər boyu qorunmuş və saxlanılmış mədəni irsi, ənənələrimiz, musiqimiz, dilimiz, adətlərimiz siyasi sabitliklə birlikdə bizim müstəqilliyimizin təminatçısıdır. Azərbaycan muğamı 2003-cü ildə bəşəriyyətin şifahi və qeyri-maddi irsi incilərinin siyahısına daxil edilmişdir. Muğam qədim incəsənətdir və onun dərin fəlsəfəsi bir nəsildən digər nəslə ötürülməlidir. Xalq yaradıcılıq sənətinin qorunması, bərpası və inkişafı Azərbaycanda dövlətin mədəniyyət siyasətinin prioritetlərindən biridir.

Azərbaycan çoxmillətli ölkədir və bu, xalqımızın sərvətidir. Milli azlıqların mədəniyyətinin inkişafı daim dövlətin diqqət mərkəzindədir. Müxtəlif dinlərə aid bütün tarixi abidələr dövlət tərəfindən qorunur və saxlanılır. Azərbaycanlıların dini dözümlülüyü dünyada yaxşı məlumdur və yüksək qiymətləndirilir.

Mən iclas iştirakçılarını məmnunluq hissi ilə məlumatlandırmaq istəyirəm ki, konvensiyanın ratifikasiyası prosesi Azəbaycanda son mərhələdədir və yaxın gələcəkdə bizim ölkəmiz həmin konvensiyanın iştirakçısı olan dövlətlərin siyahısına daxil olacaqdır.

Bu gün dünyada münaqişələr mövcuddur, müharibələr gedir. Bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni dəyərlər məhv edilir. Bir çox şeylər birdəfəlik itirilir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində xalqımızın yüzlərlə qədim memarlıq və mədəniyyət abidələri dağıdılıbdır. Ənənəvi olaraq ən yaxşı muğam ustalarının doğulub boya-başa çatdığı şəhərlər bu gün tamamilə yerlə yeksan edilibdir. Bununla bağlı, icazə verin, münaqişələr zonalarında yerləşən mədəni və tarixi abidələrin taleyinə beynəlxalq təşkilatlar və bütövlükdə dünya ictimaiyyətinin daha böyük diqqətinin vacibliyini bir daha vurğulayım. Mədəni irsə qarşı təcavüz qəbuledilməzdir.

Öz mədəniyyətinə hörmət edərək və onu qoruyaraq, eyni zamanda, ümumbəşər və dünya mədəniyyətinə də hörmətlə yanaşmaq və onu qorumaq vacibdir.

Hörmətli dostlar!

Bu gün dünyada cərəyan edən hadisələrlə bağlı birmənalı yekun fikirlər söyləmək kifayət qədər çətindir. Lakin bir məsələ tam aydındır: mədəniyyət daha geniş anlamda müasir cəmiyyətin bir çox problemlərini həll edə biləcək universal vasitədir. Buna görə də bəşəriyyətin mədəni irsinin qorunması və saxlanılması bizim üçün olduqca vacibdir.

Sonda mən bu Konvensiyanın tezliklə ratifikasiyasına yönəlmiş böyük səylərinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Mən sizin hamınıza gələcək illər ərzində uğurlu və məhsuldar iş arzulayıram.

Çox sağ olun!

Mehriban xanım Əliyevanın çıxışı sürəkli alqışlarla qarşılandı. İclasda "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyaya qoşulmuş ölkənin xarici işlər, təhsil, elm və mədəniyyət nazirləri, səlahiyyətli nümayəndələri, YUNESKO yanında daimi nümayəndəliklərin rəhbərləri iştirak edirdilər.

*"Azərbaycan" qəzeti,*
***28 iyun 2006-cı il***







## YUNESKO-da AZƏRBAYCAN GÜNÜ KEÇİRİLMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNESKO-nun 60 illiyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda" adı altında keçirilən Azərbaycan günü ilə bağlı tədbirdə iştirak etmək üçün Parisə gəlmişdir.

YUNESKO-nun iqamətgahında Mehriban xanımı təşkilatın baş direktorunun müavini Marsio Barboza, protokol idarəsinin başçısı Jan Lük Şan, xoşməramlı səfirlər proqramının rəhbəri Basma İrşed, Azərbaycanın YUNESKO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Eleonora Hüseynova və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.

Azərbaycan günü YUNESKO-nun sərgi salonunda təşkil olunmuş və respublikamızın gözəl mənzərələrini, zəngin mədəniyyətini, tarixini, xalqımızın adət-ənənələrini, mədəni irs nümunələrini, azsaylı xalqların həyatını əks etdirən fotoşəkillərdən, misgərlik sənətinin nümunələrindən ibarət sərgi ilə açıldı.

Sərgini açan Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayev xoşməramlı səfir Mehriban xanım Əliyevanın səyləri sayəsində son zamanlar YUNESKO ilə Azərbaycan arasında

hərtərəfli əməkdaşlığın inkişaf etdiyini xüsusi vurğulamış, təhsil sisteminin yenidən qurulmasında təşkilatın ölkəmizə köməyindən, Azərbaycanda milli azlıqların mədəniyyətinin inkişafına dövlət qayğısından, mədəni və qeyri-maddi irsin qorunub saxlanılmasında, abidələrimizin Dünya mədəni irs siyahısına daxil edilməsində YUNESKO-nun rolundan danışmışdır.

Xoşməramlı səfir Mehriban xanım Əliyeva və təşkilatın baş direktoru Koişiro Matsuura sərgi ilə yaxından tanış olmuşlar.

Sonra Mehriban Əliyeva açılış mərasimində çıxış edərək dedi:

– Xanımlar və cənablar! Hörmətli qonaqlar!

İlk növbədə, mən sizin hamınızı Azərbaycan gününün təqdimatında salamlamaq və bu cür mühüm tədbirdə iştirak etdiyinizə görə öz təşəkkürümü bildirmək istəyirəm.

Bu gün burada bizimlə birgə olduğuna görə YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuraya xüsusi minnətdarlığımı ifadə edirəm.

Bu il biz YUNESKO-nun 60 illiyini qeyd edirik. Ötən 60 il ərzində YUNESKO dünya mədəniyyəti, təhsili və elminin inkişafına, habelə müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasındakı dialoqa böyük töhfə vermişdir. Sülh, dözümlülük, mədəni irs kimi universal dəyərlər YUNESKO-nun fəaliyyətinin əsasını təşkil edir. Yoxsulluğun azaldılması, hamı üçün təhsil və dünyadakı bütün millətlərin inkişafı həmin fəaliyyətin ayrılmaz hissəsidir.

Bu gün biz YUNESKO-nun "Dözümlülük həftəsi – Sivilizasiyalararası dialoq" çərçivəsində Azərbaycan gününü keçiririk və fikrimizcə bu, çox rəmzi xarakter daşıyır. Çünki dünən bizim bir müstəqil ölkə kimi 15 yaşımız tamam oldu.

Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə seçilən qədim diyardır.

Əsrlər boyu Azərbaycan sivilizasiyalar arasında dialoqun aparılmasında mühüm rol oynamışdır. Ölkəmiz Şərqlə Qərbin qovuşduğu məkanda yerləşir. Şərqdə ilk demokratik respublika 1918-ci ildə məhz Azərbaycanda qurulmuşdur. Bu, bütün müsəlman dünyasında Avropa tipli ilk parlament respublikası olmuşdur.

Eyni zamanda, müsəlman ölkələri arasında ilk opera, balet, teatr, qadın məktəbləri, azad mətbuat, kişi və qadınlar üçün bərabər seçki hüququ Azərbaycanda təşəkkül tapmışdır.

Hazırda Azərbaycan Avropa dəyərlərini bölüşən və getdiyi yolu tam anlayan müasir ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri də ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlət, yüksək dözümlülüyü ilə seçilən bir ölkədir.

Tarixən Azərbaycan çoxmillətli ölkə olubdur. Buradakı bütün milli azlıqlar Konstitusiya əsasında bərabər hüquqa malikdir və bir ailə kimi yaşayır. Dini və etnik dözümlülük əldə etdiyimiz uğurların əsas elementidir və bizim sərvətimizdir.

Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın tarixi müstəqilliyimiz dövründən başlayır. Ötən illər ərzində təhsil, elm və mədəniyyət sahələrində bir çox birgə layihələr həyata keçirilmişdir. Azərbaycanın maddi və qeyri-maddi mədəni abidələri artıq YUNESKO-nun





Dünya irsi siyahısındadır. Məsələn, YUNESKO tərəfindən İçərişəhər dünyanın ən gözəl abidələri siyahısına, Azərbaycan muğamı isə Qeyri-maddi irs siyahısına salınmışdır.

Cənab Koişiro Matsuura 2005-ci ildə Azərbaycana etdiyi səfəri zamanı YUNESKO-nun dəstəyi ilə tikilən Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Həmin vaxt biz eyni zamanda "YUNESKO – Azərbaycan: gələcəyə körpü" adlı beynəlxalq konfrans keçirdik, təhsil məsələlərini müzakirə etdik. İndi isə Azərbaycanı regionda ən yaxşı təhsil sistemi nümunəsinə çevirmək arzusundayıq.

Eyni zamanda, biz YUNESKO ilə birlikdə qaçqın və məcburi köçkün uşaqlar üçün mühüm təhsil layihələri həyata keçiririk. YUNESKO ilə əməkdaşlığımız "Atəşgah" məbədinin bərpası, Qobustanın Dünya mədəni irs siyahısına salınması kimi layihələri də əhatə edir.

Azərbaycan YUNESKO ilə nəinki ölkə daxilində layihələr üzrə əməkdaşlıq edir. YUNESKO-nun məqsədlərinə uyğun olaraq beynəlxalq ictimaiyyətin hər bir üzvünün ehtiyac duyan digər ölkələrə və xalqlara yardım etməsi zəruridir. YUNESKO ilə birlikdə biz Pakistanın Müzəffərabad şəhərində zəlzələ nəticəsində dağılmış məktəbi yenidən tikməyi planlaşdırırıq. Bütün bunlar onu göstərir ki, Azərbaycan ilə YUNESKO arasındakı əməkdaşlıq çox məhsuldar, geniş və uğurludur.

Hörmətli dostlar!

Bu gün mən, bir tərəfdən, ölkəmi – Azərbaycan Respublikasını bir mötəbər məclisdə təmsil etməkdən böyük şərəf hissi duyuram. Digər tərəfdən isə, YUNESKO-nun xoşməramlı səfiri kimi yenidən sizinlə öz ümumi ailəmizdə olmağıma çox şadam.

Yekun olaraq, icazə verin, bu cür təntənəli tədbirə gəldiyinizə görə hamınıza bir daha minnətdarlığımı bildirim və uğurlar arzulayım. Əminəm ki, tədbir xoşunuza gələcəkdir.

Diqqətinizə görə sağ olun.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxış edərək demişdir:

– Hörmətli Azərbaycan Respublikasının birinci xanımı! Xanımlar və cənablar!

İlk növbədə, onu demək istəyirəm ki, xanım Əliyeva burada çox gözəl bir nitqlə çıxış etdi. Heç bir mətndən istifadə etmədi. İndi mən tərəddüd edirəm ki, mətndən istifadə edim, ya etməyim. O, bizim üçün yaxşı bir nümunə göstərdi. Mən də çalışacağam ki, onun göstərdiyi nümunəyə uyğun olaraq öz sözlərimi bildirim.

Mən, eyni zamanda, xanım Əliyevanı bir daha salamlamaq, burada keçirilən tədbirlə bağlı şəxsən öz adımdan və YUNESKO adından öz minnətdarlığımı bildirmək istəyirəm. Belə tədbirlər keçirməklə YUNESKO ilə Azərbaycan arasında əməkdaşlıq get-gedə daha da möhkəmlənir.

Son illər bir çox sahələrdə, xüsusən də təhsil və mədəniyyət sahələrində əməkdaşlıq aparılmışdır. Xanım Əliyevanın fəaliyyəti bir çox konkret layihələrin həyata keçirilməsi ilə bizim yaddaşımızda qalmışdır. Xanım Əliyeva bu işləri görərkən nəinki Azərbaycan Respublikasının birinci xanımı, eyni zamanda, YUNESKO-nun xoşməramlı səfiri kimi qarşılıqlı

münasibətlərimizin möhkəmlənməsinə olduqca böyük töhfə vermişdir.

Xanım Əliyeva, mən Sizə öz dərin minnətdarlığımı bildirirəm ki, bu istiqamətdə çox geniş və nümunəvi bir fəaliyyət göstərmisiniz. Mənim xatirimdədir, 2005-ci ildə Azərbaycana səfər etmişdim və biz təhsil sisteminin islahatı ilə bağlı bir çox təşəbbüslər irəli sürmüşdük. Bu baxımdan YUNESKO Azərbaycana öz yardımını göstərəcəkdir. Biz bu cür işlərin yüksək səviyyədə aparılmasından olduqca məmnunuq və bilirik ki, bu təşəbbüslərin əsas məqsədi Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi ilə bağlıdır. Ümidvaram ki, Azərbaycanda gələcək nəsil üçün daha yüksək keyfiyyətli təhsilin təmin edilməsində böyük işlər görə biləcəyik. Gənclər üçün keyfiyyətli təhsilin təmin edilməsi Azərbaycan üçün çox vacibdir.

Eyni zamanda, xanım Əliyeva mədəniyyət sahəsindən də çox konkret misallar gətirərək, Qeyri-maddi və maddi mədəni irs sahələrində aparılmış YUNESKO ilə Azərbaycan arasında əməkdaşlıq haqqında danışdı. Azərbaycanda bəzi abidələrin Dünya mədəni irs siyahısına salınması ilə bağlı fikirlər səsləndi. Biz qeyd etmək istəyirik ki, onlardan biri Qobustandır. Mən Azərbaycana səfərim zamanı xanım Əliyeva ilə birlikdə Qobustana getdim, orada Azərbaycan hökumətinin üzvləri də var idi. Orada Azərbaycan xalqının qədim tarixinin izlərini, qayaların üzərində olan təsvirləri görməkdən çox şad oldum. İndi bu sahədə işlər aparılır. Bu yaxınlarda Ümumdünya Mədəni İrs Komitəsinin iclası gözlənilir. Azərbaycanın da sənədlərinə baxılacaq və mən bu sahədə Azərbaycana uğurlar arzulayıram.

Eyni zamanda, demək istəyirəm ki, Azərbaycanda Qeyri-maddi mədəni irsin çox gözəl nümunəsi var, bu, Azərbaycan muğamıdır. Artıq YUNESKO bu məsələyə xüsusi diqqət yetirərək Azərbaycan muğamını Qeyri-maddi mədəni irs siyahısına salmışdır. Mən Bakıda olarkən Beynəlxalq Muğam Mərkəzinin tikintisinin təməlinin qoyulması mərasimində şəxsən iştirak etdim. Xanım Əliyeva və Azərbaycan Respublikasının dövlət başçısı da həmin mərasimdə iştirak edirdilər. Mən ümidvaram ki, yenidən Sizin ölkənizə gələcəyəm ki, Muğam Mərkəzinin açılış mərasimində iştirak edim. Səbirsizliklə Bakıda növbəti görüşlərimizi gözləyirəm. Ümidvaram ki, biz bu işlərimizi başa çatdıracağıq və Azərbaycanın digər mədəni abidələri də Qeyri-maddi mədəni irs siyahısına salınacaqdır.

Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığa dair konkret misallar gətirərək, eyni zamanda, hesab edirəm ki, gələcəkdə də görəcəyimiz işlər çoxdur. Bilirəm ki, Azərbaycanın çox gözəl musiqisi var, çox gözəl mədəni abidələri var və onların hamısı bu siyahıya salınmağa layiqdir.

Xanım Əliyeva, təşəbbüs göstərib bu mühüm tədbiri təşkil etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

Rəsmi hissədən sonra Azərbaycanın incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etmişlər.

Böyük uğurla keçən konsertdə dünya şöhrətli fransız müğənnisi Patrisia Kaas bir neçə mahnı oxumuş, tamaşaçılara "Can, Azərbaycan!" sözləri ilə müraciət etmişdir.





Konsertdən sonra səhnə arxasına gələn Mehriban Əliyeva sənətçilərlə görüşüb səmimi söhbət etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

Axırda Azərbaycan günü münasibətilə ziyafət verilmiş, qonaqlar zəngin mətbəximizin ləziz yeməklərini dadmışlar.

Görüşdən sonra YUNESKO-nun baş direktoru Koişiro Matsuura xoşməramlı səfir Mehriban Əliyevanın şərəfinə ziyafət vermişdir.

*"Azərbaycan" qəzeti,*
*21 oktyabr 2006-cı il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN ƏZİZBƏYOV RAYONU İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞÜ

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2006-cı ilin noyabrın 6-da Bakının Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsində Fuad Fərhadoğlu adına 230 nömrəli orta məktəbdə seçicilərlə görüşmüşdür. Çıxış edərək o demişdir:

– Əziz və hörmətli dostlar!

İlk növbədə, mən sizi salamlayıram, sizi görməyə çox şadam və bir il bundan öncə, 2005-ci il 6 noyabr parlament seçkilərində mənə etimad göstərdiyinizə görə sizə səmimi minnətdarlığımı bildirirəm. Həm seçki kampaniyası dövründə, həm də sonrakı görüşlərimizdə olan səmimiyyət, xoş əhval-ruhiyyə, göstərdiyiniz xoş münasibət və hörmət mənim üçün çox əzizdir və unudulmazdır.

Demək olar ki, ilk görüşlərimizdən biz rayonda olan problemləri birlikdə araşdırıb müzakirə





edir, onların həlli üçün yollar axtarırdıq. Həmin görüşlər zamanı biz Əzizbəyov rayonunun gələcək inkişaf planını, əsas perspektivlərini müəyyən edirdik.

Yəqin siz də razılaşarsınız ki, bir il o qədər də uzun müddət deyildir. Amma mən qürur hissi ilə demək istəyirəm ki, bir il ərzində biz qarşıya qoyduğumuz çox məqsədlərə nail olmuşuq. Bu gün konkret işlərin konkret nəticələrini görürük. Bugünkü görüşümüz yenidən inşa olunmuş, dünyanın ən yüksək standartlarına cavab verən 230 nömrəli məktəbdə keçirilir.

Mən yaxşı xatırlayıram, Şimal DRES-i qəsəbəsinin sakinləri ilə seçkiqabağı görüşümdə şagird və müəllimlər bildirdilər ki, məktəb çox yararsız vəziyyətdədir. Mən özüm də gəldim, bunun əyani şahidi oldum. Dərhal bütün zəruri tədbirlər həyata keçirildi. Bu gün artıq bizim balaca uşaqlar, məktəblilər ən müasir tələblərə cavab verən binada təhsil alırlar. Məktəbin geniş, işıqlı sinif otaqları, bütün fənn laboratoriyaları, idman salonu, kompyuter otaqları, kitabxanası, yeməkxanası, idman meydançası var. Eyni zamanda, müəllimlərin də iş şəraiti nümunəvidir.

Siz bilirsiniz ki, Heydər Əliyev Fondu ilk gündən təhsilin inkişafını fəaliyyətinin prioritet istiqaməti müəyyən etmişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkəmizdə böyük rəğbətlə qarşılanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2005-ci ildə ölkəmizdə 132, 2006-cı ildə 60 yeni məktəb inşa olunub, təzə, ən müasir avadanlıqla təmin edilərək istifadəyə verilmişdir. İndi ən ucqar kəndlərimizdə də bizim uşaqlarımız təmiz, yeni, müasir, işıqlı məktəblərdə təhsil alır.

Əzizbəyov rayonunda da bir çox məktəblər tikilir. Uşaq bağçaları və internat evlərində əsaslı təmir işləri aparılır. Yollar abadlaşır, su xətləri çəkilir. Məndən əvvəl çıxış edən əməkdaşımız görülmüş işlər barədə geniş məlumat verdi. Mən yalnız sizin diqqətinizə bəzi rəqəmləri çatdırmaq istəyirəm.

Təhsil müəssisələri: 820 yerlik 5 internat məktəbinin yenidən qurulması, 150 yerlik yay düşərgəsinin inşası, 6138 şagird yerlik 8 ümumtəhsil məktəbinin, 230 yerlik 3 uşaq bağçasının yenidən qurulması, təlim-tədris mərkəzinin yaradılması;

Səhiyyə müəssisələri: müasir avadanlıqla təchiz edilmiş 25 çarpayılıq xəstəxananın, poliklinikanın, təcili yardım stansiyasının və aptekin yenidən qurulması;

Mədəniyyət müəssisələri və dini abidələr: 860 yerlik 2 mədəniyyət evinin yenidən qurulması, bir kitabxananın inşa edilməsi, bir abidənin və barelyefin, 3 məscidin və ziyarətgahın yenidən qurulması;

İnfrastruktur: 3 qəsəbənin giriş qapısının inşası, 3 qəsəbəyə 45 kilometr uzunluğunda su xəttinin çəkilməsi, 63 kilometr uzunluğunda qəsəbələrarası və qəsəbədaxili avtomobil yollarının yenidən qurulması, 27 avtobus dayanacağının, 110 kilovoltluq yardımçı stansiyanın istifadəyə verilməsi, 512 işıq dirəyinin quraşdırılması, 2 qəsəbə parkının yenidən qurulması.

Bunları xatırlatmaqda məqsədim odur ki, bir il ərzində biz qarşımıza qoyduğumuz çox məqsədlərə nail olmuşuq, bu işlərin konkret nəticələrini görürük.

Siz bilirsiniz ki, Əzizbəyov rayonunun ağsaqqallarının təşəbbüsü ilə "Əzizbəyov rayonunun inkişafı fondu" yaradılıb və artıq fəaliyyət göstərir. Mən çox şadam ki, bu fondun gündəlik işində də qəsəbələrin sakinləri çox fəal iştirak edirlər. Fond yaradıldığı ilk gündən Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq edir. Bizim nümayəndələrimiz qəsəbə sakinləri ilə mütəmadi görüşlər keçirirlər.

Bir məsələni xüsusi vurğulamaq istərdim. Mənim mövqeyim ondan ibarətdir ki, irimiqyaslı, uzunmüddətli layihələrlə yanaşı, gündəlik həyatda insanları narahat edən problemlərin araşdırılması çox vacibdir, bunların həlli üçün yollar tapmaq lazımdır. Ehtiyacı olan insanlara yardım göstərmək lazımdır. Mən həmişə çalışıram işimizi elə quraq ki, bu problemləri də daim çözə bilək.

Əziz dostlar, əlbəttə, bu gün rayonumuzda hələ həllini tapmayan problemlər də mövcuddur. Biz hamımız istəyirik ki, rayonumuzda bütün uşaq bağçaları, məktəblər ən yüksək standartlara cavab versin. Yeni müalicə-diaqnostika mərkəzləri, idman sarayları tikilsin, yeni iş yerləri açılsın, qaz problemi tamamilə həllini tapsın, təkcə mərkəzi yollar yox, qəsəbədaxili yollar da abadlaşsın.

Məncə, bunların hamısına nail olmaq üçün əsas iki amil lazımdır. Birinci, siyasi sabitlik, ikincisi də iqtisadi inkişaf. Bu gün bizim ölkəmizdə bunların ikisi də var. Siz bilirsiniz ki, Azərbaycan regionda aparıcı dövlətdir. İqtisadi inkişafın göstəricilərinə baxsaq görərik ki, biz dünyada lider ölkəyik. Azərbaycanın hər bir rayonunda, hər bir regionunda inkişaf gedir, islahatlar aparılır, yeni məktəblər, xəstəxanalar açılır, yeni zavodlar, fabriklər tikilir, yeni iş yerləri açılır, respublikamızın ən ucqar kəndlərinə yollar çəkilir. Mən inanıram ki, möhkəm iradə olanda, qarşıya qoyduğumuz hər bir məqsədə nail ola biləcəyik.

Əziz dostlar, mənim fəaliyyətim haqqında dediyiniz ürək sözlərinə görə sizə çox böyük, dərin minnətdarlığımı bildirirəm. Biz formalaşmış, möhkəm güclü bir komandayıq, ona görə hər bir arzumuzu həyata keçirəcəyik.

Cənab Prezidentin mənə bir tapşırığı var, onu sizə çatdırmaq istəyirəm. Cənab Prezident sizin hamınıza möhkəm cansağlığı, ailə səadəti, uzun ömür və işlərinizdə uğurlar arzulayır. Mən də bu arzulara qoşuluram.

*"Azərbaycan" qəzeti,*
*7 noyabr 2006-cı il*








## HEYDƏR ƏLİYEV FONDUNDA GÖRKƏMLİ ŞƏRQŞÜNAS ALİM AİDA İMANQULİYEVANIN "YENİ ƏRƏB ƏDƏBİYYATININ KORİFEYLƏRİ" KİTABININ TƏQDİMATINA VƏ FONDUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVAYA İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ ADININ VERİLMƏSİNƏ HƏSR EDİLMİŞ MƏRASİM KEÇİRİLMİŞDİR

2006-cı ilin noyabrın 23-də Heydər Əliyev Fondunda görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabının təqdimatına və Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya İslam Ölkələri Təhsil, Elm, Mədəniyyət Təşkilatının (İSESKO) xoşməramlı səfiri adının verilməsinə həsr edilmiş mərasim keçirilmişdir. Mərasimi Fondun icraçı direktoru Anar Ələkbərov açdı.

Bakı Dövlət Universitetinin professoru, AMEA-nın müxbir üzvü Vasim Məmmədəliyev keçmiş SSRİ məkanında ən nüfuzlu şərqşünas alimlərdən olan Aida İmanquliyevanın ölkəmizdə bu elm sahəsinin inkişafına verdiyi töhfələri xatırladaraq İSESKO-nun

təşəbbüsü ilə ərəb dilində nəşr olunmuş "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabının elmi dəyərindən danışdı. Yeni ərəb ədəbiyyatı anlayışına dair açıqlama verən Vasim Məmmədəliyev kitabda haqqında bəhs edilən Cübran Xəlil Cübran, Əmin ər-Reyhani və Mixail Nüaymənin bütün ərəb şərqində yeni ədəbi oyanış, üslub, ab-hava yaratdıqlarını bildirdi. O dedi ki, Aida xanım ərəb mühacir (məhcər) ədəbiyyatının beynəlxalq miqyasda ən görkəmli tədqiqatçısıdır. Bunu Avropa və ərəb tədqiqatçıları da etiraf edirlər. Keçmiş SSRİ-də yeni ərəb ədəbiyyatının öyrənilməsi məşhur İ.Kraçkovski tərəfindən başlanmışdısa, bu sahədə araşdırmaların zirvəsi Aida xanımın yaradıcılığıdır. Aida İmanquliyeva keçmiş Sovet İttifaqında, o cümlədən Azərbaycanda yeni ərəb ədəbiyyatı kursunun yaradıcılarından biridir.

Mehriban xanımın ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına, konkret insanların qayğı və problemlərinə göstərdiyi diqqətdən, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətindən bəhs edən Vasim Məmmədəliyev ziyalıların, ictimaiyyətin bu işləri yüksək qiymətləndirdiyini, İSESKO-nun xoşməramlı səfiri adının qadınlar arasında ilk dəfə olaraq Azərbaycanın birinci xanımına verilməsini onun xidmətlərinin təsdiqi olduğunu vurğuladı. Çıxışını ərəb dilində davam etdirən Vasim Məmmədəliyev bütün dünyada elmin, mədəniyyətin, təhsilin inkişafına verdiyi dəstəyə görə təşkilatın baş direktoruna Azərbaycan alimlərinin təşəkkürlərini çatdırdı.

Sonra İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri çıxış edərək dedi:

– Ötən il Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdən çox böyük təəssürat almışam, qəlbimdə silinməz iz buraxıbdır. Mən zati-ailələrinə İSESKO-nun baş mükafatını təqdim etmişəm. Bu, cənab İlham Əliyevin İSESKO-ya göstərdiyi böyük dəstəyin, islam aləmində aparılan böyük işlərə onun qoşulmasının göstəricisi idi. İndi isə mən böyük məmnuniyyətlə Azərbaycanın birinci xanımının mərhum anası, professor Aida xanım İmanquliyevanın, – Allah ona rəhmət eləsin, – yazdığı kitabın təqdimatında iştirak edirəm. Onun müasir ərəb ədəbiyyatının korifeyləri haqqında əsərinin təqdimatında iştirak etməkdən qürur duyuram.

Kitabın ilk oxucularından biri kimi tədqiqat məni valeh etdi, çünki bu istiqamətdə mən də tədqiqatlar aparırdım, əsasən də Cübran, Ər-Reyhani, Nüaymənin yaradacılığını araşdırmışam. O daha dərin aparıb, bu nəşr bütün İslam ölkələrində geniş əks-səda yaradacaqdır. Buradan görünür ki, müəllif ərəb ədəbiyyatı ilə yanaşı, rus, dünya ədəbiyyatını da dərindən bilirmiş. Xanım Aida İmanquliyevanın kitabı islam dünyasının ayrılmaz tərkib hissəsi olan Azərbaycanla ərəb dünyası arasında qurulan körpü olacaqdır. Ərəbistandan Atlantik okeanına qədər ərazidə oxunacaq, Mərakeşdən Bakıya qədər yayılacaq, geniş şöhrət qazanacaqdır. Bu kitabın nəşri də bizim təşkilatın məramına tam uyğundur. Allahdan Aida xanıma rəhmət diləyirəm.

Heydər Əliyev Fondunun fəaliyyəti ilə yaxından tanışam və bu məcrada davam edəcəyinə inanıram. Ərəb və islam dünyasının ayrılmaz tərkibi olan Azərbaycanın əlaqələrinin





güclənməsinə yönəldiləcək, təkcə elm, mədəniyyət sahəsində yox, digər sahələrdə də əməkdaşlıq genişlənəcəkdir.

İSESKO ilə həm Heydər Əliyev Fondu, həm də Təhsil Nazirliyi arasında yaxın vaxtlarda saziş imzalanacağına inanıram və bu, əlaqələrimizin inkişafına daha böyük təkan verəcəkdir.

Mehriban xanıma bu qurum ən yüksək fəxri adının verilməsi ilə əməkdaşlıq bundan sonra daha da genişlənəcəkdir. İSESKO-nun tarixində ilk dəfədir ki, bu ad xanıma verilir. Mehriban xanım sivilizasiyalararası dialoq və digər cəsarətli fəaliyyətləri çərçivəsində gördüyü genişmiqyaslı işlərə görə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə verdiyi dəstəyə görə bu ada tam layiqdir. Cəmi 4 nəfər bu adı alıbdır. Dünyanın bu ağır günlərində, cəsarətli insanlara ehtiyac duyulduğu bir zamanda, münaqişələrin qarşısının alınmasında, sivilizasiyalararası dialoqun aparılmasında xidmətlərinə, islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban xanıma İSESKO-nun ən yüksək adını veririk. Bu, İSESKO-ya da, islam aləminə də şərəf gətirəcəkdir.

Baş direktor İSESKO-nun xoşməramlı səfiri diplomunu Mehriban xanıma təqdim etdi. Çıxış edərək Mehriban Əliyeva demişdir:

– Hörmətli cənab baş direktor! Hörmətli xanımlar və cənablar! Əziz qonaqlar!

Sizi Heydər Əliyev Fondunda salamlayıram. Sizləri Fondumuzda görməyə çox şadam. Xoşməramlı səfir kimi yüksək ada layiq görüldüyümə görə İslam Ölkələri, Təhsil, Elm və Mədəniyyət Təşkilatına və cənab Əbdüləziz bin Osman əl-Tuveycri, şəxsən sizə, öz dərin minnətdarlığımı bildirirəm.

İSESKO kimi hörmətli bir təşkilat tərəfindən fəaliyyətimin belə yüksək qiymətləndirilməsi mənim üçün böyük şərəfdir.

Dünyanın 57 ölkəsini birləşdirən İSESKO çox nəcib bir missiyanı həyata keçirir. Təşkilatın başlıca məqsədi dünya ölkələrinin elm, təhsil və mədəniyyət sahələrində əlaqələrinin yaradılması və xalqlararası dialoqun qurulmasıdır. Bu isə öz növbəsində sülhün, təhlükəsizliyin və əmin-amanlığın təminatıdır. İslam Ölkələri, Təhsil, Elm və Mədəniyyət Təşkilatı fəaliyyət göstərdiyi 24 il ərzində çox böyük işlər görüb, böyük uğurlar əldə edibdir. Müsəlman ölkələrində elmin, təhsilin və mədəniyyətin inkişafı üçün irimiqyaslı layihələr, proqramlar həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, İSESKO öz fəaliyyətini sırf müsəlman ölkələri ilə məhdudlaşdırmır. Dünyada elə ölkələr, elə dövlətlər var ki, onların əhalisinin tərkibində müsəlmanların ümumi sayı 30, 20 və hətta 10 faizdir. Lakin İSESKO bu ölkələrlə də çox sıx əməkdaşlıq edir, elmin, mədəniyyətin və təhsilin inkişafı üçün proqramlar hazırlayır, kreditlər, qrantlar ayırır.

İSESKO-nun fəaliyyətinin digər çox mühüm istiqaməti islam dünyasının zəngin tarixi irsinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsidir. Bu gün müharibə ilə üzləşmiş müsəlman dövlətlərinin olması bu fəaliyyətə xüsusi önəm verir. İraqda müha-

ribə zamanı dini abidələrin dağıdılmasına dair təşkilatın verdiyi bəyanatı biz çox yüksək qiymətləndiririk. Bildiyiniz kimi, bu gün Azərbaycanın da ərazisinin 20 faizi işğal altındadır. Bu torpaqlarda yüzlərlə mədəni, tarixi və dini abidələr var idi. İndi bütün bunlar işğalçılar tərəfindən vəhşicəsinə dağıdılıbdır. Biz bu faktları, bu reallıqları dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırırıq. Bu yolda İSESKO-nun və ümumən İslam Konfransı Təşkilatının dəstəyini çox yüksək qiymətləndiririk.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra islam ölkələri ilə çox sıx əlaqələr qurur, çox gözəl əməkdaşlıq edir və ölkələrimizi birləşdirən İslam Konfransı Təşkilatının fəal üzvüdür. Bildiyiniz kimi, bu il ölkəmizdə İslam Konfransı Təşkilatına üzv olan ölkələrin xarici işlər nazirlərinin sammiti keçirilmişdir. Daha sonra müsəlman ölkələrinin turizm nazirlərinin görüşü keçirildi. Bu il Azərbaycanın təşəbbüsü ilə İslam Konfransı Təşkilatının Gənclər forumu yaradıldı. Bütün bunlar ölkəmizin islam aləmi ilə, müsəlman dövlətləri ilə əməkdaşlığının möhkəmlənməsinə çox böyük diqqət göstərdiyini sübut edir.

Hazırda İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə Heydər Əliyev Fondu arasında əməkdaşlıq üçün çox geniş imkanlar var. Bildiyiniz kimi, Heydər Əliyev Fondu yaradılan vaxtdan elmin və təhsilin inkişafını, milli mədəni irsimizin qorunmasını fəaliyyətinin əsas prioritet istiqaməti kimi müəyyən etmişdir. Qısa zaman ərzində biz bir çox layihələr həyata keçirmişik, uğurlar əldə etmişik. "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəbləri və uşaq evlərinin inkişafı", "Görmə qabiliyyətini itirən və zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" və sair layihələr artıq həyata keçirilib və bu gün biz onların konkret nəticələrini görə bilirik. Ölkəmizdə iki il ərzində Fondun təşəbbüsü ilə 180-dən çox yeni məktəb inşa olunub, ən müasir avadanlıqla təmin olunub. Hər bir məktəbdə kompyuter sinfi var. 29 internat məktəbində və uşaq evində əsaslı təmir aparılıb, onların maddi-texniki bazası yeniləşdirilmişdir. Görmə qabiliyyəti zəif olan insanlar üçün yeni tədris mərkəzi yaradılıbdır. Mərkəzə dünyada mövcud olan ən müasir kompyuter sistemləri gətirilib, müəllimlərlə treninqlər keçirilibdir. Biz öz fəaliyyətimizdə milli-mədəni irsimizin qorunmasına çox diqqətlə yanaşırıq. Bildiyiniz kimi, Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə paytaxtımızda Beynəlxalq Muğam Mərkəzi inşa olunmuşdur. Mən deyə bilərəm ki, bu bina paytaxtımızın ən gözəl yerində, dənizkənarı Milli parkda tikilir. Bir neçə tarixi və dini abidə – Cavad xan məqbərəsi, Pir Həsən ziyarətgahı, Mövsüm Səlim və Həzrəti Zeynəb məscidləri bərpa olunubdur.

Eyni zamanda, Heydər Əliyev Fondu dünyanın bir sıra elmi mərkəzləri ilə çox sıx əməkdaşlıq edir. Biz bir neçə il ərzində Fondumuzda bir neçə beynəlxalq konfrans keçirmişik. YUNESKO ilə birlikdə "YUNESKO – Azərbaycan: gələcəyə körpü" adlı konfrans Bakıda və Parisdə keçirilib və təhsildə olan islahatlara həsr edilibdir.

Bakıda Vaşinqton Akademiyası ilə birlikdə "Orta əsr əlyazmalarında tibb və əczaçılıq"





mövzusunda 1-ci Beynəlxalq konfransı, Latın Mədəniyyəti Akademiyası ilə birlikdə "Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan – sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfrans keçirilmişdir. Bütün bu tədbirlərə dünya şöhrətli alimləri dəvət edirik və ölkəmizdə olan reallıqları, həqiqətləri onlara çatdırmağa çalışırıq. Bu da öz növbəsində, dünyada Azərbaycanın həqiqi imicinin formalaşmasında böyük rol oynayır.

Heydər Əliyev Fondu İSESKO və YUNESKO-nun prinsiplərinə əsaslanaraq hesab edir ki, çətinliklərlə üzləşmiş digər dövlətlərə və xalqlara da kömək etmək çox vacibdir. Məhz buna görə Pakistanın zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə ümumtəhsil məktəbi inşa olunur.

Bir sözlə, dediyim kimi, İSESKO ilə Heydər Əliyev Fondu arasında əməkdaşlıq üçün çox gözəl, çox geniş imkanlar var. Mən inanıram ki, gələcəkdə biz birlikdə bir sıra böyük layihələr həyata keçirəcəyik.

Hörmətli qonaqlar, bu gün mənim üçün ikiqat sevindirici gündür. Çünki bu gün biz görkəmli şərqşünas alim Aida xanım İmanquliyevanın ərəb dilində nəşr olunmuş "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabının təqdimat mərasimini keçiririk. Bu kitab İSESKO-nun təşəbbüsü ilə ərəb dilinə tərcümə olunub və nəşr edilibdir. Bu təşəbbüsə görə İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatına, şəxsən cənab baş direktora dərin minnətdarlığımı bildirirəm.

Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın məktəbinin yetirmələrini, onun davamçılarını görürük. Ona görə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir.

Mən bu təşəbbüsə görə İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatına və şəxsən cənab baş direktora bir daha dərin minnətdarlığımı bildirirəm.

Sonda mənim haqqımda, fəaliyyətim haqqında deyilən ürək sözlərinə görə sizə dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, Heydər Əliyev Fondu ilə İSESKO-nun dostluq və birlik naminə gələcək fəaliyyəti daha da uğurlu olacaqdır. Mən sizə cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram. Çox sağ olun.

Tədbir iştirakçılarına Aida xanım İmanquliyevanın "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabının nüsxələri paylandı.

Sonra mərasim iştirakçıları Heydər Əliyev Fondunun layihə və proqramlarını, nəşrlərini əks etdirən sərgiyə baxdılar.

Mərasimdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm, mədəniyyət, incəsənət, din xadimləri, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun, beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirdilər.

Mərasimdən sonra Mehriban Əliyeva ilə İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrinin görüşü oldu. Söhbət zamanı bu qurumlar arasında əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıldı.

*"Azərbaycan" qəzeti,*
***24 noyabr 2006-cı il***







## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-a İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının birinci xanımı, Azərbaycan – ABŞ Parlamentlərarası Əlaqələr üzrə İşçi qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2006-cı ilin dekabrın 4-dən 7-dək ABŞ-a işgüzar səfəri çərçivəsində bir sıra səmərəli görüşlər keçirmişdir.

Dekabrın 6-da ABŞ – Azərbaycan Ticarət Palatası Vaşinqtonun möhtəşəm "Endryu Melon" auditoriumunda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət vermişdir. Ziyafətdə 300-dən artıq qonaq, o cümlədən Ağ evin və Dövlət Departamentinin yüksək vəzifəli rəsmiləri, ABŞ Konqresinin üzvləri, görkəmli siyasi və ictimai xadimlər, xarici ölkələrin ABŞ-da akkreditə olunmuş səfirləri iştirak etmişlər. Mərasimin aparıcısı, ABŞ – Azərbaycan Ticarət Palatasının həmsədri, məşhur Beykerlər ailəsinin nümayəndəsi Ceyms Beyker Mehriban xanımı və onu müşayiət edən Milli Məclisin üzvlərini salamlayaraq dedi:

– Mən bu axşam Azərbaycanın birinci xanımının bizimlə olmasından məmnunluğumuzu

bildirirəm. ABŞ – Azərbaycan Ticarət Palatası sizin bizim tədbirdə iştirak etməyinizdən xüsusi şərəf hissi duyur. Son on il ərzində həyat yoldaşınızın bizə dəstəyini daim hiss etmişik. O, bizim Müşavirlər Şurasının üzvüdür.

Mən, eyni zamanda, bu axşam sizinlə burada olan nümayəndə heyətinin üzvlərini, o cümlədən sizi müşayiət edən Milli Məclis üzvlərini salamlamaq istəyirəm. Bu axşam sizin hamınızla görüşməyimizə çox şadıq. Vaşinqtona xoş gəlmisiniz.

Mən bu axşam burada əyləşən qonaqları, o cümlədən bir neçə Konqres üzvünü salamlamaq istəyirəm. İdarə heyətimizin ilk üzvlərindən biri doktor Zbiqnef Bjezinski burada bizimlədir. Xanım Bjezinski də gəlibdir. Mən sizi də salamlayıram. Bu axşam bizə qoşulmağınıza görə minnətdarıq.

Nəhayət, mən bu tədbirə gələn hər bir şəxsə ABŞ – Azərbaycan Ticarət Palatası adından minnətdarlığımızı bildirirəm. Biz bu mərasimin təşkil olunmasında sizinlə birgə işləməkdən çox məmnunuq və bununla fəxr edirik. Bu cür gözəl binada sizi görməkdən çox şadıq. Gəldiyinizə görə bir daha çox sağ olun.

Biz Palatada artıq 10 ildir ki, fəaliyyət göstəririk. Mənim fikrimcə, bu təşkilat ABŞ-Azərbaycan ikitərəfli münasibətlərini ticarət sahəsinin təşkil edilməsində səmərəli olmuşdur. Uzun illər ərzində neft sektorunda çalışan şirkətlər və biznes fəaliyyəti aparan digər dairələr bizim məsləhətimizdən istifadə etmişlər. Bu yaxınlarda Azərbaycan iqtisadiyyatının digər sahələrinə maraq göstərən yeni şirkətlər bizim Palatamıza üzv olmuşdur. Bu ilin aprel ayında ölkəmizə səfər etmiş Prezident Əliyev Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində prinsipial mövqedə olduğunu bəyan etmişdir. Hesab edirəm ki, o, bu istiqamətdə çox dəstəkləyici və uğurlu təşəbbüslə çıxış etmişdir. Biz cari ilin oktyabr ayında Azərbaycana ikinci ticarət missiyamızı təşkil etmişdik. Həmin missiya bizim informasiya texnologiyaları və kommunikasiya sahəsində fəaliyyət göstərən şirkətlərimizdən ibarət olmuşdur. Biz üzvlərimizə xidmət göstəririk, münasibətlərin ikitərəfli qaydada inkişafı üzərində də çox çalışırıq və Azərbaycan şirkətlərinin fəaliyyətinin artmasını görməkdən də xüsusilə məmnunuq. Biz öz mandatımızı yerinə yetirməkdə davam edirik.

Mən bir daha birinci xanımı salamlayır və ABŞ – Azərbaycan Ticarət Palatasına göstərdiyi dəstəyə görə həyat yoldaşınıza minnətdarlığımızı çatdırmağı xahiş edirik.

Mən bu axşam sponsorlarımıza da minnətdarlığımı bildirmək istəyirəm. Sponsorlar aşağıdakı şirkətlərdir: Ata Holdinq, Azərbaycan Beynəlxalq Bankı, BP, Şevron, Azercell, "J and İ", Konoko Filips, Grand Hotel Europe və CİSCO. Bu tədbirin keçirilməsində əməyi olmuş hər bir şəxsə minnətdarlığımı bildirirəm.

İndi isə hamınızdan ayağa qalxmağı xahiş edirəm. Mən Azərbaycanın birinci xanımının





şərəfinə badə qaldırmaq istəyirəm. Hörmətli xanım, bizimlə bir yerdə olduğunuza görə bir daha minnətdarıq. Ölkələrimiz arasında yaxşı anlaşmanın və mədəni əlaqələrin, ümumiyyətlə, ikitərəfli münasibətlərin təşviq olunmasında sizə təşəkkürümüzü bildiririk. Badələrimizi sizin sağlığınıza qaldırırıq.

Bu axşam mən böyük məmnuniyyətlə əsas natiqlərdən birini təqdim etməkdən məmnunam. Senator Riçard Luqar ABŞ Senatının ən qocaman üzvlərindən biridir. O, ilk dəfə 1976-cı ildə seçilmişdir. Senator Luqar əvvəllər Senatın kənd təsərrüfatı komitəsinə sədrlik etmişdir, son dörd il ərzində isə beynəlxalq əlaqələr komitəsinin sədridir.

1991-ci ildə senator Luqar Senatın digər üzvü Sem Nan ilə keçmiş Sovet İttifaqı ölkələrində nüvə başlıqlarının və kütləvi qırğın silahlarının ləğv edilməsi ilə bağlı Nan-Luqar proqramını yaratmışdır. İndiyədək həmin proqram çərçivəsində ən azı 6800 nüvə başlığı ləğv olunmuşdur. 2005-ci ilin avqust ayında senator Luqar senator Obama ilə Azərbaycana səfər etmiş və Nan-Luqar proqramını müzakirə etmişlər. Həmin vaxt o, demokratiya və qanunun aliliyini təşviq etmək məqsədilə Prezident Əliyev ilə görüşmüşdür. ABŞ-ın Azərbaycana təyin olunmuş yeni səfiri xanım Andersin təsdiqlənməsi ilə bağlı dinləmələr zamanı senator Luqar ABŞ – Azərbaycan münasibətlərinin möhkəmləndirilməsini vurğulamış və Azərbaycan hökumətinin terrorçuluğa qarşı mübarizəyə sadiqliyini alqışlamışdır. O, ölkədə iqtisadi inkişafın təşviq olunmasında zəruri hesab edilən etibarlı infrastrukturun, – xüsusən də kənd təsərrüfatı sahəsində, – yaradılmasının vacibliyini bildirmişdir.

Mən əvvəldə dedim ki, senator Luqar kənd təsərrüfatı komitəsinə sədrlik etmişdir. Zənnimcə, burada əyləşənlərin bir çoxuna məlumdur, senator Luqar 4 senatordan biridir ki, "Azadlığın Dəstəklənməsi Aktı"na 907-ci düzəlişin qəbul edilməsinə qarşı çıxmışdır. Bu yaxınlarda senator Luqar altıncı dəfə Senata seçilmişdir. Beləliklə, biz gələn altı il ərzində onun ölkəyə xidmətinin davamını görəcəyik. Senator Luqar, buyurun.

## ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri Riçard Luqarın çıxışı

– Azərbaycanın hörmətli birinci xanımı! Hörmətli nümayəndə heyəti və millət vəkilləri! ABŞ Konqresinin üzvləri!

Xanımlar və cənablar!

Bu gün dostluq, irəliləyiş və ideallarımızın əldə olunmasını qeyd etmək, eləcə də Azərbaycan və Birləşmiş Ştatların vətəndaşlarının yaşadığı böyük nailiyyətlərlə dolu həyat haqqında birgə düşünmək məqsədi ilə, sözün əsl mənasında, çox önəmli bir fürsətdir.

Mən Azərbaycan vətəndaşlarının qonaqpərvərliyinə, keçmiş Prezidentin və hazırkı Prezidentin mənim ünvanıma söylədikləri sözlərə hər zaman minnətdarlıqla yanaşmışam. 1990-cı illərin ortalarında Azərbaycana etdiyim ilk səfərlər on il sonra baş verəcək inkişafla bağlı məndə gələcəyə ümid yaratmışdı. Lakin bu ümid uzaq görünən perspektivdə idi. Burada Ceyms Beykerin dediyi kimi, mən və senator Obama 2005-ci ildə Azərbaycanda "Britiş Petroleum" şirkətinin platformasında dayanaraq Bakı buxtasının gözəlliyini seyr etmək imkanı əldə etdik və səkkiz yüz mil məsafə keçən boru kəməri ilə neftin uzaq bazarlara çıxarıldığını gördük. Bu səfər Azərbaycanın nəinki gözəçarpan inkişafını müşahidə etmək, həm də ölkəmizin və bütün dünyanın enerji təhlükəsizliyi haqqında konstruktiv şəkildə düşünmək imkanını yaratdı. 8 milyonluq əhalisi olan və gələn illər ərzində daha böyük inkişafa nail olacaq, eləcə də bir çox vətəndaşlarının rifahı naminə böyük işlər görəcək ölkənin gələcək taleyi haqqında fikir mübadiləsi aparmaq bizim üçün önəmli idi.

Mən bütün bunları ona görə xatırladıram ki, bizim Prezident Əliyevlə keçirdiyimiz ilk görüşümüz zamanı o, vacib bəyanatla çıxış etdi. O, bizim gələcəkdə neftdən əldə olunacaq yeni gəlirlərin və təbii qazın satışından qazanılacaq vəsaitlərin hansı şəkildə istifadə olunacağı ilə bağlı suallarımızı cavablandırdı. Prezident Əliyev Norveç modelini misal gətirdi. Azərbaycanın zəngin təbii yataqlarından əldə olunan gəlirlərin düşünülmüş formada, belə bir xüsusi məkanda dünyaya göz açacaq nəsillərin gələcəyi üçün sərf edilməsinə sadiqlik vurğulandı. Mən bu sözləri çox ciddi qəbul etdim. O, bunları məndən də ciddi şəkildə vurğuladı. 2005-ci ilin sentyabr ayında keçirdiyimiz görüş zamanı Prezident geniş və böyük planları barədə olduqca düşünülmüş formada danışdı. Biz ölkənin səhiyyə xidmətləri, uşaqlara təhsilin təmin edilməsi, infrastrukturun qurulması, malların daşınması və insanların ölkə daxilində hərəkəti üçün yolların çəkilməsi kimi əsas xidmət sahələri haqqında söhbət etdik. Biz vətəndaşların ölkənin həyatında iştirakı barədə danışdıq. Təhsil imkanlarını da müzakirə etdik. Azərbaycan tələbələrinin Birləşmiş Ştatlara, habelə dünyanın digər ölkələrinə təhsil almaq, yeni fürsətlər əldə etmək, onları həvəsləndirmək və təhsillərini bitirdikdən sonra ölkənin xalqına xidmət göstərmələri məqsədi ilə Azərbaycana qayıtmaq üçün səfərlərini mümkün edəcək tələbə təqaüdlərinin verilməsi ilə bağlı çox gözəl fikir bəyənildi.

Bakı şəhərinin özündə gözəçarpan təkmilləşdirmə işləri ilə bağlı hərtərəfli planı müzakirə edən Prezidentin bu barədə söylədiyi fikirlərini eşitməkdən məmnun olduq. Həmin vaxt mən dedim ki, ölkənizə etdiyim ilk səfərim zamanı ötən əsrdən qalan neft biznesinin qalıqlarını gördüm və bu qalıqların təqribən üç milyon insanın yaşadığı şəhərin mərkəzi yerlərində və kənarda, bəzi hallarda neft ilə qarışıq su, digər tullantılar formasında olduğunu bildirdim. Bunun, sözün əsl mənasında, ekoloji bir faciə olduğunu söylədim. Prezident bu sözlə razılaşdı





və dedi ki, bu məsələ onu daim düşündürür və onun gündəliyində durur. Mən bunu ona görə xatırladıram ki, eyni məsələni Bakı və Prezidentin planları barədə lazımi şəkildə xəbəri olan beynəlxalq neft şirkətlərinin rəhbərləri və digər biznes dairələri ilə də müzakirə etmişəm. Lakin, səmimi desək, onlar heç bilmirdilər ki, Prezidentin ətraf mühit və sağlamlıq şəraitinin kəskin şəkildə dəyişdirilməsi ilə bağlı planları bu dərəcədə geniş və əhatəlidir. Bu planlarda tarixən qalmış tullantıların təmizlənməsi ilə yanaşı, yeni çirklənmənin qarşısının alınması da nəzərdə tutulur.

Mən Azərbaycan Prezidentinin böyük arzu və maraqla Birləşmiş Ştatlara səfər etdiyini müşahidə etdim. O, buraya yaxşı xəbərlərlə gəlmişdi. Prezident Əliyev, eyni zamanda, öz amerikalı dostları ilə geniş söhbət aparmaq üçün səfər etmişdi. O, bizə ölkənin təhlükəsizliyi barədə danışdı. Azərbaycan dünyanın çətin və təhdid dolu coğrafi məkanında yerləşir. Burada nəhəng təbii sərvətlər və resurslar var.

Mən 2005-ci ildə "Britiş Petroleum" şirkətinin vertolyotu ilə dənizdə qazma əməliyyatları aparılan neft platformasına gəldim və oradakı vəziyyəti öyrəndim. Aparılan qazma işlərinin texniki tərəfini, digər qazma qurğularını öyrənməyə, eləcə də neft və qaz ehtiyatlarını dənizin dibində aşkar edən "geoloji şəkillərin çıxarılması" adlanan texnologiya ilə tanış olmağa və təbii qazı çıxaran paralel boruları görməyə çalışdım. Bu ölkənin təbii qazı Tbilisiyə, Gürcüstana və sonra isə Türkiyəyə çatdırılacaqdır. Bu məqsədlə görüləcək təhlükəsizlik tədbirləri barədə eşitdim. Türkiyə tərəfinin bu məsələyə münasibətini öyrəndim və anladım ki, bütün bu işlər həmin üç ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Mən Qazaxıstana səfər etdiyim zaman boru kəmərinin Xəzər dənizinin dibi ilə çəkilməsinin və Bakı ilə birləşdirilməsinin vacibliyini söylədim. Hesab etdim ki, belə olan halda, Bakı-Tbilisi-Ceyhan boru kəməri həm Qazaxıstana, həm də Azərbaycan, Gürcüstan və Türkiyəyə əlavə təhlükəsizliyi təmin edəcəkdir. Bu, Avropaya da aiddir. Bütün bunlar bu axşam toplaşdığımız mərasimdə xatirimə gələn fikirlərdir. Çünki biz nəinki olduqca mühüm yeni fürsət və imkanları, habelə inkişaf edən ölkənin Prezidentinin, onun parlamentinin bütün dünya və öz vətəndaşları naminə vacib planlarını qeyd edirik.

Prezident Əliyevin dediyi kimi, Azərbaycanda bir il ərzində ümumi daxili məhsulun real artımı 34%-dən çox olmuşdur. Təbii ki, bu rəqəm ölkənizin əldə edəcəyi son nəticə demək deyildir. Yalnız bir neçə ölkə belə artıma nail ola bilmişdir. Bir çoxları bu cür səviyyəni heç vaxt əldə etməmişlər. Adətən, 8, 9 və ya 10 faiz real artıma nail olmuş ölkələr bu baxımdan xüsusi misal kimi göstərilir. Dövləti idarə etmə qabiliyyəti və bacarığı olmayan halda, bütün bunlar uzun çəkmir.

Mən demokratik təsisatların inkişaf etdirilməsi istiqamətində azərbaycanlıların göstərdiyi

səyləri alqışlayıram. Bu beynəlxalq ictimaiyyət arasında müzakirə mövzusu olmuşdur. 2005-ci ildə senator Obama ilə səfərim zamanı biz seçki proseslərini, namizədlərin qeydiyyata alınmasını izlədik. Biz yüzlərlə insanın arzu və istəklərini öyrənməyə çalışdıq. Mən seçki haqqında bir neçə söz söyləmək istəyirəm. Azərbaycana gəldikdə, bu, istənilən sürətlə irəliyə doğru addımlar atmaq baxımından asan bir proses deyildir. Keçmişdə səhvlər və çətinliklər də olmuşdur, Vaşinqtona səfər edən Prezident Əliyev onların əksər hissəsini qəbul etmiş və səhvlərin aradan qaldırılması ilə bağlı görülən tədbirlər barədə məlumat vermişdir.

Mən bütün bunları ona görə deyirəm ki, demokratik təsisatların inkişaf etdirilməsi ölkənin tərəqqisi və resurslardan müdrik şəkildə istifadə üçün çox vacibdir. Bu mövzu burada, Vaşinqtonda diqqət mərkəzində olaraq qalır. Eyni zamanda, nəhəng enerji resursları və inkişaf məsələləri apardığımız danışıqların vacib tərəfini təşkil edir. Lakin bu gün həmçinin o faktı qeyd edirik ki, hər iki ölkədə biz xalqın, hər bir vətəndaşın arzuları və imkanları haqqında çox səmərəli şəkildə düşünürük. Tələbə təqaüdləri, biznes və ticarət əlaqələri, musiqi və incəsənət sahəsində əməkdaşlığa dair təcrübəmizlə bölüşməliyik.

Mən Azərbaycana və xüsusən də iki ölkə arasındakı dostluğa olan marağımı sadəcə ifadə etmək üçün yaradılmış bu fürsətə görə minnətdaram. Çox sağ olun.

Ceyms Beyker: Senator Luqar, çox sağ olun.

Xanımlar və cənablar, indi isə mən ABŞ – Azərbaycan Ticarət Palatasının "Azadlığın dəstəklənməsi" mükafatını senator Luqara təqdim etməkdən məmnunluğumu bildirmək istəyirəm. ABŞ – Azərbaycan Ticarət Palatasının "Azadlığın dəstəklənməsi" mükafatı Azərbaycanda müstəqilliyə, sülhə, demokratiyaya, şəxsi azadlıqlara və iqtisadi inkişafa böyük töhfə vermiş şəxslərə verilir. Bu sahəyə töhfəsinə görə axşam həmin mükafatın senator Luqara təqdim edilməsindən olduqca məmnunam.

Riçard Luqar: Adətən mükafat qəbul edəndə dediyim sözlər qısa olur. Sadəcə, ən səmimi minnətdarlığımı, xoş sözlərimi bildirmək istəyirəm. Mən badəni ABŞ – Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə qaldırır, sizə qarşıdakı uzun illər ərzində bir çox xoş arzularımı çatdırıram. Sağ olun.

Ceyms Beyker: İndi isə mən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanı təqdim etmək istəyirəm. O, qısa nitqlə çıxış edəcək və sonra isə ona mükafatın verilməsi mərasimi olacaqdır.

Xanım Əliyeva mədəniyyətlə maraqlanır və mərhəmətli fəaliyyətlə məşğuldur. 1988-ci ildən 1992-ci ilə qədər o, Moskvanın Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləyibdir. 1995-ci ildə xanım Əliyeva Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmışdır və hazırda ona rəhbərlik edir. 1996-cı ildə o, Azərbaycan, ingilis və rus dillərində çıxan





"Azərbaycan-İrs" adlı mədəniyyət-tarix jurnalı təsis etmiş və həmin jurnalın baş redaktoru olmuşdur. 2002-ci ildə o, Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmişdir. Onun bu sahədə apardığı fəaliyyəti Beynəlxalq Gimnastika Federasiyasının 2005-ci ildə bədii gimnastika üzrə dünya çempionatını Azərbaycanda keçirmək qərarı ilə nəticələnmişdir.

Eyni zamanda o, 2004-cü ildə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir. Elə həmin ildə şifahi və musiqi ənənələrinin təşviq olunması üzrə YUNESKO-nun xoşməramlı səfiri təyin edilmişdir. Həmin ilin sonunda Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvi seçilmişdir. O, öz xeyriyyə işlərinə görə "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeni almış ilk qadındır. Eyni zamanda, 2004-cü ildə Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvi seçilmişdir. Millət vəkili, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisdə Azərbaycan – ABŞ Parlamentlərarası Əlaqələr üzrə İşçi qrupunun rəhbəri, bir çox xeyriyyə və mədəniyyət təşkilatlarının sədri kimi onun, demək olar ki, heç boş vaxtı qalmır. Lakin bütün bu işlərdən əlavə, onun ən vacib işi 1983-cü ildən etibarən başlamışdır. Həmin vaxtdan o, öz həyat yoldaşı, indiki Prezident Əliyev ilə ailə qurmuşdur. İndi isə mən məmnuniyyət hissi ilə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı təqdim edirəm.

**Azərbaycan Respublikasının birinci xanımı**
**Mehriban Əliyevanın çıxışı:**

– Hörmətli xanımlar və cənablar! Hörmətli dostlar!

Mən Sizin hamınızı bu axşam görməkdən şadam. Birləşmiş Ştatlarda yenidən olmağımdan çox məmnunam. Birləşmiş Ştatlarda olduğum zaman mənə olduqca xoş qonaqpərvərlik göstərilmişdir və mən həmin qonaqpərvərliyə görə bütün dostlarımıza minnətdarlığımı bildirmək istəyirəm.

Mən bu tədbiri təşkil etdiyinə görə ABŞ – Azərbaycan Ticarət Palatasına xüsusi təşəkkürümü ifadə etmək istəyirəm. 1995-ci ildə yarandığı vaxtdan etibarən Ticarət Palatası ölkələrimiz arasında tərəfdaşlığın inkişafına yardım etmiş və Azərbaycanın Birləşmiş Ştatlarda daha yaxşı tanınmasını təşviq etmişdir.

Uzun illər ərzində Palata bir çox tədbirlərə sponsorluq etmiş və saysız-hesabsız sərgilərin, konfransların və humanitar layihələrin təşəbbüskarı olmuşdur. Onun Harvard Universitetində Xəzər Araşdırmaları proqramı kimi təhsil layihələri gənc Azərbaycan peşəkarları tələbələri üçün yeni üfüqlər açmışdır. Bütün bu uğurlu işlər barədə məlumatım var və Palatanın nailiyyətlərini alqışlayıram.

Hörmətli dostlar, dövlətlərimiz arasında bu cür güclü əlaqələrin qurulması təqdirəlayiq

haldır. Birləşmiş Ştatlar Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Müstəqilliyimizin bərpasından sonra Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf etmişdir. Amerika Birləşmiş Ştatları enerji layihələrimizdə bizim böyük tərəfdaşımızdır. Biz bir çox çətinliklərlə üzləşmişdik, lakin dünyada ən böyük enerji layihəsi hesab edilən Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsinə birgə nail olduq.

Azərbaycan antiterror koalisiyasının üzvüdür və əsgərlərimiz amerikalı həmkarları ilə çiyin-çiyinə sülhün bərqərar olması naminə İraq, Əfqanıstan və Kosovoda qulluq edirlər. Biz, eyni zamanda, siyasi islahatlar, demokratiyanın inkişafı və insan hüquqlarının qorunması sahəsində də Birləşmiş Ştatlarla əməkdaşlıq edirik. ABŞ Konqresinin çox sayda nümayəndə heyəti ölkəmizə səfər etmişdir. Həmin səfərlər ikitərəfli münasibətlərimizin inkişafında mühüm rol oynamışdır.

Böyük dövlət xadimi və Azərbaycanın səmimi dostu senator Luqarın bu yaxınlarda Bakıya səfəri əlaqələrimizin genişləndirilməsində atılmış mühüm addım oldu.

Azərbaycan-Amerika Parlamentlərarası Əlaqələr üzrə İşçi qrupunun rəhbəri kimi hesab edirəm ki, əlaqələrimizin daha da sıxlaşdırılması böyük əhəmiyyət kəsb edir və əminəm ki, mənim parlament üzvləri ilə birgə Vaşinqtona səfərim həmin məqsədə xidmət edəcəkdir.

Bu gün Azərbaycan öz inkişafının mühüm mərhələsindədir. İqtisadiyyatımız sürətlə artır. Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı 2005-ci ildə dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı kimi qiymətləndirilmişdir və biz 2006-cı ildə də bu göstəricinin qorunub saxlanılmasına çalışacağıq.

Ölkəmizin müxtəlif regionları inkişaf etməkdədir. Son üç il ərzində 500 min yeni iş yeri açılmışdır. Mən Prezidentlə birgə ölkənin bir çox yerlərinə səfər edirəm və bütün bu dəyişiklikləri görməkdən çox məmnunam və fərəh hissi keçirirəm. Yeni məktəblər, xəstəxanalar, uşaq bağçaları, idman mərkəzləri inşa edilməkdədir. Yeni sənaye və kənd təsərrüfatı müəssisələri açılmaqdadır. Yeni yollar çəkilir.

Bu gün biz gənclərimizin təhsilinə xüsusi diqqət yetiririk. Son üç il ərzində 735 orta məktəb binası tikilmişdir. Ötən ay Azərbaycan Prezidenti gənc istedadlı azərbaycanlıların xaricdə təhsil alması üçün tələbə təqaüdlərinin artırılması ilə bağlı Dövlət proqramı haqqında fərman imzalamışdır. Bu, hökumətin neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna sərf edilməsi strategiyasının bir hissəsidir. Hesab edirəm ki, təhsilimizə, gələcəyimizə və yeni nəsillərə sərmayə qoymaq ən münasib sərmayə formasıdır.

Ümid edirəm ki, tələbələrin böyük hissəsi təhsil üçün Amerikaya gələcəkdir. Təhsilin dəstəklənməsi Heydər Əliyev Fondunun fəaliyyətində əsas prioritetlərdən biridir. Heydər Əliyev Fondu mədəniyyət, səhiyyə, təhsil və elm sahələrində layihələri dəstəkləmək məqsədi ilə 2004-cü ilin may ayında yaradılmışdır.





Son illər ərzində Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Talassemiyasız həyat", "Diabetli uşaqlara ən yüksək qayğı", "Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi" kimi layihələri həyata keçirmişdir. Təhsil sisteminin təkmilləşdirilməsi ilə bağlı proqramlarımız çərçivəsində 200-dən çox məktəb tikilmiş, lazımi avadanlıqla təchiz olunmuş və kompyuterləşdirilmişdir. Həmin məktəblərdən bir neçəsi ən ucqar kəndlərdə yerləşir.

Fəaliyyətimizin xüsusi bir hissəsi uşaq evlərində yaşayan uşaqların qayğısına qalmaqdan ibarət olmuşdur. Onların yaşadığı yerlər müasirləşdirilmiş, kompyuterlərlə təchiz olunmuşdur və orada kitabxanalar yaradılmışdır. Biz ailəsiz qalmış uşaqlara yardım göstərmək üçün YUNİSEF ilə birgə çalışırıq. Səhiyyə sahəsinə gəldikdə isə, Heydər Əliyev Fondu tibbi xidmətə ehtiyacı olan 2500-dən çox insana kömək etmişdir. Diabet və qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım göstərmək məqsədi ilə Xüsusi Proqram həyata keçirilir. Biz görmə problemləri olan şəxslər üçün xüsusi təhsil mərkəzinin tikilməsindən ötrü BMT-nin İnkişaf Proqramı ilə birgə layihəni həyata keçiririk.

Fondumuz milli mədəni irsimizin qorunmasına xüsusi diqqət yetirir. Bir çox tarixi və mədəniyyət abidələri Fondun fəaliyyəti sayəsində bərpa olunmuşdur. Bildiyimiz kimi, muğam Azərbaycanın qədim folklor musiqisidir və bu məqsədlə biz Fondun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikirik. Tarixi və mədəniyyət abidələrinin qorunması ölkəmiz üçün bir də ona görə vacibdir ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Həmin ərazilərdə minlərlə tarixi, mədəniyyət abidələri və dini abidələr işğalçı qüvvələr tərəfindən məhv edilmişdir. Ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var və onların müəyyən hissəsi hələ də çadır düşərgələrində yaşayır. Biz bu faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqda səylərimizi davam etdiririk.

Heydər Əliyev Fondu özünün Beynəlxalq fəaliyyətini genişləndirir. Son illər ərzində biz YUNESKO, Vaşinqton Elmlər Akademiyası, Latın Mədəniyyəti Akademiyası ilə birgə bir neçə beynəlxalq konfranslar təşkil etmişik. Bir çox ölkələrin, o cümlədən Birləşmiş Ştatların, tanınmış alimləri həmin tədbirlərdə iştirak etmişlər. Bizim çox faydalı müzakirələrimiz oldu. Ümid edirəm ki, biz birgə layihələri davam etdirəcəyik. Bir sözlə, Fondumuz beynəlxalq təşkilatlar və fondlar ilə əməkdaşlıq etmək arzusundadır və buna hazırdır.

Hörmətli dostlar, Azərbaycan olduqca zəngin mədəni irsə və ənənələrə malik olan qədim diyardır. Uzun əsrlər boyu ölkəmiz Qərblə Şərq arasında körpü olmuşdur. Biz öz müxtəlifliyimizdən fərəhlənirik. Bu gün bizim çoxmilli və çoxdinli cəmiyyətimiz var və bu-

rada müsəlmanlar, xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri yan-yana, anlaşma şəraitində bir ailədəki kimi yaşayırlar. Biz dözümlülük, ləyaqət, digər mədəniyyətlərə hörmət, ailəyə sadiqlik, uşaq və yaşlılara qayğı kimi dəyərlərimizi vacib hesab edirik. Bütün bu dəyərlər həmçinin Amerikanın da dəyərləridir. Ona görə hesab edirəm ki, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq bizim ümumi uğurumuz üçün olduqca vacibdir. Dialoq vasitəsilə biz bir çox işlər görə və bir-birimizi daha yaxşı başa düşə bilərik və nəhayət, uzun müddətli əlaqələrimizi qura bilərik.

Sonda, mən göstərilmiş qonaqpərvərliyə və sizinlə görüşmək imkanının yaradılmasına görə ABŞ – Azərbaycan Ticarət Palatasına bir daha öz minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, sizin hamınız Azərbaycanın dostları, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlərin möhkəmləndirilməsində səylərinizi davam etdirəcəksiniz. Bir daha sağ olun. Mən sizə və ailələrinizə ən xoş arzularımızı çatdırıram.

Diqqətinizə görə minnətdaram.

Ceyms Beyker: Xanım Əliyeva, sağ olun.

İndi isə, mən məmnuniyyətlə birinci xanıma Palatanın "2006-cı ilin Xoşməramlı səfiri" mükafatını təqdim etmək istəyirəm. Biz bu mükafatı dövri olaraq veririk və ötən dəfə bu mükafat artıq təqdim edilmişdir. Mükafatın verilməsi Birləşmiş Ştatlar ilə Azərbaycan arasında xoş məramın təşviq olunmasına dəlalət edir. Təbii ki, birinci xanım mədəniyyət, təhsil, xeyriyyəçilik sahəsində işlərinə görə bu mükafatla təltif olunur. Mən digər həmsədrlərlə birgə "Xoşməramlı səfir" mükafatını xanım Əliyevaya təqdim etmək istəyirəm.

Mehriban Əliyeva: Bu cür yüksək mükafata görə minnətdaram. Mən Azərbaycanın zəngin mədəni irsi haqqında danışdım. Bu gün axşam bizim gənc və istedadlı azərbaycanlıların səhnədə çıxışlarını dinləmək imkanımız olacaqdır. Əminəm ki, siz bundan zövq alacaqsınız. Sağ olun.

***"Azərbaycan" qəzeti,***
***12 dekabr 2006-cı il***







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN QƏTƏRƏ SƏFƏRİ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNESKO-nun və Qətər Elm, Təhsil və İcmanın İnkişafı Fondunun təşkil etdikləri "Ərəb dövlətlərində savadlılıq: tərəfdaşlığın qurulması və yeni yanaşmaların təşviqi mövzusunda" regional konfransda iştirak etmək üçün Qətərin birinci xanımı, YUNESKO-nun ibtidai və ali təhsil üzrə xüsusi elçisi Şeyxa Muza Bint Nasir əl-Misnədin dəvəti ilə 2007-ci ilin martın 12-13-də bu ölkədə səfərdə olmuşdur.

Martın 12-də işə başlayan konfransın açılışında Qətər Dövlətinin əmiri Şeyx Həməd bin Xəlifə Al Tani də iştirak edirdi.

Qətər Fondunun təhsil üzrə vitse-prezidenti doktor Abdulla Əli Al Tani konfransı açaraq, bu regional tədbirin ölkəsində keçirilməsindən məmnunluğunu söylədi. Beynəlxalq aləmdə elm və təhsilə himayəçilik sahəsində kifayət qədər nüfuza malik şəxslərin iştirakının bu konfransın

böyük əhəmiyyətindən xəbər verdiyini bildirdi.

Qətərin birinci xanımı Şeyxa Muza dəvəti qəbul edərək, Dohaya gəlmiş bütün qonaqlara təşəkkür etdi və dedi ki, bu konfrans savadsızlıq probleminin həlli yollarını birgə araşdırmaq, habelə təcrübə mübadiləsi aparmaq üçün gözəl fürsət olacaqdır. Təhsil sahəsində uğurlar qazanmış ölkələrin nümayəndələrinin bu mühüm məsələyə öz töhfələrini verəcəklərinə əminəm və buna görə də onların hər birinə əvvəlcədən minnətdarlığımı bildirirəm.

Sonra Oman Sultanlığının YUNESKO-dakı daimi nümayəndəsi Musa bin Cəfər bin Həsən, YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxış etdilər.

Konfransın aparıcısı Abdulla Əli Altani Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı iştirakçılara təqdim edərək dedi:

– Bizim üçün həm də çox sevindirici haldır ki, bugünkü görüşümüzdə region ölkələrinin birinci xanımları iştirak edirlər. Bu xanımların hər biri savadsızlığın aradan qaldırılmasına öz töhfəsini verir. İndi məmnuniyyətlə sizə Azərbaycan Respublikası Prezidentinin xanımı, Azərbaycan parlamentinin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı təqdim edirəm. Mehriban xanım Əliyeva ixtisasca göz həkimidir. O, ana, uşaq və ailənin himayə olunması sahəsindəki xidmətlərinə görə BMT-nin yüksək mükafatına layiq görülmüşdür. BMT-nin savadsızlığın aradan qaldırılması problemlərinə həsr olunmuş növbəti konfransına Azərbaycan dövləti ev sahibliyi edəcəkdir. Ona görə də mənə çox xoşdur ki, Mehriban xanım konfransın estafetini Dohadan Bakıya aparacaqdır. Buyurun, xanım, söz sizindir.

## Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çıxışı

– Ülyahəzrətləri! Zati-aliləri!

Xanımlar və cənablar!

İlk növbədə mən Dohada regional konfransın təşkil edilməsində birgə təşəbbüslərinə görə Qətərin birinci xanımı, Ülyahəzrət Şeyxa Muzanı və YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranı təbrik edir, bu cür vacib forumda iştirak etmək üçün dəvətə görə minnətdarlığımı bildirirəm.

Bu konfrans təhsil məsələlərinə həsr olunmuşdur. Amma əlbəttə ki, o bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərlə birbaşa bağlıdır.

Təhsil almaq imkanı və savadlılıq səviyyəsi baxımından xalqlar və ölkələr arasında mövcud olan böyük qeyri-tarazlıq cari həssas problemlərin əsas səbəbidir. İqtisadi artım təhsil, elm və mədəniyyətin inkişafı ilə müşayiət olunduğu, eləcə də əhalinin tərəqqinin ən son nailiyyətlərindən istifadə imkanı təmin edildiyi ölkələrlə yanaşı, biz elə ölkələri də görürük ki, orada insanlar ibtidai təhsil ala bilmirlər.





Statistika göstərir ki, 100 milyon oğlan və qız məktəbə getmək imkanından məhrumdur, dünyada yaşlı əhalinin təqribən 800 milyonu oxuya və yaza bilmir.

Bu baxımdan, mən YUNESKO-nun qlobal savadlılığın dəstəklənməsinə yönəlmiş fəaliyyətini, o cümlədən bu təşkilatın bütün ölkələr və xalqlar üçün açıq və bərabər təhsil almaq imkanının təmin edilməsi ilə bağlı planlarını xüsusi vurğulamaq istəyirəm. "Hamı üçün təhsil" dünya konfransı və sonradan keçirilmiş regional görüşlər və konfranslar bizi narahat edən bir çox problemlərin tədricən aradan qaldırılmasının mümkünlüyünə ən bariz nümunələrdir.

Nəinki Orta Şərqin, o cümlədən bütün dünyanın ən dinamik şəkildə inkişaf edən ölkəsi olan Qətərdə bu cür konfransın keçirilməsi təbiidir. Bu gün Qətər iqtisadi tərəqqinin təhsil və elmin inkişafı ilə müşayiət olunmasının ən gözəl modelidir. Qısa müddət ərzində Qətərin təhsil infrastrukturu bütün səviyyələrdə inkişaf etmişdir. Onlarca yeni məktəb açılmışdır.

Dünyada tanınmış universitetlərin tədqiqat işləri apardığı və tələbələrə təhsil verdiyi "Təhsil şəhərciyi"nin yaradılması olduqca uğurlu və vaxtında həyata keçirilmiş layihədir.

Bütün bu islahatların aparılması nəticəsində indi Qətər ərəb aləminin xüsusi elmi və mədəni mərkəzinə çevrilməkdədir.

Hörmətli dostlar!

Böyük məmnunluqla demək istəyirəm ki, təhsil problemlərinə həsr olunmuş növbəti regional konfrans 2008-ci ilin yazında Azərbaycanda keçiriləcəkdir.

Hazırda Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malikdir.

ÜDM-in artımı 2005-ci ildə 26 faiz, 2006-cı ildə isə 34 faiz olmuşdur. Bu il də biz həmin səviyyəni müəyyən dərəcədə saxlayacağıq.

Bir neçə il ərzində biz təhsil sistemimizdə islahatlar aparmışıq. Məqsədimiz dünya standartlarına cavab verən və müasir texnologiyalara əsaslanan çağdaş təhsil sistemi yaratmaqdan ibarətdir.

XX əsrdə Azərbaycan üç dəfə öz əlifbasını dəyişmək məcburiyyəti qarşısında qalmışdır. Buna baxmayaraq, ölkəmizdə savadsızlığın səviyyəsi çox aşağıdır. Əhalinin 98 faizi yaza və oxuya bilir. Azərbaycanın Konstitusiyası hər bir vətəndaşın icbari 11 illik təhsil almaq hüququna təminat verir.

Azərbaycanda təhsil sisteminin inkişaf etdirilməsi ilə bağlı Dövlət Proqramı uğurla həyata keçirilmişdir. Bir çox yeni məktəblər tikilir, tam həcmdə avadanlıq və kompyuterlərlə təchiz olunur. Bütün məktəblər müasirləşdirilir və bərpa olunur. Son 3 il ərzində bütün ölkədə 700-dən çox yeni məktəb binası inşa edilmişdir.

Bütün bunlar neft gəlirlərinin iqtisadiyyatın qeyri-neft sektorunda istifadə edilməsi üzrə Dövlət Proqramının hissələridir və mən hesab edirəm ki, təhsilə qoyulan sərmayə gələcəyə və gənc nəsillərimizə xidmət edən sərmayədir.

Azərbaycanın ən böyük problemi ərazimizin 20 faizinin on beş ildən çoxdur ki, Ermənistan tərəfindən işğal edilməsidir. Bunun nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi

köçkün vəziyyətinə düşmüşdür. Onların müəyyən hissəsi qaçqın düşərgələrində məskunlaşıbdır. Biz bu reallığı beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışırıq. Bu çətinliklərə baxmayaraq, hökumət qaçqın və məcburi köçkünlər üçün yaxşı təhsilin təmin edilməsinə çox çalışır.

Mən, həmçinin Heydər Əliyev Fondu haqqında bir neçə söz demək istəyirəm. Bu Fond 2004-cü ilin may ayında yaradılmışdır və onun məqsədi təhsil, mədəniyyət, sağlamlıq, elm və ətraf mühit sahələrində müxtəlif layihələri dəstəkləməkdən ibarətdir.

Yaradıldığı gündən etibarən Heydər Əliyev Fondu mədəni irsin təşviq olunması və ölkəmizdə təhsilin inkişafı üçün bir çox işlər görmüşdür. "Yeniləşən Azərbaycana yeni məktəb" adlı proqramımız çərçivəsində 200-dən çox məktəb binası tikilmiş və tam təchiz olunmuşdur. Onların bir neçəsi ən ucqar kəndlərdə inşa edilmişdir. Biz uşaq evlərində yaşayan balaların təhsilinə xüsusi diqqət yetiririk. Onların yaşadığı binalar müasirləşdirilmiş, kompyuter və kitabxanalarla təchiz olunmuşdur. BMT-nin inkişaf Proqramı ilə həyata keçirdiyimiz birgə layihə çərçivəsində Bakıda görmə qabiliyyəti zəif olan uşaqlar üçün audio kitabxana ilə təchiz olunmuş xüsusi təhsil mərkəzi tikilmişdir.

Fondumuzun beynəlxalq təşkilatlarla, xüsusən də YUNESKO və İSESKO ilə olduqca sıx əlaqələri var. Bu baxımdan, hesab edirəm ki, YUNESKO-nun Təhsil Məsələləri üzrə Regional Mərkəzi Azərbaycanda təsis edilə bilər və bu qurumda "Hamı üçün təhsil" proqramı üzrə işçi qrup görüşlər keçirə və bu sahədəki irəliləyişi müzakirə edə bilər.

Yekun olaraq, bildirmək istəyirəm ki, Böyük İpək yolunun mərkəzində yerləşən Azərbaycan qədim zamanlardan Şərq ilə Qərb arasında körpü olmuşdur. İndi isə biz yenidən təhsil və mədəniyyət körpüsü rolunu oynamağa hazırıq.

Mən bu cür mühüm tədbirə və olduqca səmimi qonaqpərvərliyə görə konfransın təşkilatçılarına – YUNESKO-ya və Qətər Elm, Təhsil və İcmanın İnkişafı Fonduna bir daha öz minnətdarlığımı bildirir, Sizə uğurlar və səmərəli iş arzulayıram.

*"Azərbaycan" qəzeti,*
*15 mart 2007-ci il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ

2007-ci ilin aprelin 3-də Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik yığıncağı keçirilmişdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yığıncaqda iştirak etmişdir.

Yığıncağı YUNESKO-nun baş direktoru Koişiro Matsuura açmışdır.

Sonra sədrlik edən İordaniya şahzadəsi xanım Ferial Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı iştirakçılara təqdim edərək dedi:

– Mən olduqca fəal xoşməramlı səfir və çox hörmətli birinci xanımı təqdim etməkdən böyük məmnunluq duyuram. O, öz ölkəsində və bütün dünyada bir çox xeyriyyə işlərinin həyata keçirilməsi məqsədi ilə yorulmaz fəaliyyət göstərir. Birinci xanım olduqca qısa müddət ərzində böyük nailiyyətlər əldə etmişdir. İndi isə mən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı şərəf hissi ilə təqdim edirəm.

**Azərbaycanın birinci xanımı,**
**YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çıxışı**

– Hörmətli cənab baş direktor! Hörmətli xoşməramlı səfirlər! Xanımlar və cənablar!

İlk növbədə, mən YUNESKO-nun iqamətgahında illik ənənəvi yığıncaqda bütün

həmkarları salamlamaq, bu tədbiri təşkil etdiyinə görə baş direktor cənab Koişiro Matsuuraya minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, Qətərdə keçirilmiş "Tərəfdaşlığın qurulması və yeni yanaşmaların tətbiqi" mövzusunda uğurlu regional konfrans münasibətilə cənab Koişiro Matsuuranı təbrik edirəm. "Hamı üçün təhsil" proqramı çərçivəsində yekun regional konfrans 2008-ci ildə Azərbaycanda keçiriləcəkdir. Bu fürsətdən istifadə edərək mən sizi həmin konfransda iştirak etməyə dəvət edirəm. Əminəm ki, Bakı konfransı "Hamı üçün təhsil" proqramının həyata keçirilməsinə doğru atılmış əlavə uğurlu addım olacaqdır.

Ötən ilin yaddaqalan tədbirlərindən biri "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Assambleyasının birinci iclası oldu. Məmnunluqla sizə məlumat vermək istəyirəm ki, Azərbaycan həmin Konvensiyanı bu ilin martında ratifikasiya etmişdir. Qeyri-maddi mədəni irs mədəniyyətin ifadə olunmasının ən qədim formalarından biridir. Təbii ki, qeyri-maddi mədəni irsin saxlanılması və qorunması qarşımızda duran əsas məsələlərdəndir.

Ötən il Heydər Əliyev Fondunun fəaliyyətində çox məhsuldar il olmuşdur. Bu günə qədər bir sıra layihələr artıq başa çatdırılmışdır. Onlardan biri, məsələn, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilir. Heydər Əliyev Fondu təhsil, elm, mədəniyyət, səhiyyə və ətraf mühitin qorunması sahələrində öz işini davam etdirmişdir.

Mən bir neçə layihə haqqında əlavə məlumat vermək istəyirəm.

Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO "Orta əsrlər əlyazmalarında tibb və əczaçılıq" adlı ilk beynəlxalq konfrans təşkil etmişdir. Tibb elminə aid Azərbaycanda saxlanılan üç nadir əlyazma Ümumdünya Yaddaş Qeydiyyatına salınmışdır. Həmin Qeydiyyatda ümumən 120 əlyazma öz əksini tapmışdır. Bu əlyazmalar nəinki ayrı-ayrı dövlətlər, o cümlədən bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir. Konfransın işində bir çox ölkələrin tanınmış alimləri iştirak etmişdir və Fondumuz həmin mühüm proqrama dəstəyini davam etdirəcəkdir.

Heydər Əliyev Fondu memarlıq abidələrinin bərpasında fəal surətdə iştirak edir. Ötən il ərzində biz Cavad xanın türbəsi, Pir Həsən, Mövsüm Səlim və Həzrəti Zeynəb məscidləri kimi bir sıra tarixi və dini abidələri bərpa etmişik.

Biz həmçinin ölkəmizin hüdudlarından kənarda yerləşən ümumbəşəri mədəni abidələrin bərpasında iştirak edirik.

Bildiyiniz kimi, Versal sarayı 1979-cu ildən etibarən Dünya İrsi siyahısına salınmışdır. Sarayın parkında yerləşən bir neçə qədim abidə zamanın və iqlim şəraitinin təsiri nəticəsində zədələnmişdir. Təqribən 15 abidə təcili surətdə bərpa olunmalıdır. Fondumuz parkda iki abidənin bərpası məqsədi ilə 2006-cı il avqustun 10-da müqavilə imzalamışdır. Bərpa işləri 2007-ci il iyulun 15-də başa çatdırılacaqdır.

Ötən il ərzində Heydər Əliyev Fondu Azərbaycan muğamı kimi təkrarolunmaz fenomenə böyük dəstək vermişdir. Bu fürsətdən istifadə edərək mən bir sıra muğam layihələrini





dəstəklədiyinə görə YUNESKO-ya öz minnətdarlığımı bildirir, onların uğurla həyata keçirilməsi haqqında məlumat vermək istəyirəm.

Beynəlxalq Muğam Mərkəzinin tikintisi davam edir. Baş direktor cənab Koişiro Matsuura həmin Mərkəzin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Ümidvaram ki, o, 2008-ci ilin yayında Muğam Mərkəzinin açılış mərasimində də iştirak edəcəkdir.

Hazırda Siz slaydda Mərkəzin çox müasir memarlıq üslubunda işlənmiş layihəsini görürsünüz, lakin eyni zamanda, binanın özü bizim milli musiqi alətlərinə bənzəyir.

Biz muğam gecələrini keçirməkdə davam edirik. İndi isə siz həmin konsertdən şəkilləri seyr edirsiniz. Biz eyni zamanda, muğam haqqında orta əsrlər traktatlarını çap etmişik. Bu gün biz sizə muğama həsr olunmuş jurnalı nümayiş etdiririk. Həmin jurnal bu istiqamətdə YUNESKO-nun dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən görülmüş işlərdən bəhs edir.

Yekunda mən Pakistanda qızlar məktəbinin tikintisi layihəsi haqqında bir neçə söz demək istəyirəm. Bu şəkillərdə siz dəhşətli zəlzələnin nəticələrini və ölən, yaralanan insanlar barədə məlumatı görürsünüz. Təkcə zədələnmiş məktəblərin sayı minlərlədir. Dağıntılar nəticəsində uşaqlar ya çöldə, yaxud da çadırlarda dərs keçməyə məcburdurlar. Lakin bu ağır şəraitə baxmayaraq, onlar təhsil almağı çox istəyirlər.

Məhz bu səbəbdən, Heydər Əliyev Fondu Pakistanda yeni məktəbin tikintisi layihəsinə başlamışdır. Siz burada yenə də viran qalmış məktəbin fotolarını seyr edirsiniz. Bir sözlə, yeni məktəb yüksək standartlara cavab verəcək və bütün lazımi avadanlıqla təchiz olunacaqdır. Məktəbin ümumi sahəsi 2000 kvadratmetr olacaqdır. 500-dən çox şagird müasir sinif otaqlarından, iki laboratoriyadan, kitabxana, salon və idman meydançasından istifadə edəcəkdir. Bu şəkillərdə biz həmin məktəbin gələcək görünüşünü görürük. Tikintinin müddəti 12 ay olacaq, 2008-ci ilin mart ayında məktəbi açmağı planlaşdırırıq.

Ümid edirəm ki, həmin layihə uşaqlara lazımi təhsil almaq imkanını yaradacaq və "Hamı üçün təhsil" proqramının həyata keçirilməsində növbəti uğurlu addım olacaqdır.

Yekun olaraq, mən məşhur musiqiçi, həmkarımız Mstislav Rostropoviçi 80 illiyi münasibətilə bütün xoşməramlı səfirlər adından təbrik etmək istəyirəm. Mstislav Rostropoviç Azərbaycanın ən yüksək mükafatı – "Heydər Əliyev" ordeni ilə təltif olunmuşdur.

Əfsuslar ki, o, bugünkü görüşdə iştirak edə bilmir. Mən ona möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Diqqətinizə görə minnətdaram.

Mən sizin hamınıza uğurlu və məhsuldar il arzulayıram.

***"Azərbaycan" qəzeti,***
***7 aprel 2007-ci il***




## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA DÜNYA SƏHİYYƏ ASSAMBLEYASININ 60-cı SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR

2007-ci ilin mayın 17-də Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanının – Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağı keçirilmişdir. Yığıncaqda Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın səhiyyə sahəsində xidmətlərinə görə İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatına layiq görüldüyü bildirilmişdir. Mükafat təqdim olunduqdan sonra Mehriban Əliyeva çıxış edərək demişdir:

– Xanım sədr! Xanım baş direktor! Xanımlar və cənablar!

İlk növbədə mən bütün iştirakçıları salamlamaq, xeyirxah fəaliyyətinizdə sizə uğurlar arzulamaq istərdim.

Dünya Səhiyyə Təşkilatı planetimizdə yaşayan bütün xalqlar üçün sağlamlığın mümkün





qədər ən yüksək səviyyəsinin təmin edilməsi naminə çalışan əsl universal təsisatdır.

Burada olmaq və Dünya Səhiyyə Təşkilatının bu mükafatını almaq böyük şərəfdir. Məni bu cür yüksək mükafata layiq gördüklərinə görə DST-nin İcraiyyə Şurasına və professor İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun seçim heyətinə minnətdarlığımı bildirmək istəyirəm.

Əminəm ki, bu mükafat ölkəmdə ana, uşaq və ailə sağlamlığının yaxşılaşdırılması məqsədilə göstərdiyim səyləri daha da gücləndirəcəkdir. Bu mükafat mənim üçün çox önəmlidir, çünki o, böyük hörmət və ehtiram bəslədiyim şəxsin, professor İhsan Doğramacının adını daşıyır.

Dünya şöhrətli pediatr və böyük xeyriyyəçi, professor İhsan Doğramacı bütün həyatını uşaqların sağlamlığı və ali təhsili kimi yüksək amallara həsr etmişdir. Dünya Səhiyyə Təşkilatının yaradıcılarından biri, onun nizamnaməsinə imza atmış, bu təşkilatın canlı tarixi sayılan belə böyük şəxsiyyət tərəfindən təltif edilmək mənim üçün böyük şərəfdir. Əfsuslar olsun ki, professor Doğramacı bu tədbirdə iştirak edə bilmədi. Mən öz adımızdan ona qarşıdan gələn bir çox illər ərzində möhkəm cansağlığı və səadət arzulayıram.

Hazırda sürətlə inkişaf edən Azərbaycanda yaşayan hər bir şəxsin həyat tərzi və sağlamlığını köklü şəkildə yaxşılaşdırmaq üçün bir çox imkanlar var. Azərbaycanda səhiyyə sisteminin müasirləşdirilməsi haqqında dövlət proqramı uğurla həyata keçirilir. Təkcə son iki il ərzində ölkəmizdə onlarca müalicə-diaqnostika mərkəzləri tikilmişdir. Onların hamısı ən müasir avadanlıqla təchiz olunur. Biz gənc həkimlərimizin təhsilinə xüsusi diqqət yetiririk. Məqsədimiz ölkədə ən yüksək dünya standartlarına cavab verən səhiyyə sisteminin qurulmasıdır. Əminəm ki, hazırkı sürətlə biz yaxın gələcəkdə öz məqsədlərimizə nail olacağıq.

Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıq çox səmərəlidir. Bu təşkilat Azərbaycanda tibbi təhsil, təhlükəsiz immunlaşdırma, ana və uşaqların sağlamlığının qorunması kimi sahələrdə bir sıra layihələr həyata keçirir. İnanıram ki, əməkdaşlığımız gələcəkdə daha səmərəli olacaqdır.

Məni təltif etdiklərinə görə, Dünya Səhiyyə Təşkilatına və İhsan Doğramacı Ailə Sağlamlığı Fonduna sonda bir daha minnətdarlığımı bildirir, bu mükafatı Azərbaycanda işləyən bütün həkimlərin və səhiyyə işçilərinin əməyinə verilən qiymət kimi qəbul edirəm.

Mən sizə uğurlar, möhkəm cansağlığı və səadət arzulayıram. Sağ olun.

*"Azərbaycan" qəzeti,*
*19 may 2007-ci il*



## BAKIDA BƏDİİ GİMNASTİKA ÜZRƏ 23-cü AVROPA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR

2007-ci ilin iyunun 29-da Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində Bədii Gimnastika üzrə 23-cü Avropa çempionatının təntənəli açılışı olmuşdur.

Açılış mərasimində Azərbaycan Gimnastika Federasiyasının prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çıxış edərək dedi:

– Hörmətli cənab Prezident! Hörmətli xanımlar və cənablar! Əziz qonaqlar!

İlk növbədə sizi Bədii Gimnastika üzrə 23-cü Avropa çempionatının açılışı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Bu idman bayramında iştirak edən bütün idmançıları və qonaqlarımızı ürəkdən salamlayıram, hamımıza "Xoş gəlmisiniz!" deyirəm.

Son illər Azərbaycanda böyük beynəlxalq turnirlərin keçirilməsi gözəl bir ənənəyə çevrilibdir.





Azərbaycan idmanının beynəlxalq aləmdə uğurları və dövlət tərəfindən idmana göstərilən ən yüksək qayğı nəticəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

2005-ci ildə paytaxtımızda bədii gimnastika üzrə dünya çempionatını çox uğurla keçirmişdik. Bu, olimpiya idman növləri üzrə ölkəmizdə keçirilən ilk dünya çempionatı kimi tarixə düşmüşdür. Bugünkü yarış, 23-cü Avropa çempionatı 2007-ci ildə Bədii Gimnastika üzrə ən mühüm hadisələrdən biridir. Bu gün Avropanın ən güclü gimnastları paytaxtımızdadır. Milyonlarla azarkeşin diqqəti ölkəmizə yönəlibdir. Mən əminəm ki, yarışlar maraqlı və kəskin mübarizə şəraitində keçəcək və bu çempionat yaddaqalan idman xatirəsinə çevriləcəkdir.

Son illər Azərbaycanda Bədii Gimnastikaya çox böyük maraq var. Bədii gimnastika ölkəmizdə çox populyardır. Bu gözəl idman növü ilə məşğul olan gənclərin sayı ildən-ilə artır. Mən bugünkü çempionatda ölkəmizi təmsil edən idmançılara, gənc və gözəl qızlarımıza ürəkdən uğurlar arzu edirəm.

Bu idman bayramının keçirilməsi bir çox insanın və təşkilatların gərgin əməyinin nəticəsidir. Ölkə Prezidenti cənab İlham Əliyevə idmanın inkişafına və Olimpiya hərəkatına diqqət və qayğısına görə xüsusi minnətdarlığımı bildirirəm.

Bakıda belə nüfuzlu yarışın keçirilməsinə etimad göstərib qərar verdiyinə görə Avropa Gimnastika İttifaqının rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Mən Azərbaycanın Gimnastika Federasiyasına, Gənclər və İdman Nazirliyinə, çempionatın hazırlığında iştirak edən bütün insanlara təşəkkür edirəm.

Mən sonda Avropanın böyük Bədii Gimnastika ailəsini qədim Azərbaycan torpağında bir daha salamlayıram, azarkeşlərə həyəcan anları, yarış iştirakçılarına qələbə sevincini arzu edirəm.

Sağ olun.

Sonra çıxış üçün Avropa Gimnastika İttifaqının prezidenti Dimitrios Dimitropoulosa söz verildi.

Avropa Gimnastika İttifaqının prezidenti Dimitrios Dimitropoulos çıxış edərək demişdir:

– Azərbaycan Respublikasının hörmətli Prezidenti!

Əziz xanımlar və cənablar!

Əziz fəxri qonaqlar!

Mənim Federasiyamdan olan əziz dostlarım!

Əziz gimnastlar!

Avropa Gimnastika İttifaqı adından sizin hamınızı Bakıda keçirilən Bədii Gimnastika üzrə Avropa çempionatında səmimi qəlbdən salamlayıram.

Azərbaycan Gimnastika Federasiyasına, xüsusən də Azərbaycan Respublikasına bu Avropa çempionatının təşkilinə dəstək olduqları üçün öz dərin təşəkkürümü bildirirəm.

Bu Avropa çempionatının planlaşdırılması və hazırlanması Təşkilat Komitəsinin bacarığı, peşəkarlığı və işgüzarlığı sayəsində mümkün olmuşdur. Fəxr edirəm ki, Avropa Gimnastika İttifaqının üzvü olan Azərbaycan Gimnastika Federasiyası bu təşkilatçılığı ən yüksək standartlara

uyğun həyata keçirə bilmişdir.

Gimnastika Federasiyasının, Təşkilat Komitəsinin çoxsaylı əməkdaşları və idman təşkilatlarından danışarkən Azərbaycan Gimnastika Federasiyasının prezidenti və Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın adını qeyd etmək və ona öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Dünyanın ən güclü Bədii Gimnastları Avropa qitəsinin təmsilçiləridir. Ona görə də əziz tamaşaçılar, sizi əmin edirəm ki, bizim bədii gimnastların çıxışları yüksək səviyyədə olacaqdır. İndiki Avropa çempionatı 2008-ci il Pekin Olimpiadasına vəsiqə verən və bu ilin sentyabrında Yunanıstanda keçiriləcək Dünya çempionatı ərəfəsində sonuncu beynəlxalq yarışdır.

Əziz gimnastlar, sizə gözəl, maraqlı yarışlar və bütün mümkün uğurları əldə etməyi arzulayıram.

Beləliklə, 2007-ci ildə Bakıda keçirilən Bədii Gimnastika üzrə 23-cü Avropa çempionatını açıq elan edirəm.

*"Azərbaycan" qəzeti,*
*30 iyun 2007-ci il*








## HEYDƏR ƏLİYEV FONDUNDA "MUĞAM" JURNALININ İLK NÖMRƏSİNİN VƏ "MUĞAM-ANTOLOGİYA" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ÇAP OLUNMUŞ NƏŞRLƏRİN TƏQDİMATI KEÇİRİLMİŞDİR

Mərasimdə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyeva çıxış edərək demişdir:

– Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizi Heydər Əliyev Fondunda salamlayıram, sizi bu gün burada görməyə çox şadam. İlk növbədə mən bizim hamımızı Azərbaycanın iki böyük qələbəsi münasibətilə təbrik etmək istərdim.

Bildiyiniz kimi, bədii gimnastika üzrə 23-cü Avropa çempionatı paytaxtımızda çox uğurla keçmişdir və bizim idmançılarımız bu yarışlarda çox yüksək nailiyyətlər əldə ediblər. Yığma komandamız bürünc medal qazanıb, gimnastımız Aliyə Qarayeva isə qızıl medala layiq görülərək, Avropa çempionu olmuşdur.

Əlbəttə, bu, Azərbaycan idmanının çox böyük qələbəsidir. Bu gün bizim ölkəmiz bədii gimnastika üzrə dünyanın beş aparıcı dövləti arasındadır və bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Eyni zamanda, Azərbaycanın mədəni həyatında da çox əlamətdar bir hadisə baş veribdir. Bildiyiniz kimi, Qobustan dövlət tarixi-bədii qoruğu YUNESKO-nun Dünya Mədəni İrs siyahısına salınmışdır. Bu qərar YUNESKO-nun ümumdünya irs Komissiyasının Yeni Zelandiyada keçirilən 31-ci sessiyasında qəbul olunub və hesab edirəm ki, bu da bizim çox böyük qələbəmizdir. Çünki bu, o deməkdir ki, Qobustan təkcə Azərbaycan üçün yox, bütün bəşəriyyət üçün çox əhəmiyyətli, çox dəyərli tarixi və mədəni abidədir. Çox namizədlər arasında məhz bizim tarixi abidəmiz seçilib və bu münasibətlə də mən sizi ürəkdən təbrik edirəm.

Əziz qonaqlar!

Bu gün biz "Muğam" jurnalını sizin diqqətinizə təqdim edirik. Bu muğamın çoxəsrlik tarixində bütövlükdə muğama həsr olunmuş ilk jurnaldır və əlbəttə ki, bütün muğamsevərlər üçün böyük bir hədiyyədir. Jurnal 3 dildə – Azərbaycan, ingilis və rus dillərində çap olunubdur. Bu da jurnalın yayılma dairəsini xeyli genişləndirib və mən əminəm ki, o təkcə ölkəmizdə yox, dünyanın bir neçə ölkəsində öz oxucusunu tapa biləcəkdir.

Bildiyiniz kimi, Heydər Əliyev Fondu muğama dəstək olan bir sıra layihələr həyata keçirir. Bunlar "Muğam-irs", "Muğam dünyası", "Muğam ensiklopediyası", "Muğam-internet", "Muğam-dəstgah", "Muğam-antologiya" layihələridir. Bütün bu layihələr barəsində ətraflı məlumatı siz bu jurnalın səhifələrində tapa biləcəksiniz.

Son illər ölkəmizdə muğama çox böyük maraq, çox böyük dəstək var. Çox sevindirici haldır ki, bizim gənclərimiz də muğam sənətini əsrlərin sınağından keçmiş bir sərvət kimi dəyərləndirirlər. Biz gərək bu sərvəti həm qoruyaq, həm də gələcək nəsillərə çatdıraq. Bizim bu jurnal məhz bunun üçün təsis olunub və buna xidmət edəcəkdir.

Eyni zamanda, bu gün sizin diqqətinizə üç yeni kitab təqdim olunur. Bunların nəşri Heydər Əliyev Fondu ilə Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun birgə fəaliyyətinin nəticəsidir. Bu nəşrlər həm kitab, həm də disk şəklində hazırlanıb və muğamın tədqiqi ilə məşğul olan musiqişünaslar üçün böyük bir töhfədir. Əlyazmalar İnstitutu ilə əməkdaşlığımız davam edir və mən inanıram ki, yaxın gələcəkdə yeni-yeni nəşrlər hazırlanacaq və oxuculara çatdırılacaqdır.

Bu gün mən böyük sevinc hissi ilə demək istərdim ki, paytaxtımızda Beynəlxalq Muğam Mərkəzinin tikintisi davam edir. Siz, yəqin ki yaxşı xatırlayırsınız, biz bu layihəni birgə müzakirə edirdik. Memarlıq baxımından birgə layihə seçmişdik. Çox gözəl binadır, həm müasirdir, həm gözəldir, həm də bizim ənənələrimizə uyğundur. Muğam Mərkəzi 2008-ci ilin əvvəllərində istifadəyə veriləcəkdir. Mən əminəm ki, bu mərkəz həm sənət evinə, həm muğam məktəbinə, həm muğam muzeyinə, həm də ki bizim musiqimizə həsr olunmuş bir abidəyə çevriləcəkdir.





Bu gün buraya toplaşan bütün insanların taleyində muğam xüsusi bir yer tutur. Çoxlarınız muğam sənətinə, demək olar ki, bütün ömrünüzü həsr etmisiniz. Mən sizi belə bir jurnalın işıq üzü görməsi münasibətilə ürəkdən təbrik edirəm. İnanıram ki, bizim yerli jurnal həm muğama aid tədqiqatlara yeni təkan verəcək, həm də muğamı populyarlaşdıracaqdır. Bizimlə bu jurnalın hazırlanmasında və muğama həsr olunmuş digər layihələrdə əməkdaşlıq edən, bizə dəstək verən bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Mən sizə möhkəm cansağlığı, uğurlar və xoşbəxtlik arzulayıram.

Çox sağ olun.

*"Azərbaycan" qəzeti,*
*3 iyul 2007-ci il*




## BAKIDA HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ "GƏNCLƏR SİVİLİZASİYALARIN ALYANSI NAMİNƏ" TƏŞƏBBÜSÜ ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ KONFRANS BAŞLANMIŞDIR

2007-ci ilin noyabrın 1-də "Gülüstan" sarayında "Gənclər sivilizasiyaların alyansı naminə" Beynəlxalq konfrans başlanmışdır.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın himayəsi ilə keçirilən konfransda Qətər Dövləti Əmirinin xanımı Şeyxa Moza bint Nasir əl-Misnəd və bir sıra beynəlxalq təşkilatın rəhbərləri iştirak edirdilər.

**Heydər Əliyev Fondunun prezidenti,**
**YUNESKO və İSESKO-nun xoşməramlı səfiri,**
**Milli Məclisin deputatı Mehriban Əliyevanın çıxışı**

– Hörmətli Ülyahəzrət! Hörmətli iştirakçılar!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Naminə Gənclər Forumu ilə Heydər





Əliyev Fondu tərəfindən təşkil olunmuş gənclərin yüksək səviyyəli tədbirində – "Gənclər sivilizasiyaların alyansı naminə" konfransında bütün iştirakçıları salamlayıram. Bu konfransda iştirak etmək üçün dəvətimizi qəbul etdiklərinə görə Qətərin birinci xanımı Ülyahəzrət Şeyxa Mozaya, BMT Baş katibinin sivilizasiyaların ittifaqı üzrə yüksək nümayəndəsi zati-aliləri cənab Əbdüləziz bin Osman əl-Tüveycriyə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Mən Azərbaycana gəlmiş bütün qonaqlarımıza "Xoş gəlmisiniz!" deyirəm və bu gün burada bizimlə olduqlarına görə onlara təşəkkür edirəm.

Bu cür əhəmiyyətli konfransın Azərbaycanda keçirilməsi böyük rəmzi xarakter daşıyır. Təqribən 50 ölkənin gənc liderləri, beynəlxalq təşkilatların təmsilçiləri, siyasətçilər, alimlər və ictimai xadimlər yeni beynəlxalq hərəkatın təsis edildiyi yerə – Bakı şəhərinə toplaşmışlar. Hələ qədim vaxtlardan Azərbaycan müxtəlif mədəniyyətlərə və dinlərə hörmətlə yanaşma və dözümlülük ənənələri ilə tanınmışdır. Biz uzun illər ərzində əmin-amanlıq şəraitində yan-yana yaşamışıq.

Azərbaycan tarixən çoxmillətli ölkə olmuşdur. Konstitusiyaya uyğun olaraq, burada bütün milli azlıqlar bərabər hüquqlara malikdirlər və bir ailə kimi yaşayırlar. Dini və etnik dözümlülük bütün nailiyyətlərimizin əsas elementlərindən biridir. Biz bundan çox fərəhlənirik.

Məlumdur ki, Heydər Əliyev Fondu təhsil, elm, mədəniyyət, səhiyyə və sosial sfera kimi prioritet sahələrdə iş aparır. Fondumuz həmin sahələrdə bir çox genişmiqyaslı layihələri həyata keçirmişdir. Bu gün biz gənclərin təhsilinə xüsusi diqqət yetiririk. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramımız çərçivəsində ölkədə 200-dən çox yeni məktəb binası tikilmişdir. Bizim təşəbbüsümüzü hökumət dəstəkləmişdir və son üç il ərzində ölkəmizdə 1200 yeni məktəb inşa edilmişdir.

Fondumuzun beynəlxalq təşkilatlarla – YUNESKO, İSESKO, BMT-nin İnkişaf Proqramı və digər təşkilatlarla güclü əlaqələri var. Ümid edirəm ki, gələcəkdə biz sivilizasiyalar ittifaqı ilə əməkdaşlığımızı möhkəmləndirəcəyik və bunu çox faydalı, vaxtına düşən bir təşəbbüs kimi qəbul edirik.

Mən bu cür vacib konfransın Bakıda təşkil olunmasını ölkəmizin nailiyyətlərinin tanınması kimi və ölkələr, xalqlar, dinlər arasında ittifaqın qurulması yolunda mühüm bir nailiyyət kimi hesab edirəm. Hazırda biz çox mürəkkəb və ziddiyyətli dünyada yaşayırıq və bəzən burada anlaşma, etimad və bir-biri haqqında obyetiv biliklər çatışmır. Son vaxtlar ksenofobiya, xilafi fikirlər, mənfi stereotiplər geniş yayılmışdır. Sosial ədalətsizlik və qeyri-bərabərliklə yanaşı, bu, zorakılıq, münaqişə ilə nəticələnə və beynəlxalq sabitliyi poza bilər.

Bu gün dünya bir dilemma qarşısındadır: ya dinlər və mədəniyyətlər arasında dialoq, tərəfdaşlıq və əməkdaşlığın qurulmasına doğru addımlamaq, yaxud da qeyri-dözümlülük, bölünmə və gərginliyə sürüklənmək. Sivilizasiyalar ittifaqının məqsədi etimad qurmaq, dialoq yaratmaq, etnik mədəni dəyərləri, bəşəriyyətin müxtəlifliyini tanımaq və ona hörmətlə yanaşmaqdan ibarətdir. Mədəniyyətlər arasında ideya mübadiləsinin böyük fayda verməsi ilə

bağlı tarixdə bir çox misallar olmuşdur. İslam və dünyanın digər böyük dinləri arasında bir çox ümumi əsaslar və dəyərlər mövcuddur. Həmçinin həqiqətdir ki, bu gün dünyanın üzləşdiyi terrorçuluq, qlobal istiləşmə və QİÇS kimi problemlərin bir ölkə tərəfindən həll olunması həddindən artıq çətindir. Ona görə biz irəliləyiş üçün səylərimizi səfərbər etməliyik.

Əminəm ki, indiki mühitdə sivilizasiyaların ittifaqı uğunda həmin qlobal gənclər hərəkatını təsis etmək labüddür. Dünyada baş verən hadisələr, əsasən, hər bir müasir cəmiyyətdə gənclərin işi və davranışından asılıdır. Bu gün gənclər sosial qüvvə, müsbət sosial dəyişikliyə aparan qüvvədir. Bu gün gənc liderlər əhalinin ən fəal hissəsidir və onlar mütərəqqi ideyalara daha açıqdırlar. Gənclər öyrənmək və təcrübədən keçirmək arzusundadırlar. Bu səbəblərə görə gənclər sivilizasiyalar ittifaqının ideyaları, prinsipləri və dəyərlərinin təşviqində böyük rol oynamalıdırlar.

Qeyri-dözümlülüyə və ekstremizmə qarşı mübarizədə gənclərin səylərinin birləşdirilməsi vacibdir. Biz bu təşəbbüsü dəstəkləyirik və Bakıya toplaşmış akademik media dairələrini və sosial sahədəki fəalları alqışlayırıq. Mən bu fürsətdən istifadə edərək, konfransa öz təcrübələrini gətirmiş həmin şəxslərə minnətdarlığımı bildirmək istəyirəm.

Bu Forum gənclərdən ötrü ekspertlər, alimlər, siyasətçilər ilə bir çox aktual problemləri müzakirə etmək üçün xüsusi bir fürsətdir. Ümid edirəm ki, qarşıya qoyduğumuz məqsədin tədbirlərə yönümlü hərəkat yaratmaqdan ibarət olduğunu nəzərə alaraq, bu təcrübə gənclərə işlərinin yol xəritəsini nəinki müzakirə etmək, həm də onları müəyyən etmək imkanı verəcəkdir. İnanıram və ümidvaram ki, gənclərin və təcrübənin olması bizə böyük nəticələr əldə etməyə imkan yaradacaqdır. Bu müzakirələr nəticəsində formalaşacaq ideyalar Bakı Nəsillərarası Bəyannaməsində əks olunacaqdır. Lakin ən önəmlisi odur ki, ideyaların real həyatda və siyasətdə reallaşdırılmasını görək. Bu baxımdan Forum gənclər üçün hökumətlər, beynəlxalq təşkilatlar və özəl sektorda qərarları qəbul edən dairələrə öz rəylərini bildirmək imkanı yaratdı. Ümid edirəm ki, yalnız konstruktiv təsir etmək yolu ilə biz siyasi dəstəyi inkişaf etdirə və yeni təşəbbüsləri həyata keçirə bilərik. İndi biz elə etməliyik ki, sivilizasiyalar ittifaqı üzrə növbəti illik sammit tövsiyələrimizi nəzərə alsın və bu yeni hərəkatı öz çərçivəsinə daxil etsin. Hörmətli dostlar, əminəm ki, bu mötəbər Forum müxtəlif mədəniyyətlərə, ənənələrə və dinlərə malik olan gəncləri bir araya gətirəcək, mədəniyyətlərarası anlaşmanı möhkəmləndirəcəkdir.

Mən yekunda bu tədbirin hazırlanmasında iştirak etmiş bütün şəxslərə öz təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, siz gözəl şəhərimizdə olmağınızdan razı qaldınız.

Mən sizə uğurlar və xoşbəxtlik arzulayıram. Diqqətinizə görə sağ olun.

***"Azərbaycan" qəzeti,***
***2 noyabr 2007-ci il***








## HEYDƏR ƏLİYEV FONDU AZƏRBAYCANDA QADINLARA QARŞI ZORAKILIĞIN AZALDILMASINA YÖNƏLMİŞ LAYİHƏNİN TƏŞƏBBÜSKARIDIR

2008-ci ilin yanvarın 16-da Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu (UNFPA) və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" birgə layihəyə dair sənədlərin imzalanma mərasimi olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimi açaraq dedi:

– Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, Heydər Əliyev Fondu qısa bir zamanda ölkəmizdə böyük hörmətə malik olan təşkilata çevrilibdir. Əlbəttə, bu hörmət və dəstək Heydər Əliyev Fondunun fəaliyyəti ilə qazanılıbdır. Heydər Əliyev Fondu ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı naminə, sosial problemlərin həlli naminə çox fəal işlər görür, bir sıra irimiqyaslı humanitar layihələr həyata keçirir.

Yəqin ki, siz bilirsiniz, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkədə 200 yeni məktəb inşa olunmuş, ən müasir avadanlıqla təmin edilmişdir. Heydər Əliyev Fondunun bu təşəbbüsü dövlət tərəfindən dəstəklənib və 3 il ərzində ölkəmizdə 1300 yeni məktəb inşa olunubdur.

"Uşaq evləri və İnternat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə 30 uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini biz daim diqqət mərkəzində saxlayırıq.

Səhiyyə sahəsində bir çox tədbirlər həyata keçirilmişdir. "Talassemiyasız həyat" layihəsi çərçivəsində ölkəmizdə böyük Talassemiya mərkəzi inşa olunur. O da ən müasir avadanlıqla təmin ediləcəkdir. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkəmizdə diabetdən əzab çəkən 14 yaşına qədər hər bir uşaq yüksək keyfiyyətli insulinlə təmin olunur.

Bununla yanaşı, Heydər Əliyev Fondu beynəlxalq fəaliyyətini də səmərəli qurur. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları ilə bizim əməkdaşlığımız var.

Mədəniyyət sahəsində YUNESKO və İSESKO ilə əməkdaşlıq edirik, BMT-nin "İnkişaf Proqramı" ilə biz çox vacib layihə həyata keçirmişik. "Kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə çıxışının təmin edilməsi" adlı bu layihə çərçivəsində həmin insanlar üçün Bakıda yeni bir mərkəz inşa olunub, audio kitabxana hazırlanıb və ən müasir kompyuter avadanlığı alınıbdır.

Bir sözlə, Heydər Əliyev Fondu ölkəmizin ictimai həyatında, sosial problemlərin həllində çox fəal iştirak edir. Bu gün Azərbaycanın yüksək sürətlə həm iqtisadi, həm sosial inkişafı imkan yaradır ki, hər bir ailənin bütün ehtiyacları təmin olunsun və hər bir ailə üzvünün hüquqları qorunsun. Ölkəmizdə qadınların və uşaqların hüquqlarının qorunması istiqamətində son illər bir sıra mühüm tədbirlər həyata keçirilibdir. Xüsusilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb və o, bu istiqamətdə dövlətin siyasətini həyata keçirir. Digər dövlət qurumları – Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi bu istiqamətdə proqramlar hazırlayıb yerinə yetirirlər.

Çox sevindirici haldır ki, hazırda Azərbaycanın həm siyasi, həm də ictimai həyatında qadınların rolu və sayı ildən-ilə artır. Amma bununla yanaşı, qadınlara qarşı zorakılıq, ailə zəminində qadınlara, uşaqlara qarşı zorakılıq faktları da qeydə alınır və əlbəttə, bu bizdə narahatlıq doğurur. Siz, yəqin, bilirsiniz ki, son illər məişət zəminində zorakılıq, ailə zorakılığı bütün dünyada çox ciddi müzakirə olunur və bir sıra Beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Hər bir zorakılıq – məişət zəminində, ailədə zorakılıq insan hüquqlarının ciddi pozulmasıdır. Nəticədə zərər çəkən insanlar öz hüquq və azadlıqlarından istifadə edə bilmir, öz potensiallarını reallaşdırmağı bacarmırlar.

Biz hamımız yaxşı bilirik ki, Azərbaycan öz zəngin ailə ənənələri ilə seçilən bir ölkədir, dünyada tanınan ölkədir. Böyüklərə hörmət, qadınlara, anaya hörmət, uşaqlara qayğı xalqımızın ən gözəl keyfiyyətlərindən biridir. Bu olan halda, əlbəttə, hər hansı bir ailədə qadına qarşı





zorakılıq faktı nəinki qanunlara zidd, hesab edirəm ki, həm də etik normalardan kənar bir hərəkətdir. Bu faktları araşdırmaq və problemi aradan qaldırmaq üçün bu gün Heydər Əliyev Fondu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondu arasında çox vacib bir layihə imzalayır.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova layihə haqqında ətraflı məlumat verdi.

Şəxsi təşəbbüsünə və layihənin hazırlanmasına verdiyi dəstəyə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya və BMT-nin rezident-əlaqələndiricisi Bruno Puezaya minnətdarlığını bildirən Komitənin sədri dedi ki, ölkəmizdə zorakılığın aradan qaldırılması sahəsində görülən tədbirlərin davamı kimi bu layihənin icrasının xüsusi əhəmiyyəti vardır.

Bir çox istiqamətlərdə həyata keçirdiyi humanitar proqramlarla ölkəmizin tərəqqisinə xidmət edən Heydər Əliyev Fondunun layihənin əsas tərəfdaşlarından biri kimi çıxış etməsi zorakılığın bütün formalarının qarşısının alınması sahəsində dövlət tərəfindən görülən işlərə güclü təkan verəcək və bu sahədə fəaliyyət göstərən bütün təşkilatların məsuliyyətini daha da artıracaqdır.

Bildirildi ki, 20 ay müddətində həyata keçirilməsi nəzərdə tutulan layihə Azərbaycanın bütün ərazisini əhatə edir. Bakı şəhəri, Lənkəran, Gəncə və Naxçıvan MR bölgələri layihənin icrası üçün mərkəz regionlar kimi seçilmişdir. Layihənin əsas məqsədi əhalinin maarifləndirilməsi, qadın və uşaqların məişət zorakılığından müdafiə olunması, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılması, erkən nikahların qarşısının alınması və ailədə baş verən zorakılığın uşaqlara təsirinə yol verilməməsidir. Layihə çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi, o cümlədən layihəyə beynəlxalq ekspertlərin cəlb edilməsi, əhali arasında insan hüquqları və gender bərabərliyi ilə bağlı genişmiqyaslı məlumatlandırma kampaniyasının, regional seminarların təşkili, müvafiq çap məlumatlarının hazırlanması, orta məktəblərdə insan alverinə və erkən nikahlara dair maarifləndirmə tədbirlərinin təşkili, kütləvi informasiya vasitələrində maarifləndirmə xarakterli proqramların hazırlanması, gender əsaslı zorakılıq qurbanları üçün xidmətlər üzrə strategiyanın işlənməsi, zorakılıqdan zərər çəkmiş şəxslərə xidmət göstərən mütəxəssislər üçün tədris proqramlarının hazırlanması və təlimlərin keçirilməsi, onların sosial və psixoloji reabilitasiyasını təmin edən mərkəzlərin şəbəkəsinin yaradılması və s. nəzərdə tutulmuşdur.

Layihə çərçivəsində görülən işlər barədə ictimaiyyətin məlumatlandırılması üçün ayrıca internet saytı yaradılacaqdır.

BMT-nin Bakıdakı rezident-əlaqələndiricisi, UNFPA-nın Azərbaycandakı nümayəndəsi Bruno Pueza qadınlara qarşı zorakılıq məsələlərinə diqqətlə yanaşdığına görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanıma təşəkkür etdi. O dedi ki, Azərbaycan iqtisadiyyatının

qeyri-adi inkişaf sürəti problemlərin həllinə böyük imkanlar açır.

2000-ci ildə bütün dövlət başçıları, o cümlədən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən imzalanmış Minilliyin Bəyannaməsinə, xüsusilə də gender bərabərliyinə aid Minilliyin İnkişaf Məqsədinə dair Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərə uyğun olan və İnsan Hüquqlarına dair ümumi Bəyannamənin 60-cı ildönümünün qeyd edildiyi ildə həyata keçirilməyə başlayan layihə Azərbaycanda qadınların insan hüquqlarının daha da yaxşı müdafiəsi üçün əlverişli şərait yaradacaqdır.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və BMT-nin Bakıdakı rezident-əlaqələndiricisi, UNFPA-nın Azərbaycandakı nümayəndəsi Bruno Pueza "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsinə dair sənədləri imzaladılar.

***"Azərbaycan" qəzeti,***
***17 yanvar 2008-ci il***





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA "MUĞAM TELEVİZİYA MÜSABİQƏSİ – 2007"nin QALİBLƏRİ VƏ MÜNSİFLƏR HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

2008-ci ilin yanvarın 22-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Muğam televiziya müsabiqəsi – 2007"nin qalibləri və münsiflər heyətinin üzvləri ilə görüşmüşdür.

Mehriban Əliyeva görüşü açaraq dedi:

– Əziz qonaqlar, mən sizi Heydər Əliyev Fondunda salamlayıram, xoş gəlmisiniz. Görüşümüzün əvvəlində mən böyük kədər hissi ilə qeyd etməliyəm ki, Azərbaycanın musiqi sənətinə böyük itki üz vermişdir. Görkəmli incəsənət xadimi, məşhur müğənni Lütfiyar İmanov dünyasını dəyişmişdir. Mən əminəm ki, onun yaradıcılığı, onun səsi, mədəniyyətimizdə qoyduğu iz insan ömründən çox-çox uzun yaşayacaqdır. Allah rəhmət eləsin.

Əziz dostlar, mən sizi görməyə çox şadam. Bu gün biz birlikdə "Muğam televiziya müsabiqəsi – 2007"nin uğurlu nəticələrini müzakirə edəcəyik. Siz bilirsiniz ki, bu layihə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə həyata keçirilmişdir. Biz bu layihəni başlayanda əsas məqsədlərimiz qədim Azərbaycan muğamını təbliğ etmək, zəngin muğam məktəbi üçün yeni səslər axtarmaq və əlbəttə ki, gənc ifaçılar üçün, onlara potensialını tam şəkildə reallaşdırmaları üçün şərait yaratmaq idi. Hesab edirəm ki, qarşıya qoyduğumuz bütün məqsədlərə biz nail olmuşuq. Muğam müsabiqəsi çox böyük uğurla başa çatdı və bir daha muğamın möhtəşəmliyini hamıya göstərdi. Bir daha sübut etdi ki, muğam Azərbaycanda ən sevilən, ən dəyərli musiqi janrlarından biridir. Mən bu üç ay ərzində həm Azərbaycandan, həm də xaricdən çoxsaylı məktublar alıram. Bu məktubları göndərən insanlar muğama olan sevgilərindən, hörmətindən yazırlar və bizim bu müsabiqəni dəstəklədiklərini bildirirlər. Demək olar ki, artıq bu muğam müsabiqəsi xalq arasında çox böyük populyarlıq qazanmışdır və mən hesab edirəm ki, yəqin ki ənənəvi xarakter daşımalıdır. Muğam müsabiqəsinin bütün iştirakçılarını, xüsusilə laureatları, sizi bu parlaq qələbə münasibəti ilə ürəkdən təbrik edirəm.

Mən bilirəm ki, üç ay ərzində siz çox böyük narahatlıq hissləri keçirmisiniz. Çünki müsabiqə çox ciddi rəqabət şəraitində keçirdi. Bütün iştirakçılar gözəl səsə malik idi və gözəl ifa qabiliyyəti nümayiş etdirdilər. Əlbəttə, belə bir yolun sonunda qalib gəlmək çox şərəflidir.

Mən bir daha sizi təbrik edirəm və gələcəkdə uğurlar arzulayıram. Onu da qeyd etmək istərdim ki, bu müsabiqə ərzində siz öz səslərinizlə, qabiliyyətinizlə xalq məhəbbətini qazanmısınız. Bu, ən vacib amildir və inanıram ki, gələcəkdə bu məhəbbət daha da artacaqdır. Ona görə də sizi bir daha ürəkdən təbrik edirəm, yeni-yeni uğurlar arzu edirəm.

Mən bu gün münsiflər heyətinin üzvlərinə öz dərin minnətdarlığımı çatdırmaq istəyirəm. Bilirəm ki, bu müsabiqənin hazırlıq mərhələsində siz nə qədər ağır iş görmüsünüz. Ölkəmizin müxtəlif regionlarında olmusunuz, iştirakçıları seçmisiniz, onların ifalarını obyektiv və peşəkarlıqla qiymətləndirmisiniz. Münsiflər heyətində bizim hörmətli muğam ustalarımızın iştirakı bütün bu müsabiqəni, demək olar ki, açıq bir muğam dərsinə çeviribdir. Hər bir adam buna ustadlarla gənclərin ünsiyyət qurmaq dərsi kimi baxırdı, bu cür qiymətləndirirdi.

Muğam bizim mədəniyyətimizin, Azərbaycan mədəniyyətinin əsas sütunlarından biridir və əlbəttə, onu qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur. Mən bu gün fürsətdən istifadə edərək bizim ünlü sənətkarlarımıza, muğam ustadlarına muğamın inkişafı, təbliği sahəsində səylərinə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun!

Siz bilirsiniz ki, Heydər Əliyev Fondu olaraq biz, həmçinin Azərbaycan Mədəniyyətinin Dostları Fondu bu istiqamətdə bir çox layihələr həyata keçiririk. "Qarabağ xanəndələri" musiqi albomu buraxılıb, "Muğam" jurnalı nəşr olunur, "Muğam" ensiklopediyasının həm çap, həm də elektron versiyası hazırlanır. Ən əsası isə hamımızın təməlqoyma mərasimində bərabər iştirak etdiyimiz Muğam Mərkəzi tikilir. Mən inanıram ki, bu ilin avqust ayında birlikdə onun açılışında iştirak edəcəyik. Bu, çox böyük nailiyyətdir. Çünki bu, hər bir muğam ustadı üçün və hər bir muğamsevər üçün doğma ev olacaqdır. Biz müsabiqələrimizi Mahnı Teatrında, filarmoniyada keçirdik, amma mən inanıram ki, gələcəkdə orada keçirəcəyik. Çünki bu, əslində muğamın öz doğma evi olacaqdır. Eyni zamanda, bu layihə YUNESKO tərəfindən dəstəklənir və bu, beynəlxalq mərkəzdir. Biz orada beynəlxalq tədbirlər də keçirə bilərik və bütün dünyaya öz muğamımızı tanıtmalıyıq. Bir sözlə, Azərbaycan mədəniyyətinin ən dəyərli irsi olan muğam hər bir azərbaycanlı üçün qiymətlidir, hər bir azərbaycanlı üçün seviləndir. Mən bir daha bu gün sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Çünki siz bu sənətin qorunmasında çox böyük işlər görürsünüz.

Çox sağ olun.

Muğam müsabiqəsinin münsiflər heyətinin üzvləri – xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Mənsum İbrahimov, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov, "Muğam televiziya müsabiqəsi" layihəsinin icraçısı, əməkdar incəsənət xadimi Nadir Axundov Azərbaycan mədəniyyətinə göstərilən qayğıya görə Mehriban xanıma minnətdarlıq etdilər. Bildirdilər ki, üç ay ərzində davam edən bu müsabiqə istedadlı ifaçıları aşkara çıxarmaqla yanaşı, mədəniyyətimizin zənginləşməsinə xidmət etmiş, habelə yeni ifaçılar nəslinin yetişməsinə təkan vermişdir. Musiqimizin daha da geniş təbliği üçün gələcəkdə muğamla bağlı beynəlxalq simpoziumların, festivalların keçirilməsi arzu olunur.

Mehriban xanım Əliyeva gələcəkdə Azərbaycan xalq çalğı alətləri ifaçılarının müsabiqəsinin keçirilməsi barədə təklifi razılıq hissi ilə qarşıladı. O, Azərbaycan mədəniyyətinin zəngin





ənənələrini bütün dünyada təbliğ etməklə qədim irsimizin bədnam qonşularımız tərəfindən mənimsənilməsi cəhdlərinin qarşısının alınmasında istedadlı gənclərimizin rolunu xüsusi vurğuladı. Bu il Belqradda keçiriləcək "Avroviziya" mahnı müsabiqəsində ölkəmizin iştirak edəcəyini deyən Mehriban xanım Əliyeva Ermənistan təmsilçisinin bu müsabiqəyə təqdim etdiyi mahnının Azərbaycan musiqisi parçalarından ibarət olduğunu xatırlatdı. Bildirdi ki, bu cür halların qarşısını almaq üçün Azərbaycanın istedadlı gəncləri bütün dünyada qədim və zəngin tarixə malik muğamımızı, xalq mahnılarımızı tanıtmaq, sevdirmək üçün çalışmalıdırlar.

***"Azərbaycan" qəzeti,***
***23 yanvar 2008-ci il***

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN AzərTAc-a MÜSAHİBƏSİ

Son illərdə Azərbaycanda Xeyriyyəçilik İnstitutu intensiv şəkildə dirçəlməyə, fəal inkişaf etməyə başlamışdır. Bu isə xeyli dərəcədə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çox böyük səyləri və şəxsi təşəbbüskarlığı sayəsində mümkün olur.

Mehriban xanımın bu sahədə çoxcəhətli və yorulmaz fəaliyyəti yaxşı məlumdur və təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqda da geniş ictimai əks-səda doğurmuşdur. İki nüfuzlu beynəlxalq mükafata – "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun ən yüksək mükafatı olan "Yaqut xaç" ordeninə və geniş miqyaslı xeyriyyəçilik fəaliyyətinə görə "Qızıl ürək" mükafatına layiq görülməsi onun bu sahədəki işlərinin yüksək qiymətləndirilməsini sübut edir.

Mehriban xanım Əliyeva xeyriyyəçilik mövzusunda, bu sahənin indiki vəziyyəti, Azərbaycanda xeyriyyəçilik fəaliyyətinin problemləri və inkişaf perspektivləri barədə fikirlərini AzərTAc-la bölüşməyə lütfkarlıqla razılıq vermişdir.

**– Mehriban xanım, söhbətimizin əvvəlində xeyriyyəçilik fenomeni barədə Sizin fikrinizi, bu anlayışa Sizin məhz hansı məna verdiyinizi bilmək istərdik.**

– Əvvəl ondan başlayım ki, "xeyriyyəçilik" termini insanların şüurunda adətən şəfqət, başqasının halına yanma, ehtiyacı olanlara könüllü və təmənnasız kömək etmək kimi keyfiyyəllər və hərəkətlər barədə assosiasiya yaradır. Bununla da xeyriyyəçilik işlərinin dairəsi konkret, özü də bir qayda olaraq, əhalinin sosial baxımdan zəif təbəqələrini təmsil edən insanlara – əlillərə, yetimlərə, qocalara və başqalarına bu və ya digər şəkildə kömək göstərilməsi ilə məhdudlaşır. Bu mənada xeyriyyəçilik anlayışının kökləri qədim dövrlərə, təmənnasız könüllü fəaliyyətin, əsasən, zəiflərə və ehtiyacı olanlara kömək göstərilməsi ilə məhdudlaşdığı vaxtlara gedib çıxır.

Bununla bərabər, müasir anlamda xeyriyyəçilik daha geniş məna daşıyır, cəmiyyətin rifahı naminə hər cür təmənnasız könüllü fəaliyyəti əhatə edir. Bu fəaliyyət həm konkret fərdlərə və zəif müdafiə olunan qruplara, həm də ictimai həyatın müxtəlif sahələrinin – təhsilin, elmin, mədəniyyətin, incəsənətin inkişafının dəstəklənməsinə yönəldilə bilər. Bu fəaliyyət həm fiziki, həm də hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər. Həmin yardımı alanlar da həm fiziki, həm də hüquqi şəxslər ola bilər.

Xeyriyyəçilik fəaliyyəti müəyyən əmlakın, o cümlədən pul vəsaitlərinin verilməsi, müəyyən işlərin görülməsi, xidmətlərin təqdim edilməsi formasında həyata keçirilə bilər. Həmin fəaliyyətin nədən ibarət olmasından və məhz kimin tərəfindən həyata keçirilməsindən





asılı olmayaraq, əgər əvəzsiz və könüllü şəkildə yaxşılıq edilirsə, nemətlər yaradılırsa, bu fəaliyyətin xeyriyyəçilik hesab edilməsi tamamilə düzgündür. Başqa sözlə desək, xeyriyyəçilik – insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir.

Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə, insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, altruizm, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir.

Mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividendlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır.

Əlbəttə, xeyriyyəçilik fenomeninə geniş ictimai nöqteyi-nəzərdən, cəmiyyətin öz rifahı naminə xüsusi bir fəaliyyət kimi yanaşsaq, onun tarixən formalaşmış, öz yeri və fəaliyyət xüsusiyyətləri ilə fərqlənən sosial institut olduğunu görərik.

**– Sizcə, xeyriyyəçilik fəaliyyətinin ictimai əhəmiyyəti nədədir?**

– Müasir cəmiyyətdə xeyriyyəçiliyin rolunu dərindən dərk etmək üçün bunu əsas götürmək lazımdır ki, o, nemətlərin və resursların indiki anda dəstəklənməyə ən çox ehtiyacı olan müəyyən fərdlərin, sosial qrupların və sahələrin xeyrinə yenidən bölüşdürülməsinin nadir mexanizmidir. Bu mexanizmin nadirliyi ondadır ki, siyasi məqsədəuyğunluq və iqtisadi səmərə mülahizələrinə əsaslanan dövlət və bazar mexanizmlərindən fərqli olaraq, nemətlərin xeyriyyəçilik formasında yenidən bölüşdürülməsi bilavasitə mənəvi-əxlaqi motivlərlə, ilk növbədə, ümumbəşəri dəyərlərlə tənzimlənir.

Belə olan halda, xeyriyyəçilik, təbii ki, əxlaqi baxımdan bütün cəmiyyət tərəfindən bəyənilir, müxtəlif sosial, siyasi və iqtisadi qruplar tərəfindən mənəvi dəstək obyektinə çevrilir. Beləliklə, xeyriyyəçiliyin köməyi ilə cəmiyyət "ehmalca", ağrısız, mən deyərdim ki, mənəvi konsensus yolu ilə ən həssas və potensial baxımdan münaqişəli sahələrin birində – ehtiyatların bölüşdürülməsində və yenidən bölüşdürülməsində fəaliyyət göstərir. Mən xeyriyyəçiliyin xüsusi "müdrikliyini", onun cəmiyyət üçün əhəmiyyəti və dəyərini məhz bunda görürəm.

Buna görə də xeyriyyəçiliyə cəmiyyətin sosial siyasətinə hansısa bir əlavə kimi yanaşmaq və ona yalnız dövlətin sosial yüklərinin, qayğılarının bir hissəsini mülki təsisatların və özəl sektorun üzərinə qoymağa imkan verən yardımçı vasitə kimi baxmaq tamamilə yanlışdır. Filantropiyaya həm nəzəriyyədə, həm də praktikada bu cür utilitar-praqmatik münasibət onun daxili mənəvi məzmununu cılızlaşdırar və "kommunist iməcilikləri"nə oxşar bir farsa çevirərdi. Üstəlik, bu məntiqlə yanaşılarsa, iqtisadiyyat inkişaf etdikcə, dövlətin sosial proqramlar üçün xərcləri artdıqca xeyriyyəçilik fəaliyyəti üçün meydan daralmalıdır. Əslində isə dünyada bunun tam əksi olan bir meyil müşahidə olunur: dövlətin sosial sahəni maliyyələşdirmək üçün daha geniş imkanlara malik olduğu ölkələrdə, bir qayda olaraq xeyriyyəçilik fəaliyyətində iştirakın

kütləviliyi və xeyriyyəçilik resurslarının miqyası yüksəkdir.

Konkret olaraq bizim ölkəmiz barədə danışsaq, deməliyik ki, müasir Azərbaycan sosial dövlətdir, onun siyasəti vətəndaşların layiqli həyatını və sərbəst inkişafını təmin edən şərait yaradılmasına yönəlmişdir. Azərbaycan dövləti qəti şəkildə bazar iqtisadiyyatının daha da inkişaf etməsinə yönəlmiş istiqaməti saxlamaqla yanaşı, sosial siyasətin prioritetliyini təmin etməyə çalışır. İndi dövlət sosial yönümlü proqramlara və layihələrə getdikcə daha çox maliyyə vəsaitləri sərf edir. Minimum əməkhaqqı ilbəil artır, pensiyalar və müxtəlif sosial müavinətlər müntəzəm olaraq artırılır, sosial sahə obyektlərinin tikintisi genişlənir.

Eyni zamanda, xalqımızın qurucu və mənəvi enerjisində olan və məişət sahəsindən tutmuş korporativ filantropiyaya qədər ən müxtəlif formalarda təzahür edən xeyriyyəçiliyin çox böyük potensialını qiymətləndirməmək olmaz. Keçmişdə olduğu kimi, indi də bu potensialın əsas tətbiq dairəsi sosial, humanitar sahədir. Sevindirici haldır ki, son illərdə bizdə sosial sahədə filantropiya durmadan genişlənir və burada özünü müstəqil, sanballı amil kimi getdikcə daha çox göstərir. Əlbəttə, bu sadalananlar heç də o demək deyildir ki, sosial problemlərin həllində dövlət və xeyriyyəçilik institutu bir-birindən təcrid olunmuş şəkildə fəaliyyət göstərir. Əksinə, dövlət və filantropiyaya cəlb edilmiş vətəndaşlar və özəl sektor öz aralarında əlaqəli şəkildə işləsələr, bu, daha çox səmərə verə bilər. Bu qarşılıqlı fəaliyyət isə yalnız bərabərhüquqlu əməkdaşlıq formasında həyata keçirilə bilər. Yeri gəlmişkən, çox böyük iqtisadi potensiala, güclü vətəndaş cəmiyyətinə və yetkin xeyriyyəçilik institutuna malik olan inkişaf etmiş ölkələrdə məhz belə bir mənzərə müşahidə olunur.

Xeyriyyəçiliyin ictimai əhəmiyyətindən danışarkən vurğulamalıyıq ki, o, cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Axı, çətin məqamda başqalarından dəstək almış insan özü də, imkan daxilində başqalarına kömək göstərməyə daha çox meyil edəcəkdir.

Beləliklə, cəmiyyətimizdə "xeyirxah işlər dairəsi", qarşılıqlı kömək və dəstək sistemi yaranır ki, bu da son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhval-ruhiyyəsinə müsbət təsir göstərir.

**– Sizcə, xeyriyyəçilik fəaliyyətinin ölkəmiz üçün ən vacib istiqamətləri hansılardır?**

– Ümumiyyətlə, ölkəmizdə xeyriyyəçilik üçün fəaliyyət meydanı qeyri-məhduddur. Əlbəttə, ən mühümü yenə də filantropiya üçün ənənəvi istiqamət sosial imkanları məhdud olan əhali qruplarına, yəni aztəminatlı vətəndaşlara, əlillərə, yetimlərə, qaçqınlara və məcburi köçkünlərə, təbii fəlakətlərdən və texnogen qəzalardan zərər çəkmiş insanlara müxtəlif şəkildə kömək etməkdir.

Mən bizim çox zəngin mədəni ənənələrimizin qorunub saxlanması, nadir tarixi və memarlıq abidələrinin mühafizəsi, təbii mühitin qorunması, istedadlı gənclərə dəstək, bədən tərbiyəsi və idmanın inkişafına kömək məsələlərini də xeyriyyəçilik fəaliyyətinin üstün istiqamətlərinə aid





edərdim. Bu istiqamətlərə çoxsaylı əlavələr etmək olar, lakin mən aşağıdakı məqama diqqəti cəlb etmək istərdim.

Xeyriyyəçilik kimi nəcib sahədə işləyən və ya işləməyə hazırlaşan hər kəs öz meyillərini, maraqlarını, üstün saydığı dəyərləri və imkanlarını nəzərə almaqla işinin istiqamətini seçə bilər. Bununla bərabər, hesab edirəm ki, xeyriyyəçi öz fəaliyyət istiqamətini seçərkən bunu ictimai tələbata uyğunlaşdırmalı və öz qüvvələrini ən kəskin, ümdə problemlər üzərində cəmləşdirməyi bacarmalıdır. Birinci dərəcəli problemlər isə ölkəmizin müxtəlif yaşayış məntəqələrində və rayonlarda çox vaxt müxtəlif olur. Bəzi yerlərdə bu problemlər əhalinin içməli su ilə təmin olunması, digərlərində ekologiya, bir başqalarında məktəb binasının olmaması və ya pis vəziyyətdə olması ilə bağlıdır. Elə rayonlar var ki, orada kitabxanalara, gənclər klublarına, kompyuter siniflərinə, tibb müəssisələrinə ehtiyac duyulur. Xeyriyyəçilik resurslarının səmərəli və məqsədyönlü şəkildə, bu və ya digər yerli problemlərin kəskinliyi və aktuallığı nəzərə alınmaqla bölüşdürülməsi son dərəcə vacib və arzu ediləndir.

**– Sizin fikrinizcə, Azərbaycanda xeyriyyəçilik sahəsinin inkişafı üçün əsas çətinliklər və maneələr nədən ibarətdir?**

– Mən hesab edirəm ki, bu gün ölkəmizdə xeyriyyəçilik sektorunun inkişafı üçün bir neçə ciddi manea vardır.

Əvvələn, ictimai şüurda belə bir təsəvvür kök salmışdır ki, bütün sosial problemlər yalnız dövlət tərəfindən həll edilməlidir. Bu stereotipin tam obyektiv əsası var. Axı sovet dövründə vətəndaşların müstəqil, qeyri-formal təşəbbüsləri nəinki təşviq edilmir, bu cür təşəbbüslər olmadan isə yetərli xeyriyyəçilik fəaliyyətini təsəvvür etmək mümkün deyil, hətta ciddi ideoloji çərçivələrlə məhdudlaşdırılırdı. Nəticədə sosial ətalət, cəmiyyətin işlərinə laqeydlik, ictimai rifaha xidmət məsələlərində təşəbbüskarlığın olmaması, sıravi insanların cəmiyyətin vəziyyətinə görə öz məsuliyyətini dərk etməməsi adi hala çevrilmişdi.

Bununla bərabər, indiki dövrdə ölkəmizdə vətəndaş cəmiyyətinə xas olan bəzi inkişaf çətinliklərini də görməmək olmaz. Mən bəzən bu məsələlərin ifrat siyasiləşdirilməsini və merkantilləşdirilməsini nəzərdə tuturam. Belə hallar xeyriyyəçilik potensialının reallaşdırılması imkanlarını xeyli məhdudlaşdırır.

Onu da vurğulamaq istərdim ki, bizim biznes strukturlarının korporativ sosial məsuliyyəti lazımi səviyyədə deyil, onlar çox vaxt öz fəaliyyətlərinin sosial və ekoloji nəticələrini nəzərə almır, sosial sahədə həllini gözləyən problemlərə lazımınca diqqət yetirmirlər.

Xeyriyyəçilik fəaliyyətinin hərtərəfli işlənmiş normativ hüquqi bazasının, müxtəlif səviyyəli dövlət strukturları, özəl sektor və vətəndaş cəmiyyəti arasında xeyriyyəçilik məsələləri üzrə qarşılıqlı tərəfdaşlığın tənzimlənmiş mexanizminin olmaması kimi məqamlar da öz təsirini göstərir.

Nəhayət, ictimai əxlaqa xas olan bəzi naqisliklər – şəxsiyyətlərarası etimadın, insanların bir-birinin kədərinə şərik olması və təmənnasızlıq kimi keyfiyyətlərin qıtlığı onların öz vəsaitlərini,

qüvvələrini və vaxtını başqalarının naminə, bütövlükdə cəmiyyətin naminə qurban verməyə könüllü hazır olması ruhunun tam üzə çıxmasına mane olur.

Təəssüflə deməliyəm ki, bütövlükdə xeyriyyəçilik, könüllülük bizdə hələ sözün həqiqi mənasında kütləvi hal almamışdır.

**– Axı, xeyriyyəçilik, ehtiyacı olanlara kömək etməyə hazır olmaq keyfiyyətləri xalqımıza əsrlər boyu xas olmuşdur. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev və bir sıra başqa şəxslərin adları isə Azərbaycanda filantropiyanın tarixinə qızıl hərflərlə yazılmışdır...**

– Elədir, heç şübhəsiz, xalqımızın humanizmə və insansevərliyə əsaslanan zəngin və qədim xeyriyyəçilik ənənələri vardır. Xeyriyyəçiliyin, çox ehtimal ki, zərdüştlik dövrünə gedib çıxan təzahürləri əsrlər boyu müqəddəs sayılaraq, ehtiram bəslənən bir mənəvi-əxlaqi kodekslə bağlıdır: "xoş söz, xoş niyyət, xeyirxah əməl". Hələ dahi Nizami deyirdi ki, nə vermisənsə, o, sənindir. Bu mövzuya həsr edilmiş nə qədər atalar sözləri, zərbi-məsəllər var!

Şəfqət, başqasının halına yanmaq, xeyirxah işlər görməyə çalışmaq, qonaqpərvərlik və səxavət kimi keyfiyyətlər həmişə Azərbaycan xalqının ən mühüm həyati dəyərləri olmuşdur və indi də belədir. İslamın da, digər dünya dinlərinin də təbliğ etdiyi ən mühüm fəzilətlərdən biri məhz bu mənəvi prinsiplərdir.

XIX əsrin axırları – XX əsrin əvvəllərində bu tarixi-mədəni və mənəvi təməl üzərində Azərbaycanda filantropiyanın bir növü olan mesenatlıq geniş vüsət almağa başlamışdı. Sizin adlarını çəkdiyiniz insanlar sırasına Azərbaycanın bir sıra başqa mesenatlarını da əlavə etmək olar. Olduqca qənaətcil sahibkarlar kimi tanınmış bu insanlar cəmiyyətin rifahı naminə – maarif və təhsilə, mədəniyyət və incəsənətin inkişafına, mülki tikinti işlərinə külli məbləğdə vəsait sərf etmişlər. Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya və başqalarının yaratdığı çoxsaylı qadın xeyriyyə cəmiyyətləri çox böyük işlər görmüşdür.

Amma çox təəssüf ki, sovet dövründə xalqımızın xeyriyyəçilik ənənələri, əslində, itib getmişdi. Məlum ideoloji və sosial-siyasi səbəblər üzündən həqiqi xeyriyyəçilik fəaliyyətinin əhatə dairəsi son dərəcə məhdudlaşdırılmış, praktik olaraq, yalnız məişətdə kömək formasında qalmışdı.

İndi biz müasir Azərbaycanda ictimai həyatın xüsusi bir sektoru olan Xeyriyyəçilik İnstitutunu yenidən formalaşdırıb inkişaf etdirməklə, təbii ki, müasir dövrün reallıqları və tələbatı nəzərə alınmaqla, nəinki gözəl ənənələrimizi dirçəldir və inkişaf etdirir, həm də sosial və mənəvi tərəqqi üçün səmərəli vasitə yaradırıq.

**– Sizcə, ölkəmizdə Xeyriyyəçilik İnstitutunu yenidən dirçəltmək üçün nə etmək lazımdır?**

– Bu sahədə qurucu, yaradıcı işlər üçün fəaliyyət meydanı hüdudsuzdur. Əsas məsələ fəal, məqsədyönlü və sistemli şəkildə işləməkdir.

Mənə elə gəlir ki, bundan ötrü Azərbaycanda xeyriyyəçiliyin inkişafının milli konsepsiyasını işləyib hazırlamaq lazımdır. Bu sənəddə sosial siyasətin bir vasitəsi kimi xeyriyyəçilik





sisteminin qurulmasının əsas istiqamətləri öz ifadəsini tapmalıdır. Həmin siyasətin iştirakçıları isə cəmiyyətin hər üç sektorudur – dövlət, biznes və qeyri-kommersiya sektoru. Konsepsiyada xeyriyyəçilik fəaliyyətinin həyata keçirilməsində qarşıya çıxan əsas problemlər və onların həlli yolları təsbit olunmalı, icra hakimiyyəti, yerli özünüidarə orqanlarının və ictimai təsisatların qarşılıqlı tərəfdaşlıq əlaqələri yaradılmasının mexanizmləri göstərilməlidir. Mənim fikrimcə, bu da çox vacibdir ki, həmin konsepsiya xeyriyyəçilik fəaliyyətinin bütün əsas aspektlərinin – normativ hüquqi, təşkilati, kadr, infrastruktur, informasiya və başqa məsələlərin harmonikləşdirilməsinə yönəlmiş olsun. Təbii ki, bu ciddi işin öhdəsindən yalnız bütöv bir kollektiv halında cəmləşmiş mütəxəssislər, alimlər və praktik işçilər gələ bilər.

Bundan əlavə, xeyriyyəçilik sahəsində mövcud vəziyyəti və meyilləri izləməyə imkan verən xüsusi tədqiqatlar aparılmalı, vaxtında müvafiq təshihlər olunmalıdır.

Praktik işə gəldikdə isə, konkret xeyriyyə tədbirləri, müvafiq proqramlar və layihələr nə qədər faydalı, gərəkli və geniş əhatəli olsa da, təkcə onların həyata keçirilməsi ilə kifayətlənmək düzgün olmazdı. Mən əminəm ki, davamlı xeyriyyəçilik sektorunun yaradılması üçün xeyriyyəçiliyə və könüllülüyə stimul yaradan ictimai şəraitin formalaşdırılmasına xeyli qüvvə sərf edilməlidir.

Məsələn, xeyriyyəçilik fəaliyyətinin müfəssəl normativ-hüquqi bazasının işlənib hazırlanmasına ehtiyac yaranmışdır. Bu sahədə qanunvericilik, o cümlədən vergi qanunvericiliyi bir tərəfdən xeyriyyəçilik resurslarının artırılmasına hərtərəfli stimul yaratmalı, digər tərəfdən isə mümkün sui-istifadə hallarına imkan verməməlidir.

Xeyriyyəçilik üçün əlverişli şərait yaradılması istiqamətində görülməli işlər hələ çoxdur. Lakin mən fürsətdən istifadə edərək, diqqəti əsas məsələyə yönəltmək istərdim.

Biz bu məqsədə yalnız o halda çata bilərik ki, xeyriyyəçilik ideyaları, bir-birimizə xeyirxah, həssas münasibət cəmiyyətimizin şüurunda dərin və möhkəm kök salsın və nəhayət, hamı aydın başa düşsün ki, hər kəs başqaları üçün, ümumi rifah naminə xeyirxah işlər görəndə bunu özünün və yaxın adamlarının naminə etmiş olur. Ona görə də bu istiqamətdə geniş və səmərəli maarifçilik və təbliğat işlərinin görülməsi çox vacibdir.

Cəmiyyətdə xeyriyyəçiliyin və könüllülüyün, necə deyərlər, müsbət imicinin yaradılması üçün kütləvi informasiya vasitələrinin də böyük imkanları vardır. Lakin təəssüf ki, bizim mətbu və elektron KİV, xüsusilə yerli səviyyədə filantropiya məsələlərini hələlik az işıqlandırır, az müzakirə edirlər, xeyriyyəçilik mövzusuna həsr olunmuş maraqlı məxsusi nəşrlər, proqramlar və verilişlər yox dərəcəsindədir.

Lakin əgər biz öz uşaqlarımıza və gənclərə xeyriyyəçilik fəaliyyəti "zövqü" aşılaya bilsək, onları xeyirxahlıq, həssaslıq, cəmiyyətin rifahına təmənnasız xidmət etməyə hazırlıq ruhunda tərbiyə edə bilsək, filantropiyanın möhkəm mənəvi-mədəni təməlinin formalaşmasında daha böyük səmərə əldə edərik. Buna isə ilk növbədə, böyüməkdə olan nəsli praktik xeyriyyəçiliyə və könüllü ictimai-faydalı işlərə geniş cəlb etmək yolu ilə nail olmaq mümkündür. Bu işdə

ailə və məktəb tərbiyəsinin düzgün qurulması son dərəcə böyük rol oynayır. Ümumiyyətlə, xeyriyyəçilik gərgin və məsuliyyətli əmək deməkdir və ona uşaq yaşlarından öyrəşmək lazımdır.

**– Bütün bu işlərdə filantropiya sahəsində beynəlxalq təcrübədən istifadə edilə bilərmi?**

– Şübhəsiz. Biz Avropa və dünya birliyinə inamla və fəal inteqrasiya edərkən, tərəqqi yolu ilə irəliləyərkən ölkəmizin beynəlxalq nüfuzunu möhkəmləndirərkən, təbii ki, müasir meyillərdən və yeni dövrün tələblərindən kənarda qala bilmərik.

Hazırda dünyada könüllü filantropiya sahəsində çox zəngin təcrübə toplanmışdır. Biz bu təcrübəni diqqətlə öyrənməli, təhlil etməli və milli xüsusiyyətlərimiz, milli reallığımız nəzərə alınmaqla bizim üçün həqiqətən münasib olandan istifadə etməliyik.

Məsələn, korporativ filantropiyanın iqtisadi və mənəvi baxımdan stimullaşdırılmasının başqa ölkələrdə mövcud olan müxtəlif forma və üsulların, cəmiyyətin əsas sektorları arasında xeyriyyəçilik sahəsində sosial tərəfdaşlıq münasibətləri qurulmasının yolları bizdən ötrü çox maraqlı ola bilər.

Tanınmış beynəlxalq və xarici xeyriyyə təşkilatlarının və müvafiq fondların fəaliyyət təcrübəsindən, eləcə də müxtəlif ölkələrdə yerli birliklər səviyyəsində sabit və səmərəli xeyriyyəçilik sisteminin tənzimlənməsi təcrübəsindən çox faydalı cəhətlər əxz etmək olar.

Nəhayət, bizim kütləvi informasiya vasitələri də xarici ölkələrin KİV-nin xeyriyyəçilik fəaliyyətini işıqlandırması və bu işə informasiya dəstəyi sahəsində zəngin təcrübəsindən bəhrələnə bilər.

**– Siz ölkəmizdə xeyriyyəçiliyin inkişaf perspektivlərini necə təsəvvür edirsiniz?**

– Mənim fikrimcə, bu sahənin inkişaf perspektivləri, ilk növbədə, ölkənin gələcək iqtisadi inkişafı ilə, Azərbaycanda sosiomədəni modernləşmə, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və yəqin ki, cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır. Bütün bu amillər bir-birilə bağlıdır və bütövlükdə xeyriyyəçilik sahəsində əsaslı dəyişikliklər tələb edən və eyni zamanda, bunun üçün zəruri imkanlar yaradan prinsipcə yeni mühit formalaşdırır.

Şübhə yoxdur ki, iqtisadiyyat inkişaf etdikcə, vətəndaşlarımızın maddi rifahı yüksəldikcə, əhalinin sosial müdafiəsi və dəstəklənməsi tədbirləri gücləndikcə, xeyriyyəçiliyin strukturunda əhalinin imkansız təbəqələrinə, qruplarına və kateqoriyalarına birbaşa maddi yardımın xüsusi çəkisinin azalması labüddür. Buna müvafiq olaraq, xeyriyyəçilik resursları getdikcə daha artıq dərəcədə başqa ictimai ehtiyaclara, məsələn mədəniyyətin, elmin və təhsilin, ictimai səhiyyənin, idmanın inkişafına, təbii mühitin qorunmasına və yaxşılaşdırılmasına, digər oxşar sahələrə yönəldiləcəkdir. Bu baxımdan, bizi təxminən artıq iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə baş vermiş proseslərə bənzər proseslər gözləyir.

Xeyriyyəçilik fəaliyyətinin motivasiya əsaslarında da ciddi irəliləyiş labüddür. Azərbaycan cəmiyyətinin sosiomədəni transformasiyası ona gətirib çıxaracaqdır ki, xeyriyyəçilər öz fəaliyyətlərində "ənənəvi" cəmiyyət üçün daha çox səciyyəvi olan adət və ənənələri deyil, səmərəlilik, praqmatizm, ictimai faydalılıq mülahizələrini və özlərinin üstünlük verdikləri məqamları





rəhbər tutacaqlar.

Mən xeyriyyəçilik sektorunun köhnə filantropiyaya xas olan paternalizm ruhundan azad olunması və onun mütəşəkkil, ölkə miqyasında konsolidasiya edilmiş, öz standartları, infrastrukturu və texnologiyaları olan müasir "sənayeyə" çevrilməsi perspektivini də sosiomədəni modernləşmə ilə əlaqələndirirəm.

**– Siz vətəndaş cəmiyyətinin formalaşmasını və mənəvi sahədə tərəqqini də vurğuladınız...**

– Elədir, təşkilati və institusional baxımdan xeyriyyəçiliyin perspektivləri barədə danışmalı olsaq, bu prosesdə vətəndaş cəmiyyətinin təşəkkülü və möhkəmlənməsinin çox mühüm rol oynamasını görməmək olmaz. Axı əslində, vətəndaş cəmiyyəti adlandırdığımız cəmiyyət iqtisadi və siyasi sahə olmaqla yanaşı, həm də ictimai həyatın və sosial fəallığın xüsusi bir sahəsidir ki, onun da əsas prinsipi azad vətəndaşların özlərinin maraqları və ya ictimai maraqlar naminə müxtəlif təşkilatlar və assosiasiyalar şəklində könüllü birləşməsidir. Ona görə də bu şəkildə başa düşülən vətəndaş cəmiyyətinin inkişafı yerli, regional və milli səviyyələrdə ictimai xeyriyyə təşkilatlarının yaranması və fəaliyyəti üçün əlverişli şəraitin formalaşmasına kömək edir.

Bununla da fərdi və korporativ filantropiya ilə yanaşı, xeyriyyəçilik sisteminin bir sosial institut kimi iş mexanizmində xüsusi imkanları və məxsusi yeri olan mütəşəkkil vətəndaş xeyriyyəçilik sektoru formalaşır və o, perspektivdə daha da möhkəmlənəcəkdir.

Bu baxımdan, mən əminəm ki, dövlətimizin başçısının Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında sərəncamı vətəndaş cəmiyyətinin xeyriyyəçilik sektorunun inkişafına güclü təkan verəcəkdir. Bu konsepsiyanın həyata keçirilməsi ictimai təşkilatlarla rəsmi strukturlar arasında münasibətlərin səmərəli sistemini tənzimləməyə kömək edəcək, vətəndaş cəmiyyəti təşkilatlarının filantropiya sahəsində imkanlarını xeyli genişləndirəcəkdir.

Mənəvi tərəqqi məsələsinə gəldikdə isə, yuxarıda xatırlatdığım mənəvi naqisliklər bir çox cəhətdən adamlarda insanseverlik, şəfqət, qarşılıqlı etimad və insanın ləyaqətinə hörmət keyfiyyətlərinin formalaşmasına əsla kömək etməmiş yaxın tarixi dövrün əks-sədasıdır. Mən qəti əminəm ki, biz həmin dövrdən uzaqlaşdıqca, cəmiyyətin demokratikləşməsi və humanistləşməsi yolu ilə irəlilədikcə, ölkəmizdə xeyriyyəçiliyin tərəqqisi yolundakı mənəvi-əxlaqi maneələr tədricən aradan qalxacaqdır.

**– Sizə elə gəlmirmi ki, Xeyriyyəçilik İnstitutunun inkişafı cəmiyyətdə yeni əxlaqi problemlərin yaranması təhlükəsi ilə nəticələnə bilər, məsələn, perspektivdə ələbaxımlıq əhval-ruhiyyəsinin genişlənməsinə səbəb olar? Axı, belə deyirlər ki, xeyriyyəçilik bəzilərinə fayda verir, digərlərini isə tamaha salır...**

– Sizin narahatlığınızın səbəbini tamamilə başa düşürəm. Düzdür, sizin dediyiniz vəziyyət nəzəri cəhətdən mümkündür. Üstəlik, xeyriyyəçilik sisteminin yüksək dərəcədə inkişaf etdiyi

və qərarlaşdığı bəzi ölkələrin təcrübəsinə əsasən, gələcəkdə bizdə də öz həyati problemlərini müstəqil şəkildə həll etmək istəməyən və yalnız xeyriyyəçilərdən kömək gözləməklə yaşayan insanlar təbəqəsinin yaranacağını proqnozlaşdırmaq olardı.

Lakin mən elə güman etmirəm ki, bu, perspektivdə ciddi ictimai problemə çevrilə bilər, ona görə ki, məsələn, əvvəllər mövcud olan, kütləvi miqyasda ələbaxımlıq psixologiyasının yaranmasına səbəb olan sosial təminat sistemindən fərqli olaraq, Xeyriyyəçilik İnstitutu öz təbiətinə və təyinatına görə mənfi mənada bərabərçiliyə yabançıdır, o, çevik və seçmə üsulla işləyir.

Buna görə də gələcəkdə hətta ayrı-ayrı ələbaxımlıq psixologiyası fəsadları yarana biləcəyi halda belə, onlar çox güman ki, xeyriyyəçilik sektorunun fəaliyyətində müvəqqəti nöqsanların nəticəsi olacaq və kütləvi xarakter almayacaqdır. İstənilən halda, filantropiyanın çoxcəhətli ictimai səmərəsi onun dolayı yolla mümkün olan bütün mənfi təsirlərindən xeyli üstün olacaqdır.

Bununla bərabər, hesab edirəm ki, artıq indi, bizim cəmiyyətdə müasir Xeyriyyəçilik İnstitutunun təməli qoyulduğu bir vaxtda elə etməliyik ki, filantropiya ehtiyacı olan insanların öz problemlərini müstəqil həll etmələri üçün imkan və şəraitin yaradılmasına, onların həyati nemətlərlə qorunmaq üçün vəsaitlərlə təmin edilməsinə maksimum dərəcədə istiqamətləndirilsin. Konfusinin bir müdrik kəlamı var: balığı paylamaqdansa, onu necə tutmağı öyrətmək yaxşıdır. Biz bu müdrik məsləhətə nə qədər riayət etsək, filantropiyanın müsbət sosial və mənəvi-psixoloji səmərəsi bir o qədər sanballı olacaqdır.

Digər tərəfdən, bəzi hallarda xeyriyyəçilik fəaliyyətinə onu həyata keçirənlərin mənəvi baxımdan mənfi hərəkətləri kölgə sala bilər. Filantropiyanın varlanma mənbəyinə çevrilməsi şəfqət və mərhəmət hisslərindən sui-istifadə etməkdən heç də az mənəviyyatsızlıq deyildir.

Ümumiyyətlə, deməliyəm ki, xeyriyyəçilik insani münasibətlərin son dərəcə incə, nəzakətli və həssas sahəsidir və fəaliyyətin bütün iştirakçılarından – xeyriyyəçilərin özlərindən, bu fəaliyyətdən bəhrələnənlərdən və vasitəçilərdən ümumbəşəri əxlaq, etika və nəzakət normalarına dönmədən riayət olunmasını tələb edir.

**– Mehriban xanım, bu qədər məzmunlu müsahibəyə görə çox sağ olun. Bizə elə gəlir ki, bugünkü söhbətimizdə ölkəmizdə Xeyriyyəçilik İnstitutunun inkişafı ilə bağlı ən mühüm strateji məsələlərə toxunduq. Maraqlı söhbətimizin sonunda Siz xeyriyyəçiliklə məşğul olanlara və ya məşğul olmağa hazırlaşanlara nə arzu edərdiniz?**

– Mən bu insanlara onların xeyirxah təşəbbüslərində uğur diləmək istəyirəm. Qoy onlar daha cəsarətli və inadkar olsunlar, çətinliklərdən qorxmasınlar və qazanılmış uğurlarla arxayınlaşmasınlar.

Yadda saxlasınlar ki, "xeyriyyəçilik" sözünün arxasında müəyyən səbəblərə görə, müxtəlif hallar üzündən həyatda çətin vəziyyətə düşmüş canlı insanların problemləri dayanır.

Öz fəaliyyətsizliyinə vaxt və vəsait çatışmazlığı ilə haqq qazandırmaq lazım deyil. Bəzən sizin adi insani diqqətiniz və iştirakınız şəxsi ianəyə, şəxsi töhfəyə çevrilə bilər. Sizin xeyirxah





əməlləriniz hökmən bizim həyatımızda yaxşılığın "sayının" artmasına gətirib çıxaracaqdır.

Xeyriyyəçilik fəaliyyətində iştirak məsələsi insanın rütbəsindən, dərəcəsindən, vəzifəsindən, maddi vəziyyətindən asılı olmamalıdır. İnsan öz xeyirxah niyyətlərini, istəklərini, imkanlarını və qabiliyyətlərini tətbiq etmək sahəsini həmişə tapa bilər.

***"Azərbaycan" qəzeti,***
***20 mart 2008-ci il***



## HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ DAHA BİR TÖHFƏSİ

2008-ci ilin aprelin 11-də Heydər Əliyev Fondunda Azərbaycanın musiqi mədəniyyəti tarixində xüsusi yeri olan xalq artisti, bəstəkar, pianoçu Rafiq Babayevin yaradıcılığını əhatə edən musiqi albomunun təqdimatı olmuşdur.

Heydər Əliyev Fondunun hazırladığı bu albom həm də Ermənistanın xüsusi xidmət orqanlarının əli ilə 1994-cü il martın 19-da Bakı metrosunda törədilmiş terror aktının qurbanı olan Rafiq Babayevin simasında erməni təcavüzü və terroru nəticəsində həlak olmuş bütün insanların xatirəsinə həsr edilmişdir.

Layihənin həyata keçirilməsi üçün yaradılmış işçi qrupuna bəstəkarın ailə üzvləri, yaxın həmkarları cəlb olunmuşdular. MDB ölkələrinin və Azərbaycanın dövlət arxivlərindən toplanmış materiallar əsasında hazırlanmış alboma Rafiq Babayevin həyat və yaradıcılığından bəhs edən və yüksək poliqrafik səviyyədə buraxılmış kitab, nadir videoyazılar olan 2 DVD və onun əsərlərindən ibarət 8 CD daxildir. Disklər "SONY" firmasının Avstriyadakı studiyasında müasir texnologiya əsasında təmizlənərək yazılmışdır. Azərbaycan mədəniyyət və incəsənət





xadimlərinin, rəsmi şəxslərin iştirak etdikləri təqdimat mərasimi Rafiq Babayevə həsr olunmuş filmin nümayişi ilə başlandı.

Layihənin təşəbbüsçüsü, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimi açaraq dedi:

– Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı Heydər Əliyev Fondunda ürəkdən salamlayıram. Bu gün biz görkəmli incəsənət xadimi, musiqiçi, bəstəkar, xalq artisti Rafiq Babayevin yaradıcılığına həsr olunmuş musiqi albomunun təqdimat mərasiminə yığışmışıq.

Heydər Əliyev Fondu tərəfindən hazırlanmış bu alboma sənətkarın həyat və yaradıcılığından bəhs edən kitab, seçilmiş əsərlərindən ibarət olan 8 musiqi diski və video materialları əks etdirən 2 DVD daxildir.

Rafiq Babayev XX əsrin 60-70-ci illərində musiqi aləminə yeni nəfəs, fərqli baxış gətirən sənətkar kimi tanınır. O, milli musiqi köklərinə bağlı olaraq, Qərb və Şərq musiqi ənənələrinin sintezinin, muğam və xalq melodiyalarının caz ritmləri ilə birləşdirilməsinin əsasını qoymuş musiqi novatorlarından biri idi. Onun çoxsaylı caz, fortepiano, estrada əsərləri, pyes və mahnıları nəinki Azərbaycanda, hətta xaricdə də çox yaxşı tanınır.

Onun sənət axtarışları ömrünün sonuna qədər tükənməmişdir və yaradıcılığının hər bir mərhələsində yeni səhifə açmağa, özünü yeni səpkidə göstərməyə imkan vermişdir. Kim bilir, bəlkə böyük, əsl istedada malik olan bu insan ömrünün o qədər də uzun olmayacağını hiss edirdi. Ona görə yaşamağa, yaratmağa, işləməyə tələsirdi. Daim yeniliklər axtarışında idi, öz zamanını qabaqlayırdı və biz bu gün deyə bilərik ki, o, gələcək üçün yaradır, gələcək üçün işləyirdi.

Çox təəssüf ki, belə bir insanın yarı yolda kəsilən ömrü onun bir çox arzularını ürəyində qoydu. 1994-cü ilin mart ayında Bakı metrosunda törədilən erməni terroru nəticəsində Rafiq Babayev faciəli şəkildə həlak oldu, mədəniyyətimizə böyük itki üz verdi. Bu terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Bütövlükdə, 1990-cı illərin əvvəlində erməni terror təşkilatları tərəfindən ölkəmizdə 32 terror aktı törədilmiş, 2 mindən çox insan bunların qurbanı olmuşdur. Bu gün bu albomu təqdim edərək biz təkcə Rafiq Babayevin xatirəsini deyil, bütün erməni terrorunun qurbanı olmuş günahsız insanların ruhunu yad edirik.

Heydər Əliyev Fondu Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətini ifşa edən bir çox sənədləri nəşr etdiribdir. Bu sənədlərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, Xocalı faciəsi və digər dəhşətli faktlar öz əksini tapıbdır. Bildiyiniz kimi, "Qarabağ həqiqətləri" toplusu bir çox xarici dillərə tərcümə olunaraq xaricdə yayılıb və bütün bu reallıqları dünyaya çatdırır.

Böyük sənətçi Rafiq Babayev bütün ömrü boyu millətlərarası qardaşlıq və dostluğa sadiqlik nümayiş etdirmişdir. Onun əsərləri, gözəl melodiyaları millətindən, dinindən asılı olmayaraq, bütün insanları birləşdirdi və bu da onun əsl insan, böyük humanist olduğunu sübut edir. Hər

bir böyük sənətkarın həyatı insan ömründən çox uzundur. Bu gün Rafiq Babayevin yaradıcılığı bizimlədi, onun gözəl əsərləri, unudulmaz melodiyaları bizim ürəyimizdədir, Azərbaycan xalqı tərəfindən çox sevilir və daim ifa olunur.

Mən əminəm ki, Rafiq Babayev öz yaxınlarının, əzizlərinin, dostlarının və onu şəxsən tanımayan insanların ürəyində böyük sənətkar, musiqiçi, bəstəkar və eyni zamanda, ən yüksək insani keyfiyyətlərə malik olan nurlu bir şəxsiyyət kimi yaşayacaqdır. Mən çox şadam ki, bu albomu yaratmaqla biz böyük sənətkarın yaradıcılıq irsinin qorunması və təbliğinə öz töhfəmizi verə bilmişik.

Bir daha bütün mərasim iştirakçılarını ürəkdən salamlayıram və sizə cansağlığı arzulayıram.

***"Azərbaycan" qəzeti,***
***12 aprel 2008-ci il***








## BAKIDA "AVROPADA SUBREGİONAL ÇƏRÇİVƏDƏ SAVADLILIQ PROBLEMLƏRİNƏ BAXIŞ: TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNNOVATİV YANAŞMALARIN TƏTBİQİNƏ DƏSTƏK" MÖVZUSUNDA YUNESKO-nun REGİONAL KONFRANSI BAŞLANMIŞDIR

2008-ci ilin mayın 14-də Bakının "Gülüstan" sarayında Dünyada Savadlılığın Dəstəklənməsi üzrə YUNESKO-nun Regional Konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda konfransı başlanmışdır.

YUNESKO-nun, Heydər Əliyev Fondunun və respublika Təhsil Nazirliyinin təşkilatçıları olduğu konfrans Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda keçirilir. Konfransda YUNESKO-nun baş direktoru Koişiro Matsuura, Hollandiya şahzadəsi xanım Laurentien, YUNESKO-nun xoşməramlı səfirləri – İordaniya şahzadəsi xanım Ferial və İslandiyanın sabiq prezidenti xanım Viqdos Finnboqadottir, habelə bir sıra ölkənin təhsil

nazirləri və çoxsaylı mütəxəssisləri, Azərbaycan hökumətinin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri iştirak edirlər. "Gülüstan" sarayında mövzu ilə bağlı "BMT-nin Savadlılıq Onilliyi" mövzusunda sərgi də təşkil olunmuşdur. Sərgidə VIII əsrdən XX əsrin əvvəllərinə qədər məktəb və mədrəsələrdə dərs vəsaiti kimi istifadə edilən müqəddəs "Qurani-Kərim"in müxtəlif dövrlərə aid nüsxələri, habelə Azərbaycanda mövcud qədim kitablar və yeni dərs vəsaitləri, müxtəlif illərə aid ensiklopediyalar, əlifba kitabları və lüğətlər, ümumilikdə 18 adda qədim kitab və 183 dərs vəsaiti nümayiş etdirilir.

Avropanın 31 ölkəsini əhatə edən kofransı Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyanın sədri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov açaraq qonaqları salamladı.

Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına təbrikini oxudu.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılış mərasimində çıxış edərək dedi:

– YUNESKO-nun cənab baş direktoru!

Əlahəzrətlər! Zati-aliləri!

Xanımlar və cənablar!

Mən Avropada savadlılığın dəstəklənməsi mövzusunda YUNESKO-nun regional konfransının bütün iştirakçılarını və qonaqlarını səmimiyyətlə salamlayıram. Hamıya "Azərbaycana xoş gəlmisiniz" deyirəm!

YUNESKO-nun təhsilin inkişafı sahəsindəki fəaliyyəti bütün dünyada yüksək dəyərləndirilir. Mən bu fürsətdən istifadə edərək, YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuraya elm, təhsil və mədəniyyətə dəstək sahəsində yorulmaz və hərtərəfli fəaliyyətinə və ölkələr arasında əməkdaşlığın qurulmasında göstərdiyi xidmətlərə görə minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, mən məmnuniuqla burada xüsusi qonaqlarımızı – əlahəzrət Hollandiya şahzadəsi xanım Laurentieni, əlahəzrət şahzadə Ferialı və YUNESKO-nun xoşməramlı səfiri, zati-aliləri xanım Viqdos Finnboqadottiri salamlayıram. Bu konfransı fəal şəkildə dəstəklədiklərinə və bu gün bizimlə olduqlarına görə onlara xüsusi təşəkkürümü bildirirəm.

Bu gün biz 30-dan artıq Avropa ölkəsindən gəlmiş milli təhsil sistemlərinin rəhbərləri və rəsmiləri, eləcə də tanınmış ekspertlər və bir çox nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə görüşməkdən məmnunuq.

Bakı konfransı qlobal savadlılığın dəstəklənməsinə yönəlmiş regional və subregional YUNESKO konfranslarının davamıdır. Bu, milli, regional və beynəlxalq səviyyələrdə savadlılığın təşviq edilməsinə yönəlmiş birgə səylərin bir hissəsidir.

Hazırda YUNESKO hər bir ölkənin xalqı üçün təhsilə açıq və bərabər çıxışın təmin edilməsindən ötrü resursları səfərbər edir. Yüksək keyfiyyətli təhsilə çıxışın təmin edilməsi və





savadsızlığın aradan qaldırılması məsələlərinə xüsusi diqqət yetirir.

Avropa ölkələrində təhsilin sonrakı inkişafı üçün hazırkı forumun əhəmiyyətini qeyd etməmək mümkün deyildir. Bu tədbir qitəmizdə savadsızlığa aid problemlərin səmərəli həllinə yardım edəcəkdir.

Avropa ölkələri milli siyasəti vasitəsilə savadlılığı uğurla təşviq etmişlər. Bununla belə, ümumi savadlılığın ənənəvi yüksək səviyyəsində qalmasına baxmayaraq, bu sahədə hələ də xüsusi problemlər və çağırışlar mövcuddur.

Konfransımız geniş Avropa ictimaiyyətinin savadlılıq və böyüklərin təhsili sahəsində ən aktual məsələlərin həllinə diqqətini cəlb etmək məqsədini daşıyır. Bu, cari təhsil problemlərini müzakirə etmək üçün xüsusi bir fürsətdir. Tədbir yeni ideyalar, təcrübə və ən münasib iş barədə fikir mübadiləsinə imkan verəcəkdir.

Konfrans ümumi yanaşmaları, habelə savadlılıq və böyüklərin təhsilini təşviq etmək məqsədi ilə istifadə olunan səmərəli üsulları və vasitələri müəyyən edəcəkdir. Biz konfransın yekun sənədlərində və tövsiyələrində Avropada təhsilin keyfiyyətinin artırılmasına yönəlmiş yeni razılaşdırılmış ideya və tədbirlərin öz əksini tapacağını gözləyirik.

Bu forum müxtəlif milli hökumətlərin və beynəlxalq təşkilatların gördüyü tədbirlər haqqında məlumat verəcək və dialoqu gücləndirəcəkdir. O, Avropa qitəsində savadlılığın yüksək standartını təmin edəcəkdir.

Ümidvaram ki, konfrans savadlılıq və təhsil sahəsindəki problemlərin həlli üçün milli strategiyaların formalaşdırılmasına mühüm töhfə verəcəkdir. Bu tədbir hamı üçün təhsil proqramının uğurla həyata keçirilməsinə xidmət edəcəkdir.

Mən bu cür mühüm konfransın Bakıda keçirilməsini təhsil sahəsində öz siyasətinin təşviq olunmasında Azərbaycanın əldə etdiyi nailiyyətlərin bəyənilməsi kimi qiymətləndirirəm. Şadam ki, YUNESKO və Azərbaycan bir çox sahələrdə uğurla çalışır və hazırda sıx dəstəkləyici tərəfdaşlıq qurublar.

Bu gün Azərbaycan sürətlə inkişaf edən bir ölkədir. Müasirləşmə siyasəti həyatın bütün sahələrində müşahidə edilir: iqtisadi, siyasi və mədəni sahələrdə. Sabit siyasi vəziyyət və artan iqtisadi inkişaf təhsil sahəsində problemlərin uğurla həlli üçün zəmin yaradır. Bu yeni texnologiyaların tətbiqinə, istifadəsinə və inkişaf etdirilməsinə xidmət edir. Son dörd il ərzində ölkədə altı yüz mindən çox iş yeri yaradılmışdır. Əlbəttə, iqtisadiyyatın bir çox sahələrində – idarəçilik, bank işi və digər sektorlarda mütəxəssislərin formalaşmasına ciddi ehtiyac duyulur. Bu sahədə "Böyüklər üçün təhsil" həyata keçirilən ən uğurlu layihələrdəndir.

Hökumət ən müasir tələblərə cavab verən milli təhsil sisteminin yaradılmasına xüsusi əhəmiyyət verir. Təhsil infrastrukturun inkişafına və müasir qurğuların tikilməsinə sərmayə qoyur. Təhsilin inkişaf etdirilməsi və onun Avropa standartlarına çatdırılması üçün genişmiqyaslı proqramlar həyata keçirilir.

Ölkəmizdə xüsusi dövlət proqramı aşağıdakı mövcud problemlərin həllinə yönəlib: müasir

tədris üsullarının zəif şəkildə tətbiqi, mütəxəssislərin formalaşmasında olan çatışmazlıqlar və tədris zamanı müasir informasiya texnogiyalarının aşağı səviyyədə istifadəsi. Bu məsələlərlə biz bir çox digər postsovet ölkələrində üzləşirik.

Hesab edirəm ki, Azərbaycan yaxşı tərəqqiyə nail olub və düzgün istiqamətdə gedir. Bizim ən böyük problemimiz Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyon qaçqın və məcburi köçkün yaranmışdır. Son 20 il ərzində belə vəziyyətdə yaşayan yeni nəsil formalaşıbdır. Qaçqın-köçkün uşaqları münaqişənin nəticələrindən əziyyət çəkirlər.

Buna baxmayaraq, mürəkkəb vəziyyət olsa da, hökumətimiz həmin uşaqlar üçün təhsilin müvafiq səviyyəsini təmin edə bilmişdir. Biz onların təhsil problemlərini həll etmək məqsədi ilə regionlardakı infrastrukturu dəstəkləyən təhsil modelini yaratmışıq. Hazırda bütün uşaqlar öz müəllimləri tərəfindən verilən təhsili alır, işğal olunmuş rayonların məktəbləri digər orta məktəblər kimi eyni səviyyədə fəaliyyət göstərir. Son on il ərzində bu, bizim ən mühüm nailiyyətlərimizdən biridir.

Təhsilin inkişafına hərtərəfli dəstək Heydər Əliyev Fondunun fəaliyyətinin prioritetlərindən biridir. Yaradıldığı gündən etibarən Fond ölkədə təhsilin inkişafına böyük töhfə vermişdir. Misal üçün, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Fond tərəfindən ölkənin müxtəlif bölgələrində 200-dən artıq məktəb inşa edilmiş və müasir avadanlıqla təchiz olunmuşdur. İnternat məktəblərində uşaqlar üçün təhsil bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyev Fondu YUNESKO ilə əlaqələrini genişləndirməkdə davam edir və bu təşkilata dəstək verir. Fond bir sıra birgə layihələr və proqramlar həyata keçirir. 2007-ci ildə ölkəmizdə peşə təhsilinin inkişafı ilə bağlı layihənin həyata keçirilməsi haqqında YUNESKO, Azərbaycan hökuməti və Heydər Əliyev Fondu arasında saziş imzalanmışdır.

Bugünkü konfrans əməkdaşlığımızın yeni bir nümunəsidir. Birgə əməkdaşlığımız vasitəsi ilə hamının konkret şəkildə yararlanacağı daha möhkəm və uzunmüddətli münasibətlər quracağıq.

Sonda mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu konfrans ölkələrimiz arasında daha sıx və geniş əlaqələrin qurulmasına yeni təkan verəcəkdir. Tədbir bütün Avropa ölkələrinin milli təhsil sistemlərinin nümayəndələri arasında əməkdaşlığın möhkəmləndirilməsinə yardım edəcək və tərəfdaşlığımızı yeni səviyyəyə qaldıracaqdır.

Mən bu tədbirin təşəbbüskarlarına, təşkilatçılarına və iştirakçılarına, habelə hazırkı konfransın hazırlanmasında fəal çalışmış bütün şəxslərə bir daha səmimi minnətdarlığımı bildirirəm.

Ümidvaram ki, Azərbaycana səfərinizdən məmnun qalacaqsınız. Mən sizin hamınıza böyük uğurlar arzulayıram. Sağ olun.

***"Azərbaycan" qəzeti,***
***15 may 2008-ci il***





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA TƏŞKİLATIN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK HESABAT YIĞINCAĞINDA İŞTİRAK ETMİŞDİR

2008-ci ilin mayın 20-də Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik hesabat yığıncağı keçirilmişdir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yığıncaqda iştirak edərək demişdir:

– Hörmətli cənab baş direktor!

Əlahəzrətlər! Zati-aliləri!

Xanımlar və cənablar!

Mən bütün hörmətli həmkarlarımı, YUNESKO-nun xoşməramlı səfirlərini görməkdən şadam. Biz burada dostlarımız arasında, YUNESKO-da olmaqdan hər zaman çox şadıq. Mən bu görüşü təşkil etdiyinə görə YUNESKO-nun baş direktoru zati-aliləri cənab Koişiro Matsuuraya xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Matsuuranın bildirdiyi kimi, əfsuslar olsun ki, bizim bu görüşümüz birinci dəfədir dostumuz və həmkarımız Mstislav Rostropoviçsiz baş tutur. Gözəl musiqiçinin vəfatından sonra bu görüş birinci dəfədir ki, keçirilir. O, bütün dünya mədəniyyətinə böyük töhfə vermişdir. Onun vəfatı bütün beynəlxalq ictimaiyyət üçün əvəzsiz itki olmuşdur. Lakin bu, eyni zamanda, bizim həmvətənlərimiz üçün də böyük itkidir. Bu böyük musiqiçinin əbədi xatirəsinə ehtiram əlaməti olaraq, biz ötən ilin dekabrında Bakıda beynəlxalq musiqi festivalını təşkil etmişdik.

2007-ci il Heydər Əliyev Fondu üçün çox məhsuldar bir il olmuşdur. Biz təhsil, elm və mədəniyyət sahələrində bir neçə layihələri və təşəbbüsləri uğurla həyata keçirmişik. Bir neçə gün bundan öncə Bakıda Heydər Əliyev Fondunun təşkilati dəstəyi ilə YUNESKO-nun Avropada savadlılıq problemlərinə həsr olunmuş konfransı keçirilmişdir. Konfransda milli təhsil sistemlərinin rəhbərləri, habelə Avropanın 30-dan çox ölkəsindən gəlmiş ekspertlər və bir çox nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Bakıda keçirilmiş konfransda savadlılıq və böyüklər üçün təhsillə bağlı mühüm məsələlər müzakirə olunmuşdur. Bir çox vacib ideyalar səslənmiş və təcrübə mübadiləsi edilmişdir. Heydər Əliyev Fondu olaraq, biz hamı üçün təhsil proqramının uğurla həyata keçirilməsinə töhfə vermişik.

Biz, eyni zamanda, böyük məmnuniyyətlə YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranın, İordaniyanın əlahəzrət şahzadəsi Ferialın, Hollandiyanın əlahəzrət şahzadəsi Laurentienin və xanım Finnboqadottirin Azərbaycanda konfransda iştirakını alqışladıq. Onlar öz iştirakı ilə bu konfransa xüsusi bir dəyər vermişlər.

YUNESKO-nun ideyalarını rəhbər tutaraq, biz hesab edirik ki, çətin vəziyyətlərdə olan

ölkələrə yardım göstərməliyik. Mən məmnunluq hissi ilə bildirmək istəyirəm ki, bu ilin fevral ayında Heydər Əliyev Fondu xaricdə özünün ilk layihəsini həyata keçirmişdir. Pakistanın Müzəffərabad şəhərində dəhşətli zəlzələdən sonra biz yerlə-yeksan olmuş qızlar məktəbini yenidən tikmişik. Bu məktəbdə 500-dən çox şagird təhsil ala bilər, onun ümumi sahəsi 2000 kvadratmetrdir. Sinif otaqları, laboratoriyaları, kitabxanası, informasiya texnologiyası otaqları və idman meydançaları ən yüksək müasir tələblərə cavab verir. Pakistandakı məktəb Heydər Əliyev Fondunun xaricdə tikdiyi ilk təhsil ocağı olmuşdur.

Eyni zamanda, Fondumuz Azərbaycanda mədəniyyətin inkişafına xüsusi diqqət yetirir. Bununla bağlı, biz bənzərsiz musiqi irsimiz olan muğamın və xalq musiqisinin digər nümunələrinin qorunmasına xüsusi səy göstəririk.

YUNESKO-nun baş direktoru cənab Matsuuranın bu yaxınlarda Azərbaycana səfəri zamanı biz Beynəlxalq Muğam Mərkəzinin tikintisi ilə tanış olduq və eyni zamanda, yeni xalça muzeyinin təməlqoyma mərasimində iştirak etdik. Beləliklə, biz Azərbaycanın hər bir vətəndaşı üçün çox vacib olan mədəniyyətimizi təşviq etməyə nail olduq. Mən çox şadam ki, Beynəlxalq Muğam Mərkəzi və yeni Xalça Muzeyi – hər ikisi Xəzərin sahilində, gözəl bulvarda yerləşir və yaxın dövrdə tikinti işləri başa çatdırılacaqdır.

2007-ci ildə, eyni zamanda, "Muğam" jurnalı da ilk dəfə olaraq çap edildi. Biz eyni zamanda "Muğam ensiklopediyası"nı həm çap, həm də elektron variantlarda hazırlamışıq. Biz dövri olaraq gənc muğam ifaçıları arasında müsabiqələr də təşkil edirik. Ötən il uğurla təşkil edilmiş müsabiqəyə, demək olar ki, bütün regionlardan 160-a yaxın gənc ifaçını cəlb etdik və yekun mərhələyə 20-yə yaxın ifaçı çıxdı. Onlardan altısına fəxri adlar və mükafatlar verildi.

Hörmətli həmkarlar! YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclası yeni ideyalarımızı və planlarımızı bölüşmək, görülmüş işlər haqqında söhbət üçün yaxşı fürsətdir. Mən nailiyyətlərinizlə bağlı bir daha sizi təbrik etmək istəyirəm və sizə gələcəkdə işlərinizdə uğurlar arzulayıram.

Yekun olaraq, mən bu fürsətdən istifadə edərək sizin hamınızı Azərbaycan gecəsinə dəvət edirəm. Diqqətinizə görə çox sağ olun.

***"Azərbaycan" qəzeti,***
***22 may 2008-ci il***







## HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ PARİSDƏ, YUNESKO-nun QƏRARGAHINDA "AZƏRBAYCANIN XOŞMƏRAMLI MƏLƏKLƏRİ" KONSERT PROQRAMI TƏQDİM OLUNMUŞDUR

2008-ci ilin mayın 20-də Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdə, YUNESKO-nun qərargahında xoşməramlı səfirlərin illik yığıncağı çərçivəsində ölkəmizin gənc istedadlarının "Azərbaycanın xoşməramlı mələkləri" adlı konsert proqramı təqdim edilmişdir.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura və qurumun xoşməramlı səfiri Mehriban xanım Əliyeva konsertdə olmuşlar. Çıxış edərək Mehriban Əliyeva demişdir:

– Hörmətli baş direktor!

Əlahəzrətlər! Zati-alilər!

Xanımlar və cənablar!

Mən bu Azərbaycan gecəsinə gəlmiş bütün qonaqları salamlamaq istəyirəm. Burada Azərbaycanın mədəniyyəti nümayiş etdiriləcəkdir. Mən bu fürsəti yaratdığına görə YUNESKO-ya xüsusi minnətdarlığımı bildirirəm. Zati-aliləri cənab Koişiro Matsuuraya

təşəkkürümü bildirirəm ki, bu tədbirin keçirilməsi mümkün olmuşdur və bütün hazırlıq işləri görülmüşdür.

Cənab Matsuuranın ölkəmizə səfəri hamımızın yadındadır. O, yeni xalça muzeyinin təməlqoyma mərasimində iştirak etmiş, eyni zamanda, tikintisi gedən Beynəlxalq Muğam Mərkəzi ilə tanış olmuşdur. Cənab Matsuura, bütün təşəbbüslərimizə verdiyiniz dəstəyə görə biz Sizə minnətdarıq.

Hörmətli dostlar, mən Azərbaycanı YUNESKO-da yenidən təqdim etməyimə çox şadam. İki il öncə burada Azərbaycan gününün keçirilməsindən sonra ölkəmizdə bir çox dəyişikliklər baş vermişdir. Son illər ərzində Azərbaycanın iqtisadi artımı dünyada ən yüksək səviyyədədir. Dörd ildə ümumi daxili məhsulun artımı 96 faiz olmuşdur. Bizim dövlət büdcəmiz təqribən 10 dəfə artmışdır. Bu müddət ərzində ölkə daxilində 600 mindən çox iş yeri açılmışdır və biz çox şadıq ki, işsizlik azalmışdır, yoxsulluğun səviyyəsi 49 faizdən 2008-ci ildə 16 faizə düşmüşdür. Bütün bunlar ölkəmizdə iqtisadi və sosial islahatların həyata keçirilməsinin nəticəsidir. Bu uğurlar sosial həyatımızla bağlı müxtəlif proqramların həyata keçirilməsinə imkan yaratmışdır. Yeni yollar çəkilir, tikinti işləri aparılır, ölkəmizdə bir çox sosial infrastruktur yaradılır. 1300 yeni məktəb tikilmiş, bundan əlavə, kitabxanalar, yeni tibb ocaqları, xəstəxanalar açılmışdır.

Biz gənclərin məsələlərinə də xüsusi diqqət yetiririk. Milli təhsil sistemimizi inkişaf etdiririk ki, Azərbaycanda ən müasir standartlar tətbiq olunsun. Hər il biz gənclərimizin dünyanın nüfuzlu təhsil ocaqlarında təhsil almaları üçün təqaüdlər proqramını həyata keçiririk. Eyni zamanda, inanırıq ki, informasiya texnologiyalarına çıxışın təmin edilməsi vacibdir. Ona görə də bizim məqsədimiz hər bir məktəbdə uşaqlarımız üçün kompyuterlərdən istifadəni və internetə çıxışı təmin etməkdir. Hesab edirəm ki, ən yaxşı sərmayə gələcək nəsillərimizin təhsilinə yönəldilən sərmayədir.

Bu gün Azərbaycanda elm sahəsində də islahatlar aparılır və çalışırıq ki, bizim elmi ictimaiyyətimiz bütün beynəlxalq elmi ictimaiyyətə inteqrasiya etsin. Bununla bağlı, aprel ayında xüsusi dövlət komissiyası yaradılmışdır. Son illər ərzində biz öz mədəni və tarixi irsimizin qorunması üçün bir çox işlər görmüşük. Azərbaycan qədim ölkədir, onun zəngin mədəni irsi var. Əsrlər boyu ölkəmiz Şərqlə Qərb arasıda körpü rolunu oynamışdır. Hazırda tarixi abidələr, bütün teatrlar və muzeylər bərpa olunur və digər işlərin də həyata keçirilməsi nəzərdə tutulur. Biz tarixi abidələrimizin qorunmasına diqqət yetiririk. Azərbaycan çoxmillətli ölkədir və burada bir çox millətlərə və dinlərə mənsub olan insanlar yaxşı, dinc şəraitdə yaşayırlar. Biz dini dözümlülüyü və digər mədəniyyətlərə dözümlü yanaşmanı təmin edirik. Bir çox sahələrdə biz tərəqqiyə nail olmuşuq və əminəm ki, Azərbaycan düzgün yoldadır.

Buna baxmayaraq, biz bəzi çətinliklərlə də üzləşirik. Mən beynəlxalq ictimaiyyətin diqqətini bir daha ən böyük problemimizə cəlb etmək istəyirəm. Bu da Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ərazimizin Ermənistan tərəfindən işğal edilməsinin bizim təhsilimiz,





mədəniyyətimiz üçün çox ağrılı nəticələri olmuşdur. İşğal olunmuş ərazilərdə məktəblər, tarixi abidələr, muzeylər yerlə-yeksan edilmişdir. Etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Hökumətimiz həmin qaçqınların, məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmağa çalışır. Planlarımız ondan ibarətdir ki, onların həyat şəraitini daha da yaxşılaşdıraq və indiyədək müvəqqəti məskunlaşdıqları yerlərin tam ləğvinə nail olaq və bunu edirik. Biz bu münaqişənin beynəlxalq hüquq əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həllinə ümid edirik və qaçqınlar və məcburi köçkünlər öz yurd-yuvalarına qayıtmalıdırlar.

YUNESKO ilə Azərbaycan arasındakı münasibətlər bizim müstəqilliyimizin bərpa edilməsindən sonra başlanmışdır. Həmin əlaqələr inkişaf etmiş və bunlara əsaslanaraq bir çox layihələr həyata keçirilmişdir. YUNESKO ölkəmizdə görülən işlərə dəstək verir, bir sıra qeyri-maddi və maddi mədəni irs nümunələrimiz YUNESKO-nun siyahılarına daxil edilmişdir. Hazırda biz YUNESKO ilə birgə mühüm təhsil proqramlarını həyata keçiririk. Bu münasibətlərin daha da inkişafını təmin etmək üçün gələcəkdə də əlimizdən gələni edəcəyik.

Yekun olaraq, hörmətli dostlar, mən sizin hamınızı bu gənc ifaçıların, Azərbaycan musiqiçilərinin konsertini dinləməyə dəvət edirəm. Onlar bizim gələcəyimizdir. Hesab edirəm ki, onlar özlüyündə ən gözəl xoşməramlı səfirlərdir və bu gün bizim ənənəvi musiqimizi, tanınmış musiqi əsərlərini ifa edəcəklər.

Çox sağ olun, mən təşkilatçılara bir daha təşəkkür edirəm və sizin ailənizə, özünüzə xoşbəxtlik arzulayıram. Sağ olun.

*"Azərbaycan" qəzeti,*
*22 may 2008-ci il*




## BAKIDA "MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ FORUM İŞƏ BAŞLAMIŞDIR

2008-ci ilin iyunun 10-da Bakıdakı "Gülüstan" sarayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda iki günlük Beynəlxalq forum işə başlamışdır.

Forumda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edərək demişdir:

– Hörmətli xanımlar və cənablar!

İcazə verin, bir daha hörmətli qonaqlarımızı salamlayım. Sivilizasiyaların və mədəniyyətlərin dialoqu kimi çox aktual bir problemi qadınların gözü ilə nəzərdən keçirmək və müzakirə etmək üçün dəvətimizi qəbul etmiş hər kəsi burada görməyə çox şadıq.

Heydər Əliyev Fondu ilk dəfə deyil ki, bu mövzuya müraciət edir. Lakin ilk dəfədir ki, demək olar, bütün qitələrin nümayəndələri belə nüfuzlu, yüksək səviyyəli forumda iştirak etmək üçün Bakıya toplaşıblar. Bizimlə burada olduğunuza görə bir daha sizə minnətdarlığımı bildirirəm.

Bu gün bəşəriyyət planetar miqyaslı təhlükələrlə üz-üzə dayanmışdır. Ekoloji fəlakətlər,





qlobal iqlim dəyişikliyi, təbii sərvətlərin, həmçinin enerji ehtiyatlarının tükənməsi, qloballaşma problemi, əhalinin sağlamlığı, qidalanması və rifahı məsələləri bizi düşünməyə vadar edir. Müasir inkişafın reallığından kənar sivilizasiyalararası dialoqdan danışmaq, təbii ki, mümkün deyil. Dialoq haqqında danışarkən biz istər-istəməz inkişaf və gerilik, məşğulluq və işsizlik, təhsil və savadsızlıq problemlərinə də toxunuruq.

Düşünürəm ki, müasir dünyanın çağırışları millətlərin qarşılıqlı anlaşmasına həm kömək edir, həm də çətinlik yaradır. Bu gün qarşılaşdığımız qlobal problemlərin mənbəyinin və səbəblərinin təhlili hazırda dünyanın elmi, siyasi və ictimai fikrinin diqqət mərkəzindədir.

Şübhə yoxdur ki, alimlərin və ictimai xadimlərin hələ bir neçə nəsli bu problemlərlə məşğul olacaq və bu suallara cavab axtaracaqdır.

Bir şey tamamilə aydındır: bu gün biz keçən əsrin bir çox illüziyalarından uzaqlaşmışıq. Tarix özü və hadisələrin gedişi doqmatik teoriyaları kökündən silkələmişdir. Belə ki, güclü texniki və texnoloji inkişaf tərəqqiyə və kamilliyə xidmət etməklə yanaşı, bəşəriyyətə indiyədək məlum olmayan, tamamilə yeni çağırış və təhlükələr yaratmışdır. Bu, ekoloji və texnogen faciələr, qlobal istiləşmə problemi, enerji təhlükəsizliyi və sairədir.

Gəlin detallarına, incəliklərinə varmadan yaşadığımız bugünkü dünyaya, reallığa nəzər salaq. Görəsən, sivilizasiyalara, xalqlara və ayrı-ayrı insanlara bir-birini eşitməyə, anlamağa nə mane olur və nə kömək ola bilər? Bu baxımdan, ilk öncə, sizin diqqətinizi belə bir məqama yönəltmək istərdim: biz mədəniyyətlərin və sivilizasiyaların dialoqu haqqında ayrı-ayrı dillərdə danışırıq. Burada "ayrı-ayrı dillər" dedikdə, müxtəlif xarici dilləri nəzərdə tutmuram. Dialoqdan həm alimlər, həm siyasətçilər, həm də ictimai və mədəniyyət xadimləri söz açırlar. Biz sivilizasiyaların dialoqu və ya qarşıdurması ilə bağlı müxtəlif siyasi və elmi doktrinaları müzakirə edirik. Lakin siyasətdən uzaq, adi insanlar bir yana, çox vaxt peşəkarlar belə məsələdə bir-birini anlamaqda, müəyyən konsensusa gəlməkdə çətinlik çəkirlər.

Danılmaz faktdır ki, bu gün dini mənsubiyyətindən və milliyyətindən, siyasi fəallığından və savadlılığından, mədəni inkişafından və rifah səviyyəsindən asılı olmayaraq, hər bir insan bu və ya digər dərəcədə bu məsələ ilə maraqlanır. Hər bir insan istər-istəməz özünə sadə bir sual verir: "Biz haraya gedirik? Bizi nə gözləyir?"

Bizim forum bu problemə xüsusi bir prizmadan baxmaq məqsədini güdür. Bu, problemə qadın yanaşması və qadın baxışıdır. Belə hesab edirəm ki, həmin yanaşmanın ən üstün cəhəti ondan ibarətdir ki, o, hamını birləşdirə bilər və hər kəs üçün aydın ola bilər. Səbəbi isə çox sadədir. Axı bu mövqe qadının varlığının mahiyyətini təşkil edən məhəbbətə əsaslanır. Bu, öz övladına, öz yaxınlarına, yer üzündə hər bir varlığa və Tanrıya olan sevgidir. Qadın həyatını ümumən məhəbbətsiz təsəvvür etmək mümkün deyil. Qatı nifrətin, ksenofobiyanın, irqi və dini dözümsüzlüyün qarşısını məhz belə bir sevgi ala bilər.

Mən sizin diqqətinizə bir neçə statistik məlumatı çatdırmaq istərdim. Yalnız keçən il ərzində İraqda gedən hərbi əməliyyatlar nəticəsində 25 min dinc əhali həlak olmuşdur. Fələstin-İsrail

qarşıdurması neçə-neçə qadın və uşağın həyatına son qoyub. Ölkəmizdə baş verən Xocalı faciəsi zamanı bir gecə ərzində qadın, uşaq və qocalar daxil olmaqla 600-dən çox mülki şəxs qətlə yetirilmiş, 1200 nəfərdən artıq insan isə yaralanmışdır. Ekspertlərin rəyinə görə, zəruri tədbirlər görülməsə, XXI əsrdə müxtəlif konfliktlər nəticəsində 150 milyondan artıq qadın və uşağın həlak olacağı gözlənilir. Bu, quru statistik rəqəmlərdir və zənnimcə, ən dəhşətlisi odur ki, biz artıq bu faktları dinləməyə, eşitməyə, görməyə alışmışıq. Biz bunları haradasa, kiminsə başına gələn hadisə kimi qəbul edirik. İndi isə konkret bir misal çəkmək istərdim.

Təsəvvür edin ki, hansısa bir qadın öz uşağını qucaqlayıb öpərək onu dostları ilə oynamaq üçün həyətə yola salır. Beş dəqiqə sonra onun mina ilə parçalanmış cansız bədəni üzərində göz yaşları axıdır. İnanmıram ki, yer üzündə bu faciəyə laqeyd qalan bir insan tapılar.

Sivilizasiyaların dialoqu problemini hansısa abstrakt bir problem kimi müzakirə etməyin vaxtı artıq çoxdan keçibdir. Aydın təsəvvür etmək lazımdır ki, bu problemin arxasında minlərlə insanın taleyi və həyatı dayanır. Sözsüz ki, ilk növbədə, burada ikili standartlar və yanlış stereotiplər siyasətindən uzaqlaşmaq lazımdır. Eyni zamanda, ümumbəşər sivilizasiyasından danışarkən onun yalnız seçilmiş xalqlar tərəfindən yaradıldığı haqqında düşüncələrə də yol verməmək olmaz.

Cəmiyyətdə iqtisadi dəyərlərə meyili gücləndirən və altruizmi zəiflədən qüvvələr hər zaman mövcud olmuşdur. Bugünkü inkişaf mərhələsində bəşəriyyət daha çox mənəvi dirçəlişə təkan verən yeni ideyalara ehtiyac duyur.

Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühitini yaşatmışdır. Bu həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, pravoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir. Bu, təkcə tarixin ayrı-ayrı məqamları deyil. Bu il biz yeni katolik məbədi açmışıq. Tarixi əhəmiyyət daşıyan məscid və kilsələrin bərpası ilə yanaşı, yenilərini də tikirik.

Kiçik bir faktı sizin diqqətinizə yetirmək istərdim. Bakıda məşhur pravoslav kafedral kilsəsi bir zamanlar Azərbaycanın neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin ianələri hesabına inşa edilmişdi. Bir neçə il bundan öncə isə həmin kilsə başqa bir azərbaycanlı iş adamının vəsaiti hesabına bərpa olunmuşdur. Bakını Roma Papası II İoann Pavel, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi də ziyarət ediblər. Burada İslam Konfransı Təşkilatına üzv olan ölkələrin bir çox müxtəlif tədbirləri keçirilir. Bu, bir daha sadə bir həqiqəti təsdiq edir.

Bütün dünya dinlərinin bir məqsədi, bir məramı var. Biz Tanrıya müxtəlif cür müraciət edə bilərik, ona müxtəlif dillərdə dua edə bilərik, onun şəninə müxtəlif məbədlər ucalda bilərik. Mahiyyət dəyişməz olaraq qalır. Bizim hamımızın bir Tanrımız var və bu nə qədər də sadə





səslənməsə, hər bir dinin əsasını təşkil edən dəyərlər ümumbəşəri dəyərlərlə eynidir. Bu, insanları birləşdirən və barışdıran dəyərlərdir. Belə olduğu halda dindən qarşıdurmaların və münaqişələrin yaradılması üçün istifadə olunması dözülməzdir.

Müasir cəmiyyətdə qadın mövqeyindən söhbət açarkən qeyd etmək lazımdır ki, bu sahədə hər bir ölkənin öz inkişaf yolu, öz konkret xüsusiyyətləri var. Bu gün Azərbaycan cəmiyyətində qadının tutduğu mövqe ilə haqlı olaraq fəxr edirik.

Şərqdə ilk demokratik respublika olan Azərbaycanda 1918-ci il İstiqlal Bəyannaməsi ilə qadınlara seçmək və seçilmək hüququ verildi. Xatırladaq ki, bu hüququ Azərbaycan qadınları Avropanın bir neçə ölkəsinin sakinlərindən daha tez almışlar. XX əsrin əvvəllərində təhsil almaq imkanı əldə edən azərbaycanlı qadınlar yalnız orta təhsildə deyil, həm də ali təhsildə gender bərabərliyinə nail oldular.

Bu gün qadınlarımız idarəetmə, hüquq və məhkəmə sistemində təmsil olunur, ölkənin ictimai və siyasi həyatında fəal iştirak edirlər. Onlar ölkə üzrə məktəb müəllimlərinin 71, həkimlərin 61, elmi işçilərin isə 50 faizini təşkil edirlər. Bu yolu Azərbaycan qadını 90 il ərzində keçmişdir. Bütün bunlarla yanaşı, Azərbaycan qadını ailə dəyərlərinin qorunub saxlanması kimi mühüm bir sahədə də öz layiqli töhfəsini vermişdir. Şərq ilə Qərb dəyərlərini özündə birləşdirən Azərbaycan beləliklə, gender məsələsində də nümunə ola bilər.

Biz qadınları, adətən, iki model ilə üz-üzə qoyurlar. Belə hesab olunur ki, Şərq qadını daha çox ailəyə bağlıdır, Qərb qadını isə cəmiyyətdə yüksək mövqe axtarır. Reallıq isə iki mövqedən də çox-çox uzaqdır. Mən elə hesab edirəm ki, həm Şərq qadını, həm Qərb qadını tarix boyu elə nailiyyətlər əldə edib ki, onlardan biz hamımız faydalana bilərik. Bu yanlış stereotipdən bu məsələdə uzaq olsaq, bu həm Şərqə, həm də Qərbə kömək edə bilər.

Dünyada bir çox qadın təşkilatları mövcuddur. Onlar bir çox problemləri həll edir, bir sıra aksiyalar həyata keçirir və qadının cəmiyyətdə mövqeyini yaxşılaşdırmağa çalışırlar. Demək olar ki, onlar bir çox nailiyyətlər əldə ediblər. Bu gün, fikrimcə, feminizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun təşkilində əsas yükü öz üzərinə götürməlidir. Mən dünyanın nüfuzlu, böyük təcrübəyə malik olan qadın təşkilatlarını bu sahədə daha fəal olmağa çağırıram.

Bu forumun mənə verdiyi fürsətdən istifadə edərək, bizim dəvətimizi qəbul edib konfransa gəlmiş bütün birinci xanımlara şəxsən müraciət etmək istərdim.

Adətən, hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Birinci xanımların sosial problemlərin həllində göstərdiyi fəallıq bəllidir. Əminəm ki, sizin hər biriniz öz ölkənizdə çoxsaylı layihə həyata keçirir, müxtəlif humanitar təşəbbüslər üçün xeyli güc və enerji sərf edirsiniz. Düşünürəm ki, əgər birinci xanımlar sivilizasiyaların dialoquna dəstək versələr, bu, bir çox müsbət dəyişikliklərə gətirib çıxarar və dialoq probleminin özünü yeni müstəviyə keçirəcəkdir. Ümidvaram ki, Bakı forumu gələcəkdə ənənəvi şəkil almaqla, sivilizasiyaların faydalı dialoqunun formalaşmasına dair hər birimizin ideya və məqsədlərimizi həyata keçirmək üçün imkan yarada bilər.

Sonda daha bir aktual problemi sizin diqqətinizə çatdırmaq istərdim. Bu gün insanlar bəzən manipulyasiya obyektinə çevrilir, real hadisələri xəbər reportajlarında təqdim olunduğu kimi qəbul edir. Stereotiplər televiziya ekranlarından, mətbuat səhifələrindən bizim düşüncəmizə təsir edir.

Bu konfransın tribunasından jurnalistlərə, xüsusən qadın jurnalistlərə müraciət etmək istəyirəm. Bu gün dünyada baş verən real hadisələr və bu hadisələrin kütləvi informasiya vasitələrində əksi jurnalistin, televiziya kanalının mövqeyindən və ya hansısa konkret siyasi sifarişdən asılıdır. Hər bir jurnalist ictimai fikirdə hər hansı mənfi obrazların yaradılmasının nə ilə nəticələndiyini çox yaxşı dərk etməlidir. İnsanların dinindən, dilindən və milliyyətindən asılı olmayaraq, onların dini və ya milliyyəti ilə bağlı hisslərini təhqir edən karikatura, məqalə və ya videomaterialların işıq üzü görməsi dözülməz bir haldır. Bu nə ümumbəşəri əxlaqi dəyərlər sisteminə, nə də jurnalist etikasına uyğun gəlir.

Əziz dostlar!

Əziz qonaqlar!

Qadının gücü, güc mənbəyi ilk baxışdan çox sadə görünən xeyirxahlıq, sevgi və mərhəmət kimi əbədi duyğulardadır. Bu gücün, bu qüvvənin qüdrətini və təsir dairəsini nəzərə almamaq mümkün deyil. Belə bir qüdrətli amilin mədəniyyətlər və sivilizasiyalararası dialoqa layiqli töhfə verməsi bizim özümüzdən asılıdır.

Diqqətinizə görə çox sağ olun.

*"Azərbaycan" qəzeti,*
*11 iyun 2008-ci il*







## "MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ BAKI FORUMU İŞİNİ BAŞA ÇATDIRMIŞDIR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü, YUNESKO və İSESKO-nun dəstəyi ilə Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq Forum 2008-ci ilin iyunun 11-də işini davam etdirmişdir.

Forumun üçüncü sessiyasına sədrlik edən Qazaxıstan Prezidentinin müşaviri, Ailə Məsələləri və Gender Siyasəti üzrə Milli Komissiyanın sədri xanım Gülşarə Abdıkalıkova belə bir möhtəşəm tədbirin təşkilinə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Azərbaycan hökumətinə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, İSESKO və YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya minnətdarlıq etmişdir.

Xanım G.Abdıkalıkova qadınların dünyada gedən qloballaşma prosesində iştirakı, mövcud

problemlərin həllində, münaqişələrin çözülməsində, sülhün, əmin-amanlığın bərqərar olunmasındakı rolunun artırılması baxımından Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bu tədbirin olduqca mühüm əhəmiyyət daşıdığını bildirmişdir.

Mərakeş Krallığının mədəniyyət naziri xanım Turiyə Cəbran çıxışında demişdir ki, belə bir tədbirin Azərbaycanda keçirilməsi bu ölkədəki tolerantlığın, insan hüquq və azadlıqlarının müdafiəsinin bariz nümunəsidir.

Mərakeş Krallığının sosial inkişaf naziri xanım Nuşa Skali bildirmişdir ki, mədəniyyətlərarası dialoq dünyada qadınların rolunu artıracaq, demokratik və vətəndaş cəmiyyəti quruculuğunda bərabərliyi təmin edəcəkdir.

Macarıstanın Təhsil və Mədəniyyət Nazirliyinin beynəlxalq məsələlər üzrə Dövlət katibi Katalin Bogyay Azərbaycan və macar xalqları arasında tarixən mövcud olan mədəni əlaqələrdən danışmış, Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlığını bildirmişdir.

K.Bogyay demişdir ki, Macarıstan hər zaman dialoq vasitəsilə digər ölkələrlə mədəni mübadiləyə öz töhfəsini verməyə çalışmışdır. Mədəni diplomatiya cəmiyyətin özəlliyini təşkil edir. Bu mənada mədəniyyətlərarası dialoqun daha da yayılması üçün səyləri birləşdirmək lazımdır.

Yaponiyanın Şizuoka Prefektura Universitetinin professoru Yoko Hirosi müasir dünyadakı problemlərdən danışmış, onların həllində qadınların rolunu qeyd etmişdir.

Rusiya Elmlər Akademiyası Sosiologiya İnstitutunun ailə və gender məsələləri şöbəsinin müdiri Tatyana Qurko demişdir ki, Qərbdə baş verən hadisələr nəticəsində yaranan ailə böhranı bəzi dəyərlərin itirilməsi ilə nəticələnir. Qloballaşma prosesi də ailə məsələlərindən yan keçməmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən beynəlxalq Forum həm bu, həm də digər problemlərin həllində mühüm rol oynayacaq, qadınların rolunun artmasına təkan verəcəkdir.

Böyük Britaniyada nəşr olunan "Şərq Maqazin" jurnalının baş redaktoru Rim Məğribi isə bildirmişdir ki, qadınlar hər zaman mədəniyyətlərarası dialoqda mühüm rol oynamışlar. Lakin tarixən formalaşmış stereotiplər əsasında hərəkət qadınların ailədə davranışına mənfi təsir göstərir. Bu cür tədbirlər mənfi baxışları dəyişdirəcəkdir.

Amsterdam Universitetinin Avropa tədqiqatları üzrə professoru Kornelia Verteg sosial həyatda qadınların və kişilərin arasındakı qeyri-bərabərlikdən danışmış, bu sahədəki Avropa təcrübəsindən bəhs etmişdir.

Sonra mövzu ətrafında müzakirələr aparılmış, iştirakçılar rəy və təkliflərini bildirmişlər.

Belçika Senatının üzvü xanım Anna-Mari Lizinin sədrliyi ilə keçirilən dördüncü sessiyada "Şərq və Qərb: Biz bir-birimizi necə görürük" mövzusunda müzakirələr olmuşdur.

Sədr demişdir ki, Avropada ən böyük problemlərdən biri qadın miqrantların statusu və qızların nikah məsələləri ilə bağlıdır. Bu cür hallar cəmiyyətdə bərabərsizliyə, qadın





hüquqlarının pozulmasına münbit şərait yaradır. Cəmiyyətdə mənfi stereotiplər formalaşdıran belə halların qarşısının alınması məqsədi ilə vahid strategiya hazırlanmalıdır.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru xanım İrina Kudryaşova təhsil sahəsində çalışan qadınların problemlərinə toxunaraq demişdir ki, siyasi dözümsüzlük, münaqişələr elmə və təhsilə mənfi təsir göstərir. Bunun qarşısını almaq üçün İslam dəyərlərinin sosial həyata göstərdiyi təsir Avropa gənclərinə daha geniş şəkildə öyrədilməlidir. İslam dəyərləri bütün cəmiyyətlərin inkişafının təməlini təşkil edə bilər.

Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri Firəngiz Əlizadə Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərindən danışmış, Şərqdə ilk operanın Azərbaycanda yaradıldığını diqqətə çatdırmışdır. Mədəniyyətlərarası dialoqun Qərb və Şərq musiqisinin sintezinə də müsbət təsir göstərəcəyini bildirmişdir.

İrlandiyanın Dublin Triniti Kollecinin professoru Roland Hil çıxışında demişdir ki, mədəniyyətləri öyrənmək, tədqiq və təbliğ etmək sivilizasiyalararası toqquşmanın qarşısını almağa kömək edə bilər. Bunun üçün digər xalqların milli ənənələrinin, ədəbiyyatının, maddi-mədəniyyət nümunələrinin öyrənilməsi çox vacibdir. Ümid edirik ki, bu Forum sivilizasiyalararası dilaloqu daha da inkişaf etdirəcəkdir. ABŞ-ın Corctaun Universitetinin Avrasiya, Rusiya və Şərqi Avropa Tədqiqatları Mərkəzinin direktoru xanım Ancela Stent Bakıda ikinci dəfə olduğunu bildirmiş, ötən müddət ərzində baş vermiş dəyişiklikləri, sürətli inkişafı yüksək qiymətləndirmişdir. O, qadınların sülhə necə nail olunması istiqamətindəki fəaliyyətinə dair tədqiqatlar aparıldığını qeyd etmiş və qadınların müxtəlif dövlət vəzifələrində çalışmalarının mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. Almaniyalı qrafinya Anna Beatriça Şlik demişdir ki, bu Forum beynəlxalq aləmdə Azərbaycanın imicinin daha də yüksəlməsinə təsir göstərəcəkdir. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin inkişafına xüsusi diqqət və qayğı göstərir və biz hamımız onunla qürur duyuruq. Çox böyük səbir, dözümlülük tələb edən işlərdə Mehriban xanımın səyləri alqışlara layiqdir. Məhz onun səyləri nəticəsində mədəniyyətlərarası dialoqda bir sıra vacib işlər görülmüşdür.

Azərbaycanın çox düzgün yolda olduğunu vurğulayan qrafinya demişdir ki, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan dialoqun mərkəzinə çevrilə bilər. Bu da digər ölkələr üçün örnək olmalıdır.

Sonra mövzu ətrafında müzakirələr olmuş, iştirakçılar rəy və təkliflərini bildirmişlər.

Fasilədən sonra Beynəlxalq Forumun sessiyalarında məruzəçilərin hesabatları dinlənilmişdir.

Sonra Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış etmişdir. O demişdir ki, ikinci Forum 2010-cu ildə yenə də Bakıda keçiriləcəkdir. Forumla əlaqədar jurnal nəşr olunacaqdır.

H.Hüseynova məlumat vermişdir ki, Forumun Bakı Bəyannaməsi tədbir iştirakçılarının rəy və təklifləri əsasında yenidən işlənmiş və təkmilləşdirilmişdir.

Beynəlxalq Forumun yekun sənədi – Bakı Bəyannaməsi qəbul olunmuşdur. Bəyannamədə

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın qadınların sivilizasiyalararası dialoqa töhfəsinə həsr olunan Forumu keçirmək təşəbbüsü alqışlanır. Bildirilir ki, Bakı Forumu İnsan Hüquqları üzrə Dünya Bəyannaməsinin 60-cı ildönümünə təsadüf edir. Bu da insan hüquqları, mədəniyyət müxtəlifliyi, mədəniyyətlərarası dialoq və gender bərabərliyi arasında əlaqə yaratmaq haqda düşünməyə imkan verir. Bəyannamədə dünya dövlətləri münaqişələrin həllində və sülhməramlı proseslərdə qərarların qəbulunda qadınların iştirakının artırılmasına çağırır.

Sənəddə bir daha Heydər Əliyev Fondu, YUNESKO və İSESKO-ya Forumun təşkilinə görə minnətdarlıq bildirilir.

Tədbirin yekun sessiyasında çıxış edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dedi:

– Xanımlar və cənablar, hörmətli dostlar!

Bu gün bizim bir çox çıxışlarımız və maraqlı müzakirələrimiz oldu. Forum iştirakçıları olduqca aktual və mühüm məsələlərə toxundular. Burada qaldırılmış suallar, müxtəlif vaxtlarda qaldırılmış suallardır ki, bu da dialoqla bağlıdır. Bizim seçimimiz dialoqdur. Bizim seçimimiz dözümlülük və hörmətdir. Bizim seçimimiz müxtəliflikdir və qəlblərin, insanların, dinlərin müxtəlifliyidir. Biz ona çalışmalı deyilik ki, hamıya dünyada bir gözlə baxaq. Biz müxtəlifliyi yüksək qiymətləndiririk və çalışırıq onu zənginləşdirək.

Bu iki gün ərzində biz bir-birimizi dinlədik, bir-birimizi daha yaxşı tanıdıq, biz öz fikirlərimizi hörmət və anlaşma ilə bölüşdük. Bu birgəyaşamanın kiçik bir nümunəsidir və biz istəyirik ki, bu nümunə bütün dünyanın digər yerlərində təşəkkül tapsın.

Ümid edirəm ki, bizim Forumumuz müxtəlif mədəniyyətlər və xalqlar arasındakı dialoqa töhfə verəcəkdir və əminəm ki, biz birgə səylərimizlə bu işi gələcəkdə də davam etdirəcəyik.

Mən öz səmimi təşəkkürümü Anqola, Latviya, Polşa, Cənubi Afrika Respublikasının birinci xanımlarına, Türkiyənin Baş nazirinin xanımına və eyni zamanda, Texas ştatının birinci xanımına, Rusiya Federasiyası Federasiya Şurasının vitse-spikerinə bildirirəm. Eyni zamanda, biz YUNESKO və İSESKO-ya da minnətdarlığımızı bildiririk və hökumət rəsmilərinə bir daha təşəkkür edirəm.

Biz məşhur alimlərə və qeyri-hökumət təşkilatlarının və mətbuatın təmsilçilərinə, nümayəndələrə dərin minnətdarlığımızı bildiririk ki, onlar bu tədbiri mümkün etmişlər və təşkilatçılıq işini yerinə yetirmişlər.

Sonra İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri təmsil etdiyi təşkilat adından Forumun yüksək səviyyədə təşkilinə və iştirakçılara göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi. Baş direktor dedi ki, beynəlxalq səviyyədə təşkil olunmuş bu Forum yeni layihələrin həyata keçirilməsinə təkan verəcəkdir. Qarşılıqlı anlaşma Forumun əvvəlindən axırınadək hiss olunmuşdur.

Natiq bu tədbirin sivilizasiyalar alyansının yaradılmasına təkan verəcəyini xüsusi qeyd etdi və bildirdi ki, İSESKO Bakı Bəyannaməsinin icrasına töhfəsini verəcəkdir. Bizim əsas məqsədimiz sivilizasiyalararası dialoqun yaradılmasıdır.





YUNESKO-nun Mədəniyyət Siyasəti və Mədəniyyətlərarası Dialoq İdarəsinin direktoru xanım Katerina Stenu yekun nəticələr barədə danışdı. O dedi ki, mədəniyyətlərarası dialoq mürəkkəb məsələyə çevrilmişdir. Bu Forum dünyada gedən proseslərdə qadınların rolunun artırılması ilə yanaşı, həmin məsələnin də həllinə müsbət təsir göstərəcəkdir. Mədəniyyətlərarası dialoq sivilizasiyalararası dialoqun vacib tərkib hissəsidir.

Təhlillər daha da genişləndirilməli, siyasi qanunlar kifayət qədər formalaşmalıdır. XXI əsrdə siyasi sabitlik və müxtəliflikdə, sülhün qorunmasında qadınların rolu artırılmalıdır.

İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu çıxışında bildirdi ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilən bu Forum qloballaşan dünyada sivilizasiyalararası dialoqa təkan verəcəkdir.

Bu Forum həm də Qərb ilə Şərq arasında əlaqələrin inkişafına, eləcə də əməkdaşlığın dərinləşməsinə geniş imkanlar yaradacaqdır. Azərbaycan öz tolerantlığı, mədəniyyəti ilə digərlərinə nümunədir.

Azərbaycan cəmiyyətində qadınların rolunun böyük olduğunu vurğulayan İKT-nin Baş katibi dedi ki, bu amil digər ölkələrə nümunə olmalıdır. Çünki hələ də bəzi ölkələrdə qadınlara qarşı stereotiplər açıq şəkildə qalmaqdadır. Bu da müasir dünya üçün qeyri-adekvatdır.

E.İhsanoğlu bildirdi ki, mədəniyyətlərarası dialoqlarda, eləcə də siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə, münaqişələrin həllində və digər istiqamətlərdə qadınların rolu daha da gücləndirilməlidir.

Natiq qeyd etdi ki, 2005-ci ildə İKT-nin Məkkədə keçirilmiş konfransında qəbul edilmiş Onillik Proqramda İslam dəyərlərinin qorunması və inkişaf etdirilməsi qarşıya əsas məqsəd kimi qoyulmuşdur. Məlumdur ki, İslamda qadınların bərabərhüquqluluğu təsbit olunmuşdur. Biz bu prinsiplərin daha da genişləndirilməsinin tərəfdarıyıq. Beynəlxalq Bakı Forumu bu işdə bizə lazımınca kömək göstərmişdir.

Təmsil etdiyi təşkilatın bütün dialoqlara hazır olduğunu bir daha bəyan edən İKT-nin baş katibi dedi ki, insanlar qarşılıqlı anlaşma şəraitində yaşamalıdırlar.

Sonra E.İhsanoğlu İKT-nin müraciətini oxudu.

Müraciətdə son üç ildə Heydər Əliyev Fondunun Azərbaycanda və xaricdə humanitar sahədə gördüyü işlər xüsusi qeyd olunmuşdur.

E.İhsanoğlu dedi ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın yetim və kimsəsiz uşaqlara, müharibə və təbii fəlakətlərdən zərər çəkmiş insanlara yardım göstərilməsi sahəsində İKT ilə əməkdaşlığı yüksək səviyyədədir.

Sonda Ekmələddin İhsanoğlu Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun

prezidenti Mehriban xanım Əliyevaya "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" statusuna dair diplomu təqdim etdi.

Mehriban xanım Əliyeva Beynəlxalq Foruma yekun vuraraq dedi:

– Hörmətli dostlar, mən bir daha onu qeyd etmək istəyirəm ki, biz bu cür vacib məsələlər üzrə əməkdaşlığa, mədəniyyətlərarası dialoqa həmişə hazırıq. Ümid edirəm ki, Bakı Bəyannaməsində qeyd olunduğu kimi, biz 2010-cu ildə bir daha görüşəcəyik. Mən hamımızı bu Forumun uğurla başa çatması münasibətilə bir daha təbrik edirəm.

Bununla da "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu öz işini başa çatdırdı.

***"Azərbaycan" qəzeti,***
***12 iyun 2008-ci il***





# HEYDƏR ƏLİYEV FONDUNUN "ÜZEYİR DÜNYASI" VƏ "AZƏRBAYCAN MUĞAMI ENSİKLOPEDİYASI" LAYİHƏLƏRİNİN TƏQDİMATI OLMUŞDUR

2008-ci ilin sentyabrın 17-də "Gülüstan" sarayında Heydər Əliyev Fondunun "Üzeyir dünyası" və "Azərbaycan muğamı ensiklopediyası" layihələrinin təqdimatı olmuşdur.

Azərbaycan musiqi mədəniyyəti tarixində xüsusi yeri olan, müasir Azərbaycan professional musiqi sənətinin və milli operanın banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş "Üzeyir dünyası" layihəsinə "Ömür salnaməsi", "Üzeyir Hacıbəyli ensiklopediyası", "Bədii və publisistik əsərləri" kitabları, "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun" operaları və musiqili komediyalarının klavir, libretto və CD-ləri daxildir.

"Ömür salnaməsi" kitabı Qulam Məmmədlinin Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən kitabı əsasında hazırlanmışdır. Nəşrin birinci hissəsində Üzeyir bəyin maraqlı həyatı və çoxsahəli yaradıcılığı konkret faktlarla işıqlandırılmışdır. Burada 60 illik dövrdə müxtəlif qəzet və jurnallardan, kitablardan, arxiv materiallarından götürülmüş faktlar və sənədlərdə Üzeyir Hacıbəylinin əsərləri, bu əsərlər barədə fikir və rəylər öz əksini tapmışdır. İkinci hissədə dahi bəstəkarın əsərləri və onun haqqında yazılan müxtəlif materiallar toplanmış, indiyədək üzeyirşünaslığa dair nəşr olunmuş əsərlərin tam biblioqrafiyası verilmişdir.

Kitaba ön sözü Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva yazmışdır.

"Bədii və publisistik əsərləri" kitabında Üzeyir Hacıbəylinin operaları, musiqili komediyaları, satirik hekayələri, səhnəcikləri, felyetonları və məqalələri toplanmışdır.

"Azərbaycanın muğam ensiklopediyası" layihəsi isə Azərbaycan muğamına həsr olunan xüsusi nəşrdir. İki cilddən ibarət olan bu ensiklopediya həm muğamla bağlı ətraflı məlumatları özündə cəmləşdirir, həm də Azərbaycan muğamlarını müxtəlif xanəndələrin ifasında təqdim edir. "Muğam ensiklopediyası" kitabında, ümumilikdə, 1300-ə yaxın mətn, 200-dən çox şəkil vardır. Kitabın redaksiya heyətinin sədri və baş redaktoru Mehriban xanım Əliyevadır.

Keçən əsrin əvvəllərində ilk dəfə lentə alınan muğamlardan tutmuş 2007-ci il televiziya muğam müsabiqəsinin qaliblərinin çıxışlarına qədər 260 video və audio materiallar MP3 formatında 125 diskdən ibarət 5 albomda toplanmışdır. Burada təmsil olunan ustad və gənc xanəndələrin yaradıcılığı, muğam dəstgahları və digər əsərlər ilk dəfədir ki, bütün halda qədim muğam irsimizin dolğun mənzərəsini yaradır.

Layihələrin təşəbbüsçüsü, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimi açaraq dedi:

– Hörmətli mərasim iştirakçıları!

Əziz dostlar!

Heydər Əliyev Fondu tərəfindən hazırlanmış iki yeni layihənin təqdimat mərasiminə xoş gəlmisiniz. Sizi görməyə çox şadam.

Bu gün biz "Üzeyir dünyası" və "Azərbaycan muğamı ensiklopediyası" adlı iki yeni layihə təqdim edirik. Layihələr müxtəlif olsa da, onlar birgə təqdim olunur. Çünki onların arasında çox dərin bağlantı var.

Muğam aləmi bütövlükdə Üzeyir bəy adlı böyük bir fenomen yaratdı. Üzeyir bəy isə öz növbəsində muğama yeni həyat verdi, muğamı opera səhnəsinə gətirdi, muğam operası adlı yeni bir möcüzə yaratdı. "Üzeyir dünyası" layihəsinin əsas məqsədi dahi bəstəkarın çoxsahəli yaradıcılıq irsini bir araya toplamaq və geniş şəkildə xalqımıza təqdim etməkdir. Bununla yanaşı, layihə çərçivəsində işıq üzü görən araşdırmalar elmi və pedaqoji ictimaiyyət üçün də böyük maraq kəsb edəcəkdir. Mən inanıram ki, "Üzeyir dünyası" layihəsi dahi bəstəkarımızın yaradıcılıq irsinin bütün dünyada daha yaxşı tanınmasına da öz layiqli töhfəsini verəcəkdir.

"Üzeyir dünyası" layihəsi bəstəkarın həyat və yaradıcılıq yoludur. Onun bədii və publisistik əsərlərini, not yazılarını və elektron daşıyıcılarında toplanmış musiqisini özündə cəmləşdirir. Çox geniş biblioqrafiya Üzeyir bəyin elmi əsərləri ilə yanaşı, onun haqqında müxtəlif elmi tədqiqatları, elmi yazıları da əhatə edir.

Üzeyir Hacıbəyli Azərbaycan xalqının iftixarıdır. Onun yaradıcılığı, yaradıcılıq irsi olduqca geniş və zəngindir. Üzeyir bəy təkcə Azərbaycan professional musiqisinin banisi kimi yox, həm də çox böyük alim, maarifçi, dramaturq, publisist, pedaqoq, ictimai xadim kimi Azərbaycan tarixində görkəmli bir yer tutur. Demək olar, Azərbaycan musiqi sənətində elə bir sahə yoxdur ki, orada Üzeyir bəyin izi olmasın.

Üzeyir bəy "Leyli və Məcnun" operası və "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları ilə ilk dəfə müsəlman Şərqində musiqili teatrın əsasını qoymuşdur. Onun ölməz romansları "Sənsiz" və "Sevgili canan" Azərbaycan kamera musiqisində yeni bir istiqamət aşkar etmişdir. Onun yaradıcılığının zirvəsi olan, şah əsəri olan "Koroğlu" operası, demək olar ki, Azərbaycan musiqi sənətinin tarixində yeni bir səhifə açmışdır.

Bildiyiniz kimi, müsəlman Şərqinin ilk operası məhz Üzeyir Hacıbəylinin yazdığı "Leyli və Məcnun" operasıdır və YUNESKO-nun baş konfransının qərarı ilə bu il Parisdə YUNESKO-nun iqamətgahında "Leyli və Məcnun" operasının 100 illik yubileyi çox təntənəli şəkildə qeyd olunmuşdur. Üzeyir Hacıbəyli təkcə bəstəkar kimi tanınmır, o, həm də böyük alim, böyük maarifçi kimi tanınır. O, ürəkdən sevdiyi və dərindən bildiyi Azərbaycan xalq musiqisinin nəzəri məsələlərinə çox böyük diqqətlə yanaşırdı və bu sahədəki 25 illik araşdırmalar, "Azərbaycan xalq musiqisinin əsasları" adlı böyük, sanballı bir elm əsəri ilə nəticələnmişdir. Üzeyir bəyin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, o, ölkəmizdə qüdrətli milli bəstəkarlıq məktəbi yaratmışdır. O, ölkəmizin musiqi təhsilinin əsaslarını qoymuşdur. Bu gün bu elə bir məktəbdir ki, dünyanın ən böyük ölkələri, ən böyük xalqları belə məktəblə fəxr edə bilərlər.





Bir sözlə, əziz dostlar, Üzeyir Hacıbəylinin yaradıcılığından, irsindən çox danışmaq olar. Sabah biz dahi bəstəkarın ad gününü qeyd edəcəyik. Mən bir daha vurğulamaq istərdim ki, Üzeyir bəyin musiqi sənətinin böyüklüyü, yəqin, ondan ibarətdir ki, o, hər zaman xalq musiqisinə əsaslanmışdır. O, öz əsərlərində xalq musiqisindən, xalq musiqisinin zirvəsi olan muğamdan istifadə edirdi və xalqa öz musiqisini onun doğma dilində çatdırırdı. Yəqin, məhz buna görə də ölkəmizdə Üzeyir musiqisi istər kiçiyin, istərsə də böyüyün dillər əzbəridir.

Üzeyir Hacıbəyli dünyasını dəyişəndə Azərbaycan xalqı onunla "Sənsiz" romansının sədaları altında vidalaşırdı. Amma mən bunu deyə bilərəm ki, o gündən bəri, yəqin, heç bir gün də olmayıb ki, biz onsuz olaq. Müstəqilliyimizin simvolu olan dövlət himnimiz səslənəndə, "Koroğlu" operasının uvertürasının əzəmətinə heyran qalanda, musiqili komediyalara tamaşa edəndə, o komediyaların ölməz qəhrəmanlarının zarafatlarına, kəlmələrinə güləndə, onun romanslarını dinləyib kədərlənəndə biz deyə bilərik ki, Üzeyir bəy bizimlədir, onun musiqisi yaşayır, onun yaradıcılıq irsi yaşayır və əbədi yaşayacaqdır.

Bu gün biz Üzeyir Hacıbəylinin yaradıcılıq irsinə müraciət etməklə, əslində, onun ruhu qarşısında öz vətəndaşlıq borcumuzu verməyə hazır olduğumuzu nümayiş etdiririk.

Əziz qonaqlar, bu gün sizin diqqətinizə təqdim olunan ikinci layihə "Azərbaycan muğamı ensiklopediyası" adlanır. Bildiyiniz kimi, bu sahədə Heydər Əliyev Fondu tərəfindən son illər bir çox irimiqyaslı layihələr, tədbirlər həyata keçirilibdir. Bu sırada mən "Qarabağ xanəndələri" musiqili albomunun işıq üzü görməsini, "Muğam" jurnalının nəşrini, 2005 və 2007-ci illərdə keçirilmiş və çox böyük əks-səda yaratmış televiziya muğam müsabiqələrini qeyd edə bilərəm. Siz bilirsiniz ki, hazırda paytaxtımızın ən gözəl guşələrindən biri olan dənizkənarı parkda Beynəlxalq Muğam Mərkəzinin inşası davam edir. Bu mərkəzin təməlqoyma mərasimində ölkə başçısı və YUNESKO-nun baş direktoru iştirak etmişlər. Əminəm ki, yaxın gələcəkdə biz birlikdə bu mərkəzin açılış mərasimində iştirak edəcəyik.

İnanıram ki, bu gün sizə təqdim etdiyimiz layihə də ölkəmizin mədəni həyatında çox mühüm bir hadisəyə çevriləcəkdir.

"Muğam ensiklopediyası" iki cilddən ibarətdir. Birinci cild özündə muğama aid ətraflı məlumatı cəmləşdirir. İkinci cild isə 125 diskdən ibarətdir. Burada Azərbaycan muğamı müxtəlif sənətkarların ifası – XX əsrin əvvəllərində yazılmış muğamlardan, sonrakı dövrün xanəndələrinin və nəhayət, 2007-ci ilin Muğam müsabiqəsinin qaliblərinin ifası bir yerə toplanmışdır. Yəni ilk dəfədir Muğam ustadlarının və gənc sənətkarların ifaları bir yerdə toplanıb və bununla bizim gözəl muğam irsimizin, demək olar ki, çox dolğun, geniş mənzərəsi yaradılıbdır.

Qeyd etmək istərdim ki, "Muğam ensiklopediyası" artıq işıq üzü görüb, amma bu istiqamətdə işlər davam edir. Bir sıra ifalar bu ensiklopediyaya daxil olmayıb, çünki XX əsrin əvvəllərinə aid olan bəzi yazılar hələ ki bərpa olunur və təbii ki, gələcəkdə onlar öz yerini bu ensiklopediyada tapacaqdır.

Mənim arzum odur ki, bizim bu gün təqdim etdiyimiz ikicildlik gələcəkdə çoxcildliyə çevrilsin və muğam ifaçılarının sayı ildən-ilə artsın. Bizim gözəl muğam qədim ənənələrini qoruyub saxlayaraq yeni səslərlə, yeni ifalarla, yeni yanaşmalarla zənginləşsin. Əminəm ki, belə də olacaqdır. Muğam artıq təkcə bizim yox, bütün dünyanın sərvətidir və mən bir də qeyd etmək istəyirəm ki, bizim borcumuz və məqsədimiz muğamı qoruyub saxlamaq, onu inkişaf etdirmək, onun gözəl və dərin fəlsəfəsini gələcək nəsillərə və bütün dünyaya çatdırmaqdır. Əziz dostlar, bu gün bizim dəvətimizi qəbul edib, bizimlə olduğunuza görə mən sizə təşəkkürümü bildirirəm. Bu işdə əməyi olan hər bir insana – bizim Muğam ustalarına, sənətkarlarımıza, alimlərimizə öz dərin minnətdarlığımı və ehtiramımı bildirirəm. Sizə gələcək uğurlar, möhkəm cansağlığı, uzun ömür arzulayıram.

Sağ olun.

Sonra Mehriban xanım Azərbaycan incəsənət xadimləri ilə səmimi söhbət etdi, onların qayğıları ilə maraqlandı və xatirə şəkli çəkdirdi.

Təqdimat mərasimi incəsənət ustalarının çıxışı ilə başa çatdı.

*"Azərbaycan" qəzeti,*
*18 sentyabr 2008-ci il*








## CƏMİYYƏTİN ƏN BÖYÜK QÜVVƏSİ OLAN GƏNCLƏRİN MƏŞĞULLUĞU AZƏRBAYCANIN ÜMUMİ İNKİŞAF STRATEGİYASININ TƏRKİB HİSSƏSİDİR

2008-ci ilin sentyabrın 24-də Bakıda "Gülüstan" sarayında Heydər Əliyev Fondunun, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Dünya Gənclərinin IV Məşğulluq Sammiti (YES) işə başlamışdır. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çıxış edərək demişdir:

– Hörmətli sammit iştirakçıları, hörmətli xanımlar və cənablar! Sizin hamınızı Azərbaycanda salamlamaq istərdim. Mən sizə xoşbəxtlik, möhkəm cansağlığı və sammitin işinə uğurlar arzulayıram. Əminəm ki, fikir mübadiləsi və burada problemlərin müzakirəsi gənclərin məşğulluğu kimi qlobal problemlərin həlli baxımından faydalı olacaqdır. Ümidvaram ki, bu sahədəki təcrübəmiz maraqlı olacaq və siz gözəl Bakı şəhərimizlə tanış olmağa vaxt tapacaqsınız.

Mən, həmkarım, YUNESKO-nun xoşməramlı səfiri xanım Marianna Vardinnoyanisin bu tədbirdə iştirakını yüksək dəyərləndirirəm. Əziz dostum, bu gün bizimlə burada olmağınıza və bizi dəstəklədiyinizə görə minnətdaram. Əminəm ki, siz ölkənizin gənclərin problemlərinin həlli sahəsindəki təcrübəsini bizimlə bölüşəcəksiniz. Mən sizi Bakıda görməyimə məmnunam

və ümid edirəm ki, səfərinizdən razı qalacaqsınız.

Mən, eyni zamanda, sammitin təşkilinə böyük töhfə vermiş İskəndəriyyə Kitabxanasının direktoru cənab İsmayıl Sərageldinə xüsusi təşəkkürümü bildirirəm.

Nəhayət, mən bu konfransın keçirilməsi üçün məhz Azərbaycanı seçdiklərinə görə Gənclərin Məşğulluğu Sammitinin bütün təşkilatçılarını salamlayıram. Biz fəxr edirik ki, bu cür yüksək səviyyəli beynəlxalq tədbirləri ölkəmizdə keçirmək təcrübəmiz belə bir geniş tərkibdə olan nümayəndə heyətlərini qəbul etməyə imkan yaradır.Bir daha Azərbaycana xoş gəlmisiniz!

Hörmətli dostlar!

Biz gənc ölkəyik. Bu sözlər Azərbaycanın ünvanına işləndiyi halda, onun iki mənası var. Bir tərəfdən, bizim müstəqilliyimiz nisbətən gəncdir. 1918-ci ildə biz müsəlman Şərqində ilk demokratik respublikanı qurduq. Müstəqilliyimizi müşayiət edən mürəkkəb geosiyasi vəziyyət həmin respublikanın yalnız 23 ay yaşamasına imkan verdi. 1991-ci ildə biz müstəqilliyimizi bərpa etməyə nail olduq və fəxr edirik ki, belə bir qısa müddət ərzində ölkəmizin inkişafında gözəçarpan uğurlar əldə etmişik.

"Gənc ölkə" tərifinin ikinci mənası onunla izah olunur ki, əhalimizin 51 faizdən çoxunu 30 yaşına çatmamış gənclər təşkil edir. Əhalinin 49,7 faizini 20-50 yaşlı vətəndaşlar təşkil edir. Bu, Azərbaycanın böyük potensialıdır, çünki bizim ölkə yeni yanaşma əsasında yeni çağırışları həll etmək üçün faydalı dinamikaya və enerjiyə malikdir.

Regionda həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri kimi irimiqyaslı layihələr ölkəmizə dünyada ən yüksək iqtisadi göstəricilərə nail olmağa imkan yaratmışdır.

İqtisadi islahatlar nəticəsində biz iqtisadi və sosial məsələlərin həllində gözəçarpan nailiyyətlər əldə etmişik. Son dörd il ərzində ölkəmiz dünyada iqtisadi artım sürətinə görə birinci yerdədir. Ümumi daxili məhsulun (ÜDM) illik artımı 25-35 faiz səviyyəsindədir. Dörd il ərzində ÜDM və sənaye istehsalı iki dəfədən çox artmışdır. Büdcəmiz son beş il ərzində on dəfədən çox artıbdır. Özəl sektorun inkişafı davam edir, onun ÜDM-dəki payı artıq 84 faizdir. Ölkədə gedən islahatlar nəticəsində Azərbaycanda 700 mindən artıq iş yeri yaradılmışdır.

Sosial müdafiə sahəsində əlavə tədbirlər görülür. Daha çox vətəndaş sosial yardım alır. Yoxsulluğun səviyyəsi kəskin şəkildə 2001-ci ildəki 49 faizdən 2008-ci ildə 15 faizə düşmüşdür və bu proses davam edir. Bütün bunlar ölkədə güclü sosialyönümlü siyasətin olmasından xəbər verir.

Dünya Bankının "Biznes mühiti-2009" hesabatında Azərbaycan biznes sektorunda aparılan islahatlara görə dünyada lider ölkə kimi göstərilmişdir. Təbii ki, biznes fəaliyyəti üçün şəraitin yaxşılaşdırılmasını gənclərin məşğulluğunun təmin edilməsinə müsbət təsiri var.

Məşğulluqla bağlı rəqəmlərin təhlili göstərir ki, işləyənlərin 69,2 faizi özəl sektorda çalışır. Aydındır ki, 17 il bundan öncə özəl sektor sahəsində heç bir təcrübəsi olmayan ölkə üçün bu göstərici kifayət dərəcədə yüksəkdir.





Ölkəmiz Ermənistanın hərbi təcavüzü, 1 milyon qaçqın və məcburi köçkünün olması ilə xarakterizə olunan keçid dövrünün bütün çətinliklərini qısa müddət ərzində nəinki arxada qoymuş, həm də iqtisadi və sosial həyatın bütün sahələrində mühüm uğurlara nail olmuşdur.

Gənclər hər bir ölkənin ən böyük strateji və yaradıcı qüvvəsidir. Bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmış və yeni texnologiyaları mənimsəyən yüksək dərəcəli işçilərin təlim keçməsi strateji əhəmiyyət kəsb edən məsələlərdəndir. Ölkələrimizin iqtisadi artım səviyyəsi və gələcəyi həmin məsələlərin həllindən asılı olacaqdır.

Bu sammitdə gənclərin məşğulluğuna təsir göstərən həmin məsələlər qlobal və milli səviyyələrdə müzakirə olunacaqdır. Hesab edirəm ki, onlardan ən birincisi və önəmlisi təhsildir. Sammit iştirakçılarının nəzərinə çatdırmaq istəyirəm ki, Azərbaycan Prezidenti tərəfindən müəyyən edilmiş "qara qızıl"ı insan kapitalına çevirmək vəzifəsi gənclərin təhsil səviyyəsinin artırılmasına yönəlmiş müxtəlif Dövlət proqramlarında öz əksini tapır.

Son üç il ərzində ölkədə 1300 yeni məktəb tikilmişdir. Bütün məktəblərin kompyuterləşdirilməsi üzrə xüsusi proqram həyata keçirilmək üzrədir.

Tələbə təqaüdü proqramı çərçivəsində yüzlərlə azərbaycanlı gənc dünyanın ən yaxşı təhsil ocaqlarında oxumaq imkanına malik olacaqdır. İnformasiya cəmiyyətinin inkişafı aydın şəkildə göstərir ki, uğurlu iqtisadiyyat bilik üzərində qurulur.

Təbii sərvətlərdən və kapitaldan fərqli olaraq, intellektual resurslar mahiyyətcə tükənməzdir. Milli intellektual elitanın olması bu gün fundamental əhəmiyyət daşıyır. Bu baxımdan gənclərin məşğulluğu probleminin həlli istiqamətində atılan ilk addım müasir və yüksək keyfiyyətli təhsilə çıxışdır. Gənclər əmək bazarında əhalinin ən həssas hissəsidir və onlara nəzarət və kömək dövlət siyasətinin əsas məsələlərindəndir.

Hökumətin əsas öhdəliyi gənclərə təhsil vermək, işlə təmin olunmaq imkanlarının artırılması üçün onları təlimlər keçməyə həvəsləndirmək və gənclərin məşğulluğunu təmin edən müsbət mühitin yaradılmasıdır. Peşə seçərkən onun nüfuzu əsas deyil, gənclərin bazarın tələblərinə uyğun, lazımi qaydada düşünülmüş qərarlar qəbul etmək ruhunda tərbiyələndirilməsi çox vacibdir. Eyni zamanda, biz aydın şəkildə çalışmalıyıq ki, onlar gördüyü işdən məmnun və razı qalsınlar. Bununla belə, biz gənclərdə elə təsəvvür formalaşdırmamalıyıq ki, onlar bütün problemlərin həlli üçün cəmiyyətdən hazır qərarlar gözləsinlər. Olduqca vacibdir ki, gənclər öz problemlərini, o cümlədən məşğulluq məsələsini müstəqil şəkildə həll etməyə qadir olsunlar.

Azərbaycan hökuməti gənclərin məşğulluğunu özünün ümumi inkişaf strategiyasının ayrılmaz hissəsi hesab edir. Bu baxımdan dövlət BMT-nin Minilliyin Bəyannaməsindən irəli gələn öhdəliklərə xüsusi diqqətlə yanaşır. Hazırda milli və beynəlxalq öhdəliklərə uyğun olaraq, Azərbaycanda Gənclərin Məşğulluğu üzrə Milli Tədbirlər Planının hazırlanması üzərində iş başa çatmaqdadır.

Maksimum şəffaflığı və bütün maraqlı tərəflərin iştirakını təşviq etmək məqsədi ilə həmin planın hökumət qurumlarının, gənclər təşkilatları nümayəndələrinin, işə götürənlərin, işçilərin

və vətəndaş cəmiyyətinin iştirakı ilə müzakirə olunur.

Sammitin növbəti bir neçə günü ərzində, biz təhsil və peşə hazırlığının yaxşılaşdırılması, gənclərin sosial inteqrasiyası məsələləri üzərində düşünməliyik. Biz, eyni zamanda, gənclərin əmək bazarına inteqrasiyasına dəstək vermək üçün sahibkarlıq fəaliyyəti, ailə həyatı ilə iş arasında tarazlığın olması üzərində fikirləşməliyik.

Sammit zamanı hamının cəlb olunmasını təmin etmək üçün özəl və dövlət sektorlarının, beynəlxalq təşkilatların oynadığı rol və sosial dialoqun vacibliyi müzakirə ediləcəkdir.

Gənclər öz yolunu müəyyən etməkdə çox israrlıdırlar. Bunsuz inkişaf yoxdur. Biz həmin böyük potensialın istifadə edilməsində gəncləri dəstəkləməliyik. Əminəm ki, belə olan halda, gənclər öz ölkələrinin iqtisadiyyatı və inkişafı üçün bir çox müsbət təşəbbüslər irəli sürəcəklər.

İcazə verin, bir daha sammitdə sizə məmnunluq doğuran uğurlu iş arzulayım. Əminəm ki, müxtəlif ölkələrin gəncləri tədbir zamanı möhkəm münasibətlər quracaq və məqsədlərimizin reallaşmasına böyük töhfə verəcəklər.

Yekun olaraq, əziz dostlar, bilirəm ki, qarşıdakı bir neçə gün sizin üçün təəssüratlarla dolu və faydalı olacaqdır. Bununla belə, ümid edirəm ki, siz gözəl şəhərimiz, qədim və zəngin mədəniyyətimizlə, səmimi qonaqpərvərliyimizlə tanış olmaq üçün də vaxt tapacaqsınız.

Diqqətinizə görə minnətdaram.

***"Azərbaycan" qəzeti,***
***25 sentyabr 2008-ci il***







## AZƏRBAYCAN QADINLARININ III QURULTAYINDA İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZƏ GƏLMİŞ XARİCİ QONAQLAR HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Azərbaycan qadınlarının III qurultayında iştirak etmək üçün Türkiyə, Rusiya, Küveyt, İordaniya və Litvadan gəlmiş qonaqlar 2008-ci ilin sentyabrın 25-də Heydər Əliyev Fondunda olmuşlar.

Qonaqlara Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verildi. Onlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr edilmiş kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.

Xarici qonaqlar Heydər Əliyev Fondunun fəaliyyətinə dair filmə baxdılar.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva qonaqlarla görüşdü.

Mehriban Əliyeva qonaqlara müraciətlə dedi:

– Hörmətli qonaqlar, mən Sizi Azərbaycanda ürəkdən salamlayıram. Heydər Əliyev Fonduna xoş gəlmisiniz.

İlk növbədə qadınların qurultayında iştirak etmək üçün bizim dəvətimizi qəbul edib Azərbaycana gəldiyinizə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm. Ümidvaram ki, qurultay çox səmərəli keçəcək və onun nəticələri, bir tərəfdən, ölkəmizdə qadınların daha da

fəal olmasına xidmət edəcək, digər tərəfdən, bu sahədəki problemlərin həllinə öz töhfəsini verəcəkdir.

İndi Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. Yəqin, siz bilirsiniz ki, iqtisadi artıma görə dörd ildir Azərbaycan dünyada lider ölkədir. Bu inkişaf bizim cəmiyyətimizin, həyatımızın, demək olar ki, hər bir sahəsində özünü göstərir. İstər təhsil, istər mədəniyyət, istər səhiyyə – hər bir sahədə böyük dirçəliş var, böyük yeniləşmələr gedir. Yəqin, sizin Bakını gəzməyə imkanınız olacaq və görəcəksiniz ki, Bakıda nə qədər çox yeni tikintilər gedir, yeni yollar çəkilir. Eyni zamanda, bütün tarixi binalar bərpa edilir. Eyni inkişaf Azərbaycanın bütün regionalarında da müşahidə olunur.

Bu gün Azərbaycanda sosial problemlərin həllinə çox böyük diqqətlə yanaşılır. Təhsil dövlətin siyasətinin ən prioritet istiqamətlərindən biridir. Ölkəmizdə son illərdə 1300 yeni məktəb inşa olunmuşdur. Bütün bu məktəblər ən müasir avadanlıqla, kompyuterlərlə təmin edilmişdir. Son beş ildə ölkəmizdə 700 mindən çox yeni iş yeri açılmışdır. Bu da işsizlik problemini, demək olar ki, aradan qaldırıbdır. Bir sözlə, bu gün ölkəmizdə həyatın bütün sahələrində inkişaf gedir, yeniləşmə gedir və mən qeyd etmək istəyirəm ki, bütün bu nailiyyətlərdə Azərbaycan qadınının da böyük rolu, böyük xidməti var.

Tarix boyu Azərbaycanda bizim ana dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin, dinimizin, milli dəyərlərimizin qorunub saxlanmasında Azərbaycan qadınının misilsiz rolu olmuşdur. XX əsri Azərbaycanda qadınların həyatında yeni bir dövrün başlanğıcı kimi qiymətləndirmək olar. Çünki bu əsrin əvvəllərindən, demək olar ki, Azərbaycan qadınları ölkəmizin ictimai və siyasi həyatının bütün sahələrində çox fəal iştirak etməyə başlamışlar. Müsəlman Şərqində ilk Demokratik Parlament respublikası 1918-ci ildə Azərbaycanda qurulmuşdur və o, Azərbaycan qadınlarına seçmək və seçilmək hüququ vermişdir. Yəni Azərbaycan qadını bu hüququ bir çox Qərb ölkələrinin qadınlarından bir neçə il əvvəl əldə etmişdir. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra bizim qadınlarımızın qarşısında bütün imkanlar açıldı və demək olar ki, onlar bu imkanlardan tam şəkildə istifadə edirlər.

2006-cı ildə Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdı və bu komitə məhz qadınların problemləri, onlara aid olan məsələlərin həlli ilə məşğul olur, yəni dövlət tərəfindən də bu sahəyə çox böyük diqqət var.

Mehriban xanım Əliyeva cəmiyyətimizdə qadınların rolunun genişləndirilməsi istiqamətində görülən işlər, qadınların ölkəmizin həyatında fəal iştirakı barədə də ətraflı məlumat verdi.

Görüşdə iştirak edən xarici qonaqlar Azərbaycana səfərdən məmnunluqlarını bildirdilər və göstərilən qonaqpərvərliyə görə təşəkkür etdilər.

*"Azərbaycan" qəzeti,*
*26 sentyabr 2008-ci il*








## BAKIDA AZƏRBAYCAN QADINLARININ III QURULTAYI KEÇİRİLMİŞDİR

2008-ci ilin sentyabrın 26-da Bakı İdman Sarayında Azərbaycan qadınlarının III qurultayı keçirilmişdir.

Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin səfirlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin də iştirak etdikləri qurultayı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova açdı.

Azərbaycanın Dövlət himni səsləndirildi.

Prezidentin İcra Aparatının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxudu.

Sonra çıxış edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva qurultay nümayəndələrini və qonaqları təbrik etdi. Mehriban xanım Əliyeva dedi ki, biz bu gün həyatımızın bir çox sahələrində qadınların əldə etdiyi uğurlarla haqlı olaraq fəxr edirik. Tarix boyu Azərbaycanda mədəniyyətimizin, ana dilimizin, dinimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin qorunub saxlanmasında qadınların misilsiz xidməti olubdur. Azərbaycanda

qadın, ana hər zaman uca, müqəddəs sayılıbdır. Azərbaycan qadınları övladlarını vətənpərvərlik, xeyirxahlıq, mərdlik, qonaqpərvərlik, tolerantlıq ruhunda tərbiyə edərək, xalqımıza xas olan bu gözəl xüsusiyyətləri qoruyub saxlayıblar. Azərbaycan qadını çox mürəkkəb, eyni zamanda, şərəfli yol keçibdir.

1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika quran Azərbaycan qadınlara seçmək və seçilmək hüququ verdi. Bu hüququ Azərbaycan qadınları bir çox Qərb ölkələrinin qadınlarından xeyli əvvəl qazandılar. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatını yaradan 51 ölkənin ancaq 30-da qadınlar kişilərlə eyni hüquqlara malik idi. Bu faktın özü Azərbaycan cəmiyyətində qadının rolunun, demokratik dəyərlərinin qiymətləndirilməsinin göstəricisidir.

Sonrakı dövrdə Azərbaycan qadını ölkəmizin mədəniyyətinə, elminə, təhsilinə, səhiyyəsinə öz böyük və layiqli töhfələrini vermişdir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra demək olar ki, qadınların qarşısında daha geniş imkanlar açıldı. Bu gün Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir. İqtisadi artım sürətinə görə Azərbaycan 4 ildir ki, dünyanın lider ölkəsidir. Bu inkişaf həyatımızın bütün sahələrində müşahidə olunur və bu uğurlarda Azərbaycan qadınının böyük rolu, böyük payı var.

Mehriban xanım Əliyeva xalqımızın üzləşdiyi ağrılı problemlərin Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi olduğunu vurğulayaraq dedi ki, Ermənistanın işğalçı siyasəti nəticəsində ölkəmizdə minlərlə insan həlak oldu, 1 milyon soydaşımız doğma yurdundan didərgin düşdü. Bütün bu faciələri, ədalətsizliyi, dəhşətli çətinlikləri yaşayan Azərbaycan qadını bu sınaqdan da alnıaçıq, üzüağ çıxdı. Mən üzümü Azərbaycanın bütün şəhid analarına, bacılarına, övladlarına tutaraq, onları əmin etmək istəyirəm ki, Vətən yolunda həyatını qurban verən heç bir Azərbaycan övladı unudulmayacaqdır. Onların adları Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb və daim yaşayacaqdır. Azərbaycanın birinci xanımı ümidvar olduğunu bildirdi ki, yaxın gələcəkdə haqq-ədalət bərpa olunacaq, torpaqlarımız azad ediləcək, ərazi bütövlüyümüz bərpa olunacaq və bütün soydaşlarımız öz doğma torpaqlarına, doğma ocaqlarına qayıdacaqlar.

Mehriban Əliyeva daha sonra dedi ki, uğurlarla yanaşı, cəmiyyətimizdə hələ həllini tapmayan problemlər, məsələlər də var. Hesab edirəm ki, biz belə qurultayda bu məsələləri birgə müzakirə etməli və problemlərin həlli yolunu axtarmalıyıq. Mən bu gün sizin diqqətinizi məni narahat edən iki məsələyə cəlb etmək istərdim. Bunun birincisi təhsilə aiddir. Azərbaycanda təhsil sahəsində son illər çox böyük işlər görülüb, ölkəmizdə 1300-dən çox yeni məktəb tikilibdir. Bütün məktəblər ən müasir avadanlıqla, kompyuterlə təmin olunub, internet şəbəkəsinə qoşulub, ali məktəblərin maddi-texniki bazası yenidən qurulur.

Bizim yüzlərlə tələbəmiz dövlətin dəstəyi ilə dünyanın ən qabaqcıl universitetlərində təhsil alır. Bunlar hamısı bizi çox sevindirir. Çünki hər bir ölkənin ən böyük sərvəti intellektual potensialından ibarətdir. Bununla yanaşı, bir sıra bölgələrdə bəzi ailələr qızlarına hətta orta məktəbi bitirməyə belə icazə vermirlər. Hesab edirlər ki, qız uşağı üçün təhsil o qədər də vacib deyil. Fikrimcə, bu, dözülməz bir faktdır. Biz qadınlar bu məsələlərdə həmrəy olaraq öz qəti





sözümüzü deməliyik. İkinci məsələ uşaq evləri və internat məktəblərində tərbiyə alan uşaqlara aiddir. Heydər Əliyev Fondu bu sahədə bir çox işlər görür. Bizim xüsusi proqramımız var və bu proqram çərçivəsində ölkəmizdə 30-dan çox uşaq evi və internat məktəbi yenidən qurulub, ən müasir avadanlıqla təmin olunubdur. Bu məktəblərdə, bu evlərdə yaşayan uşaqlar daim bizim diqqət mərkəzimizdədir. Mən özüm ölkəmizdə, demək olar, bütün internat məktəblərində və uşaq evlərində olmuşam və bu uşaqların bütün problemləri ilə çox yaxından tanışam. Bu gün məni narahat edən odur ki, son illər internat məktəblərində, uşaq evlərində uşaqların sayı artır. Araşdırmalar göstərir ki, bu uşaqların əksəriyyətinin valideynləri və ya heç olmasa, bir valideyni var. Hətta o qədər də ağır maddi vəziyyətdə olmayan bəzi ailələr də uşaqlarının ailədən kənarda, internatda tərbiyə olunmasını istəyirər. Fikrimcə, bu, çox həyəcanlı bir faktdır. Çünki heç bir, hətta ən müasir, bütün tələblərə cavab verən internat, uşaq evi heç vaxt ailə mühitini, ailə tərbiyəsini əvəz edə bilməz. Axı, biz azərbaycanlılar üçün əsrlər boyu ailə, uşaqlar müqəddəs olubdur. Ona görə bu faktlar məni çox narahat edir.

Mən bu kürsüdən istifadə edərək, sizə müraciət edirəm və düşünürəm ki, biz bu məsələləri birgə təhlil edib, bu xoşagəlməz meyillərin qarşısını almağa çalışmalıyıq. Artıq 90 ildir ki, Azərbaycan qadını cəmiyyətimizin tamhüquqlu üzvüdür. Biz bu gün bərabər hüquqlardan bərabər imkanlara siyasətini gerçəkləşdiririk. Mən bu yolda bütün Azərbaycan qadınlarını daha fəal olmağa, öz potensialını gerçəkləşdirməyə, cəmiyyətdə öz sözünü deməyə çağırıram.

Mehriban xanım çıxışının sonunda dedi: "Mən bütün qurultay iştirakçılarını bu bayram münasibəti ilə bir daha ürəkdən təbrik edirəm. Bütün Azərbaycan qadınlarına, Azərbaycan xanımlarına ailə səadəti, möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar arzulayıram. Qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edirəm. Fürsətdən istifadə edərək qeyd etmək istəyirəm ki, mən öz fəaliyyətimdə hər zaman sizin diqqət, qayğı və dəstəyinizi hiss edirəm. Buna görə mən sizə öz dərin minnətdarlığımı, hörmətimi və böyük məhəbbətimi çatdırıram".

BMT-nin Əhali Fondunun İcraçı direktoru, BMT-nin Baş katibinin müavini xanım Toraya Əhməd Übeydin və Avropa Şurası Baş katibinin müavini xanım Bukikionun qurultaya ünvanlanmış video müraciətləri oxundu, "Azərbaycanda dövlət qadın siyasəti" filmi nümayiş etdirildi.

***"Azərbaycan" qəzeti,***
***27 sentyabr 2008-ci il***



# "MUĞAM ALƏMİ" BEYNƏLXALQ FESTİVALI ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ ELMİ SİMPOZİUM BAŞLANMIŞDIR

2009-cu ilin martın 18-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Muğam aləmi" Beynəlxalq festivalı çərçivəsində Beynəlxalq elmi simpoziumun açılışı olmuşdur.

Beynəlxalq festivalın prezidenti, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva simpoziumu açaraq demişdir:

– Simpoziumun işində iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən paytaxtımıza gələn bütün qonaqlarımıza "Azərbaycana xoş gəlmisiniz!" – deyirəm. YUNESKO-nu təmsil edən, o cümlədən Beynəlxalq Musiqi Şurasının "Muğam bölməsi"ndə fəaliyyət göstərən qonaqlarımızı xüsusi salamlayıram. Muğamın təhlili, təbliği ilə məşğul olan məşhur alimləri, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarını, muğam ustadlarımızı, bütün muğamsevərləri bu gün bu möhtəşəm tədbirdə görməyə çox şadam. Ümidvaram ki, muğamla bağlı möhtəşəm tədbirin keçirilməsi muğam sənətinin tarixində yeni bir mərhələnin başlanğıcına





çevriləcəkdir. Eyni zamanda, muğam sənətinə həsr olunmuş və belə yüksək səviyyədə keçirilən beynəlxalq simpozium muğamın təkcə Azərbaycanın mədəniyyəti və elmi üçün yox, bütün dünya musiqi ictimaiyyəti üçün nə qədər dəyərli, nə qədər maraqlı olduğunun göstəricisidir. Biz azərbaycanlılar hamımız haqlı olaraq, öz doğma muğamlarımızla fəxr edirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlər boyu öz mədəniyyətini formalaşdırmışdır. Bəzi dövrlərdə biz müxtəlif imperiyaların daxilində yaşasaq da, dinimiz, milli dəyərlərimiz, dilimiz, mədəniyyətimiz bizi bir xalq kimi, millət kimi qoruyub saxlamışdır.

Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam, muğam sənəti bizim milli sərvətimizdir.

Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik – bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm, muğam gözəlliyin və məhəbbətin rəmzidir, – səhv etmərəm. Bildiyiniz kimi, 2003-cü ildə YUNESKO tərəfindən Azərbaycan muğamı bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına salınıbdır. Bizim üçün muğam sənətinin tarixinin hər bir səhifəsi, hər bir anı çox əzizdir, çox doğmadır. Əsrlər boyu formalaşan bu sənət XX əsrin əvvəllərində xalq şənliklərindən, toylardan, bayramlardan ayrılmayaraq, konsert salonlarında səslənməyə başladı. Həmin dövrdə mərhum Üzeyir Hacıbəyli ənənəvi muğamla müasir Azərbaycan musiqisi arasında körpü yaratdı. Məhz muğamın dərin bilicisi olan bu dahi bəstəkar Şərqin ilk operası olan və keçən il təntənəli şəkildə YUNESKO çərçivəsində 100 illiyi qeyd olunan "Leyli və Məcnun" operasını yaratdı. Bununla da muğam Opera Teatrı səhnəsinə qədəm qoydu. Eyni zamanda, Üzeyir Hacıbəyli Azərbaycan xalq musiqisinin əsaslarına həsr olunmuş nadir bir əsər yazdı və bu da muğamın qaşısında yeni imkanlar açdı. Muğam prinsiplərinin əsasında musiqi bəstələmək qaydaları aşkar olundu və bununla da muğamın zəngin xəzinəsi Azərbaycan bəstəkarlarının ilham mənbəyinə çevrildi. Bütövlükdə, demək olar ki, muğam Azərbaycanın musiqi mədəniyyətinin bütün janrlarına təsir göstərdi. Bütün bunlar Fikrət Əmirovun, Niyazinin simfonik muğamlarına, Qara Qarayevin simfonizminə yol açdı və biz XX əsrdə bu uğurları müşahidə etdik.

Bu gün biz tarixə nəzər salsaq görərik ki, Azərbaycanın musiqi mədəniyyətində elə bir janr yoxdur ki, orada muğamın təsirini görməyək. Balet, opera, estrada janrı, mahnı janrı, caz – hamısında biz muğamla sintezi, muğamın təsirini hiss edə bilirik.

Eyni zamanda, muğam özlüyündə yalnız tarixdə yaşayan bir sənət deyil, muğam özü də inkişaf edir, zənginləşir. Son illər ölkəmizdə muğamın inkişafına, təbliğinə, genişlənməsinə, yayılmasına və qorunmasına dair bir çox işlər həyata keçirilibdir. Mən bu gün çox böyük fəxr hissi ilə demək istəyirəm ki, həm Heydər Əliyev Fondu, həm Azərbaycan Mədəniyyətinin Dostları Fondu bu sahədə öz layiqli töhfəsini vermişdir. Bildiyiniz kimi, son illər biz bir sıra irimiqyaslı

layihələr həyata keçirmişik: muğam müsabiqələri, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının nəşri və sair. Bu sırada "Muğam ensiklopediyası"nın nəşri xüsusi yer tutur. Mən inanıram ki, Azərbaycan muğamına həsr olunmuş bu nəşrin gələcək buraxılışı daha da zəngin, daha da maraqlı olacaqdır.

Əziz qonaqlar, mən bir daha sizin hamınızı bu bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm, inanıram ki, bizim simpozium çox maraqlı keçəcəkdir. Ümidvaram ki, simpozium, Muğam festivalı təkcə musiqi bayramına yox, həm də mədəniyyətlərarası dialoq quran bir tədbirə çevriləcəkdir. Eyni zamanda, mən ümidvaram ki, paytaxtımıza gələn qonaqlar vaxt tapıb gözəl Bakımızla yaxından tanış olacaqlar, dünənin və bu günün, Qərbin və Şərqin sintezini seyr edəcəklər. Sizin hamınızı bir daha təbrik edirəm, hamımız üçün çox əziz olan Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, uzun ömür, uğurlar arzulayıram. Bununla da, "Muğam aləmi" beynəlxalq elmi simpoziumunu açıq elan edirəm. Çox sağ olun.

Sonra simpozium iştirakçıları Heydər Əliyev Fondunun təqdim etdiyi "Muğam aləmi" filminə baxdılar.

Simpoziumun açılış mərasimində çıxış edən YUNESKO-nun nümayəndəsi, Paris Milli Elmi Araşdırmalar Mərkəzinin professoru Jan Dürinq Bakıda belə bir Beynəlxalq festivalın keçirilməsini yüksək qiymətləndirmişdir. O demişdir ki, Fransa muğamla ilk tanışlıqdan bu musiqiyə valeh olmuşdur. Ənənəvi Musiqi üzrə Beynəlxalq Şuranın vitse-prezidenti Vim Van Zanten muğamın incəliklərindən, bu sahədə aparılan tədqiqatlardan danışmışdır. Qonaq demişdir ki, musiqi festivalının və simpoziumun keçirilməsinin səbəbi odur ki, Azərbaycanın ən böyük dəyərlərindən biri olan muğam bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına düşmüşdür. İnanırıq ki, Azərbaycan musiqisi, mədəniyyəti bundan sonra digər xalqlar tərəfindən daha da yaxından öyrəniləək seviləcəkdir.

Açılış mərasimindən sonra Mehriban xanım Əliyeva Muğam festivalı çərçivəsində muzeydə nümayiş etdirilən Azərbaycan musiqi alətlərindən ibarət sərgiyə baxmışdır.

Sonra simpoziumun geniş iclası olmuşdur. İclasda Azərbaycan, Almaniya, Çin, Özbəkistan, Kanada və Tacikistandan olan tanınmış alimlərin muğamla bağlı müxtəlif mövzularda məruzələri dinlənilmişdir.

*"Azərbaycan" qəzeti,*
*19 mart 2009-cu il*








## 2010-cu İLİN MAYIN 10-da "BUTA" SARAYINDA AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 87-ci İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 6 İLLİYİ MÜNASİBƏTİ İLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Dövlət və hökumət nümayəndələrinin, xarici ölkələrdən dəvət olunmuş qonaqların iştirak etdikləri tədbirdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çıxış edərək demişdir:

– Hörmətli cənab Prezident! Xanımlar və cənablar! Hörmətli qonaqlar!

Sizləri bu möhtəşəm sarayda səmimi qəlbdən salamlayıram. Ənənəvi olaraq hər il may ayının 10-da biz dahi şəxsiyyət Heydər Əliyevin doğum gününü qeyd edirik. Heydər Əliyevin həyatı bütövlükdə Azərbaycana, Azərbaycanın inkişafına yönəlmişdir. Səksən il sürən bu şərəfli həyat hər birimizin taleyində silinməz iz qoyub. Prezident Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu gün müstəqil, gündən-günə güclənən, inkişaf edən, dünya birliyində layiqli yer tutan Azərbaycanda yaşayırıq. Heydər Əliyev nailiyyətləri, Heydər Əliyev qələbələri və zirvələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək

nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır.

Hər bir xalq hər bir tarixi dövrdə öz qəhrəmanlarının sarsılmaz ruhunu, dəmir iradəsini, cəsarət və qətiyyətini yüksək qiymətləndirmişdir. Biz – azərbaycanlılar fəxr edirik ki, xalqımızın Heydər Əliyev kimi qəhrəmanı vardır və onun unudulmaz xatirəsi önündə bu gün bir daha baş əyirik.

Əziz qonaqlar, bu gün Heydər Əliyev Fondunun yaradılmasından 6 il ötür. Fondu yaradarkən biz nə qədər məsuliyyətli işə qədəm qoyduğumuzu çox yaxşı dərk edirdik. İlk gündən əməllərimizlə bu yüksək ada layiq olmağa çalışmışıq. Altı il ərzində Heydər Əliyev Fondu ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində iştirak edərək, bir çox nailiyyətlər əldə edib. Bu axşam Fondun fəaliyyətindən ətraflı məlumat veriləcək. Mən yalnız onu demək istərdim ki, görülən işlərin nəticəsi bu gün göz qabağındadır. Bu, yüzlərlə yeni inşa olunmuş məktəblər və təmir olunmuş, müasirləşmiş uşaq evləri, internat məktəbləri, uşaq bağçaları və yay düşərgələridir. Bu, yeni tikilmiş tibb müəssisələri, diaqnostika və müalicə mərkəzləridir, müxtəlif xəstəliklərdən əzab çəkən uşaqlar üçün xüsusi tibb müəssisələri və reabilitasiya mərkəzləridir. Bu, Fondun dəstəyi ilə bərpa olunan tarixi və dini abidələr, eyni zamanda, yeni qurulan mədəniyyət ocaqları, muzeylər, mərkəzlər, konsert salonlarıdır. Bu, Fondun uğurlu sosial proqramının icra olunması nəticəsində yeni salınan parklar, yollar, çəkilən su, işıq və qaz xətləridir. Bu, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış və Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq istiqamətində aparılan işlər nəticəsində nəşr olunmuş yüzlərlə kitablar, broşürlər, foto və videoalbomlardır. Bu, Fondun dəstəyi ilə keçirilən və zəngin mədəni və tarixi irsimizin təbliğinə yönələn beynəlxalq simpoziumlar, festivallar, elmi konfranslardır. Ən əsası, ən vacibi bu, Heydər Əliyev Fondunun səmərəli xeyriyyəçilik fəaliyyətinin nəticəsində yüzlərlə normal sağlam həyata qayıtmış insanlardır.

Bir sözlə, 6 il ərzində Heydər Əliyev Fondu böyük yol keçib və əminəm ki, gələcəkdə bizi daha da böyük işlər gözləyir. Bu gün Heydər Əliyev Fondu həm Azərbaycanda, həm Azərbaycanın hüdudlarından kənarda hörmət, inam və etimad qazanıb. Bu yolda bizi dəstəkləyən, bizə inanan, bizə kömək edən hər bir insana, hər bir təşkilata mən bu gün öz dərin minnətdarlığımı bildirirəm və əminəm ki, Heydər Əliyev Fondu Azərbaycan naminə gələcəkdə yeni nailiyyətlər, yeni qələbələr əldə edəcəkdir.

Əziz qonaqlar, sonda bir daha sizi 9 və 10 May bayramları münasibəti ilə ürəkdən təbrik edirəm. Ümidvaram ki, bugünkü axşam sizə xoş anlar və duyğular bəxş edəcəkdir. Diqqətinizə görə çox sağ olun.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevə həsr olunan film nümayiş etdirildi.

***"Azərbaycan" qəzeti,***
***13 may 2010-cu il***







## BAKIDA AVROPA ŞURASININ QADINLAR VƏ KİŞİLƏR ARASINDA BƏRABƏRLİK MƏSƏLƏLƏRİNƏ MƏSUL NAZİRLƏRİNİN VII KONFRANSI KEÇİRİLİR

2010-cu ilin mayın 24-də Bakının "Gülüstan" sarayında Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması" mövzusunda VII konfransı işə başlamışdır.

Avropa Şurasına üzv dövlətlərin müvafiq sahədə fəaliyyət göstərən qurumlarının rəhbərlərinin, xaricdən, o cümlədən ABŞ-dan, Vatikandan, Kanadadan, Yaponiyadan və Meksikadan dəvət olunmuş qonaqların, dövlət orqanlarının, Bakıdakı diplomatik korpusun, Beynəlxalq və Qeyri-hökumət təşkilatlarının təmsilçilərinin iştirak etdikləri tədbirdə Azərbaycan Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Prezident İlham Əliyevin konfrans iştirakçılarına təbrik məktubunu oxudu.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva açılış mərasimində çıxış edərək dedi:

– Xanımlar və cənablar! Hörmətli qonaqlar!

Mən öz nitqimi bu konfransın bütün iştirakçılarını və qonaqlarını salamlamaqla başlamaq istərdim. Çox məmnunam ki, Bakı müasir dünyada mühüm məsələlər və çağırışlara həsr olunmuş bir çox beynəlxalq görüş və konfranslara ev sahibliyi edir. Bu tədbir qlobal təcrübədən yararlanmaqda vacib fürsət olaraq, konstruktiv dialoq və birgə həll variantları üçün zəmin yaradır. Mən bu konfransı Bakıda keçirmək qərarını qəbul etdiyinə görə Avropa Şurasına minnətdarlığımı bildirirəm və inanıram ki, Azərbaycanın gender bərabərliyinə aid fəal mövqeyi və konkret strategiyası bu tədbirin məhz Bakıda keçirilməsinin əsas səbəblərindəndir.

Bu gün keçirilən konfrans olduqca böyük ictimai əhəmiyyətə malikdir. Gender və hüquqlar bərabərliyi hər hansı demokratik cəmiyyətin ən mühüm əsaslarından biridir. İyirminci əsrin ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, biz cəmiyyətdəki dəyərlər və etik qaydaları dəyişməyə müvəffəq olduq. Gender probleminin ciddiliyi müxtəlif ölkələrdə tam şəkildə qavranılır və yalan stereotiplərin aradan qaldırılması prosesi artıq başlanmışdır. 1960-70-ci illərdə insanların qadınlara münasibətində dünya miqyasında köklü dəyişikliklər baş verdi.

1975-ci ildən etibarən BMT-nin təşkilatçılığı ilə Mexiko, Kopenhagen, Nayrobi və Pekində qadınların statusuna həsr olunmuş dörd qlobal konfrans təşkil edilmişdir. Bu konfranslar çox uğurla keçmiş və beynəlxalq ictimaiyyətə cinslər arasında qeyri-bərabərliyin probleminə daha böyük diqqətin yetirilməsinə xidmət etmişdir.

Avropanın inkişaf etmiş bir sıra ölkələrində gender ayrı-seçkiliyinin aradan qaldırılması ilə bağlı uğurlu milli siyasətin formalaşdırılması və kişi ilə qadın arasında real sosial bərabərliyin bərqərar olunması sahəsində zəngin təcrübə vardır. Bu gün müasir Avropa cəmiyyətində qadınlar, demək olar ki, bütün ictimai sahələrdə, o cümlədən ən mürəkkəb, ənənəvi kişi peşələrində fəaliyyət göstərirlər. Onlar dünyada biznes, maliyyə işlərində və hərbi sahədə fəal rol oynayırlar. Qadınlar problemlərin həllinə xüsusi diqqət yetirərək, siyasətdə də iştirak edirlər.

Bütün bu müsbət dəyişikliklərə baxmayaraq, qarşımızda duran məsələlər hələ də çoxdur. Bir çox qətnamə və qərarlar hələ də yerinə yetirilməyib. Bir tərəfdən, gender bərabərliyi müasir Avropa cəmiyyətində mühüm əhəmiyyət kəsb edir, digər tərəfdən, əldə oluna biləcək tərəqqi daha da çox ola bilərdi.

Qadınların hüquqlarının qorunmasında Azərbaycan da bir çox nailiyyətlər əldə etmişdir. XX əsr Azərbaycan qadınının həyatında yeni dövrün başlanğıcı hesab edilə bilər. Məhz 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk Demokratik Respublika olaraq qadınlara seçmək və seçilmək hüququnu vermişdir. Bu, bir çox digər Qərb ölkələrindən fərqli olaraq, əvvəl baş vermişdir. XX əsrin sonunda ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra qadınlar yeni imkanlar əldə etmişlər. Müasir Azərbaycanda elə bir sahə yoxdur ki, orada qadınlar iştirak etməsin. Onlar idarəçilik, hüquq-mühafizə və ədliyyə orqanlarında təmsil olunurlar. Onlar biznes fəaliyyəti ilə məşğul olur, siyasi və ictimai proseslərdə iştirak edirlər.





Qadınların siyasi və ictimai fəaliyyətində böyük nailiyyətlər əldə olunmuşdur. 2009-cu ildə Bələdiyyə orqanlarına seçilən qadınların sayı 2004-cü ildəki göstəricilərlə müqayisədə 7 dəfə artmışdır. Hazırda qadınlar dövlət məmurları və elmi işçilərin, demək olar ki, yarısını təşkil edir. Həkimlərin və məktəb müəllimlərinin əksəriyyəti qadınlardır. Ölkəmizdə hər beş ildən bir qadınların cəmiyyətdə rolu və mövqeyini müzakirə etmək məqsədi ilə Ümumrespublika forum keçirilir. Bütün bu nailiyyətlər müsbət və nikbin gələcəyə dəlalət edən göstəricidir.

Eyni zamanda, Azərbaycanda gender münasibətləri və qadınların ailə və cəmiyyətdə statusu ilə bağlı ciddi problemlər də vardır. Bütün bunlar Dövlət və Qeyri-hökumət qurumlarını narahat edən məsələdir. Yaxşı məlumdur ki, Azərbaycan öz müstəqilliyinin bərpasının ilk illərindən sonra qonşu Ermənistanın təcavüzünə məruz qalmışdır. Ərazimizin 20 faizinin işğalı nəticəsində bir milyon vətəndaşın, o cümlədən qadınların insan hüquqları kobud şəkildə pozulmuşdur. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın təxminən yarısı qadınlardır. Məcburi köçkünlərin təhsilə, tibbi yardıma çıxışı və normal həyat şəraitlərini yaradılması nəinki dövlətin, o cümlədən Beynəlxalq təşkilatların daim gündəliyində olmalıdır.

Bizi narahat edən digər problem məişət zorakılığıdır. Hətta ən inkişaf etmiş cəmiyyətlərdə qadınlar müxtəlif növ zorakılığa məruz qalırlar. Azərbaycan da istisna deyildir. Digər ölkələrdə olduğu kimi, bizim ölkədə də məişət zorakılığını müəyyən etmək çox çətin olur. Bununla belə, qadınlar və uşaqlara qarşı hər hansı zorakılıq, hətta bir hadisə olsa belə, qəbul edilməzdir.

Qeyd etmək istəyirəm ki, ənənələrimiz və mentalitetimizdən istifadə edərək bu cür davranışa rəvac vermək mənəviyyatsızlıqdır. Azərbaycan xalqının adət-ənənələrində qadına çox böyük hörmət və qayğı ilə yanaşılır. Ailə dəyərləri cəmiyyətimizin ən mühüm və qiymətli dəyərləri olmuş və olaraq qalır. Azərbaycanlılar üçün ana müqqədəs simadır.

Məişət zorakılığı haqqında qanun layihəsi Milli Məclisdə artıq oxunuşdan keçmişdir. Əminəm ki, bu qanun yaxın vaxtlarda qəbul olunacaqdır. Qanunvericilik sahəsinə gəldikdə, qeyd etmək istəyirəm ki, bəzən vətəndaşlara bərabər imkanların yaradılmasına yönəlmiş qanunlar kişi və qadın üçün eyni fürsətin olmasına zəmanət vermir. Bu, o deməkdir ki, vətəndaş hüquqlarına malik olmaq, məsələnin yalnız bir hissəsidir. Digər mühüm məsələ onların necə həyata keçirilməsi ilə bağlıdır. Bu, işləyəcəyimiz əlavə bir sahədir.

Gender bərabərliyinin necə olması və ahəngdar formada təmin edilməsi ilə bağlı müxtəlif təklif və fikirlərimiz ola bilər. Cəmiyyətdə qadınlar və kişilər arasında hər hansı qeyri-bərabərliyin aradan qaldırılmasını yalnız bir platforma və ya tədbirlər planı sayəsində aradan qaldırmağı düşünmək sadəlövhlük olardı. Bütün tədqiqatçılar hesab edirlər ki, sivilizasiyanın inkişaf dövründən başlayaraq, qadınlar demək olar, bütün cəmiyyətlərdə dini mənsubiyyətdən və ya siyasi quruluşdan asılı olmayaraq, kişilərdən asılı vəziyyətdə olublar. Hazırda dünya öz inkişafının elə bir dövrünə qədəm qoyur ki, yekun məqsəd bu vəziyyətin dəyişməsindən ibarətdir. Vəziyyətin dəyişilməsində uğurlar bir çox – siyasi, ictimai, sosial, dini və mənəvi

amillərdən asılıdır. Lakin yekun nəticədə hər şey bizdən, bu planetdə yaşayan kişilər və qadınlardan asılıdır.

Hələ XX əsrin əvvəllərində Simona de Bovuar yazırdı: "Kişinin fərdiləşməsi nə qədər güclü olarsa, kişinin həmin fərdiləşməyə ehtiyacı bir o qədər böyük olur və o, bir o qədər də tez öz qadının fərdiləşmə və azadlıq hüququnu etiraf edəcəkdir". Kişinin əsl müstəqilliyi o vaxt təmin olunur ki, həmin azadlıq, müstəqillik və imkanlar qadında da olsun.

Əgər müasir cəmiyyətdə qadının vəziyyətini və taleyini əsasən onun ətrafında olan kişilər müəyyən edirsə, bilmək lazımdır ki, həmin kişilər qadınlardan tərbiyə alıblar. Bu, o deməkdir ki, məhz mənəvi dəyərlərin daşıyıcısı olan qadın öz yaradıcı potensialından istifadə edərək, bəşəriyyətə yeni gender bərabərliyi modelini təklif edəcəkdir.

Yekunda mən bu məsələdə göstərdiyi fəal mövqeyə və verdiyi töhfəyə görə hamıya təşəkkürümü bildirirəm. Mən sizə uğurlar arzulayıram və ümid edirəm ki, gözəl şəhərimizə səfərinizdən məmnun olacaqsınız.

Diqqətinizə görə minnətdaram.

*"Azərbaycan" qəzeti,*
*25 may 2010-cu il*







## PARİSDƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLMƏSİNİN 20-ci İLDÖNÜMÜNƏ VƏ "AZƏRBAYCAN" KİTABININ TƏQDİMATINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

2011-ci ilin fevralın 17-də Parisdə Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsinin 20-ci ildönümünə və "Azərbaycan" kitabının təqdimatına həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Heydər Əliyev Fondunun, ölkəmizin Fransadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə baş tutan mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iştirak etmişdir.

Fransanın Mədəniyyət naziri Frederik Mitteran Azərbaycanın müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq dedi:

– Hörmətli birinci xanım Mehriban Əliyeva! Xanımlar və cənablar!

Hörmətli dostlar!

Bu gün sizinlə bir yerdə olmaqdan çox şadam və bundan şərəf hissi duyuram. Bu tədbir

Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunub. Qeyd etmək istərdim ki, Fransa Azərbaycan mədəniyyətinin ən yaxın dostlarından biridir. Təbii ki, sizin rəhbərlik etdiyiniz Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin təşviqi sahəsində mühüm işlər görüb və bu sahədə böyük rol oynayıb.

Biz bilirik ki, Azərbaycan Muğam və Aşıq musiqisi ölkəsidir. Bu baxımdan Azərbaycan mütəmadi olaraq festivallar və musiqi tədbirləri keçirir, bu tədbirlər isə böyük uğurla nəticələnir. Azərbaycan, eyni zamanda, dahi Sabirin, Nəsrəddin Xocanın vətənidir. Bütün bu zəngin mədəni irsdən danışarkən demək istəyirik ki, biz Üzeyir Hacıbəylinin də əsərlərinə yaxşı bələdik. Bu əsərlər həm bizim auditoriya qarşısında səslənib, həm də aşıqların gözəl çıxışlarını Fransız yazıçısı Jorj Sand öz əsərlərində təsvir edib. Fransa çox şaddır ki, bu cür mədəni zənginliyə malik olan Azərbaycan bizim ölkədə getdikcə daha yaxşı tanınır. Biz istəyirik ki, Azərbaycanın mədəni irsi burada daha çox təşviq olunsun.

Hörmətli xanım Əliyeva!

Biz bilirik ki, siz Azərbaycanın mədəni irsini YUNESKO vasitəsilə də təbliğ edirsiniz və Azərbaycanın paytaxtı Bakı Muğam şəhəri kimi məşhurdur. Ölkənizin xalçaçılıq məktəbi də getdikcə tanınır. Bu onu göstərir ki, ölkənizin mədəniyyəti zəngindir. Azərbaycan nəinki bu cür möhtəşəm konsertləri təşkil etməklə fərqlənir, eyni zamanda, ölkəniz Luvr Muzeyində aparılan bərpa işlərində də öz rolunu oynayıb və muzey tam bərpa olunduqdan sonra öz qapılarını ictimaiyyətə açıb. Deyə bilərəm ki, bu məsələdə Azərbaycan nümunəvi fəaliyyət göstərib. Mən onu da qeyd etmək istərdim ki, ölkələrimiz arasında mədəni mübadilə daimi olaraq genişlənir, möhkəmlənir. Mən burada audio-vizual milli institutla Azərbaycandan olan həmkarlar arasında qarşılıqlı səfərləri, təmasları qeyd etmək istəyirəm. Biz, eyni zamanda, arxeologiya sahəsində də əməkdaşlığa başlamışıq. Azərbaycan Milli Elmlər Akademiyası Fransanın müvafiq qurumu ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq 2007-ci ildən başlayıb və bu da sizin böyük arxeoloji irsinizin nümunələrinin qorunmasına imkanlar verir. Hesab edirəm ki, bu əməkdaşlıq nəticəsində əlaqələrimizdə yeni üfüqlər açılacaqdır.

Hörmətli xanım Əliyeva!

Qeyd edim ki, bizim mədəniyyət sahəsində əməkdaşlığımız sizin şəxsi iştirakınızdan qaynaqlanır. Siz Fransa Respublikası Prezidentinin bir il əvvəl qəbul etdiyi rəsmi qərarla Fransanın "Fəxri Legionu" ordeni ilə təltif edilmisiniz. Bu orden Luvr Muzeyində aparılan bərpa işlərində göstərdiyiniz xidmətlərə görə verilib. Eyni zamanda, siz Bakıda fransız dilli məktəbin açılmasında müstəsna rol oynamısınız. Qeyd edim ki, gələn il Azərbaycan "Plezyiğ düfğans" adlı sərgini qəbul edəcəkdir. Bu, elə bir layihədir ki, mən bu layihəyə çox bağlıyam və ona öz dəstəyimi verirəm. Bakıda açılacaq həmin sərginin davamı da olacaqdır. Bu sərgi vasitəsilə biz Fransanın incəsənət nümunələrini Azərbaycanda daha yaxşı tanıda bilərik. Beləliklə, Bakı bu prosesə böyük təkan vermiş şəhər olacaqdır. İnanıram ki, biz münasibətlərimizin keyfiyyətindən çıxış edərək bu əməkdaşlığı daha da genişləndirməliyik. Hesab





edirəm ki, biz hamımız ölkələrimizin mənafeyi uğrunda Prezident İlham Əliyevin qeyd etdiyi və onun atasının çalışdığı kimi işləməliyik. Bu, bir daha onu göstərir ki, Fransa ilə Azərbaycan arasında keyfiyyətli dostluq əlaqələri mövcuddur və biz istəyirik ki, bu irəliləyiş bundan sonra da davam etsin.

Diqqətinizə görə çox sağ olun.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Xanımlar və cənablar!

Hörmətli qonaqlar, hörmətli cənab nazir!

İlk növbədə, cənab nazir, mən sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Ölkəmizə göstərdiyiniz dostluq münasibətinə, mədəniyyətimizi belə dərindən bildiyinizə və dəstək verdiyinizə görə. Mənim fəaliyyətimə verdiyiniz yüksək qiymətə görə də sizə dərin minnətdarlığımı bildirirəm.

Hörmətli qonaqlar, mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və bu gün bizimlə olduğunuza görə sizə minnətdarlığımı bildirirəm. Azərbaycan bu il müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünü qeyd edir və mən çox şadam ki, bu hadisəyə həsr olunmuş ilk tədbir Fransada keçirilir. Dünyanın ən möhtəşəm, ən gözəl və ən zövqlü şəhərlərindən biri olan Parisdə ölkəmi, Azərbaycanı təqdim etmək mənim üçün böyük şərəfdir.

Müstəqil ölkə kimi Azərbaycan çox gəncdir. Lakin Odlar Yurdu adlanan bu diyarın tarixi kökləri uzaq keçmişə gedib çıxır. Burada Cənubi Qafqazda, Xəzər dənizinin sahilində ilk dövlətlər hələ eramızdan əvvəl II-I minilliklərdə mövcud idi. Ölkəmizin ərazisindən tarixi İpək Yolu keçir. Sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu strateji bir məkanda yerləşən Azərbaycan uğrunda əsrlər boyu mübarizələr aparılmışdır. Baxmayaraq ki, müxtəlif dövrlərdə Azərbaycan müxtəlif imperiyaların tərkib hissəsi olub, xalqımızın öz tarixini, mədəniyyətini, dilini qoruyub saxlayaraq milli mənliyini itirməmişdir.

Müstəqillik yolumuz heç də asan və hamar olmamışdır. Bu yolda itkilərimiz, ağrılarımız, acılarımız kifayət qədər olub. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk Demokratik Parlament respublikası olmuşdur. Həmin il, həmin dövr Azərbaycan müsəlman dünyası, müsəlman Şərqi üçün əsl mayaka çevrilmişdir. Müsəlman qızları üçün ilk dünyəvi məktəb açılmışdır, Azərbaycan qadınları səsvermə hüququnu qazanmışdır, Şərqin ilk operası və baleti yazılmışdır. Lakin əfsuslar olsun ki, Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəkdi. Respublika çox ciddi geosiyasi problem və amillərlə üzləşdi. Bu amillərin sırasında Bakı neftinə olan marağın artması da çox böyük rol oynayırdı. Nəticədə ölkəmiz müstəqilliyini itirdi və hərbi intervensiya yolu ilə Azərbaycanda Sovet Hakimiyyəti quruldu. 70 ildən çox sürən bu dövrdə xalqımız Sovet rejiminin sərt qanunları ilə üzləşdi. Lakin buna baxmayaraq, həmin illərdə Azərbaycanın iqtisadi potensialı formalaşdı, savadsızlıq tamamilə ləğv olundu, təhsil

şəbəkəsi yarandı, universitetlər açıldı, Milli Elmlər Akademiyası fəaliyyətə başladı. Bütün bu illər Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşayırdı. Nəhayət, 1991-ci ildə Azərbaycan xalqı öz taleyinin, öz torpağının, öz ölkəsinin sahibinə çevrildi. Şübhəsiz ki, tarixi baxımdan 20 il o qədər də böyük dövr deyildir. Lakin biz ötən illərə nəzər salsaq, aydın olur ki, Azərbaycan qısa bir zamanda çox böyük nailiyyətlər əldə edib.

Bu gün Azərbaycan bölgənin ən sürətlə inkişaf edən ölkəsidir. Cənubi Qafqaz dövlətlərinin ümumi iqtisadiyyatının 75 faizi Azərbaycanın payına düşür. Bu gün Avropa İttifaqı Azərbaycanı enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaş kimi tanıyır və Azərbaycan Avropanın neft və qazla təminatında öz rolunu oynamağa hazırdır. Ölkəmizin neft və qaz kəmərləri, qeyri-neft sektorunun yüksəlişi, yeni iri infrastruktur layihələri inkişafımızı təmin edir.

Bu gün Azərbaycanda sosialyönümlü siyasət aparılır. 2003-cü ildən bu günə qədər ölkəmizdə 900 mindən çox yeni iş yeri açılıb, 2 mindən çox yeni məktəb binası inşa olunub, yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə enib. Paytaxtımızın və başqa şəhərlərimizin yeni siması, ultramodern binalar, yollar, körpülər, bərpa olunan və yeni tikilən muzey və salınan parklar inkişafımızın sübutudur.

Azərbaycanda turizm sahəsi çox sürətlə inkişaf edir. Yalnız bu il paytaxtımızda beşulduzlu 5 yeni hotelin açılışı gözlənilir və bu da ölkəmizə ildən-ilə artan marağın sübutudur. Əlbəttə, bizim əsas varlığımız mədəni irsimizdir, Azərbaycanın qədim xalçaçılıq məktəbi, nadir miniatürləri, ədəbiyyatı və poeziyası, musiqisi, rəqsləri, təsviri sənəti, memarlıq abidələridir.

Əziz qonaqlar, mən xüsusi vurğulamaq istərdim ki, bütün bu nailiyyətləri ölkəmiz Dağlıq Qarabağ münaqişəsi kimi uzun sürən və hələ də həllini tapmamış problemin mövcudluğu şəraitində əldə edib. Biz əminik ki, gün gələcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, hər bir məcburi köçkün, hər bir qaçqın öz doğma torpağına qayıdacaqdır. Bizim hər bir nailiyyətimizin arxasında Azərbaycan vətəndaşının zəkası, biliyi, bacarığı, istedadı və əməyi durur. Azərbaycan gələcəyə istiqamətlənən dövlətdir. Biz böyük yolun əvvəlindəyik.

Müstəqil və dünyəvi dövlət olaraq, tariximizə və köklərimizə sadiq olaraq, mədəniyyətimizi və ənənələrimizi qoruyaraq biz ümumdünya dəyərlərinə, azadlıq, demokratiya, aşkarlıq, dünya birliyinə inteqrasiya yolunu seçmişik. Bu gün Azərbaycan müstəqillik yubileyini Fransa kimi qədim mədəniyyət və tarixə malik olan, müasir demokratiyanın vətəni olan ölkədə qeyd edir. Bunun böyük rəmzi mənası vardır.

Əziz dostlar, sonda sizə ölkəmizə göstərdiyiniz dostluq münasibətinə görə bir daha dərin minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək sizi Azərbaycana dəvət edirəm. Əminəm ki, belə görüşlər Fransa ilə Azərbaycanı ürəkdən keçən tellərlə bağlayır.

Sizə əmin-amanlıq, xoşbəxtlik və məhəbbət arzulayıram. Diqqətinizə görə çox sağ olun.

Tədbirdə ölkəmizin incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etdilər. Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrinin ifasında Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürası salona Azərbaycan





ovqatı gətirdi.

Mərasimdə Azərbaycan musiqisinin ən gözəl nümunələri səsləndi, olduqca tələbkar auditoriyanı öz sehrinə saldı. Şirzad Fətəliyevin balabanda orkestrin müşayiətilə ifa etdiyi "Sən gəlməz oldun" mahnısı, Üzeyir bəyin "Arşın mal alan" musiqili komediyasına yazdığı uvertüra, Fikrət Əmirovun bəstələdiyi əvəzsiz sənət əsərləri Azərbaycan adlı məmləkətin sahib olduğu və xalqımızın min illərdir qoruyub saxladığı qiymətli xəzinəni Qərb tamaşaçısına uğurla çatdırdı.

Dahi bəstəkar Qara Qarayevin bəstələdiyi rəqs və İsfar Sarabskinin ifa etdiyi "Novruz" caz kompozisiyası, xanəndə Mirpaşa Şükürovun ifasında "Qarabağ şikəstəsi" də mərasimə xüsusi ovqat qatdı.

Son dərəcə maraqlı konsert proqramı bir daha təsdiq etdi ki, bu gün Azərbaycan mədəniyyətinin nadir incilərinin sorağı mötəbər mərasimlərdən gəlir. Bu da ilk növbədə, Azərbaycan dövlətinin mədəni irsimizə olan münasibətinin nəticəsidir. Təbii ki, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin təbliğində oynadığı rol da əvəzolunmazdır. Elə bu mərasim də Fondun prezidenti Mehriban Əliyevanın mədəni irsimizə olan münasibətinin bariz nümunəsidir. Qara Qarayevin "Vals"ı, Niyazinin "Arzu"su, "Küçələrə su səpmişəm" məşhur xalq mahnısı, Natiq Şirinovun "Azərbaycan ritmləri" bir daha təsdiqlədi ki, Qərb tamaşaçısı son dərəcə maraqlı koloriti olan, incə hisslərlə dolu bu musiqini sevir. Azərbaycan musiqisinin ovsunu istər-istəməz insanı öz təsiri altına salmağı bacarır.

Ən nəhayət, bu möhtəşəm gecənin yekununda Fikrət Əmirovun dünyada məşhur "Min bir gecə" baletindən bir parça ifa edildi. Bu sənət əsərləri Azərbaycan musiqisinin zənginliyindən xəbər verdi, Fransa mədəniyyətsevərlərində Azərbaycana, onun zəngin musiqisinə böyük maraq oyatdı.

Sonra mərasim iştirakçıları Azərbaycan sərgisinə baxdılar. Sərginin ən əhəmiyyətli məqamı burada Qarabağ xalılarının nümayiş etdirilməsi oldu. Ölkəmizin ayrılmaz parçaşı olan Qarabağda toxunan xalılar öz gözəlliyi, rəng çaları, ornamentlərin quruluşu ilə tamaşaçıları heyran etdi. Bu mədəniyyət nümunələri Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha təsdiqlədi, xalqımızın sahib olduğu mədəni dəyərlərin zənginliyindən xəbər verdi.

Xalqımıza olan maraq təsdiqləmişdir ki, dünya mədəniyyətinin inkişafına yetərincə təsir edən Azərbaycan xalçaları tarix boyu öz gözəlliyi ilə bütün dünyanı heyran qoymuşdur. İndi Azərbaycan xalılarının sorağı ən məşhur saraylardan, muzeylərdən gəlir. XVI əsrdə toxunan və Londonun Viktoriya və Albert muzeyində qorunan "Şeyx Səfi" xalısı ornamental xalçaların ən gözəl nümunəsi kimi bu gün də Azərbaycan xalçaçılıq məktəbini dünya miqyasında şərəflə təbliğ edir.

Sərgidə nümayiş olunan qədim misgərlik məmulatları da ölkəmizdə el sənətinə verilən dəyəri Avropa tamaşaçısının diqqətinə çatdırdı.

Sərgi çərçivəsində "Azərbaycan" kitabının fransız dilində nəşr olunan versiyasının

təqdimatı da keçirildi. Heydər Əliyev Fondunun ən mühüm layihələrindən olan "Azərbaycan" nəşrinin doğma dilimizdə olan versiyası ötən ilin əvvəlində Bakıda Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə təqdim olunmuşdur.

Nəşrə daxil olan fotoşəkillər ölkəmizin tarixi, mədəniyyəti, təbiəti, insan qaynaqları, bölgələrimiz haqqında oxucuda kifayət qədər dolğun təəssürat yaradır, Azərbaycanı, onun mavi Xəzərin sahilində qərar tutmuş, Şərq və Qərb koloritlərinin cəmləndiyi paytaxtını tərənnüm edir.

Qonaqlara Azərbaycan milli mətbəxinin nümunələri təqdim olundu.

Beləliklə, Azərbaycan mədəniyyətinin Parisdə nümayişi, sözün əsl mənasında, hadisəyə çevrildi. Soydaşlarımızın arzu və istəklərinin əks olunduğu bu mədəniyyət nümunələri xalqımızın milli kimliyini, hər bir azərbaycanlının qəlb döyüntüsünü Qərb tamaşaçısına uğurla çatdırdı. Bu mədəniyyət nümunələri mərasimə gələn hər bir kəsi xəyalən nağıllar aləminə, Azərbaycana gətirdi.

***"Azərbaycan" qəzeti,***
***19 fevral 2011-ci il***








## BAKIDA "MUĞAM ALƏMİ" II BEYNƏLXALQ MUĞAM FESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

2011-ci ilin martın 14-də Beynəlxalq Muğam Mərkəzində "Muğam aləmi" II Beynəlxalq muğam festivalının təntənəli açılış mərasimi olmuşdur.

Tədbirdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişlər.

Beynəlxalq festivalın prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbiri açaraq dedi:

– Xanımlar və cənablar! Hörmətli qonaqlar!

Sizi II Beynəlxalq muğam festivalının açılış mərasimində səmimi qəlbdən salamlayıram. Festivalda iştirak etmək üçün ölkəmizə gələn bütün qonaqlara "Azərbaycana xoş gəlmisiniz" deyirəm.

Muğam festivalının Novruz bayramı ərəfəsində keçirilməsi heç də təsadüfi deyildir.

Muğamla Novruzu birləşdirən bir çox amillər vardır. İkisi də olduqca qədimdir, ikisi də özündə ənənələrlə yeniliyi birləşdirir. Təbiət hər zaman təkrarsız canlandığı kimi, muğam sənəti də heç bir sərhədlərə sığışmayan, azad, özü-özündən bəhrələnən bir sənətdir.

İki il bundan öncə Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtımızda Birinci Beynəlxalq muğam festivalı keçirilmişdir. Uğurla keçirilmiş bu festival çox geniş əks-səda yaratmışdır. Eyni zamanda, biz bu gözəl, möhtəşəm Beynəlxalq Muğam Mərkəzinin açılışını keçirmişik. Bu gün tam əminliklə deyə bilərik ki, Muğam Mərkəzi bütün dünya muğamsevərləri üçün əsl muğam evinə çevrilib və bu gündən etibarən burada çox gözəl ölməz musiqi – muğam səslənəcəkdir.

Builki festival çərçivəsində müxtəlif tədbirlər keçiriləcəkdir. Artıq elmi simpozium öz işinə başlayıb. Bu günlər ərzində siz yeni ifalarda klassik Azərbaycan muğamlarını dinləyəcəksiniz, muğam opera tamaşalarına baxacaqsınız, muğam əsasında yaradılmış simfonik əsərlərə qulaq asacaq, etnocaz kimi nadir bir fonemenlə tanış olacaqsınız. Bir sözlə, muğamsevərlər, muğama vurğun olan hər bir insan bu günlər ərzində qədim mədəniyyətin, təkrarsız musiqinin, dərin fəlsəfənin şahidi olacaqdır. Festivalımızda Azərbaycan xanəndələri ilə yanaşı, xarici müğənnilər də iştirak edirlər. Mən bir daha onlara "Azərbaycana xoş gəlmisiniz" deyirəm. Onlar həm öz ölkələrində, həm də dünyada çox məşhurdurlar. İnanıram ki, bizim festival onların ümidlərini doğruldacaq və unudulmaz bir hadisəyə çevriləcəkdir.

Bilirsiniz ki, Heydər Əliyev Fondu il ərzində bir neçə musiqi festivalları təşkil edir və keçirir. Bu, Üzeyir Hacıbəyli, Qara Qarayev adına festivaldır. Bu, qədim Qəbələ şəhərində keçirilən Beynəlxalq musiqi festivalıdır. Bu, görkəmli həmyerlimiz Mstislav Rostropoviçin adını daşıyan musiqi festivalıdır. Hər bir belə hadisə, hər bir belə musiqi festivalı böyük bir bayrama çevrilir. Dünyanın məşhur musiqiçiləri, sənətkarları ölkəmizə gəlirlər. Mən ümidvaram ki, "Muğam aləmi" festivalı bu sırada layiqli yerini tutub və geniş auditoriyasını formalaşdırıb.

Builki festivalın başqa bir özəlliyi də vardır. Bu festival Azərbaycanın müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü ərəfəsində keçirilir. Biz fərəh hissi ilə qeyd edə bilərik ki, bu 20 il ərzində muğam sənətinin inkişafında, təbliğində çox davamlı dinamika müşahidə edilib.

Son illər ölkəmizdə mədəniyyət sahəsində dövlət tərəfindən irimiqyaslı layihələr həyata keçirilir. Dövlət Proqramına əsasən Azərbaycanın teatrları, muzeyləri, konsert salonları bərpa olunur, yeni mədəniyyət ocaqları, regionlarda yeni musiqi məktəbləri tikilir, muğam və mədəniyyət mərkəzləri açılır.

Bizim ən böyük sərvətimiz bizim mədəni irsimizdir, bizim ədəbiyyatımız, poeziyamız, musiqimiz, təkrarsız, nadir xalçaçılıq məktəbimiz, təsviri sənətimiz, memarlıq abidələrimizdir. Bu mədəni irs bizi millət kimi qoruyub saxlayır. Bu gün bu mədəniyyəti qorumaq, saxlamaq, təbliğ etmək hər birimizin mənəvi borcudur.

Bu gün mən üzümü məşhur ustadlarımıza tutub onlara dərin hörmət və ehtiramımı çatdırıram. Siz muğam sənətimizin korifeylərisiniz. Eyni zamanda, siz gənc istedadların





müəllim və məsləhətçilərisiniz, onların bilik mənbəyisiniz. Mən sizə uzun ömür və cansağlığı arzulayıram.

Bu festivalın hazırlanmasında əməyi olan hər bir insana öz təşəkkürümü bildirirəm. Ümidvaram ki, festival uğurla keçəcəkdir.

Mən bir daha hamınızı qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün festival iştirakçılarına uğurlar, muğamsevərlərə xoş anlar arzulayıram.

İndi isə "Muğam aləmi" festivalını açıq elan edirəm.

***"Azərbaycan" qəzeti,***
***15 mart 2011-ci il***



## ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU ÇƏRÇİVƏSİNDƏ "QADINLAR – MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN ƏSAS TƏMSİLÇİLƏRİ" MÖVZUSUNDA SESSİYA KEÇİRİLMİŞDİR

2011-ci ilin aprelin 8-də Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işini davam etdirmişdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Forumun "Qadınlar – mədəniyyətlərarası dialoqun əsas təmsilçiləri" mövzusunda üçüncü sessiyasında iştirak etmişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həmsədr olduğu sessiyada qadınların mədəniyyətlərarası dialoqun əsas təmsilçiləri kimi cəmiyyət haqqında oynadığı rolun təşviq edilməsi məqsədi ilə nəzəri və praktiki çərçivənin müəyyən edilməsi məsələləri müzakirə olunmuşdur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva sessiyada çıxış edərək demişdir:

– Xanımlar və cənablar! Hörmətli qonaqlar!





İlk növbədə, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bütün iştirakçılarını salamlayıram. Forumda iştirak etmək üçün ölkəmizə gələn bütün qonaqlara "Azərbaycana xoş gəlmisiniz!" deyirəm. Ümidvaram ki, bu Forum həqiqətən də real dialoqun inkişafına öz layiqli töhfəsini verəcək və Forumun yekunları əsasında konkret işlər, konkret tədbirlər həyata keçiriləcəkdir.

Son illər Bakı əsl dialoq məkanına çevrilmişdir. Yaxın keçmişə nəzər salaraq bir sıra beynəlxalq tədbirləri sadalaya bilərik. Keçən il ölkəmizdə dünya dini liderlərinin Bakı sammiti keçirilmişdir. 2009-cu il Bakı İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdu. Həmin il İslam Konfransı Təşkilatına üzv olan ölkələrin və həm də Avropa dövlətlərinin mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir. 2008-ci ildə bu salonda bütün qitələri əhatə edən beynəlxalq qadın konfransı keçirilmiş və mədəniyyətlərarası dialoqda qadınların roluna dair Bakı Bəyannaməsi qəbul edilmişdir.

Əslində, belə tədbirlərin keçirilməsi üçün Azərbaycanda həm güclü zəmin, həm də əlverişli mühit mövcuddur. Qədim dövrdən bugünə qədər Azərbaycan bütün dünyaya açıq olan bir diyar kimi tanınır və ölkəmizdə hökm sürən yüksək tolerantlıq mühitini insanlarımızla ilk təmasdan hiss etmək mümkündür. Bakıda yanbayan yerləşən müsəlman məscidi, katolik kastyolu, pravoslav kilsəsi, yəhudi sinaqoqu bu mühitin həm sübutu, həm də nəticəsidir.

Bu gün mən bu Forumun təşkilində əməyi olan hər bir insana öz dərin minnətdarlığımı bildirirəm. Forumu dəstəkləyən bütün beynəlxalq təşkilatlara təşəkkürümü bildirirəm və ümidvaram ki, Forum xalqlar, millətlər, dövlətlər arasında formalaşan sağlam münasibətlərə xidmət edən növbəti bir addım olacaqdır.

Əziz dostlar, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq indi dünyada ən aktual və ən populyar mövzulardan biridir. Bu gün dünyanın müxtəlif ölkələrində bu probleme həsr olunmuş "dəyirmi masa"lar, konfranslar, forumlar keçirilir. Şübhəsiz ki, hər bir belə görüş alqışlanmalı və dəstəklənməlidir. Ən azı ona görə ki, hər bir belə görüş özlüyündə bir növ dialoqdur.

Ancaq bu mövzu tez-tez gündəmə gətirilsə də, əfsuslar ki, mövcud vəziyyətə onun təsiri olduqca azdır. Bu fikri təsdiqləmək üçün heç bir araşdırma aparmaq lazım deyil. Sadəcə, istənilən televiziya kanalına, yaxud internetə müraciət etmək kifayətdir və hər bir informasiya agentliyinin xəbərləri bu fikri təsdiqləyəcəkdir.

Düşmənçilik, dözümsüzlük, etnik təmizləmələr, soyqırımı, müharibələr bugünkü dünyanın reallığıdır. Bu gün dünyada qarşıdurmaların və münaqişələrin sayı azalmır, əfsuslar olsun ki, artır. Əlbəttə, belə olan halda dialoq mövzusuna qatılan insanların – siyasətçilərin, dini və ictimai xadimlərin, alimlərin, sadə insanların, vətəndaşların sayı ildən-ilə artır. Bu da öz növbəsində gündəmə müxtəlif fərziyyələr, təkliflər, ssenarilər gətirir. Misal üçün bir qrup alim əmindir ki, sivilizasiyalararası mövcud olan ziddiyyətlər mütləq qarşıdurma və münaqişə ilə bitəcək, dialoq imkanları artıq tükənməkdədir və belə bir multikulturoloji cəmiyyətin perspektivləri yoxdur.

Digər fikir ondan ibarətdir ki, qarşıdurmaların qabağını almaq üçün dünyanın bütün ölkələri Qərb modelini özünə örnək götürməlidir. Şübhəsiz ki, Qərbin demokratiya və azadlıq ideyaları, inkişafı və yüksək yaşam səviyyəsi təqdirəlayiqdir və bu, bu gün dünyada mövcud olan mütərəqqi bir modeldir. Lakin biz hamımız yaxşı anlayırıq ki, bütün bəşəriyyətin belə yaşaması mümkün deyildir. Buna, ilk növbədə, bu gün dünyada mövcud olan resurslar imkan verməz və hətta biz geosiyasi, tarixi, mədəni amilləri də unutmamalıyıq.

Üçüncü bir nəzər ondan ibarətdir ki, bu gün Qərbin bütün uğurları, o cümlədən elm, texnologiya, inkişaf sahəsindəki uğurları uzunmüddətli, tarix boyu müstəmləkəçilik siyasətinin nəticəsidir. Əlbəttə, belə yanaşma ilə də razılaşmaq mümkün deyil, belə fikirlər bizi gələcəyə yox, yalnız keçmişə aparır.

Fikrimizcə, bütün bu yanaşmalar dialoqun qurulmasına xidmət etmir, əksinə, yeni münaqişələrə, qarşıdurmalara zəmin yaradır. Bu gün heç kim üçün sirr deyil ki, hər bir belə konsepsiyanın arxasında müəyyən siyasət, müəyyən siyasi qüvvələr və siyasi ambisiyalar durur. Fikrimcə, bu meyil müasir dünyada bir çox ciddi çağırışlar və təhlükələr yaradır.

Biz elə bir dövrdə yaşayırıq ki, hətta insanların ən müqəddəs, ən ülvi hissləri ilə oynamaq istəyənlər də tapılır. Bizim hər birimiz müxtəlif dinə mənsubuq və bu dinlərin dəyər sistemləri olduqca yaxındır. Biz müxtəlif dinlərdə bir Tanrıya dua edirik və dualarımızın mahiyyəti də eynidir. Lakin biz bu gün insanlıqdan kənar və ağlasığmaz bir faktla üzləşirik. Özünü din xadimi adlandıran biri müqəddəs kitabı – "Qurani-Kərim"i oda atıb yandırır. Nədir belə hərəkətin adı? Nədir onun məqsədi? Hansı siyasi qüvvələrin sifarişidir bu? Belə insanlar nəyə və kimə xidmət edirlər? Ancaq biz belə bir dəhşətli halın, hadisənin dünya ictimaiyyəti tərəfindən qəti şəkildə pislənməsi ilə də rastlaşmadıq. Nəticədə cəzasız qəddarlıq bir az da, daha da dəhşətli qəddarlıqla nəticələndi və biz bunun da şahidi olduq.

Hesab edirəm ki, zəmanəmizin ən böyük təhlükələrindən biri dinin siyasiləşdirilməsidir. Müxtəlif ekstremist qüvvələr və şüarlar din şüarları altında gündəmə gətirilməməlidir. Tamamilə aydındır ki, belə hərəkətlər, belə hallar dialoqa, normal münasibətlərə zidd olan hərəkətlərdir və yalnız yeni qarşıdurmalar üçün zəmin yaradır.

Əziz qonaqlar, bugünkü mövzuda suallar cavablardan çoxdur. Ancaq bir şey tamamilə aydındır ki, artıq mədəniyyətlərarası dialoq sırf kulturoloji problem çərçivəsindən çıxıb, böyük siyasətin probleminə çevrilibdir. Bu gün qloballaşan dünya artıq reallıqdır. Kimsə bunu alqışlayır, kimsə bunu böyük bəla hesab edir. Lakin hər birimiz bu dəyişiklikləri öz həyatımızda hiss edirik. Xüsusilə də məkan və zaman anlayışında, gec-tez, yaxın-uzaq anlayışlarımızda biz bunu hiss edirik.

Fikrimizcə, bu gün hər birimiz çox yaxşı dərk etməliyik ki, biz öz ölkəmizin vətəndaşı olmaqla yanaşı, bəşəriyyət adlı bir ailənin üzvüyük. Qloballaşma prosesi hər birimizi böyük və ümumi bir məkanın sakinlərinə çeviribdir. Bu məkanda insanlararası, dövlətlərarası, xalqlararası dialoq məhz etik, normal, haqq-ədalət prinsipləri əsasında qurulmalıdır.





İndi dünyada həm siyasətdə, həm iqtisadiyyatda hökm sürən qanunlar, əfsuslar olsun ki, ədalətdən və etik normalardan çox uzaqdır. Əgər bu gün biz qlobal etika fərziyyəsi təklif ediriksə, bu, bəlkə də bu gün bir növ utopiya kimi səslənir. Lakin gəlin xatırlayaq ki, bəşəriyyətin bugünkü bir çox nailiyyətləri əsasını vaxtilə məhz utopiya kimi qiymətləndirilən hərəkətlərdən və fikirlərdən götürür. Vaxtilə qadın hərəkatı, genderlik, bərabərlik hərəkatını başlayanda, çoxları bunu perspektivsiz utopiya kimi qiymətləndirirdi. Lakin bu gün bu sahədə əldə edilən nailiyyətlər belə yanaşmanın yanlış olduğunu sübut edir.

Əziz dostlar, biz bu gün qlobal etikadan danışırıqsa, bu, yenə də elmi bir fərziyyə ola bilər və yenə də burada suallar cavablardan çoxdur. Lakin mən əminəm ki, əgər biz sabahı düşünürüksə, gələcək nəsillər qarşısında öz məsuliyyətimizi dərk ediriksə, biz xalqlararası, millətlərarası münasibətləri məhz etika və ədalət platformasında qurmağa çalışmalıyıq. Bu, uzunmüddətli və ağır prosesdir. Lakin hər bir uzun yol ilk addımdan başlayır. Fikrimcə, hər birimiz öz əməllərimizlə kiçik də olsa, bu addımı atmalıyıq. Bunun üçün yalnız həmrəylik və xoş niyyət lazımdır. Mən əminəm ki, məhz bu halda humanizm və ədalət əsasında konstruktiv dialoqun qurulması mümkündür.

Diqqətinizə görə çox sağ olun.

*"Azərbaycan" qəzeti,*
***9 aprel 2011-ci il***




## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 88-ci İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 7 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

2011-ci ilin mayın 10-da "Buta" sarayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 7 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, ailə üzvləri və Latviyanın birinci xanımı Lilita Zatlere xatirə şəkli çəkdirdilər.

Dövlət və hökumət nümayəndələrinin, xarici ölkələrdən dəvət olunmuş nüfuzlu qonaqların iştirak etdikləri tədbir ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolunun müxtəlif anlarını əks etdirən fotoxronikanın nümayişi ilə başladı.

Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çıxış edərək dedi:





– Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hər il mayın 10-da olduğu kimi, bu il də Heydər Əliyev Fondu tərəfindən hazırlanmış ənənəvi mərasimdə Sizi səmimi qəlbdən salamlayıram. Mərasimdə iştirak etmək üçün ölkəmizə gələn bütün qonaqlara Azərbaycana "Xoş gəlmisiniz" deyirəm və bu axşam bizimlə olduğunuza görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Bu il Azərbaycan dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd edir. Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan dünya xəritəsində müstəqil ölkə kimi yalnız 20 ildir ki, mövcuddur. 20 il tarixi baxımdan uzun bir dövr deyildir. Lakin bu 20 il ərzində ölkəmiz böyük uğurlar əldə edib. Bu gün Azərbaycan müxtəlif sahələrdə rekord inkişaf tempini nümayiş etdirən, regionda lider olan, dünyanın aparıcı dövlətləri ilə partnyor əlaqələri quran, beynəlxalq arenada nüfuza malik olan bir dövlətdir. Bu gün Azərbaycan güclü, qarşısına istənilən məqsədləri qoyub həll etməyə qadir olan və gələcəyə ümidlə baxan dövlətdir.

Yaxın keçmişimizə nəzər salsaq, qeyd etməliyik ki, bu günümüzə gətirən yol heç də asan və hamar olmayıb. Bu yolda problemlərimiz, çətinliklərimiz, ağrılarımız kifayət qədər olub. Arxada qalan illərin hər birinə müraciət edərək biz müasir tariximizin hər bir səhifəsində dahi şəxsiyyət, böyük insan Heydər Əliyevin silinməz izini görürük. Onun bizimlə olub-olmamasından asılı olmayaraq, bu 20 il ərzində reallaşan hər bir layihədə, əldə edilən hər bir uğurumuzda ulu öndərin böyük payı vardır.

Müstəqilliyimizin ilk illərini xatırlayaq. Ölkəmizdə hökm sürən ağır böhranın müxtəlif səbəbləri var idi və mən bu axşam onları sadalamaq istəməzdim. Qısa söyləsəm, sanki biz işıqdan məhrum olmuşduq. Şəhərlərimizin işıqları söndüyü kimi, daxilimizdə ümid çıraqlarımız sönmüşdü. İşığı, nuru, ümidi bizə Heydər Əliyev qaytardı. O, ölkəni böyük bəlalardan xilas etdi və Azərbaycan xalqına güvənərək yeni, müasir tariximizin ilk səhifələrini yazmağa başladı. Uzaq 1993-cü ildə heç də hamı inanmırdı ki, gün gələcək və Heydər Əliyevin bütün arzuları, planları, ideyaları reallaşacaqdır. Bütün çətinliklərə baxmayaraq, o, Azərbaycanın neft strategiyasını uğurla reallaşdırdı və onunla da gələcək qələbələrimizin, nailiyyətlərimizin təməlini qoydu.

Bu gün böyük insan – Heydər Əliyevin ömür yolu hər birimiz üçün xalqa, Vətənə xidmət etməyin rəmzinə çevrilib. Bu gün onun ən sevimli kəlmələrindən birini – "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlməsini təkrar edərək biz onun unudulmaz xatirəsi qarşısında baş əyirik.

Əziz dostlar, bu gün eyni zamanda Heydər Əliyevin adını daşıyan Fond artıq 7 ildir ki, fəaliyyət göstərir. Ötən il Fond yenə də bir sıra irimiqyaslı layihələr, mühüm işlər həyata keçirib. Həmişə olduğu kimi, çalışmışıq müxtəlif sahələri – elmi, təhsili, səhiyyəni, mədəniyyəti, sosial problemləri əhatə edək.

Bu axşam Fondun fəaliyyəti haqqında ətraflı məlumat səslənəcək, film nümayiş olunacaqdır.

Mən yalnız onu demək istərdim ki, bu 7 il ərzində ən böyük nailiyyətimiz, ən böyük uğurumuz Azərbaycan xalqının inamını və hörmətini qazanmağımız olub. Mən bu kürsüdən istifadə edərək bir daha hamını əmin etmək istərdim ki, Heydər Əliyev Fondu Azərbaycanın bu günü və sabahı naminə gələcəkdə də çalışmağa hazırdır. Bu yolda bizə dəstək verən, yardım edən hər bir insana, hər bir quruma – istər dövlət, istər qeyri-dövlət qurumuna, bizimlə əlaqə, əməkdaşlıq yaradan Beynəlxalq təşkilatlara dərin minnətdarlığımı çatdırıram.

Əziz dostlar, mən ümidvaram ki, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış bu gözəl axşam heç birinizi biganə qoymayacaqdır. Bu axşamın təşkilində əməyi olan hər bir insana, xüsusilə də Heydər Əliyev Fondunun komandasına dərin minnətdarlığımı çatdırıram. Mən Sizə uğurlar, xoşbəxtlik, məhəbbət arzulayıram. Qoy Tanrı Azərbaycanı qorusun! Çox sağ olun!

*"Azərbaycan" qəzeti,*
*12 may 2011-ci il*







## MOSKVADA AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ YENİDƏN BƏRPA ETMƏSİNİN 20-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

Mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edərək demişdir:

– Hörmətli Svetlana Vladimirovna! Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, icazə verin sizi Azərbaycan gecəsində salamlayım və bu gün bizimlə olduğunuz üçün sizə minnətdarlığımı bildirim. Mən bu gecədə iştirak etdiyi üçün Rusiya Federasiyasının birinci xanımı Svetlana Medvedevaya xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu yüksək kürsüdən istifadə edərək, "Eurovision" musiqi müsabiqəsində Azərbaycan duetinin xeyrinə səs verən hər kəsə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bu günlər Azərbaycanda biz hamımız sözlə ifadə edilməsi mümkün olmayan hisslər yaşayırıq. Bu qələbəyə görə, gənclərimizə görə, ölkəmizə görə qürur hissi keçiririk. Əminəm ki, bir neçə il əvvəl Rusiya da həmin müsabiqədə parlaq qələbə qazananda bütün Rusiya xalqı eyni hissləri yaşamışdır. İlk 12 xala görə Rusiyaya "Çox sağ ol" deyirik.

Əziz dostlar, Azərbaycan dövlətçiliyi tarixinin çox qədim kökləri vardır.

Xəzərin qərb sahilində ilk dövlətlər hələ eramızdan əvvəl II və I minilliklərin qovuşuğunda yaranmışdır. Azərbaycan özünün bütün tarixi boyu Qərb və Şərq, Şimal və Cənub arasında əlaqələndirici vasilə rolunu oynamışdır.

Müasir Azərbaycanın ərazisində yerləşən dövlətlərdə qədim zamanlardan bəri müxtəlif dillərdə danışan, müxtəlif dinlərə etiqad edən insanlar sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Mədəniyyətlərin və sivilizasiyaların tarixi vəhdəti Azərbaycanda möhkəm tolerantlıq, dözümlülük və mehribanlıq ənənələrinin formalaşmasına gətirib çıxarmışdır. 1918-ci il mayın 28-də müsəlman Şərqində Azərbaycanda elan olunmuş ilk demokratik parlament respublikası tarixdə öz izini qoymuşdur. Həmin dövr və həmin hadisələr, habelə hələ XIX əsrin sonunda başlamış birinci neft bumu Azərbaycan cəmiyyətində o dövr üçün çox mütərəqqi olan keyfiyyətli dəyişikliklərin baş verməsinə gətirib çıxarmışdır.

Məsələn, Azərbaycan qadınları seçki hüququ qazandılar, Azərbaycanda qızlar üçün ilk dünyəvi məktəb açıldı, siyasi partiyalar yarandı, azad seçkilərə söykənən ilk çoxpartiyalı və çoxmillətli parlament formalaşdı. Yenə də müsəlman Şərqində ilk opera və balet teatrı yaradıldı.

Ümumi tariximizi əhatə edən illərdə Azərbaycanda savadsızlıq tamamilə ləğv edildi, təhsil və mədəniyyət müəssisələri şəbəkəsi yaradıldı, ali məktəb tamamilə formalaşdı, Milli Elmlər Akademiyası fəaliyyətə başladı. Biz sovet hakimiyyəti illərində ölkəmizin həm iqtisadiyyat, həm də təhsil və mədəniyyət sahələrində əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edirik. Neft sənayesindəki uğurlar xüsusilə nəzərəçarpan olmuşdur. Keçmiş ittifaqda "İkinci Bakı", "Üçüncü Bakı" terminlərinin mövcudluğu ölkəmizdə nüfuzlu məktəbin yaradıldığını təsdiq edir.

Bütün bunlardan əlavə, təhsil sistemi sahəsində geniş şəbəkə yaradıldı. Ali təhsil müəssisələri meydana gəlməyə başladı.

İkinci dünya müharibəsi illərində bütün zəruri yanacağın 90 faizini təmin edən Azərbaycan faşizm üzərində qələbəyə öz misilsiz töhfəsini verdi.

O illərdə ölkəmizdə rusdilli mədəni təhsil məkanı formalaşdı. Biz rus mədəniyyəti ilə ünsiyyət fenomenini yüksək qiymətləndiririk. Bu gün ölkəmizdə həm orta, həm də ali məktəblərdə əvvəlkitək rus dilində təhsil verilir. Ölkədə Rus Dram Teatrı, Rus Mədəniyyəti Mərkəzi, Slavyan Universiteti, Lomonosov adına Moskva Dövlət Universitetinin filialı fəaliyyət göstərir. Ötən ilin yanvarında Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan – Rusiya Forumu təşkil edilmişdir. Bu ilin oktyabrında Rusiya ilə birlikdə artıq Bakı Beynəlxalq Humanitar Forumu keçirmək planlaşdırılır. Əminəm ki, bu hadisə mehriban qonşuluq və dostluq münasibətlərimizin daha bir təsdiqi olacaqdır.

Mədəni müxtəliflik, dünyanın müxtəlif mədəniyyətlərinə hörmətlə yanaşmaq Azərbaycan xalqı üçün ənənəvi haldır. Bu gün biz böyük rus mədəniyyətini öyrənməklə və qorumaqla mənən daha da zənginləşirik.





Əziz dostlar!

Qədim mədəniyyətə və tarixə malik olan Azərbaycan müstəqil dövlət kimi dünya xəritəsində yalnız 20 ildir ki, mövcuddur. İnsan ömrü üçün 20 il kifayət qədər uzun müddətdir, lakin tarix üçün bir andır. Bu qısa müddət ərzində biz nəzərə çarpacaq nəticələr əldə etmişdik. Azərbaycan iqtisadiyyatının inkişaf sürəti rəsmən rekord sayılmışdır. Cənubi Qafqaz dövlətlərinin ümumi iqtisadiyyatının 75 faizi Azərbaycanın payına düşür. Ölkədə neft, qaz, nəqliyyat, loqistika sahələrində irimiqyaslı layihələr uğurla həyata keçirilir. Bu gün Azərbaycanda aparılan siyasət son dərəcə qabarıq sosial xarakter daşıyır.

2003-cü ildən etibarən Azərbaycanda iki mindən çox yeni məktəb binası inşa edilmiş, 900 min yeni iş yeri yaradılmış, yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə enmişdir. Yeni tibb mərkəzləri və xəstəxanalar tikilir, teatr, muzey və parklar bərpa olunur, idman və olimpiya kompleksləri yaradılır. Turizm sektoru uğurla inkişaf edir. Təkcə onu demək kifayətdir ki, bu il paytaxt Bakıda beşulduzlu altı hotelin açılışı gözlənilir.

Əlbəttə, nailiyyətlərimizlə yanaşı problemlər də vardır. Azərbaycanın ən böyük problemi indiyədək öz həllini tapmamış Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Hərbi təcavüz nəticəsində ərazimizin 20 faizi işğal altındadır, ölkədə bir milyon qaçqın və məcburi köçkün vardır.

Biz Azərbaycanda çox ümid edirik ki, münaqişə beynəlxalq hüquq normaları çərçivəsində tezliklə öz həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq, bütün qaçqınlar və məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar.

Vaxt var idi ki, Azərbaycanı yalnız birinci neft fontanının vurduğu ölkə kimi tanıyırdılar. Bu gün isə vizit kartımız zəngin mədəni irsimizdir. Bu, həm nadir qədim xalçaçılıq məktəbi, həm də miniatür sənətidir. Bu, zəngin poeziya və ədəbiyyat, Azərbaycan musiqisi və rəqsləri, Azərbaycan muğamı, təsviri sənət, tarix və memarlıq abidələri və bir çox başqa sənət inciləridir. Bu gün burada, Rusiya Federasiyasının paytaxtı Moskvada biz həmin ab-havanın kiçik parçasını yaratmağa çalışırıq. Ümidvarıq ki, bugünkü gecədən zövq alacaqsınız və sizdə qədim Odlar Yurduna, Azərbaycana gəlmək istəyi yaranacaqdır. Biz azərbaycanlılar sizi görməyə həmişə şadıq. Odur ki, bəri başdan "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Sonda Rusiya Federasiyasına, bütün Rusiya xalqına sülh və firavanlıq arzulayıram. Sizin hamınıza, yaxınlarınıza və doğmalarınıza cansağlığı, xoşbəxtlik və bol sevgi arzulamaq istəyirəm. Qoy Tanrı Rusiyanı və Azərbaycanı hifz etsin. Sağ olun!

*"Azərbaycan" qəzeti,*
*21 may 2011-ci il*




# BRÜSSELDƏ AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN KRANS MONTANA FORUMUNUN RƏSMİ NAHARI OLMUŞDUR

2011-ci ilin iyunun 23-də axşam Brüsseldə Azərbaycan Respublikası adından Krans Montana Forumunun rəsmi naharı olmuşdur.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Mehriban xanım Əliyevanı Krans Montana Forumunun prezidenti Jan Pol Karteron qarşıladı.

Rəsmi naharı açan Jan Pol Karteron Azərbaycanın birinci xanımını mərasimdə görməkdən məmnun olduğunu dedi. "Artıq iki gündür ki, Brüsseldə Azərbaycanı kəşf edirik", - deyən Krans Montana Forumunun prezidenti ölkəmiz ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirdi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Xanımlar və cənablar! Hörmətli qonaqlar!

Əziz dostlar!

Əvvəlcə mən bu axşam bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirmək istərdim.





Bu iki gün ərzində Azərbaycan Krans Montana Forumunda təmsil olundu. Mən Forumun prezidenti cənab Karterona bu tədbiri təşkil etdiyinə görə xüsusi təşəkkürümü bildirmək istərdim.

Bu il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünü qeyd edir. Qısa zaman kəsiyində Azərbaycan müasir və sürətlə inkişaf edən ölkəyə çevrilmişdir. Azərbaycan Cənubi Qafqaz regionunun aparıcı ölkəsidir və sürətli inkişaf bütün sahələrdə – siyasi, iqtisadi, sosial və mədəni sahələrdə hiss olunur. Bu gün səhər Prezident İlham Əliyev öz çıxışında son illərdə Azərbaycanın əldə etdiyi nailiyyətlər haqqında danışdı. Ölkəmizdə siyasi və iqtisadi islahatlar demokratiya və dünyəvilik ənənələrinə əsaslanır. Bu, əslində 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının elan edildiyi vaxtdan etibarən olan ənənədir. Həmin dövrdə Azərbaycan dünyanın bu hissəsində bir çox sahələrdə birinci olmuşdur. İlk dünyəvi qadın məktəbi Azərbaycanda yaradılmış, qadınlara səsvermə hüququ verilmiş, ilk opera və balet səhnəyə qoyulmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşadı və uzun illər ərzində Azərbaycan xalqı müstəqilliyini arzulayırdı. Müxtəlif dövrlərdə imperiyaların bir hissəsi olmağımıza baxmayaraq, biz dilimizi, mədəniyyətimizi, adət-ənənəmizi, özünəməxsusluğumuzu qoruyub saxladıq və 1991-ci ildə müstəqilliyimizi bərpa etdik.

Müstəqil ölkə kimi Azərbaycan bazar iqtisadiyyatı, modernləşmə siyasətini həyata keçirir, qanunun aliliyini təmin edir. Bir neçə ildir ki, Azərbaycan dünyanın ən sürətli iqtisadi inkişaf tempinə malik ölkədir. Bu, bizə ölkəmizi inkişaf etdirməyə, səhiyyə, təhsil və mədəniyyət sahələrinə xüsusi diqqət yetirməklə çox vacib sosial proqramları həyata keçirməyə imkan yaradır. Bütün bunlar həm də Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet sahələridir.

Azərbaycanın Avropa ilə çox güclü münasibətləri vardır. Avropa İttifaqına üzv dövlətlər ilə Azərbaycan arasında ikitərəfli münasibətlər qarşılıqlı fayda və hörmətə əsaslanır. Artıq on ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bizim münasibətlərimiz uğurla inkişaf edir və yeni mərhələyə qədəm qoyur.

Ümidvaram ki, "Şərq tərəfdaşlığı" proqramı Azərbaycan ilə Avropa İttifaqı arasında daha sıx əməkdaşlığa gətirib çıxaracaqdır. Ümid edirəm ki, ölkəmizin dostları kimi sizin hamınız bu əməkdaşlığı dəstəkləyəcəksiniz.

Sonda fürsətdən istifadə edərək sizin hamınızı ölkəmizə dəvət edirəm. Bir daha bu axşam bizimlə olduğunuza görə təşəkkürümü bildirirəm, sizə və ailələrinizə uğurlar arzulayıram.

Rəsmi nahardan sonra mərasimdə iştirak edən qonaqlar Azərbaycanın birinci xanımı ilə söhbətlərində Krans Montana Forumunda ölkəmizə kifayət qədər marağın olduğunu söylədilər. Onlar Azərbaycanın bu Forumda iştirakından məmnunluqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

***"Azərbaycan" qəzeti,***
***25 iyun 2011-ci il***




## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA KRANS MONTANA FORUMUNUN "QIZIL MEDAL"I TƏQDİM OLUNMUŞDUR

2011-ci ilin iyunun 24-də Brüsseldə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya Krans Montana Forumunun "Qızıl medal"ı təqdim olunmuşdur.

Bu münasibətlə təşkil olunan mərasimə gələn Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı Krans Montana Forumunun prezidenti Jan Pol Karteron qarşıladı. Mehriban xanım Əliyeva mərasimə dəvət olunan qonaqlarla görüşdü.

Əvvəlcə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından nahar verildi.

Krans Montana Forumunun "Qızıl medal"ı dünyada öz fəaliyyəti ilə böyük nüfuz qazanmış, xüsusi xidmətləri olan insanlara verilir. Mehriban xanım Əliyevanın Krans Montana Forumunun "Qızıl medalı"na layiq görülməsi onun mədəniyyət, elm, təhsil, səhiyyə, sosial və digər sahələrdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinin beynəlxalq miqyasda diqqət mərkəzinə çevrilməsini bir daha təsdiq edir.

Mərasimi Krans Montana Forumunun prezidenti Jan Pol Karteron açdı. "Biz bu mükafatı Mehriban xanım Əliyevaya daha yaxşı dünya qurmaq üçün göstərdiyi dəyərli fəaliyyətinə görə





veririk", – deyən Jan Pol Karteron "Qızıl medal"ı qəbul etdiyinə görə Azərbaycanın birinci xanımına minnətdarlığını bildirdi.

İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri də mərasimdə iştirak etməkdən şərəf hissi duyduğunu bildirdi. O, təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə həyata keçirdiyi layihələrlə tanınan Heydər Əliyev Fondunun Azərbaycanda gənc nəslin yetişməsində yaxından iştirak etdiyini dedi. Bildirdi ki, Mehriban xanım Əliyeva Milli Məclisin deputatı kimi fəal siyasətlə məşğul olur və Bakıda İSESKO-nun tədbirlərinin keçirilməsinə yüksək diqqət və qayğı ilə yanaşır. Bu baxımdan Mehriban xanım Əliyevanın fəaliyyətinə beynəlxalq aləmdə böyük diqqət vardır. Mehriban xanım Əliyevanın Mədəniyyətlərarası və Sivilizasiyalararası Dialoqun əldə olunmasına da töhfə verdiyini vurğulayan İSESKO-nun Baş direktoru Krans Montana Forumunun "Qızıl medal"ına layiq görülməsi münasibətilə bir daha xoşməramlı səfiri təbrik etdi.

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Krans Montana Forumunun "Qızıl medal"ını Mehriban xanım Əliyevaya təqdim etdi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar!

Hörmətli cənab Jan Pol Karteron!

Hörmətli cənab Əbdüləziz bin Osman əl-Tüveycri!

Krans Montana Forumunun Qızıl medalı kimi yüksək mükafatla məni təltif etdiyinizə görə sizə səmimi minnətdarlığımı bildirirəm. Ölkəmiz haqqında söylədiyiniz xoş sözlərə və Heydər Əliyev Fondunun fəaliyyətinə verdiyiniz bu qiymətə görə təşəkkürümü bildirirəm.

Dünyamızı daha humanist etmək kimi ali məqsəd ətrafında toplaşan şəxslərin arasında bu salonda olmaqdan böyük şərəf hissi duyuram. Bu il Azərbaycanın da təmsil olunduğu Krans Montana Forumunda iştirak etməkdən olduqca məmnunam. Bu il biz müstəqilliyimizin bərpa olunmasının 20-ci ildönümünü qeyd edirik.

Müstəqil ölkə kimi Azərbaycan gəncdir, lakin ölkəmizin qədim tarixi vardır. Cənubi Qafqazda Xəzər dənizinin sahilində ilk dövlətlər eramızdan əvvəl II-I minillikdə mövcud idi. Tarixi İpək Yolu ölkəmizin ərazisindən keçmiş və Azərbaycan uzun əsrlər boyu sivilizasiyalar və mədəniyyətlərin qovuşduğu məkanda yerləşmişdir. Müxtəlif dövrlərdə ölkəmiz müxtəlif imperiyaların hissəsi olmuş, lakin xalqımız öz tarixini, dilini, mədəniyyətini və milli özünəməxsusluğunu qoruyub saxlaya bilmişdir.

1918-ci ildə qurulan Azərbaycan Demokratik Respublikası müsəlman aləmində ilk Parlament Respublikası oldu. Həmin vaxt müsəlman qızları üçün ilk dünyəvi məktəb açıldı. Azərbaycan qadınları səs vermək hüququ əldə etdilər, ölkədə ilk opera və balet yaradıldı.

Əfsuslar olsun ki, Respublika ciddi geosiyasi problemlərlə və amillərlə üzləşdi və ilk Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşadı. Yetmiş ildən sonra Azərbaycan öz müstəqilliyini 1991-ci ildə bərpa etdi. İlk illərdə biz bir çox problemlər və çətinliklərlə

üzləşdik. Çünki Azərbaycan öz siyasi sistemini və milli iqtisadiyyatını sıfırdan qurmalı idi. Bundan əlavə, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində vəziyyət daha da ağır idi. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi hələ də işğal altındadır və bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün kimi yaşayır. Bütün həmin çətinliklərə baxmayaraq, bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Uğurlu iqtisadi islahatlar Azərbaycanı regionda güclü və aparıcı ölkəyə çevirmişdir və biz açıq siyasət, Avratlantik məkana inteqrasiya siyasətini yürüdürük. Bu gün Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqının strateji tərəfdaşı hesab edilir və Azərbaycan Avropanın qaz təchizatında öz rolunu oynamağa hazırdır.

Azərbaycanın siyasi və iqtisadi inkişafı nəinki strateji rəqəmlərdə və faiz nisbətində, o cümlədən yoxsulluğun aradan qaldırılması, yeni iş yerlərinin açılması, yolların çəkilməsi, məktəb, xəstəxana, muzey, idman və mədəniyyət mərkəzlərinin tikintisində görünür.

Hörmətli dostlar!

2004-cü ildə yaradıldığı vaxtdan etibarən Heydər Əliyev Fondu bir çox sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Fondun prioritetləri təhsil, səhiyyə və mədəniyyətə dəstək vermək, o cümlədən Azərbaycan və onun xalqının mədəni irsinin qorunması və inkişaf etdirilməsidir.

Heydər Əliyev Fondu təhsil sahəsində çoxlu layihələr həyata keçirmişdir. Bakıda və Azərbaycanın rayonlarında yüzlərlə məktəb tikilmiş və bərpa olunmuşdur. Hazırda Fond uşaq evlərindəki uşaqlara, o cümlədən sosial baxımdan zəif təbəqələrin, əsasən qaçqın və məcburi köçkün ailələrindən olan, xüsusi qayğıya ehtiyacı olan uşaqlara böyük dəstək verir.

"Azərbaycan – tolerantlıq məkanı" layihəsi Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutur. Tolerantlıq ənənələri və mədəni müxtəliflik əsrlər boyu Azərbaycanda mövcud olmuşdur. Bu ənənələr məscid, sinaqoq və pravoslav kilsələrinin bərpasına dəstək verən Fondun fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir.

Yəhudi uşaqları üçün Təhsil mərkəzi Azərbaycanda açılmışdır. Fond Pakistanda zəlzələ nəticəsində dağılan qızlar məktəbini yenidən tikmişdir. Heydər Əliyev Fondu, həmçinin Strasburq kilsəsinin rəngli şüşələrdən ibarət pəncərələrinin, Versalda memarlıq abidələrinin bərpasına töhfə vermişdir.

Mədəniyyətə dəstəyin verilməsi, mədəni irsin qorunması və inkişaf etdirilməsi Fondun fəaliyyətinin digər prioritetləridir. Beynəlxalq Muğam festivalı ənənəvi olaraq Bakıda keçirilir. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilən muğam qədim Azərbaycan musiqisidir. Qəbələdəki Beynəlxalq musiqi festivalı və Bakıdakı Rostropoviç adına Beynəlxalq festival Azərbaycanda mühüm tədbirlərə çevrilmişdir. Bu tədbirlərdə klassik musiqini ifa edən dünyanın aparıcı orkestr və ifaçıları iştirak edir. Heydər Əliyev Fondunun töhfəsi ilə yaradılan Müasir İncəsənət Muzeyində modern Azərbaycan rəssamlarının əsərləri sərgilənir. Bu yaxınlarda Parisdə muzeyin əsərlərindən ibarət sərgi böyük uğur qazanmışdır.

Heydər Əliyev Fondu bir sıra nüfuzlu Beynəlxalq təşkilatlarla, o cümlədən YUNESKO, İSESKO, BMT-nin İnkişaf Proqramı (UNDP) və YUNİSEF ilə sıx işləyir. Biz YUNESKO-





nun aşağıdakı ideallarının qorunmasına çalışırıq: ümumdünya irsinin və mədəni müxtəlifliyin qorunması, savadsızlığa qarşı mübarizənin aparılması və sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun qurulması.

Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda bir sıra mühüm beynəlxalq forumlar keçirilmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, 2009-cu ildə "Gənclər sivilizasiyaların alyansı naminə" adlı Beynəlxalq konfrans keçirilmişdir. Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu bu konfransda iştirak etmişdir. "Mədəniyyətlərarası dialoqda qadınların rolunun gücləndirilməsi" adlı digər Forum da YUNESKO və İSESKO ilə birgə Bakıda keçirilmiş, nəticədə "Bakı bəyannaməsi" qəbul edilmişdir.

2011-ci ilin yazında ölkəmiz "Mədəniyyətlərarası Dialoq" mövzusunda Ümumdünya Forumunu təşkil etməkdən şərəf hissi duydu.

Heydər Əliyev Fondu Azərbaycanın "Evrovision" mahnı müsabiqəsində iştirakının təşəbbüskarı olmuşdur. Biz bu müsabiqədə yalnız dörd dəfə iştirak etmişik, buna baxmayaraq, Azərbaycan hər zaman müsabiqə liderləri arasında olmuşdur.

Böyük fərəh hissi ilə qeyd edirik ki, gənc müğənnilərimiz "Evrovision – 2011"in qalibləri oldular. Mən bizi dəstəkləyən bütün avropalılara təşəkkürümü bildirmək istəyirəm.

Xanımlar və cənablar!

Hörmətli dostlar və həmkarlar!

Heydər Əliyev Fondu müxtəlif sahələrdə bir sıra layihələr həyata keçirir. Fondun məqsədi tarixi irsin qorunması, təhsilə dəstəyin verilməsi, səhiyyənin inkişafı və cəmiyyət daxilində tolerantlıq və dialoq mühitinin gücləndirilməsindən ibarətdir. Bu məqsədlərin ümumi idealı vardır – xeyirxah işlərin görülməsi. Fikrimcə, bu, Krans Montana Forumunun "Daha humanist dünyaya sadiq olaq" devizi ilə üst-üstə düşür. Elm, texnologiya və iqtisadiyyat sahəsində əldə edilən nailiyyətlərlə yanaşı, insanlara ilk öncə xeyirxahlıq və mərhəmət lazımdır.

Sonda mən bu cür mühüm mükafata görə sizə bir daha öz təşəkkürümü bildirirəm. Mükafatı qəbul etməkdən böyük şərəf hissi duyuram. Əminəm ki, biz birgə səylərimiz nəticəsində daha böyük nailiyyətlər əldə edə bilərik.

Gələn il ölkəmizdə, Bakıda növbəti Krans Montana Forumunda sizin hamınızı görməyi arzulayıram.

Diqqətinizə görə minnətdaram.

Mərasim iştirakçıları bir daha Azərbaycanın birinci xanımını bu yüksək mükafata layiq görülməsi münasibətilə təbrik etdilər, ona fəaliyyətində uğurlar arzuladılar.

Sonda xatirə şəkli çəkdirildi.

***"Azərbaycan" qəzeti,***
***25 iyun 2011-ci il***




## PARİSDƏ XOŞMƏRAMLI SƏFİRLƏRİN 11-ci İLLİK TOPLANTISI KEÇİRİLMİŞDİR

2011-ci ilin sentyabrın 12-də Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin 11-ci illik toplantısı keçirilmişdir. Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva toplantıda iştirak etmişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın toplantıda çıxış edərək demişdir:

– Hörmətli YUNESKO-nun Baş direktoru xanım Bokova! Zati-aliləri!

Xanımlar və cənablar! Hörmətli dostlar!

YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısında sizi səmimiyyətlə salamlayıram. Bu toplantını təşkil etdiyinə görə xanım Bokovaya səmimi minnətdarlığımı bildirirəm. Azərbaycanı burada təmsil etmək, dostlarımız və həmkarlarımız arasında olmaqdan böyük şərəf hissi duyuram.

Xanımlar və cənablar!

Bu ilin yazında biz Azərbaycanın müstəqilliyinin iyirminci ildönümünə həsr olunmuş Azərbaycan Gününü YUNESKO-nun qərargahında təşkil etdik. Ölkəmiz həmin illər ərzində





bir çox problem və çətinliklərlə üzləşdi, lakin biz həmin gərgin şəraitdən layiqincə çıxdıq və öz dövlətçiliyimizi qurduq. Bu gün Azərbaycan həyatın bütün sahələrində, o cümlədən mədəniyyət, elm və təhsildə dinamik inkişaf edən müasir ölkədir. Eyni zamanda, Azərbaycanın iqtisadiyyatı yüksək templə inkişaf edir və ölkəmiz regionun şəksiz iqtisadi lideridir.

YUNESKO ilə Azərbaycan arasında güclü və dəstəkləyici tərəfdaşlıq təşəkkül tapıb. YUNESKO həm Azərbaycan hökuməti, həm ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, eləcə də Heydər Əliyev Fondu ilə əməkdaşlığını inkişaf etdirir. YUNESKO və Heydər Əliyev Fondunun dəstəyi ilə biz yeni muzey və mədəniyyət mərkəzləri tikir, Azərbaycanda yüksək səviyyəli musiqi festivalları təşkil edir və beynəlxalq konfranslar keçiririk.

Xanımlar və cənablar!

Biz təhsilin inkişaf etdirilməsi, bəşəri mədəni irsin qorunması və təhsilə daha geniş çıxışın təmin edilməsi, ən vacibi isə, yoxsul ölkələrdə və ehtiyac duyan ailələrdə uşaqlara təhsilin verilməsi kimi bir çox vəzifələri öz qarşımızda qoymuşuq. Çətinliklər məngənəsində olan insanlara yardım göstərən ilk təşkilatlardan biri də hər zaman məhz YUNESKO olur. Bu gün keçirilən toplantının mövzusu təbii fəlakətlər və münaqişələr sahəsində təşkilatımızın üzərinə götürdüyü öhdəliyə həsr olunub. Azərbaycan bu məsələlərə öz təcrübəsindən bələddir. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmayıb. Ölkə torpaqlarının böyük bir hissəsi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı öz doğma yurdlarına qayıtmaqdan məhrumdur. Qaçqın və məcburi köçkün düşərgələrində anadan olmuş və böyümüş uşaqlardan ibarət yeni nəsil öz yurd-yuvaları barədə məlumatı yalnız ata və babalarından öyrənir. Böyüklərlə yanaşı, bu uşaqların da təhsil və tibbi yardım almaq, inkişaf etmək və parlaq gələcəyə malik olmaq hüququ vardır. Buna görə də biz hərbi münaqişələr və təbii fəlakətləri yaşamış bütün ölkə və xalqların ağrılarını anlayırıq və bölüşürük. Həmin insanlar nəinki qidaya, çadırlara və tibbi ləvazimata ehtiyac duyurlar. Təsirə məruz qalmış yerlərin sakinlərinin normal həyatı bərpa olunmalıdır. Dünyadakı bütün uşaqlar kimi, müharibə və təbii fəlakətlərin acılarını yaşamış gənclərin də xoşbəxt gələcəyə haqqı vardır.

Qarşımızda duran digər mühüm və ağır vəzifə hərbi əməliyyatlar və münaqişələr zonalarında tarixi abidələrin qorunmasından ibarətdir. Bu abidələr qorunmur və bir çox hallarda məhvə məruz qalır. Belə cinayətlər bəşəriyyətin irsinə qarşı yönəlir. Bu irsin qorunması və mühafizəsi təşkilatımızın əsas prioritetlərindəndir.

Xanımlar və cənablar!

Yarandığı gündən YUNESKO gənclərin hüquqlarını müdafiə edib. Onların təhsili və inkişafı üçün yeni imkanların açılması təşkilatın əsas prioritetləri sırasındadır. Bu gün gənclər dünyanın dəyişilməsində əsas iştirakçıdırlar və dialoq ilə dözümlülük mədəniyyətini fəal surətdə təşviq edirlər. Son qlobal hadisələr cəmiyyətin siyasi, iqtisadi və mədəni həyatının fəal iştirakçılarına çevrilmək fürsətinin gənclər üçün təmin edilməsinin nə dərəcədə vacib

olduğunu nümayiş etdirdi.

İndi isə mən Azərbaycanda həyata keçirdiyimiz bir sıra mühüm təşəbbüsləri qeyd etmək istərdim! İcazə verin, Sivilizasiyalar Alyansı Təşəbbüsü çərçivəsində gənclər platformasının qurulmasında Dialoq və Əməkdaşlıq naminə İslam Konfransının Gənclər Forumunun gördüyü böyük işləri sadalamaqla başlayım. 2007-ci ilin noyabrında Forum Heydər Əliyev Fondunun və bir sıra beynəlxalq təşkilatların dəstəyi ilə Bakıda "Sivilizasiyalar Alyansı naminə Gənclər" adlı beynəlxalq konfransı təşkil etdi. Gənc liderlər Sivilizasiyalar Alyansına dəstək olaraq qlobal gənclər hərəkatının yaradılması ilə bağlı təklifimizi tam şəkildə dəstəklədilər. Dörd il gərgin iş apardıqdan sonra Sivilizasiyalar Alyansı naminə Qlobal Gənclər Hərəkatı Heydər Əliyev Fondunun himayəsi ilə Bakıda aprel ayında keçirilmiş birinci toplantıda təsis edildi.

Mədəniyyətlərarası dialoqa gender aspektini daxil etmək və qadın liderləri sülh mədəniyyəti mühitində formalaşdırmaq məqsədilə biz İslam Konfransının Dialoq və Əməkdaşlıq naminə Gənclər Forumu ilə "Mədəniyyətlərarası Dialoqda Qızlar və Gənc Qadınlar" adlı xüsusi proqramı təqdim etdik. Bu iş 2008-ci ilin iyun ayında Bakıda YUNESKO və İSESKO-nun birgə təşkil etdiyi mədəniyyətlərarası dialoqda qadınların rolunun gücləndirilməsinə həsr olunmuş Beynəlxalq Forumda başlandı.

Biz informasiya və kommunikasiya texnologiyaları sahəsində gənclərin yeni və yaradıcı ideyalarını dəstəkləməkdə davam edirik. Bakıda 2009-cu ilin noyabrında keçirilmiş və təxminən 50 ölkədən gələn gənc İKT peşəkarlarını bir araya gətirmiş "Yeni nəslin İKT biliklərinin və bacarıqlarının gücləndirilməsi" adlı beynəlxalq konfrans bu cür töhfənin bir təzahürüdür.

Məmnuniyyətlə bildirirəm ki, cari ilin noyabr ayında Azərbaycanın paytaxtında digər beynəlxalq təşəbbüs – İKT ölkələri üçün Gənc Sahibkarlar Şəbəkəsi həyata keçiriləcəkdir. Biz səmimiyyətlə həmin şəbəkənin qurulmasını gözləyirik. Çünki o, müsəlman ölkələrində gənclər arasında işsizliyin azaldılması, gənclərin radikallaşması və ekstremizm, eləcə də cinayətkarlıq və digər əməllərə qoşulma kimi problemlərin həllində gənclərə müxtəlif yollarla yardımçı olacaqdır.

Hörmətli dostlar!

Bu gün biz çətin vəzifə və problemlərlə üzləşirik. Bu görüş yeni ideyaları bölüşmək, əldə etdiyimiz nailiyyətlər və qarşılaşdığımız çətinliklər haqqında danışmaq üçün yaxşı fürsətdir. YUNESKO öz gərgin əməyi ilə bu məramı daha da genişləndirəcək çox nüfuzlu təşkilatdır.

Sonda mən bu cür məsuliyyətli və zəruri işdə hər birimizə uğurlar arzulamaq istəyirəm. Sizə həmçinin möhkəm cansağlığı və səadət arzulayıram.

***"Azərbaycan" qəzeti,***
***13 sentyabr 2011-ci il***







## BERLİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLMƏSİNİN 20-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

2011-ci ilin sentyabrın 29-da Almaniya Federativ Respublikasının paytaxtı Berlində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunmuş mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir.

Mərasimi açan Almaniyanın tanınmış teleaparıcısı Yens Riva bu tədbirin əhəmiyyətini vurğuladı, Azərbaycan, onun sahib olduğu mədəni dəyərlər haqqında tamaşaçılara ətraflı məlumat verərək dedi:

– Xanımlar və cənablar! Sizi Alman Tarix Muzeyində salamlağıma çox şadam. Bu səmimi qəbul üçün təşəkkür edirəm.

Xanım Mehriban Əliyeva, xanım Bettina Vulf, zati-aliləri, deputatlar! Sizə səmimi qəlbdən

"Xoş gəlmisiniz!" deyirəm. Cənab Hans Ditrix Genşeri və muzeyin yeni direktoru, professor Aleksandr Koxu salamlayıram.

Xanımlar və cənablar! Bu gün bütün Avropanın gözü Berlindədir. Çünki Almaniya Bundestaqında ümumi valyutamız olan avronun gələcəyi müzakirə olunur və gələn ilin mayında bütün Avropanın diqqəti buradan 3 min kilometr uzaqda – Şərqdə yerləşən Azərbaycanın paytaxtı Bakıya, "Eurovision"un keçiriləcəyi şəhərə yönələcəkdir. Ancaq elə bu axşam sizi 3 min kilometr uzaqda olan bir ölkəyə xoş səfər gözləyir. Azərbaycan bu günlərdə müstəqilliyinin bərpa edilməsinin 20 illiyini bayram edir. Bir az əvvəl Almaniya da özünün yenidən birləşməsini bayram etdi. Bu tarixi yubileylər münasibətilə Berlində belə gözəl bir axşamı Azərbaycanın və Almaniyanın birinci xanımları Mehriban Əliyeva, Bettina Vulfdan başqa kim təşkil edə bilərdi?!

İndi isə qonaqları salamlamaq üçün Almaniya Prezidentinin xanımı Bettina Vulfu dəvət edirəm. Xanım Bettina Vulfun şərəfinə səmimi alqışlar gəlsin.

Tədbirdə Almaniyanın birinci xanımı Bettina Vulf çıxış edərək dedi:

– Çox hörmətli xanım Mehriban Əliyeva!

Zati-aliləri, çox hörmətli cənab doktor Kox, çox hörmətli xanımlar və cənablar!

Bu gün burada olduğuma, Azərbaycanın müstəqilliyinin bərpa edilməsinin 20 illiyini sizinlə birlikdə bayram etdiyimə görə çox şadam.

Xanım Əliyeva, bu münasibətlə Almaniyaya xoş gəlmisiniz. Almaniya və Azərbaycan çox qədim tarixi əlaqələrə, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra isə tərəfdaşlıq münasibətlərinə malikdirlər. Azərbaycanın xaricdə ilk mədəniyyət ili 2008-ci ildə Almaniyada olmuşdur. Bundan bir az sonra – 2009-cu ildə Azərbaycanda Almaniya mədəniyyət həftələri keçirilmişdir. Bakıdakı "Kapellhaus" Alman-Azərbaycan mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir.

Xanım Əliyeva! Siz mədəniyyətə çox böyük önəm verirsiniz. Siz bu bayramdan istifadə edərək axşamın qonaqlarını ölkənizin mədəniyyəti ilə daha yaxından tanış etmək istəyirsiniz. Çoxdandır ki, Azərbaycanın tarixi irsini var gücünüzlə qorumağa çalışırsınız. YUNESKO-nun xoşməramlı səfiri kimi milli musiqinizin və tarixi sənət əsərlərinin keşiyində dayanmağa, onların qorunub saxlanmasına daha çox səy göstərirsiniz. Siz bu sərvətlərinizi ölkənizin sərhədlərindən kənarda tanıtdırır və bununla həm öz mədəniyyətinizi yayır, həm də mədəniyyətlərarası əlaqələri inkişaf etdirirsiniz. Bu axşam həmin irsi çox gözəl bir sərgi ilə bizə təqdim edirsiniz.

Məni ən çox əlvan ilməli zərif xalçalar valeh etmişdir. Onlar böyük sənətkarlıq ənənələri olan bir keçmişdən xəbər verir. Bundan əlavə, bu axşam dinləyəcəyimiz muğam musiqisini də böyük maraqla gözləyirəm. Bilirəm ki, bu musiqi vaxtilə yazıya alınmayıb, şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür. Belə mənəvi mədəni irsin qorunub saxlanılması və inkişaf etdirilməsini xüsusilə vacib hesab edirəm. Yoxsa onlar həmişəlik itib gedərdi.

Xanım Əliyeva, bu əsrarəngiz axşam üçün Sizə təşəkkür edirəm və böyük maraqla Sizin





çıxışınızı, sonda da konserti gözləyirəm. Səmimi təşəkkürlər.

Teleaparıcı Yens Riva: Almaniyanın birinci xanımı Bettina Vulf, bu səmimi sözlərə görə sizə təşəkkür edirik.

Xanımlar və cənablar, Azərbaycanın birinci xanımını da Berlində salamlamaq mənim üçün böyük şərəfdir! Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti kimi, beynəlxalq aləmdə böyük nüfuz və rəğbət qazanmışdır. Bu Fond Azərbaycanda və ölkənin hüdudlarından kənarda insanların həyatını yaxşılaşdırmaq üçün layihələr həyata keçirir. Bu layihələrdən biri də məktəb tikintisidir. Çünki insanlar hansı təbəqəyə mənsubluğundan asılı olmayaraq, ancaq yaxşı təhsil almaqla cəmiyyətdə mövqe qazana bilərlər. Son dörd ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanda və dünyada 400-dən çox məktəb binası tikilmişdir. Ancaq bu, Azərbaycanın birinci xanımının geniş fəaliyyət sahəsindən bircə misaldır. Üç övlad anası olan Mehriban xanım, eyni zamanda, YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyət göstərir. Növbəti "Eurovision" musiqi yarışmasına hazırlıq komissiyasına rəhbərlik edir, Azərbaycan mədəniyyətinin qorunması və inkişafı üçün çalışır. Yeri gəlmişkən, sizin indi görəcəyiniz kitab bu yaxınlarda çap olunmuşdur. İndi köməkçim onu gətirəcəkdir. Adı "Qadınların gücü"dür. Müəllif Kristina Pleve dünyanın 30 ölkəsindən olan 60 məşhur qadına yer vermişdi. Bunların arasında, əlbəttə ki, Azərbaycanın birinci xanımı da vardır. Müasir Azərbaycan qadınına xas olan bütün nəcib keyfiyyətləri özündə əks etdirən bir xanım! Eyni zamanda, onun şəxsi uğurlarını şərtləndirən bir neçə sirr!

İndi isə təbrik sözü üçün dəvət olunan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyevanı mənimlə birlikdə ürəkdən salamlayaq!

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Hörmətli birinci xanım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycanın müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünə həsr edilmiş axşamda sizi səmimi qəlbdən salamlayıram, sizə "Xoş gəlmisiniz!" deyirəm. Mən xanım Bettina Vulfa bu gün bizimlə olduğuna görə, ölkəmiz haqqında və şəxsən mənim haqqımda deyilən sözlərə görə dərin minnətdarlığımı bildirirəm.

Bugünkü axşam Heydər Əliyev Fondu tərəfindən hazırlanıb. Məqsədimiz Azərbaycanın keçmişini və bu gününü, tarixi və mədəniyyətini, 20 il ərzində əldə edilən uğurlarını dünya ictimaiyyətinə tanıtmaqdır.

1991-ci ildən Azərbaycan dünya birliyinə – azadlıq, demokratiya və aşkarlıq məkanına inteqrasiya etməyə başlayıb. Biz müstəqil ölkə kimi çox gəncik. Lakin Azərbaycanın tarixi kökləri qədimlərə gedib çatır. Cənubi Qafqazda – Xəzər dənizinin sahillərində ilk dövlətlər hələ eramızdan əvvəl II-I minilliklərdə yaradılmışdır. Şərqin ən qədim sivilizasiyalarından biri məhz Azərbaycanın ərazisində formalaşmışdır. Tarixi İpək Yolu üzərində, mədəniyyətlərin

və sivilizasiyaların qovuşduğu məkanda yerləşən Azərbaycan əsrlər boyu Qərb və Şərq mədəniyyətinin təsiri altında formalaşmışdır. Baxmayaraq ki, müxtəlif dövrlərdə Azərbaycan müxtəlif imperiyaların tərkib hissəsi olmuşdur, xalqımız tarixini, mədəniyyətini, dilini qoruyub saxlayaraq milli mənliyini itirməmişdir.

Bu gün də müstəqil ölkə kimi biz gələcəyimizi köklərimizə və ənənələrimizə əsasən qururuq. Hələ 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqinin ilk demokratik Parlament Respublikası olmuşdur.

O dövrdə Azərbaycan müsəlman dünyası üçün, müsəlman Şərqi üçün əsl mayaka çevrilmişdi. Müsəlman qızları üçün ilk dünyəvi məktəb açılmışdır, Azərbaycan qadınları səsvermə hüququnu qazanmışlar, ölkədə çoxpartiyalı parlament fəaliyyət göstərirdi, Şərqin ilk opera və baleti yazılmışdı. Əfsuslar olsun ki, Xalq Cümhuriyyətinin ömrü çox qısa oldu. Gənc Respublika ciddi geosiyasi problemlərlə üzləşdi. Və bu amillərin, problemlərin arasında Bakı neftinə olan marağın artması da mühüm rol oynadı. Nəticədə hərbi intervensiya yolu ilə ölkəmizdə Sovet hakimiyyəti quruldu, Azərbaycan müstəqilliyini itirdi. Yetmiş ildən çox xalqımız sovet rejiminin sərt qanunları ilə üzləşmişdir. Lakin eyni zamanda, bu dövrdə Azərbaycanın iqtisadi potensialı formalaşdı, təhsil şəbəkəsi yarandı, orta və ali məktəblər açıldı, Milli Elmlər Akademiyası fəaliyyətə başladı.

Nəhayət, 1991-ci ildə ölkəmiz müstəqilliyini bərpa etdi və Azərbaycan xalqı öz torpağına, öz ölkəsinə, öz taleyinə sahib oldu. Bu 20 il ərzində biz böyük nailiyyətlər əldə etmişik. Biz tamamilə yeni siyasi və iqtisadi sistem qurub sürətlə inkişaf edirik. Azərbaycan bu gün bölgənin aparıcı dövlətidir. Cənubi Qafqaz dövlətlərinin ümumi iqtisadiyyatının 75 faizi Azərbaycanın payına düşür. Bölgədə həyata keçirilən bütün irimiqyaslı layihələr Azərbaycanın iştirakı və təşəbbüsü ilə reallaşır.

Son illər iqtisadi templərin artımına görə Azərbaycan dünyanın lider ölkələri sırasındadır. Avropa İttifaqı bu gün Azərbaycanı enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaş kimi tanıyır. Azərbaycan Avropanın neft və qaz ilə təminatında öz rolunu oynamağa hazırdır.

Bu gün inkişaf ölkəmizin bütün sahələrini əhatə edir. Qeyri-neft sektoru yüksəlir, böyük, irimiqyaslı infrastruktur layihələri həyata keçirilir, paytaxtımızın və başqa şəhərlərimizin siması dəyişir. Təkcə bu il ərzində paytaxtımızda – Bakıda beşulduzlu beş yeni hotelin açılışı gözlənilir. Bu da ölkəmizə ildən-ilə artan marağın sübutudur.

Bizim ən böyük sərvətimiz mədəni irsimizdir, Azərbaycanın xalçaçılıq məktəbi, təsviri sənəti, ədəbiyyatı, musiqisi, tarixi və memarlıq abidələridir. Bu gün ölkədə xüsusi Dövlət Proqramına əsasən teatrlar və muzeylər bərpa olunur, yeni mədəniyyət mərkəzləri açılır, abidələr dövlət tərəfindən qorunur.

Azərbaycanda bu gün sosialyönümlü siyasət aparılır. 2003-cü ildən bugünədək ölkəmizdə 900 mindən çox yeni iş yeri açılıb, 2 mindən çox yeni məktəb binası inşa olunub, yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə enibdir.





Əziz qonaqlar, mən xüsusi vurğulamaq istərdim ki, bütün bu nailiyyətləri ölkəmiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi uzun sürən və hələ də həllini tapmayan ağır problemlərin mövcudluğu şəraitində əldə edibdir. Bu gün ölkəmizdə 1 milyon məcburi köçkün və qaçqın var və torpaqlarımızın 20 faizi işğal altındadır. Ümidvarıq ki, yaxın gələcəkdə bu münaqişə ədalətli, sülh yolu ilə həllini tapacaq və hər bir qaçqın, hər bir məcburi köçkün doğma yurduna qayıdacaqdır.

Bu gün Azərbaycan Avropa İttifaqı ilə, onun üzvü olan ölkələrlə əməkdaşlığını genişləndirir və möhkəmləndirir. Bu ölkələrin arasında əsas tərəfdaşlarımızdan biri olan Almaniya ilə də münasibətlər çox mühüm yer tutur. Bu münasibətlərin uzun tarixi vardır. Almanlar ölkəmizə hələ əvvəlki əsrlərdə gəlmiş və məskunlaşmışlar. Hələ o zamanlar Almaniyanın məşhur iş adamları Azərbaycanda fəaliyyət göstərirdilər. Bu gün də ölkələrimiz arasında iqtisadi, siyasi, humanitar, mədəniyyət sahələrində əlaqələr uğurla inkişaf edir. Müxtəlif sahələrdə ikitərəfli proqramlar həyata keçirilir, yüzlərcə azərbaycanlı tələbə Almaniyanın aparıcı universitetlərində təhsil alır, Almaniyanın iri şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Ümidvaram ki, bugünkü axşam da dostluq əlaqələrimizə, bu əlaqələrin güclənməsinə öz töhfəsini verəcəkdir.

Əziz qonaqlar, bu gün biz sizin diqqətinizə Azərbaycanın qədim və zəngin mədəniyyətinin kiçik bir hissəsini təqdim edəcəyik. Mədəniyyət insanları onların dini və milli mənsubiyyətindən asılı olmayaraq birləşdirir, dialoq və anlaşmaya xidmət edir. Bu isə, fikrimcə, bugünkü mürəkkəb dünyada ən vacib amillərdən biridir.

Sonda, əziz dostlar, mən bir daha "Eurovision" musiqi müsabiqəsində bizim iki istedadlı gəncimizə dəstək verdiyinizə görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu qələbəni biz Azərbaycanda gözləyirdik və əlbəttə, bununla çox fəxr edirik. Siz keçən "Eurovision" müsabiqəsinin qalib ölkəsi kimi, yəqin ki, bizim hisslərimizi yaxşı anlayırsınız.

Əziz dostlar, fürsətdən istifadə edərək sizi ölkəmizə dəvət edirəm. Bu axşam bizimlə olduğunuza görə sizə bir daha öz dərin təşəkkürümü bildirirəm, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

***"Azərbaycan" qəzeti,***
***30 sentyabr 2011-ci il***




## PARİSDƏ YUNESKO-nun BAŞ KONFRANSININ 36-cı SESSİYASI KEÇİRİLMİŞDİR

2011-ci ilin oktyabrın 26-da YUNESKO-nun Parisdəki mənzil-qərargahında təşkilatın Baş Konfransının 36-cı sessiyası öz işinə başlamışdır.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, ölkəmizin birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sessiyanın işində iştirak etmişdir.

Sessiyada iştirak etmək üçün YUNESKO-nun mənzil-qərargahına gələn Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı təşkilatın Baş direktoru İrina Bokova qarşıladı.

Dünyanın 193 ölkəsindən nümayəndə heyətlərinin, bir sıra ölkələrin, dövlət və hökumət başçılarının, təşkilata üzv olmayan ölkələrin müşahidəçilərinin, Qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirak etdiyi sessiyaya sədrlik edən Macarıstan nümayəndəsi Katalin Bodjiay gündəlikdə duran məsələlər barədə məlumat verdi. O bildirdi ki, sessiyada YUNESKO-nun 2012-2013-cü illər üçün ilkin proqramı və büdcəsinin təsdiq edilməsi ilə bağlı müzakirələr aparılacaqdır. Bundan əlavə, dünyada dayanıqlı inkişafın, mədəniyyətlərarası dialoqun təmin olunması, zorakılığın bütün təzahürlərinin qarşısının alınması, həmçinin gender bərabərliyi, gəncliyə və Afrika qitəsinə yardımların edilməsi diqqət mərkəzində olacaq, "Təhsil hamı üçün" proqramına ən yüksək səviyyədə dəstək veriləcəkdir.

YUNESKO-nun İcraiyyə Şurasının sədri Eleonora Mitrofanova diqqəti dünyada yoxsulluğun azaldılması, savadsızlıqdan əziyyət çəkən bölgələrdə təhsil problemlərinin həllinə yönəltdi. O, dünyada gender bərabərliyinin qorunması istiqamətində YUNESKO tərəfindən həyata keçirilən tədbirlərdən danışdı. Bildirdi ki, bu problemlərin həlli yollarının tapılması beynəlxalq





əməkdaşlıqdan keçir. Bu baxımdan sessiyamızda aparılan dialoq və səslənən təkliflər məqsədlərimizə töhfə verə bilər.

YUNESKO-nun Baş direktoru İrina Bokova dünyanı narahat edən bir çox məsələlər barədə diskussiya aparmaq baxımından bu sessiyanın əhəmiyyətinə toxundu. Bildirdi ki, təhsil, elm, mədəniyyət və digər sahələrin inkişafını özünün prioriteti elan edən YUNESKO qlobal çağırışlara hər zaman həssas münasibətilə seçilib və insanlar arasında həmrəyliyin əldə olunmasında bu təşkilatın qarşıya qoyduğu məqsədlər nümunəvi dəyərlərə söykənir. İrina Bokova gələn il Rio-de-Janeyroda keçiriləcək Beynəlxalq konfransın dünyada gedən proseslərin öyrənilməsi və bir çox problemlərin həllinə yardım edəcək iqtisadi inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı.

Sonra sessiya çərçivəsində "YUNESKO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu nədən ibarətdir?" mövzusunda Liderlər Forumu başladı. Macarıstan Prezidenti Pal Şmit, Qabon Prezidenti Əli Bonqo Ondimba, Kot-d-İvuar Prezidenti Alasana Uatara, Qrenadanın Baş naziri Tilman Tomas və Beninin Baş naziri İren Kupaki də bu Forumun əhəmiyyətinə toxunaraq dünyada mövcud problemlərin həlli baxımından onun mühüm müzakirə məkanı olduğunu bildirdilər.

Mehriban xanım Əliyeva Liderlər Forumunda çıxış edərək dedi:

– Hörmətli xanım baş direktor! Hörmətli xanımlar və cənablar! Əziz dostlar!

Əvvəlcə məni mühüm və yüksək səviyyəli bu tədbirdə iştirak etmək üçün dəvət etdiyinə görə YUNESKO-nun Baş direktoru xanım İrina Bokovaya minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün keçirilən forumun mövzusu heç kəsi biganə qoya bilməz. Çünki bəşəriyyətin gələcəyi sülh mədəniyyətini formalaşdırmadan və davamlı inkişafı təmin etmədən həqiqətən mümkün deyildir.

Hazırda biz olduqca mürəkkəb dünyada yaşayırıq. Bir tərəfdən, o, yeni texnologiyaların tətbiqi və müasir elmin sürətli inkişafı ilə xarakterizə olunur. Əgər əvvəllər təbii resurslar zənginliyin yeganə mənbəyi sayılırdısa, indi insanların özü müasir ideya və texnologiyaların təşəbbüskarı kimi yeni mənbə rolunu oynayırlar. Lakin təbii sərvətlərdən fərqli olaraq, insan təfəkkürü hüdudsuzdur."İnsan kapitalı" termini artıq metafora deyildir. Təfəkkür və zənginlik bir məfhum kimi götürülə bilər.

Digər tərəfdən, dünyada dərin maliyyə böhranı yaşanır və bir çoxları bunu daha ciddi sistematik böhranın əlamətləri kimi görür. Hazırkı qloballaşma hamımızı qlobal dünyanın sakinlərinə çevirib. Lakin əfsuslar olsun ki, biz, eyni zamanda, heç vaxt görünməmiş dərəcədə bir-birimizdən ayrıyıq. İqtisadiyyat aləmi bunun sosial ədalət və qlobal etika kimi ideallardan nə qədər uzaq olduğunu nümayiş etdirir.

Əfsuslar olsun ki, dözümsüzlük, ksenofobiya və ədavət bu bölünməni daha da dərinləşdirir. Dünyanın bir çox ölkələrində on milyonlarla insan irqinə, etnik köklərinə və dininə görə ayrı-seçkilik və təcridolunmanın ağır nəticələri ilə üzləşir. Günahsız insanların həyatına son qoyan

terror aktları, siyasi və dini radikalizm bizim və övladlarımızın təhlükəsizliyini sual altına çəkir.

Müharibə və münaqişələr milyonlarla insanları məhv edərək dünyanın müxtəlif guşələrində davam edir. Ölkəmiz Azərbaycan üçün münaqişə və onun nəticələri sadə sözlər yox, acı həqiqətdir. On minlərlə insanın həyatına son qoymuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hər birimizin ən böyük ağrısı olaraq qalır. Bu münaqişə Azərbaycan torpaqlarının 20 faizinin işğalı və ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkünün yaranması ilə nəticələnmişdir. Böyük sayda tarixi və memarlıq abidələri, məktəblər, muzeylər və kitabxanalar işğal olunmuş Azərbaycan torpaqlarında məhv edilib. Ekspertlərin hesablamalarına görə, əgər münaqişələrin qarşısı alınmasa, onların nəticəsində XXI əsrdə 150 milyondan artıq qadın və uşaq həyatını itirə bilər. Həmin müharibələrin əksəriyyəti ədavət və dözümsüzlüyün təşviqi ilə başlanmışdır.

Lakin bu mənfi təsirə baxmayaraq, mən gələcəyə nikbinliklə baxıram. Biz bu hədələri sivil dialoq vasitəsilə aradan qaldırmalıyıq. Məhz bu, elə indi bu zalda qaldırılmış bir çox məsələləri təhlil etmək imkanını yaratmış bir qədər əvvəl Bakıda keçirilmiş Beynəlxalq Humanitar Forumun məqsədini təşkil edirdi. 39 ölkənin nümayəndələrini bir araya gətirən bu Forum çərçivəsində çoxmədəniyyətlilik, müasir texnologiyalar, elmlərin qovuşması, biotexnologiya və etik problemlər, iqtisadi inkişaf modelinin humanitar aspektləri, sosial media və yüksək texnologiyalar, postmodern cəmiyyətdə ənənəvi dəyərlər sistemi kimi məsələlər müzakirə olunmuşdur. Forum iştirakçıları beynəlxalq təşkilatları, o cümlədən YUNESKO-nun "bəşəriyyətin müsbət inkişafının qorunması və davam etdirilməsi məqsədilə mədəniyyətlərarası, konfessiyalararası və sivilizasiyalararası dialoq üçün real çərçivəni yaratmağa" çağıran Bakı Bəyannaməsini qəbul etmişlər. Bu, sülh mədəniyyətinin qurulması üçün fundamental əhəmiyyət kəsb edir.

Hörmətli iştirakçılar!

Aydındır ki, yeni dünya nizamı artıq formalaşır və bu proses bir çox çətinliklərlə müşayiət olunacaqdır. İnanıram ki, qloballaşmanın humanitar aspektləri olduqca vacibdir. Bu mənada, insan sivilizasiyasının taleyi üçün məsuliyyətimizin dərk edilməsi mühüm məsələdir. Səmimi dialoq, xoş məram, üzləşdiyimiz problemlərin daha yaxşı qavranılması və qarşılıqlı anlaşma özümüz və gələcək nəsillər üçün çətinliklərin uğurla aradan qaldırılmasında lazım olacaq vasitələrdir.

Hörmətli xanım baş direktor, əziz dostlar!

Yekun olaraq, mən Forum çərçivəsində hamınıza maraqlı və məhsuldar müzakirələr arzulayıram.

Diqqətinizə görə minnətdaram.

*"Azərbaycan" qəzeti,*
*27 oktyabr 2011-ci il*







## VATİKANDA AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN BƏRPASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

2011-ci ilin noyabrın 29-da Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycanın Vatikandakı səfirliyinin dəstəyi ilə Vatikanda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Mərasimdən əvvəl Azərbaycanın birinci xanımı Vatikanın Mədəniyyət naziri, kardinal Can-Franko Ravazi ilə görüşdü.

Vatikanın Mədəniyyət naziri bu görüşü Azərbaycana səfərinin davamı adlandırdı, Heydər Əliyev Fondu ilə tanışlığını xatırladı. Kardinal Azərbaycanın Vatikandakı Apostol kitabxanasında həyata keçirdiyi layihənin əhəmiyyətini vurğulayaraq dedi ki, bu zəhmətli iş nəticəsində Azərbaycan haqqında 42 manuskriptdən 15-i bərpa olunmuşdur.

Mehriban xanım Əliyeva Azərbaycan ilə Vatikan arasında formalaşmış sıx əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. Heydər Əliyev Fondunun prezidenti həyata keçirilmiş birgə layihələrdə Vatikanın rolunu yüksək qiymətləndirdi və bu münasibətlərin gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.

Görüşdən sonra Azərbaycanın birinci xanımı və Vatikanın Mədəniyyət naziri qədim və müasir Bakının, habelə mədəniyyət abidələrinin əks olunduğu fotolara və videoçarxlara baxdılar, sərgilərlə tanış oldular. Qədim misgərlik nümunələrinin, musiqi alətlərinin də nümayiş olunduğu sərgi Azərbaycanın zəngin mədəni irsinin əyani sübutu kimi böyük maraq doğurdu.

Azərbaycan xalçaçılıq məktəblərinin misilsiz incilərinin nümayiş olunduğu sərgidə isə kardinala burada toplanmış əsərlər barədə məlumat verildi. Azərbaycan xalçaçılıq sənəti nümunələrinin həmçinin Qarabağ xalçalarının nümayiş olunduğu sərgi də qonaqlarda zəngin təəssürat yaratdı.

Qonaqlar digər bir sərgi ilə – iki ildir ki, keçirilən "Qız qalası" festivalında təqdim edilən əsərlərlə də tanış oldular. Bu əsərlərdə dünyanın müxtəlif ölkələrindən olan rəssamların Bakının rəmzi sayılan Qız qalası ilə bağlı düşüncə və duyğuları təcəssüm tapmışdır. Əsərlərin arasında italyan rəssamı Alberto Lorronun "Qız qalası" da maraqla qarşılandı.

Azərbaycanın birinci xanımı Apostol kitabxanasında mühafizə olunan və azərbaycanlı alimlərin iştirakı ilə bərpa edilən manuskriptlərə baxdı.

Sərgi çərçivəsində Heydər Əliyev Fondunun müxtəlif layihələrini özündə əks etdirən kitab, buklet və digər nəşrlərlə yanaşı "Azərbaycan" nəşrinin italyan dilində versiyasının da təqdimatı oldu. Ölkəmizin tarixi, mədəniyyəti, paytaxtı da daxil olmaqla regionları haqqında ətraflı məlumatın toplandığı nəşrdə 1000-dən çox fotoşəkil sərgiyə gələnlərdə böyük maraq oyatdı.

Sərgilərlə tanışlıqdan sonra təntənəli mərasim keçirildi. Aparıcı tədbirin əhəmiyyətini qeyd edərək vurğuladı ki, bu mərasim italiyalıların Azərbaycan haqqında daha çox məlumat əldə etmələri üçün gözəl fürsətdir. Mərasim iştirakçıları burada Azərbaycanın mədəniyyət nümunələri ilə yaxından tanış oldular.

Azərbaycanın Qərb ilə, xüsusən də İtaliya ilə sıx əlaqələr qurduğunu vurğulayan aparıcı bildirdi ki, Bakının qərbində yerləşən Qobustandakı qayalar üzərində Roma imperiyasının dövründən qalan yazılar vardır. Məşhur səyyah Marko Polo Azərbaycan ərazisindən keçərkən bu ölkədə toxunan xalçaları İtaliyaya gətirmiş və bu sənət incilərinin daha da məşhurlaşmasında mühüm rol oynamışdır. Bundan əlavə Bakıda sənayeləşmə dövrü başlayanda bu şəhərdə italyan memarlığı əsasında bir çox binalar ucaldılmışdır.

Azərbaycanın müstəqilliyinin bərpa etməsinin 20-ci ildönümü ilə bağlı Avropanın paytaxt şəhərlərində silsilə tədbirlərin keçirildiyini vurğulayan aparıcı qeyd etdi ki, indi növbə Müqəddəs Taxt-Tacındır.

Bu tədbirin yüksək səviyyədə təşkil olunmasına görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarıq.





Mərasimdə çıxış edən Vatikanın Mədəniyyət naziri Can-Franko Ravazi Azərbaycanı mədəniyyətlərarası dialoqa böyük önəm verən ölkə adlandırdı. Kardinal vurğuladı ki, Azərbaycandakı katolik icmasının üzvləri sayca az olsalar da, onlar üçün yüksək şərait yaradılmışdır. Azərbaycanda, sözün əsl manasında, tolerantlıq hökm sürür. Bütün bunların Bakıya səfəri zamanı canlı şahidi olduğunu deyən kardinal Ravazi Azərbaycana böyük hörmət bəslədiyini də diqqətə çatdırdı.

Bakının çox gözəl şəhər olduğunu, burada genişmiqyaslı inkişafın getdiyini qeyd edən kardinal dedi ki, Müqəddəs Taxt-Tac Azərbaycan ilə sıx əməkdaşlıq edir. Biz 42 əlyazmanın bərpası ilə bağlı layihənin həyata keçirilməsi ideyasını irəli sürdük və hazırda bu layihə icra olunur. Söhbət, əlbəttə ki, Müqəddəs Taxt-Tacda saxlanılan və Azərbaycana aid əlyazmalardan gedir.

Can-Franko Ravazi Heydər Əliyev Fondu ilə Vatikan arasında yaranan əməkdaşlığın faydalı olduğunu diqqətə çatdırdı. O, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizin mədəniyyətinin təbliğindəki xidmətlərini yüksək qiymətləndirdi.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edərək dedi:

– Kardinal həzrətləri Ravazi, zati-aliləri, xanımlar va cənablar! Azərbaycana həsr olunmuş bu gecədə sizin hamınızı səmimi qəlbdən salamlayıram. Kardinal Ravaziyə ölkəmiz haqqında dediyi səmimi sözlərə, bu axşam bizimlə olduğuna və əməkdaşlığa görə dərin minnətdarlığımı çatdırıram. Bugünkü tədbirimiz Azərbaycanın ən yeni tarixində əlamətdar bir hadisəyə həsr olunub. Bu il biz ölkəmizin müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünü qeyd edirik. Mən çox şadam ki, bu hadisəni qeyd etmək üçün seçilmiş dövlətlərin biri də Vatikandır. Bu da ölkəmizin Müqəddəs Taxt-Tac ilə olan dostluq münasibətlərinin göstəricisidir.

1991-ci ildə müstəqilliyini bərpa edərkən Azərbaycan xalqı, nəhayət ki, öz torpaqlarına, öz ölkəsinə sahib çıxdı. Bu 20 il ərzində biz bir çox nailiyyətlər əldə etmişik. Baxmayaraq ki, müstəqilliyimizin ilk illərində ölkəmiz çox ciddi problemlərlə üzləşmişdir. İyirmi ildən çox sürən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmayıb. Azərbaycanın ərazisinin beşdə bir hissəsi işğal altındadır, ölkədə bir milyon qaçqın və məcburi köçkün mövcuddur. Zəbt olunmuş torpaqlarımızdakı mədəni irsimiz işğalçıların hədəfinə çevrilib. Çoxsaylı mədəni və tarixi abidələr yer üzündən həmişəlik silinib. İbadət yerləri və qəbiristanlıqlar dağıdılıb. Buna baxmayaraq, Azərbaycan münaqişənin sülh yolu ilə, Beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin tərəfdarıdır. Mən ümidvaram ki, ölkəmizin ərazi bütövlüyü yaxın gələcəkdə bərpa olunacaq və hər bir qaçqın, hər bir köçkün öz doğma yurduna qayıda biləcəkdir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan bu gün dünya xəritəsində öz yerini təsdiqləmişdir və sürətlə inkişaf edən bir dövlətdir. Cənubi Qafqaz dövlətlərinin ümumi iqtisadiyyatının 75 faizi bu gün Azərbaycanın payına düşür və regiondakı bütün irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, çox zaman Azərbaycanın təşəbbüsü ilə həyata keçirilir.

Ölkəmizdə sosial problemlər ardıcıl olaraq öz həllini tapır. Təkcə onu demək kifayətdir ki, son 8 il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə enib, ölkədə 900 mindən çox yeni iş yeri açılıb, 2 mindən çox məktəb yenidən inşa olunub, yenidən qurulub.

Sabit inkişaf edən iqtisadiyyatımız bizə həqiqətən müstəqil xarici siyasət aparmağa imkan verir. Bu gün Azərbaycan beynəlxalq sülhün və sabitliyin qorunmasına yönəlmiş dünyamiqyaslı proseslərdə fəal iştirak edir və bir sıra məsələlərdə Avropa və Qərb Azərbaycanı strateji tərəfdaş kimi tanıyır.

Əziz dostlar! Əsrlər boyu Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin təmas və ünsiyyət qovşağı rolunu oynamışdır. Hələ eramızdan əvvəl 2-ci minillikdə Azərbaycanın ərazisindən Böyük İpək yolu keçmişdir. Məlumdur ki, mədəniyyətlərin və sivilizasiyaların qovuşmasında, elmi və fəlsəfi biliklərin yayılmasında Böyük İpək yolu müstəsna rol oynayıb. Bu proseslər ölkəmizdən də yan keçməyib.

Azərbaycan Qərb və Şərq, Şimal və Cənub arasında körpü rolunu oynayıb və bu gün də oynamaqdadır.

2002-ci ilin may ayında ölkəmizə tarixi səfəri zamanı Roma papası II İoann Pavel qeyd etmişdir ki, Azərbaycan Qərblə Şərq arasında qapıdır. O nəinki çox vacib strateji əhəmiyyət kəsb edir, həmçinin açıqlıq və müdafiə rəmzidir. Əsrlər boyu formalaşmış dini dözümlülük, tolerantlıq, bütün Dünya mədəniyyətinə hörmət Azərbaycan xalqının ən əsas və ən gözəl xüsusiyyətlərindən biridir.

Təsadüfi deyildir ki, son illər Azərbaycan dinlərarası, mədəniyyətlərarası dialoq qurmaq üçün çox vacib bir beynəlxalq məkana çevrilib. Son illər Bakıda bir çox görüşlər, forumlar keçirilir. Buna misal olaraq, 2010-cu ildə paytaxtımızda "Dünya dinlərinin liderlərinin zirvə görüşü"nü, bu ilin aprel ayında Bakı Beynəlxalq Mədəniyyətlərarası Forumu və oktyabr ayında keçirilən Bakı Beynəlxalq Humanitar Forumunu qeyd etmək istərdim. Bu tədbirlərdə Vatikanın rəsmiləri də iştirak edib və öz töhfələrini veriblər.

Azərbaycanda bütün dövrlərdə ictimai-siyasi quruluşdan asılı olmayaraq müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq şəraitində bir ailə kimi yaşayıblar. İndi də çoxkonfessiyalı, çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir. Bu, bizim ən böyük sərvətlərimizdən biridir.

Əziz dostlar!

Tarixçilərin verdiyi məlumata görə, ilk Katolik icması Azərbaycanda XIX əsrin 30-cu illərində formalaşmağa başlamışdır. XIX əsrin sonları, XX əsrin əvvəlində katolik icmasının nümayəndələri paytaxtımız Bakının ictimai-mədəni həyatında çox mühüm rol oynayıblar və xüsusən səhiyyə, mədəniyyət, memarlıq sahələrində bu gün də böyük minnətdarlıqla xatırlanan izlər qoyublar.

1912-ci ildə Bakının mərkəzində katolik icmasının təşəbbüsü və əhalinin dəstəyi ilə Müqəddəs Məryəm katolik kilsəsi tikilmişdir. Əfsuslar olsun ki, stalinizm dövründə digər dini





ocaqlar kimi, bu kilsə də dağıdılmışdır. Lakin müstəqil Azərbaycan dövlətinin birbaşa dəstəyi ilə Müqəddəs Məryəm kilsəsi yenidən müasir üslubda tikilmişdir və 2008-ci ilin may ayında Vatikanın Dövlət Katibinin iştirakı ilə onun rəsmi açılış mərasimi keçirilmişdir. Ölkəmizdə katoliklər sayca az olsalar da, onlar Azərbaycanın bütün azadlıqları və hüquqlarından bəhrələnirlər və öz vətənlərinə – Azərbaycana layiqincə xidmət edirlər.

Əziz qonaqlar!

Bu gün Azərbaycan təkcə neft və qaz ehtiyatlarına malik olan ölkə kimi yox, dünyada öz zəngin mədəni irsi ilə tanınan dövlətə çevrilib. Azərbaycanın qədim xalçaçılıq məktəbi, bənzərsiz muğamı, tarixi və memarlıq abidələri, poeziyası, incəsənəti xalqımızın ən böyük sərvətidir. Biz əsrlər boyu müxtəlif imperiyaların tərkibində olmuşuq. Lakin biz öz dilimizi, dinimizi, mədəni irsimizi, ənənələrimizi yaşadıb inkişaf etdirərək özümüzü bir millət, bir xalq kimi qoruyub saxlamışıq.

Bu axşam sizin diqqətinizə Azərbaycan mədəniyyətinin kiçik bir hissəsini təqdim edəcəyik. Mən ümidvaram ki, gördüyünüz naxışlar, dinlədiyiniz musiqi, seyr etdiyiniz mənzərələr sizin qəlbinizi riqqətə gətirəcək və birgə keçirdiyimiz bu axşam dövlətlərimizi, insanları bir-birinə daha da yaxınlaşdıracaq və bağlayacaqdır.

Sonda bir daha sizin hamınıza bu axşam bizimlə olduğunuza görə dərin minnətdarlığımı bildirirəm. Sizə xoşbəxtlik və əmin-amanlıq arzulayıram. Diqqətinizə görə çox sağ olun!

***"Azərbaycan" qəzeti,***
***1 dekabr 2011-ci il***




## ROMADA AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN 20-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLDİ

2011-ci ilin dekabrın 2-də Romada Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü və ölkəmizin İtaliyadakı səfirliyinin dəstəyi ilə baş tutan mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişlər.

Mərasimdən əvvəl Mehriban xanım Əliyeva İtaliyanın Xarici İşlər Nazirliyinin Dövlət Katibi xanım Marta Dassu ilə görüşdü.

Azərbaycanın birinci xanımı ölkəmizin dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünün İtaliyanın paytaxtında keçirilməsindən məmnunluğunu bildirdi. Mehriban xanım Əliyeva Azərbaycan ilə İtaliya arasında əlaqələrin yüksək sürətlə inkişaf etməsinin təsadüfi olmadığını diqqətə çatdırdı. Məqsədinin Azərbaycanın mədəni irsini dünyada tanıtmaq olduğunu vurğulayan Heydər Əliyev Fondunun prezidenti bu görüşün əlaqələrin inkişafına yeni təkan verəcəyini söylədi.

İtaliyanın Prezidenti Ciorcio Napolitano ilə görüşünü xatırlayan Mehriban xanım Əliyeva bir sıra vacib məsələlərin müzakirə edildiyini, Azərbaycan ilə İtaliyanı sıx dostluq münasibətlərinin birləşdirdiyini və əlaqələrin daha da genişlənəcəyini diqqətə çatdırdı.

Xanım Marta Dassu yeni təyin olunduğu vəzifəsində ilk görüşünü məhz Azərbaycanın birinci xanımı ilə keçirdiyindən məmnunluğunu dilə gətirdi. "Mən hesab edirəm ki, Azərbaycan hər bir sahədə İtaliya ilə yaxın münasibətdə olmalıdır" – deyən Dövlət Katibi bu əlaqələrin xüsusən iqtisadi və mədəni sahələrdə genişlənməsinin zəruriliyini önə çəkdi.

Xanım M.Dassu Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın tərcümeyi-halı ilə tanış olduğunu diqqətə çatdırdı, onun rəhbərliyi altında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin əhəmiyyətini vurğuladı.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Marta Dassu milli xalçalarımızın sərgisinə baxdılar. Azərbaycan xalçaçılıq məktəbinin zəngin ənənələrini əks etdirən xalçalar sərgiyə baxanlarda heyranlıq doğurdu. Sərgidə yer alan Qarabağ xalçaçılıq məktəbinin nümünələri bu ərazinin əzəli Azərbaycan torpağı olduğunu bir daha sübut etdi. Böyük tarixi inkişaf yolu keçən Azərbaycan xalçaçılıq sənəti bu gün özünün qayğıkeş hamisi olan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə dünyada tanınır, yeni inkişaf mərhələsinə qədəm qoyur.

Qədim misgərlik nümunələrinin və milli musiqi alətlərinin sərgiləndiyi guşə isə Azərbaycanın incəsənətini, mədəniyyətini nümayiş etdirməklə yanaşı, onun qədim tarixinin və ənənələrinin əyani göstəricisi oldu. Bu ənənələr bu gün də qorunub saxlanılmaqdadır.

Sərgidə qonaqlar iki ildir ki, Bakıda keçirilən "Qız qalası" festivalında yaradılan və nümayiş olunan əsərlərə də tamaşa etdilər. İyirmi əsərin nümayiş olunduğu bu sərgidə dünyanın müxtəlif ölkələrindən olan rəssamlar Bakının rəmzi sayılan Qız qalasının timsalında hiss və duyğularını auditoriyaya çatdırdılar.

Sərgi çərçivəsində Heydər Əliyev Fondunun nəşr etdirdiyi və Azərbaycan tarixinin, mədəniyyətinin müxtəlif istiqamətlərini əks etdirən kitab və bukletlərlə yanaşı, "Azərbaycan" nəşrinin italyan dilində variantının təqdimatı oldu. Ölkəmizin tarixi, mədəniyyəti, paytaxtı da daxil olmaqla regionları haqqında ətraflı məlumatın toplandığı nəşrdəki 1000-dən çox fotoşəkil sərgiyə gələnlərdə böyük maraq oyatdı.

Sonra təntənəli mərasim başladı.

Mərasimdə çıxış edən İtaliyanın Xarici İşlər Nazirliyinin Dövlət Katibi Marta Dassu Azərbaycan üçün çox əhəmiyyətli bir yubileyə həsr olunmuş tədbirdə iştirakından şərəf duyduğunu söylədi. O, Mehriban xanım Əliyevanı Azərbaycan mədəni irsinin dünyada təbliği işinə verdiyi töhfələri təqdir etdiyini bildirdi.

Marta Dassu Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinin beynəlxalq aləmdə yüksək qiymətləndirildiyini vurğuladı.

Azərbaycanın birinci xanımı mərasimdə çıxış edərək dedi:

– Hörmətli xanım Dassu! Xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizi Azərbaycana həsr olunmuş bu gecədə səmimi-qəlbdən salamlayıram. Dəvətimizi qəbul edib bu axşam bizimlə olduğunuza görə sizə dərin minnətdarlığımı bildirirəm. Görüşümüz Azərbaycanın tarixində çox əlamətdar bir hadisəyə həsr olunub. Bu il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünü qeyd edir. Biz müstəqil ölkə kimi çox gəncik. Lakin Azərbaycan qədim tarixə və mədəniyyətə malik olan bir ölkədir.

Xəzər dənizinin sahilində yerləşən ölkəmiz əsrlər boyu Qərb və Şərq arasında körpü rolunu oynamışdır. Hələ eramızdan əvvəl II əsrdə Azərbaycanın ərazisindən Böyük İpək Yolu keçmişdir. Mədəniyyətlərin sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanda bir çox qədim mədəniyyətlər öz izini qoyub. Bu izləri biz bu gün də görə bilərik. Bakının yaxınlığında yerləşən Qobustan qayalıqlarında Roma tarixinin izləri vardır. Bu qayaların üzərində eramızın I əsrində buradan Roma İmperatoru Germanikin legionunun keçdiyi əks olunub. Əsrlər boyu ölkəmizdə müxtəlif dillərdə danışan və müxtəlif dinləri təmsil edən insanlar qarşılıqlı hörmət və sülh şəraitində yaşayıb. Bu gün də dini dözümlülük, açıqlıq, tolerantlıq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir.

1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Həmin dövrdə ölkəmizdə demokratiya institutları formalaşmağa başlamışdır. Ölkədə çoxmillətli parlament fəaliyyətə başlamış, Azərbaycan qadınları səsvermə hüququnu qazanmış, müsəlman qızları üçün ilk dünyəvi məktəb açılmış, Şərqin ilk opera və baleti yazılmışdır.

Əfsuslar ki, Xalq Cümhuriyyətinin ömrü çox qısa oldu, cəmi 23 ay sürdü və müstəqilliyimiz böyük imperiyaların siyasi maraqlarının qurbanı oldu. Bir çox amillərin arasında Bakı neftinə artan maraq da öz rolunu oynadı. Nəticədə ölkəmiz müstəqilliyini itirdi, hərbi müdaxilə yolu ilə Azərbaycanda sovet rejimi quruldu.

Sovet dövründə bütün çətinliklərə baxmayaraq, ölkəmizin siyasi potensialı formalaşdı, savadsızlıq tamamilə ləğv olundu, təhsil sistemi quruldu, Milli Elmlər Akademiyası fəaliyyətə başladı. Lakin təməli 1918-ci ildə qoyulan dövlətçilik, müstəqillik və demokratiya ideyaları unudulmadı və nəhayət, 1991-ci ildə ölkəmiz müstəqilliyini bərpa edərək Azərbaycan xalqı öz taleyinin, öz torpağının sahibi oldu.

Müstəqilliyimizin ilk illərində biz çoxlu problem və çatışmazlıqlarla üzləşdik. İyirmi ildən çox sürən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu gün də həllini tapmayıb. Ölkəmizin ərazisinin 20 faizi işğal altındadır, bir milyondan çox soydaşımız məcburi köçkün və qaçqın şəraitində yaşayır. Bu gün də Azərbaycan münaqişənin sülh yolu ilə, Beynəlxalq hüquq və prinsiplər əsasında həllinin tərəfdarıdır. Biz ümidvarıq ki, ölkəmizin ərazi bütövlüyü tezliklə bərpa olunacaqdır. Bütün dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və hər bir qaçqın, hər bir məcburi köçkün öz doğma torpağına qayıdacaqdır.

Əziz dostlar, bu 20 il ərzində biz böyük nailiyyətlər əldə etmişik. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən dövlətlərindən biridir. Regiondakı bütün irimiqyaslı layihələr





Azərbaycanın iştirakı ilə həyata keçirilir. Cənubi Qafqaz dövlətlərinin ümumi iqtisadiyyatının 80 faizi Azərbaycanın payına düşür. Ölkəmizdə sosial problemlər həllini tapır. Son 8 il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə enib, 900 mindən çox yeni iş yeri açılıb, 2 mindən çox yeni məktəb tikilibdir.

Bu gün Azərbaycanın xarici siyasətinin prioritetləri Avropaya və Avratlantik qurumlara inteqrasiyadır, Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirmək və bütün xarici dövlətlərlə qarşılıqlı maraqlar və dostluq əsasında münasibətlər qurmaqdır. Ölkəmiz beynəlxaq sülh və sabitliyin qorunmasına yönəldilmiş dünya miqyaslı proseslərdə fəal iştirak edir. Avropa İttifaqı bu gün Azərbaycanı enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaş kimi tanıyır. Azərbaycan Avropanın neft və qazla təminatına öz töhfəsini verməyə hazırdır.

Bu ilin oktyabr ayında Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir və bu da ölkəmizin beynəlxalq arenada ildən-ilə artan nüfuzunun sübutudur.

Xarici dövlətlərlə əməkdaşlıq siyasətimizdə İtaliya ilə əlaqələrimiz xüsusi yer tutur. İtaliya bu gün Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. İtaliyanın iri şirkətləri Azərbaycanda, xüsusilə də neft sektorunda uğurla fəaliyyət göstərir. Qeyri-neft sektorunda əməkdaşlığımız genişlənir, parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir, hökumətlərarası komissiya artıq 2006-cı ildən fəaliyyətdədir. Onlarca Azərbaycan tələbəsi bu gün İtaliyanın ali məktəblərində və universitetlərində təhsil alır.

Mədəniyyət sahəsində əlaqələrimiz genişlənməkdədir. İtaliyanın paytaxtında – Romada Azərbaycanın mədəniyyət günləri keçiriləcəkdir. Gələn il payızda isə ölkəmizdə İtaliyanın mədəniyyət günləri təşkil olunacaqdır.

Əziz dostlar, dünyanın ən qədim, ən zəngin mədəniyyət və sivilizasiya ocaqlarından biri olan İtaliyada mənim üçün öz ölkəmi təqdim etmək böyük şərəfdir. Bu qədim torpaqda yerləşən mədəni irs bütün bəşəriyyətin sərvətidir. Bu mədəni irs insanlığın, insanların imkanlarının, gözəlliyin, bəşəri dəyərlərin əbədi bir abidəsidir. Biz azərbaycanlılar da mədəni irsimizlə haqlı olaraq fəxr edirik. Azərbaycanın qədim xalçaçılıq məktəbi, ədəbiyyatı, musiqisi, incəsənəti, memarlıq abidələri xalqımızın ən böyük varlığıdır.

Biz bu axşam mədəniyyətimizin kiçik bir hissəsini sizin diqqətinizə təqdim edəcəyik və ümidvaram ki, sizin ürəyinizdə bizim ölkəyə olan maraq və hörmət daha da artacaqdır. Ümidvaram ki, bu gün birgə keçirdiyimiz axşam dövlətlərimizi və xalqlarımızı bir-birinə daha yaxın və bağlı edəcəkdir. Fürsətdən istifadə edərək mən sizin hamınızı Azərbaycana dəvət edirəm. Mən sizin hamınıza xoşbəxtlik, cansağlığı və məhəbbət arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.

***"Azərbaycan" qəzeti,***
***4 dekabr 2011-ci il***



## BAKIDA "FRANSA İNCİLƏRİ" MÖVZUSUNDA MÖHTƏŞƏM SƏRGİ AÇILMIŞDIR

Birinci xanım Mehriban Əliyeva sərgidə çıxış edərək demişdir:

– Xanımlar və cənablar, hörmətli qonaqlar!

Sizləri səmimi-qəlbdən salamlayır və bu gün bizimlə olduğunuza görə dərin minnətdarlığımı çatdırıram.

"Fransa inciləri" sərgisi Heydər Əliyev Fondu, Fransa Mədəniyyət və Kommunikasiya Nazirliyi, Fransa Dövlət Muzeylər Birliyi, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi və digər təşkilatların sıx əməkdaşlığı nəticəsində təşkil olunub. Mən sərginin təşkilində əməyi olan hər bir insana öz dərin minnətdarlığımı bildirirəm. Cənab nazir Mitterana xüsusi minnətdarlığımı bildirirəm və qeyd etmək istərdim ki, "Fransa inciləri" sərgisi digər paytaxtlarda da təqdim olunacaqdır. Lakin ilk dəfə məhz ölkəmizin paytaxtında – Bakı





şəhərində nümayiş olunur və bu da cənab Mitteranın şəxsi təşəbbüsü nəticəsində reallaşıbdır.

Son illər Fransa ilə Azərbaycan arasında mədəni əlaqələrin daha da genişlənməsində, tamamilə yeni bir səviyyəyə çıxmasında cənab Mitteranın böyük səyləri var və biz Heydər Əliyev Fondu tərəfindən Fransada keçirdiyimiz hər bir mədəni tədbirdə onun diqqət və dəstəyini hiss edirik. Mən bu gün böyük məmnuniyyətlə cənab Mitteranı Azərbaycanda salamlayıram.

Sərginin hazırlanmasında böyük əməkləri olan kurator, Acastyo muzeyinin direktoru cənab Filipp Kostamaniyə və həmçinin Heydər Əliyev Fondunun əməkdaşlarına dərin təşəkkürümü bildirirəm.

Əziz dostlar, bu gün Azərbaycanın Milli İncəsənət Muzeyi öz qapılarını Fransanın incəsənətinə incə zövq və zəngin mədəni irsə malik olan bir ölkənin yaradıcılıq ənənələrinə açır. Sərgidə təqdim olunan xalçaçılıq, təsviri incəsənət nümunələri, qravürlər və fotoşəkillər, dekorativ sənət əşyaları Fransanın ən möhtəşəm muzeylərinin kolleksiyalarından gətirilibdir.

Versal sarayını, Luvr və Orse muzeylərini, Pompudi mərkəzini, Fransa Dövlət Kitabxanasını və digər çox məşhur mədəniyyət ocaqlarını bəzəyən 400-ə yaxın eksponat iki aydan çox paytaxtımızda təqdim olunacaqdır. Pussen, Deqa, Renuar, Tuluz-Lotrek, Sisley, Roden kimi dahi rəssamların və heykəltəraşların əsərləri ilə birbaşa tanış olmaq üçün bu gözəl bir fürsətdir.

Fransa incəsənəti ölkəmizdə hər zaman yüksək dəyərləndirilib və fransız dilinə, ədəbiyyatına, musiqisinə olan rəğbət bütün dövrlərdə hiss olunubdur. Keçmişə nəzər salsaq, Fransa-Azərbaycan mədəni tellərini sadalamaq mümkündür. Bu sırada hələ XIX əsrdə məşhur yazıçı Aleksandr Dümanın ölkəmizə səfəri və səfər zamanı xan qızı Xurşidbanu Natəvan ilə görüşü, dahi Üzeyir bəyin 1995-ci ildə Parisin "Femina" teatrında fransız dilində tamaşaya qoyulmuş "Arşın mal alan" operettası, Fransada vaxtilə nəşr olunan "Qafqaz" jurnalının redaktoru Ceyhun Hacıbəylini və Fransa ədəbiyyatına "Banin" imzası ilə daxil olan və ilk fransızdilli yazıçımız Ümbülbanu Əsədullayevanı xatırlamaq olar. Bütün bu şəxsiyyətlər Azərbaycan-Fransa mədəni əlaqələrinə silinməz töhfələr veriblər.

Müasir dövrdə müstəqil Azərbaycan digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də Fransa dövləti ilə əlaqələrini möhkəmləndirir və çox yüksək dəyərləndirir. Fransanın paytaxtında və regionlarında Azərbaycanın mədəniyyət günləri təşkil olunur, müxtəlif sərgilər, festivallar, konsertlər keçirilir. Fransanın bir sıra ali təhsil ocaqlarında Azərbaycan dili fakültələri fəaliyyət göstərir, yüzlərlə azərbaycanlı tələbə Fransanın ali məktəblərində təhsil alır. Bu ilin sonunda Parisdə Azərbaycanın Mədəniyyət Mərkəzi fəaliyyətə başlayacaqdır. Bu ilin aprel ayında Parisdə Azərbaycanın müasir incəsənətini təqdim edən "Bakıya uçuş" adlı sərgi keçiriləcəkdir. Ötən il Heydər Əliyev Fondunun dəstəyi ilə paytaxtımızda

ilk fransızdilli məktəbin binasının inşası başlayıb. Heydər Əliyev Fondu Versal sarayının, Luvr muzeyinin və Strasburqun tarixi kilsəsinin bərpasında da iştirak edib.

Mən əminəm ki, belə görüşlərin, belə tədbirlərin sayı gələcəkdə yalnız artacaq və bu da xalqlarımızı bir-birinə daha yaxından, daha dərindən tanıdacaqdır.

Əziz dostlar, dünya mədəniyyəti müxtəlif xalqlara xas olan incəsənətin ən dəyərli nümunələrini özündə birləşdirir. Fransa xalqı dünya mədəniyyətinə silinməz şedevrlər bəxş edib, ümumbəşəri mədəniyyətdə silinməz iz qoyub. Mən ümidvaram ki, bu sərgini seyr edərək hər birimiz incəsənətin, gözəlliyin, zövqün, dahi sənətkarlığın, bir sözlə, böyük mədəniyyətin əbədi dəyərlərini bir daha hiss edəcəyik.

Mən sizi bir daha bu sərginin açılışı münasibətilə təbrik edirəm. Diqqətinizə görə çox sağ olun.

Sonra Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran çıxış edərək demişdir:

– Heydər Əliyev Fondunun prezidenti, hörmətli Mehriban xanım Əliyeva!

Mədəniyyət və Turizm naziri, hörmətli Əbülfəs Qarayev, Fransanın Azərbaycandakı səfiri, hörmətli Qabriel Keller və Azərbaycanın Fransadakı səfiri, hörmətli Elçin Əmirbəyov, Rəssamlıq Akademiyasının rektoru, hörmətli Ömər Eldarov, Dövlət İncəsənət Muzeyinin direktoru, hörmətli Çingiz Fərzəliyev, sərgi bələdçisi, hörmətli Filipp Kostamaniya, hörmətli dostlar, Fransanın mədəniyyət ocaqları və institutlarının yüksək rütbəli nümayəndələri.

Azərbaycan Respublikasının birinci xanımı, hörmətli Mehriban Əliyeva, Siz artıq burada çıxış etdiniz və əslində bu mühüm tədbir münasibətilə buraya toplaşmağımızın bütün məqsədlərini əhatəli şəkildə bizim üçün təsvir etdiniz. Bunu nəzərə alaraq belə qərara gəldim ki, əvvəlcədən hazırladığım nitqi daha burada söyləməyim. Heç də səbəb o deyildir ki, hazırladığım nitq maraqsız olardı. Lakin xüsusi olaraq qeyd etmək istəyirəm ki, Sizin rəhbərlik etdiyiniz heyət bizim çox ülvi tutduğumuz məqsədlərə xidmət edir, qəlbimizə yaxın olan dəyərləri özündə təcəssüm etdirir. Sizin rəhbərlik etdiyiniz heyət bu baxımdan bu işi çox yüksək səviyyədə yerinə yetirir. Təbii ki, Sizin heyət deyəndə həm Fondun işçilərini, həm Mədəniyyət və Turizm nazirini və o cümlədən bütün digər şəxsləri nəzərdə tuturam. Onlar bizim aramızda etimadın və dostluq tellərinin daha da gücləndirilməsi üçün çalışırlar.

Hörmətli birinci xanım, əslində, Siz burada çox gözəl bir təsvir verdiniz. Bu təsvir məhz Fransanı Azərbaycan və Azərbaycanı Fransa ilə bağlayan çox əhatəli mədəniyyət əməkdaşlığına aiddir. Bu sözləri dedikdə, təbii ki, ön plana aşağıdakılar gəlir. Əslində, aparılan bu mədəni əməkdaşlıq çərçivəsində Azərbaycanın verdiyi töhfə olduqca vacibdir və bu baxımdan həmin sahədə çalışan hər bir şəxsə biz eyni dərəcədə xoş münasibət bəsləyirik.

Əslində, Siz Azərbaycanın Fransada mədəni sahədə apardığı bir sıra işləri burada





sadaladınız. Məsələn, onların sırasında Strasburqda yerləşən tarixi kilsənin vitraj şüşələrinin bərpası ilə əlaqədar aparılan işi xatırlatdınız. Ümumiyyətlə, məhz Sizin səyiniz, zəhmətiniz nəticəsində Fransada aparılan bir çox işləri burada vurğuladınız. Biz isə fransızlar olaraq, Fransa vətəndaşları olaraq bununla bağlı Sizə dərin təşəkkürümüzü bildiririk.

Biz bir neçə dəqiqədən sonra "Fransa inciləri" sərgisinə çıxarılan əsərlərlə tanış olacağıq. Lakin mən hətta bu sərgini nəinki "Fransa inciləri", həmçinin "Azərbaycan inciləri" adlandırardım. Bu məhz onunla bağlıdır ki, Azərbaycan tərəfi bu cür tədbirlərə xüsusi önəm verir. Əslində, Sizin bu işə göstərdiyiniz böyük maraq çox əhəmiyyətlidir. Fransada, ümumiyyətlə, bu cür mədəni tədbirlər xüsusi nüfuza malikdir və bu baxımdan biz hesab edirik ki, əgər Azərbaycan tərəfi, azərbaycanlılar Fransa mədəniyyətinə bu cür maraq nümayiş etdirirlərsə, bu, o deməkdir ki, Fransada Azərbaycanı tanıyanların da sayı çoxalır. Xüsusən də Sizin Fransada mövcud ictimai rəyə təsiriniz artır və kütləvi informasiya vasitələri ilə ölkənizi tanıtmağa imkanlarınız genişlənir.

Əslində, biz bu gün Fransanın mədəni irsinin müəyyən incilərini burada Azərbaycan ictimaiyyətinə nümayiş etdiririk. Lakin Sizin çoxsaylı nümayəndələrin bu sərginin açılışında iştirak etməsi və bundan sonra da ictimaiyyət nümayəndələrinin ekspozisiya ilə tanış olması Fransa tərəfindən çox yüksək dəyərləndiriləcək və Fransanın, Fransa cəmiyyətinin Azərbaycana marağını daha da artıracaqdır. Biz bu baxımdan məlumatlıyıq ki, Azərbaycanın da çox gözəl mədəni irsi vardır. Mən bu sözləri deyərkən Azərbaycanın muzeylərini, poeziyasını, incəsənətini, baletini nəzərdə tuturam. Mən burada xüsusi olaraq qeyd etmək istəyirəm ki, Sizin çox zəngin memarlıq irsiniz var və bütün bunlar artıq öz çıxışınızda qeyd etdiyiniz kimi, silinməz izlər qoymuşdur və bu izlər əsrlər boyu formalaşmışdır.

Təbii ki, aramızdakı mədəni mübadilələr, mövcud münasibətlərin bu sahədə möhkəmləndirilməsi, hörmətli Mehriban xanım, Sizin rəhbərlik etdiyiniz Heydər Əliyev Fondunun xeyirxah münasibəti və sadiqliyi olmadan mümkünsüz olardı.

Mən dünən səhər Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilmək şərəfinə nail oldum. Görüşümüz zamanı mən xüsusi vurğuladım ki, atanız – ulu öndər Prezident Heydər Əliyevin Fransaya ilk rəsmi səfəri bizim yaxşı xatirimizdədir. Bu baxımdan mən xüsusilə qeyd etmək istəyirəm ki, o vaxt çox mühüm, həlledici anlar idi. Azərbaycan Respublikası öz müstəqilliyinə yenidən qovuşmuşdu, öz dövlətçiliyini qururdu. Məhz Heydər Əliyevin Fransaya ilk rəsmi səfəri Fransa Respublikasının o vaxtkı Prezidenti cənab Fransua Mitteranın ikinci prezidentlik dövrünün sonuna təsadüf etmişdi.

Əslində, bu gün təşkil olunan bu sərgi hamımızın ümumi şəkildə mədəni dəyərlərə nəinki sadiqliyimizi nümayiş etdirir, həmçinin Fransanın Azərbaycana ümumi hörmət və ehtiramının, rəmzi və bu sərginin təşkilində əməyi olan hər bir şəxsə göstərilən hörmət və rəğbətin təzahürüdür. Bu baxımdan, təbii ki, biz xüsusi minnətdarlığımızı, xüsusi

təşəkkürlərimizi Sizin rəhbərlik etdiyiniz Heydər Əliyev Fonduna yetiririk ki, bu Fond bunun üçün çox çalışmışdır.

Hörmətli Mehriban xanım, mən onu da qeyd etmək istəyirəm ki, – bunu artıq cənab nazirlə görüşümdə də xatırlatdım, – biz buraya mühüm nümayəndə heyəti ilə gəlmişik. Belə bir səviyyədə, çox sayda nümayəndə heyətinin ölkəyə gəlməsi bir daha onu göstərir ki, Fransanın hakimiyyət orqanları Azərbaycan ilə mövcud mədəni münasibətlərə, əməkdaşlığa xüsusi əhəmiyyət verir. Bunu nəzərə alaraq, mən bəyan edirəm ki, bu gün məhz mədəni əməkdaşlığımızda, münasibətlərimizin tarixində biz yeni bir səhifəni açırıq.

Elə bu münasibətlə, icazə verin, mən bir daha burada cənab Kuzelə xüsusi təşəkkürümü bildirim. Cənab Kruzel Fransanın Milli Muzeylər Birliyinin rəhbəridir. Xanım Labudetə, cənab Abaranda, o cümlədən digər nümayəndələrə – Pompidu Mərkəzinin rəhbərinə, Luvr muzeyinin direktoruna, Fransa Milli Kitabxanasının rəhbərliyinə, Fransanın digər mədəniyyət ocaqlarının rəhbər işçilərinə təşəkkürümü bildirirəm. Onlar bu işə öz töhfələrini vermişlər. Qeyd etmək istəyirəm ki, burada sərgilənən bütün bu əsərlər Fransanın bir çox müxtəlif yerlərində yerləşən mədəniyyət ocaqlarından gətirilmişdir. Onlara da təşəkkürümü bildirirəm. Çünki onlar bu işi ona görə etmişlər ki, Fransa ilə Azərbaycan arasında səmimi, mehriban dostluq münasibətlərinin xüsusi əhəmiyyət kəsb etdiyini yaxşı bilirlər.

Mən bir daha fürsətdən istifadə edib, cənab Filipp Kostamaniyə, onun rəhbərlik etdiyi bütün bu heyətə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu qədər çox sayda əsərlərin burada sərgilənməsi, inanın ki, böyük səylərin göstərilməsini tələb edən bir iş idi. Eyni zamanda, mən, bizim azərbaycanlı dostlarımıza da təşəkkür etmək istəyirəm ki, onlar da bütün hazırlıq işlərində çox fəal olmuş, öz töhfələrini vermişlər. Bütün bunlar aramızda olan və müstəsna əhəmiyyət kəsb edən qarşılıqlı anlaşmanın təcəssümüdür. Eyni zamanda, mən cənab Jan Pol Beyruya da təşəkkürümü bildirmək istəyirəm ki, o da azərbaycanlı dostlarımızla çox sıx işləmişdir ki, bu tədbir həyata keçirilsin.

Hörmətli Mehriban xanım, mən bir daha Sizə, qızınız Leyla xanıma təşəkkürümü bildirmək istəyirəm və ümumiyyətlə, bütün dostlarımızı bir neçə dəqiqədən sonra bu sərgiyə baxmağa dəvət edirəm. Mən sizin hamınızı bizim xüsusi ailəmizin üzvləri hesab edirəm. Bu, məhz mehribanlıq şəraitində yaşayan Azərbaycan-Fransız ailəsidir.

Hörmətli dostlar, işlərimiz bununla bitmir. Xahiş edirəm elə fikirləşməyəsiniz ki, biz, sadəcə, gəldik, bu işi lazımi şəkildə icra etdik. Yox, bu, belə deyildir. Biz bundan sonra da məhz kino sahəsində yeni birgə tədbirlərin, yeni sərgilərin keçirilməsini nəzərdə tuturuq. Biz bilirik və xüsusi qeyd edirik ki, Bakıda fransız liseyi tikilir və Parisdə Azərbaycan evi açılacaqdır. Bu qəbildən bir çox tədbirləri biz bir yerdə keçiririk. Bütün bunlar aramızda olan dostluq münasibətlərinin daha da dərinləşməsinə xidmət edir və əslində, bu, qarşılıqlı mədəni əməkdaşlığımızın işıq saçan, istilik, hərarət bəxş edən bir Günəşidir.

Hörmətli Mehriban xanım, Sizin dəstəyiniz olmasaydı, ümumiyyətlə, bu sərgi





mümkünsüz olardı. Mən bir daha Sizə dərin təşəkkürümü bildirirəm. Siz qiymətli vaxtınızı, gücünüzü, enerjinizi məhz bu tədbirin uğurla həyata keçirilməsinə sərf etdiniz və əslində, bu cür tədbir, sərgi artıq digər ölkələr üçün də yaxşı nümunə ola bilər.

Bir daha Sizə təşəkkürümü bildirmək istəyirəm.

Zənnimcə, Sizin bizə göstərdiyiniz bu etimadı, yəqin ki, biz müəyyən qədər də olsa, doğrulda bildik.

"Fransa inciləri"nə xoş gəlmisiniz! Sizi burada görməkdən çox məmnunuq. Diqqətinizə görə minnətdaram!

Sonra iştirakçılar "Fransa inciləri" sərgisi ilə tanış oldular.

***"Azərbaycan" qəzeti,***
***11 mart 2012-ci il***

# MEHRİBAN ƏLİYEVA: "ƏMİNƏM Kİ, QARŞIDAKI MÜSABİQƏ BİR ÇOXLARINA AZƏRBAYCANI DAHA YAXŞI TANIMAĞA, ONUN TARİXİ VƏ MƏDƏNİYYƏTİ İLƏ TANIŞ OLMAĞA KÖMƏK EDƏCƏK"

Bakıda keçiriləcək "Eurovision – 2012" müsabiqəsinin Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyeva Trend agentliyinin suallarını cavablandırdı.

**– İlk növbədə, icazə verin, Sizi Novruz bayramı münasibətilə təbrik edək. Artıq mart ayının sonlarıdır və Bakıda keçiriləcək "Eurovision – 2012" mahnı müsabiqəsinin başlamasına çox az vaxt qalır. Müsabiqənin yaxınlaşması Sizin üçün nə deməkdir: çoxları üçün olduğu kimi, fərəhli bayram gözləntisi, yaxud ağır, gərgin iş?**

– Bu gün biz hamımız böyük ümumavropa musiqi bayramının gözləntisindəyik. Musiqi dili milliyyətindən və etiqadından asılı olmayaraq hamıya aydındır. Və bu, çox rəmzidir ki, həmin may günlərində müxtəlif ölkələrin musiqi nümayəndələri müxtəlif musiqi üslubları ilə bir səhnədə dayanacaqlar və müxtəlif dillərdə mahnılar səsləndirəcəklər. Bu müsabiqənin ölkəmizdə keçirilməsi faktının özü duetimizin qazandığı parlaq qələbənin nəticəsi, eləcə də ifaçıların özlərinin, onların qalib çıxışının hazırlanmasında iştirak edənlərin böyük uğurudur. Lakin bu gün qarşımızda artıq başqa tapşırıq durur: "Eurovision – 2012"-ni layiqli keçirmək. Bu, müsabiqənin iştirakçılarının, qonaqların, tamaşaçıların əksəriyyəti üçün ölkəmizlə ilk tanışlıq olacaq. Əminəm ki, qarşıdakı müsabiqə bir çoxlarına Azərbaycanı daha yaxşı tanımağa, onun tarixi və mədəniyyəti ilə tanış olmağa kömək edəcək. Çoxsaylı qonaqlarımız görəcəklər ki, Bakı necə gözəldir, tarixi və mədəniyyət abidələrini ziyarət edəcək, Qərb və Şərq memarlığının ahəngdar şəkildə birləşdiyi küçələrdən keçəcəklər. Onlar xalqımızın mehribanlığına və qonaqpərvərliyinə əyani şəkildə əmin olacaqlar. İnanıram ki, onların əksəriyyəti qədim və sürətlə inkişaf etməkdə olan Azərbaycan barədə şəxsi təsəvvürlərini formalaşdıracaqlar. Və bir çoxları Odlar Yurdunu tərk edərkən öz qəlblərində buradan alov zərrəciyi aparacaqlar. Axı "Öz məşəlini alovlandır" sözləri nahaq yerə müsabiqəmizin devizi olmayıb. Lakin bununla yanaşı, belə irimiqyaslı hadisəyə hazırlıq nəhəng işdir. Məsələn, 2020-ci il Olimpiya Oyunlarının harada keçiriləcəyi artıq bu gün həll edilir. Növbəti "Eurovision" müsabiqəsinin harada keçiriləcəyi isə ondan əvvəlki müsabiqənin son dəqiqələrində məlum olur. Yeni ölkəyə müsabiqəyə hazırlıq üçün bir il vaxt verilir. Və bu müddət ərzində bir çox işlərin öhdəsindən gəlmək lazımdır. Məhz buna görə də biz müsabiqəyə qələbəmizin ilk günlərindən sonra hazırlaşmağa başladıq. Müsabiqənin uğurla keçirilməsi məqsədilə dövlət idarələrinin zəruri işlərinin əlaqələndirilməsi ilə bağlı məsələlərin həllinə dəstək göstərmək üçün dərhal müsabiqənin Təşkilat Komitəsi yaradıldı. Təşkilat Komitəsi hazırda işçi qrupla sıx əlaqədə işləyir. İndi həmin iş artıq başa





çatmaq üzrədir. Və müsabiqənin başlanmasına, həqiqətən də, çox az vaxt qalır.

**– Mehriban xanım, bəs Siz özünüz "Eurovision" müsabiqəsinə hazırlığın keyfiyyətini necə qiymətləndirirsiniz?**

– "Eurovision" müsabiqəsinə hazırlığın səviyyəsi və keyfiyyəti barədə yalnız müsabiqənin başa çatmasından sonra mühakimə yürütmək olar. Amma hələlik ən etibarlı və obyektiv meyar, fikrimcə, Avropa Yayımları Birliyinin nümayəndələrinin və ekspertlərinin fikirləridir. Onlar ölkəmizin ümumavropa mahnı müsabiqəsinə hazırlıq səviyyəsini çox yüksək qiymətləndirirlər. Və doğrudan da az iş görülməyib. Təşkilat Komitəsinə daxil olan idarələrin qarşısında şəhər infrastrukturlarının modernləşdirilməsinə, kommunikasiya texnologiyalarının genişləndirilməsinə, qonaqların və müsabiqə iştirakçılarının rahat yerləşdirilməsinə istiqamətlənmiş konkret tapşırıqlar qoyulub. Mövcud hotellərin vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, paytaxtda yeni mehmanxanalar tikilir, avtomobil magistrallarının yaxşılaşdırılması üzrə işlər aparılır. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, müsabiqə iştirakçıları və qonaqlar üçün vizaların alınması prosesi sadələşdirilib. Daha doğrusu, ölkədə bu müsabiqənin layiqincə qəbul edilməsi və təşkil olunması üçün mümkün olan hər şey edilir.

**– Mehriban xanım, Siz "Eurovision – 2012" mahnı müsabiqəsinin Bakıda keçirilməsinin Azərbaycanı dünyaya tanıtmaq, müsabiqə iştirakçılarını və qonaqları ölkəmizin keçmişi və bu günü ilə tanış etmək, onlarda Azərbaycan haqqında təsəvvürlərin formalaşması üçün daha bir şans olduğunu qeyd etdiniz. Bəs, ölkəmiz müsabiqənin qonaqlarını və iştirakçılarını necə və nə ilə qarşılayacaq?**

– Müsabiqənin keçiriləcəyi yer haqqında daha ətraflı danışmaq istərdim. Bildiyiniz kimi, Bakı şounun keçirilməsi üçün üç yer təqdim etmişdi. Onlardan biri "Bakı Kristal Zalı" idi. Habelə, qeyd etməyə dəyər ki, "Bakı Kristal Zalı" 2020-ci il Olimpiya Oyunlarının keçirilməsi üzrə ölkəmizin verdiyi ərizə çərçivəsində idman arenalarının siyahısına daxil edilib. "Bakı Kristal Zalı" Dövlət Bayrağı Meydanının lap yaxınlığında yerləşir və oradan şəhərin möhtəşəm mənzərəsi açılır. Bu kompleks Cənubi Qafqazda ən böyük idman-konsert arenası olacaq. Onun arxitekturası Şərqlə Qərb arasında körpüdür. Bu binanın divarlarına çoxsaylı kristallar bərkidiləcək və onlarda işığın rəqsi tamamilə təəccüblü vizual effektlər yaradacaq. Əminəm ki, həm yerli, həm də xarici mütəxəssislərin səyləri sayəsində bu möhtəşəm arenanın tikintisi vaxtında başa çatdırılacaq. Kompleksin yanında bu müsabiqəni işıqlandırmaq istəyən jurnalistlər üçün mətbuat mərkəzi yerləşəcək. Şəhərin müxtəlif yerlərində böyük teleekranlar quraşdırılacaq və bu teleekranlar vasitəsilə müsabiqəni izləmək mümkün olacaq. "Eurovision" ilə eyni vaxtda digər mədəni tədbirlər də keçiriləcək. Bu gün həmin tədbirlərin siyahısı dəqiqləşdirilir. Müsabiqə başlayanadək Dövlət Bayrağı Meydanına qədər uzanacaq "Yeni bulvar"ın tikintisi başa çatdırılacaq.

**– Mehriban xanım, söhbət "Yeni bulvar"ın tikintisindən düşmüşkən, son həftələr KİV-də, o cümlədən Avropa ölkələrində iddia edildiyinə görə "Eurovision"a hazırlıqla bağlı**

**evlərin sökülməsi nəticəsində yaranan problemə, yəni, bu evlərin sakinlərinin narazılığına böyük diqqət ayrılması barədə soruşmaya bilmərəm...**

– Bəli, mən KİV-nin bu materialları ilə tanışam. Çox təəssüf ki, qarşıdakı müsabiqəyə həsr edilmiş məqalələrin müəlliflərinin heç də hamısı ümumiyyətlə, yazmağa başladıqları məsələ haqqında kifayət qədər səriştəli deyil. Hər şeydən əvvəl, bir daha qeyd etmək istəyirəm: evlərin sökülməsinin "Eurovision"a hazırlıqla heç bir əlaqəsi yoxdur. Bu gün doğma Bakımızın mənzərəsi dəyişir, paytaxtda yeni parklar salınır, yollar çəkilir, yaşayış və ofis kompleksləri ucaldılır. Bu yenidənqurma işləri duetimiz "Eurovision"da qələbə qazanmazdan əvvəl başlayıb və müsabiqə başa çatdıqdan sonra da davam edəcək. Buna görə də bu məsələnin "Eurovision" ilə heç bir əlaqəsi yoxdur. Lakin belə miqyaslı işlərin həyata keçirilməsi zamanı, mütəxəssislərin dediyi kimi, çox vaxt torpaqların özgəninkiləşdirilməsinə və mənzillərin, xüsusilə, çox köhnə, komfortsuz, azmərtəbəli, müasir tələblərə cavab verməyən mənzillərin sökülməsinə zərurət yaranır... Belə hallar baş verib, baş verir və sizi inandırım ki, praktiki olaraq yeni yolların çəkildiyi, evlərin tikildiyi və ya yeni metro xətlərinin çəkildiyi hər yerdə baş verəcək. Əmin edirəm ki, Azərbaycanda hər şey qanuna uyğun edilir. Evləri sökülən sakinlərə kompensasiya ödənilir, onlara yeni mənzillər təklif edilir. Çoxlu sayda ailələrin köçürülməsi zamanı narazı qalanlar da mütləq olacaq. Bu, həm obyektiv, həm də subyektiv amillərlə bağlıdır. Harada isə onlarla şəxslərdən bazarla müəyyən edilmiş kompensasiyanın həcmindən razı qalmayan bir nəfər olacaq, halbuki kompensasiya onlara bərabər həcmdə ödənilir. Köçürülmə zamanı kömək göstərilməsində və ya müvafiq şəraitin yaradılmasında kifayət qədər nəzakətli olmayan aşağı rütbəli məmurların lüzumsuz hərəkətlərə cəhdi ola bilər. Belə hallar, təbii ki, tutduğu vəzifədən asılı olmayaraq, qarşısında hamının eyni olduğu qanuna uyğun nəzərdən keçirilməlidir.

Fikrimcə, burada "orta yanaşma" qəbuledilməzdir. Üstəlik, böyük səs-küy xətrinə bu problemi evlərin sökülməsi ilə əlaqəsi olmayan "Eurovision"la bağlamaq xoş hal deyil. Hətta Avropa Yayımları Birliyi olduqca hörmətli və nüfuzlu xarici KİV-i rəsmən xəbərdar etmişdi ki, "Eurovision" müsabiqəsi haqqında qeyri-obyektiv və qərəzli materiallar yaymaq lazım deyil. Üstəlik, bu proseslərə siyasi məna vermək cəhdi heyrətləndirir və məyus edir. Kimlər üçün Avropa estrada mahnı müsabiqəsi böyük və gözəl bayramdır, digərləri üçün isə siyasi təxribat yaratmaq bəhanəsidir. Buna hazır olmaq lazımdır. Lakin mən əminəm: bizim və daha 40-dan artıq iştirakçı ölkənin bayramını korlamaq alınmayacaq. Xüsusən, xoşdur ki, vətəndaş cəmiyyətində bütün vətəndaşları ölkədə müsabiqənin keçirilməsini dəstəkləməyə çağıran gənclərin təşəbbüsü başlayıb və bu çağırış çoxsaylı tanınmış insanlar arasında dəstəyini tapıb. Bu mövqe vətəndaşlarımızın Azərbaycanda müsabiqənin keçirilməsinə əsl münasibətini daha yaxşı nümayiş etdirir.

**– Siz qeyd etdiniz ki, Bakıda keçiriləcək "Eurovision – 2012"-də 40-dan artıq ölkə iştirak edəcək. Bəziləri ifaçının adını və müsabiqədəki mahnını müəyyənləşdirib, digərləri hələ də finaladək son günləri istifadə edir. Bir neçə gün əvvəl mətbuatda məlumat yayıldı**





**ki, Ermənistan "Eurovision"da iştirakdan imtina edib, çünki bu müsabiqə Azərbaycan paytaxtında keçirilir.**

– Məndə və fikrimcə, çoxlarında erməni tərəfinin belə qərarı anlaşılmazlıq yaradır. Avropa Yayımları Birliyi və Azərbaycan hakimiyyəti dəfələrlə təsdiq ediblər ki, Ermənistan daxil olmaqla, bütün ölkələrin müsabiqə təmsilçilərinin və qonaqların təhlükəsizliyinə zəmanət verilir. Ermənistanın rəsmi nümayəndə heyətləri beynəlxalq görüşlərdə, konfranslarda, forumlarda və idman yarışlarında iştirak etmək üçün bir neçə dəfə Azərbaycana gəliblər və Azərbaycan hakimiyyəti bu ölkənin nümayəndə heyəti üzvlərinin təhlükəsizliyini həmişə təmin edib. Və mən şübhə etmirəm ki, "Eurovision" müsabiqəsində ermənistanlı qonaqlar və iştirakçıların təhlükəsizliyi həmişə olduğu kimi, tam təmin ediləcək idi. Lakin Yerevanda əvvəlcə vəd verdilər ki, müsabiqədə iştirak edəcəklər, təhlükəsizlik zəmanəti tələb etdilər, bu zəmanəti aldılar, lakin sonradan bəyan etdilər ki, "Eurovision"da iştirak etməyəcəklər. Hesab edirəm ki, bu, həm müsabiqə iştirakçılarına, həm də Ermənistanın müsabiqədə təhlükəsiz iştirakı üçün çox səy göstərən Avropa Yayımları Birliyinə hörmətsizlikdir. Şübhəsiz ki, Avropa Yayımları Birliyinin üzvü olan hər bir ölkənin müsabiqədə iştirakdan imtina etməsinə görə öz səbəbləri ola bilər. Lakin təəccüb və təəssüf doğuran odur ki, Yerevanda "Eurovision"da iştirakdan imtinanı Azərbaycanın ünvanına heç bir əsası olmayan çoxsaylı ittihamlarla müşayiət etməyə cəhd göstərirlər. Deyirlər ki, həyatda qələbəyə can atmaq lazımdır, lakin bəzən məğlub olmağı bacarmaq da lazımdır. Bəzən öz uğursuzluğunu yaşamaq özgə qələbələrə tabe olmaqdan daha asandır. Təəssüf ki, Azərbaycanda da "ölkə üçün nə qədər pisdirsə, onlar üçün bir o qədər yaxşıdır" prinsipi üzrə uzun müddət yaşayan və fəaliyyət göstərən kateqoriyalı insanlar var. Onların ictimai və siyasi fəaliyyətlərinin məqsədi Azərbaycanda baş verən bütün müsbət hadisələrə qara yaxmaq cəhdidir. Və bizim növbəti qələbəmizi – "Eurovision"dakı qələbəmizi bu insanlar şəxsi faciə kimi qəbul etdilər. Xoşbəxtlikdən belə insanlar cəmiyyətimizin mütləq azlığını təşkil edir və onların Bakıda "Eurovision" müsabiqəsinin keçirilməsinə mane olmaq cəhdləri uğursuzluğa məhkumdur.

**– Və sonuncu sual. Siz Bakıda keçiriləcək "Eurovision – 2012" müsabiqəsinin iştirakçılarına və qonaqlara nə arzu edərdiniz?**

– Bütün iştirakçılara uğur, tamaşaçı sevgisi, alqışlar və, əlbəttə, səs toplamalarını arzulayıram. Mən məmnuniyyətlə həm iştirakçıları, həm də qonaqları paytaxtımıza, gözəl və günəşli Bakımıza dəvət edirəm. Əminəm ki, bayramla bu görüş may ayı günlərində "Eurovision"a gələcək bütün insanlarda Azərbaycanda olduqları barədə xoş təəssüratlar yaradacaq. Mən onların hamısına ürəkdən deyirəm: Xoş gəlmisiniz!

**– Söhbətə görə sağ olun.**

***"Azərbaycan" qəzeti,***
***20 mart 2012-ci il***



# AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ADINDAN PARİSDƏ "BAKIYA UÇUŞ" SƏRGİSİNDƏ İŞTİRAK EDƏN QONAQLARIN ŞƏRƏFİNƏ ZİYAFƏT VERİLMİŞDİR

2012-ci ilin aprelin 11-də Parisdə Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının dəstəyi və təşkilatçılığı ilə "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" mövzusunda sərgi açılmışdır.

Sərgi ilə tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından tədbirdə iştirak edən qonaqların şərəfinə ziyafət verilmişdir.

Ziyafətdə Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış etmişlər.

**Frederik Mitteranın çıxışı**

– Hörmətli Mehriban xanım! Hörmətli cənablar!

Hörmətli senat üzvləri! Əziz dostlar!

Xanım Əliyeva, icazə verin Sizi kiçik nitqimlə burada bir daha salamlayım. Bu axşam keçirilən sərgidə təşkilatçılıq işlərində xüsusi rol oynamış qızınız Leylanın burada olmağını qeyd etmək istərdim. Sizin simanızda biz Azərbaycanın mədəni həyatının görkəmli şəxsiyyətini, ölkəmizin dostunu görürük.





Azərbaycanda keçirilmiş "Fransa inciləri" sərgisi bizim üçün xüsusi əhəmiyyət kəsb edirdi. Bilirik ki, bu işdə Sizin böyük əməyiniz olmuşdur. Bundan əlavə, Bakıdakı Müasir İncəsənət Muzeyi mədəni tədbirlərin təşkil edilməsində də çox fəaldır. Bilirik ki, Bakıda Xalça Muzeyinin binası tikilir. İşlər başa çatdırıldıqdan sonra onun dünyada ən gözəl xalça muzeylərindən birinə çevriləcəyinə əminik.

Bu gün keçirilən "Bakıya uçuş" sərgisinin əsas məqsədi gənc rəssamlar nəslinin yaratdığı əsərləri nümayiş etdirməkdir. Bu sərgi öz xüsusiyyətləri ilə seçilən incəsənətə xüsusi marağı olan Paris ictimaiyyəti üçün təşkil olunmuşdur. Bu təşəbbüsə və sərginin keçirilməsinə verdiyiniz dəstəyə görə Sizə öz həmkarlarım və Fransa hökuməti adından dərin təşəkkürümü bildirirəm.

Hörmətli xanım Əliyeva, bu gün axşam bizimlə olmağınızdan fərəh hissi duyuram. Bu gün axşam müğənnimiz Patrisia Kaas və Fransanın muzey işçiləri bizimlədir. Burada Fransanın Muzeylər Şurasının sədri cənab Kruzeli görürəm. O, Bakıda keçirilmiş "Fransa inciləri" sərgisinin təşkil edilməsində xüsusi rol oynamışdır. Xüsusilə burada Filip Kostamaniyanın iştirakını qeyd edərdim. Bildiyiniz kimi, bu şəxs Bakıda keçirdiyimiz sərginin bələdçisi olmuşdur. O sərgi çox uğurlu keçmişdir. Bu axşam isə Parisdə açdığımız sərginin artıq uğurla baş tutmasından danışmaq olar.

Hörmətli xanım Əliyeva! Siz keçirdiyimiz bu tədbirlərin hamısında iştirak edirsiniz. Bu gün bizimlə olduğunuza görə bir daha minnətdaram və bundan məmnunam. Sağ olun.

**Mehriban xanım Əliyevanın çıxışı**

– Hörmətli cənab nazir! Hörmətli qonaqlar!

İlk növbədə, mən sizin hamınızı bu axşam burada salamlayıram və bu gün bizimlə olduğunuza görə sizə dərin minnətdarlığımı çatdırıram.

Cənab nazir, sizə mənim fəaliyyətim, Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə xüsusi minnətdarlığımı bildirirəm.

Doğrudan da, bu gün Fransanın paytaxtı Parisdə belə bir sərginin keçirilməsi Azərbaycanın mədəni həyatında böyük bir hadisədir.

Çünki Paris təkcə Fransanın yox, demək olar ki, bütün dünyanın mədəniyyət paytaxtıdır. Bu sərgi ilk dəfə Londonda nümayiş olunmuşdur. Bu gün Parisdə göstərilir. Sonra dünyanın digər ölkələrinin paytaxtlarında da nümayiş olunacaqdır. Mən sərginin hazırlanmasında əməyi olan bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Şəxsən bizim gənc, doğrudan da, istedadlı rəssamların adından sizə dərin minnətdarlığımı çatdırıram. Mən ümidvaram ki, bu sərgi ölkəmizin zəngin mədəniyyətini, mədəni irsini Fransada daha da yaxşı tanıdacaqdır. Çünki bizim fəaliyyətimizin

əsas məqsədi Azərbaycanı, onun zəngin mədəniyyətini, tarixini tanıtmaqdır.

Bu gün sərginin açılışı oldu. Bu sərgi iki həftə Fransada nümayiş olunacaq və inanıram ki, böyük maraq doğuracaqdır.

Mən bir daha sizin hamınıza qonaqpərvərliyinizə, diqqətinizə görə minnətdarlığımı, sizin ölkənizə olan hörmət və məhəbbətimi çatdırıram.

Sonda fürsətdən istifadə edərək sizin hamınızı Azərbaycana dəvət edirəm. Çox sağ olun.

*"Azərbaycan"qəzeti,*
*17 aprel 2012-ci il*





## BACARDIĞIMIZ HƏR ŞEYİ EDƏCƏYİK

Nüfuzlu "Business-year" jurnalının Azərbaycana həsr olunmuş 2012-ci il tarixli xüsusi buraxılışında birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın aşağıdakı müsahibəsi dərc olunmuşdur.

**– Siz dünyada ən işgüzar birinci xanım kimi tanınırsız. Siz Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Azərbaycan Gimnastika Federasiyasının rəhbəri, eyni zamanda Azərbaycan Milli Məclisinin deputatısınız. Belə böyük və çoxşaxəli fəaliyyət Sizin üçün nə deməkdir?**

– Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən. Bu kömək müxtəlif cür ola bilər. Bəziləri itirdiyi sağlamlığını qaytarmağa çalışır, bəzisi təhsil almaq, digəri muzey yaratmaq istəyir, biri isə gələcək nəsillər üçün abidələri qorumaq istəyir. Bəzən infrastruktur dəyişikliklərini müdafiə etmək zərurəti yaranır, bəzən də maraqlı layihələrin təşkilati dəstəyə ehtiyacı olur. Ən əhəmiyyətlisi odur ki, biz həm böyük layihələrin həyata keçirilməsi ilə, həm də insanlara kömək etməklə məşğuluq.

**– Heydər Əliyev Fondu 2004-cü ildə yaranmışdır. Yarandığı gündən bəri Fond bir sıra mədəni, təhsil və səhiyyə layihələrini həyata keçirmişdir. Fondun fəaliyyətini necə qiymətləndirirsiniz?**

– Bizim fəaliyyətimizin, layihə və proqramlarımızın təsnifatını vermək çətindir. Əvvəldən başlayaraq fəaliyyətimizin əsas istiqamətlərini müəyyənləşdirdik. Buraya təhsil, mədəniyyət, səhiyyə, idman və sosial sahələr daxil idi. Səkkiz il ərzində Heydər Əliyev Fondu həmin sahələrdə uğurlu layihələr həyata keçirmişdir. Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək Bakıda yüksək səviyyəli konfranslar və festivallar keçirdik. Fond təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək, qayğıya ehtiyacı olanlara kömək göstərmək, milli-əxlaqi dəyərləri qorumaq, həmçinin dünya ictimaiyyətinin diqqətini Azərbaycan həqiqətlərinə cəlb etmək üçün fəaliyyətini davam etdirir. Belə bir anlayış var: humanist meyar. Bizim Fond bu aspektdə işləyir. Fərqləndirmək çətindir ki, deyəsən, bu təcilidir, bu isə gözləyə bilər. Məsələn, Fondun layihələri çərçivəsində yüzlərlə məktəb, onlarla uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilmiş, təmir olunmuş, yüksək standartlar səviyyəsində təchiz olunmuşdur. Belə müasir məktəblər yeni üfüqlər açır, şagirdlər üçün yeni imkanlar yaradır. Bu isə on minlərlə oğlan və qızı layihəyə cəlb etmək deməkdir. Fondun təşəbbüsü ilə yəhudi təhsil mərkəzi, fransız məktəbi yaradılmışdır. Çox mühüm işdir, qoyulan sərmayənin özünü doğruldacağı şübhəsizdir. Eyni zamanda, Fondumuz genişmiqyaslı səhiyyə layihələri həyata keçirir. Buraya xəstəxanalar, klinikalar tikilməsi, müasir avadanlıq alınması, diabet və talassemiya xəstəliklərinin müalicəsi daxildir. Bu layihələrin hər biri neçə həyatın qorunması və sağlamlığı deməkdir.

Mədəniyyətin, mədəni irsin qorunması Fondun fəaliyyətində başqa bir istiqamətdir. Fondun dəstəyi ilə musiqi tədbirləri, ənənəvi muğam festivalı, Qəbələ beynəlxalq musiqi festivalı və Rostropoviç klassik musiqi festivalı keçirilir. Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilmiş, regionlarda yeni muzey və musiqi məktəbləri yaradılmışdır. Biz beynəlxalq təşkilatlarla, o cümlədən YUNESKO, İSESKO və YUNİSEF ilə fəal əməkdaşlıq edirik. Buna baxmayaraq, elə bilirəm ki, Fondun fəaliyyətinin ən böyük nəticəsi Azərbaycanda xeyriyyə fəaliyyətini canlandırmaq olub. Ölkəmizdə xeyriyyə fəaliyyətinin uzun tarixi vardır. İlk neft bumu dövründə neft maqnatları Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev bu ənənələrin yaranmasına böyük töhfə vermişlər. İyirminci əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyev qızlar üçün ilk dünyəvi məktəbin tikintisini, ilk milli teatrın açılmasını maliyyələşdirib. O, azərbaycanlı gənclərin Rusiyada və Avropada təhsil almasına da yardım edib. Musa Nağıyevin tikdirdiyi gözəl binalar Bakının memarlıq inciləri sırasındadır. Yaxşı haldır ki, bu ənənələr qədim tarixi olan Şərq ilə Qərbin kəsişdiyi yerdə qərar tutan tolerant və dünyəvi Azərbaycanda indi də yaşayır. Burada keçmişlə indiki zaman həmahəng olaraq yaşayır.

**– Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, həm də xarici ölkələrdə nadir mədəni irsin qorunmasına ciddi töhfələr verməkdədir. Məsələn, Fond Parisdə Notr-Dam, Strasburq Kafedral kilsələrinin bərpasına da yardım edib. Sizcə bu işlərin əhəmiyyəti nədir?**

– Qədim və zəngin mədəni irs xalqımızın iftixarıdır. Buraya əsrlərlə yaşı olan xalçaçılıq sənəti, ədəbiyyat, Şərq-Qərb musiqisinin füsunkar harmoniyasını təqdim edən musiqi, həmçinin "donmuş tarix" adlanan Azərbaycan memarlıq abidələri daxildir. Azərbaycan muğamı, Novruz bayramı, aşıq sənəti, xalçaçılıq YUNESKO-nun maddi-mədəni irs siyahısına daxil edilmişdir. Tarixi-mədəni irs müntəzəm qayğı tələb edir. İtmiş hər hansı maddi dəyər əvəzedilməzdir və inamla deyə bilərəm ki, bu, gələcək nəsillərə qarşı cinayətdir. Ona görə də həm ölkəmizdə, həm də sərhədlərimizdən kənarda mədəni irsin qorunması üçün əlimizdən gələni edirik. Heydər Əliyev Fondu bir sıra memarlıq abidələrini, o cümlədən Dünya Mədəni İrs siyahısına daxil edilmiş Versal sarayını bərpa etmişdir. Fondumuz Parisdə on dördüncü əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək etmişdir. Fond bu istiqamətdə fəaliyyətini davam etdirəcəkdir. Hazırda biz Vatikanda mədəni abidələrin bərpası üçün danışıqlar aparırıq. Mədəni və humanitar əlaqələrin qurulması ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Mədəni əməkdaşlıq bir-birimizi necə tanıdığımızı üzə çıxarır, bir-birimizin tarixini, mədəniyyətini, ənənələrini necə bildiyimizi göstərir. 2011-ci ildə Fond müstəqilliyimizin 20-ci ildönümü münasibətilə müxtəlif ölkələrdə böyük tədbirlər keçirdi. Elə bilirəm ki, bu tədbirlər bir çox insanların bizi tanımasına yol açdı, onlar musiqimizi, mədəniyyətimizi, incəsənətimizi sevdilər. Yanvar ayında Londonda "Bakıya uçuş: Azərbaycanın müasir incəsənəti" sərgisini təşkil etdik. Sərgidə ən müxtəlif janrlarda bir-





birindən maraqlı əsərlər, boyakarlıq, qrafika, foto və video nümunələri nümayiş etdirildi. Belə sərgilər tezliklə Berlində, Nyu-Yorkda, Parisdə və Romada da keçiriləcəkdir.

Qeyd etmək istərdim ki, Fondun beynəlxalq fəaliyyəti yalnız mədəni tədbirlə məhdudlaşmır. Fond Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikmişdir. Köhnə məktəbi zəlzələ dağıtmışdı. Hollandiyada, Gürcüstanda, Misirdə, Rusiyada və Rumıniyada məktəblər tikilmiş və ya təmir edilmişdir. Haiti zəlzələsindən, Rumıniya daşqınlarından əziyyət çəkmiş insanlara yardım etmişik. Heydər Əliyev Fondu Azərbaycanın digər ölkələrlə dialoqunun genişləndirilməsinə öz töhfəsini verir. Fondumuz beynəlxalq əməkdaşlıq üçün gözəl imkanlar yaradır.

**– Dünya iqtisadiyyatının böhran içində olduğu bir vaxtda Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Azərbaycanda xeyriyyə fəaliyyətini inkişaf etdirməyin əhəmiyyəti nədir?**

– Azərbaycanın uğurları aşkardır. Dövlət büdcəsi 16 dəfə artmışdır, minlərlə məktəb, yüzlərlə səhiyyə müəssisəsi, onlarla idman qurğusu tikilmişdir. Yoxsulluğun səviyyəsi beş dəfə azalaraq 49 faizdən 9 faizə enmişdir. Sevimli Bakımız çox dəyişmişdir, Azərbaycanın rayonları da dəyişmişdir. Bu, ölkədə inkişafın miqyasını və dərəcəsini aydın göstərir. Buna baxmayaraq, qeyri-kommersiya sahəsində xeyli iş görülməlidir. Hər şeydən əvvəl, mədəniyyət sahəsində. Bu gün Azərbaycan daha çox neft və qaz ixracatçısı kimi tanınır. Amma bizim tariximiz, mədəniyyətimiz də əhəmiyyətli milli irsdir. Zəruri sosial layihələr də bizi gözləyir, amma sosial-iqtisadi inkişaf hələ o səviyyədə deyildir.

Zənnimcə, insanın hissləri, daxili duyumu çox mühüm amildir. İqtisadi böhran davam edirsə, xeyriyyə ənənələrini və sosial məsuliyyəti artırmaq həyati zərurətə çevrilir, bu, insana başqasının dərdinə yanmaq və onu başa düşmək qabiliyyəti aşılayır. Bu, həyatımızın bir parçasına çevrilməlidir.

**– Bir il əvvəl Azərbaycan Ell və Nikki duetinin timsalında Düsseldorfda "Eurovision" mahnı yarışmasında qələbə qazandı. "Eurovision-2012" yarışmasının Təşkilat Komitəsinin sədri kimi deyə bilərsinizmi, Azərbaycan belə mühüm bir tədbirə ev sahibliyi etməyə necə hazırlaşır?**

– Deməliyəm ki, "Eurovision" mahnı yarışmasında təmsilçilərimizin qələbəsini xalqımız çox böyük coşqu ilə qarşıladı. Bir azərbaycanlı, ölkəmin bir vətəndaşı kimi bu hadisə mənə hədsiz təsir etdi. Bu həm iştirakçıların, həm də onların çıxışını hazırlayanların böyük uğurudur. "Eurovision"da qələbə onu göstərir ki, həyatda uğur və məsuliyyət yanaşıdır. Belə irimiqyaslı yarışmaya hazırlıq bir çox aspektlərdən asılıdır: konsert zalı, otellər, şəhər təchizatı, infrastruktur. Bizim hazırlığımız artıq sona çatır. Ümid edirəm ki, hazırlığımızın nəticələrini aprel ayında yekunlaşdıra bilərik. Başqa bir məsələni qeyd etmək istərdim. "Eurovision" müxtəlif ölkələrin, müxtəlif xalqların və müxtəlif mədəniyyətlərin ümumi təntənəsidir. Azərbaycanda əsrlər boyu müxtəlif millətlərin və dinlərin nümayəndələri sülh və harmoniya içində dinc yanaşı yaşamışlar.

Qitələrin və sivilizasiyaların qovuşuğunda yerləşən bir ölkə kimi, biz müxtəlif dinlərlə, müxtəlif mədəni dəyərlərlə, adət və ənənələrlə tanışıq. Bizim tolerantlıq ənənəmiz elə bir parlaq təməl yaradıb ki, Azərbaycana gələn hər bir təşkilatçı, müşahidəçi, yaxud adi tamaşaçı üçün hər cür şərait yarada bilərik. Ümid edirəm ki, Şərq memarlıq üslubu ilə müasir Avropa üslubunu özündə birləşdirən Bakının gözəlliyi özünün çeşidli aurası, mehribanlığı və qonaqpərvərliyi ilə hətta ən tələbkar qonaqiarın da istəyinə cavab verəcəkdir. "Eurovision-2012" mahnı yarışması ilə bağlı on minlərlə insan Bakıya gələcəkdir. Biz onları qəbul etməkdən məmnunuq.

*"Azərbaycan" qəzeti,*
*11 may 2012-ci il*







## VATİKANDA HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ MÜQƏDDƏS ROMA KATAKOMBALARININ BƏRPASINA DAİR İKİTƏRƏFLİ SAZİŞ İMZALANMIŞDIR

Mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir. Öz çıxışında o demişdir:

– Hörmətli kardinal həzrətləri Ravazi!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə mən sizi səmimi-qəlbdən salamlayıram və yenidən bu qədim məkanda olduğumdan məmnunluğumu bildirirəm.

Heydər Əliyev Fondunun fəaliyyəti və şəxsən mənim fəaliyyətim haqqında deyilən xoş sözlərə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Bu il dövlətlərimiz arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümü qeyd olunur. Ötən illər ərzində dövlətlərimiz arasında olduqca sıx və çoxşaxəli münasibətlər qurulub. Ümidvaram ki, bu səmərəli və faydalı əməkdaşlıq gələcəkdə də davam edəcəkdir.

Bugünkü mərasim məhz bu istiqamətdə atılan növbəti addımdır. Heydər Əliyev Fondu

təkcə Vatikan və xristian aləmində deyil, bütün dünya mədəniyyətində böyük əhəmiyyət kəsb edən, ümumbəşəri mədəni irsə aid olan Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpasında iştirak edəcəkdir. Katakombalar haqqında bu gün burada verdiyiniz məlumata görə mən sizə təşəkkür edirəm və, əlbəttə, bərpadan sonra böyük məmnuniyyətlə onların açılışında iştirak edəcəyəm. Heydər Əliyev Fondu mədəni və tarixi irsin qorunmasına böyük əhəmiyyət verir və biz belə layihələri həm Azərbaycanda, həm də digər dövlətlərdə həyata keçiririk. Mən çox şadam ki, ümumbəşəri sərvət olan bu mədəni abidələrin bərpasına Heydər Əliyev Fondu öz töhfəsini verəcəkdir.

Hörmətli dostlar, Azərbaycanda bütün dövrlərdə ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dilləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, bizim ən böyük sərvətlərimizdən biridir. 2002-ci ildə ölkəmizə səfəri zamanı Roma Papası II İoann Pavel Azərbaycanı Şərq ilə Qərb arasında qapı və dözümlülük nümunəsi adlandırmışdır. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası, sivilizasiyalararası dialoq mövzusunda böyük beynəlxalq görüşlər, forumlar məhz bizim ölkəmizdə keçirilir. Paytaxtımızın ev sahibliyi etdiyi əhəmiyyətli tədbirlər 2010-cu ildə dünya dini liderlərinin zirvə toplantısı, 2011-ci ildə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Birinci Bakı Beynəlxalq Humanitar Forumu bu sahədə atılan mühüm addımlar kimi qiymətləndirilir.

Bu ilin oktyabrında paytaxtımızda İkinci Bakı Beynəlxalq Humanitar Forumu keçiriləcəkdir. Fürsətdən istifadə edərək sizi bu tədbirdə iştirak etməyə dəvət edirəm. Belə görüşlər, belə tədbirlər dünya liderlərini, ictimai xadimləri, insanları, xalqları bir araya gətirərək dialoqun, dözümlülüyün, qarşılıqlı hörmətin vacibliyini beynəlxalq arenada ön sıraya çıxarır.

Əziz dostlar, sonda bir daha sizinlə bir arada olmağımdan məmnunluğumu bildirmək istəyirəm. Mən çox şadam ki, belə bir mühüm layihəyə bu gün start verilir. Dövlətlərimizin arasında mehriban münasibətlərin qurulmasında əməyi olan bütün dostlarımıza və şəxsən kardinal Ravaziyə dərin minnətdarlığımı bildirirəm. Mən sizi bir daha Azərbaycana dəvət edirəm, sizə cansağlığı və əmin-amanlıq arzu edirəm. Təşəkkür edirəm.

Sonra Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Vatikanın Mədəniyyət naziri, Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri kardinal Can-Franko Ravazi katakombaların bərpasına dair ikitərəfli Sazişi imzaladılar.

Tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim olunduqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri, kardinal Can-Franko Ravazi mətbuat nümayəndələrinin suallarını cavablandırdılar.

**Rusiyanın İTAR-TASS agentliyinin müxbiri:** Sizin nəcib təşəbbüsünüz Apennin





yarımadası və bütün Qərb xristian dünyasında böyük təəssürat yaradıb. Mümkündürsə, hazırda Heydər Əliyev Fondunun hansı humanitar və mədəni tədbirləri həyata keçirdiyi barədə danışasınız.

**Mehriban xanım Əliyeva:** Siz düzgün qeyd etdiniz, yarandığı ilk gündən Heydər Əliyev Fondu nəinki Azərbaycanın, eləcə də ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Biz bir sıra iri layihələr həyata keçirmişik. Bizim "Azərbaycan – tolerantlığın ünvanı" layihəmiz vardır. Bu layihə çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada biz Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsəsinin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də iştirak etmişik. Mən bir daha qeyd etmək istərdim ki, bu layihəni çox vacib hesab edirəm. Çünki dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, Fondun siyasətidir və inanıram ki, məhz mədəniyyət, mədəni irs sadə olmayan bugünkü dünyanı birləşdirə bilər. Təşəkkür edirəm.

**İtaliyanın "Repubblica" qəzetinin müxbiri:** Mehriban xanım, biz bilmək istərdik ki, həyata keçirdiyiniz bu layihədən sonra Sizin planlarınızda apardığınız işi daha da genişləndirmək, bu cür digər sahələri də əhatə etmək fikriniz vardırmı?

**Mehriban xanım Əliyeva:** Mən qeyd etmək istərdim ki, Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin çox qədim və çox möhkəm kökləri vardır. Əsrlər boyu Azərbaycan Şərq ilə Qərb arasında körpü rolunu oynamışdır. Xalqımızın ən gözəl xüsusiyyətlərindən biri bütün millətlərə, bütün dinlərə, bütün mədəniyyətlərə böyük hörmətlə yanaşmasıdır. Hesab edirəm ki, bugünkü gərgin dünyada bu, çox gözəl və böyük bir sərvətdir. Biz inanırıq ki, yalnız dialoq, yalnız dözümlülük vasitəsilə insanları bir araya gətirmək olar. Biz buna səy göstəririk.

Gələcək layihələr haqqında mən yalnız onu deyə bilərəm ki, Heydər Əliyev Fondu belə layihələri həyata keçirməyə hazırdır və təkliflər üçün açıqdır.

Bir daha hörmətli kardinal Ravaziyə bu əməkdaşlığa görə minnətdarlığımı bildirirəm. Konkret olaraq, biz bir müddət bundan əvvəl Vatikan kitabxanasında qədim əlyazmaların bərpasını artıq həyata keçirmişik. Mən ümidvaram ki, bu layihə davam edə bilər. Biz buna hazırıq.

**Azərbaycan Televiziyasının müxbiri:** Mehriban xanım, bu katakombaların bərpası nə vaxt başa çatdırılacaqdır?

**Mehriban xanım Əliyeva:** Katakombaların bərpası nə qədər vaxt tələb edərsə. Yəqin ki, bunu alimlər daha yaxşı bilir. Bu sualı onlara ünvanlasanız, daha doğru olar. Çünki burada texniki işlərdən başqa daha çox elmi işlər də olmalıdır. Məndə olan məlumata görə, bu proses bir neçə mərhələdə aparılacaqdır. Ümidvaram ki, birinci mərhələ gələn il sona çatacaqdır.

Məhz bu layihə üzrə bizim əməkdaşlığımız bu gündən üç il davam edəcəkdir. Gələcəkdə biz bu cür layihələrdə iştirak etməyə yenidən hazırıq.

**"Repubblica" qəzetinin müxbiri:** Əslində, biz gözəl bilirik ki, Azərbaycan ilə Türkiyəni tarixi, mədəni və hətta dil baxımdan çox böyük, sıx əlaqələr bağlayır. Biz bilirik ki, Mehriban xanım türk dilində çox gözəl danışır. Biz bilirik ki, o, İstanbula səfər edir, orada çox gözəl çıxışlar edir. Bu kimi təşəbbüs Azərbaycan tərəfindən göstərilibdir. İndi bilmək istərdik ki, sizin yerləşdiyiniz coğrafi regionda qonşu ölkələrin hər hansı biri tərəfindən əks-səda, onların reaksiyası, hətta qısqanc münasibəti kimi bir hal yaranıbmı? Yoxsa bu, elə Azərbaycan tərəfindən atılan bir addımdır və onunla bağlı hər hansı qonşu ölkədən rəy gəlmir?

**Mehriban xanım Əliyeva:** Mən bir daha qeyd etmək istərdim ki, bu, Azərbaycan dövlətinin siyasətinin əsas istiqamətlərindən biridir. Təsadüfi deyildir ki, bu gün Azərbaycanda belə görüşlərin, belə forumların, belə toplantıların keçirilməsinə, yəni Şərq ilə Qərb arasında, xristian dünyası ilə müsəlman aləmi arasında, müxtəlif mədəniyyətlər arasında dialoqun qurulmasına ən yüksək dövlət səviyyəsində çox böyük əhəmiyyət verilir. Bu baxımdan Azərbaycan bu gün müsəlman ölkəsi kimi dünya üçün bir nümunə ola bilər.

Konkret bu layihəyə gəldikdə isə, onun əks-sədası haqqında mənim hələ bir məlumatım yoxdur. Amma əminəm ki, bu həm regionda, həm qonşularımız tərəfindən, həm də bəlkə daha geniş miqyasda yalnız və yalnız müsbət qəbul olunacaqdır.

*"Azərbaycan" qəzeti,*
*24 iyun 2012-ci il*







## KRANS MONTANA FORUMU ÇƏRÇİVƏSİNDƏ BAKIDA "QADIN HÜQUQLARI İNSAN HÜQUQLARIDIR, İNSAN HÜQUQLARI İSƏ QADINLARIN HÜQUQUDUR" MÖVZUSUNDA PLENAR İCLAS KEÇİRİLMİŞDİR

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Krans Montana Forumunun "Prix de la Fondation" mükafatı təqdim olunmuşdur. Mehriban xanım Əliyeva çıxış edərək demişdir:

– Xanımlar və cənablar, hörmətli dostlar, həmkarlarım!

Əvvəlcə, mən sizin hamınızı salamlamaq istərdim. Krans Montana Forumunun bütün iştirakçılarını Bakı şəhərində salamlayıram.

Biz bu forumu elə bir şəhərdə keçiririk ki, bu şəhər beynəlxalq müstəvidə mədəniyyətlərarası dialoqun yaradılmasına və inkişafına xidmət edən bir məkandır. Mən Krans Montana Forumunun prezidenti Karteronu və İSESKO-nun baş direktoru əl-Tüveycrini burada xüsusilə qeyd etmək istərdim. Onlara bu forumda iştiraklarına görə təşəkkürümü bildirmək istərdim.

Ümidvaram ki, siz bizim ölkəmizdə, şəhərimizdə çox gözəl vaxt keçirəcəksiniz və Bakının gözəlliklərindən feyziyab olacaqsınız.

Beləliklə, bu iclasın mövzusu, doğrudan da, çox önəmlidir. Ona görə ki, qadınların hüquqlarının təşviqi və gender bərabərliyi məsələləri hələ ki, gündəlikdə durur. Mən əminəm ki, müzakirələrimiz bizə imkan yaradacaqdır ki, bu mövzularla bağlı, doğrudan da, çox yaxşı və səmərəli fikir mübadiləsi aparılsın.

Mən qadın olaraq siyasi və iqtisadi azadlıqlara üstünlük verirəm. Bu, qadınlara imkan verəcəkdir ki, onlar ölkənin bütün həyatında, bütün siyasi-iqtisadi sahələrində fəal iştirak edə bilsinlər. Bununla da onlar öz azadlıqlarını bərqərar etmiş olacaqlar. Qadınların iqtisadi azadlığı kişilərlə bərabərlikdə onlara əmək azadlığı və digər azadlıqları vermiş olacaqdır.

Qadınlar uzun müddət tarixdə öz haqları uğrunda mübarizə aparmışlar. Məsələn, 1983-cü ildə Hollandiyada qadınların hərəkatı hamının yadındadır. Bundan başqa, Şərqdə ilk dəfə səsvermə hüququnun qadınlar tərəfindən qazanıldığı hamının gözəl yadındadır. Həmçinin qadınlar get-gedə dövlət dairələrində daha yüksək yerlər tuturlar.

Qeyd etdiyim kimi, qadınlar digər sahələrdə olduğu kimi, iqtisadi azadlıqların qazanılmasında da uğurlar əldə etmişlər. Müxtəlif ölkələrdə yaşayan qadınların nailiyyətləri bu mübarizənin çox uğurlu olduğunu göstərir. Əksər ölkələrdə qadınlar onlara məxsus olan əmlak ilə bağlı çox çətinliklərlə rastlaşmışlar. Bu proseslər indi də davam edir. Milyonlarla qadının fundamental azadlığı hər gün, hətta üçüncü minillikdə də pozulur. Ayrı-seçkilik dünyanın çox yerlərində – həm Şərqdə, həm də Qərbdə müxtəlif formalarda mövcuddur.

Bugünkü tədbirimiz kimi tədbirlər həm qadınların rastlaşdığı problemlərin müzakirəsinə, eyni zamanda, təcrübələrimizi bölüşməyə, bir-birimizdən öyrənməyə, YUNESKO və İSESKO kimi beynəlxalq təşkilatların qadınların hüquqlarının təşviqi işinə cəlb olunmasına imkan yaradır.

Hörmətli dostlar, qadınlara qarşı ayrı-seçkiliyin qarşısının alınması sahəsində Azərbaycan çox nadir təcrübəyə malikdir. Bu, Azərbaycanda qadınlar üçün təhsil imkanlarının daha da genişləndirilməsi sahəsində özünü göstərmişdir. Şərq dünyasında qadınlar üçün ilk dünyəvi məktəb Azərbaycanda açılmışdır. Şərqdə ilk demokratik parlament respublikası Azərbaycanda yaradılmışdır. Bu respublika qadınlara əksər Avropa ölkələrindən daha əvvəl seçib-seçilmək hüququ vermiş və qadınların kişilərlə bərabər hüquqlara malik olmasını müəyyən etmişdir.

Azərbaycan 20 il bundan əvvəl öz müstəqilliyini yenidən qazanmışdır. Açıq cəmiyyət, demokratiya və inkişaf yolunu tutan ölkəmiz dövlətçiliyin qurulması sahəsində çoxlu çətinliklərlə üzləşmişdir. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Bunun nəticəsində bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu rəqəmlərin arxasında yüz minlərlə qadının, qızın öz evlərini itirməsi, talelərinin qırılması problemləri durur.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan bu gün çox sürətlə inkişaf edən ölkədir. Bizim sürətli iqtisadi inkişafımız dünyanın rekordlarını vurmuşdur. Sürətli iqtisadi inkişafımız Azərbaycan qadınları üçün yeni imkanlar açmışdır. Azərbaycan qadınları fəal sürətdə ölkə





həyatının müxtəlif sahələrində fəaliyyət göstərir, dövlət qulluqçuları, parlament üzvləri, vətəndaş cəmiyyətinin fəalları kimi çalışırlar. Bundan başqa, qadınlar arasında çox bacarıqlı tələbələr, müəllimlər, professorlar vardır. Həmçinin qadınlarımız prioritet məsələlərdə çox fəaldırlar. Məsələn, biz Azərbaycanda gender bərabərliyi haqqında qanun qəbul etdik. Bundan başqa 2008-ci ildən ölkədə qadın məsələləri üzrə Tədbirlər Planını həyata keçiririk. Bu Plana əsasən, qadınların sosial-iqtisadi hüquqlarının qorunması ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur. Azərbaycanın digər mədəniyyətlərə və dinlərə münasibətdə qədim tolerantlıq ənənələri vardır.

Biz müxtəlif beynəlxalq forumlarda iştirak etmişik. Bu forumlarda çoxşaxəli biliklərimizi, bu sahədə olan təcrübələrimizi bölüşmüşük. Bakıda Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən mədəniyyətlərarası dialoq da, bu forum da qadınların cəmiyyətdə nə dərəcədə fəal rol oynamasını, bu sahədə nə qədər fəal olmasını bir daha göstərmişdir.

Hörmətli xanımlar və cənablar, biz XXI əsrdə də ədalətsizliklə rastlaşırıq. Təəssüf ki, bugünkü həyatda bizim uşaqlarımız hələ də müharibələrin, müxtəlif münaqişələrin, qəddarlıqların baş verdiyi, tolerantlığın olmadığı bir dünyada yaşayırlar. Çox önəmli olan insan hüquq və azadlıqları qorunmalıdır. Bundan başqa, BMT-nin Minilliyin İnkişaf Məqsədləri geniş şəkildə vaxtında yerinə yetirilməlidir.

Xanımlar və cənablar, mən əminəm ki, bu görüşümüz insan haqlarının, xüsusilə də qadın haqlarının, hüquqlarının qorunması sahəsində bütün məqsədlərimizə nail olmaq üçün bizə kömək edəcəkdir.

Mən sizə bizimlə bu gün olduğunuza görə, bu iclasda iştirak etdiyinizə görə təşəkkür etmək istərdim. Sizə xoşbəxtlik, uğurlar və rifah arzu etmək istərdim. Diqqətinizə görə təşəkkür edirəm.

***"Azərbaycan" qəzeti,***
***30 iyun 2012-ci il***



## AZƏRBAYCAN İLƏ FRANSA ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASININ 20 İLLİYİ İLƏ ƏLAQƏDAR PARİSDƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİR

2012-ci ilin oktyabrın 27-də Parisin məşhur "Salle Pleyel" sarayında Heydər Əliyev Fondunun təşəbbüsü və ölkəmizin Fransadakı səfirliyinin dəstəyi ilə Azərbaycan-Fransa diplomatik əlaqələrinin qurulmasının 20 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycanın birinci xanımı, Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Birinci xanım Mehriban Əliyeva mərasimdə çıxış edərək demişdir:

– Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizi bu axşam görməyə çox şadam və hər birinizi səmimi qəlbdən salamlayıram.

Bu gün biz Azərbaycan-Fransa diplomatik əlaqələrinin qurulmasının 20-ci ildönümünü qeyd edirik. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etmişdir və o illərdə Sovet İttifaqı dağılanda ölkəmizdə nə siyasi sistem, nə bazar iqtisadiyyatı var idi. İyirmi il ərzində uğurlu





siyasi və iqtisadi islahatlar aparılması nəticəsində bu gün Azərbaycanda çoxpartiyalı demokratik cəmiyyət mövcuddur və ümumi daxili məhsulun 83 faizini bazar iqtisadiyyatı təşkil edir. Bu gün Azərbaycan dünya xəritəsində yerini tutmuş və sürətlə inkişaf edən bir dövlətdir.

Müstəqillik dövründə Azərbaycan-Fransa əlaqələri hərtərəfli inkişaf etmişdir. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və bu ilin sentyabr ayında Azərbaycan və Fransa dövlətləri başçılarının görüşü bir daha bu münasibətlərin strateji xarakterini təsdiqlədi. Biz beynəlxalq arenada qarşılıqlı anlaşma əsasında əməkdaşlıq edirik. Ötən il ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi bu əlaqələri tamamilə yeni yüksək səviyyəyə çıxardı.

Fransa Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində öz səylərini göstərir. Dünya birliyi tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon uzun illərdir ki, Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ölkəmizin ərazisinin 20 faizi işğal altındadır, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşayır. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında tezliklə həllinin tərəfdarıdır. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmalıdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Münaqişənin həlli Azərbaycan-Fransa gündəliyində mühüm yer tutur.

Eyni zamanda, ölkələrimiz iqtisadi sahədə əməkdaşlıq edir və bu sahədə çox böyük qarşılıqlı maraq vardır. Ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artmaqdadır və bu gün dörd milyard avroya yaxınlaşır. Fransa Azərbaycanın ikinci ticarət tərəfdaşıdır və ölkəmizdə bu gün 30-a yaxın fransız şirkəti fəaliyyət göstərir. Neft və qaz, kosmik sənaye, nəqliyyat, digər sahələrdə fransız şirkətləri bizimlə əməkdaşlıq edir. Çox xoşdur ki, Fransanın biznes strukturları Azərbaycana sərmayə qoyur və bir çox iri layihələrdə tərəfdaş kimi iştirak edir. Əminəm ki, bu il başlanan layihələr gələcəkdə ölkələrimizə ikitərəfli fayda gətirəcəkdir.

Əziz dostlar, mən son illər humanitar sahədəki çox səmərəli və geniş əlaqələrdən xüsusi danışmaq istərdim. Son illər Fransanın universitetlərində Azərbaycan dili və tarixi fakültələri açılır, yüzlərlə Azərbaycan tələbəsi Fransanın ali məktəblərində təhsil alır. Ötən il paytaxtımızda – Bakıda yeni fransız məktəbinin tikintisi başlanıb və yaxın gələcəkdə bu, regionun ən böyük fransız məktəbi olacaqdır. Parisdə mütəmadi şəkildə Azərbaycanın mədəniyyətini təbliğ edən konsertlər, görüşlər, sərgilər keçirilir. Bu il Bakıda "Fransa inciləri" adlı sərgi açılmışdır, Luvr və Orse muzeylərini, Pompidu Mərkəzini, Versal Sarayını, Fransa Dövlət Kitabxanasını və digər mədəniyyət ocaqlarını bəzəyən 400-dən çox eksponat ölkəmizdə təbliğ olundu və bu sərgi çox böyük maraqla qarşılandı. Azərbaycan dövləti Luvr muzeyinin İslam incəsənəti departamentinin yaradılmasında iştirak etmişdir. Heydər Əliyev Fondu Luvr, Versal Sarayı, Strasburq Kafedral kilsəsi, digər tarixi abidələrin bərpasında iştirak edir.

Bu günlər Fond tərəfindən hazırlanmış yeni bir layihəyə start verilib. Bu layihə çərçivəsində Fransanın müxtəlif bölgələrində – on şəhərində Azərbaycanın mədəniyyətini tanıdan Azərbaycan günləri keçiriləcəkdir. Bu layihə çox böyük uğurla Reyms və Şampan şəhərlərində başlayıb.

Son il ərzində Azərbaycanın və Fransanın bir neçə şəhəri arasında qardaşlaşma haqqında saziş imzalanıb. Mən ümidvaram ki, bu gözəl təşəbbüs gələcəkdə davam edəcəkdir. Nəhayət, bu ilin sentyabr ayında Parisdə Azərbaycanın ilk mədəniyyət mərkəzinin binası təntənəli şəkildə açılıb. Təsadüfi deyildir ki, belə bir mərkəz ilk dəfə məhz Parisdə açılıb. Çünki Paris təkcə Fransanın yox, demək olar, bütün dünyanın mədəniyyət paytaxtıdır.

Bir sözlə, bu 20 il ərzində Fransa-Azərbaycan münasibətləri uğurla qurulub və mən ümidvaram ki, gələcək illərdə də qarşılıqlı hörmət və dostluq əsasında inkişaf edəcəkdir.

Əziz dostlar, bu gün sizin üçün hazırlanmış konsertdə Azərbaycan və Fransa ifaçıları dahi Azərbaycan və Fransa bəstəkarlarının əsərlərini səsləndirəcəklər. Demək olar ki, bu konsert Azərbaycan-Fransa dostluğunun bir növ rəmzidir.

Sonda bir daha sizə ölkəmizə göstərdiyiniz diqqət və marağa görə dərin minnətdarlığımı bildirirəm. Sizə xoş axşam arzulayıram. Diqqətinizə görə çox sağ olun.

*"Azərbaycan" qəzeti,*
*2 noyabr 2012-ci il*







## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ 2015-ci İLDƏ BAKIDA KEÇİRİLƏCƏK BİRİNCİ AVROPA OYUNLARI TƏŞKİLAT KOMİTƏSİNİN İLK İCLASI OLMUŞDUR

Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva çıxış edərək demişdir:

– Hörmətli cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında 2015-ci ildə I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir. Avropa Olimpiya Komitəsinin üzvü olan 49 milli olimpiya komitəsindən 48-nin iştirakı ilə keçirilmiş gizli səsvermədə 38 ölkə lehinə, 8 ölkə əleyhinə, 2 ölkə bitərəf olmaqla I Avropa Oyunlarının Bakıda keçirilməsi təsdiqlənmişdir. I Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün, ümumiyyətlə, bütün Avropa Olimpiya hərəkatı üçün tarixi hadisədir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, dünya birliyində tutduğu mövqe, mövcud ictimai-siyasi sabitlik beynəlxalq ictimaiyyətdə əminlik yaradıb ki,

ölkəmiz bu mötəbər tədbirə uğurla ev sahibliyi edə biləcəkdir. Bu qərarın qəbul edilməsi respublikamızda çoxsaylı idman yarışlarının, Avropa və dünya çempionatlarının yüksək səviyyədə keçirilməsinə, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlərə, ümumilikdə Azərbaycanda idman sahəsində görülmüş işlərə beynəlxalq və Avropa Olimpiya Komitəsi tərəfindən verilən yüksək qiymətdir.

Şübhəsiz ki, bu hadisə ölkəmizin, Azərbaycanın növbəti qələbəsidir və Cənab Prezident, icazə verin, ilk növbədə, bu qələbə münasibətilə Sizi təbrik edim və Təşkilat Komitəsinin bütün üzvləri adından bizə göstərdiyiniz etimada görə Sizə dərin minnətdarlığımı bildirim.

Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, o cümlədən Avropa və dünya çempionatlarında, "Eurovision – 2012" mahnı müsabiqəsində əldə etdiyimiz təcrübəyə əsaslanaraq, I Avropa Oyunlarının da ən yüksək səviyyədə keçirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik və bütün gücümüzlə çalışacağıq ki, göstərdiyiniz etimadı doğruldaq.

İndi isə icazənizlə, Bakıda keçiriləcək I Avropa Oyunlarının hazırlıq işləri ilə bağlı bəzi vacib məqamları Sizin diqqətinizə çatdırım.

I Avropa Oyunlarının 2015-ci ilin iyun-iyul aylarında keçirilməsi nəzərdə tutulub. Bu oyunlarda Avropa Olimpiya Komitəsinin üzv ölkələrinin iştirakı gözlənilir. Avropa Olimpiya Komitəsi ilə əldə olunmuş razılığa əsasən, Bakıda keçiriləcək yarışlarda 5 min nəfərədək idmançının iştirakı nəzərdə tutulur. Rəsmi nümayəndə heyətinin sayının təxminən min olması gözlənilir. Tədbirin işıqlandırılması üçün Bakıya 2 min nəfərədək beynəlxalq kütləvi informasiya nümayəndələrinin gəlişi gözlənilir. Avropa Olimpiya Komitəsi və Avropa idman federasiyaları ilə ilkin razılaşmaya əsasən, I Avropa Oyunlarının proqramına 28 Olimpiya idman növündən minimum 12-si və 2 qeyri-Olimpiya idman növü daxil olmalıdır. Bu, ümumi qaydalardır. Yarışların 17 Olimpiya idman növü üzrə keçirilməsi ilə bağlı Avropa idman federasiyalarından niyyət məktubu artıq daxil olmuşdur. Bu idman növləri güləş, həndbol, voleybol, gimnastika, çimərlik voleybolu, boks, cüdo, taekvondo, badminton, qılıncoynatma, atıcılıq, kamandan oxatma, stolüstü tennis, üzgüçülük, suya tullanma, su polosu və reqbi-7 daxildir. Avropa Oyunlarının tarixində ilk dəfə keçiriləcəyini nəzərə alaraq, bir çox məsələlər üzrə Avropa Olimpiya Komitəsi ilə danışıqlar davam edir və bu gün səsləndirilən göstəricilər dəyişə bilər. Proqrama daxil olacaq 2 qeyri-Olimpiya idman növünün müəyyən edilməsi istiqamətində Avropa Olimpiya Komitəsi və Avropa idman federasiyaları ilə danışıqlar aparılır.

Hörmətli cənab Prezident, I Avropa Oyunlarına hazırlığın ilkin mərhələsində yarışların keçirilmə yerləri müəyyən edilmişdir. Yarışların Heydər Əliyev adına İdman-Konsert Kompleksi, Tofiq Bəhramov adına Respublika Stadionu, "Baku Crystal Hall", "Sərhədçi" İdman Kompleksi, Əl Oyunları Sarayı, 8-ci Kilometr stadionu, Güllə atıcılığı stendi və Bakı Ekspo Mərkəzində keçirilməsi mümkündür. 2015-ci ilədək Olimpiya Stadionunun, Su İdman Növləri Mərkəzinin və Gimnastika Kompleksinin inşasının bitməsi planlaşdırılır və bu yeni qurulan idman sarayları da oyunlar zamanı istifadə olunacaqdır. I Avropa Oyunlarının rəsmi





açılış və bağlanış mərasimlərinin Bakıda, Böyükşor gölünün yaxınlığında inşa olunan 65 min yerlik Olimpiya Stadionunda keçirilməsi nəzərdə tutulub.

Müxtəlif idman növləri üzrə yarışların keçiriləcəyi idman obyektləri haqqında ilkin təklifləri diqqətinizə çatdırmaq istərdim. Güləş və cüdo idman növləri üzrə yarışların 7 min 100 yerlik Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilməsi nəzərdə tutulub. 25 min tamaşaçı tutumu olan "Baku Crystal Hall"da həndbol və voleybol idman növləri üzrə yarışların keçirilməsi nəzərdə tutulub. Reqbi-7 idman növü üzrə yarışların 11 min tamaşaçı tutumu olan 8-ci kilometr stadionunda keçirilməsi nəzərdə tutulub. Stolüstü tennis, qılıncoynatma və taekvondo idman növləri üzrə yarışların Bakı Ekspo Mərkəzin-də keçirilməsi nəzərdə tutulub. Boks üzrə yarışların 3 min 250 yerlik "Sərhədçi" İdman Kompleksində, badminton üzrə yarışların 1628 yerlik Əl Oyunları Sarayında, kamandan oxatma üzrə yarışların isə 7 min yerlik "Şəfa" Stadionunda keçirilməsi nəzərdə tutulub.

I Avropa Oyunları zamanı idman və bədii gimnastika üzrə yarışların Gimnastika Kompleksində keçirilməsi nəzərdə tutulub. Üzgüçülük və suya tullanma üzrə yarışların Bakıda inşa olunan Su İdman Növləri Mərkəzində keçirilməsi nəzərdə tutulub. Su polosu üzrə yarışların keçirilməsi üçün mərkəzin yanında müvəqqəti arena inşa olunmalıdır. Atletika üzrə yarışlar keçirilsə, 32 min 200 yerlik Tofiq Bəhramov adına Respublika Stadionundan istifadə oluna bilər. Çimərlik voleybolu üzrə yarışların keçirilməsi üçün dənizkənarı bulvarda müvəqqəti arenanın inşası tələb olunur.

Hörmətli cənab Prezident!

I Avropa Oyunlarının rəsmi açılış və bağlanış mərasimlərinin təşkili ilə bağlı dünyanın bu sahədə böyük təcrübəyə malik aparıcı şirkətləri ilə danışıqlar başlanmışdır. Avropa Oyunları tarixinə ilk atributlar kimi daxil olacaq I Avropa Oyunlarının loqotip və şüarının müəyyən edilməsi, simvolun seçilməsi və himnin bəstələnməsi istiqamətində işlər görülür. I Avropa Oyunları mövzusunda açıq loqotip müsabiqəsi artıq elan edilmişdir.

Qaydalara uyğun olaraq, Avropa Oyunlarında qalib idmançılara təqdim olunan medallar ev sahibi olan ölkənin Milli Olimpiya Komitəsi tərəfindən hazırlanır və Avropa Olimpiya Komitəsi ilə razılaşdırılır. Hazırda medalların dizaynı ilə bağlı təkliflər hazırlanmaqdadır.

Oyunlarda iştirak edəcək idmançıların yerləşdirilməsi məqsədilə Atletlər Kəndi yaradılmalıdır. Kütləvi informasiya vasitələrinin nümayəndələri Media Kəndində yerləşdiriləcəklər. Bu ərazidə yaradılacaq mərkəzdə və "Baku Crystal Hall"dakı Media Mərkəzində onlara tələb olunan şərait yaradılacaqdır.

Oyunların keçiriləcəyi müddətdə, yəni, 2015-ci ilin iyun, iyul aylarında Bakıya çoxsaylı qonaqlar gələcək. İdmançıların, rəsmi nümayəndə heyətlərinin, turistlərin və qonaqların yerləşdirilməsi üçün Bakı və Abşeronda mövcud olan hotellərin sayı və tutumu dəqiqləşdirilmişdir. Seçim imkanını artırmaq üçün şəhərə yaxın istirahət düşərgələri və yeni inşa olunan hotel komplekslərindən də istifadə olunacaqdır.

Tədbirin dünyada təbliği və informasiya dəstəyi qarşımızda duran ən vacib məsələlərdən biridir. Birinci addım olaraq oyunlar haqqında hərtərəfli məlumatı əks etdirən internet portalı hazırlanmalıdır. Dünya mediasında I Avropa Oyunlarının keçirilməsi barədə informasiyanın yayılmasına, ümumiyyətlə, Azərbaycan haqqında, xüsusilə idman sahəsində əldə olunmuş nailiyyətlərimiz barədə nəşrlərin, reklam çarxlarının hazırlanması, baner və posterlərin quraşdırılmasına geniş kampaniya şəklində bu ildən başlamaq lazımdır. Avropanın və dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinin təbliğat kampaniyasına cəlb olunması, onlarla əməkdaşlıq perspektivləri müzakirə olunmalıdır.

Bu gün bütün dünyada mötəbər tədbirlərin keçirilməsinə gənclərin cəlb olunması geniş vüsət alıb. Bizim bu sahədə böyük təcrübəmiz vardır. "Eurovision-2012" mahnı müsabiqəsini hazırlayanda biz gənclərin, könüllülərin yardımından çox gözəl istifadə etmişdik və gənclərimiz özlərini çox gözəl göstərmişdi. Ona görə də I Avropa Oyunlarının təşkilati işlərində də könüllülərin aktiv fəaliyyəti nəzərdə tutulub.

I Avropa Oyunlarının yayımı xüsusi əhəmiyyət kəsb edir. Tədbirin yayım hüququnun verilməsi ilə bağlı hazırda müvafiq təşkilatlarla danışıqlar aparılır. Oyunların keçirilməsinə beynəlxalq və yerli sponsorların cəlb edilməsi istiqamətində işlər görülür.

I Avropa Oyunlarına ev sahibliyi edən Bakı şəhərinin tədbirə hazırlanması xüsusi önəm daşıyır. Şəhər infrastrukturunun yaxşılaşdırılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi, təhlükəsizliyin təmin edilməsi, tibbi xidmətin optimallaşdırılması, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunması, turizm marşrutlarının və mədəni proqramların tərtib edilməsi üzrə təkliflər bütün cavabdeh təşkilatlar tərəfindən hazırlanmışdır.

Bugünkü müşavirədə biz oyunların qaydaları və keçirilməsi haqqında və əldə olunmuş informasiyanı və fəaliyyətimizin əsas istiqamətlərini müzakirə edirik. İcrası vacib olan əsas məsələlərin həlli ilə bağlı aparılmış monitorinqlərin nəticələrini təqdim edirik. Monitorda gördüyünüz məlumatlar ümumi xarakter daşıyır.

Oyunların yüksək səviyyədə keçirilməsi məqsədi ilə müvafiq qurumların nümayəndələrindən ibarət işçi qrupu yaradılacaqdır. Hazırda yarışların keçirilməsi ilə bağlı bütün istiqamətləri əhatə edən və hər bir qurumun vəzifəsini müəyyən edən geniş tədbirlər planı hazırlanır. Həmin tədbirlər planı qısa müddət ərzində Sizin diqqətinizə təqdim olunacaqdır.

Sonda bir daha, cənab Prezident, bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, I Avropa Oyunları ölkəmizin tarixində Sizin və hər bir azərbaycanlının növbəti qələbəsi kimi qalacaqdır. Diqqətinizə görə çox sağ olun.

*"Azərbaycan" qəzeti,*
*3 fevral 2013-cü il*





## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVANIN "BAKU" JURNALINA MÜSAHİBƏSİ

**"Baku":** "Baku" jurnalının 5 yaşı tamam olur. Yubiley əhval-ruhiyyəsi xatirələri oyadır. Bizim ilk müsahibəmiz də məhz Sizinlə olub. Bu gün, 5 il keçdikdən sonra jurnalımız haqqında fikirləriniz bizə maraqlıdır. Nəşrimizi bəyənirsinizmi?

**Prezident:** Çox təqdirəlayiqdir ki, yaranışından qısa müddət ərzində "Baku" jurnalı böyük oxucu auditoriyası qazanıb. Jurnalın uğurlarında, əlbəttə ki, mövzuların aktuallığı, özünəməxsus tərzi, müasir dizaynı və materialların təqdimatı mühüm rol oynayır. Azərbaycanın mədəniyyətinin və incəsənətinin zəngin və qədim tarixi, xalqımızın çoxəsrlik ənənələri haqqında məqalələr və başqa mövzularda materiallar jurnalı daha da maraqlı və oxunaqlı edir. Jurnalın təkcə Rusiyada deyil, başqa ölkələrdə də oxunması müsbət haldır.

**Birinci xanım:** "Baku" jurnalı qısa müddət ərzində nəşr olunmasına baxmayaraq, oxucuların böyük rəğbətini qazanıb. Bu gün ölkəmiz haqqında obyektiv və müsbət informasiyanı xaricdə təqdim edən belə mənbənin olması sevindirici haldır. "Baku" jurnalı Azərbaycan və onun paytaxtı, bizim məşhur həmyerlilərimiz, Azərbaycan diasporunun görkəmli nümayəndələri, ölkəmizin mədəni həyatının mühüm hadisələri və milli mətbəximiz haqqında parlaq və aydın şəkildə məlumat verir. Mən jurnalınıza gələcəkdə daha böyük məşhurluq, daha geniş oxucu auditoriyası arzulayıram.

**"Baku":** Ötən 5 il ərzində ölkə həyatının bütün sahələrində əsaslı dəyişikliklər göz qabağındadır. Bu gün ölkəniz yüksək inkişaf dinamikası ilə seçilir. Azərbaycan, sözsüz ki, regionda lider dövlətdir. Bu uğurun sirri nədədir?

**Prezident:** Zənnimcə, uğurların sirri, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun davam etdirilməsindədir. Zaman göstərdi ki, bu, Azərbaycanı xaos və dağılmaqdan qurtaran yeganə düzgün siyasi kurs oldu. Gəlin, Azərbaycanın müstəqilliyinin ilk illərini xatırlayaq. Ölkədə hərbi-siyasi və mənəvi böhran hökm sürürdü, iqtisadiyyat tamamilə tənəzzülə uğramışdı. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan inkişaf dövrünə qədəm qoydu. Siyasi-demokratik institutların bərpası, bazar iqtisadiyyatı və müasir inkişaf başladı. Bütün bunlar, Azərbaycanın dünyada dinamik inkişaf edən ölkələrdən biri olmasına gətirib çıxardı. Bu gün Azərbaycanda keçirilən siyasi islahatlar azad cəmiyyətin yaranması ilə nəticələndi. Ölkəmizdə vətəndaşların bütün azadlıqları təmin edilib: söz, vicdan, mətbuat və başqa azadlıqlar. Sabit siyasi sistem, səmərəli sosial siyasət, zəngin təbii sərvətlər, müasir infrastruktur, əlverişli coğrafi mövqe, təhsil almış gənclik – bütün bunlar ölkəmizin uğur qazanmasında böyük rolu olan amillərdir.

İqtisadi sahədə son illərdə böyük uğurlara nail olmuşuq. Son 8-9 ildə iqtisadiyyatımız 3

dəfə artıb. Yoxsulluğun səviyyəsi 49 faizdən 6 faizə enib. İşsizlik problemi demək olar ki, köklü şəkildə həll edilib. Bu gün işsizlik cəmi 5,2 faizdir. Biz əsas infrastruktur layihələrini gerçəkləşdirməyə nail olmuşuq. Bütün sosial proqramlar həyata keçirilib. Bu gün neft sektorunun iqtisadiyyatımızın sabitləşdirilməsinə yönələn əsas amil olmasına baxmayaraq, son illərdə qeyri-neft sahəsi də uğurla inkişaf edib. Bu il bu sahədə artım təqribən 10 faiz təşkil edib. Biz qısa zamanda ciddi iqtisadi islahatlar aparmağa, iqtisadiyyatı şaxələndirməyə nail olmuşuq. Ölkəmizin təşəbbüsü ilə qlobal enerji və nəqliyyat layihələri həyata keçirilir. Bu gün Azərbaycanın beynəlxalq aləmdə sabit reytinqi var. Bütün aparıcı reytinq agentlikləri ölkəmizin inkişafını yüksək qiymətləndirir. Müasir texnologiyaların, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafı ölkəmizin qarşısında duran ən mühüm prioritetlərdən biridir.

Azərbaycanın strateji inkişafını təmin edən əsas amillərdən biri kimi regionların sosial-iqtisadi inkişaf proqramını xüsusi qeyd etmək istərdim. Bütün regionlarda infrastruktur layihələrinin gerçəkləşdirilməsi və yeni iş yerlərinin açılması prosesi gedir. Regionların sosial-iqtisadi inkişafı proqramının icrasından ötən müddət ərzində 1 milyon 100 min iş yeri açılıb ki, onlardan da 800 mini daimidir.

Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu region olub. Bu gün ölkəmizdə bütün mədəniyyət və dinlərin birgə mövcud olduğu əsl tolerant cəmiyyət yaranıb. Bakı Beynəlxalq Humanitar Forumun keçirilməsi ənənə halını alıb. Azərbaycan millətlərarası və sivilizasiyalararası dialoqun keçirilməsində böyük təcrübəyə malikdir. Əminəm ki, bu tolerantlıq bütün dünya üçün nümunə ola bilər və bu ənənə gələcəkdə də ölkəmizdə davam edəcək.

Azərbaycan artıq böyük idman ölkəsidir. İdmançılarımız Olimpiya oyunlarında və nüfuzlu beynəlxalq idman yarışlarında böyük uğurlar qazanırlar. Azərbaycan idmanın müxtəlif növləri üzrə Avropa və beynəlxalq səviyyəli yarışlara ev sahibliyi edir. Bütün ölkədə Olimpiya idman kompleksləri tikilir. Bu məqamda Avropa Komitəsinin Baş Assambleyasının Birinci Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi barədə qərarını xüsusi qeyd etmək istəyirəm. Bu, mühüm tarixi qərardır.

Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır. Azərbaycan xarici siyasət sahəsində böyük uğurlara nail olub. Ölkəmizin rolu beynəlxalq miqyasda da möhkəmlənib. Bu gün Azərbaycanın maraqları nəzərə alınmadan regionda heç bir layihə həyata keçirilə bilməz. Biz beynəlxalq təşkilatlar çərçivəsində dünyanın əksər ölkələri ilə uğurlu əməkdaşlıq edirik. 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunun artmasına dəlalət edir.

Təəssüf ki, bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmayıb. Ermənistanın təcavüzkar siyasəti Azərbaycan torpaqlarının 20 faizinin işğalına gətirib çıxarıb. Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün düşüb. BMT-nin Təhlükəsizlik Şurasında qəbul





edilən 4 qətnamə işğal olunmuş torpaqlarımızdan erməni işğalçı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edir. Qeyd olunan qətnamələrdən başqa ATƏT-in, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq qurumların Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edən qərar və qətnamələri vardır. Bizim mövqeyimiz ondan ibarətdir ki, münaqişə ancaq Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həll edilməlidir.

**"Baku":** Mehriban xanım, cənab Prezident tərəfindən sadalananların sirrini nədə görürsünüz?

**Birinci xanım:** Şübhəsiz ki, Azərbaycanın dinamik inkişafında məqsədyönlü siyasi və iqtisadi islahatların, neft strategiyasının, neft-qaz gəlirlərindən səmərəli istifadənin və güclü sosial siyasətin rolu böyükdür. Bütün bunların mərkəzində insan amili dayanır. Hər şey insan üçündür. Onun azadlığını, təhlükəsizliyini, yaşayışını təmin etmək dövlətin əsas vəzifəsidir. Biz 21 ildir ki, müstəqil dövlətik. Müstəqillik xalqımız üçün çoxdan gözlənilən, qiymətli dəyər idi. Məqsədimiz və arzumuz inkişaf etmiş, güclü, azad ölkədə yaşamaqdır. Sözsüz ki, bu, çox güclü motivasiyadır. Eyni zamanda, beynəlxalq aləmdə müasir Azərbaycanın real və obyektiv imici formalaşıb. Biz öz tarixi köklərimizə, ənənələrimizə bağlıyıq. Bununla belə, dünyaya açığıq. Bizim üçün dözümlülük, tolerantlıq, multikulturalizm təkcə son zamanlar dəbdə olan sözlər deyil. Bu, Azərbaycan xalqının çoxəsrlik həyat tərzi və fəlsəfəsidir. Bu gün ölkəmiz siyasi, mədəni və iqtisadi sahələrdə çox sayda beynəlxalq konfrans, forum və görüşlərin keçirildiyi ölkədir. Bu, qədim ənənələrin müasir meyilidir. Ölkəmizə gələn hər bir qonaq möhtəşəm inkişafla yanaşı, azərbaycanlıların məxsusi qonaqpərvərliyini və genişürəkliliyini qeyd edir. Buna ən yaxşı misal, ötən il ölkəmizdə keçirilən "Eurovision - 2012" mahnı müsabiqəsidir. Biz bu cür möhtəşəm mədəni tədbirin təşkilinə və keçirilməsinə görə ən yüksək qiymət aldıq. Bütün dünyadan minlərlə qonaq ölkəmizlə tanış oldu, Bakının gözəlliyinə əmin oldu və xalqımızın sülhsevərliyinə, qonaqpərvərliyinə heyran qaldı. Bizim nəslin bəxti gətirib ki, Azərbaycanda həqiqətən böyük dəyişikliklər və zəfərlər dövründə yaşayırıq, bütün quruculuq proseslərinin iştirakçısı ola bilərik. Sadəcə, Vətəni sevmək və onu qiymətləndirmək lazımdır.

**"Baku":** Bakı öz əfsanəvi gözəlliyi ilə bütün qonaqları heyran edən mədəniyyət və sivilizasiya mərkəzinə çevrilib. Burada inanılmaz tikinti bumu yaşanır. Siz Bakının müasir simasını necə xarakterizə edərdiniz?

**Prezident:** Bu gün hər bir azərbaycanlı fəxr edə bilər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Biz bunu görürük, qonaqlarımız da etiraf edir. Təsadüfi deyil ki, 2009-cu ildə Bakı İSESKO tərəfindən İslam mədəniyyəti paytaxtı elan edilmişdi. Bu, bizim paytaxtımıza verilən böyük qiymət idi. Bu gün Bakıda genişmiqyaslı abadlıq və quruculuq işləri görülür, iri infrastruktur layihələri həyata keçirilir. Sevindirici haldır ki, günbəgün müasirləşən Bakı öz tarixi simasını da qoruyub saxlayıb. Özündə Avropa və Şərq arxitekturasını birləşdirən paytaxtımıza gələn qonaqların sayı durmadan artır. Bu gün Bakı nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Biz gələcəkdə də Bakının inkişafı üçün tədbirlərimizi davam etdirəcəyik.

**Birinci xanım:** Mənim üçün Bakı həmişə əvəzedilməz auraya malik ən gözəl şəhər olub.

İçərişəhər, Dənizkənarı bulvar, Fəvvarələr meydanı, Neftçilər prospekti, Bakı Venesiyası, Funikulyor – hər bir bakılı üçün bu yerlər artıq kult hesab edilir. Öz sevimli şəhərinin ona layiq olan gözəlliyə qovuşmasını görmək xoşbəxtlikdir. O, necə də təmiz və baxımlıdır. Onun qədim tarixi siması və eyni zamanda, tamamilə yeni, müasir siması formalaşır. Yenidənqurma işlərinin mərkəzdən kənarlara çıxması göz qabağındadır. Yarıdağılmış tikililərin yerində Avropasayağı, rahat və gözəl parklar salınır. Qeyri-adi arxitektura, xüsusi mədəni estetikaya malik zonalar yaranır. Məsələn, yaxın gələcəkdə "Baku Art City" layihəsi başa çatacaq. Xəzər dənizinin sahilində, Dənizkənarı bulvarın davamında özünəməxsus qalereyalar, salonlar, muzeylər və sərgi meydançaları olan incəsənət mərkəzi yaradılacaq. XX əsrin sənaye arxitekturasının bazasında paytaxtımız üçün tamamilə yeni, yaradıcı ruhu olan mini-şəhərcik yaradılacaq.

**"Baku":** Həyatınızda son 5 ildə nə dəyişib?

**Birinci xanım:** Son 5 ilin ən xoşbəxt, yaddaqalan hadisəsi kimi nəvələrimizin dünyaya gəlməsini hesab edirəm. Uşağın doğulması həmişə böyük xoşbəxtlik və Tanrının nemətidir. Bu, insanın həyatını dəyişən və həyata tamamilə fərqli baxmağa vadar edən möcüzədir.

**"Baku":** Oxucularımıza yeni ildə arzularınız...

**Prezident:** Mən "Baku" jurnalının oxucularını və kollektivini qarşıdan gələn Yeni il və 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, kollektivə yeni yaradıcılıq uğurları və cansağlığı arzulayıram.

**Birinci xanım**: Qoy hər kəsin həyatında işıqlı və gözəl günlər daha çox olsun! Qoy ümidləriniz doğrulsun, arzularınız çin olsun! Hamıya cansağlığı, xoşbəxtlik və sevgi arzulayıram!

***"Azərbaycan" qəzeti,***
***8 fevral 2013-cü il***





# MİLLİ MƏCLİSDƏ AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY İCLASI KEÇİRİLMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyeva iclasda çıxış edərək demişdir:

– Hörmətli həmkarlar, bir neçə gündən sonra biz dahi şəxsiyyət Heydər Əliyevin 90 illik yubileyini qeyd edəcəyik.

Böyük siyasət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hər bir azərbaycanlının qəlbində qoyub getdiyi azərbaycançılıq fəlsəfəsi, dövlətçilik irsi və gördüyü nəhəng işlərlə yaşayacaqdır. Heydər Əliyev müdrik, güclü, cəsarətli, nəhəng intellektə və yenilməz iradəyə malik olan bir insan idi. Eyni zamanda, onun ailə üzvü olaraq demək istərdim ki, o, çox xeyirxah, mərhəmətli və humanist insan idi. Adi insanlarla münasibətdə o, çox sadə və ədalətli idi. Baxmayaraq ki, ömrünün müxtəlif çağlarında o, ədalətsizlik, satqınlıq və xəyanətlə üzləşmişdi. Elə bu salonda onun vaxtı ilə irəli çəkdiyi insanlar ona qarşı əsassız hücumlar etmişdilər. Lakin o, 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilərək həmin insanların böyük əksəriyyətini bağışladı və bu bağışlamaq qabiliyyəti ilə bir daha öz böyüklüyünü təsdiqlədi.

Bu gün müzakirə etdiyimiz amnistiya aktı əslində, bağışlamaq aktıdır. Belə bir qanunun Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində qəbul edilməsi böyük rəmzi xarakter daşıyır.

Əziz dostlar, mən inanıram ki, bağışlamaqla, xoş niyyətlə və mərhəmətlə bu dünyada bir çox şeyləri yaxşılığa doğru dəyişdirmək mümkündür. Əsrlər boyu insanda insanlığı qoruyub saxlayan məhz humanizm ideyaları, humanizm prinsipləri olub.

Diqqətinizə təqdim olunan qərarda təqribən 9000 şəxsin Amnistiya aktının təsiri altına düşməsi nəzərdə tutulub. Onlardan 2000-dən artıq məhkumun azad olunması gözlənilir. Mən ümidvaram ki, azadlığa çıxan insanlar öz səhvlərini dərk edəcəklər, bir də gələcəkdə belə səhvlərə yol verməyəcəklər, ailələrinə qovuşacaqlar, cəmiyyətimizdə öz yerlərini tutacaqlar.

Mən, hörmətli həmkarlar, sizi bu qərarı dəstəkləməyə çağırıram və diqqətinizə görə çox sağ olun.

***"Azərbaycan" qəzeti,***
***8 may 2013-cü il***




## AZƏRBAYCANIN YUNESKO-ya ÜZV OLMASININ 20 İLLİYİ MÜNASİBƏTİLƏ PARİSDƏ MƏRASİM KEÇİRİLMİŞDİR

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Hörmətli xanım baş direktor, xanımlar və cənablar, əziz dostlar. Bu gün burada, YUNESKO-nun qərargahında, YUNESKO ailəsinin üzvləri olan dostlarımın arasında yenidən olmağımdan şadam. Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın 20 illiyinə həsr olunan bu tədbirdə iştirak etdiyiniz üçün sizə təşəkkür edirəm. Bu fürsətdən istifadə edib Azərbaycanın ənənəvi daş sənətinin hörmət və cəsarət rəmzi olan 2 gözəl nümunəsini YUNESKO-ya ianə etməyimizdən şadıq.

Azərbaycanda memorial abidələr yaratmaq ənənəsi qədim dövrlərə təsadüf edir və bu abidələrin əksəriyyətinin həm tarixi, həm də bədii dəyəri vardır. Əlbəttə ki, onların hamısı bizim qədim və zəngin mədəni irsimizin bir parçasıdır. Bu iki gözəl heykəlin burada, YUNESKO-nun qərargahında, bağçada yerləşdirilməsinə görə xanım baş direktora və YUNESKO-nun Katibliyinə dərin minnətdarlığımı bildirmək istərdim.

Əziz dostlar, bu gün biz Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın 20-ci ildönümünü qeyd etdik. Azərbaycanda bu təşkilatla əməkdaşlığa verilən əhəmiyyəti vurğulamaq istərdim. Azərbaycan YUNESKO-nun müxtəlif sahələrdə məqsədlərinin təşviqinə sadiqdir. Son 20 ildə biz ölkəmizdə





təhsil sisteminin inkişafına və müasirləşdirilməsinə xüsusi diqqət yetirmişik. Biz dərindən inanırıq ki, yalnız yüksək səviyyəli təhsilə malik olan ölkə uğurlar əldə edə və xalqı üçün daha yaxşı həyat keyfiyyətini təmin edə bilər. Biz, eyni zamanda, elmin və müasir texnologiyaların inkişafına çoxlu sərmayə yatırırıq. Bu ilin fevral ayında Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azərspeys-1"in kosmik fəzaya buraxılması bunun bariz nümunəsidir.

Mədəni irsimizin qorunması Azərbaycan hökuməti üçün prioritet istiqamətdir. Biz fəxr edirik ki, Azərbaycan muğamı, aşıq musiqisi, tar ifası, Novruz bayramı YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilib. Eyni zamanda, Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı və Qobustan Dövlət Tarix və Bədii Qoruğu da YUNESKO-nun Dünya İrsi Siyahısına salınıb.

Əziz dostlar,YUNESKO qeyd etdiyim sahələrdə bizim bütün təşəbbüslərimizi dəstəkləyir. Ötən 20 ildə biz çox sayda birgə tədbirlər təşkil etmişik, YUNESKO-nun fəaliyyətinin bütün sahələrini əhatə edən layihələr həyata keçirmişik. Burada, YUNESKO qərargahında biz Azərbaycanın bir çox tanınmış şəxsiyyətlərinin yubileylərini qeyd etmişik və bu fürsətə görə YUNESKO-ya minnətdarıq. Azərbaycan həm də YUNESKO ilə mədəniyyətlərarası dialoq kimi mühüm bir sahədə yaxından əməkdaşlıq edir. Bu gün beynəlxalq ictimaiyyət bizim ölkəmizi yüksək dini və etnik dözümlülük sahibi, dialoqun mərkəzi kimi tanıyır. Əsrlər boyu müxtəlif dinlərin və etnik qrupların nümayəndələri Azərbaycanda sülh, harmoniya şəraitində yaşayıblar. Bu gün, xanım Bokova, Sizə bu ilin mayında Bakıda keçirilən mədəniyyətlərarası dialoq üzrə II Beynəlxalq Forumda iştirak etdiyinizə və bu tədbirin uğurla nəticələnməsinə verdiyiniz töhfələrə görə ən dərin minnətdarlığımı ifadə etmək istərdim. Ölkəmiz Azərbaycan hökumətinin təşəbbüslərinə start verildiyi ilk andan YUNESKO-nun bu forumun keçirilməsinin rəsmi tərəfdaşı olması faktını yüksək qiymətləndirir.

Əziz dostlar, bu gün biz YUNESKO ilə Azərbaycan hökuməti arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlığa dair Çərçivə Sazişi imzaladıq. Bu da əlaqələrimizin gələcək inkişafında mühüm rol oynayacaqdır. Mən inanıram ki, bu saziş, həmçinin beynəlxalq səviyyədə başlanmış prioritet proqramlarına və təşəbbüslərinə dəstək verməklə YUNESKO-nun ideallarının və prinsiplərinin dünyada təbliğinə töhfə verəcəkdir.

Sonda YUNESKO-ya və xanım Bokova, şəxsən Sizə bu illər ərzində tam dəstəyinizə, dostluğunuza görə təşəkkürümü bildirmək istərdim. Əminəm ki, Azərbaycan YUNESKO ilə əməkdaşlığını davam etdirəcəkdir. Bu da gələcəkdə əlaqələrimizi daha da gücləndirmək üçün mövcud olan böyük potensialın tam şəkildə həyata keçirilməsinə şərait yaradacaqdır. Bu gün bizimlə olduğunuz üçün çox sağ olun.

Diqqətinizə görə minnətdaram.

***"Azərbaycan" qəzeti,***
***20 iyul 2013-cü il***



*II fəsil*

# Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin bəzi məqamları

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN ÜZVÜ MEHRİBAN XANIM ƏLİYEVA BAKININ ƏZİZBƏYOV RAYONUNUN QƏSƏBƏLƏRİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin üzvü Mehriban xanım Əlileva seçkiqabağı kampaniya zamanı seçicilərlə görüşlərdə qaldırılan məsələlərin həlli, verdiyi vədlərin yerinə yetirilməsi vəziyyəti ilə tanış olmaq məqsədilə 2006-cı ilin fevralın 8-də Əzizbəyov rayonunun Binə qəsəbəsində sakinlərlə görüşmüş, yeni tikilən obyektlərə baxmışdır.

Binə qəsəbəsindəki Möhsün Səlim məscidində dindarlar Mehriban xanımı böyük hörmətlə qarşıladılar. Məscidin baş xidmətçisi Hacı Mirzə Baba məlumat verdi ki, 1909-cu ildə yerli neftxuda Möhsün Səlimin vəsaiti ilə usta Mirzə Məlikin tikdiyi bu ibadətgahın bir hissəsi 1918-ci ildə erməni daşnak quldurlarının top atəşləri ilə dağıdılmış, sonralar bir neçə dəfə təmirinə başlansa da, hər dəfə yarımçıq qalmışdır.

Mehriban xanım ötən ilin oktyabrında qəsəbə sakinlərinin xahişi ilə bu ibadətgaha gəlib vəziyyətlə yerində tanış olduqdan sonra öz köməyini göstərəcəyini vəd etmişdi. İndi burada əsaslı təmir-bərpa işlərinə başlanmışdır.

Fondun prezidenti təmir-bərpa işləri ilə tanış oldu, yerli ustaların sənətkarlığını yüksək qiymətləndirdi. Usta və fəhlələr bildirdilər ki, onlar məscidi əvvəlki görkəminə qaytarmaq, keyfiyyətli təmir etmək üçün bütün qüvvə və səylərini əsirgəməyəcəklər. Milli Məclisin deputatı məscidin istilik sisteminin quraşdırılmasına xüsusi diqqət yetirməyi də tövsiyə etdi, binanın daxili görkəminə uyğun çilçıraq, xalı-xalçanın da sifariş olunduğunu bildirdi.

Dindarlar savab əməllərinə, xeyriyyəçilik fəaliyyətinə görə Mehriban xanıma minnətdarlıq etdilər, milli-dini dəyərlərimizin qorunub saxlanmasına göstərdiyi qaygıya görə Prezident İlham Əliyevə də razılıqlarını bildirdilər, ən xoş arzularını ifadə etdilər.

Seçkiqabagı görüşlərdə sakinlərin əsas narazılıqlarından biri elektrik enerjisi təchizatı ilə bağlı olmuşdu. Bununla əlaqədar Milli Məclisin deputatının xahişinə əsasən, "Azərenerji" Səhmdar Cəmiyyəti "Yeni Binə" adlanan sahədə yardımçı stansiyanın yenidən qurulmasına başlamışdır.

Stansiyaya gələrək burada aparılan tikinti-quraşdırma işləri ilə tanış olan Mehriban xanıma məlumat verildi ki, 1952-ci ildə istifadəyə verilmiş obyekt istismar müddətini başa vurmuşdu. Ona görə də stansiya,əslində tamamilə yenidən tikilmişdir. Burada quraşdırılan 10 və 16 kvt gücündə 2 transformator Binə qəsəbəsinin elektrik enerjisinə olan hazırkı tələbatının yarıdan çoxunu ödəyəcəkdir. Stansiya martın əvvəlində tam istismara veriləcəkdir.





Qəsəbə sakinləri elektrik enerjisi çatışmazlığının aradan qaldırılmasına göstərdiyi köməyə görə millət vəkilinə öz razılıqlarını çatdırdılar. Stansiyanın ərazisində aparılmış abadlıq işlərindən də razı qaldığını bildirən Mehriban xanım buraya gələn yolların da qaydaya salınacağına əminliyini söylədi. Xüsusi qeyd etdi ki, dövlət başçısı İlham Əliyev Bakının ətraf qəsəbələrinin elektrik enerjisi, qaz, su təchizatını yaxşılaşdırmaq üçün ayrıca proqram işlənib hazırlanması üçün səlahiyyətli orqanlara tapşırıqlar vermişdir və bu proqram yaxın günlərdə təsdiq edilərək icrasına başlanacaqdır. Regionda enerji müstəqilliyinə malik olan yeganə dövlət kimi Azərbaycanın energetika gücünün daha da artırılması əhalinin, dövlət və qeyri-dövlət sektorunun fasiləsiz elektrik enerjisi ilə təminatına sanballı stimul verəcəkdir.

Hövsan "Südçülük sovxozu" adlanan qəsəbədəki 70 nömrəli uşaq bağçası və körpələr evinin həyətinə toplaşan sakinlər, bu təlim-tərbiyə ocağının kollektivi Mehriban xanımı hərarətlə qarşıladılar. 237 nömrəli məktəbin müəllimi Nəzakət Məmmədova həmyerlilərinin ürək sözlərini ifadə edərək dedi ki, Heydər Əliyev Fondu fəaliyyətə başladığı ilk gündən təhsil problemlərinin həllini özünün başlıca vəzifələrindən biri kimi elan etmiş, "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb" proqramları çərçivəsində respublikamızda, o cümlədən Əzizbəyov rayonunda çox dəyərli işlər görmüşdür. Mehriban xanım seçkiqabağı görüşlərində rayonun bütün qəsəbələrində keçirdiyi görüşlərdə mövcud problemlərlə ətraflı tanış olaraq onların həlli barədə öz təkliflərini hazırlamış, rəhbərlik etdiyi Fond tərəfindən proqramlar tərtib edilmiş və dərhal da icrasına başlanmışdır. Qəsəbənin ən böyük problemi olan su çatışmazlığı artıq aradan qaldırılmışdır və elə təkcə buna görə Mehriban xanım hər bir ailənin sevimlisinə çevrilmişdir, sakinlər özlərinə ən layiqli deputat seçdiklərinə bir daha əmin olmuşlar.

Son illər ölkəmizdə yeni təhsil, səhiyyə obyektlərinin inşasının geniş vüsət aldığını, ötən il Fondun təşəbbüsü ilə respublikada müasir tələblərə cavab verən 132 məktəbin tikilib istifadəyə verildiyini, bu il isə daha 100 məktəbin, o cümlədən 50-sinin Bakıda inşa olunacağını xatırladan Mehriban Əliyeva, bu genişmiqyaslı proqramdan Əzizbəyov rayonuna da pay düşəcəyini qeyd etdi. Mehriban xanım ünvanına deyilən xoş sözlərə, ona etibar etdiklərinə görə təşəkkür edərək, qaldırılan hər bir məsələnin bundan sonra da diqqətlə öyrənilib tədbirlər görüləcəyini söylədi. Bildirdi ki, yaxın 2-3 ildə məktəblərin bütün maddi-texniki bazası yeniləşəcək, uşaqlarımızın yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılacaqdır.

Binə qəsəbəsindəki 136 nömrəli məktəbin bir qrup müəllimi Mehriban xanımı öz məktəblərinə dəvət etdilər. Millət vəkili Fond əməkdaşlarının apardığı monitorinqdə bu məktəbin də əsaslı təmirə ehtiyacı oldugunu müəyyən etdiklərini, hazırlanmış proqramda bunun nəzərə alındığını bildirərək dedi ki, mütləq həmin məktəbə gələcəkdir.

Sakinlərin arzu və istəklərini, ayrı-ayrı məsələlər barədə müraciətlərini də səbirlə dinləyən Mehriban Əliyeva Fondun əməkdaşlarına müvafiq tapşırıqlar verdi.

Sonra Fondun prezidenti uşaq bağçasında gedən təmir işləri ilə tanış oldu. O, uzun illər

təmir üzü görməyən bu təlim-tərbiyə ocağının nümunəvi müəssisəyə çevrilməsi üçün bütün lazımi köməyin göstəriləcəyini, təzə avadanlıqla da təchiz olunacağını bildirdi.

Mehriban Əliyevanın Binədə daha bir görüşü qəsəbənin alaqapısının tikinti meydançasında oldu. İnşaatçılar hörmətli qonağı səmimiyyətlə qarşıladılar, indiyədək Bakı ətrafındakı iri qəsəbələrin heç birinin əsas girişində alaqapının olmadığından təəssüf hissi keçirdiklərini xatırlatdılar. Eyni zamanda, bu çatışmazlığın aradan qaldırılmasının təşəbbüsçüsünün də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva olmasından məmnunluqlarını bildirdilər. Layihənin müəllifi və iş icraçısı dedi ki, 25 kvadratmetr sahəsi olan 7 metr hündürlüyündə alaqapı milli memarlıq üslubunda tikiləcəkdir. Ətrafda 200 kvadratmetr sahədə yaşıllıq salınacaq, gül-çiçək əkiləcək, oturacaqlar qoyulacaqdır.

Mehriban xanımın bir sıra tövsiyələrini müsbət dəyərləndirən inşaatçılar tikinti işlərinin gələn ay tamamlanacağını bildirdilər.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva həmin gün rayonun Türkan, Zirə və Şüvəlan qəsəbələrində də oldu.

*"Azərbaycan" qəzeti,*
*9 fevral 2006-cı il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA BAKININ ƏZİZBƏYOV RAYONUNUN QƏSƏBƏLƏRİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva seçkiqabağı kampaniya zamanı seçicilərlə görüşlərdə qaldırılan məsələlərin həlli, verilən vədlərin yerinə yetirilməsi vəziyyəti ilə tanışlıq məqsədi ilə fevralın 2006-cı ilin 8-də Əzizbəyov rayonunun Türkan və Zirə qəsəbələrində olmuş, sakinlərlə görüşmüş, yeni tikilən obyektlərə baxmışdır.

Mehriban Əliyevanın Türkanda ilk görüşü qəsəbənin alaqapısının tikinti meydançasında oldu. İnşaatçılar hörmətli qonağı səmimiyyətlə qarşıladılar. Bakı ətrafındakı iri qəsəbələrin girəcəyində alaqapılar yoxdur və onların tikilməsi barədə təşəbbüsü Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva irəli sürmüşdür. Layihənin müəllifi və iş icraçısı dedi ki, qəsəbənin girəcəyində iki günbəz tikiləcək və tağla birləşdiriləcəkdir. Günbəzlər milli memarlıq üslubunda olacaqdır. Ətrafda yaşıllıq salınacaq, gül-çiçək əkiləcək, oturacaqlar qoyulacaqdır.

İnşaatçılar Mehriban xanımın tövsiyələrini nəzərə alacaqlarını, tikinti işlərini gələn ay başa çatdıracaqlarını bildirdilər.

Türkan qəsəbəsindəki 14 saylı uşaq bağçasının əsaslı şəkildə yeniləşməsi də Mehriban Əliyevanın seçkiqabağı görüşlərində verdiyi vədin nəticəsi olmuşdur. 1933-cü ildə tikilmiş, lakin uzun illərdən bəri təmir olunmayan bu binada qısa vaxtda görülən işlər Mehriban xanımı razı saldı. Geniş sahəsi olan binanın bir hissəsində Mehriban xanımın şəxsi məsləhəti ilə təcili tibbi yardım stansiyası və aptek açılması da nəzərdə tutulur. Bu, qəsəbə sakinlərinin tibbi xidmətlə təmin edilməsi işinə sanballı töhfə olacaqdır.

Bağçanın qarşısına toplaşan sakinlər Mehriban xanımla yenidən görüşməkdən şad olduqlarını söylədilər, onun təşəbbüsü ilə görülən işləri, xüsusilə qəsəbənin yolunun abadlaşmasını müsbət dəyərləndirdilər, seçkiqabağı verdiyi vədləri yerinə yetirdiyinə görə razılıqlarını bildirdilər. Onlar Fondun prezidentini "2005-ci ilin adamı" seçilməsi münasibətilə də təbrik etdilər.

Ölkənin birinci xanımı dedi ki, Türkanda gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün ayrıca bina, toy-şənlik mərasimlərinin təşkilindən ötrü şadlıq sarayı, əhalinin rahatlığı üçün geniş ticarət mərkəzi də inşa olunacaqdır. Tikinti üçün yer seçilərkən, layihə tərtib olunarkən sakinlərin təklifləri də nəzərə alınacaqdır. Tikinti işlərinin gedişini müntəzəm işləyəcək, açılış mərasimlərində mütləq iştirak edəcəyəm.

Mehriban Əliyeva daha sonra bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafını, yeni iş yerlərinin açılmasını, su, qaz, elektrik enerjisi təminatının yaxşılaşmasını əhatə edən irimiqyaslı proqram hazırlanır. Bu proqram Əzizbəyov rayonunun da hərtərəfli inkişafına yeni stimul verəcək, türkanlılar da bunun real bəhrəsini görəcəklər.

Zirəyə budəfəki gəlişini qəsəbənin alaqapısının inşa olunduğu yerdən başlayan Mehriban xanıma məlumat verildi ki, sakinlər tikintiyə böyük maraq göstərir, tez-tez buraya baş çəkir, öz köməklərini təklif edirlər. Bu alaqapı da orijinal görünüşü ilə digərlərindən fərqlənəcəkdir. Ətrafda yaşıllıq salınacaq, bulaq tikiləcək, dincəlmək üçün oturacaqlar qoyulacaqdır. Tikinti işləri "Novruz bayramı"na kimi tamamlanacaqdır.

Qəsəbə sakinləri Xəzərdə öz xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuş cəsur neftçi Əbdülhəsən Babayevin yeni ucaldılmış xatirə abidəsi önündə Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Onların bütün müraciətlərinə cavab verdiyinə, bu abidənin tikintisinə, 3 nəfər zirəli gəncin xaricdə ürək cərrahiyyəsi əməliyyatından keçirilərək sağ-salamat Vətənə qayıtmasına göstərdiyi köməyə görə öz razılıqlarını ifadə etdilər. Prezident İlham Əliyevin daxili və xarici siyasətini hər zaman dəstəkləyəcəklərini bildirən sakinlər millət vəkili kimi Mehriban xanımın fəaliyyətindən qürur duyduqlarını söylədilər, ona və ailə üzvlərinə Allahdan cansağlığı, xoşbəxtlik, xalqımızın, müstəqil dövlətimizin tərəqqisi naminə yeni uğurlar dilədilər.

Abidə önünə tər qərənfillər düzən Mehriban Əliyeva buraya toplaşan sakinlərə müraciətlə dedi:

– Çox sağ olun ki, siz də məni parlament seçkilərində dəstəklədiniz, mənə səs verdiniz. Mən sizi yenidən gördüyümə çox şadam. Sizin qəsəbədə, eləcə də rayonda görülən işlər yalnız başlanğıcdır, əsas işlər hələ qabaqdadır, yeni məktəblər, tibbi-sağlamlıq obyektləri inşa ediləcəkdir. Bildiyiniz kimi, ötən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə respublikamızın regionlarında 132 məktəb tikilib istifadəyə verilmişdir. Bu il isə 100 məktəbin inşası nəzərdə tutulur, özü də bunun yarıdan çoxu Bakıda və ətraf qəsəbələrdə tikiləcəkdir. Bundan əlavə, dövlət başçımızın tapşırığı ilə paytaxtın ətraf qəsəbələrinin su, qaz, işıq və digər kommunal problemlərinin həlli üçün geniş dövlət proqramı işlənib hazırlanır. Yaxın iki ayda bu proqram təsdiq edilərək icrasına başlanacaqdır.

Bilirəm ki, Zirədə qaz çatışmazlığı var, proqramın reallaşması ilə bu məsələ öz köklü həllini tapacaqdır. Bu problem qonşu ölkələrdə həyatı iflic etmək həddinə çatsa da, bizdə vəziyyət çox-çox yaxşıdır, hətta, dar gündə öz qonşularımıza da əl tuta bildik, kömək etdik. Bu ildən başlayaraq, ölkəmizə neft ixracından xeyli vəsait daxil olacaqdır. Dövlət başçımızın da dediyi və konkret işlərlə həyata keçirdiyi kimi, bu vəsait, ilk növbədə, xalqın maddi rifahının yaxşılaşmasına və sosial layihələrin reallaşmasına, yeni infrastrukturların yaradılmasına yönəldiləcəkdir. Mən bilirəm ki, Zirədə şadlıq sarayı yoxdur, gənclərin mədəni istirahəti





üçün bir yer yoxdur, geniş Ticarət mərkəzinə ehtiyac var. Bununla əlaqədar artıq torpaq sahəsi ayrılıb, layihələr hazırlanıb, yaxın vaxtlarda tikintiyə başlanacaqdır. Bu obyektlərin inşasında ən çox yerli sakinlər işləyəcəkdir, onların da maddi vəziyyətinin yaxşılaşmasına imkan yaranacaqdır, yeni iş yerləri açılacaqdır. Diaqnostika mərkəzi, xəstəxana da tikiləcəkdir. Dövlət proqramında bunlar nəzərə alınıbdır. Mən də çalışacağam ki, bu məsələlər tezliklə öz həllini tapsın.

Uzun illər qəsəbə sovetinin katibi, sonra isə uşaq bağçasının müdiri işləmiş, öz həmyerlilərinin hörmətini qazanmış 78 yaşlı ağbirçək Badam Bədəlova ötən ilin oktyabrında Zirədə keçirilən görüşdə Mehriban xanımı sidq-ürəklə öz evinə qonaq dəvət etmişdi. Mehriban xanım o zaman söz vermişdi ki, növbəti gəlişində mütləq onun qonağı olacaqdır. İndi Badam nənə onu sonsuz sevinc hissi ilə, ən xoş sözlərlə həyət qapısında qarşılayaraq, verdiyi bütün vədlərə belə əməl edən Azərbaycanın birinci xanımına səmimi arzularını yetirdi. Mehriban xanım ağbirçəklə hal-əhval tutaraq onun səhhəti ilə, dolanışığı, ailənin vəziyyəti ilə maraqlandı, öz hədiyyələrini təqdim etdi. Səmimi söhbət çay süfrəsi arxasında davam etdi.

Badam nənə ilə sağollaşıb ayrılan Mehriban xanımın bu səmimiyyətindən xoşhal olan qonşular da minnətdarlıq edərək, xeyirxah işlərini yüksək dəyərləndirdilər, ona Allahdan xeyir-dua dilədilər.

Mehriban xanım qəsəbə sakinlərinin müraciətlərini, arzularını dinlədi, Fondun əməkdaşlarına qaldırılan məsələləri konkret araşdırıb ona məlumat verməyi tapşırdı.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva həmin gün rayonun Şüvəlan qəsəbəsində də oldu.

***"Azərbaycan" qəzeti,***
***10 fevral 2006-cı il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA BAKININ ƏZİZBƏYOV RAYONUNUN QƏSƏBƏLƏRİNDƏ APARILAN TİKİNTİ İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva seçkiqabağı görüşlərdə qaldırılan məsələlərin həlli, verdiyi vədlərin yerinə yetirilməsi vəziyyəti ilə tanış olmaq məqsədi ilə 2006-cı ilin fevralın 8-də Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsində sakinlərlə görüşmüş, yeni tikilən obyektlərə baxmışdır.

Fondun prezidenti qəsəbədəki 10 nömrəli körpələr evi və uşaq bağçasında ötən ildə iki dəfə olmuş, 1953-cü ildə inşa edilmiş ikimərtəbəli bu təlim-tərbiyə müəssisəsinin ciddi təmirə, əsaslı şəkildə yenidən qurulmasına zəruri ehtiyac olduğunu, bu işə lazımi kömək göstəriləcəyini bildirmişdi. Mütəxəssislərin rəyi ilə hazırlanmış layihə-smeta sənədlərində binanın memarlıq baxımından əhəmiyyətli olması, buna görə də əvvəlki zahiri görkəminin saxlanmasının vacibliyi də nəzərə alınmışdı. Ötən ilin sonlarından başlayaraq burada aparılan təmir-yenidənqurma işləri xeyli sürətlənmişdir. Binanın dam örtüyü dəyişdirilmiş, özüldə bərkitmə işləri aparılmışdır. Mehriban Əliyeva inşaatçılara tövsiyələrini söylədi, təmir işlərinin tezliklə tamamlanıb binanın yenidən uşaqların istifadəsinə verilməsinin zəruriliyini vurğuladı.

Uşaq bağçasının tərbiyəçiləri və burada toplaşan valideynlər yararsız vəziyyətə düşmüş bu binaya ikinci ömür bəxş edən Mehriban xanıma minnətdarlıqlarını bildirdilər, "Uşaq evləri və İnternat məktəblərinin inkişafı" proqramı çərçivəsində Şüvəlanda xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı bir çox müəssisənin də əsaslı şəkildə bərpa olunaraq müasir tələblər səviyyəsində yenidən qurulmasını, lazımi avadanlıqla təmin edilməsini təmənnasız mərhəmət, insanpərvərlik, Vətənə, xalqa məhəbbət nümunəsi kimi qiymətləndirdilər. Parlamentdə onları təmsil edən Mehriban xanımın xeyirxahlığı, qayğısı ilə görülən işlərin minlərlə ailəyə sevinc gətirdiyini, təsəlli olduğunu söylədilər.

Mehriban Əliyeva xoş sözlərə görə razılığını ifadə etdi, Heydər Əliyev Fondunun işləyib hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirdi. O dedi ki, ölkəmizin iqtisadi potensialı güclənir, büdcə gəlirləri artır, dövlət tərəfindən geniş sosial layihələr işlənib hazırlanır və ardıcıl surətdə həyata keçirilir. Ümummilli liderimizin adını daşıyan Fond da bu işdə öz köməyini əsirgəmir. Ötən il respublikanın bölgələrində tam yararsız vəziyyətdə olan 132 məktəb üçün yeni binalar tikilmişdir. Bu il daha 100 məktəb binası tikiləcək ki, onların yarısı Bakıda olacaqdır. Həmin məktəblər müasir tələblərə cavab verən səviyyədə təzə avadanlıqla





da təmin ediləcəkdir. 2005-ci ildən Heydər Əliyev Fondu kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair geniş bir layihənin də icrasına başlamışdır. Layihə Şüvəlan qəsəbəsindəki bu tipli məktəbləri də əhatə edəcəkdir.

Qəsəbənin "Şimal" DRES-i yaşayış massivində ki, 31 nömrəli xəstəxananın yenidən qurulması ilə tanışlıq tibb işçiləri və sakinlərlə görüşdən başladı.

Heydər Əliyev Fondunun hazırlayıb həyata keçirdiyi "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı" və digər layihələrin cəmiyyətdə yüksək dəyərləndirildiyini vurğuladılar. Eyni zamanda, ötən parlament seçkilərində yekdilliklə səs verdikləri ölkənin birinci xanımın deputat kimi fəaliyyətindən qürur duyduqlarını söylədilər, seçkiqabağı vədləri yerinə yetirdiyinə, problemlərin həllinə ardıcıl diqqət, tələbkar münasibət göstərdiyinə görə razılıqlarını bildirdilər. Xəstəxananın yenidən qurulması təşəbbüsünə görə də minnətdarlıq etdilər.

Mehriban Əliyeva son vaxtlar respublikamızda səhiyyə sistemində köklü islahatların başlandığını, geniş layihələrin hazırlandığını, müasir tələblərə cavab verən yeni infrastrukturun yaradıldığını bildirdi. O dedi ki, Prezident İlham Əliyevin tapşırığı ilə Bakıətrafı qəsəbələrin sosial problemlərinin həlli üçün geniş "Dövlət proqramı" hazırlanır. Onun həyata keçirilməsi Əzizbəyov rayonunda olan çatışmazlıqların da aradan qaldırılmasına imkan yaradacaqdır. Bu qəsəbədə lazımi tibb xidmətinin təşkili üçün imkan olmamasından təəssüfləndiyini söyləyən Mehriban xanım bildirdi ki, əslində, yenidən tikilən bu binada xeyli təzə şöbələr də açılacaq, müasir tibb avadanlığı alınıb quraşdırılacaq, xəstəxana ixtisaslı həkimlərlə tam kompleksləşdiriləcəkdir. Hazırlanan "Dövlət proqramı"nda burada diaqnostika mərkəzinin inşası da nəzərdə tutulur.

Xəstəxana binasında aparılan yenidənqurma işləri ilə ətraflı tanış olan, keyfiyyətə xüsusi diqqət yetirilməsinin zəruriliyini vurğulayan Mehriban Əliyeva Fondun əməkdaşlarına tez-tez buraya baş çəkməyi və işlərin gedişi barədə ona məlumat verməyi tapşırdı.

Nizami rayonundakı 1 nömrəli uşaq evinin Şüvəlandakı yay düşərgəsi Heydər Əliyev Fondunun hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramına müvafiq olaraq, əslində, tamamilə yenidən qurulur. Layihəçi və inşaatçı Mehriban xanıma nəzərdə tutulan işlər barədə ətraflı məlumat verdilər. Bildirildi ki, burada ikimərtəbəli yataqxana, təlim-tədris korpusları, yeməkxana, mətbəx, duşxana, tibbi müayinə otağı və s. tikiləcək, ərazidə idman-sağlamlıq guşəsi, istirahət mərkəzi yaradılacaqdır. Təzə avadanlıq sifariş verilmiş, ərazidə yaşıllaşdırma işlərinə də başlanmışdır. Hazırda 45 nəfərin çalışdığı bu obyekt, nəzərdə tutulduğu kimi, mayın 10-dək istifadəyə veriləcəkdir.

Mehriban Əliyeva yardımçı binaların köhnə şəkilləri və yeni layihə sənədləri ilə ətraflı tanış olduqdan sonra düşərgənin payız-qış mövsümündə də fəaliyyət göstərməsi təklifini verdi,

bununla bağlı daha hansı işlərin görülməli olduğunu soruşdu. Fikir mübadiləsindən sonra bu kompleksdə digər zəruri tədbirlərin də görülməsinin, xüsusilə qazanxana-istilik sisteminin yenidən layihələndirilməsinin vacibliyi bildirildi. Fondun prezidenti bunun üçün qısa vaxtda müvafiq işlərin görülməsini tapşırdı.

İnşaatçıların qayğı və problemləri ilə də ətraflı maraqlanan ölkənin birinci xanımı onlara uğurlar arzuladı, ümummilli lider Heydər Əliyevin doğum gününə kimi kompleksin istifadəyə verilməsini təqdirəlayiq hesab etdiyini, açılış mərasimində iştirak edəcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*11 fevral 2006-cı il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA ƏZİZBƏYOV RAYONUNDA TƏHSİL VƏ MƏDƏNİYYƏT OBYEKTLƏRİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

2006-cı ilin mayın 10-da, ulu öndərimizin anadan olmasının 83-cü ildönümü günündə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva paytaxtın Əzizbəyov rayonunda bir neçə mədəniyyət və təhsil obyektlərinin açılışında iştirak etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin "Kitabxana millət, xalq, cəmiyyət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir" müdrik kəlamını öz fəaliyyətində örnək kimi qəbul edən Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələrdən bir qismi də mövcud kitabxanaların yenidən qurulması ilə bağlıdır. Fondun bu sahədəki ardıcıl fəaliyyəti artıq onlarca qəsəbə və kənd kitabxanasının yenidən qurulmasına, müasir avadanlıqla təmin olunmasına və zənginləşməsinə imkan yaratmışdır.

Əsaslı şəkildə Mərdəkan qəsəbəsində yenidən qurulan kütləvi kitabxananın açılış mərasiminə gələn Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Kitabxananın müdiri Ofeliya Abdullayeva mərasimə toplaşanlara xatırlatdı ki, əvvəlki darısqal bina müasir tələblərə cavab vermədiyinə, yararsız vəziyyətə düşdüyünə görə sakinlər, kitabxana kollektivi Mehriban xanıma müraciət etmişdi. Həm də bizim deputatımız olan Mehriban xanım xahişimizə dərhal müsbət reaksiya verərək, kömək göstərmişdir. Qısa vaxt ərzində əvvəlkindən 4 dəfə geniş olan, 480 kvadratmetr sahəni tutan kitabxana binası inşa olunmuşdur. 86 min nüsxə fondu olan bu kitabxanada indi Azərbaycan və rus dillərində 4 şöbə, oxu zalı, işçilər üçün istirahət yeri vardır. Heydər Əliyev Fondu tərəfindən kompyuter dəsti və xeyli təzə kitab da bağışlanmışdır.

Bütün bunlara görə Mehriban xanıma kollektivin, çoxminli oxucuların və mədəniyyət işçilərinin minnətdarlığını bildirən kitabxanaçılar, görülmüş işləri həm də milli mədəniyyətimizin inkişafına xeyirxah, uzaqgörən qayğının nəticəsi kimi qiymətləndirdilər.

Mehriban xanım kitabxananın fondu, şöbələri, oxucuların rahatlığı üçün yaradılmış şəraitlə tanış oldu, foyedə təşkil edilmiş foto-sərgilərə baxdı, oxucularla söhbət edərək onların maraq dairəsini öyrəndi, kitabın hər zaman əvəzedilməz bilik mənbəyi olduğunu xatırlatdı. Kitabxanaya daxil olan yeni xarici ədəbiyyatla, dövri mətbuatla, latın qrafikası ilə çapdan çıxan kitablarla, katoloq sistemi ilə yaxından maraqlanan Mehriban xanım burada yaradılan şəraitdən razılığını bildirdi, kollektivə öz tövsiyələrini verdi, kompyuter sisteminə keçidlə bağlı hansı problemlərin mövcud olduğunu soruşdu və bildirdi ki, kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi üçün Fond bundan sonra da lazımi kömək göstərəcəkdir.

Kitabxananın fəal oxucuları Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən quruculuq-abadlıq işlərinə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın dəstəyini yüksək qiymətləndirdilər, deputat kimi fəaliyyətindən də razılıqlarını vurğuladılar.

Uşaq bağçalarının inkişafını, maddi-texniki bazasının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Şimal DRES" yaşayış massivində 10 nömrəli körpələr evi və uşaq bağçasında da yenidənqurma işləri aparılmışdır. Bir neçə ay əvvəl burada olan Mehriban Əliyeva sakinlərin xahişini nəzərə alaraq, uşaq müəssisəsinin müasir tələblərə cavab verməsi üçün tədbirlər görüləcəyini bildirmişdir.

"Uşaq evlərinin və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində həyata keçirilən yenidənqurma işləri ötən əsrin 40-cı illərində inşa edilmiş bu köhnə binanın əvvəlki arxitektura görkəmi saxlanılmaqla, simasını tamamilə təzələmişdir. Bağça müasir avadanlıqla, təzə yataq dəstləri, çarpayılar, oyuncaqlarla təmin edilmiş, binada istilik sistemi quraşdırılmış, həyətdə uşaqların gəzintisi, müxtəlif oyunların keçirilməsi üçün xüsusi sahə yaradılmışdır. Buraya gələn əvvəlki çala-çuxur yolun əvəzində indi geniş, asfalt döşənmiş, ətrafına sıx cərgələrlə küknar ağacları əkilmiş yol salınmışdır. Bağçanın açılış mərasimində iştirak edən Mehriban xanım Əliyevanı səmimiyyətlə qarşılayan tərbiyəçi-müəllimlər, valideynlər bütün bunlara görə ona təşəkkürlərini bildirdilər.

Mehriban xanım qəsəbə sakinləri və 23 nəfər işçisi olan bu kollektivin üzvlərini belə bir obyektin inşası münasibəti ilə təbrik etdi, valideynlərə uşaqlarını hər zaman sağlam görməyi arzuladı. Sakinlər az müddətdə belə dəyərli işin görülməsini əsl fədakarlıq kimi qiymətləndirdilər, Milli Məclisin deputatının verdiyi vədlərə ardıcıl, dəqiq əməl etməsinin xüsusi razılıq doğurduğunu söylədilər.

Mehriban xanım 200-dən çox uşağın təlim-tərbiyəsi üçün burada yaradılan şəraitlə yaxından tanış oldu, görülən işləri müsbət dəyərləndirdi, tövsiyələrini bildirdi, böyüməkdə olan nəslin sağlamlığının, tərbiyəsinin Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu, rayonun digər uşaq tərbiyə müəssisələrində də belə nümunəvi şəraitin yaradılacağını vurğuladı.

Ümummilli lider Heydər Əliyevin doğum günündə Fond daha bir uğurlu layihəsini başa çatdırdı.

Nizami rayonu 1 nömrəli uşaq evinin Şüvəlan qəsəbəsində yerləşən yay düşərgəsi uzun illər idi ki, istifadəsiz qalaraq yararsız vəziyyətə düşmüşdü. Fondun prezidenti Mehriban Əliyeva ötən gəlişində buradakı vəziyyətlə yaxından tanış olaraq, Bakının bütün uşaq evləri və internat məktəblərində böyüyən uşaqların yay istirahəti üçün burada lazımi şəraitin yaradılması ideyasını irəli sürdü. Fondun əməkdaşlarına tapşırıq verdi ki, təcrübəli mütəxəssislər cəlb olunaraq, geniş ərazidə yay düşərgəsi yaradılması üçün layihə hazırlansın. Layihə Mehriban xanımın şəxsən iştirakı ilə baxılaraq, əlavələrlə birlikdə qəbul ediləndən dərhal sonra tikinti işlərinə başlandı. Qısa müddət ərzində burada əsl uşaq şəhərciyi yaradılmışdır. Yaşıllıqlarla





əhatələnmiş hovuz, rahat istirahət guşələri, tennis kortları, rəngbərəng gül-çiçək kolları göz oxşayır.

Buradan gələn musiqi sədaları hələ uzaqdan eşidilirdi. Al-əlvan gül-çiçəyə qərq olmuş həyətdə Mehriban xanımı uşaq evinin "Azəri" mahnı və rəqs ansamblı oynaq rəqslərlə qarşıladılar. Düşərgənin yataq, iaşə və inzibati binalardan ibarət hər 3 korpusunu gəzən Mehriban xanım ən müasir avadanlıqla, inventarla komplektləşdirilmiş binalardakı səliqə-sahmandan, tikinti işlərinin keyfiyyətindən razılığını bildirdi, burada arzusunda olduğu mənzərəni görməsindən sevindiyini gizlətmədi. Dedi ki, ən böyük arzusu bütün uşaq evlərində belə şəraiti görməkdir və yəqin ki, yaxın illərdə belə də olacaqdır. Çünki yalnız belə rahat şərait və tərbiyəçi müəllimlərin, cəmiyyətin bütün təbəqələrinin xoş, qayğıkeş münasibəti uşaqların ata-anasızlıq dərdini azalda bilər.

Düşərgənin müdiri Nərminə Zöhrabova belə bir nümunəvi şəhərciyi onlara bəxş edən Mehriban xanıma minnətdarlıq etdi, bu xeyirxahlığın həmişə yaddaşlarda qalacağını vurğuladı, savab əməl sahibinə və onun ailəsinə, övladlarına Allahdan xoşbəxtlik dilədi.

Qəsəbə ağsaqqalı Cümşüd Muradov burada quraşdırılan təzə yüksək gərginlikli transformatordan ətraf məhəllələrin də istifadə etdiyini minnətdarlıq hissi ilə bildirdi.

Mehriban xanım uşaqlarla, qəsəbə sakinləri, kollektivin üzvləri ilə xatirə şəkli çəkdirdi.

Ulu öndər Heydər Əliyevin "Doğum günü" münasibətilə həmin gün burada Bakının müxtəlif uşaq evi və internat məktəblərində tərbiyə olunan uşaqların iştirakı ilə düşərgədə "Musiqili bayram axşamı" təşkil edildi. Respublikamızın tanınmış müğənniləri uşaqlara unudulmaz sevinc bəxş etdilər.

***"Azərbaycan" qəzeti,***
***11 may 2006-cı il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN ƏZİZBƏYOV RAYONUNDA GÖRÜŞLƏRİ

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin martın 17-də Bakının Əzizbəyov rayonunda olmuşdur.

Fondun prezidenti əvvəlcə Binə qəsəbəsindəki şəhid Elçin Şəmiyev adına 149 nömrəli orta məktəbə gəldi. Burada müəllim və şagirdlər Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Direktor Rəhilə Baxşıyeva bildirdi ki, məktəbin binası 1935-ci ildə tikilmişdir. 350 şagird üçün nəzərdə tutulan binada hazırda 3 növbədə 2050 şagird təhsil alır. 40 sinifdə dərslər Azərbaycan, 17 sinifdə isə rus dilində keçirilir. Burada 95 müəllim işləyir. Ötən il məktəbin məzunlarından 43 nəfər ali məktəbə daxil olmuşdur. Məktəbin şagirdləri və yetirmələri respublika, beynəlxalq idman yarışlarında, fənn olimpiadalarında, müxtəlif müsabiqələrdə də uğurla çıxış edirlər. Məktəbin məzunu İsmayıl Quliyev yeniyetmələrin karate üzrə Dünya çempionatında gümüş medal





qazanmışdır. Vasif Vəliyev isə qaydasız döyüş üzrə Avropa çempionatında erməni idmançısına qalib gələrək, üçüncü yer tutmuşdur. Uzun illərdir ki, darısqallıq, çoxnövbəlilik ciddi problemlər yaradır. İndiyədək təmir edilməyən binanın dam örtüyü çox pis vəziyyətdədir və daim su axması nəticəsində 3-cü mərtəbə yararsız hala düşmüşdür.

Heydər Əliyev Fondunun rayonda apardığı monitorinqdən sonra deputat Mehriban Əliyevanın təşəbbüsü ilə məktəbin təzə tədris korpusunun inşası "Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı" proqramı çərçivəsində plana salınmışdır. 2006-cı ilin noyabrında 3 mərtəbəli 1000 yerlik binanın inşasına başlanmışdır və hazırda ikinci mərtəbəsi tikilir. İnşaatçılar təzə binanı yeni dərs ilinə kimi tam təhvil verəcəklər. Bütün bunlar barədə məlumat alan Mehriban xanım əvvəlcə məktəbin hazırkı binasına baxdı, belə şəraitdə 2 mindən artıq uşağın dərs keçməsinin çox böyük risk olduğunu vurğuladı. Yeni korpusun tikintisinin sürətləndirilməsi ilə yanaşı, bu binanın da əsaslı təmirinə başlamağın zəruriliyini bildirdi, bunun üçün təcrübəli mütəxəssislərin iştirakı ilə müvafiq layihə-smeta sənədlərinin hazırlanması barədə Fondun icraçı direktoruna tapşırıq verdi. Mehriban Əliyeva dedi ki, təzə korpusda 50 sinif otağının istifadəyə verilməsi və köhnə binanın da əsaslı təmiri məktəbdə dərslərin bir növbədə keçirilməsinə imkan yaradacaqdır. Eyni zamanda, o, bu tədris ocağının bütün lazımi avadanlıqla təchizi üçün də tədbirlər görülməsinin vacibliyini bildirdi.

Məktəbin müəllimləri, buraya toplaşan valideynlər minnətdarlıq hissi ilə vurğuladılar ki, indi Binədə ötən il Azərbaycan Prezidenti İlham Əliyevin və Mehriban xanımın təməlini qoyduqları müasir standartlara tam cavab verən təzə məktəb binası tikilir, digər 4 məktəbin isə hamısında yeni tədris korpusları inşa olunur. Bütün bunlar ölkəmizdə təhsilə, elmə, gənc nəslin təlim-tərbiyəsinə böyük diqqət və qayğının təzahürü olmaqla yanaşı, həm də deputat Mehriban Əliyevanın verdiyi vədlərə ardıcıl əməl etməsinin daha bir sübutudur. Mehriban xanıma təşəkkürlərini çatdıran sakinlər görülən işlərin 120 min-dən çox sakini olan qəsəbə əhalisində yüksək əhval-ruhiyyə yaratdığını, dövlətin siyasətinə inamı daha da möhkəmlətdiyini vurğuladılar.

Binə qəsəbəsindəki növbəti görüş 152 nömrəli uşaq bağçasında oldu. 280 yerlik bu uşaq tərbiyə müəssisəsinin də fəaliyyətə başladığı 40 ilə yaxın müddətdə binada əsaslı təmir aparılmamışdır. Mehriban xanım bina ilə ətraflı tanış oldu, tərbiyəçi müəllimlərlə söhbət etdi, burada da əsaslı təmir və yenidənqurma işlərinə ciddi ehtiyac olduğunu söylədi.

Mehriban xanım qəsəbədəki 4 uşaq bağçasından 2-nin özəlləşdirməyə çıxarıldığından xəbərdar olduğunu bildirərək dedi ki, aztəminatlı ailələrin ciddi problemlə qarşılaşmaması üçün tezliklə 152 nömrəli bağçanın əsaslı təmirinə başlamaq və onun imkanlarını genişləndirmək lazımdır. Bununla bağlı müvafiq tədbirlər görülməli, ilk növbədə isə, təmir müddətində bağça başqa uyğun binaya köçürülməlidir.

***"Azərbaycan" qəzeti,***
***18 mart 2007-ci il***

## MƏRDƏKAN MƏDƏNİYYƏT SARAYI YENİ GÖRKƏM ALMIŞDIR

2007-ci ilin iyunun 14-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə müasir tələblər səviyyəsində yenidən qurulmuş Mərdəkan mədəniyyət sarayının təntənəli açılış mərasimi olmuşdur.

Mehriban Əliyeva əzəmətli görkəm almış sarayın açılışını bildirən lenti kəsdi.

Bakının Əzizbəyov rayonun ictimaiyyəti nümayəndələrinin toplaşdığı mərasimdə Mehriban Əliyeva son illər Azərbaycan iqtisadiyyatının sürətli inkişafından, buna əsaslanaraq Heydər Əliyev Fondunun bütün ölkə ərazisində təhsil, səhiyyə, mədəniyyətlə bağlı həyata keçirdiyi layihələrdən söhbət açdı. Bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hər zaman mədəni irsə böyük önəm vermiş, onun qorunaraq gələcək nəsillərə çatdırılmasını vacib məsələ hesab etmişdir. Ulu öndərimizin adını daşıyan Fond da onun yolunu davam etdirərək milli-mənəvi dəyərlərin qorunmasını, xalqımızın zəngin mədəniyyətinin dünyada tanıdılmasını əsas vəzifələrdən biri sayır. Mərdəkan mədəniyyət sarayının yenidən qurularaq yüksək səviyyəli mədəniyyət ocağına çevrilməsi də bu istiqamətdə görülən işlərin bir nümunəsidir. Əminik ki, qapılarını yenidən açan saray ölkəmizin aparıcı mədəniyyət ocaqlarından birinə çevriləcəkdir.

Mədəniyyət sarayının binası 1961-ci ildə istifadəyə verilmişdir. Uzun illər uğurla fəaliyyət göstərən saray ölkəmiz üçün gərgin keçən 1980-cı illərin sonu 90-cı illərin əvvəllərində bir çox sosial-mədəni obyektlər kimi istifadəsiz qalmış, baxımsızlıqdan tamamilə yararsız və qəzalı vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondunun prezidenti, Əzizbəyov rayonundan Milli Məclisə deputat seçilmiş Mehriban Əliyevanın təşəbbüsü ilə sarayda əsaslı yenidənqurma işləri görülmüş, bina büsbütün yeni görkəm almışdır.

*"Azərbaycan" qəzeti,*
*15 iyun 2007-ci il*





## ZİRƏ GÜNBƏGÜN DƏYİŞİR

Zirə qəsəbəsinin sakinləri Mehriban xanımı ən yaxın, doğma adamı kimi qarşıladılar. Son iki ildə dəfələrlə burada olmuş deputatın gəlişinə ən çox sevinən isə Badam nənə oldu. Xatırladaq ki, Mehriban xanım Zirədə olarkən 80 yaşlı bu tənha ağbirçəyin evinə də getmiş, onun mənzilinin təmirinə, avadanlıqla təminatına kömək etmişdi. Bu dəfə də "qızımsan, balamsan, mən səninlə nəfəs alıram", – deyib Mehriban xanımı bağrına basan Badam nənə ətrafdakıları da kövrəltdi.

Ağsaqqallar qəsəbədə son ilyarımda görülən işlərin uzun siyahısını xatırladaraq uzun illər ərzində heç bu qədər iş görülmədiyini, əvvəllər çoxlu problemlər, çatışmazlıqlar üzündən qəsəbədən gedən sakinlərin, xüsusən cavanların təzədən qayıtdıqlarını bildirdilər.

Mehriban xanım Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını sakinlərə çatdırdı, onları "Milli Qurtuluş Günü" münasibətilə təbrik etdi. O nəinki bu qəsəbədə, Əzizbəyov rayonunda, respublikamızın hər yerində geniş quruculuq işlərinin aparıldığını, Prezidentlə birlikdə rayonlara səfərlər zamanı baş verən dəyişikliklərin canlı şahidi olduğunu, xalqın həyat səviyyəsinin yüksəldiyini vurğuladı. Sakinlərin təklifini nəzərə alaraq bu günlərdə Türkan və Hövsan qəsəbələri arasındakı yolun 7 kilometrlik məsafəsinin asfaltlaşdırılmasına başlanılacağını da bildirdi.

Qəsəbənin nüfuzlu sakinlərindən olmuş Seyidmirdamət ocağının övladları Mehriban xanımı çay süfrəsinə dəvət etdilər. Mehriban xanım dəvəti razılıq hissilə qəbul etdi. Sonra isə ailənin üzvləri, qəsəbənin sakinləri ilə xatirə şəkli çəkdirdi.

Heydər Əliyev Fondunun prezidenti Zirədə təzə salınan park kompleksi, poliklinikanın tikintisi ilə də tanış oldu. Bildirildi ki, park əvvəllər istifadəsiz sahə olan 1,7 hektar ərazidə salınır. Burada mədəniyyət evi, səadət sarayı və qəsəbə stadionunun inşası da nəzərdə tutulmuşdur. Mədəniyyət evində kitabxana, konfrans salonu, dərnəklər, kompyuter otaqları fəaliyyət göstərəcəkdir. Səadət sarayı isə eyni vaxtda 500 nəfərə xidmət göstərə biləcəkdir. Stadionun universal meydançası, işıqlandırma sistemi və 200 nəfərlik tribunası olacaqdır. Bu obyekt Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramına uyğun olaraq Gənclər və İdman Nazirliyi tərəfindən tikilir. Həmin proqram çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən tikilən poliklinika oktyabr ayında təhvil veriləcəkdir. Burada 18 nömrəli təcili tibbi yardım stansiyasının və doğum şöbəsinin yaradılması da nəzərdə tutulur.

*"Azərbaycan" qəzeti,*
*15 iyun 2007-ci il*

## ŞÜVƏLANDA TƏZƏ MƏKTƏB TİKİLİR

Milli Məclisin deputatı Mehriban Əliyevanın seçicilərlə görüşlərində verdiyi vədlərə ardıcıl əməl etməsini rayon sakinləri minnətdarlıqla vurğulayırlar. Son ilyarımda görülən işlər sayəsində ən çox dəyişilən qəsəbələrdən biri də Şüvəlandır.

Mehriban xanım 2007-ci ilin iyunun 14-də qəsəbədəki 156 nömrəli məktəb üçün binanın tikintisində işlərlə tanış olmuşdur.

1935-ci ildə inşa olunmuş köhnə məktəbdə 700 şagird təhsil alırdı. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramının ikinci mərhələsi çərçivəsində tikilən və 1050 şagird üçün nəzərdə tutulan yeni bina sentyabrda istifadəyə veriləcəkdir.

Mehriban Əliyeva məktəbin layihəsi ilə yaxından tanış oldu, fasadın görünüşü, sinif otaqlarının, istilik sisteminin, idman salonunun, yeməkxananın, digər otaq və kabinetlərin avadanlıqla təchizatı, tərtibatı ilə bağlı tövsiyələrini verdi.

*"Azərbaycan" qəzeti,*
*15 iyun 2007-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA BAKININ ƏZİZBƏYOV RAYONUNDA BİR SIRA OBYEKTLƏRDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2008-ci ilin martın 18-də Bakının Əzizbəyov rayonunda olmuşdur.

Fondun prezidenti əvvəlcə Buzovna qəsəbəsində yenidənqurma işləri davam edən Cümə məscidinə gəldi.

Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində yenidən qurulan bu məscidin tikintisinə hələ 1896-cı ildə başlanmış, 1900-cü ildə inşaat işləri yarımçıq qalmışdı. Sovet dövründə tikilidən anbar və dükan kimi istifadə olunmuşdur. 2006-cı ilin dekabrında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın şəxsi təşəbbüsü ilə məscidin yenidən qurulması üçün smeta dəyəri 700 min manat olan layihə hazırlanmış, 2007-ci ilin fevralında burada iş başlanmışdır.

Sahəsi 500 kvadratmetr olan məsciddən başqa burada köməkçi və inzibati binalar, kişilər və qadınlar üçün dəstəmazxanalar, digər otaqlar vardır. Məscidin hündürlüyü 28 metr, o cümlədən günbəzin hündürlüyü 12 metrdir. Podratçı şirkət indiyədək 550 min manatlıq iş görmüşdür.

Mehriban xanımın diqqətinə çatdırıldı ki, tikinti işləri zamanı qadınların və kişilərin ayrı-ayrılıqda ibadət etməsi üçün imkan yaradılması nəzərə alınmışdır. Belə ki, məscidin 1-ci mərtəbəsində kişilər, 2-ci mərtəbədə isə qadınlar ibadət edəcəklər. Məsciddə eyni vaxtda 500 nəfər namaz qıla biləcəkdir. 2009-cu ilin birinci rübündə tikinti işləri başa çatacaq, sonra məscidin həyəti abadlaşdırılacaq, ağaclar əkiləcəkdir.

Görülən işləri yüksək qiymətləndirən Heydər Əliyev Fondunun prezidenti binanın divarlarında bəzək işlərinin milli üslubda aparılması ilə bağlı tövsiyələrini söylədi.

Buzovna sakinləri onların problemlərinin həllinə göstərdiyi diqqətə görə Mehriban xanıma minnətdarlıqlarını bildirdilər. Prezident İlham Əliyevin və Mehriban xanımın "Novruz bayramı"nı təbrik edən sakinlər Azərbaycanın birinci xanımına xatirə hədiyyəsi təqdim etdilər.

Mehriban xanım qarşıdakı illərdə hələ çox işlər görüləcəyini vurğuladı, qəsəbə sakinlərini "Novruz bayramı" münasibətilə təbrik etdi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva daha sonra 3 nömrəli uşaq evinin Buzovnadakı yay düşərgəsinin vəziyyəti ilə tanış oldu.

Uşaq evinin direktoru Zöhrə Hüseynova bildirdi ki, 1988-ci ildən uşaq evinin balansına verilmiş yay düşərgəsinin binası hazırda yararsız vəziyyətdədir. Mehriban xanım burada

görülməli olan işlərlə maraqlandı.

Fondun icraçı direktoru Anar Ələkbərov məlumat verdi ki, araşdırmalar nəticəsində binanın təmirinin səmərəsiz olduğu müəyyən edilmişdir. Ona görə də layihə əsasında yenidən tikilməsinə ehtiyac var.

Mehriban xanım Əliyeva tezliklə yeni binanın tikintisinə başlamağın zəruriliyini vurğuladı, bunun üçün təcrübəli mütəxəssislərin iştirakı ilə müvafiq layihə-smeta sənədlərinin hazırlanmasını tapşırdı. Eyni zamanda, bildirdi ki, tikinti işlərini gələn yaya qədər başa çatdırmaq lazımdır.

Yay düşərgəsində eyni vaxtda 150 uşağın dincələ bilməsi üçün şərait yaradılacaqdır.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva həmin gün Şüvəlandakı Uşaqlara və Ailələrə Dəstək Mərkəzinə gəldi.

Mərkəz ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə "Uşaqların xilası" təşkilatı tərəfindən inşa olunmuşdur. Mərkəz xüsusi qayğıya ehtiyacı olan uşaqları və onların ailələrini alternativ qayğı ilə təmin edir, təlimlər keçirir və nəticədə uşaqların uşaq evlərinə və internatlara düşmələrinin qarşısı alınır. Burada gündə 100-dək uşaq müxtəlif qruplarda təlimlərdə və dərnəklərdə iştirak edir, idmanla məşğul olur. Mərkəzdə əlil uşaqlar üçün xüsusi avadanlıq da vardır.

Mehriban xanım otaqları gəzdi, təlimlərin gedişi ilə maraqlandı, uşaqların əl işlərinə baxdı.

Balacalar Mehriban xanımı səmimiyyətlə salamladılar. Onlar nəqliyyat problemlərinin həllinə göstərdiyi köməyə görə Fondun prezidentinə təşəkkür etdilər.

Uşaqları "Novruz bayramı" münasibətilə təbrik edən Mehriban xanım onların ehtiyacları ilə maraqlandı, bundan sonra da tez-tez onların görüşünə gələcəyini bildirdi.

Sonda Mehriban Əliyevaya uşaqların əl işlərindən ibarət xatirə hədiyyəsi təqdim olundu.

*"Azərbaycan" qəzeti,*
*19 mart 2008-ci il*





## MİLLİ MƏCLİSİN DEPUTATI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA "NOVRUZ BAYRAMI" MÜNASİBƏTİLƏ AMNİSTİYA ELAN OLUNMASI TƏKLİFİ İLƏ PARLAMENTƏ MÜRACİƏT ETMİŞDİR

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva "Novruz bayramı" münasibətilə amnistiya elan edilməsi təklifi ilə Milli Məclisə müraciət etmişdir.

Müraciətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsini və siyasi məfkurəsini təşviq edən Heydər Əliyev Fondunun ulu öndərin sosial-iqtisadi, mədəni inkişafa, dünya birliyinə inteqrasiyaya yönəlmiş siyasətinin öyrənilməsinə və bu ideyaların həyata keçirilməsinə hər zaman dəstək verdiyi vurğulanır. 2009-cu ilin mayın 10-da 5-ci ildönümü qeyd olunacaq Fond bu istiqamətdə iş apararaq cəmiyyət həyatında önəmli yer tutmağa çalışır. Müraciətdə qayğı və yardıma ehtiyacı olan insanlara kömək göstərilməsi ümummilli liderin insanpərvərlik və humanizm ideallarının daşıyıcısı olan Heydər Əliyev Fondunun fəaliyyətində əsas qayələrdən biri kimi dəyərləndirilir.

Bu baxımdan Heydər Əliyev Fonduna məhkum edilmiş şəxslərdən və onların ailə üzvlərindən çoxlu müraciətlərin daxil olduğu, bununla bağlı araşdırmaların aparıldığı qeyd olunur və həmin insanlara münasibətdə də mərhəmət göstərilməsi zərurəti vurğulanır.

Müraciətdə ümummilli liderin humanist siyasətinə sədaqət nümayiş etdirilərək Azərbaycan xalqının firavanlıq, əmin-amanlıq və mərhəmət rəmzi olan milli bayramı – "Novruz bayramı" münasibətilə amnistiyanın elan edilməsi təşəbbüsü irəli sürülür.

"Amnistiya aktı"nın layihəsində böyük ictimai təhlükə törətməyən və bir sıra az ağır cinayətlərə görə məhkum edilmiş qadınların, cinayət törədərkən 18 yaşına çatmayanların, birinci və ya ikinci qrup əlillərin, 60 yaşına çatmış kişilərin, öhdəsində yetkinlik yaşına çatmayan, yaxud birinci və ya ikinci qrup əlil övladı olanların və bəzi digər kateqoriyadan olan şəxslərin azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi nəzərdə tutulur.

Həmçinin azadlıqdan məhrum edilmiş və cəzalarının bitməsinə bir il qalmış qadınlara və kişilərə, islah işləri, ictimai işlər cəzasına məhkum edilmiş bütün şəxslərə, habelə cərimə cəzasına məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti məhkum edilmiş və digər qruplara daxil olan bir sıra məhkumlara amnistiya tətbiq etməklə, onların cəzadan azad olunmaları təklif edilir.

*"Azərbaycan" qəzeti,*
*17 mart 2009-cu il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA TÜRKAN QƏSƏBƏSİNDƏ MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

2010-cu ilin iyulun 7-də Bakının Türkan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir tələblər səviyyəsində inşa olunmuş Mədəniyyət Mərkəzinin açılışı olmuşdur. Tədbirdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iştirak etmişlər.

Mərasim iştirakçıları Mehriban xanım Əliyevanı və Leyla Əliyevanı gül-çiçəklə qarşıladılar.

Məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Mərkəzin inşasına 2009-cu ilin fevralında başlanılmışdır. Binanın ümumi sahəsi 1500 kvadratmetrdir. Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Türkan və ətrafdakı qəsəbələrin uşaqları burada fəaliyyət göstərəcək bir çox dərnəklərdə məşğul olacaqlar.





İkimərtəbəli binanın foyesində ulu öndərin həm sovet dövründə, həm də müstəqillik illərində mədəniyyət tədbirlərində iştirakını, incəsənət xadimləri ilə görüşlərini əks etdirən fotostend qurulmuşdur.

Mərkəzin oxu zalı və kitabxanası ilə tanışlıq zamanı bildirildi ki, burada Azərbaycan, rus, ingilis dillərində müxtəlif sahələri əhatə edən kitablar toplanmışdır. Kitabxanada ulu öndər haqqında kitablar, Heydər Əliyev Fondunun nəşrləri də yer almışdır.

Məlumat verildi ki, idmanın intellektual növünə həvəs göstərən gənclər üçün mərkəzdə şahmat dərnəyi fəaliyyət göstərir. Təcrübəli mütəxəssislər uşaqlara şahmatın sirlərini öyrədəcəklər. Mehriban xanım Əliyeva uşaqların informasiya-kommunikasiya texnologiyalarına yiyələnmələri üçün Mədəniyyət mərkəzində fəaliyyət göstərən kompyuter dərnəyi ilə tanış oldu. Burada gənclərə kompyuter bilikləri veriləcək, müxtəlif proqramlar öyrədiləcəkdir. Bildirildi ki, kompyuterlərin hamısının internetə çıxışı vardır.

Mərkəzin ikinci mərtəbəsini isə Heydər Əliyev Fondunun fəaliyyətini əks etdirən stend bəzəyir.

Azərbaycanın birinci xanımı rəsm dərnəyində balaca rəssamların əl işləri ilə tanış oldu.

İkinci mərtəbədə müxtəlif tədbirlərin keçirilməsi üçün 250 nəfərlik geniş akt zalı vardır. Zal ən son avadanlıqla təchiz edilmişdir. Bina fərdi havalandırma sistemləri ilə təchiz edilmişdir. Mədəniyyət mərkəzi üçün ayrılan ərazidə gözəl park salınmışdır. Mehriban xanım Əliyeva və qızı Leyla parkın ərazisi ilə tanış oldular. Ərazi zəngin bitki örtüyü ilə göz oxşayır. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2008-ci ildə burada olarkən ərazidəki ağacların qorunmasının vacibliyini bildirmişdir. Burada 7 min 500 kvadratmetr sahədə qazon salınmış, müasir işıqlandırma sistemi qurulmuşdur. Parkda uşaqların əylənməsi üçün meydança yaradılmış, balacalar üçün müxtəlif attraksionlar qurulmuşdur. Burada ana və uşaqlar üçün nəzərdə tutulan çay evi də inşa edilmişdir.

Mehriban xanım Əliyeva görülən işlərdən razılığını bildirdi.

Sonra Mehriban xanım Əliyeva Xəzər rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Mədəniyyət mərkəzinin açılması münasibətilə türkanlıları təbrik edən Mehriban xanım Əliyeva binanın inşasına dair qəsəbə sakinləri ilə müzakirələri yada salaraq bildirdi ki, Azərbaycanın bütün başqa bölgələrində olduğu kimi, Xəzər rayonunda da geniş abadlıq-quruculuq işləri gedir. Yeni təhsil müəssisələri, səhiyyə obyektləri, mədəniyyət ocaqları tikilir, istirahət parkları salınır. Bu hər birimizi sevindirir.

Mədəniyyət mərkəzinin ətrafında gözəl, səliqəli parkın salınmasının sakinlərin istirahəti baxımından əhəmiyyətini vurğulayan Mehriban xanım dedi ki, burada dincəlmək üçün hər cür şərait yaradılmışdır.

Mehriban xanım dedi ki, Mədəniyyət mərkəzində fəaliyyət göstərən müxtəlif dərnəklər, şahmat məktəbi, rəsm sinfi uşaqların dünyagörüşünün zənginləşməsi, biliklərinin artırılması baxımından mühüm rol oynayacaqdır.

Rayonda görülən işləri yüksək qiymətləndirən Mehriban xanım Əliyeva burada əhalinin vəziyyəti ilə bağlı məsələlərin daim diqqət mərkəzində saxlanıldığını vurğuladı. Azərbaycanın birinci xanımı bildirdi ki, bütün məsələlər Heydər Əliyev Fondunun nəzarəti altındadır.

Xalq artisti Ağaxan Abdullayev, qəsəbə ağsaqqalı Əli Əliyev, rayon sakinlərindən Tamilla Muradova, Şükufə İbrahimova göstərilən diqqət və qayğıya görə Mehriban xanım Əliyevaya Xəzər rayonu sakinləri adından minnətdarlıq etdilər. Onlar Türkanda belə bir Mədəniyyət mərkəzinin açılmasını qəsəbə sakinlərində dərin razılıq hissi doğurduğunu xüsusi vurğuladılar.

Tədbir iştirakçıları Mehriban xanımın mədəniyyətə, təhsilə, sənətkarlara, ziyalılara qayğısını yüksək qiymətləndirərək bildirdilər ki, o, Milli Məclisin deputatı kimi bu rayonun problemlərinin həllini həmişə diqqətdə saxlayır. Rayonun qəsəbə və kəndlərində geniş abadlıq – quruculuq, yenidənqurma işləri aparılır, yeni sosial obyektlər tikilir, yollar çəkilir, yeni iş yerləri açılır.

Sakinlər qarşıdan gələn parlament seçkilərində Mehriban xanıma dəstək olacaqlarını söyləyərək onu öz rayonlarında yenidən deputat kimi görməkdən məmnun qalacaqlarını bildirdilər.

***"Azərbaycan" qəzeti,***
***8 iyul 2010-cu il***







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA FONDUN TƏŞƏBBÜSÜ İLƏ XƏZƏR RAYONUNDA BİR SIRA TƏHSİL OCAQLARININ YENİDƏNQURMADAN SONRA AÇILIŞINDA İŞTİRAK ETMİŞ, TURİZM OBYEKTLƏRİNDƏ APARILAN TİKİNTİ, ƏSASLI TƏMİR VƏ BƏRPA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2011-ci ilin fevralın 24-də Xəzər rayonunda bir sıra təhsil ocaqlarının yenidənqurmadan sonra açılışında iştirak etmiş, turizm obyektlərində aparılan əsaslı tikinti və bərpa işlərinin gedişi ilə tanış olmuşdur.

Xəzər rayonundan Milli Məclisə deputat seçilmiş Mehriban Əliyeva bu rayondakı problemlərə daim diqqətlə yanaşır, əhalinin narahatlığına səbəb olan məsələlərin həllinə mütəmadi kömək göstərir.

Xəzər rayonunun ən qədim yaşayış məntəqələrindən olan Şağan qəsəbəsinin inkişafı da diqqət mərkəzindədir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada həyata keçirilən növbəti layihə 3 saylı internat evinin yenidən qurulmasıdır. Himayəyə və qorunmağa ehtiyacı olan uşaqlara diqqət və qayğı Heydər Əliyev Fondunun fəaliyyətində prioritet məsələlərdəndir.

Mehriban xanım Əliyeva Şağan qəsəbəsində 3 saylı internat evinin əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etdi.

Heydər Əliyev Fondunun prezidentinə gül dəstəsi təqdim edildi.

Mehriban xanım Əliyeva rəmzi açılışı bildirən lenti kəsdi.

Məlumat verildi ki, 1984-cü ildə inşa edilmiş internat evində əqli və fiziki cəhətdən qüsurlu olan 8-18 yaş arasında 138 uşaq yaşayır. Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində həyata keçirilən yenidənqurma işlərinə 2010-cu ilin martında başlanmışdır.

Foyedə qurulan stenddə ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın uşaqlara diqqət və qayğısını əks etdirən fotolar yer almışdır. Burada, həmçinin, internat evinin əvvəlki və indiki vəziyyətini əks etdirən fotostend də yaradılmışdır.

Mehriban xanım Əliyeva müasir avadanlıqla təchiz edilmiş və müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş konfrans otağına baxdı, musiqi zalında uşaqların ifasına qulaq asdı.

Gənc nəslin fiziki sağlamlığına xüsusi diqqətlə yanaşılan ölkəmizdə idman zallarının müasir tələblər səviyyəsində qurulmasına xüsusi diqqət yetirilir. İnternat evinin idman zalı da ən müasir qurğularla təchiz olunmuşdur. İnternat evində 20-yə yaxın tibb işçisi fəaliyyət göstərir. Onların arasında yüksək ixtisaslı psixonevroloq, pediatr və terapevtlər vardır. Tibb otaqları müasir avadanlıqla və dərman preparatları ilə təmin edilmişdir.

Fizioterapiya, reabilitasiya, ilk yardım, funksional diaqnostika otaqlarında vakuumlu masaj, ayaqlar üçün elektrotrenajor avadanlıqları vardır. İnternat evində yaşayan uşaqlar üçün bir sıra mühüm prosedurlar həyata keçirilir. Azərbaycanın birinci xanımı xüsusi qayğıya ehtiyacı olan uşaqların su ilə reabilitasiyasını nəzərdə tutan otağa da baxdı.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulan internat evində hər bir otaqda uşaqların sevdiyi nağıl qəhrəmanlarının təsvir olunduğu mebel avadanlığı və oyuncaqlar vardır. Müəssisədə uşaqlara əmək vərdişləri də aşılanır. Burada balacalar öz potensiallarını nümayiş etdirmək imkanı qazanırlar. Mehriban Əliyeva uşaqlar üçün böyük zövqlə qurulan, onların dincəlmələrini təmin edən yataq otaqlarına baş çəkdi. Milli Məclisin deputatı dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi deinstitusionallaşdırma məsələsi ilə maraqlandı.

Mehriban xanım Əliyeva mətbəxdə uşaqların qida rasionunu gözdən keçirdi, müxtəlif





oyunlar vasitəsilə uşaqların həm təhsilini, həm əylənməsini nəzərdə tutan otağa baxdı. Burada balacalar kompyuter öyrənir, şahmat, dama, rəsmlə məşğul olurlar.

Azərbaycanın birinci xanımı uşaqlarla səmimi söhbət etdi. Uşaqlar Mehriban xanıma xatirə hədiyyəsi verdilər və öz məharətlərini də nümayiş etdirdilər.

Daha sonra Mehriban xanım Əliyeva internat evinin geniş yeməkxanasında yaradılmış şəraitlə tanış oldu.

İnternat evinin həyətində də geniş abadlıq, yaşıllaşdırma işləri aparılmış, gözəl fəvvarələr, oturacaqlar qoyulmuşdur. Buradakı hər bir element bu evin məhz uşaqlar üçün nəzərdə tutulduğunu təsdiqləyir. İnternatın özəl təsərrüfatı da vardır. Balacaların reabilitasiyası üçün burada inək, qoyun, toyuq və digər ev quşları saxlanılır. Müəssisədə çörək və şirniyyat məmulatlarının hazırlanması üçün xüsusi bina inşa edilmişdir.

Burada yaradılan şəraitdən razılığını bildirən Mehriban xanım Əliyeva kollektivə və internat evinin sakinlərinə uğurlar arzuladı.

Daha sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Şüvəlan qəsəbəsində beyin iflici və polimielit keçirmiş uşaqlar üçün 16 saylı xüsusi internat məktəbinin əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etdi.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim edildi.

Bildirildi ki, internat məktəbinin əsaslı şəkildə yenidən qurulması Heydər Əliyev Fondunun Azərbaycanda təhsilin inkişafı, keyfiyyətcə yeni mərhələyə qədəm qoyması istiqamətində həyata keçirdiyi irimiqyaslı layihələrin tərkib hissəsidir.

Qeyd edildi ki, məktəbdə təmir işlərinə Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində ötən ilin martında başlanmışdır. Qısa müddət ərzində məktəbin binası yenilənmiş, həyəti abadlaşdırılmış, yeni qazanxana, açıq havada yay idman oyunları və futbol meydançaları salınmış, üzgüçülük hovuzu, su anbarı inşa olunmuş, ağac və gül kolları əkilmişdir. Məktəbin yenilənmiş 24 fənn kabineti hər cür dərs ləvazimatı ilə təchiz olunmuşdur. Təmirdən sonra məktəbin kitabxanasının ədəbiyyat fondu xeyli zənginləşdirilmişdir. Burada uşaqların müasir informasiya texnologiyalarına yiyələnmələri üçün kompyuter otağı yaradılmışdır.

Məktəbin yenilənmiş yeməkxanasında uşaqlar gün ərzində üç dəfə qidalanırlar.

Bildirildi ki, 180 yerlik məktəbdə 118 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 54 müəllim məşğul olur. Burada təhsil alan uşaqlar həm də müalicəvi idman kurslarından keçirlər. Bunun üçün fizioterapiya, tibbi müayinə, loqoped otaqları, idman zalı yenidən qurulmuşdur. Uşaqlarla psixoloqlar məşğul olurlar. Mehriban xanım Əliyevaya məlumat verildi ki, məktəblilərin bir qismi dərs və məşğələlərdən sonra evlərinə getsələr də, böyük əksəriyyəti məktəbin yataqxanasında qalır. Həmin uşaqların yaşayışı üçün yataqxanada hər cür şərait vardır.

Qeyd olundu ki, təmir zamanı məktəbin akt zalı da tamamilə yenilənmişdir. Burada

uşaqların müxtəlif intellektual tədbirlər, toplantılar keçirmələrinə əlverişli şərait yaradılmışdır.

Sonra Mehriban xanım Əliyeva idman zalında uşaqların məşq prosesini izlədi. Məlumat verildi ki, uşaqlar asudə vaxtlarında burada idmanın müxtəlif növləri ilə məşğul olurlar.

Məktəbdə yaradılan şəraitlə tanış olduqdan sonra Mehriban Əliyeva Heydər Əliyev Fondunun növbəti hədiyyəsini – yeni avtobusun açarlarını məktəbə təqdim etdi.

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Şüvəlan qəsəbəsində Respublika Humanitar Fənlər Təmayüllü Gimnaziyada aparılan təmir işləri ilə tanış oldu.

Məlumat verildi ki, Fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində təhsil müəssisəsinin tədris korpuslarında və yataqxanasında təmir işlərinə başlanılmışdır. Təmir başa çatdıqdan sonra məktəb yeni avadanlıqla təchiz ediləcəkdir.

Qeyd edildi ki, bu gün qəsəbədə əksəriyyəti Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulmuş 7 orta ümumtəhsil məktəbi fəaliyyət göstərir. Bundan başqa, Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Xəzər rayonunun Türkan qəsəbəsindəki 119 nömrəli orta məktəbin 300 şagird yerlik, Binə qəsəbəsindəki 117 nömrəli orta məktəbin 1040 şagird yerlik, Zirə qəsəbəsindəki 120 saylı orta məktəbin korpuslarının inşasına başlanmışdır.

Mehriban xanım Əliyeva yeni tikilən tədris korpuslarının stendi ilə yaxından tanış oldu. Bildirildi ki, Fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində Şüvəlandakı körpələr evi-uşaq bağçası da yenidən qurulmuşdur.

Daha sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qala qəsəbəsi ərazisinə gəldi.

Bildirildi ki, Heydər Əliyev Fondu qəsəbədəki gölün ətrafındakı ərazinin abadlaşdırılması layihəsini həyata keçirməyi nəzərdə tutur. Ərazidə yaşıllaşdırma işlərinin aparılması bu məkanda gələcəkdə müxtəlif tədbirlərin keçirilməsi, eləcə də muzey kompleksi kimi istifadə olunması üçün imkan yaradacaqdır.

Heydər Əliyev Fondunun prezidentinə məlumat verildi ki, bu ərazi uzun illər ərzində yığılmış neft tullantılarından təmizlənmişdir.

Qala kəndində Mehriban xanım Əliyeva qala divarlarının bərpası işləri ilə tanış oldu. Bərpa işlərinə ötən ilin yayında başlanmışdır. Qala qəsri tam bərpa olunmuşdur. XII-XIV əsrlərə aid Qala qəsri bir müddət məscid kimi də fəaliyyət göstərmişdir. Qəsrin altında aşkar edilən evlər, qəbirlər, digər tikili və əşyalar olduğu kimi bərpa edilərək Qala kompleksinin tərkib hissəsinə çeviriləcəkdir. Yeraltı hissədə qədim dövrdə qayaaltı yaşayış yerləri, tunel, gizli yollar olmuşdur.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya İnstitutunun ekspediyası burada qazıntı işləri aparmış, tunc dövrünə aid olduğu bildirilən yeni tarixi əşyalar aşkar etmişdir. Beş min il tarixə malik qəsəbədə üçüncü





minillikdən başlayaraq XX əsrə qədər tarixi olan kurqanlar, sərdabələr, evlər, məqbərələr, məscidlər, hamamlar, qədim qəsrin qalıqları mövcuddur.

Qala kəndində "Qala" mis qablar və əntiq əşyalar muzeyinin inşası da aparılır. Muzeyin təməli ötən ilin iyununda qoyulmuşdur. Üçmərtəbəli muzey binası Şahid Həbibullayevin kolleksiyası əsasında qurulacaqdır. Hazırda mütəxəssislər ekspozisiyanın mövzusu üzərində işləyirlər. Muzey kompleksində emalatxanalar və ekspozisiya zalları olacaqdır.

Bu gün Qala kəndi Abşeron yarımadasında turistlərin diqqətini çəkən məkanlardan biridir. Bu səbəbdən burada restoranın inşası zərurətə çevrilmişdir. Mehriban xanım Əliyeva ərazidə tikilən restoran binasında inşaat işlərinin gedişi ilə tanış oldu.

Məlumat verildi ki, binanın birinci mərtəbəsində kafe, ikinci mərtəbəsində isə restoran fəaliyyət göstərəcəkdir.

Xəzər rayonunun digər qəsəbə və kəndləri kimi, Qala kəndinin də tarixi memarlıq incilərinin qorunub saxlanılması üçün genişmiqyaslı işlər görülür. Milli Məclisə Xəzər rayonundan deputat seçilən və seçicilərin etimadını layiqincə doğruldan Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Qalada inşa edilən yeni obyektlər bu əraziyə turistlərin daha çox cəlb olunması işinə xidmət edir.

*"Azərbaycan" qəzeti,*
*25 fevral 2011-ci il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA FONDUN TƏŞƏBBÜSÜ İLƏ XƏZƏR RAYONUNDA İNŞA OLUNMUŞ BİR NEÇƏ OBYEKTİN VƏ YENİ AZƏRBAYCAN PARTİYASI RAYON TƏŞKİLATININ YENİ BİNASININ AÇILIŞLARINDA İŞTİRAK ETMİŞDİR

2011-ci ilin oktyabrın 18-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuş Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbi istifadəyə verilmişdir. Xüsusi məktəbin açılışında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iştirak etmişdir.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim edildi. Azərbaycanın birinci xanımı rəmzi açılışı bildirən lenti kəsdi.

Əvvəlcə məktəbin tədris mərkəzinin foyesində yaradılmış fotostendə baxan Azərbaycanın birinci xanımı daha sonra burada yerləşən akt zalı, ümummilli lider Heydər Əliyevin şərəfinə yaradılmış muzey, xarici dil, informatika, fizika və ibtidai hərbi hazırlıq kabinetləri ilə





tanış oldu. Mehriban xanım Əliyevaya məlumat verildi ki, bütün kabinetlər yeni və müasir avadanlıqla təchiz olunmuşdur. Azərbaycanın birinci xanımı tədris mərkəzinin təmirdən əvvəlki fotoşəkillərinə də baxdı. Bildirildi ki, məktəbdə gənclərin ibtidai hərbi hazırlığına da xüsusi diqqət yetiriləcəkdir.

Heydər Əliyev Fondu yeniyetmə və gənclərin təlim-tərbiyəsinə, inkişafına daim xüsusi qayğı göstərmişdir. Onların yaxşı təhsil almaları, fiziki və mənəvi tərbiyəsi, vətənə və cəmiyyətə yararlı insan kimi yetişməsi Fondun prioritet istiqamətlərindəndir.

Daha sonra məktəbdə fəaliyyət göstərəcək interaktiv atəş zalı ilə tanış olan Mehriban xanım Əliyevaya bildirildi ki, belə zal ilk dəfə məhz bu məktəbdə yaradılmışdır, burada gənclərə atəş açmaq öyrədiləcəkdir.

Mehriban xanım Əliyeva məktəbin həyətində inşa olunmuş pintbol, atçılıq və futbol meydançalarına baxdı. Pintbol meydançasında döyüş qaydaları, hücum, müdafiə kimi hərbi üsullar öyrədiləcəkdir. Məktəbin həyətində qızlar üçün ayrıca idman meydançası da vardır. Xüsusi məktəbin yataqxana korpusu ilə tanış olan Mehriban xanım Əliyevaya buradakı qız və oğlanlar üçün ayrıca trenajor otaqları, Heydər Əliyev Fondu tərəfindən müxtəlif nəşrlərlə təmin olunmuş kitabxana, istirahət və yataq otaqları barədə də məlumat verildi.

Azərbaycanın birinci xanımı məktəbin yeməkxanasına da baş çəkdi. Həmin gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Mərdəkan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunmuş Səhiyyə Nazirliyinin Uşaq Tibbi Reabilitasiya xəstəxanasının yeni binası ilə tanış oldu. Əvvəlcə xəstəxananın stasionar şöbəsi ilə tanış olan Mehriban xanım Əliyevaya məlumat verildi ki, 1973-cü ildən fəaliyyət göstərən xəstəxananın ümumi sahəsi 16 min 700 kvadratmetrdir. Təmirinə 2009-cu ilin avqustundan başlanılan 40 palatalıq xəstəxana yeni avadanlıq və müasir cihazlarla təchiz olunmuşdur.

Heydər Əliyev Fondunun prezidenti stasionar şöbədə Ulu öndər Heydər Əliyev, Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın uşaqlara qayğısını əks etdirən fotostendə baxdı, daha sonra müalicə, bədən tərbiyəsi, psixoloq otaqları, oyun zalı, fizioterapiya otağı, həmçinin palata və yeməkxanada yaradılmış şəraitlə tanış oldu. Fitoterapiya otağında müalicə ənənəvi üsullarla yanaşı, ot çayları, təbii şirələr, oksigen kokteylləri vasitələri ilə də aparılır. Müalicə-bədən tərbiyəsi zalı ən müasir trenajorlarla təchiz edilmiş, palatalar balacaların zövqünə uyğun qurulmuşdur.

Fizioterapiya şöbəsi ilə tanış olan Azərbaycanın birinci xanımına məlumat verildi ki, 280 kvadratmetr sahəni əhatə edən binada EKO, EEQ, Spa terapiyası, halvanik vanna, sualtı massaj vannası, fizioterapiya otaqları vardır. Otaqlarda yüksək standartlara cavab verən avadanlıq quraşdırılmışdır.

Tibbi reabilitasiya xəstəxanasının həyəti də abadlaşdırılmış, hovuz tikilmiş, yeni ağaclar, dekorativ kol və güllər əkilmişdir. Sonra Mehriban xanım Əliyeva Şüvəlan qəsəbəsindəki A.S.Makarenko adına Respublika Humanitar Fənlər Təmayüllü Gimnaziyada oldu.

Rəmzi lenti kəsən Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim olundu.

Tədris binasındakı sinif otaqları, idman və akt zalları ilə tanış olan Mehriban xanım Əliyevaya məlumat verildi ki, Fondun "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı" çərçivəsində təmir olunan mərkəz bir tədris korpusu, iki yataqxana binası, yeməkxana və yardımçı binalardan ibarətdir. Tədris mərkəzinin foyesində Prezident İlham Əliyevin təhsil sahəsində apardığı uğurlu islahatları, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilə, o cümlədən gimnaziyaya göstərdiyi qayğını və dövlət atributlarını əks etdirən fotostend vardır.

700 yerlik gimnaziyada 38 sinif otağı, multimedia və fənn kabinetləri, 2 kompyuter sinfi, kimya, fizika laboratoriyaları, dərslik, dünya, şifahi xalq və müasir dövr ədəbiyyatından ibarət zəngin kitabxana mövcuddur. Hazırda burada 611 şagird təhsil alır. Sinif otaqları, laboratoriyalar, fənn kabinetləri əyani vəsaitlərlə, müasir avadanlıqlarla təchiz olunmuşdur.

Gimnaziyanın həyətində süni örtüklü futbol, basketbol və voleybol meydançaları, həmçinin müxtəlif idman avadanlıqları qurulmuşdur.

Milli Məclisin deputatı Mehriban xanım Əliyeva yataqxana korpusu ilə də tanış oldu. İki yataqxana binasında ümumilikdə 48 yataq otağı, dərsdənkənar məşğələ sinifləri, tibb məntəqəsi, istirahət guşələri var. Hazırda gimnaziyanın yataqxanasında 150 nəfər yaşayır.

Daha sonra Heydər Əliyev Fondunun prezidenti, Xəzər rayonundan millət vəkili seçilən Mehriban xanım Əliyeva Yeni Azərbaycan Partiyası (YAP) Xəzər rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etdi.

Rəmzi qırmızı lenti kəsən Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.

Azərbaycanın birinci xanımı binanın foyesində ulu öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış büstün önünə gül dəstəsi qoydu.

YAP sədrinin müavini icra katibi Əli Əhmədov Mehriban xanım Əliyevaya məlumat verdi ki, 3 mərtəbədən ibarət binanın ümumi sahəsi 1500 kvadratmetrdir. Burada ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoguşə yaradılmışdır. Birinci mərtəbədə qeyri-iş otaqları və 120 yerlik akt zalı vardır. Zalda müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

2-ci mərtəbə ilə tanışlıq zamanı Mehriban xanım Əliyeva idarə heyətinin iclaslarının keçirilməsi üçün nəzərdə tutulan konfrans zalına baxdı.

YAP-ın Xəzər rayon təşkilatı üzrə 8 mindən çox üzvü vardır. Yeni inzibati binanın inşası da bu zərurətdən irəli gəlmişdir.

***"Azərbaycan" qəzeti,***
***19 oktyabr 2011-ci il***







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ XƏZƏR RAYONUNDA İNŞA OLUNMUŞ BİR NEÇƏ TƏHSİL MÜƏSSİSƏSİNİN YENİ BİNALARININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ilin oktyabrın 19-da Bakının Xəzər rayonunda yenidən qurulmuş üç təhsil müəssisəsinin açılışında iştirak etmişdir.

Əvvəlcə Binə qəsəbəsindəki S.Abbasov adına 117 saylı tam orta məktəbin açılışına gələn Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu. Sonra açılışı bildirən rəmzi lent kəsildi.

Məktəblə tanış olan Azərbaycanın birinci xanımına məlumat verildi ki, yararsız vəziyyətdə olan məktəb binası 2010-cu ilin dekabrında sökülərək Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yenidən tikilmişdir. 3 hektar ərazini əhatə edən məktəb 2040 şagird, 81 sinif, 4 kompyuter otağı, akt və idman zalları, laboratoriyalar, kitabxana, həkim kabineti, əmək emalatxanalarından ibarətdir. Binanın foyesində ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin təhsilə qayğısını əks etdirən fotostend qurulmuşdur. Məktəbin həyətində süni örtüklü yeni idman meydançası vardır. Təhsil müəssisəsində 140 müəllim çalışır. Kompyuter otaqlarının avadanlığı məktəbə Fond tərəfindən hədiyyə edilmişdir.

Mehriban xanım Əliyeva məktəbin sinif və kompyuter otaqları, yeməkxanası, laboratoriyasına

baxdı, binanın istilik təchizatı ilə maraqlandı. Bildirildi ki, bütün otaqlarda ən müasir istilik sistemi quraşdırılmışdır.

Həmin gün Mehriban xanım Əliyeva Xəzər rayonunun Türkan qəsəbəsində əsaslı təmirdən sonra istifadəyə verilmiş D.Cəbrayılov adına 119 saylı məktəbə gəldi.

Rəmzi açılış lentini kəsən Heydər Əliyev Fondunun prezidentinə gül dəstəsi təqdim olundu.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilmiş məktəb binası və ibtidai siniflər üçün inşa olunmuş yeni korpusla tanış olan Azərbaycanın birinci xanımı musiqi kabineti, siniflər, yeməkxana, akt və idman zallarına baxdı.

Məlumat verildi ki, 550 yerlik məktəb binası 1966-cı ildə tikilmişdir. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində əsaslı təmir olunan məktəb yüksək keyfiyyətli avadanlıqla təchiz edilmişdir. Əlavə olaraq ibtidai sinif şagirdləri üçün tikilmiş 300 yerlik yeni korpusda isə 238 uşaq təhsil alır. Məktəbə Fond tərəfindən 40 kompyuter hədiyyə edilmişdir. Binada Ulu öndər Heydər Əliyev, Prezident İlham Əliyev, həmçinin Mehriban xanım Əliyevanın təhsilə qayğısını əks etdirən fotoguşə, müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan 120 nəfərlik akt zalı, 18 min kitabın saxlanıldığı kitabxana, bufet vardır. Məktəb binası mərkəzləşdirilmiş kamera-nəzarət sistemi ilə təchiz olunmuşdur.

Azərbaycanın birinci xanımı 2011-ci ilin oktyabrın 19-da Zirə qəsəbəsində Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində yeni istifadəyə verilmiş uşaq bağçasının açılışında da iştirak etdi.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim edildikdən sonra rəmzi açılışı bildirən lent kəsildi.

Bağçada yaradılmış şəraitlə tanış olan Mehriban xanım Əliyeva daha sonra yeməkxana, oyun və idman zalı, musiqi otağı ilə tanış oldu. Azərbaycanın birinci xanımına məlumat verildi ki, 120 yerlik uşaq bağçasında 3-6 yaş arası uşaqlardan ibarət 4 qrup fəaliyyət göstərəcəkdir. 1655 kvadratmetr ərazini əhatə edən uşaq müəssisəsində müasir tələblərə cavab verən bütün şərait yaradılmışdır.

Yeni mətbəx və yemək ləvazimatları ilə təchiz olunmuş yeməkxanada uşaqların sağlam və düzgün qidalanması təmin olunacaqdır. Müxtəlif musiqi alətləri ilə təchiz edilmiş otaqda isə balacaların musiqi istedadını kəşf və inkişaf etdirmək üçün əsl imkan vardır.

Həyətdə qurulmuş uşaq meydançası, göz oxşayan köşklər balacaların maraqlı və şən vaxt keçirmələrinin təminatçısı olacaqdır. Uşaqların təhlükəsizliyinə nəzarət mərkəzləşdirilmiş kamera sistemi ilə aparılacaqdır.

***"Azərbaycan" qəzeti,***
***20 oktyabr 2011-ci il***







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BAKININ BUZOVNA QƏSƏBƏSİNDƏKİ TEXNİKİ PEŞƏ MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

2012-ci ilin sentyabrın 14-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində Prezident İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə yenidən inşa edilmiş 5 nömrəli texniki peşə məktəbinin açılış mərasimi olmuşdur.

Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin Xəzər rayonundan deputatı Mehriban Əliyeva iştirak etmişdir.

Azərbaycanın birinci xanımı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Mehriban xanım Əliyeva təhsil ocağının əvvəlki görüntüsünün əks olunduğu fotostendə baxdı.

Foyedə ulu öndər Heydər Əliyevin xatirəsinə yaradılmış guşədə ümummilli liderin abidəsi qoyulmuşdur. Abidə xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü, professor Natiq Əliyev tərəfindən hazırlanmışdır.

Azərbaycanın birinci xanımına məlumat verildi ki, hazırda MDB məkanında bənzəri olmayan

bu texniki peşə məktəbi 1,2 hektarlıq ərazidə yerləşir. 1969-cu ildən fəaliyyət göstərən məktəb yenidənqurmaya qədər tornaçı, bərbər, maliyyə-uçot ixtisasları üzrə təhsil vermişdir.

Bildirilmişdir ki, məktəb xarici görünüşü və maddi-texniki bazası ilə bərabər profilini də dəyişmiş, kino, teatr, həmçinin mədəniyyət və incəsənətin digər müvafiq işçi bazasını peşəkar texniklərlə təmin etməyi qarşısına məqsəd qoymuşdur. 5 nömrəli texniki peşə məktəbində kino, videoçəkiliş üzrə operatorlar, səhnə işıq və qrim ustaları, kinotelemontajçılar, səs operatorları, teatr, kino və telestudio dekoratorları, dərzilər, kompyuterlərin təmiri və xidməti üzrə texniklər hazırlanacaqdır.

Burada təhsil ikiillikdir. Bu il məktəbə ilk qəbul aparılmışdır və təhsil alacaq şagirdlərin sayı 160 nəfərdir. Lakin gələcək illərdə onların sayı 320-ə çatacaqdır. Hazırda 19, gələcəkdə isə, 38 nəfər müəllim heyəti şagirdlərə incəsənətin texniki tərəfləri ilə bağlı peşələrin sirlərini öyrədəcəklər.

Məktəbin yeməkxanası ilə tanış olan Mehriban xanım Əliyeva burada yaradılmış şərait və səliqə-sahmandan razılığını bildirdi.

Daha sonra Azərbaycanın birinci xanımı məktəbdəki çəkiliş və səsyazma studiyalarına, rejissor otağına baxdı. Məlumat verildi ki, ən müasir səsyazma və səyyar telestudiya çəkiliş avadanlığının quruldüğu studiyalar birbaşa yayım imkanlarına malikdir.

Mehriban xanım Əliyeva məktəbin akt zalı, dərs, qrim, dekorasiya otaqları, dərzi sexi, tibb məntəqəsi, kitabxana və digər emalatxanaları ilə də tanış oldu.

Kitabxana ilə tanışlıq zamanı bildirildi ki, burada mədəniyyət və incəsənətə dair kitablarla yanaşı, müxtəlif dərs vəsaitləri də vardır.

Məktəbin həyətində ayrıca idman kompleksi inşa edilmişdir. Burada futzal, basketbol, voleybol, yüngül atletika qurğuları və trenajorlar yerləşdirilmişdir. İdman zalının divarlarını ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin idmana göstərdiyi qayğı və diqqəti əks etdirən fotoşəkillər bəzəyir.

Azərbaycanın birinci xanımı məktəbdə yaradılan şəraitdən razılığını bildirdi, burada tədrisin yüksək səviyyədə aparılmasının vacibliyini qeyd etdi.

***"Azərbaycan" qəzeti,***
***15 sentyabr 2012-ci il***







## BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA XƏZƏR RAYONUNDA TƏMİRİ VƏ ƏSASLI SURƏTDƏ YENİDƏN QURULMASI NƏZƏRDƏ TUTULAN BİR SIRA OBYEKTLƏRDƏ OLMUŞDUR

2013-cü ilin martın 1-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Xəzər rayonundan Milli Məclisin deputatı Mehriban Əliyeva paytaxtın Binə, Türkan, Şüvəlan və Buzovna qəsəbələrində olmuş, təmiri və əsaslı surətdə yenidən qurulması nəzərdə tutulan bir sıra obyektlərə baş çəkmişdir.

Əvvəlcə Binə qəsəbəsindəki İmam Rza məscidinə gələn birinci xanım Mehriban Əliyeva burada sakinlərlə görüşdü. Məscidin axundu Hacı Həsən Binə sakinləri adından qəsəbədə görülən işlər, həyata keçirilən layihələrlə bağlı Heydər Əliyev Fondunun prezidentinə minnətdarlığını bildirdi.

Azərbaycanın birinci xanımı sakinlərin arzu və təkliflərini dinlədi, onların həlli istiqamətində tövsiyələrini verdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bildirdi ki, qəsəbədə görülən bütün işlərin məqsədi insanların daha rahat yaşamasını təmin etməkdir.

Birinci xanım Mehriban Əliyeva Binədə görülən işlərdən danışdı, yeni məktəblərin tikildiyini, mədəniyyət evinin, kitabxananın yenidən qurulduğunu, işıq və qaz xətlərinin çəkildiyini qeyd etdi.

Mehriban xanım Əliyeva onun salamlarının qəsəbə sakinlərinə çatdırılmasını xahiş etdi.

Daha sonra Mehriban xanım Əliyeva məscidin yenidənqurma işlərindən əvvəlki

fotoşəkillərinə baxdı. Məlumat verildi ki, məscid binasının dam örtüyü zədələndiyi üçün yağış suları içəri axaraq interyeri korlamışdı. Qəsəbə ağsaqqalları məscid binasının təmirinə yardım üçün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya müraciət etmişlər. Müraciət əsasında 2012-ci ilin sentyabrından yenidənqurma işlərinə başlanmışdır. Məscid binası bu ilin birinci yarısında təhvil veriləcəkdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva daha sonra Binə qəsəbəsindəki 285 nömrəli körpələr evi – uşaq bağçasında oldu. Milli Məclisin deputatına məlumat verildi ki, 1986-cı ildə tikilən və ümumi sahəsi 1900 kvadrat metrdən çox olan uşaq bağçasında indiyə qədər heç vaxt əsaslı təmir işləri aparılmamışdır. 1993-cü ildən bağçada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün düşən soydaşlarımız məskunlaşmışdır. Bu il isə onlar yeni mənzillərlə təmin edilmişlər. Diqqətə çatdırıldı ki, bağçada yaş yarımdan 6 yaşınadək uşaqlara xidmət edən 75 körpədən ibarət 4 qrup olsa da, binanın yarıtmaz vəziyyəti fəaliyyət göstərməyə imkan vermirdi. Bildirildi ki, 285 nömrəli bağça bu ərazidə yeganə məktəbəqədər uşaq müəssisəsidir. Tələbat artdığına görə Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada uşaq bağçası üçün yeni binanın inşası nəzərdə tutulmuşdur. Mehriban xanım Əliyeva işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsinə dair tövsiyələrini verdi.

Sonra Türkana gələn Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva qəsəbə sakinləri ilə görüşdü, onların problemləri ilə maraqlandı. Bildirdi ki, qarşıya qoyulan bütün vacib məsələlər həll olunur. Türkan qəsəbəsində artıq ikinci bağça binasının inşasına başlanıldığını deyən Mehriban xanım Əliyeva qəsəbədə tikinti və quruculuq işlərinin vüsət aldığını söylədi. Milli Məclisin deputatı Xəzər rayonunun bütün məktəblərinin yeni, müasir standarlara uyğun qurulduğunu bildirdi. Gələcək illərdə sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı zəruri addımların atılacağını qeyd edən Heydər Əliyev Fondunun prezidenti vurğuladı ki, bununla da qəsəbədə yeni iş yerlərinin açılmasına nail olunacaqdır.

Sakinlər onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Daha sonra Milli Məclisin deputatı burada tikilməkdə olan yeni uşaq bağçasında inşaat işlərinin gedişi ilə tanış oldu. Məlumat verildi ki, hazırda Türkan qəsəbəsində uşaq bağçasına böyük ehtiyac vardır. Ötən ilin sonunda inşasına başlanan müasir tipli 200 yerlik uşaq bağçasının 2013-cü ilin sentyabrında istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Heydər Əliyev Fondunun prezidentinin diqqətinə çatdırıldı ki, ikimərtəbəli binada 2 körpə, 4 orta, 4 məktəbəqədər hazırlıq qrupu fəaliyyət göstərəcəkdir. Uşaq bağçası bütün əyani və texniki vasitələrlə təchiz ediləcəkdir. Binada hovuz, musiqi və idman otaqları yaradılacaq, müasir havalandırma sistemi quraşdırılacaqdır. Həyətdə uşaqların əyləncəsi və fiziki inkişafı üçün şərait yaradılacaqdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2013-cü ilin martın 1-də Şüvəlan qəsəbəsindəki zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün 2 nömrəli xüsusi internat





məktəbində də oldu.

Buradakı vəziyyətlə tanış olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya məlumat verildi ki, internat məktəbi 1963-cü ildə inşa olunmuşdur. Hazırda burada 130 şagird təhsil alır. Binanın əsaslı təmirə ehtiyacı vardır.

Mehriban xanım Əliyeva internat məktəbinin yenidən qurulması ilə bağlı tövsiyələrini verdi.

Sonra Azərbaycanın birinci xanımı qəsəbə sakinləri ilə görüşdü, onlarla söhbət etdi. Mehriban xanım Əliyeva bildirdi ki, Xəzər rayonunun bütün qəsəbələrində olduğu kimi, Şüvəlanda da həyata keçirilən layihələr uğurla davam etdirilir. Belə ki, sosial problemlər öz həllini tapmaqla yanaşı, burada təhsil ocaqları, məktəbəqədər müəssisələr, mədəniyyət mərkəzləri təmir olunur və yenidən qurulur. İki nömrəli xüsusi internat məktəbinin də müasir üslubda qurulmasının vacibliyini qeyd edən Mehriban xanım Əliyeva uşaqlara yüksək keyfiyyətli təhsilin verilməsinin əhəmiyyətini vurğuladı.

Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva sonra Şüvəlandakı sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika Xüsusi İnternat məktəbinə gəldi.

Burada Azərbaycanın birinci xanımına məlumat verildi ki, 1964-cü ildə inşa olunan internatda 136 şagird təhsil alır. Bu müəssisə də yararsız vəziyyətə düşmüşdür və binanın əsaslı yenidənqurma işlərinə ciddi ehtiyacı vardır. Heydər Əliyev Fondunun prezidenti bu internat məktəbinin də yenidən qurulacağını bildirdi.

Mehriban xanım Əliyeva internat məktəbində təhsil alan uşaqlara da baş çəkdi. Onlarla söhbət edən Azərbaycanın birinci xanımı balacaların əl işlərinə də baxdı.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın baş çəkdiyi növbəti məktəbəqədər tərbiyə müəssisəsi Buzovna qəsəbəsindəki 246 nömrəli körpələr evi – uşaq bağçası oldu.

Bu tərbiyə müəssisəsi ilə yaxından tanış olan Mehriban xanım Əliyevanın diqqətinə çatdırıldı ki, 1985-ci ildə inşa edilən və indiyədək əsaslı təmir işləri görülməyən bağça Azərbaycan və rus bölmələri daxil olmaqla 2-6 yaşlı uşaqlar üçün ixtisaslaşmışdır. Səkkiz min kvadratmetrdən çox sahəsi olan uşaq bağçası istifadə üçün yararsız vəziyyətdədir. İkimərtəbəli binada istilik sistemi yoxdur.

Mehriban xanım Əliyeva bildirdi ki, Heydər Əliyev Fondu bu uşaq bağçasının da yenidən qurulmasını nəzərdə tutur.

Fondun prezidenti Mehriban xanım Əliyeva yenidənqurma işlərinin yüksək səviyyədə aparılması, uşaq bağçasının bütün əyani və texniki vasitələrlə təchiz olunmasına dair tövsiyələrini verdi.

***"Azərbaycan" qəzeti,***
***2 mart 2013-cü il***



## III fəsil

# Azərbaycan Respublikasının birinci xanımı və deputat Mehriban Əliyeva siyasi səhnədə



## ABŞ-ın APARICI YƏHUDİ TƏŞKİLATLARI SƏDRLƏRİ KONFRANSININ NÜMAYƏNDƏ HEYƏTİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

ABŞ-ın Aparıcı Yəhudi Təşkilatları Sədrləri Konfransının nümayəndə heyəti 2006-cı ilin fevralın 13-də Heydər Əliyev Fondunda olmuşdur.

Nümayəndə heyətinin üzvləri əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Qonaqlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

Qonaqlar Fondun Xatirə kitabına ürək sözlərini yazdılar, Fondun vəsaiti ilə buraxılmış kitab, albom, audio-video disklərə, məktəb ləvazimatlarına baxdılar.





Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ilə görüş oldu. Mehriban xanım qonaqlara ingilis dilində müraciət edərək onları səmimiyyətlə salamladı, Amerikada yaşayan yəhudiləri birləşdirən təşkilatların təmsilçilərini ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən çox böyük qürur hissi keçirdiyini söylədi. O, Heydər Əliyev Fondu haqqında qısa məlumat verərək bildirdi ki, Fond nüfuzlu beynəlxalq təşkilatlarla, dünyanın müxtəlif ölkələrinin ictimai, Qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa da çox böyük əhəmiyyət verir və ABŞ-ın yəhudi təşkilatları ilə də əlaqələr yaradılmasına hazırdır.

Mehriban xanım qonaqları Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxmağa dəvət etdi.

İngilis dilində hazırlanmış film qonaqlarda xoş təəssürat yaratdı. Yəhudi təşkilatlarının təmsilçiləri Fondun və onun prezidentinin konkret insanların və ölkənin sosial problemlərinin həlli, uşaq evləri və internat məktəblərində təlim-tərbiyə alan, diabet xəstəliyindən əziyyət çəkən uşaqlara yardım, talassemiyasız həyat, təhsil, mədəniyyət sahəsində çox böyük layihələr həyata keçirilməsinin şahidi olduqlarını vurğuladılar. Onlar Azərbaycan xalqının zəngin mədəniyyəti, klassik və müasir musiqi sənəti ilə əyani tanışlıqdan məmnun qaldıqlarını bildirdilər, Mehriban xanımın həm də YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və Gimnastika Federasiyasının prezidenti kimi səmərəli fəaliyyətini yüksək qiymətləndirdilər.

Amerikalı qonaqlar respublikamızda hər addımda hiss etdikləri qonaqpərvərliyə, Bakıda Yəhudi məktəbinin inşası üçün geniş torpaq sahəsi ayrılmasına köməyə görə təşəkkür etdilər. Azərbaycan Prezidenti ilə görüşün onların qəlbində silinməz iz qoyduğunu, ölkəmizdə bütün dinlərdən, millətlərdən olan insanların azad, dinc, birgə yaşayışı üçün hər cür hüquqi-mənəvi şəraitin mövcud olduğunu yəqin etdiklərini, erməni təcavüzünün xalqımıza böyük əzablar verdiyini öyrəndiklərini bildirdilər, Azərbaycan həqiqətlərinin ABŞ-da yayılmasına yardımçı olacaqlarını söylədilər.

Fondun prezidentini parlamentin deputatı seçilməsi, respublikada ötən ilin adamı elan olunması, dünyanın ən məşhur mesenatları sırasında "Yaqut Xaç" ordeninə layiq görülməsi münasibətilə təbrik etdilər, gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladılar.

Mehriban Əliyeva xoş sözlərə görə təşəkkür edərək dedi ki, hələ 10 il əvvəl Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən əsas niyyəti xalqımızın zəngin mədəniyyətini, qədim keçmişini, adət-ənənələrini dünyaya yaymaq, tanıtmaq olmuşdur. Çox sağ olun ki, siz də bunları vurğuladınız, düzgün dəyərləndirdiniz, Azərbaycanın təkcə neft ölkəsi yox, həm də zəngin mədəniyyətə malik diyar olduğunu dediniz. Mən həmişə bu fikirdə olmuş, bu amalla yaşamışam ki, xoş niyyət, xoş əməl dünyada çox şeyi yaxşılığa doğru dəyişə bilər.

Nümayəndə heyətinin üzvləri adından Azərbaycanın birinci xanımına üzərində yəhudilərin ən əziz insanlara, onların ailəsinə, mənsub olduqları xalqa sülh, xoşbəxtlik, xeyir-bərəkət,

sevinc arzularını ifadə edən kəlamı yazılmış xatirə hədiyyəsi təqdim edildi.

Mehriban xanım nümayəndə heyətinin hər bir üzvünə Fondun layihəsi olan, Azərbaycan həqiqətlərini, mədəniyyətini və milli musiqisini əks etdirən kitab, albom, audio-video disklərdən ibarət hədiyyələr bağışladı.

Fondun prezidenti nümayəndə heyətini müşayiət edən kütləvi informasiya vasitələri nümayəndələrinin suallarına da cavab verdi.

Qonaqlar Mehriban xanımla xatirə şəkli çəkdilər və Fonddan xoş təəssüratla ayrıldılar.

*"Azərbaycan" qəzeti,*
*14 fevral 2006-cı il*







## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-a İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının birinci xanımı, Azərbaycan-ABŞ Parlamentlərarası Əlaqələr üzrə İşçi qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ABŞ-a 2006-cı ilin dekabrın 4-də başlanmış səfəri çərçivəsində bir sıra görüşlər keçirmişdir.

ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun həmsədrləri, konqresmenlər demokrat Solomon Ortis, respublikaçı Bil Şuster və qrupun üzvləri Ed Uitfild, Virciniya Foks ilə görüşündə xanım Mehriban Əliyeva Azərbaycan ilə ABŞ arasında münasibətlərin yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini vurğulamışdır.

Görüş zamanı bir neçə aktual məsələ, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin aradan qaldırılması, Azərbaycanın geostrateji mövqeyi, ölkəmizin müasir durumu ətrafında müzakirələr aparılmışdır. Hər iki tərəf parlamentlərarası əlaqə və mübadilələrin ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi üçün əhəmiyyətini vurğulamış və bu sahədə müəyyən proqramın tərtib edilməsinin zəruriliyini qeyd etmişlər.

Mehriban xanım ABŞ Konqresinin Avropa və Yeni Təhlükələr üzrə Alt Komitəsinin sədri vəzifəsinin icrasına yaxın günlərdə başlayacaq konqresmen Robert Uekslerlə görüşmüşdür. Ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Mehriban Əliyeva ABŞ-ın dəstəyi ilə regionda həyata keçirilən layihələrin əhəmiyyətini, ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra ABŞ-ın Azərbaycana güclü dəstək verdiyini qeyd etmişdir.

Mehriban xanım Robert Uekslerі ölkəmizdə həyata keçirilən islahatlar, əldə edilmiş nailiyyətlər ilə tanış olmaq üçün Azərbaycana səfərə dəvət etmişdir.

Konqresmen Ueksler Azərbaycanın ABŞ üçün əhəmiyyətinə toxunaraq, yeni seçilmiş Konqresin Cənubi Qafqaz regionuna, xüsusilə Azərbaycana diqqətini daha da artıracağına ümidvar olduğunu bildirmişdir.

Görüşdə regional vəziyyət, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi istiqamətində səylərin artırılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Konqresdə keçirilmiş görüşlərdə Azərbaycanın birinci xanımını Milli Məclisin bir qrup üzvü müşayiət etmişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Corc Buş Prezident Kitabxanası Fondunun prezidenti, ABŞ-ın milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri general Brent Skoukroftla görüşmüşdür. Söhbət zamanı Heydər Əliyev Fondu ilə Corc Buş Prezident Kitabxanası Fondu arasında əməkdaşlığın perspektivləri və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilmişdir.

General Brent Skoukroft Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təhsil, mədəniyyət və səhiyyə sahəsində həyata keçirdiyi layihələr barədə məlumatı maraqla dinləmiş və görülən işləri yüksək qiymətləndirmişdir.

Azərbaycanın birinci xanımı Vaşinqtonun nüfuzlu təhlil və tədqiqat mərkəzlərinin, universitetlərinin nümayəndələri ilə görüş keçirmişdir.

Görüşdə ABŞ-ın tanınmış alim və ictimai xadimləri, o cümlədən Syuzan Eyzenhauer, Frederik Star, Svanta Kornel, Ancela Stend, Ceyms Beyker, Rob Sobhani, Roald Saqdeyev, Ariel Koen iştirak etmişlər. ABŞ-Azərbaycan münasibətlərinin inkişafını yaxından izləyən alimlər Azərbaycanın hazırkı mərhələsinə dair öz mülahizələrini söyləmiş və bu münasibətlərin dinamikasına yeni ahəng vermək üçün fikirlərini bildirmişlər.

Səfər zamanı Mehriban Əliyeva həmçinin "Volter Rid" adına hərbi tibb mərkəzində və Vaşinqtondakı Toxuculuq muzeyində olmuşdur. Toxuculuq muzeyində Azərbaycan Xalçaçılıq muzeyi ilə uğurla həyata keçirilən layihələr barədə Azərbaycanın birinci xanımına məlumat verilmişdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Vaşinqtondakı ABŞ-Azərbaycan Ticarət Palatası nəzdində olan Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində Amerikada yaşayıb fəaliyyət göstərən azərbaycanlı və amerikalı incəsənət xadimləri ilə görüşmüşdür. Azərbaycan ilə ABŞ arasında münasibətlərin yüksək səviyyəsindən danışan Mehriban Əliyeva vurğuladı ki, zəngin mədəni irsimizin Amerikada tanıdılmasına dair layihələrin həyata keçirilməsinə ehtiyac vardır. Bu layihələrin sərgilər, konsertlər, Amerikada Azərbaycan günləri kimi keçirilməsini mümkün hesab edən Azərbaycanın birinci xanımı bu işdə ABŞ-da yaşayan azərbaycanlı incəsənət xadimlərinin dəstəyinin vacib olduğunu bildirmişdir.





***"Azərbaycan" qəzeti,***
***7 dekabr 2006-cı il***



## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-a İŞGÜZAR SƏFƏRİ DAVAM EDİR

2006-cı ilin dekabrın 7-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Ağ evdə ABŞ-ın birinci xanımı Loura Buş ilə görüşmüşdür. Mehriban xanım Əliyeva ABŞ-a səfəri zamanı göstərilən qonaqpərvərliyə görə xanım Loura Buşa təşəkkürünü bildirmişdir. Səmimi şəraitdə keçən söhbətdə iki ölkənin birinci xanımları Azərbaycan-ABŞ münasibətlərinin möhkəmləndirməsində təhsil, səhiyyə, mədəniyyət sahələrinin rolundan danışmışlar. Mehriban Əliyeva və Loura Buş bu sahələrdə öz ölkələrində həyata keçirilən proqram və layihələr barədə bir-birlərinə məlumat vermişlər. Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində həyata keçirilən layihələr ABŞ-ın birinci xanımında xüsusi maraq doğurmuşdur. Görüşdə vurğulanmışdır ki, hər iki ölkənin gələcəyi baxımından təhsil sahəsinə yönəldilən sərmayə ən dəyərlisidir. Bu sahədə birgə səylərin görülməsinin əhəmiyyətindən də danışılmışdır. Bununla bağlı Mehriban Əliyeva Loura Buşun Amerikanın xarici ölkələrlə əməkdaşlıq təcrübəsi barədə məlumatını maraqla dinləmişdir. Görüşün sonunda Mehriban xanım Əliyeva ABŞ-ın birinci xanımını ölkəmizə səfərə dəvət etmişdir.

Səfər çərçivəsində Mehriban Əliyeva ABŞ senatoru Key Beyli Hatçinson və Konqresin üzvü Şelli Sekula Gibbs ilə görüşmüşdür.

Mehriban Əliyeva Azərbaycan ilə ABŞ arasında münasibətlərin uğurla inkişaf etdiyini





vurğulayaraq, əməkdaşlığımızın daha da gücləndirilməsinin vacib olduğunu bildirmişdir. Azərbaycanın birinci xanımı Xəzər hövzəsində həyata keçirilən enerji layihələrinin əhəmiyyətinə də toxunmuş və bu layihələrin reallaşmasında ABŞ-ın mühüm rol oynadığını xüsusi qeyd etmişdir.

Senator Hatçinson ABŞ ilə Azərbaycanın müxtəlif sahələrdə uğurlu əməkdaşlığını, ABŞ-ın bir çox şirkətlərinin ölkəmizə irihəcmli investisiyalar qoyduğunu diqqətə çatdırmışdır. Azərbaycana səfərini məmnuniyyətlə xatırladan senator bu səfərin onda xoş təəssüratlar yaratdığını bildirərək demişdir: "Regionda dostlara malik olmaq bizim üçün çox önəmlidir".

Görüşün sonunda Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu və senator Hatçinsonun həmsədri olduğu "Vital Voice" qeyri-hökumət humanitar təşkilatı arasında əməkdaşlığa dair memorandum imzalanmışdır.

Mehriban xanım Əliyevanın Azərbaycanın ABŞ-dakı səfirliyində Amerikanın müxtəlif ştatlarında təhsil alan azərbaycanlı tələbələr ilə görüşü maraqlı keçmişdir. Heydər Əliyev Fondunun fəaliyyətində təhsil layihələrinin prioritet yer tutduğunu qeyd edən Mehriban Əliyeva Fondun bu istiqamətdə apardığı konkret işlərdən danışmışdır. O, Prezident İlham Əliyev tərəfindən imzalanmış Fərmanın Azərbaycanın istedadlı tələbələrinin xarici ölkələrdə təhsil almasına geniş imkanlar açacağını bildirmişdir. Azərbaycanın birinci xanımı tələbələri ABŞ-da təhsillərini bitirdikdən sonra vətənə qayıdıb biliklərini ölkənin inkişafı naminə sərf etməyə çağırmışdır.

ABŞ-Azərbaycan Ticarət Palatası Vaşinqtonun möhtəşəm "Endryu Melon" Auditoriumunda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət vermişdir. Ziyafətdə 300-dən artıq qonaq, o cümlədən Ağ evin və Dövlət Departamentinin yüksək vəzifəli rəsmiləri, ABŞ Konqresinin üzvləri, görkəmli siyasi və ictimai xadimlər, xarici ölkələrin ABŞ-da akkreditə olunmuş səfirləri iştirak etmişlər. Mərasimin aparıcısı, ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri Ceyms Beyker Mehriban xanımı və onu müşayiət edən Milli Məclisin üzvlərini salamlamışdır. Ziyafətdə ABŞ Senatının Xarici Əlaqələr komitəsinin sədri, senator Riçard Luqar geniş nitq söylədikdən sonra Mehriban xanım Əliyevaya söz verilmişdir. Mehriban Əliyeva nitqində ABŞ-a səfərindən məmnunluğunu ifadə etmiş, Azərbaycan-ABŞ əlaqələrinin əhəmiyyətindən danışmış və bu səfərin ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Ziyafətdə Mehriban Əliyevaya ABŞ-Azərbaycan Ticarət Palatasının "2006-cı ilin Xoşməramlı səfiri" mükafatı təqdim edilmişdir. Palata, həmçinin senator Riçard Luqarı "Azadlığa dəstək" mükafatı ilə təltif etmişdir.

Azərbaycandan gəlmiş gənc ifaçıların konsert proqramı qonaqlar tərəfindən hərarətlə qarşılanmışdır.

***"Azərbaycan" qəzeti, 8 dekabr 2006-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-a İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva ABŞ-a işgüzar səfəri çərçivəsində Dövlət Katibinin ictimai diplomatiya və ictimai məsələlər üzrə müavini Karen Hyuz ilə görüşmüşdür. Mehriban xanım rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən humanitar sahədə həyata keçirilən layihələr barədə danışdı, neftdən əldə edilən gəlirlər hesabına ölkəmizdə təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişaf etdirildiyini vurğuladı. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söhbət açaraq münaqişə nəticəsində valideynlərindən məhrum olmuş uşaqlara qayğı göstərilməsinin Heydər Əliyev Fondunun daim diqqət mərkəzində olduğunu qeyd etdi.

Karen Hyuz Heydər Əliyev Fondu tərəfindən görülən işləri yüksək qiymətləndirdi və bunun Azərbaycanın gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. O, Azərbaycanın dini azadlığa hörmət edilməsi baxımından nümunəvi ölkə olduğunu bildirdi və 2007-ci ildə İslam Konfransı Təşkilatı tərəfindən Bakıda "Dözümlülüyün təbliğ olunmasında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda keçiriləcək konfrans ilə maraqlandı. Bu konfransın Azərbaycanda keçirilməsinin ölkəmiz üçün mühüm olduğunu qeyd edən Mehriban xanım Karen Hyuzu bu tədbirə dəvət etdi.

Mehriban Əliyeva ABŞ Dövlət Katibinin demokratiya və qlobal məsələlər üzrə müavini Paula Dobryanski ilə görüşmüşdür. Görüşdə ümumi təhlükələr, xüsusilə quş qripi xəstəliyinin qarşısının alınması istiqamətində iki ölkənin əməkdaşlığı məsələləri müzakirə edildi və xanım Dobryanski bu işdə ölkəsinin Azərbaycana hərtərəfli kömək göstərməyə hazır olduğunu bildirdi. Ölkələrimiz arasında iqtisadi və təhlükəsizlik məsələləri üzrə işçi qruplarının fəaliyyət göstərdiyini qeyd edən Paula Dobryanski, həmçinin, demokratiya və insan hüquqları məsələləri üzrə də müzakirələrin keçirilməsinin zəruriliyinə toxundu. O, Azərbaycanın müasir dünyəvi dövlət kimi Qərblə islam aləmi arasında körpü rolunu oynaya biləcəyini bildirdi.

Azərbaycanda tam dini və etnik tolerantlığın mövcud olduğunu qeyd edən Mehriban Əliyeva YUNESKO və İSESKO-nun xoşməramlı səfiri kimi bu istiqamətdə bütün təkliflərə açıq olduğunu vurğuladı. Görüş zamanı Azərbaycanın birinci xanımı ölkəmizdə demokratik təsisatların daha da təkmilləşdirilməsi üçün görülən tədbirlər barədə də danışdı.

***"Azərbaycan" qəzeti,***
***9 dekabr 2006-cı il***





## ABŞ KONQRESİNİN ÜZVLƏRİ AZƏRBAYCANIN BİRİNCİ XANIMI İLƏ GÖRÜŞLƏRİNƏ DAİR BƏYANAT VERMİŞLƏR

ABŞ Konqresinin üzvləri Nümayəndələr Palatasında bəyanatla çıxış edərək Vaşinqtona işgüzar səfər edən Azərbaycan-ABŞ Parlamentlərarası Əlaqələr üzrə İşçi qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı salamlamışlar.

Konqresdə Azərbaycanla iş üzrə qrupun yeni həmsədri, Pensilvaniya ştatının təmsilçisi Bill Şuster öz adından və qrupun digər həmsədri, Texas ştatından konqresmen Solomon Ortis adından çıxış edərək Azərbaycanın birinci xanımına və onu müşayiət edən Milli Məclisin bir qrup üzvünə səfərə görə təşəkkürünü bildirmişdir. Konqresmen Şuster ABŞ-ın mühüm strateji tərəfdaşlarından olan Azərbaycan Respublikasının parlament üzvlərinin iki ölkənin qanunverici orqanı arasında işçi qrupunun fəaliyyətini və əlaqələndirmə səylərini dəstəkləməyə çağırmışdır.

Azərbaycan-ABŞ Parlamentlərarası Əlaqələr üzrə İşçi qrupunun rəhbəri Mehriban Əliyeva ilə Vaşinqtonda görüş keçirən digər Konqres üzvü Şelli Sekula Gibbs də Nümayəndələr Palatasında çıxış edərək Azərbaycanın birinci xanımını və onu müşayiət edən Milli Məclis üzvlərini salamlamışdır. Xanım Gibbs vurğulamışdır ki, Nümayəndələr Palatası ABŞ-la Azərbaycanın strateji tərəfdaşlığını, qlobal terrorla mübarizədə birgə səyləri, Azərbaycanın Qərb üçün etibarlı enerji mənbəyi kimi mühüm rolunu tanıyır. O əlavə etmişdir ki, iqtisadi artımı enerji layihələri sayəsində bu il 30 faizə çatacaq Azərbaycan sürətlə müasirləşir. Xanım Gibbs Azərbaycanı inkişafda olan demokratiya adlandıraraq ölkədə sosial, siyasi və iqtisadi imkanları genişləndirmək istiqamətində iş aparıldığını demişdir. Onun sözlərinə görə, Azərbaycanın bu sahələrdəki təşəbbüsləri digər Qafqaz və Mərkəzi Asiya dövlətlərinə nümunə ola bilər. Konqres üzvü, həmçinin, Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun Mehriban Əliyevanın rəhbərliyi altında təhsil, səhiyyə, beynəlxalq əlaqələr, mədəniyyət və digər humanitar sahələrdə həyata keçirdiyi proqramları həmkarlarının diqqətinə çatdırmışdır. İxtisasca həkim olan Şelli Sekula Gibbs vurğulamışdır ki, doktor Mehriban Əliyevanın həkimlik biliklərini xeyriyyə işlərində istifadə etməsi xüsusilə təqdirəlayiqdir.

Çıxışının sonunda o, "həmkar həkim, parlament üzvü, həyat yoldaşı və ana" olan Azərbaycanın birinci xanımını bir daha Vaşinqtonda salamlayaraq Azərbaycanda həyata keçirilən səhiyyə proqramlarını qadınların cəmiyyətdə rolunu artıran təşəbbüsləri alqışlamışdır.

***"Azərbaycan" qəzeti,***
***9 dekabr 2006-cı il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN QƏTƏRƏ SƏFƏRİ

Azərbaycan Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNESKO ilə Qətər Fondunun təşkil etdikləri "Ərəb dövlətlərində savadlılıq: tərəfdaşlığın qurulması və yeni yanaşmaların təşviqi" mövzusunda regional konfransda iştirak etmək üçün Qətər Dövlətinin birinci xanımı, YUNESKO-nun İbtidai və ali təhsil üzrə xüsusi elçisi Şeyxa Muza Bint Nasir əl-Misnədin dəvəti ilə bu ölkədə səfərdə olmuşdur.

Doha Beynəlxalq hava limanında yüksək qonağı səmimiyyətlə qarşılayan xanım Şeyxa Muza ölkəsində təhsil sahəsində aparılan islahatlar, rəhbərlik etdiyi Qətər Elm, Təhsil və İcmanın inkişafı Fondunun həyata keçirdiyi uğurlu layihələr və Qətərin tanınmış "Təhsil şəhərciyi" barədə qısa məlumat vermişdir.

2007-ci ilin martın 12-də öz işinə başlayan konfransda Qətər Dövlətinin birinci xanımı Şeyxa Muza, YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, YUNESKO-nun Baş Konfransının sədri, Oman Sultanlığının YUNESKO yanında daimi nümayəndəsi Musa Həsən, Suriyanın birinci xanımı Əsma əl-Əsəd, Livanın birinci xanımı Andre Ləhud, Azərbaycanın birinci xanımı





Mehriban Əliyeva çıxış etmişlər.

Martın 13-də konfransda ərəb ölkələrinin ucqar kənd yerlərində savadsızlığın aradan qaldırılması məqsədilə ötən illərdə uğurla həyata keçirilmiş layihələrə dair konkret misallar gətirilmişdir.

YUNESKO-nun Baş direktoru Koişiro Matsuura çıxışında bildirmişdir ki, rəhbərlik etdiyi təşkilat "Hamı üçün təhsil" proqramı çərçivəsində üzv ölkələrdə təhsilə dövlət büdcəsinin ən azı 20 faizinin ayrılmasını tövsiyə etmişdir.

Qətərin bu sahədə nailiyyətlərindən söhbət açan xanım Şeyxa Muza kənd yerlərində nəinki uşaqlar, həm də yaşlılar arasında təhsil kurslarının təşkil edilməsinin vacibliyini vurğulamışdır. O, bu baxımdan, onların tələbatlarına cavab verən spesifik təhsil proqramının tərtib olunmasına ehtiyac duyulduğunu bildirmişdir.

Mehriban Əliyeva konfrans çərçivəsində xanım Şeyxa Muza ilə ayrıca görüşündə Qətərin təhsil sahəsindəki təcrübəsi ilə tanış olmuş, fikir mübadiləsi aparmışdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Livanın və Suriyanın birinci xanımları ilə də görüşmüş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Söhbət əsnasında, xüsusən də kənd yerlərində təhsilin inkişaf etdirilməsi sahəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər, hökumətin və Heydər Əliyev Fondunun qayğısı sayəsində tikilmiş və yenidən bərpa olunmuş orta məktəblər, onların kompyuter və digər müasir avadanlıqla təchiz olunması barədə konkret misallar gətirilmişdir.

İkitərəfli görüşlər zamanı Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Fondun səhiyyə sahəsindəki layihələri haqqında da məlumat vermişdir. Mehriban xanım İSESKO-ya üzv olan bütün dövlətlərin birinci xanımlarının Bakıda forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Təklif məmnunluqla qarşılanmış və qəbul edilmişdir.

Martın 13-də Azərbaycanın birinci xanımı Qətərin birinci xanımının müşayiəti ilə "Təhsil şəhərciyi"ndə olmuşdur. Yüksək qonağı hörmətlə qarşılayan şəhərciyin direktoru xanım Hana Kanan işləri barədə ümumi məlumat vermiş, öz ixtiraları ilə seçilmiş tələbələri təqdim etmişdir.

Şeyxa Muzanın rəhbərlik etdiyi Fondun himayəsi ilə bir neçə il bundan əvvəl yaradılmış "Təhsil şəhərciyi"ndə ABŞ, İngiltərə və digər aparıcı dövlətlərin məşhur universitetləri öz nümayəndəliklərini açmışdır və burada birgə elmi tədqiqat işləri aparırlar. Mehriban Əliyeva tələbə və şagirdlərin ixtiraları ilə, görmə qabiliyyəti zəif olan uşaqların yazmaq və oxumaq bacarıqlarının inkişaf etdirilməsi üçün istifadə edilən yeni üsullarla yaxından tanış olmuşdur.

***"Azərbaycan" qəzeti,***
***14 mart 2007-ci il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ

Azərbaycan Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin aprelin 2-də Fransaya səfərə gəlmişdir.

Mehriban xanım Əliyeva həmin gün Fransa Baş nazirinin iqamətgahında hökumət başçısı Dominik de Villpenin xanımı Marillor de Villpenlə görüşmüşdür.

Baş nazirin xanımı Mehriban xanım Əliyevanı iqamətgahın qarşısında səmimiyyətlə qarşılamışdır.

Xanım de Villpen Mehriban xanım Əliyevaya Parisin ən qədim və möhtəşəm memarlıq abidələrindən olan Matinyon sarayının tarixi barədə danışmış, hörmətli qonağı ayrı-ayrı salonlarla tanış etmişdir.

Sonra Mehriban xanım iqamətgaha daha əzəmətli görkəm verən bağdakı nadir ağac növlərinə, tarixi abidələrə də baxmışdır.





İqamətgahla ümumi tanışlıqdan sonra Marillor de Villpen ilə Mehriban Əliyevanın görüşü olmuşdur.

Görüş zamanı Baş nazirin xanımı rəhbərlik etdiyi Cəmiyyətin ölkədəki əlil uşaqlara, onların təhsilinə göstərdiyi qayğıdan, bu qəbildən olan uşaqların ümumi orta təhsil almaları üçün Cəmiyyətin hazırladığı xüsusi proqram, xəstə uşaqların təhsilinin normal şagirdlərin bilik səviyyəsinə çatdırılması üçün görülən işlər barədə məlumat vermişdir.

Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətinin bu sahəyə yaxınlığını xatırlatmış, Fondun bu istiqamətdə xüsusi proqramının olduğunu, valideyn qayğısından məhrum uşaqların təlim-tərbiyəsinə hərtərəfli qayğı göstərildiyini bildirmiş və bu sahədə təcrübə mübadiləsinin xüsusi əhəmiyyətini vurğulamışdır. Səmimilik şəraitində keçən görüşdən sonra Fransa Baş naziri xanımının adından Mehriban Əliyevanın şərəfinə nahar verilmişdir.

*"Azərbaycan" qəzeti,*
*3 aprel 2007-ci il*



## FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLE İLƏ GÖRÜŞ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin aprelin 2-də Fransa Senatının sədri Kristian Ponsöle ilə görüşmüşdür.

Senatın binası önündə Mehriban xanımı qarşılayan cənab Kristian Ponsöle Parisdə onunla yenidən görüşməsindən böyük məmnunluq duyduğunu vurğulamışdır.

Sonra Senatın sədri ilə Mehriban Əliyevanın görüşü olmuşdur. Cənab Kristian Ponsöle Senatın dəvətini qəbul etdiyi üçün Mehriban xanıma minnətdarlıq etmiş, Azərbaycanla Fransa arasında ikitərəfli münasibətlərin son dövrdə daha da inkişaf etməsindən razı qaldığını bildirmişdir. O, Prezident İlham Əliyevin bu ilin yanvarında Fransaya dövlət səfərini xatırladaraq demişdir ki, hazırda iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələr çox sürətlə inkişaf etməkdədir. Kristian Ponsöle Fransanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həllində maraqlı olduğunu xüsusi vurğulamışdır.

Mehriban Əliyeva dövlətimizin başçısının ən xoş arzularını Senatın sədrinə çatdırmış, Azərbaycan Prezidentinin iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə inkişafından məmnunluğunu söyləmişdir.





Daha sonra Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətindən danışmış, son vaxtlar Azərbaycanın YUNESKO ilə əməkdaşlığa xüsusi diqqət yetirdiyini, müxtəlif layihələrin həyata keçirilməsində qurumla yaxşı əlaqələr yaradıldığını xatırlatmış, bu əməkdaşlığın daha da dərinləşməsi və inkişaf etdirilməsi üçün bütün səylərin davam etdiriləcəyini bildirmişdir.

Azərbaycanın birinci xanımı cənab Ponsöleni ölkəmizə səfərə dəvət etmişdir. Senatın sədri dəvəti məmnunluqla qəbul etmiş və yaxın vaxtlarda ölkəmizə gələcəyini demişdir.Senatın Fransa-Qafqaz qrupunun sədri Ambruaz Düpon görüşdə iştirak etmişdir.

Görüşdən sonra Kristian Ponsöle Mehriban xanım Əliyevanı Senatın binasının tarixi, ayrı-ayrı salonları, keçmiş tarixdən xəbər verən əşyalarla, parkla tanış etmiş, dünyanın müxtəlif ölkələrindən gətirilərək parkda əkilmiş gül və bəzək kolları, nadir ağac növləri barədə məlumat vermişdir.

Senatın binası ilə tanışlıqdan sonra Kristian Ponsöle Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirmiş, Azərbaycanın birinci xanımının şərəfinə ziyafət vermişdir.

***"Azərbaycan" qəzeti,***
***4 aprel 2007-ci il***

## AZƏRBAYCANIN BİRİNCİ XANIMINA "SİVİLİZASİYALARARASI DİALOQUN QLOBAL MİQYASDA TƏŞVİQİNƏ GÖRƏ" MÜKAFATI TƏQDİM EDİLMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İslam Konfransı Təşkilatı Gənclər Forumunun "Sivilizasiyalararası dialoqun qlobal miqyasda təşviqinə görə" mükafatına layiq görülmüşdür.

2007-ci ilin aprelin 27-də Forumun rəhbəri Əli Sarıkaya mükafatı təqdim etmişdir. O demişdir ki, bu qərar qəbul edilərkən Mehriban xanımın son illərdəki genişmiqyaslı ictimai fəaliyyəti, Heydər Əliyev Fondunun prezidenti kimi təhsil, səhiyyə, mədəniyyət, ekologiya və digər sahələrdə həyata keçirdiyi mühüm layihələri, YUNESKO və İSESKO kimi beynəlxalq təşkilatlarda fəal işi, bir sözlə, sivilizasiyalararası dialoq və əməkdaşlığa, fərqli mədəniyyətlərin qovuşmasına dəyərli töhfə verməsi əsas götürülmüşdür. Azərbaycanın birinci xanımı məhz belə səmərəli fəaliyyətinə görə Forumun Rəyasət heyətinin 2006-cı il sentyabrın 2-də keçirilmiş iclasının qərarı ilə bu mükafata layiq görülmüşdür.

Xoş sözlərə, dəyərli mükafata görə təşəkkür edən Mehriban xanım Əliyeva islam dünyası gənclərinin ictimai-siyasi proseslərdə daha yaxından iştirakının əhəmiyyətini vurğulamış, Heydər Əliyev Fondunun gənclərin hər bir təşəbbüsünə yardımçı olacağını bildirmişdir.

***"Azərbaycan" qəzeti,***
***28 aprel 2007-ci il***





## HEYDƏR ƏLİYEV FONDU VƏ AZƏRBAYCANDAKI KATOLİK DİNİ İCMASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR

2008-ci ilin sentyabrın 26-da Heydər Əliyev Fondu və Azərbaycandakı Katolik Dini İcması arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Bu münasibətlə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıdakı Roma Katolik Kilsəsinin başçısı Yan Çapla ilə görüşmüşdür.

Qonağı Heydər Əliyev Fondunda salamlamaqdan məmnun olduğunu bildirən Mehriban xanım xalqımızın tolerantlığından söhbət açaraq xüsusi vurğuladı ki, müxtəlif dinlərə mənsub olan insanlar əsrlər boyu Azərbaycanda dostluq şəraitində yaşamışlar. Azərbaycanda insanlara dininə, dilinə, milliyyətinə, irqinə görə fərq qoyulmur. Bu, həm Azərbaycan xalqının, həm də dövlətin digər dinlərə və millətlərə olan münasibətidir.

Heydər Əliyev Fondunun ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verdiyini bildirən Mehriban Əliyeva dedi ki, Fondun "Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində kilsənin yenidən qurulması, yəhudi uşaqlar üçün təhsil kompleksinin inşası həyata keçirilir.

Katolik məzhəbinin Azərbaycanda qədim tarixi olduğunu deyən Fondun prezidenti 2002-ci ildə Roma Papası II İoann Pavel ölkəmizdə səfərdə olarkən Bakıda Katolik kilsəsinin tikilməsi barədə qərar qəbul edildiyini, artıq həmin kilsənin fəaliyyət göstərdiyini vurğuladı.

Mehriban xanım imzalanacaq memorandumun Heydər Əliyev Fondu ilə Katolik Dini icması arasındakı əlaqələrdə yeni mərhələ olacağına əminliyini söylədi.

Heydər Əliyev Fondu ilə əməkdaşlığa böyük önəm verdiklərini bildirən Bakıdakı Roma Katolik Kilsəsinin başçısı Yan Çapla Azərbaycandakı tolerantlığın yüksək səviyyəsini, müxtəlif dinlərə sitayiş edən insanların dinc, mehriban şəraitdə yaşamasını xüsusi vurğuladı.

Sonra Mehriban xanım Əliyeva və Yan Çapla Heydər Əliyev Fondu və Azərbaycandakı Roma Katolik Dini İcması arasında əməkdaşlıq memorandumu imzaladılar.

Sənədə əsasən, tərəflər müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələri gerçəkləşdirəcək, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlər həyata keçirəcəklər.

Bu sahədə artıq ilk addımlar atılmaqdadır. İlkin əməkdaşlıq Bakıdakı Müqəddəs Məryəm kilsəsinin yenidən qurulmasını nəzərdə tutur.

***"Azərbaycan" qəzeti,***
***27 sentyabr 2008-ci il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ POLŞANIN "XİDMƏTLƏRƏ GÖRƏ" BÖYÜK KOMANDOR XAÇI ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif olunmuşdur. 2009-cu ilin sentyabrın 14-də Heydər Əliyev Fondunda ordenin təqdimetmə mərasimi olmuşdur.

Polşanın ölkəmizdəki səfiri Kşiştof Krayevski bildirdi ki, Prezident Lex Kaçinski Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə Mehriban xanımı bu ordenlə təltif etmişdir.

Azərbaycanın birinci xanımının fəaliyyətinin Polşada yaxşı məlum olduğunu qeyd edən diplomat dedi ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti hər kəsə nümunədir.

Kşiştof Krayevski Heydər Əliyev Fondunun 5 illik fəaliyyətini yüksək qiymətləndirdi. Sonra diplomat Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordenini Mehriban xanım Əliyevaya təqdim etdi.





Fəaliyyətinə verilən yüksək qiymətə görə Polşa Prezidentinə minnətdarlığını bildirən Mehriban xanım Əliyeva bu ordenə layiq görülməsinin onun üçün böyük şərəf olduğunu dedi.

Ölkələrimiz və xalqlarımız arasında tarixən dostluq əlaqələrinin mövcud olduğunu diqqətə çatdıran Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, dövlətlərimiz müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr müxtəlif sahələrdə daha da inkişaf etmişdir.

Mehriban xanım Azərbaycan-Polşa münasibətlərinin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin böyük rol oynadığını vurğuladı.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb"layihəsi çərçivəsində Samux rayonunun Sarıqamış kənd orta məktəbinin tikintisinə Polşanın göstərdiyi kömək, habelə Azərbaycanda "Şopen ili"nə Heydər Əliyev Fondunun verdiyi dəstək yüksək qiymətləndirildi.

*"Azərbaycan" qəzeti,*
*15 sentyabr 2009-cu il*

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA PREZİDENTİNİN SƏRƏNCAMI İLƏ "ŞƏRƏF LEGİONU" ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilmişdir.

Fransa dövlətinin başçısı Nikola Sarkozi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda bu barədə məlumat verərək bildirmişdir ki, Mehriban xanım Əliyeva bu ali mükafata Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə layiq görülmüşdür.

Bu xoş xəbəri dövlətimizin başçısına çatdırmaqdan məmnun olduğunu bildirən Nikola Sarkozi Prezident İlham Əliyevə xüsusi hörmət və ehtiramı olduğunu vurğulamışdır.

Dünyanın məşhur ictimai-siyasi, dövlət, mədəniyyət və elm xadimlərinə, sərkərdələrə verilən "Şərəf Legionu" ordeni 1802-ci ildə imperator Napoleon Bonapart tərəfindən təsis edilmişdir. Fransanın ən yüksək dövlət mükafatı olan "Şərəf Legionu" ordeninin 5 dərəcəsi vardır. On bir nəfərdən ibarət çox nüfuzlu Mükafat Komissiyası ordenə təqdim olunmuş şəxslər barədə məlumatları araşdırdıqdan sonra onun təqdim edilməsinə icazə verilir.

Fransa Respublikası və onun xalqı qarşısında xüsusi xidmətləri olan şəxslərə verilən "Şərəf Legionu" ordeninin zabit dərəcəsinə indiyədək dünyanın bir çox görkəmli insanları layiq görülmüşlər.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Fransanın ali ordeninə layiq görülməsi bir daha sübut edir ki, Azərbaycanın birinci xanımının ictimai, mesenatlıq fəaliyyəti, təhsil və mədəniyyət sahələrinin inkişafına verdiyi əvəzsiz töhfələr təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də sonsuz hörmət və ehtiram qazanmışdır.

*"Azərbaycan" qəzeti,*
*16 fevral 2010-cu il*







## MOSKVADA AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ YENİDƏN BƏRPA ETMƏSİNİN 20-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLMİŞDİ

2011-ci ilin mayın 17-də Moskvada Azərbaycan Respublikasının müstəqilliyini yenidən bərpa etməsinin 20-ci ildönümünə həsr olunan "Azərbaycan gecəsi" adlı təntənəli mərasim keçirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü, ölkəmizin Rusiyadakı səfirliyinin dəstəyi ilə baş tutan və Dövlət Kreml Sarayında keçirilən mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Rusiyanın birinci xanımı Svetlana Medvedeva iştirak etmişlər.

Kremlin Uspensk kilsəsinin önündə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı Rusiyanın birinci xanımı Svetlana Medvedeva qarşıladı.

Sonra birinci xanımlar arasında görüş oldu.

Görüşdə Svetlana Medvedeva Mehriban xanım Əliyevanı "Eurovision-2011"

müsabiqəsində Azərbaycanın inamlı qələbəsi münasibətilə təbrik etdi. Rusiyanın birinci xanımı dedi ki, Azərbaycan duetinin qələbəsi bu ölkədə musiqi mədəniyyətinin yüksək səviyyəsindən, Azərbaycana beynəlxalq marağın artmasından xəbər verir.

RF Prezidentinin xanımı Azərbaycanda sayı təxminən 130 min nəfərə çatan həmvətəninin yaşaması üçün əlverişli şəraitin yaradılması istiqamətində respublika rəhbərliyinin səylərini vurğuladı. O, bu ölkədə rus dilində təhsil almaq imkanlarına görə Azərbaycan tərəfinə minnətdarlığını bildirdi.

Birinci xanımlar azərbaycanlı tələbələrin Rusiyada təhsili məsələlərini də müzakirə etdilər. Bildirildi ki, Azərbaycan tolerant ölkədir, burada müxtəlif dinlərin nümayəndələri əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda Rus Pravoslav Kilsəsinin uğurla fəaliyyət göstərdiyi də vurğulandı.

Sonra Azərbaycanın və Rusiyanın birinci xanımları Uspensk kilsəsinin sərgi salonunda "Karl Faberje və daşoyma ustaları. Rusiyanın əlvan dəfinəsi" adlı ekspozisiyaya baxdılar. Ekspozisiyada görkəmli rus zərgəri Karl Faberjenin şah əsərləri nümayiş etdirilir. Bütün dünyada tanınan zərgər Karl Faberje 1846-cı ildə Sankt-Peterburqda zərgər ailəsində dünyaya gəlmişdir. Faberje Zərgərlik Evi rus çar ailəsi üçün özünəməxsus tərzdə zinət əşyalarının istehsalı sayəsində məşhurlaşmışdır. Bu zərgərlik məmulatları virtuoz hazırlanma tərzi və ideyanın orijinallığı ilə seçilir.

Mehriban Əliyeva və Svetlana Medvedeva sərgidə Faberje ilə eyni dövrdə yaşayan və imperator sarayı üçün zinət əşyaları hazırlayan zərgərlərin, Ural sənətkarlarının işləri ilə də tanış oldular. Ekspozisiyada İmperator, Yekaterinburq, Peterqof və Kolıvan fabriklərində istehsal edilən əsərlər də nümayiş etdirilir.

Azərbaycanın birinci xanımı burada Xatirə kitabına ürək sözlərini yazdı.

Dövlət Kreml Sarayında "Azərbaycan gecəsi" çərçivəsində Heydər Əliyev Fondunun ən uğurlu layihələrindən olan "Azərbaycan" nəşrinin rus dilindəki versiyasının təqdimatı oldu. Oxuculara Odlar yurdu Azərbaycan haqqında müfəssəl məlumat vermək məqsədilə ərsəyə gətirilən nəşrdə toplanan 1000-dən çox şəkil xalqımızın qədim tarixini, ənənələrini, mədəniyyətini, etnoqrafik xüsusiyyətlərini əks etdirməklə yanaşı, ölkəmizin keçmişini və bu gününü, müasir simasını da təcəssüm etdirir. Bu kitab oxucuda ölkəmiz haqqında əyani təsəvvür yaratmaq, onu tanımaq və sevmək baxımından çox böyük əhəmiyyətə malikdir. Kitabda paytaxt Bakı ilə bərabər, bütün bölgələr barədə şəkillər və materiallar əksini tapmışdır. Ölkəmizin qədim tarixinin, memarlığının, mədəniyyətinin bütün tərəfləri ilə əks olunduğu "Azərbaycan" nəşri ilə tanışlıq respublikamız və paytaxt Bakı haqqında dolğun təəssürat yaratmaqla onun mədəniyyətlər və sivilizasiyaların qovuşuğunda yerləşməsindən xəbər verir.

Bu gecəyə Azərbaycan xalçalarının sərgisi də xüsusi ovqat gətirdi. Coğrafi mövqeyinə, naxış kompozisiyasına, rəng həlli və texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaçılıq





məktəbinin bütün istiqamətlərinin təmsil olunduğu bu sərgidə 80-dən çox xalça nümunələri nümayiş etdirilir. Sərgidə yer alan Qarabağ xalçaçılıq məktəbinin nümunələri Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha hamının diqqətinə çatdırır.

Bu gün Azərbaycanda Xalçaçılıq məktəbi özünün inkişaf dövrünü yaşayır. Xalqımızın milli sərvəti olan bu sahənin inkişafı ilə bağlı ölkədə həyata keçirilən tədbirlər, ilk növbədə, bu qədim el sənətinin yaşadılmasına göstərilən diqqətdən irəli gəlir. Hazırda özünün yeni inkişaf mərhələsinə daxil olan xalçalarımız Azərbaycan mədəniyyətinin ən böyük hamisi olan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə daha da zənginləşir.

Azərbaycan xalçalarının Dövlət Kreml Sarayında nümayişi böyük maraqla qarşılandı. Xalqımızın milli kimliyinin, soydaşlarımızın arzu və istəklərinin əks olunduğu bu xalçalar hər bir azərbaycanlının qəlb döyüntüsünü Moskva auditoriyasına uğurla çatdırdı.

Sonra Azərbaycan Respublikasının müstəqilliyini yenidən bərpa etməsinin 20-ci ildönümünə həsr olunan "Azərbaycan gecəsi" adlı təntənəli mərasim başladı. Mərasimi açan Rusiyanın tanınmış teleaparıcısı Vladimir Molçanov bu tədbirin əhəmiyyətini qeyd etdi. O, "Eurovision-2011" müsabiqəsində Azərbaycan təmsilçiləri Eldar Qasımov və Nigar Camalın möhtəşəm qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə çıxış etdi. Tədbirə gələnləri salamlayan Mehriban Əliyeva Azərbaycan gecəsində iştirak etdiyinə görə Rusiya Prezidentinin xanımı Svetlana Medvedevaya xüsusi minnətdarlığını bildirdi. Azərbaycanın birinci xanımı "Eurovision-2011" mahnı yarışmasında ölkəmizi təmsil edən Eldar Qasımov və Nigar Camal cütlüyünə səs verənlərə təşəkkürünü çatdırdı. Vurğuladı ki, bu günlərdə Azərbaycanda hamı bu qələbə ilə, gənclərimiz və ölkəmiz ilə fəxr edir. Heydər Əliyev Fondunun prezidenti müsabiqədə səsvermə zamanı Azərbaycana ilk 12 balı verən Rusiyaya təşəkkürünü bildirərək qeyd etdi ki, bu, iki ölkə arasındakı əməkdaşlığı bir daha nümayiş etdirir. Azərbaycan dövlətçiliyinin qədim tarixindən danışan Mehriban Əliyeva ölkəmizin həmişə Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirdiyini vurğuladı. Bildirdi ki, Azərbaycanda həmişə bütün xalqlar sülh şəraitində yaşamışlar. Tolerantlığın əsasları ölkəmizdə qədim dövrlərdən belə qoyulmuşdur.

Mehriban xanım Əliyeva Azərbaycanın müsəlman Şərqində ilk parlament respublikası olduğunu, burada ilk opera və baletin yarandığını bildirdi, qazanılan uğurları qeyd etdi. Sovet dövründə neft sahəsinin inkişafı, faşizm üzərində qələbənin qazanılmasında Azərbaycanın rolu barədə danışan Mehriban Əliyeva dedi ki, biz ölkəmizin əldə etdiyi nailiyyətlərlə fəxr edirik.

Azərbaycanın birinci xanımı Azərbaycan-Rusiya əlaqələrinə toxundu, bu gün ölkəmizdə orta və ali təhsilin ana dili ilə yanaşı, rus dilində də tədris olunduğunu, Bakı Slavyan Universitetinin, Lomonosov adına Moskva Dövlət Universitetinin filialının, Rus Dram Teatrının fəaliyyət göstərdiyini bildirdi.

Azərbaycanın birinci xanımı ötən il Bakıda Azərbaycan-Rusiya humanitar forumunun keçirildiyini, bu il artıq Beynəlxalq humanitar forumun təşkil olunacağını diqqətə çatdırdı.

"Mədəni müxtəliflik qədim mədəniyyət və tarixə malik Azərbaycan xalqı üçün ənənəvidir", – deyən Mehriban xanım Əliyeva müstəqil dövlət kimi ölkəmizin 20 il mövcud olduğunu və bu qısa vaxtda böyük uğurların qazanıldığını vurğuladı. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər haqqında danışan Heydər Əliyev Fondunun prezidenti ölkəmizin irimiqyaslı layihələr həyata keçirdiyini, dövlət siyasətinin sosialyönümlü olduğunu, 900 min yeni iş yerinin yaradıldığını, yoxsulluğun səviyyəsinin azaldıldığını, ölkədə yeni təhsil və səhiyyə ocaqlarının inşa edildiyini, parkların, teatrların yaradıldığını və yenidən qurulduğunu diqqətə çatdırdı. Bildirdi ki, yalnız bu il Bakıda beşulduzlu altı hotelin açılması planlaşdırılır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Azərbaycanın birinci xanımı vurğuladı ki, ölkəmiz bu məsələnin Beynəlxalq hüquq normaları çərçivəsində həll olunacağına və ərazi bütövlüyümüzün bərpa ediləcəyinə ümid edir. "Bu gün bizim vizit kartımız zəngin mədəni irsimizdir", deyən Mehriban Əliyeva hamını Azərbaycana dəvət etdi. "Sizi görmək biz azərbaycanlılara həmişə xoş olacaq", deyən Azərbaycanın birinci xanımı Rusiya xalqına sülh, əminamanlıq və firavanlıq arzuladı.

Daha sonra tədbirdə ölkəmizin incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etdilər. Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürası salona Azərbaycan ovqatı gətirdi.

Mərasimdə Azərbaycan musiqisinin ən gözəl nümunələri səsləndi, olduqca tələbkar auditoriyanı öz sehrinə saldı. Şirzad Fətəliyevin balabanda orkestrin müşayiəti ilə ifa etdiyi "Sən gəlməz oldun mahnısı, xanəndə Təyyar Bayramovun çıxışı, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından parçalar Azərbaycan adlı məmləkətin sahib olduğu və xalqımızın min illərdir qoruyub saxladığı qiymətli xəzinəni rus tamaşaçısına uğurla çatdırdı.

İsfar Sarabskinin ifa etdiyi "Novruz" caz kompozisiyası, xanəndə Mirpaşa Şükürovun ifasında "Qarabağ şikəstəsi" də mərasimə xüsusi ovqat qatdı.

Qara Qarayevin "Vals"ı, "Küçələrə su səpmişəm" məşhur xalq mahnısı, Natiq Şirinovun "Abşeron ritmləri"nin nağaraçalanlar ansamblının ifasında çıxışı və digər çıxışlar maraqla qarşılandı.

Konsertdən sonra Azərbaycanın və Rusiyanın birinci xanımları arasında görüş oldu.

Rusiyanın birinci xanımı Svetlana Medvedeva möhtəşəm gecəyə görə Mehriban Əliyevaya minnətdarlığını bildirərək dedi: "Zənnimcə, bu gecə xalqlarımız arasında dostluğun möhkəmlənməsinə xidmət edəcəkdir. Mədəniyyətinizə həsr olunmuş gecə, həqiqətən, mənim xoşuma gəldi". O, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, gənc ifaçıların çıxışlarını yüksək qiymətləndirdi.





Svetlana Medvedeva səmərəli fəaliyyətə, mədəniyyətə və gənc nəslə göstərilən diqqət və qayğıya görə Azərbaycanın birinci xanımına minnətdarlığını bildirdi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbirdə iştirakına görə Svetlana Medvedevaya minnətdarlığını bildirərək dedi: "Rusiya paytaxtında belə bir tədbirin təşkil edilməsi barədə qərarın qəbul edildiyi ilk gündən biz burada dəstək və anlayış gördük, özümüzü evimizdəki kimi hiss etdik. Bu xoş münasibətə görə mən bütün Rusiya xalqına minnətdarlığımı bildirmək istəyirəm. Qonaqpərvərliyinizə görə çox sağ olun. Şadam ki, bu gecə alındı. Siz tamamilə haqlısınız. Bu gecə ölkələrimiz arasında dostluğun və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir. Şəxsi dəstəyinizə görə sizə bir daha böyük minnətdarlığımı bildirirəm".

Təntənəli gecədən sonra qonaqlara Azərbaycan milli mətbəxinin nümunələri təqdim olundu.

***"Azərbaycan" qəzeti,***
***19 may 2011-ci il***



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI PARİSDƏ BEYNƏLXALQ KONQRESDƏ İŞTİRAK ETMİŞDİR

2011-ci ilin sentyabrın 15-də Parisdə terror qurbanlarına həsr olunan 7-ci Beynəlxalq konqres keçirilmişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva konqresin açılışında iştirak etmişdir.

Birinci xanım Mehriban Əliyevanı Parisin 7-ci rayonunda konqresin keçirildiyi Hərbi məktəbdə Fransa Terror Qurbanları Assosiasiyasının Baş direktoru Qiyyom dö Sen Mark qarşıladı.

Sonra dünyada baş verən terror hadisələri qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Fransa Prezidenti Nikola Sarkozinin dəstəyi və Fransa Terror Qurbanları Assosiasiyası, eləcə də Beynəlxalq Terror Qurbanları Təşkilatının təşəbbüsü ilə keçirilən konqresi Qiyyom dö Sen Mark açaraq iştirakçıları salamladı. Diqqətə çatdırıldı ki, Avropa Komissiyası, Fransanın Xarici və Avropa İşləri, Müdafiə, Ədliyyə, Daxili İşlər Nazirlikləri və Paris meriyası ilə yanaşı, Heydər Əliyev Fondu da konqresin tərəfdaşları sırasındadır.

Azərbaycanın bu konqresə xüsusi maraq göstərdiyini deyən Qiyyom dö Sen Mark vurğuladı





ki, tədbirdə Azərbaycandan olan terror qurbanlarının iştirakı məhz Heydər Əliyev Fondunun dəstəyi ilə baş tutub. Ölkəmizə səfər etdiyini və terror qurbanları ilə görüşdüyünü deyən Fransa Terror Qurbanları Assosiasiyasının Baş direktoru Azərbaycanda da belə bir təşkilatın yaradıldığını yüksək qiymətləndirdi.

Beynəlxalq Terror Qurbanları Təşkilatının sədri Karlos Romero tədbirin terror qurbanları üçün böyük əhəmiyyət daşıdığını dedi və əlavə etdi ki, terrorla mübarizədə bütün ölkələr, hökumətlər və mülki şəxslər səyləri birləşdirməli, bütün bəşəriyyət üçün təhlükə olan bu bəla ilə mübarizə əlaqələndirilmiş formada aparılmalıdır.

ABŞ-ın Fransa və Monakodakı səfiri Çarlz Rivkin 2001-ci il 11 sentyabr hadisələrindən danışdı. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbirdə çıxış etdi.

*"Azərbaycan" qəzeti,*
*16 sentyabr 2011-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İTALİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, xoşməramlı səfir Mehriban Əliyeva 2011-ci ilin oktyabrın 14-də İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, senator xanım Rossana Boldinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın birinci xanımı İtaliya nümayəndə heyətini səmimiyyətlə salamlayaraq onları Azərbaycanın paytaxtında görməkdən məmnun olduğunu bildirmişdir. Mehriban xanım Əliyeva Fondun fəaliyyətindən danışmışdır. Birinci xanım demişdir ki, Fond Azərbaycanda və onun hüdudlarından kənarda müxtəlif layihələr həyata keçirmişdir.

Dostluq qrupunun Azərbaycana səfərini yüksək qiymətləndirən Mehriban xanım Əliyeva bu səfərin iki ölkə arasındakı əlaqələrin inkişafına töhfə verəcəyindən əminliyini vurğulamışdır. Qonaqların işinə uğur diləyən Heydər Əliyev Fondunun prezidenti səfər çərçivəsində onları Azərbaycan xalqının fəxarət mənbəyi olan Bakı ilə yaxından tanış olmağa dəvət etmişdir.

İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, senator xanım Rossana Boldi Heydər Əliyev Fondunun prezidentinə görüş üçün təşəkkürünü bildirmişdir. Xanım R.Boldi demişdir ki, Bakıya 9 nəfərlik nümayəndə heyəti ilə gəlmələri İtaliya hökumətinin Azərbaycana verdiyi yüksək dəyərin bariz nümunəsidir.

***"Azərbaycan" qəzeti,***
***15 oktyabr 2011-ci il***





## BAKIDA HEYDƏR ƏLİYEV FONDU İLƏ BMT-nin İNKİŞAF PROQRAMI ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

2011-ci ilin oktyabrın 21-də "Hilton Baku" hotelində Heydər Əliyev Fondu ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "2012-ci ildə keçiriləcək Rio+20 konfransının hazırlıq məqsədilə Azərbaycan gənclərinin səfərbər edilməsi" adlı Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Tədbirdə iştirak edən BMT-nin Azərbaycan üzrə rezident-əlaqələndiricisi Fikrət Akçura bu prosesə verdiyi dəstəyə görə Azərbaycanın birinci xanımı, xoşməramlı səfir Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür etdi. Bu tədbirin milli mövqeyinin bəyan edilməsi üçün əla fürsət olduğunu deyən Fikrət Akçura Azərbaycan gəncliyinin nümayəndəsi Leyla xanım Əliyevanın elan etdiyi Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoqun xüsusi əhəmiyyətini vurğuladı.

Gələn il Rio-de-Janeyroda keçiriləcək konfransa qədər əməkdaşlıq əlaqələrinin daha da genişlənəcəyinə əminliyini bildirən BMT-nin Azərbaycan üzrə rezident-əlaqələndirici bu ilin noyabrında gənclər üçün təşkil olunacaq beynəlxalq düşərgənin yaradılması ideyasının da böyük maraq doğurduğunu bildirdi.

Azərbaycanın hər zaman ətraf mühitlə bağlı məsələlərdə təşəbbüskarlıq göstərdiyini deyən Fikrət Akçura Sovet dövründə böyük ekoloji problemlərlə üzləşən bu ölkənin hazırda ekoloji tarazlığın qorunması işinə böyük vəsait xərclədiyini vurğuladı. O həmçinin Azərbaycanın dünyada dayanıqlı inkişafla bağlı xüsusi mövqe nümayiş etdirdiyini diqqətə çatdırdı.

***"Azərbaycan"qəzeti,***
***22 oktyabr 2011-ci il***



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA SENATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2012-ci ilin fevralın 7-də Fransa-Qafqaz dostluq qrupunun sədr müavini, Fransa-Azərbaycan İşçi Qrupunun rəhbəri senator xanım Natali Qulenin başçılıq etdiyi senatorlardan ibarət nümayəndə heyəti ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Fransa Senatında qondarma "erməni soyqırımı"nın inkar edilməsinə görə cəza nəzərdə tutan qanunun qəbul edilməsinin Azərbaycan cəmiyyətində narazılıq doğurduğunu bildirmişdir. Azərbaycanın birinci xanımı bu qanunun müzakirəsi zamanı tutduqları ədalətli mövqeyə görə senatorlara təşəkkür etmiş, ümidvar olduğunu bildirmişdir ki, Konstitusiya Şurası demokratiyaya və söz azadlığına zidd olduğuna görə bu qanunun qüvvəyə minməsinə imkan verməyəcəkdir.

Xanım Natali Qule göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmişdir.

Fransalı senator ümidvar olduğunu bildirmişdir ki, o və dostluq qrupundakı digər senatorların ümumi səyləri sayəsində bu istiqamətdə aparılan işlər nəticəsini verəcək, iki ölkə arasında münasibətlər bundan sonra da inkişaf edəcəkdir.

***"Azərbaycan" qəzeti,***
***8 fevral 2012-ci il***








## YUNESKO-da XOŞMƏRAMLI SƏFİRLƏRİN İLLİK TOPLANTISI KEÇİRİLMİŞDİR

2012-ci ilin oktyabrın 16-da Parisdə YUNESKO-nun mənzil-qərargahında xoşməramlı səfirlərin illik toplantısı keçirilmişdir. Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva toplantıda iştirak etmişdir.

YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısı təşkilatın təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə fəaliyyətinin əlaqələndirilməsi, yeni istiqamətlərin müəyyən olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Builki toplantı 2012-ci ildə dünyada təhsilin vəziyyətini öyrənmək üçün həyata keçirilən qlobal monitorinqin hesabatına həsr olunmuşdur.

Toplantıda çıxış edən YUNESKO-nun baş direktoru İrina Bokova rəhbərlik etdiyi təşkilatın prioritetləri və strategiyası barədə danışdı. Bildirdi ki, YUNESKO-nun yeni gündəliyinə "mədəni dünya və davamlı inkişaf" strategiyasının həyata keçirilməsi də daxildir. Bu sırada təhsil, elm, mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsi, sıx əməkdaşlıq mühitinin yaradılması böyük əhəmiyyətə malikdir. "Dünyada milyonlarla insanın təhsil hüququndan məhrum olduğunu

nəzərə alsaq, o zaman bu sahənin inkişafının müasir günümüzdə nə qədər böyük əhəmiyyətə malik olduğunu görərik", – deyən İrina Bokova bu sırada qızların təhsilinin daha çox diqqət mərkəzində saxlanmasının vacibliyini vurğuladı.

YUNESKO-nun 22 xoşməramlı səfirinin və dünyanın müxtəlif ölkələrindən dəvət edilən onlarla sülhməramlı artistin iştirak etdiyi toplantıda təhsil və onun inkişafı ilə bağlı müzakirələr aparıldı.

Xoşməramlı səfirlər çıxışlarında dünyada təhsilin inkişafını nəzərdə tutan və YUNESKO tərəfindən irəli sürülən təşəbbüsün dəstəklənməsinin əhəmiyyətinə toxunaraq ölkələrində bu məqsədlə həyata keçirilən layihələrdən danışdılar.

Xoşməramlı səfirlər öz nüfuz və təsir dairələrindən istifadə edərək dünyada YUNESKO-nun idealları naminə təşkilatın fəaliyyətini dəstəkləyirlər. Onlar YUNESKO-nun konkret proqramlarında iştirak edərək təşkilatın həyata keçirdiyi layihələrə mühüm töhfələr verirlər. YUNESKO-nun xoşməramlı səfirləri dünyada savadsızlığın azaldılması və digər əhəmiyyətli kampaniyalarda fəallıq göstərirlər. Bu ümumdünya məqsədlərinin reallaşmasında Azərbaycan da yaxından iştirak edir. Təsadüfi deyil ki, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri də təhsilin inkişafıdır.

***"Azərbaycan" qəzeti,***
***17 oktyabr 2012-ci il***







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA PAKİSTANIN ALİ MÜKAFATI TƏQDİM OLUNMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü ilin martın 15-də Pakistan parlamentinin komitə sədri, Azərbaycan-Pakistan parlamentlərarası dostluq qrupunun üzvü xanım Rubina Saadat Qaimxani ilə görüşmüşdür.

Qonağı Bakıda görməkdən məmnun olduğunu söyləyən Mehriban xanım Əliyeva Azərbaycan ilə Pakistan arasındakı sıx dostluq münasibətlərinin səviyyəsindən razılıq ifadə etmişdir. Bildirilmişdir ki, ölkələrimiz bütün sahələrdə əməkdaşlıq etməklə yanaşı, həm dövlət, həm parlament, həm də qeyri-dövlət təşkilatları səviyyəsində gözəl əlaqələr qurmuşlar. Bu əlaqələr xalqlarımızın da dost olmasına gətirib çıxarmışdır. Ölkələrimiz bütün beynəlxalq qurumlarda bir-birinin mövqeyini daim dəstəkləyirlər.

Azərbaycanın birinci xanımı rəhbərlik etdiyi Heydər Əliyev Fondu barədə də məlumat vermişdir. Mehriban xanım Əliyeva demişdir ki, 10 ildir fəaliyyət göstərən Fond nəinki Azərbaycanda, həm də xarici ölkələrdə humanitar, təhsil, mədəniyyət, səhiyyə, qadınların cəmiyyətə inteqrasiyasının asanlaşdırılması istiqamətində layihələr həyata keçirir. Belə layihələrin bir neçəsi məhz Pakistanın müxtəlif şəhərlərində reallaşdırılmışdır. Fondun təşəbbüsü ilə ölkənin

Müzəffərabad şəhərində qızlar üçün məktəb inşa olunmuş, Peşəvar şəhərindəki göz xəstəxanasının tikintisinə maliyyə yardımı göstərilmiş, müxtəlif adda tibbi və xeyriyyə aksiyaları həyata keçirilmişdir. Birinci xanım Mehriban Əliyeva belə tədbirlərin davam etdirilməsinin iki ölkə arasında əməkdaşlığa töhfə verdiyinə əminliyini bildirmişdir.

Rubina Saadat Qaimxani Heydər Əliyev Fondunun gördüyü işlərdən məlumatlı olduğunu demişdir. Pakistanlı deputat vurğulamışdır ki, onun xalqı göstərilən yardımlara görə Azərbaycan rəhbərliyinə, Heydər Əliyev Fonduna və şəxsən Mehriban xanım Əliyevaya minnətdardır. Xanım Rubina Saadat Qaimxani Prezident Asif Əli Zərdarinin salamlarını və Pakistana dəvətini Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya çatdırmışdır. Mehriban xanım Əliyeva dəvəti məmnunluqla qəbul etdi.

Sonra Mehriban xanım Əliyevaya 2012-ci ilin "Humanizm rəmzi – Dünya miqyasında apardığı xeyirxah fəaliyyətinə, bəşəriyyətin ülvi ideyalarına xidmətinə görə" qadın mükafatı təqdim edilmişdir.

***"Azərbaycan" qəzeti,***
***16 mart 2013-cü il***







## HEYDƏR ƏLİYEV FONDU İLƏ ABŞ ARASINDA TƏHSİL, TƏLƏBƏ MÜBADİLƏSİ, QADIN PEŞƏ MƏKTƏBLƏRİNİN YARADILMASI İSTİQAMƏTİNDƏ FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü ilin martın 15-də ABŞ-ın ölkəmizdəki səfiri Rişard Morninqstar ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun fəaliyyəti barədə məlumat vermiş, beynəlxalq qurumlar, o cümlədən YUNESKO və İSESKO ilə əməkdaşlıq istiqamətləri barədə danışmışdır.

Görüşdə Heydər Əliyev Fondu ilə ABŞ arasında təhsil, tələbə mübadiləsi, qadın peşə məktəblərinin yaradılması istiqamətində fikir mübadiləsi aparılmışdır. Həmin məktəblərdə qızlar müxtəlif peşələrə yiyələnəcəklər.

Qeyd olunmuşdur ki, Azərbaycanda qadın sahibkarlara dövlət dəstəyi göstərilir, onların cəmiyyətdəki rolu, ictimai fəaliyyətinin stimullaşdırılmasına xüsusi diqqət göstərilir.

Səfir Mehriban xanım Əliyevanı qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər layihələr ətrafında da fikir mübadiləsi aparılmışdır.

***"Azərbaycan" qəzeti,***
***16 mart 2013-cü il***



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA LİTVANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ARTURAS JURAUSKAS İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü ilin martın 15-də Litvanın ölkəmizdəki səfiri Arturas Jurauskas ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva qonağı Heydər Əliyev Fondunda salamlamaqdan məmnun olduğunu bildirmiş, ona fəaliyyətində uğurlar arzulamışdır. Bildirilmişdir ki, Heydər Əliyev Fondu Litva ilə əməkdaşlığa böyük önəm verir. Azərbaycanın birinci xanımı keçmiş səfir ilə bu istiqamətdə aparılan işləri xatırlatmış, əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu demişdir.

Görüşdə Azərbaycan ilə Litva arasında təhsil sahəsində aparılan əməkdaşlıq barədə də danışılmışdır. Qeyd olunmuşdur ki, hazırda Litvada 104 azərbaycanlı tələbə təhsil alır. Ötən il bir qrup litvalı gənc də Azərbaycanda səfərdə olmuşdur.

Görüşdə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr barədə məlumat verilmişdir.

***"Azərbaycan" qəzeti,***
***16 mart 2013-cü il***







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA MİLLİ ASSAMBLEYASINDA GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Parisdə səfərdə olan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Əliyeva 2013-cü ilin mayın 21-də Fransa Milli Assambleyasında bir sıra görüşlər keçirmişdir.

Birinci xanım Mehriban Əliyevanı Fransa Milli Assambleyasının sədri Klod Bartolone qarşıladı.

Assambleyanın sədri Klod Bartolone Fransanın böyük dostu olan Mehriban xanım Əliyeva ilə görüşdən məmnun olduğunu qeyd etdi, bu səfərin parlamentlərarası əlaqələrin möhkəmləndirilməsində vacib rol oynayacağını bildirdi. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə Azərbaycan-Fransa əlaqələrinin yüksək səviyyəsindən məmnunluğunu ifadə edən Klod Bartolone Bakıda fransız liseyinin tikilməsində Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi vurğuladı.

Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban xanım Əliyeva ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu, əlaqələrimizin

bütün sahələrdə inkişaf etdiyini bildirdi. Mehriban xanım Əliyeva Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri barədə ətraflı məlumat verdi.

Azərbaycanın birinci xanımı Fransada ölkəmizlə bağlı mədəniyyət tədbirlərinin keçirildiyini, Heydər Əliyev Fondunun bu layihələri davam etdirdiyini diqqətə çatdırdı.

Sonra Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Əliyevanın başçılıq etdiyi deputatlardan ibarət nümayəndə heyəti Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun sədri Tierri Marianni ilə görüşmüşdür.

Görüşdə ölkələrimizin qanunverici orqanları arasında əlaqələrin daha da inkişaf etdirilməsinin, o cümlədən işçi qruplarının fəaliyyətinin intensivləşdirilməsinin əhəmiyyəti qeyd olundu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulandı.

Həmin gün Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan tərəfindən Fransa heyətinin şərəfinə şam yeməyi verilmişdir.

*"Azərbaycan" qəzeti,*
*23 may 2013-cü il*





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, AZƏRBAYCAN-FRANSA PARLAMENTLƏRARASI ƏLAQƏLƏR ÜZRƏ İŞÇİ QRUPUNUN RƏHBƏRİ MEHRİBAN ƏLİYEVA PARİSDƏ İŞGÜZAR GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Parisdə səfərdə olan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Əliyeva 2013-cü ilin mayın 22-də Fransa Milli Assambleyasının Xarici əlaqələr komissiyasının sədri xanım Elizabet Qiqu ilə görüşmüşdür.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı salamlayan Fransa Milli Assambleyasının Xarici əlaqələr komissiyasının sədri Elizabet Qiqu bu səfərin parlamentlərarası əməkdaşlığın gücləndirilməsinə töhfə verəcəyini bildirmişdir. Ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişafından məmnunluğunu ifadə edən xanım E.Qiqu Azərbaycanda gedən sürətli inkişaf proseslərinin maraqla qarşılandığını, Azərbaycanın Avropa təsisatları ilə əlaqələrinin inkişaf etdiyini vurğulamışdır.

Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban xanım Əliyeva ölkəmizin xarici siyasətində Avropaya inteqrasiyasının mühüm yer tutduğunu, Avropa İttifaqı ilə əlaqələrin inkişaf etdiyini diqqətə çatdırmış, ölkəmizin bu təşkilatın "Şərq tərəfdaşlığı" proqramında fəal iştirak etdiyini bildirmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Mehriban xanım Əliyeva münaqişənin beynəlxalq hüquq normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulamışdır.

Azərbaycanın birinci xanımı, Azərbaycan-Fransa parlamentlərarası işçi qrupunun rəhbəri Mehriban Əliyevanın başçılıq etdiyi nümayəndə heyəti Fransa Milli Assambleyasının sessiyasında iştirak etmişdir.

Assambleyanın sədri Klod Bartolone Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı Mehriban Əliyevanı və nümayəndə heyətinin üzvlərini salamlamışdır. Fransa parlamentinin deputatları Azərbaycan nümayəndələrini alqışlarla qarşılamışlar. Azərbaycan nümayəndə heyətinin üzvləri hökumətlə sual-cavab sessiyasını izləmişlər.

*"Azərbaycan" qəzeti,*
*24 may 2013-cü il*

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, MİLLİ MƏCLİSİN AZƏRBAYCAN-FRANSA PARLAMENTLƏRARASI ƏLAQƏLƏR ÜZRƏ İŞÇİ QRUPUNUN RƏHBƏRİ MEHRİBAN ƏLİYEVA MİLLİ ASSAMBLEYADA VƏ SENATDA GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban xanım Əliyeva Milli Assambleyanın Avropa məsələləri komissiyasının sədri xanım Daniel Orua ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər ətrafında fikir mübadiləsi aparılmışdır. Xanım D.Orua Azərbaycan ilə Avropa İttifaqı, o cümlədən Fransa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırmış, eyni zamanda, əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini bildirmiş, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın perspektivlərini yüksək dəyərləndirmişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Avropa strukturları ilə əməkdaşlığın ölkəmizin xarici siyasətində mühüm yer tutduğunu vurğulamışdır. Azərbaycanın Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramında və enerji layihələrində fəal iştirak etdiyini diqqətə çatdıran Mehriban xanım Əliyeva Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışmışdır.

Görüşdə digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

Sonra Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri Ambruaz Düpon tərəfindən Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın başçılıq etdiyi nümayəndə heyətinin şərəfinə işçi nahar verilmişdir.

Parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunan Ambruaz Düpon dostluq qrupları arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır. O, Fransada Azərbaycan mədəniyyətinin təbliğinə həsr olunan tədbirləri yüksək qiymətləndirmişdir.

Mehriban xanım Əliyeva da ölkələrimizin qanunverici orqanları arasındakı əməkdaşlığın inkişafı baxımından bu cür görüşlərin xüsusi əhəmiyyət kəsb etdiyini bildirmiş, Fransada Azərbaycanın zəngin mədəniyyətini tərənnüm edən layihələrin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı Mehriban Əliyevanın növbəti görüşü Senatın sədri Jan-Piyer Bel ilə olmuşdur.

Jan-Piyer Bel Azərbaycanın birinci xanımının Fransa-Azərbaycan münasibətlərinin inkişafındakı xidmətlərini xüsusi qeyd etmiş, onu Fransanın həqiqi dostu adlandırmış və Fransa mədəniyyətinin Azərbaycanda təbliğinə görə Mehriban Əliyevaya minnətdarlığını





bildirmişdir. Fransa Senatının sədri ölkələrimizin bütün sahələrdə əməkdaşlığının inkişaf etdiyini qeyd etmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında parlament diplomatiyasının önəmini vurğulamışdır.

Mehriban xanım Əliyeva Fransanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə yönələn səylərini yüksək qiymətləndirmişdir.

Azərbaycanın birinci xanımı bundan sonra da parlamentlərarası əlaqələrin inkişaf edəcəyinə, Fransa Senatında ölkəmizin dostlarının sayının artacağına əminliyini ifadə etmişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Fransanın Frankafoniya məsələləri üzrə naziri, Fransa Prezidentinin Frankafoniya üzrə xüsusi təmsilçisi xanım Yamina Benqiqi ilə görüşmüşdür.

Xanım Y.Benqiqi bildirmişdir ki, Fransa hakimiyyəti Azərbaycanın birinci xanımını ölkənin yaxşı dostu kimi tanıyır və onun Azərbaycan mədəniyyətinin dünyada və Fransada tanıdılması istiqamətində həyata keçirdiyi tədbirləri alqışlayır. Bu baxımdan son bir neçə ayda Parisdə və ölkənin ayrı-ayrı regionlarında Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsinin uğurlu olduğunu diqqətə çatdıran Yamina Benqiqi Fransa mədəniyyətinin və dilinin Azərbaycanda təbliğinə, o cümlədən Bakıda fransız liseyinin yaradılmasına verdiyi dəstəyə görə Mehriban xanım Əliyevaya təşəkkürünü bildirmişdir.

Mehriban xanım Əliyeva Fransanın Azərbaycan üçün önəmli tərəfdaş olduğunu, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdiyini vurğulamışdır. Azərbaycanın Fransada tanıdılması istiqamətində Heydər Əliyev Fondu tərəfindən reallaşdırılan layihələrin bundan sonra da davam etdiriləcəyini bildirmiş, Bakıda fransız liseyinin tikilməsi ilə bağlı layihənin uğurla başa çatdırılacağına əminliyini ifadə etmişdir.

Günün sonunda Fransanın Frankafoniya məsələləri üzrə naziri Yamina Benqiqinin adından Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şərəfinə şam yeməyi verilmişdir.

***"Azərbaycan" qəzeti,***
***25 may 2013-cü il***



# IV fəsil

## YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müasir Azərbaycan təhsilinin inkişafında rolu

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BAKIDAKI İNTERNAT MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fondun hazırladığı Bakı şəhərinin internat məktəbləri və uşaq evləri ilə tanışlıq üzrə dördmərhələli proqramın birinci mərhələsi çərçivəsində 2005-ci ilin yanvarın 31-də paytaxtın Nəsimi rayonunda yerləşən əqli cəhətdən qüsurlu uşaqlar üçün 11 nömrəli yardımçı məktəbdə olmuşdur. Uşaqlar və müəllimlər Mehriban xanımı və qızı Leylanı səmimiyyətlə qarşıladılar, gül dəstəsi təqdim etdilər.

Məktəbin direktoru Sezar Qocayev məlumat verdi ki, 1937-ci ildən fəaliyyət göstərən yardımçı məktəbin özündə 64 şagird təhsil alır, 336 uşağa isə evlərində xidmət göstərilir. Onların təlim-tərbiyə işləri ilə 102 müəllim məşğul olur. Dərsdən sonra uşaqlar burada xarrat, çəkməçi və tikişçi peşələrini öyrənirlər. Ötən ilin dekabrında Xüsusi Olimpiya Komitəsinin əqli cəhətdən zəif uşaqlar arasında keçirildiyi basketbol yarışında məktəbin şagirdləri birinci yeri tutmuşlar.

Mehriban xanım ayrı-ayrı sinif otaqlarına baxdı, dərs prosesini izlədi, uşaqların təhsil səviyyəsi, yeməyi, yaşayış şəraiti ilə maraqlandı, onların əl işlərindən ibarət sərgiyə və "Uğurlu siyasətin qoşa qanadları" adlı guşəyə baxdı. O, məktəb binasının əsaslı şəkildə yenidən qurulması, problemlərin həlli istiqamətində rəhbərlik etdiyi Fond tərəfindən lazımi tədbirlərin görüləcəyini vurğuladı.

Hörmətli qonağa təşəkkür edən müəllimlər Mehriban xanımın məktəbə gəlişinin uşaqların böyük sevincinə səbəb olduğunu söylədilər, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

***"Azərbaycan" qəzeti,***
***1 fevral 2005-ci il***





## ÜÇ NÖMRƏLİ XÜSUSİ İNTERNAT MƏKTƏBİNDƏ GÖRÜŞ

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin yanvarın 31-də Nizami rayonundakı kar uşaqlar üçün 3 nömrəli respublika xüsusi internat məktəbində olmuş, 333 şagirdin təhsil aldığı məktəbin problemləri, şəraiti ilə maraqlanmışdır.

Məktəbin direktoru Məlahət Səmədova xeyirxah işlərinə görə Mehriban xanıma minnətdarlığını bildirdi. O, hörmətli qonağa dərs, təlim-tərbiyə prosesi barədə məlumat verərək dedi ki, 152 müəllimin çalışdığı bu təhsil ocağında uşaqların müxtəlif sənətlərə yiyələnməsi üçün şərait yaradılmışdır.

Mehriban xanım Əliyeva ayrı-ayrı siniflərdə oxuyan şagirdlərlə səmimi görüşərək, onların bilik səviyyəsinə xüsusi diqqət yetirdi, onlara dərslərində uğurlar arzuladı.

Sonra Fondun prezidenti istedadlı uşaqların rəsmləri və tikiş nümunələri, əmək təlimi emalatxanaları, yataqxana və yeməkxana ilə tanış oldu, mətbəxə keçərək yeməyin keyfiyyəti ilə maraqlandı, ərzaq saxlanılan anbara baxdı, avadanlığın təzələnməsinə ehtiyac duyulduğunu söylədi.

***"Azərbaycan" qəzeti,***
***1 fevral 2005-ci il***

## HUMANİTAR FƏNLƏRİN MÜKƏMMƏL ÖYRƏDİLMƏSİ ÜÇÜN TƏDRİS BAZASI VARDIR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 1-də Əzizbəyov rayonunun "Şimal" DRES qəsəbəsində yerləşən A.S.Makarenko adına humanitar təmayüllü internat məktəbdə olmuş, 560 şagirdin təhsil aldığı təhsil müəssisəsinin problemləri, şəraiti ilə maraqlanmışdır.

Xeyirxah işlərinə görə Mehriban xanıma minnətdarlığını bildirən direktor Fərhad Zeynalov hörmətli qonağa məlumat verərək dedi ki, 1953-cü ildən fəaliyyət göstərən, 56 müəllimin çalışdığı məktəbdə uşaqların təlim-tərbiyəsi üçün şərait yaradılmışdır.

Burada 20 nəfər qaçqın və məcburi köçkün yaşayır və onlar məktəbdə işlə təmin olunmuşlar.

Humanitar fənlərin mükəmməl öyrədilməsi üçün xüsusi proqram hazırlanmışdır. Təhsil Nazirliyi məktəbi dərsliklərlə təmin edir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmış Naxçıvanski adına hərbi liseyə uşaqlar buradan rus dilini dərinləşmiş proqram üzrə öyrənib gedirdilər. İndi buna ehtiyac qalmayıb, çünki liseydə dərslər Azərbaycan dilində keçirilir.

Fondun prezidentinə gül dəstəsi təqdim edən 10-cu sinif şagirdi Nərmin Lətifova dedi:

– Hörmətli Mehriban xanım, məktəbimizə xoş gəlmisiniz. Biz sizinlə fəxr edir və minnətdarlığımızı bildiririk. Əminik ki, bu gün yaddaşımızda daim qalacaq və gələcəkdə onu xatırladıqca böyük qürur hissi keçirəcəyik.

11-ci sinif şagirdi Hüseynxan Axundov isə Mehriban xanımı Gənclər Günü münasibətilə ürəkdən təbrik etdi, ona cansağlığı, uzun ömür arzuladı və ulu öndərimizə həsr etdiyi şeiri oxudu:

***Ölməz Heydər baba xalqın şöhrətin,***
***Bu Yer kürəsinə yayıb gedibdir.***
***Özü olmasa da bu gün bizimlə***
***Layiqli bir övlad qoyub gedibdir.***

Yataqxanada və istirahət otağında yaradılmış səliqə-sahmandan razılığını bildirən YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım əl işləri otağına, idman salonuna baxdı, yeməkxana və mətbəxlə tanış oldu, ingilis dili dərsini izlədi, sambo yarışlarında rayonda birinci yeri tutmuş, əlaçı şagirdlərlə, Uşaq təşkilatının üzvləri ilə səmimi görüşdü, onlara uğurlar arzuladı.

Bildirdi ki, məktəbin klubunun təmiri üçün Təhsil Nazirliyi tərəfindən 145 milyon manat ayrılmışdır, yaxın vaxtlarda işə başlanacaqdır.

***"Azərbaycan" qəzeti,***
***2 fevral 2005-ci il***





## TÜRKAN QƏSƏBƏSİNDƏKİ XÜSUSİ İNTERNAT MƏKTƏBİNDƏ GÖRÜŞ

2005-ci ilin fevralın 1-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Əzizbəyov rayonunun Türkan qəsəbəsindəki Elmar Mirzəyev adına nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat məktəbində olmuş, 169 şagirdin təhsil aldığı məktəbin problemləri, şəraiti ilə maraqlanmışdır.

Mehriban xanımı hörmət və ehtiramla qarşılayan şagirdlər və müəllimlər məktəbə gəldiyinə görə ona minnətdarlıqlarını bildirdilər. Fondun prezidenti məktəbin problemləri ilə maraqlandı.

36 tərbiyəçinin çalışdığı məktəbin direktoru İlham Ağayev bildirdi ki, bir neçə il əvvəl dam örtüyü təmir olunsa da, işlər keyfiyyətsiz görülmüşdür. İşıq, su daim olsa da, qaz sarıdan çətinliklər mövcuddur.

Direktor tədris prosesindən də danışaraq dedi ki, burada xüsusi dərslər keçirilir. Şagirdlərin 134 nəfəri yataqxanada yaşayır. Loqoped otağında uşaqlarla fərdi məşğul olunur və müəllimlər Moskva Pedaqoji İnstitutunu bitirmiş ali təhsilli kadrlardır.

Mehriban xanım Əliyeva dərsliklərlə, tədris, təlim-tərbiyə prosesi ilə maraqlandı, ayrı-ayrı siniflərdə şagirdlərlə səmimi görüşərək onların bilik səviyyəsinə xüsusi diqqət yetirdi, dərslərində uğurlar arzuladı.

Fondun prezidenti daha sonra yataqxana və yeməkxana ilə tanış oldu, yeməyin keyfiyyəti ilə maraqlandı, ərzaq anbarına baxdı. Məktəbdə təmir işlərinin aparılmasının zəruriliyi vurğulandı.

***"Azərbaycan" qəzeti,***
***2 fevral 2005-ci il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BAKIDAKI İNTERNAT MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fondun hazırladığı Bakı şəhərinin internat məktəbləri və uşaq evləri ilə tanışlıq üzrə dördmərhələli proqramın birinci mərhələsi çərçivəsində 2005-ci ilin fevralın 2-də paytaxtın Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsində yerləşən əqli cəhətdən qüsurlu uşaqlar üçün 3 nömrəli internatda olmuşdur. Uşaqlar və müəllimlər Mehriban xanımı və qızı Leylanı səmimiyyətlə qarşıladılar, gül dəstəsi təqdim etdilər.

Direktor Taleh Məmmədov məlumat verdi ki, 1984-cü ildən fəaliyyət göstərən internatda 176 uşağın təlim-tərbiyəsi ilə 17 müəllim məşğul olur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan internata Norveç humanitar təşkilatının nümayəndələri də vaxtaşırı baş çəkirlər.

Mehriban xanım ayrı-ayrı otaqlara, idman salonuna baxdı, uşaqların istirahəti ilə maraqlandı. İngiltərənin Azərbaycana birgə yardım təşkilatının nümayəndələri ilə görüşüb söhbət edən YUNESKO-nun xoşməramlı səfirinə onların internat məktəblərində gördüyü işlər, birillik proqram çərçivəsində keçirdikləri tədbirlər və göstərdikləri yardımlar barədə məlumat verildi.

Fondun prezidenti yeməkxana və mətbəxlə də tanış oldu, buradakı avadanlığın yaxşı vəziyyətdə olmasından, uşaqlara verilən yeməyin keyfiyyətindən razı qaldığını bildirdi.

***"Azərbaycan" qəzeti,***
***3 fevral 2005-ci il***





## YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA BAKININ NƏSİMİ RAYONUNDAKI 23 NÖMRƏLİ MƏKTƏBİN 70 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMİŞDİR

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin martın 23-də Bakının Nəsimi rayonundakı 23 nömrəli orta məktəbdə olmuş, bu təhsil ocağının 70 illiyinə həsr olunmuş yubiley mərasimində iştirak etmişdir.

Məktəbin direktoru, respublikanın əməkdar müəllimi Nailə Rzaquliyeva mərasimi açaraq, ötən 70 ildə təhsil ocağının keçdiyi şərəfli yol, onun pedaqoji kollektivi, yetirmələri haqqında məlumat vermişdir. Bildirmişdir ki, tədrisin Azərbaycan və rus dillərində aparıldığı, 1500-ə yaxın şagirdin təhsil aldığı, 100-dən artıq müəllimin çalışdığı məktəb 1995-ci ildən Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənovun adını daşıyır. Həmin il ümummilli liderimiz Heydər Əliyev burada olmuş və qəhrəmanın barelyefi olan xatirə lövhəsini açmışdır. Son üç il ərzində məktəbin 7 müəllimi "İlin müəllimi" respublika müsabiqəsində birinci yeri tutmuş, məzunların əksəriyyəti 650-dən yuxarı bal toplayaraq müxtəlif ali məktəblərə qəbul olunmuşlar. 2003 və 2004-cü illərdə məktəb təlim-tərbiyə göstəricilərinə görə Bakı şəhəri üzrə "İlin ən yaxşı təhsil müəssisəsi" adına layiq görülmüşdür. Yubilyar məktəbin məzunları arasında tanınmış adamlar – siyasətçilər, alimlər, memarlar, incəsənət xadimləri və başqaları vardır. Mehriban xanım Əliyeva 1981-ci ildə bu təhsil ocağını qızıl medalla bitirmişdir.

Məktəbin qabaqcıl müəllimlərinə Təhsil Nazirliyinin və rayon icra hakimiyyətinin fəxri fərmanları təqdim olunmuşdur.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etmişdir. O demişdir ki, mən 23 nömrəli məktəbi həmişə xoş hisslərlə xatırlayıram. Adətən, bir işə başlayanda qarşıma çox ciddi tələblər qoyur və onlara əməl etməyə çalışıram. Bu məsuliyyət hissinə görə doğma məktəbə, müəllimlərimə minnətdaram.

Heydər Əliyev Fondunun prezidenti sözünə davam edərək demişdir ki, bugünkü şagirdlərin bizdən üstünlüyü onların müstəqil Azərbaycanda yaşayıb təhsil almasıdır. Məktəbə adı verilmiş Tahir Həsənov bu müstəqillik uğrunda şəhid olanlardan biridir. Şagirdlərimiz bunu unutmamalıdırlar.

Mehriban xanıma məktəbin kollektivi adından xatirə hədiyyəsi təqdim edilmişdir. O, uşaqların xahişi ilə yubiley tortunu kəsmişdir.

Mərasim boyu məktəbin istedadlı şagirdləri öz qabiliyyətlərini nümayiş etdirmiş, əlvan

musiqi proqramı ilə yubiley tədbirini daha da rövnəqləndirmişlər. Ümummilli liderimizin təhsil ocağına gəlişini, məktəbin dünənini və bugününü əks etdirən video süjetlər maraqla qarşılanmışdır.

Rəsmi hissədən sonra Mehriban xanım Əliyeva və qonaqlar məktəb muzeyindəki eksponatlarla tanış olmuşlar. Mehriban xanım müəllimlərlə söhbət etmiş, xatirə şəkli çəkdirmişdir.

***"Azərbaycan" qəzeti,***
***24 mart 2005-ci il***





## YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA YUNESKO-nun ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin mayın 13-də YUNESKO-nun ölkəmizdə səfərdə olan ekspertləri Kristof Kasobonu və Dendev Badarçını qəbul etmişdir.

Mehriban xanım qonaqlara müraciətlə demişdir: "YUNESKO-nun hər bir təmsilçisini Azərbaycanda görmək mənim üçün çox xoşdur. Ona görə də sizi Heydər Əliyev Fondunda salamlamaqdan xüsusi məmnunluq duyuram.

Sizin missiyanız çox vacibdir, əhəmiyyətlidir. Mən beynəlxalq təşkilatların nümayəndələri ilə görüşümdə, eləcə də YUNESKO-nun tədbirlərindəki çıxışlarımda hər dəfə Azərbaycandakı qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların ağır vəziyyətinə diqqəti cəlb etməyə çalışmışam. Çox sağ olun ki, siz də bu xeyirxah missiya ilə ölkəmizə gəlmiş və, bildiyimə görə, dünən Sabirabad, Saatlı, İmişli və Biləsuvar rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkün uşaqlarla görüşmüş, onların yaşayış şəraiti, təhsili ilə maraqlanmısınız."

YUNESKO-nun nümayəndələri həmin bölgələrdə məcburi köçkünlərin, xüsusən uşaqların yaşayış şəraiti, təhsil prosesi ilə şəxsən tanış olduqlarını, gördüklərindən çox təsirləndiklərini, həmin uşaqların təhsilinin səviyyəsi ilə bağlı hesabat hazırlayıb YUNESKO rəhbərliyinə təqdim edəcəklərini bildirmişlər.

Ekspertlər YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın valideyn himayəsindən məhrum olan, xüsusi qayğı və fərdi təhsilə ehtiyacı olan uşaqların problemlərinin həlli ilə bağlı böyük işlər gördüyünü bildiklərini söyləmişlər. Onlar bu sahədə YUNESKO-nun Azərbaycan hökuməti və respublikanın qeyri-hökumət təşkilatları ilə əməkdaşlığının daha da inkişaf etdirilməsi barədə Mehriban xanım Əliyevanın fikirlərinə ürəkdən şərik olduqlarını, bu məsələdə öz köməklərini əsirgəməyəcəklərini bildirmişlər.

***"Azərbaycan" qəzeti,***
***14 may 2005-ci il***

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA GORANBOY RAYONUNDAKI RƏSUL ATAKİŞİYEV ADINA İNTERNAT MƏKTƏBİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin mayın 19-da, Azərbaycan Prezidenti İlham Əliyevin Goranboy rayonuna səfəri çərçivəsində buradakı Rəsul Atakişiyev adına internat əsas məktəbində olmuşdur.

Ulu öndərimizin adını daşıyan Fond fəaliyyət göstərdiyi bir il ərzində uşaq evləri və internat məktəblərində müasir tələblərə cavab verən şəraitin yaradılması, bütün cəmiyyətimizin diqqət yetirməli olduğu problemlərin həlli üçün məqsədyönlü iş aparır. Bütün bunlardan xəbərdar olan məktəbin kollektivi Mehriban xanım Əliyevanı öz doğmaları kimi qarşıladı. Məktəblə tanışlıq zamanı Heydər Əliyev Fondunun prezidentinə məlumat verildi ki, bu təlim-tərbiyə ocağı ötən il Avropa Birliyinin vəsaiti hesabına əsaslı təmir olunmuş, yeni yeməkxana tikilmişdir. Mehriban xanım sinif otaqlarını gəzərək dərs prosesini izlədi, uşaqların necə qidalanması ilə maraqlandı. Buradakı şəraitdən razılığını bildirən Mehriban xanım məktəbə kompyuter dəstləri bağışlayacağına söz verdi.

*"Azərbaycan" qəzeti,*
*21 may 2005-ci il*



MEHRİBAN ƏLİYEVA: TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ

# HEYDƏR ƏLİYEV FONDUNDA "YENİLƏŞƏN AZƏRBAYCANA YENİ MƏKTƏB" PROQRAMININ TƏQDİMATINA HƏSR OLUNMUŞ "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR

2005-ci ilin iyunun 3-də Heydər Əliyev Fondunda "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müzakirəsinə həsr olunmuş "dəyirmi masa" keçirilmişdir. Respublika hökumətinin, xarici ölkələrin səfirliklərinin, beynəlxalq humanitar təşkilatların və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştrakı ilə keçirilən tədbiri açan Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dedi: "Bu gün biz Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının təqdimatına toplaşmışıq. Bu proqramın adı onun mahiyyətini əks etdirir. Ölkəmizdə günbəgün yeniləşmə gedir. Son zamanlar həm paytaxtımızda, həm bölgələrdə görülən işlər buna əyani sübutdur. Bu yeniləşmə təhsil sistemində də getməlidir. Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnməli, dünya təhsil sisteminə inteqrasiya olunmağı bacarmalıdır. Hazırlanmış proqramdan da əsas məqsəd ölkəmizin hər bir gəncini daha bilikli, bacarıqlı, geniş dünyagörüşlü görməkdir. Amma biz böyüyən nəslin qarşısında belə tələblər qoyarkən, münasib şərait də yaratmağa borcluyuq."

Biz ölkə üzrə vəziyyəti çox ağır hesab olunan 132 məktəb müəyyən etmişik. Bu məktəblərin hər birində videoçəkiliş aparılıb və bu material indi sizə təqdim olunacaqdır. Problemin həllinin ən yaxşı variantı bu ola bilər ki, həmin məktəblərin binaları qarşıdan gələn tədris ilinin əvvəlinədək yenidən tikilsin. Bunlar 100, 200 və 400 yerlik məktəblər olacaqdır. Nəzərdə tutulmuşdur ki, bunların hamısı birmərtəbəli tikilsin. Fond tərəfindən artıq bu binaların layihələri sifariş edilib və bu gün sizə təqdim olunur.

Mehriban xanım Əliyeva məzmunlu keçən müzakirələrə yekun vuraraq dedi ki, göründüyü kimi, vəziyyət həqiqətən də ciddidir və qaldırılan məsələlər, verilən təkliflər nəzərə alınacaqdır. Sabahdan proqramın icrasına başlayan Fond məktəblərin bir hissəsini də vəsaiti hesabına tikdirəcək, bütün lazımi avadanlıqla təmin edəcək, 2005-ci ilin sentyabrın 15-dək istifadəyə verəcəkdir.

Mehriban xanım Azərbaycanda fəaliyyət göstərən hər bir təşkilata, beynəlxalq qurumlara, şirkətlərə, iş adamlarına müraciət edərək, bu mühüm işdə Fondla əməkdaşlığa dəvət etmişdir. Bildirmişdir ki, indi göstərilən videokadrlar, hazırlanmış 132 layihənin hamısı Heydər Əliyev Fondunun veb-saytında yerləşdirilmişdir. Bu xeyirxah işdə iştirak etmək istəyənlər yaxın iki həftə ərzində Fonda müraciət edə bilərlər.

*"Azərbaycan" qəzeti,*
*4 iyun 2005-ci il*

# AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA AĞDAŞDA İNTERNAT MƏKTƏBİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin iyulun 7-də, dövlətimizin başçısının Ağdaş rayonuna səfəri çərçivəsində Ağdaş şəhərindəki Maqsud Şeyxzadə adına internat məktəbində olmuşdur.

Məktəblə tanışlıq zamanı Mehriban xanıma məlumat verildi ki, bu təhsil ocağında 399 şagirdin təlim-tərbiyəsi ilə 73 müəllim məşğul olur. Hazırda burada cari təmir işləri gedir.

Mehriban Əliyeva vurğuladı ki, məktəbin binasında cari yox, əsaslı təmirin aparılmasına böyük ehtiyac vardır. Heydər Əliyev Fondu təmir işlərinə hər cür kömək göstərəcəkdir.

Bildirildi ki, Fond tərəfindən bu il respublikada tikiləcək 132 məktəbdən biri Ağdaşın Pirkəkə kəndində inşa olunacaqdır. Mehriban Əliyeva 2005-ci ilin sentyabrında onun açılışında iştirak edəcəyini və məktəblə yaxından tanış olacağını bildirdi.

*"Aəzrbaycan" qəzeti,*
*8 iyul 2005-ci il*





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA GÖYÇAYDA İNTERNAT MƏKTƏBİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin iyulun 7-də, dövlətimizin başçısının Göyçay rayonuna səfəri çərçivəsində Göyçay şəhərindəki internat məktəbində olmuşdur.

Ehtiramla, xüsusi hörmətlə qarşılanan Mehriban Əliyevaya rəhbərlik etdiyi Fondun uşaq evlərinə, internatlara göstərdiyi qayğıya görə ürəkdən gələn xoş sözlər deyildi.

Heydər Əliyev Fondunun prezidenti məktəblə tanış oldu. Mehriban xanım otaqlarda döşəmələrin təzələnməsinə, istilik sisteminin yaradılmasına, avadanlıqla təchiz olunmasına yaxından kömək göstəriləcəyini bildirdi.

İnternat məktəbində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin üzvləri ilə də görüşən YUNESKO-nun xoşməramlı səfiri onların problemləri ilə də yaxından maraqlandı.

*"Azərbaycan" qəzeti,*
*9 iyul 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA QUBA RAYONUNUN BİR SIRA KƏND MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Qubaya səfəri çərçivəsində Prezidentin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva rayonun bir sıra məktəblərində olmuşdur.

O, əvvəlcə Zərdabi qəsəbəsindəki Quba xüsusi ümumtəhsil internat məktəbinə gəldi. Mehriban xanım Əliyeva məktəbin problemləri ilə maraqlandı, buradakı şəraitlə yaxından tanış oldu, təmir-bərpa işləri ilə bağlı tövsiyələrini verdi.

Heydər Əliyev Fondunun prezidenti sonra İqriğ kəndində yeni məktəb binasının tikinti işləri ilə tanış olmaq üçün buraya gəldi. Kənd camaatı Mehriban xanımı böyük hörmət və ehtiramla qarşıladı.

Fondun prezidentinə tikinti işlərinin gedişi barədə məlumat verildi. Daha sonra Mehriban xanım rəhbərlik etdiyi Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində rayonun Püstəqasım kəndində 210 yerlik məktəb binasının tikintisi ilə ətraflı tanış oldu, eyni zamanda, məktəblilərin dərs ləvazimatı ilə təminatının vəziyyəti ilə də maraqlandı.

*"Azərbaycan" qəzeti,*
*26 iyul 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA XAÇMAZ RAYONUNUN BİR SIRA KƏND MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Xaçmaza səfəri çərçivəsində Prezidentin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva rayonun Sayat və Müşkür kəndlərində məktəblərin tikintisi ilə tanış olmuşdur.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi üzrə rayonda 3 təhsil ocağı tikilir.

Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, bu layihə dövlət tərəfindən də dəstəklənir və 2005-ci ilin sentyabrın 15-dək respublikada 132 məktəbin hamısı istifadəyə hazır olacaqdır.

Xaçmazda məktəb tikintisini həyata keçirən "Azərkəndtikinti" Səhmdar Cəmiyyətinin nümayəndələri işlərin gedişi barədə məlumat verdilər. Sakinlər və müəllimlər Sayad məktəbində nəzərdə tutulan 100 nəfərlik 4 sinfin azlıq edəcəyini diqqətə çatdırdılar.

Mehriban xanım söz verdi ki, əlavə olaraq daha 5 sinif otağı tikiləcək və 200-dən çox şagirdin təzə məktəbdə təhsil alması üçün şərait yaradılacaqdır.

Müşkür kəndində 11 nömrəli "Kəndtikinti" trestinin inşa etdiyi məktəb də 200 yerlikdir. Tikinti işləri sürətlə gedir. Kənd sakinləri humanist fəaliyyətinə, böyüyən nəslə göstərdiyi qayğıya, təhsilin maddi-texniki bazasının genişləndirilməsi üçün gördüyü işlərə görə Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

YUNESKO-nun xoşməramlı səfiri belə layihələrin bundan sonra da əhatəli şəkildə həyata keçiriləcəyini söylədi.

*"Azərbaycan" qəzeti,*
*27 iyul 2005-ci il*

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA QUSARDA VƏ QUBADA İNTERNAT VƏ ORTA MƏKTƏBLƏRDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Qusar rayonuna səfəri çərçivəsində dövlətimizin başçısının xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Qusar şəhərindəki internat məktəbində olmuşdur.

Məktəbin kollektivi hörmətli qonağı böyük səmimiyyətlə, öz doğmaları kimi qarşıladılar.

Məktəbin yataq və tədris korpusunu gəzən Mehriban xanıma məlumat verildi ki, 1957-ci ildə tikilmiş 189 yerlik bu tədris ocağı sonuncu dəfə 35 il bundan əvvəl əsaslı təmir olunduğuna görə bərbad vəziyyətdədir. Son vaxtlar yerli iş adamı tərəfindən qismən təmir edilsə də, məktəbin problemləri çoxdur. Qazanxana tamamilə sıradan çıxdığına görə qış aylarında böyük çətinlik yaradır. Yeməkxana binası isə istifadə üçün tamamilə yararsız haldadır.

Pedaqoji kollektiv Heydər Əliyev Fondu tərəfindən məktəbin təmirinə, avadanlıq və dərsliklərlə təminatına kömək göstəriləcəyi barədə Mehriban xanımın verdiyi məlumatı sonsuz razılıqla qarşıladı.

Heydər Əliyev Fondu tərəfindən ölkədə bu il tikiləcək 132 kənd məktəbindən dördü Qusar rayonunun payına düşür. Həmin məktəblərin tikintisinin gedişi ilə yaxından tanış olmaq üçün əvvəlcə Köhnə Xudat kəndinə gələn Prezidentin xanımını sakinlər ehtiramla qarşıladılar. Mehriban xanım Əliyeva tikinti meydançasına gedərək işlərin gedişi ilə maraqlandı. Məktəbi inşa edən "Azərsutəchizattikinti" Səhmdar Cəmiyyətinin sədri Mirzəcan Xəlilov 12 sinif otağından ibarət 240 yerlik məktəbin 2005-ci ilin sentyabrın 15-dək istifadəyə veriləcəyini bildirdi. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq, Qusarın Gündüzqala kəndində də yeni məktəb binası tikilir. Fondun prezidenti burada da inşaat işlərinin vəziyyəti ilə yaxından maraqlandı. Söhbət zamanı kənd sakinləri uzun illər onları düşündürən və narahat edən məsələnin həllinə görə hörmətli qonağa təşəkkürlərini bildirdilər. İnşaatçılar isə tikinti işlərində kənd camaatının yaxından köməyini xüsusi vurğuladılar.

Azərbaycan Prezidentinin səmimi salamlarını sakinlərə çatdıran Mehriban xanım onların digər sosial problemlərlə bağlı arzularını dövlətimizin başçısına yetirəcəyini söylədi.

Quba rayonu Qımılqazma kəndinin uşaqları indiyədək keçən əsrin əvvəllərində tikilmiş, bir neçə otaqdan ibarən və heç bir şəraiti olmayan binada təhsil almaq məcburiyyətində qalmışdılar. İndi Heydər Əliyev Fondunun təşəbbüsü ilə köhnə məktəbin yerində yeni tədris korpusu ucaldılacaqdır.

Mehriban Əliyeva yerli sakinlərlə səmimi görüşdükdən sonra məktəbin inşa olunduğu yerə baş çəkdi, tövsiyələrini verdi. İnşaat işlərini yerinə yetirən Nəqliyyat Nazirliyinin Avtoyol





Departamentinin trest rəisi Rauf Həbibov tikinti işlərinin planı barədə məlumat verdi.

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Leyla məktəbin bünövrəsinin qoyulması mərasimində iştirak etdilər.

İnşaatçılar müasir tələblərə uyğun istilik və digər kommunikasiya sisteminə malik 20 otaqlı məktəbdə əsas işləri yeni dərs ilinədək başa çatdıracaqlarını bildirdilər.

***"Azərbaycan" qəzeti,***
***29 iyul 2005-ci il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA OĞUZ RAYONUNUN XALXAL KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının Oğuz rayonuna səfəri çərçivəsində 2005-ci ilin avqustun 19-da rayonun Xalxal kəndində məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Yaşıl dağlar qoynunda yerləşən kəndin sakinləri, inşaatçılar Mehriban xanımı böyük səmimiyyətlə qarşıladılar. Bildirildi ki, 1937-ci ildən fəaliyyət göstərən kənd məktəbi indiyədək düz 115 il əvvəl tikilmiş binada yerləşmişdir. Bu isə tədris prosesinə mənfi təsir göstərirdi. Kənd sakinləri, müəllimlər, məktəblilər Mehriban xanımın birbaşa qayğısı və köməyi sayəsində sentyabrdan təzə, hər cür şəraiti olan məktəb binasının istifadəyə veriləcəyindən böyük razılıq hissi keçirdiklərini söylədilər, Heydər Əliyev Fondunun prezidentinə minnətdarlıqlarını, ən xoş arzularını yetirdilər.

Mehriban xanım rəhbərlik etdiyi Fondun vəsaiti hesabına yeni dərs ilinə kimi respublikamızın müxtəlif yerlərində çoxlu məktəbin tikilib istifadəyə veriləcəyini bildirdi. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramının hazırda uğurla həyata keçirildiyini xatırladan Fondun prezidenti Xalxal kənd məktəbində tikinti işlərinin gedişi ilə yaxından maraqlandı, öz tövsiyələrini verdi, məktəbin təzə avadanlıqla təchiz olunmasına da yaxından kömək göstəriləcəyini söylədi.

Mehriban xanım sonra inşaatçılarla, kənd sakinləri ilə səmimi söhbət etdi, onların qayğı və problemləri ilə maraqlandı.

Kənd sakinləri ölkəmizdə təhsilin inkişafına, uşaq evlərinə, internatlara göstərdiyi qayğıya görə Mehriban xanıma ürəkdən gələn xoş sözlər dedilər.

***"Azərbaycan" qəzeti,***
***20 avqust 2005-ci il***





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA İSMAYILLI RAYONUNUN BİZLAN KƏNDİNDƏ MƏKTƏB BİNASININ TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının İsmayıllı rayonuna səfəri çərçivəsində 2005-ci ilin avqustun 19-da Bizlan kəndində tikilməkdə olan 220 yerlik məktəb binasında inşaat işlərinin gedişi ilə tanış olmuşdur.

Kəndin sakinləri, müəllimlər, şagirdlər Mehriban xanımı böyük səmimiyyətlə qarşıladılar. Bildirildi ki, kənddəki köhnə məktəb binası tədrisin keyfiyyətinə mənfi təsir edirdi. Onlar bu kənddə yeni məktəb binasının tikintisi ilə bağlı göstərdiyi qayğıya görə YUNESKO-nun xoşməramlı səfirinə dərin minnətdarlıqlarını bildirdilər. Heydər Əliyev Fonduna xüsusi hədiyyə təqdim etdilər. Fondun prezidenti Mehriban Əliyeva məktəbin tikintisi ilə yaxından maraqlandı, sinif otaqlarına baxdı, inşaat işlərinin yeni dərs ilinədək başa çatması üçün konkret tövsiyələrini verdi. O, qış aylarında sinif otaqlarının qızdırılması məsələsi ilə də maraqlandı.

Heydər Əliyev Fondunun prezidenti kənd sakinləri, müəllimlər və məktəblilərlə xatirə şəkli çəkdirdi. Bura toplaşan insanların qayğıları, problemləri ilə maraqlandı.

***"Azərbaycan" qəzeti,***
***21 avqust 2005-ci il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA MASALLI RAYONUNUN YEDDİOYMAQ KƏND MƏKTƏBİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində Masallı rayonunun Yeddioymaq kəndindəki 1 nömrəli orta məktəbdə olmuşdur.

Məktəbin pedaqoji kollektivinin nümayəndələri, şagirdlər, valideynlər Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Müasir standartlara cavab verən 400 yerlik məktəb binasında təlim-tədris prosesinin normal təşkili üçün hər cür şərait yaradılmışdır.

Fondun prezidenti əvvəlcə məktəbin foyesində yaradılmış Heydər Əliyev guşəsinə baxdı. Sonra ayrı-ayrı fənn kabinetləri, sinif otaqları və kompyuter otağı ilə tanış oldu. Təhsil müəssisəsinin dünənini və bu gününü əks etdirən fotostendlərə baxdı. Azərbaycan xalqının tarixinin müxtəlif dövrlərini əks etdirən torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban verən qəhrəmanların fotolarından ibarət guşələr diqqəti cəlb edirdi. Mehriban Əliyevaya məlumat verildi ki, məktəb hər cür texniki avadanlıqla, müasir kompyuterlərlə təchiz olunmuşdur.

YUNESKO-nun xoşməramlı səfiri yeni tikilmiş idman salonuna da baxdı, istilik təchizatı sistemi ilə maraqlandı.

Mehriban xanım Əliyeva sonra müəllim və şagirdlərlə, valideynlərlə səmimi söhbər etdi, kənd camaatının qayğıları və problemləri ilə maraqlandı, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində görülən işlərdən danışdı və bunun gələcəkdə də davam edəcəyini vurğuladı.

***"Azərbaycan" qəzeti,***
***13 sentyabr 2005-ci il***





## PARİSDƏ YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

2007-ci ilin aprelin 3-də Parisdə YUNESKO-nun əsas iqamətgahında qurumun xoşməramlı səfirlərinin ənənəvi illik hesabat yığıncağı keçirilmişdir.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı iqamətgahın qarşısında təşkilatın protokol idarəsinin rəhbəri Jan Lük Şan və digər rəsmi şəxslər qarşılamışlar.

YUNESKO-nun Baş direktoru Koişiro Matsuura Mehriban xanım Əliyevanı səmimi salamlamışdır.

Yığıncağı təşkilatın Baş direktoru Koişiro Matsuura açmışdır. O, xoşməramlı səfirləri 7-ci illik hesabat münasibətilə təbrik etmiş, onların son bir il ərzində gördükləri işlər barədə müfəssəl məlumat vermişdir.

Baş direktor müxtəlif qitələri və ölkələri təmsil edən səfirlərin dünyanı narahat edən bir çox problemlərin həllində fəal iştiraklarını xatırlatmış, təşkilata hərtərəfli yardım göstərdiklərini, YUNESKO-nun davamlı inkişafı xüsusi diqqətdə saxladığını vurğulamışdır.

Təhsil sahəsindən söhbət açan Baş direktor hələ də dünyada milyonlarla uşağın təhsildən kənarda qaldığını bildirmiş, YUNESKO tərəfindən keçirilmiş Beynəlxalq konfranslardan danışmışdır. O, Azərbaycanın birinci xanımının fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında yaranmış sıx əməkdaşlığı, təhsillə bağlı regional konfransın 2008-ci ildə Bakıda keçirilməsi barədə Mehriban Əliyevanın təşəbbüsünü yüksək qiymətləndirmişdir.

Yığıncaqda Mehriban xanım Əliyeva çıxış etmişdir. Mehriban xanım çıxışının əvvəlində Baş direktoru və həmkarlarını ənənəvi illik hesabat yığıncağı münasibətilə salamlamışdır. Azərbaycanın birinci xanımı YUNESKO tərəfindən tərəfdaşlıq məsələsi ilə əlaqədar Qətərdə keçirilmiş regional konfransı xatırlatmış, xoşməramlı səfirləri "Hamı üçün təhsil" proqramı çərçivəsində 2008-ci ilin iyul ayında Azərbaycanda keçiriləcək yekun regional konfransa dəvət etmişdir.

Ötən ilin "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Məclisinin 2006-cı il iyun ayının 26-da keçirilməsi ilə yadda qaldığını xatırladan Mehriban xanım Əliyeva Azərbaycanın cari ilin mart ayında bu Konvensiyanı ratifikasiya etdiyini bildirmişdir. Mehriban Əliyeva qeyri-maddi irsin qorunması və təbliğinin ümdə vəzifə olduğunu vurğulamış və bu sahədə ölkəmizdə görülən işlərdən söhbət açmışdır.

Heydər Əliyev Fondunun son bir ildəki fəaliyyətindən danışan xoşməramlı səfir həmin fəaliyyətin səmərəli olduğunu xüsusi vurğulamış, təhsil, elm, mədəniyyət, səhiyyə və ətraf mühitin qorunması kimi sahələrdə Fondun öz işini davam etdirdiyini, bir sıra layihələrin

artıq başa çatdırıldığını, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının uğurla həyata keçirildiyini bildirmişdir. Mehriban Əliyeva demişdir ki, Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO Bakıda "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda ilk Beynəlxalq konfrans təşkil etmişdir. Hazırda ölkəmizdə təbabətə dair 3 qiymətli əlyazma qorunub saxlanılır və onlar ümumdünya yaddaş qeydiyyatına salınmışdır. Bu əlyazmalar bütün bəşəriyyət üçün böyük əhəmiyyət daşıyır.

Memarlıq abidələrinin bərpasında Heydər Əliyev Fondunun fəal iştirakını xatırladan Mehriban Əliyeva son vaxtlar Azərbaycanda bir çox tarixi dini abidələrin bərpa edildiyini xatırlatmış, eyni zamanda, Fondun ölkəmizin hüdudlarını kənardakı ümumbəşəri əhəmiyyət daşıyan mədəni abidələrin bərpasında da iştirakını vurğulamış, Parisin yaxınlığında, Versalda bərpa işlərində Heydər Əliyev Fondunun əməli fəaliyyət göstərdiyini bildirmişdir.

Azərbaycanın qeyri-maddi mədəni irslərindən biri olan muğamın qorunması və təbliği üçün bir çox işlər görüldüyünü deyən Mehriban Əliyeva bu sahədə Azərbaycana hərtərəfli kömək göstərmiş YUNESKO-ya minnətdarlığını bildirmişdir. Cənab K.Matsuuranın iştirakı ilə Bakıda təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzinin tikintisinin davam etdirildiyini, 2008-ci ilin yayında Mərkəzin açılışı ilə əlaqədar keçiriləcək təntənəli tədbirdə Baş direktorun iştirak edəcəyinə umidvar olduğunu bildirmişdir.

Mehriban xanım Əliyeva çıxışının sonunda Heydər Əliyev Fondunun Pakistandakı qızlar məktəbi ilə əlaqədar həyata keçirdiyi layihə barədə də məlumat vermişdir. O, dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçi anadan olmasının 80 illiyi ilə əlaqədar bütün xoşməramlı səfirlər adından təbrik etmişdir.

Mehriban Əliyevanın çıxışı Heydər Əliyev Fondunun muğam və Pakistandakı qızlar məktəbi ilə əlaqədar hazırladığı layihələri əks etdirən slaydlarla müşayiət olunurdu.

Yığıncaq iştirakçıları Azərbaycanın birinci xanımının çıxışını sürətli alqışlarla qarşılamışlar.

*"Azərbaycan" qəzeti,*
*4 aprel 2007-ci il*





## HEYDƏR ƏLİYEV FONDU İLƏ İSESKO ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL İMZALANMIŞDIR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin aprelin 27-də İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə görüşmüşdür.

Mehriban xanım 51 müsəlman dövlətinin təmsil olunduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının – İSESKO-nun rəhbərini salamlayaraq, onun yenidən Azərbaycana gəlməsindən məmnunluğunu söylədi. Dövlətimizin yüksək mükafatı – "Şöhrət" ordeni ilə təltif edilməsi münasibətilə Baş direktoru təbrik edən Mehriban Əliyeva özünün də xoşməramlı səfiri olduğu İSESKO-nun dünyada nüfuzunun getdikcə artmasından, islam ölkələrində gördüyü genişmiqyaslı işlərdən qürur duyduğunu bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə təşəkkür edən İSESKO-nun Baş direktoru Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünün böyük təsir bağışladığını, rəhbərlik etdiyi təşkilatın ölkəmizlə əməkdaşlığa xüsusi önəm verdiyini, Heydər Əliyev Fondu ilə əlaqələrin genişlənməsindən məmnunluğunu vurğuladı. Fondun elm, təhsil, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələri yüksək qiymətləndirən Əbdüləziz bin Osman əl-Tüveycri İSESKO-nun ilk qadın xoşməramlı səfiri kimi Mehriban xanımın bu şərəfli missiyanın yerinə yetirilməsində şəxsi nümunə göstərdiyini bildirdi.

Sonra Mehriban Əliyeva və Əbdüləziz bin Osman əl-Tüveycri Heydər Əliyev Fondu ilə İSESKO arasında əməkdaşlıq haqqında Protokol imzaladılar.

5 il müddətinə əməkdaşlığın əsas prinsiplərini tənzimləyən Protokol elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin inkişafını, birgə layihələrin işlənib həyata keçirilməsini, fəaliyyətin əlaqələndirilməsini nəzərdə tutur.

*"Azərbaycan" qəzeti,*
*28 aprel 2007-ci il*

# YUNESKO, AZƏRBAYCAN HÖKUMƏTİ VƏ HEYDƏR ƏLİYEV FONDU ARASINDA BİRGƏ LAYİHƏNİN İCRASINA DAİR SAZİŞ İMZALANMIŞDIR

2007-ci ilin iyunun 18-də Heydər Əliyev Fondunda BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı, YUNESKO-Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında ölkəmizdə peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair saziş imzalanmışdır.

YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasim iştirakçılarını salamlayaraq rəhbərlik etdiyi Fondun təhsil sahəsinə xüsusi əhəmiyyət verdiyini, bu istiqamətdə bir sıra layihələr həyata keçirdiyini bildirmişdir. Bundan əvvəl BMT və YUNESKO ilə əməkdaşlıq çərçivəsində birgə layihələrin uğurla yerinə yetirildiyini vurğulayan Azərbaycanın birinci xanımı, ölkəmizdə peşə təhsilinin inkişafını dəstəkləməyi nəzərdə tutan layihənin əhəmiyyətini qeyd etmiş, imzalanacaq sazişin də uğurla reallaşacağına inandığını söyləmişdir. 2005-ci il avqustun 24-də "Gülüstan" sarayında keçirilən "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda konfransda YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın da iştirak etdiyini, tədbirdə Azərbaycanın təhsil sistemində aparılan islahatlardan söhbət getdiyini, Avropa təhsil sisteminə inteqrasiya və digər məsələlərin müzakirə olunduğunu, birgə memorandum imzalandığını xatırlatmışdır. Mehriban Əliyeva demişdir ki, gələn ilin yayında ölkəmiz YUNESKO ilə birlikdə təşkil olunacaq "Təhsil hamı üçün" konfransına ev sahibliyi edəcəkdir. Konfransın keçirildiyi günlərdə YUNESKO-nun Baş direktorunun iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin açılışı da olacaqdır.

YUNESKO-nun Moskva ofisinin Baş direktoru Dendev Badarç Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanımın genişmiqyaslı ictimai, xeyriyyəçilik fəaliyyətinin nüfuzlu beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirildiyini vurğulayaraq, yeni əməkdaşlığın da səmərəli nəticələr verəcəyinə əminliyini söyləmişdir.

*"Azərbaycan" qəzeti,*
*19 iyun 2007-ci il*





# HOLLANDİYADAKI AZƏRBAYCAN MƏKTƏBİNƏ HEYDƏR ƏLİYEV FONDUNUN HƏDİYYƏSİ TƏQDİM EDİLMİŞDİR

Ölkəmizdə təhsilə xüsusi qayğı göstərən və onun maddi-texniki bazasının inkişafı ilə bağlı müxtəlif layihələr həyata keçirən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Vətənimizin hüdudlarından kənarda açılmış Azərbaycan məktəblərinə də hərtərəfli yardım göstərir. Hollandiyadakı Benilüks Azərbaycanlıları Konqresinin (BAK) təşəbbüsü ilə sentyabr ayından ölkənin paytaxtı Amsterdamda fəaliyyətə başlamış Azərbaycan məktəbinin ünvanına Fondun göndərdiyi kompyuter dəsti və dərs ləvazimatından ibarət hədiyyə buna bariz misaldır.

Məktəbdə Fondun hədiyyəsinin təqdimat mərasimindən əvvəl respublikamızın dövlət himni səslənmişdir.

Mərasimi BAK-ın sədri Sahil Qasımov açaraq qonaqları və şagirdləri salamlayaraq bildirmişdir ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Hollandiyada yaşayan azərbaycanlı uşaqları da yaddan çıxarmamış və onları hədiyyələrlə sevindirmişdir. Fərəhləndirici haldır ki, bu hədiyyələr Azərbaycandan göndərilmişdir. Qiymətli hədiyyələrə görə Konqresimiz adından Mehriban xanım Əliyevaya təşəkkür edir və minnətdarlığımı bildirirəm.

Azərbaycanın Hollandiyadakı səfiri Fuad İsgəndərov şagirdləri yeni dərs ili münasibətilə təbrik edərək demişdir: "Azərbaycanda olduğu kimi, burada da doğma dilimizdə məktəbə gedir, adət və ənənələrimizi, tariximizi, ədəbiyyatımızı öyrənmək sahəsində kövrək addımlarınızı atır, biliklərin əsaslarına yiyələnməyə səy göstərirsiniz.

Bu gün sizinlə görüşə Vətəndən uzaqda yaşayan azərbaycanlı şagirdlərin təhsilini yaddan çıxarmayan Mehriban xanım Əliyevanın hədiyyələri ilə gəlmişəm. Bu hədiyyələr ölkəmizdə ilk dəfə məktəbə gedən minlərlə balalarımıza da təqdim olunmuşdur. Artıq gözəl ənənənin ilk təməli qoyulur ki, Heydər Əliyev Fondunun hədiyyələri yalnız Azərbaycanda deyil, Avropanın paytaxtlarından biri olan Amsterdamda azərbaycanlı uşaqlara da təqdim edilir. Mən böyük iftixar hissi ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın adından bu hədiyyələri sizə təqdim edirəm. Ümidvaram ki, bu gün 15 uşağın təhsil aldığı məktəbin şagirdlərinin sayı bir neçə ildən sonra qat-qat artacaqdır."

Səfir Heydər Əliyev Fondunun hədiyyələrini şagirdlərə təqdim etmişdir.

Məktəbdə ana dilini tədris edən müəllim Sima Babayeva Mehriban xanım Əliyevanın qayğıkeşliyini yüksək qiymətləndirmiş və qeyd etmişdir ki, YUNESKO-nun xoşməramlı səfirinin nəcib işləri, sözün əsl mənasında, bütün azərbaycanlı qadınlar üçün nümunədir.

BAK-ın icra direktoru Elman Mustafazadə müstəqil Azərbaycanın dövlət dilinin qürbətdə

tədris edilməsindən qürur hissi duyduğunu bildirmiş, Heydər Əliyev Fondunun əməli köməyini yüksək dəyərləndirmiş və demişdir ki, bu qayğı bizi Vətəndən kənarda mədəniyyətimizi və ölkəmizin nailiyyətlərini daha həvəslə təbliğ etməyə həvəsləndirir.

Valideynlərdən Ofelya Babayeva, Lamiyyə Mirzəzadə və İlham Babayev hədiyyələrə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

Sonda Sima Babayeva şair Tofiq Bayramın "Ana dili" şeirini söyləmişdir.

*"Azərbaycan" qəzeti,*
*31 oktyabr 2007-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA SAMUX RAYONUNUN ƏLİUŞAĞI KƏND ORTA MƏKTƏBİNDƏ VƏ KƏLBƏCƏR RAYONUNUN 67 NÖMRƏLİ MƏKTƏBİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Samux rayonuna səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2008-ci ilin martın 3-də Mirzə Fətəli Axundov adına Əliuşağı kənd orta məktəbində olmuşdur.

2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə tikilmiş məktəbdə 200 şagird təhsil alır. 2007-ci ildə məktəbin 3 məzunu yüksək balla ali məktəblərə qəbul olunmuşdur. Mehriban Əliyeva Azərbaycan dili və tarix kabinetləri, kompyuter otağı ilə tanış oldu. Bildirildi ki, kompyuterlərin hamısı internet şəbəkəsinə qoşulmuşdur. Mehriban xanım məktəbin kollektivinə uğurlar arzuladı.

Heydər Əliyev Fondunun prezidenti həmin kənddə yerləşən Kəlbəcər rayonunun 67 nömrəli məktəbində də oldu. Mehriban xanıma məlumat verildi ki, 2004-cü ildə tikilmiş məktəbin on sinif otağı var. Burada Kəlbəcər rayonundan olan 40 şagird təhsil alır. Heydər Əliyev Fondunun prezidenti məktəbin kompyuter otağı, ibtidai sinif otağı, kitabxanası ilə tanış oldu. Bildirildi ki, kitabxanada dərsliklərdən və bədii ədəbiyyatdan ibarət 1800 kitab var. Mehriban xanım Heydər Əliyev guşəsində ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotostendə baxdı.

*"Azərbaycan" qəzeti,*
*5 mart 2008-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA TƏŞKİLATIN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK YIĞINCAĞINDA İŞTİRAK ETMİŞDİR

2008-ci ilin mayın 20-də Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik yığıncağı keçirilmişdir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yığıncaqda iştirak etmişdir. Mehriban Əliyevanı YUNESKO-nun mənzil-qərargahında təşkilatın yüksək vəzifəli şəxsləri səmimiyyətlə qarşıladılar.

Yığıncaqdan öncə xoşməramlı səfirlər dünyada savadlılığın dəstəklənməsi üzrə YUNESKO-nun regional konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda Bakıda keçirilmiş 5-ci regional konfransın yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkür etdilər. Bildirildi ki, həmin konfrans mühüm hadisədir və regionda savadsızlığın aradan qaldırılmasında əhəmiyyətli rolu olacaqdır. YUNESKO-nun xoşməramlı səfirlərinin illik hesabat yığıncağını təşkilatın Baş direktoru Koişiro Matsuura açdı. Xoşməramlı səfirləri salamlayan Baş direktor yığıncağın uğurla keçəcəyinə əmin olduğunu bildirdi.

Yığıncaq iştirakçıları məşhur musiqiçi, həmyerlimiz Mstislav Rostropoviçin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Baş direktor çıxışında əsas diqqəti təhsil, xüsusilə də dünyada savadsızlığın aradan qaldırılması probleminə cəlb etdi. Qeyd etdi ki, indi dünyada 72 milyon uşaq məktəbə getmir. Yeniyetmələrin təhsilə cəlb olunmasında hələ də problemlər var. Koişiro Matsuura bu baxımdan Bakıda keçirilmiş 5-ci regional konfransın əhəmiyyətini vurğuladı və tədbirin yüksək səviyyədə təşkilinə görə Mehriban xanım Əliyevaya təşəkkür etdi. Baş direktor mədəniyyətlərarası və sivilizasiyalararası dialoqdan da danışdı, hazırda dünyanı narahat edən iqlim dəyişiklikləri, ərzaq təhlükəsizliyi, habelə səhiyyə xidmətlərinin təşkili məsələlərinə toxundu.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva yığıncaqda çıxış etdi. O, ötən bir ildə ölkəmizdə görülən işlər, YUNESKO dəyərlərinin təbliği və icrası istiqamətində həyata keçirilən tədbirlər barədə danışdı. Bakıda keçirilmiş regional konfransın mühüm nəticələrlə yadda qaldığını vurğulayan Mehriban xanım dedi ki, ölkəmizdə təhsilin inkişafına xüsusi diqqət göstərilir. Heydər Əliyev Fondu artıq xaricdə də təhsillə bağlı layihələr həyata keçirir. Pakistanın zəlzələdən ciddi ziyan görən Müzəffərabad şəhərində qızlar məktəbinin inşa olunması buna sübutdur. Bu, Heydər Əliyev Fondunun təhsillə bağlı xaricdə həyata keçirdiyi ilk layihədir.

Mehriban xanım Əliyeva ölkəmizdə mədəni irsin qorunması və təbliği istiqamətində də işlərin görüldüyünü dedi. Bildirdi ki, Azərbaycanda muğamın inkişafı və təbliğinə xidmət edən





layihələr icra olunur. Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilir. Heydər Əliyev Fondunun dəstəyi ilə gənc ifaçıların qatıldığı muğam televiziya müsabiqəsi keçirilib, "Muğam" jurnalı nəşr olunur. Azərbaycanda mədəni irsin qorunması istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

İordaniya şahzadəsi xanım Ferial YUNESKO-nun Bakıda keçirilmiş 5-ci regional konfransında iştirakı barədə danışdı, onun yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.

YUNESKO-nun xoşməramlı səfirləri ölkələrində gördükləri işlər, həyata keçirilən layihələr barədə hesabat verdilər. Hesabatlarda əsas diqqət təhsil, elm, səhiyyə, mədəni irsin qorunması, QİÇS-lə mübarizə kimi mühüm məsələlərə yönəldildi.

Yığıncağın sonunda xoşməramlı səfirlər xatirə şəkli çəkdirdilər. YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın adından xoşməramlı səfirlərin şərəfinə ziyafət verildi.

*"Azərbaycan" qəzeti,*
*21 may 2008-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ BİLİK GÜNÜNDƏ BİR SIRA TƏLİM-TƏRBİYƏ OCAQLARI İSTİFADƏYƏ VERİLMİŞDİR

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2008-ci ilin sentyabrın 15-də Bilik günü münasibətilə Bakının bir sıra qəsəbələrində təlim-tərbiyə ocaqları istifadəyə verilmişdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakının Nərimanov rayonunda görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva adına uşaq bağçasının açılışında iştirak etmişdir.

Burada Azərbaycanın birinci xanımını uşaqlar gül-çiçəklə qarşıladılar. Mehriban xanım Əliyeva bağçanın əvvəlki görkəmini əks etdirən fotoşəkillərə baxdı. O, rəmzi açılışı bildirən lenti kəsdikdən sonra bağçada akademik Zərifə xanım Əliyevanın büstünü açdı, onun önünə gül dəstələri düzdü.

Uşaq bağçasının yenidən qurulmasına bu ilin əvvəlində başlanılmışdı. Bina tam yararsız vəziyyətdə olduğundan sökülərək yenidən tikilmişdir. Ən müasir standartlara malik bağça 3 yaşdan 6 yaşadək 120 nəfər uşaq üçün nəzərdə tutulmuşdur. Foyedə ümummilli lider Heydər Əliyevin və Heydər Əliyev Fondunun uşaqlara diqqət və qayğısını əks etdirən fotostendlər qoyulmuşdur.

Uşaqlar bağçada ingilis dili ilə yanaşı, bədii gimnastikanın sirlərini də öyrənəcəklər.

Mehriban xanım Əliyeva gimnastika salonunda balacaların çıxışlarını izlədi, onlarla səmimi söhbət etdi, uğurlar arzuladı.

Daha sonra Mehriban xanım bağçanın qrup, yataq otaqları, oyun zalları, hovuzu, müasir üslubda yeməkxanası ilə tanış oldu.

Böyük mərasimlər üçün nəzərdə tutulan salonda iri formatlı monitor, səs və görüntü üçün xüsusi avadanlıq qoyulmuşdur.

Binada mərkəzləşdirilmiş təhlükəsizlik və istilik sistemləri quraşdırılmışdır. Həyətyanı sahədə uşaqlara yol hərəkəti qaydalarının öyrədilməsi üçün xüsusi meydança yaradılmışdır. Mehriban xanım Əliyeva otaqların təzə avadanlıqla təchiz edilməsini, yaradılmış rahat şəraiti yüksək qiymətləndirdi. Elə həmin gün Heydər Əliyev Fondunun təşəbbüsü ilə Badamdar qəsəbəsində Tofiq Məmmədov adına 239 nömrəli orta məktəbin təmirdən sonra açılışı olmuşdur.

Məktəbin direktoru Sədaqət Əzimova bildirmişdir ki, təmirdən əvvəl məktəbdə 1200 nəfərdən artıq şagird dörd növbədə oxuyurdu. İndi isə uşaqlar bir növbədə təhsil alacaqlar. Fondun təşəbbüsü ilə məktəbin birinci sinif şagirdlərinə çantalar və 16 adda müxtəlif ləvazimat paylanılmışdır.

Məktəbə ən böyük hədiyyə isə süni örtüklü futbol meydançasının açılışı olmuşdur. Burada





nümunəvi məşqlər edən Azərbaycanın 15 yaşadək futbolçulardan ibarət yığma komandası məktəbə 50 futbol topu və idman geyimləri hədiyyə etmişdir.

Sentyabrın 15-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ələt qəsəbəsindəki 105 nömrəli əsas məktəbin də yenidən qurulmuş binasının açılışı olmuşdur.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yenidən qurulan məktəb 250 şagird üçün nəzərdə tutulmuşdur. Məktəbin fizika, biologiya, xarici dil kabinetləri, kompyuter otağı, geniş idman salonu vardır.

*"Azərbaycan" qəzeti,*
*16 sentyabr 2008-ci il*


GREENLAND
ALASKA
BRAZIL
NATIONAL GEOGRAPHIC
THE WORLD
POLITICAL

## *V fəsil*

# Mehriban xanım Əliyeva və Azərbaycan səhiyyəsinin bu günü və gələcəyi

## HEYDƏR ƏLİYEV FONDUNUN NÖVBƏTİ HUMANİTAR AKSİYASI

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2006-cı ilin martın 29-da növbəti humanitar aksiya keçirilmişdir.

Fondun 2004-cü ildən başlayaraq həyata keçirdiyi "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində Respublika Endokrinologiya, Diabet və Metabolizm Mərkəzində şəkərli diabet xəstəliyi ilə qeydə alınmış azyaşlılara dünyada yüksək keyfiyyətli insulin istehsalçısı kimi tanınan Danimarkanın "Novo Nordisk" şirkətinin istehsal etdiyi preparatlar və onu ağrısız, dəqiq qəbul etməyə imkan verən inyeksiya iynələri paylanmışdır.

Layihənin əlaqələndiricisi Xəyalə Mikayılova, Azərbaycan Diabet Cəmiyyətinin vitse-prezidenti Valeh Mirzəzadə, "Novo Nordisk" şirkətinin Azərbaycandakı nümayəndəsi Rəna Quliyeva çıxış edərək bildirdilər ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın şəxsi köməyi və təşəbbüsü ilə həyata keçirilən bu layihəyə uyğun olaraq, diabetdən əziyyət çəkən uşaqlara dördüncü dəfədir belə yardımlar edilir.

Valideynlər onların övladlarına göstərdiyi belə əvəzsiz köməyə, humanist qayğı və xeyirxahlığa görə Mehriban xanıma minnətdarlıqlarını, ən xoş arzularını bildirdilər. Qeyd etdilər ki, Heydər Əliyev Fondu bu layihənin icrasına başlayandan sonra ölkəmizdəki diabetli uşaqların problemlərinə həm respublikanın əlaqədar səhiyyə təşkilatlarının, həm də ictimaiyyətin, yerli və xarici şirkətlərin diqqəti xeyli artmışdır.

***"Azərbaycan" qəzeti,***
***30 mart 2006-cı il***







## HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2006-cı ilin aprelin 25-də Bakıda səfərdə olan Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru Li Yonq Vuk ilə görüşmüşdür.

Hörmətli qonaq və onu müşayiət edən şəxslər əvvəlcə Fondun zəngin sərgi və ekspozisiyası ilə tanış oldular. Ulu öndərin şəxsi arxivindən götürülmüş və onun uşaqlıq, gənclik illərini, fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən nadir sənədlər, həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillər, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələr, dahi şəxsiyyət haqqında yazılmış kitablar, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkilləri onlarda böyük maraq doğurdu. Ümummilli liderin sevimli ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın elmi-praktik fəaliyyəti, Heydər Əliyevin keçmiş SSRİ hökumətində yüksək vəzifədə olarkən Sovet səhiyyəsinin kuratoru kimi dünyanın ən böyük ölkəsində tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, infrastrukturun genişləndirilməsi, yeni səhiyyə ocaqlarının yaradılması sahəsində gördüyü işlər barədə verilən məlumat xüsusi maraqla qarşılandı.

Cənab Li Yonq Vuk Fondun fəaliyyətini yüksək qiymətləndirdi və Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra DST-nin baş direktoru ilə görüş oldu. Mehriban xanım Əliyeva cənab Li Yonq Vuku Bakıda və müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məmnunluğunu söylədi.

2004-cü ildən fəaliyyət göstərən Fondun ölkəmizdə təhsil, mədəniyyət sahəsində bir sıra

layihələr həyata keçirdiyini bildirən Mehriban Əliyeva dedi ki, səhiyyə sahəsindəki problemlərə xüsusi diqqət yetirilir.

Bu sahədə həyata keçirilən ilk tədbirlərdən biri "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir. 2004-cü il dekabrın 4-də Fondda layihənin təqdimatından sonra ictimaiyyətin, yerli və xarici təşkilatların diqqətini ölkəmizdəki diabetli uşaqların problemlərinə yönəltdik, Beynəlxalq Diabet Federasiyasının bu işdə iştirakı fəallaşdı, Azərbaycanda bu xəstəliyə tutulmuş 14 yaşınadək 310 nəfər uşağın insulinlə təminatındakı çətinliklərin bir çoxu aradan qaldırıldı.

Mehriban xanım dedi ki, səhiyyə sahəsində Fondun həyata keçirdiyi digər layihə ölkədə talassemiyanın qarşısının alınmasına yönəlmişdir. Talassemiyalı xəstələrin sayı, vəziyyəti, müalicə imkanları ilə bağlı müvafiq informasiya toplandıqdan sonra 2005-ci ilin fevralında "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən "dəyirmi masa" da ictimaiyyət nümayəndələri, beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Talassemiya Federasiyası ilə birgə əməkdaşlıq məsələləri müzakirə olunmuş, müasir avadanlıqla təchiz olunmuş talassemiya diaqnostika mərkəzinin yaradılması qərara alınmışdır.

Layihədə bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə də daim diqqət yetirilir. Talassemiya ilə mübarizədə İtaliya, Türkiyə, Yunanıstan və İsrailin təcrübəsi öyrənilir. Bir neçə ölkənin talassemiya sahəsində tanınmış mütəxəssislərin Azərbaycana səfərləri təşkil edilmiş və müzakirələr aparılmışdır. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması üçün başqa ölkələrlə mütəxəssis mübadiləsinin təşkili də nəzərdə tutulur.

Mehriban xanım ölkəmizdə bu xəstəliyin vaxtında aşkar edilməsi üçün lazımi müasir avadanlığın olmadığını bildirərək bu və digər sahələrdə Dünya Səhiyyə Təşkilatının köməyinə ehtiyac olduğunu vurğuladı. DST kimi mötəbər qurumun rəhbərinin Azərbaycana səfərinin ölkəmizdə səhiyyənin inkişafına müsbət təsir göstərəcəyinə inandığını bildirdi.

DST-nin baş direktoru Li Yonq Vuk Fondla tanışlıqdan, bu qurumun səhiyyə və digər sahələrdə gördüyü xeyirxah işlərdən razı qaldığını bildirdi, Fondun prezidentinin bu sahədə təşəbbüslərini və konkret fəaliyyətini yüksək qiymətləndirdi. Ölkəmizə ilk səfərinin, Azərbaycan Prezidenti və onun xanımı ilə görüşlərin onda xoş təəssürat yaratdığını vurğuladı. Cənab Li Yonq Vuk rəhbərlik etdiyi təşkilatın Fondla əməkdaşlığa hazır olduğunu, səmərəli əlaqə qurulacağına əminliyini söylədi, qaldırılan məsələlərin bir çoxunun həllinə kömək edəcəyini bildirdi.

Mehriban Əliyeva qonaqlara Fondun layihəsi olan "Qarabağ xanəndələri" musiqi albomunu və xatirə hədiyyələri təqdim etdi.

***"Azərbaycan" qəzeti,***
***26 aprel 2006-cı il***








**AZƏRBAYCANIN BİRİNCİ XANIMI**
**PARİSİN NEKER XƏSTƏXANASI İLƏ TANIŞ OLMUŞDUR**

Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransaya 2007-ci ilin aprelin 2-də səfəri çərçivəsində talassemiya xəstələrinin müalicə olunduğu Parisin Neker xəstəxanasında olmuşdur.

Xəstəxananın rəhbərliyi Mehriban xanımı səmimiyyətlə qarşılamışdır.

Baş pediatriya şöbəsinin müdiri və talassemiya xəstəliyi üzrə baş mütəxəssis xanım Marian de Montalanberm xəstəxana barədə Mehriban xanım Əliyevaya məlumat verərək bildirmişdir ki, 1802-ci ildən fəaliyyət göstərən xəstəxanada müalicə olunanlar, əsasən, xarici ölkə vətəndaşlarıdır. Bu xəstəlikdən əziyyət çəkən uşaqlar ciddi şəkildə müalicə edilirlər. Müasir avadanlıqla təchiz edilmiş talassemiya şöbəsində təcrübəli həkimlər işləyir. Xəstəxananın nəzdindəki elmi-tədqiqat mərkəzində ciddi araşdırmalar aparılır və bu sahədə müəyyən irəliləyişlər əldə edilmişdir. Mehriban xanım Əliyeva səmimi qarşılandığına və ətraflı məlumata görə təşəkkür edərək, Azərbaycanda da talassemiyalı uşaqların olduğunu bildirmişdir. O, ölkəmizdə bu sahədə xüsusi Dövlət Proqramının həyata keçirildiyini, rəhbərlik

etdiyi Heydər Əliyev Fondunun talassemiya xəstəliyinə tutulmuş uşaqlara hərtərəfli qayğı və yardım göstərdiyini söyləmiş, eyni zamanda, Avropanın qabaqcıl təcrübəsindən bəhrələnməyin əhəmiyyətli olduğunu vurğulamışdır. Sonra Mehriban Əliyeva xəstələrə baş çəkmişdir.

Hörmətli qonağa Parisdəki xəstəxanaların tarixindən və fəaliyyətindən bəhs edən kitab hədiyyə olunmuşdur, Azərbaycanın birinci xanımı da xəstəxanaya xatirə hədiyyəsi təqdim etmişdir.

*"Azərbaycan" qəzeti,*
*3 aprel 2007-ci il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU MARQARET ÇANLA GÖRÜŞMÜŞDÜR

Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağında iştirak etmək üçün Cenevrədə səfərdə olan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin mayın 17-də Dünya Səhiyyə Təşkilatının baş direktoru xanım Marqaret Çanla görüşmüşdür.

Görüş zamanı Mehriban xanım Əliyeva Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığı yüksək qiymətləndirmiş, bir çox layihələrin həyata keçirilməsində DST-nin köməyini xüsusi vurğulamış, quş qripi ilə mübarizədə və digər proqramların həyata keçirilməsində sıx əməkdaşlıq yarandığını bildirmişdir.

Azərbaycana səfərini xatırlayan Marqaret Çan ölkəmizdə səhiyyə sahəsində görülən işləri

yüksək qiymətləndirmiş, bundan sonra da Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın davam edəcəyini söyləmişdir. Baş direktor Mehriban xanım Əliyevanın təhsil və mədəniyyət sahələri ilə yanaşı, səhiyyə sahəsində də xidmətlərini yüksək qiymətləndirmişdir.

Mehriban Əliyeva DST-nin baş direktoru Marqaret Çanı ölkəmizə səfərə dəvət etmişdir. Dəvət məmnunluqla qəbul olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
***18 may 2007-ci il***





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA DST-nin YÜKSƏK MÜKAFATINA LAYİQ GÖRÜLMÜŞDÜR

2007-ci ilin mayın 17-də Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanı olan Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağı keçirilmişdir. Assambleyanın sədri, Avstraliyanın Səhiyyə naziri xanım Ceyn Halton yığıncağı açaraq, bəşəriyyəti təhdid edən və geniş yayılmış xəstəliklərin qarşısının alınmasında həkimlərin şərəfli əməyindən danışmışdır. Sədr Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyevanın təkcə mədəniyyət və təhsil sahəsində deyil, həm də səhiyyə sahəsində göstərdiyi xidmətləri yüksək qiymətləndirmişdir. Sədr Mehriban xanım Əliyevanın İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatına layiq görüldüyünü bildirmişdir. İhsan Doğramacı Fondunun təmsilçisi xanım Filis Ərdoğan uşaq həkimi kimi professor İhsan Doğramacının səhiyyə sahəsində xidmətlərini xatırlatmış və Fondun yaranma tarixindən danışmışdır. Xanım Ərdoğan Azərbaycanda səhiyyənin inkişafında, yeni xəstəxanaların açılmasında və onların müasir avadanlıqla təchiz edilməsində Mehriban Əliyevanın gördüyü işləri xüsusi vurğulamışdır.

Assambleya sədri Ceyn Halton və DST-nin baş direktoru xanım Marqaret Çan İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatını Mehriban Əliyevaya təqdim etmişlər.

*"Azərbaycan" qəzeti,*
***18 may 2007-ci il***



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA 6 NÖMRƏLİ UŞAQ POLİKLİNİKASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin dekabrın 27-də Bakı Şəhər Baş Səhiyyə İdarəsinin 6 nömrəli uşaq poliklinikasının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir. Tibb işçiləri Mehriban xanımı binanın önündə səmimiyyətlə və gül-çiçəklə qarşıladılar. Mehriban Əliyeva rəmzi açılışı bildirən lenti kəsdi.

Poliklinikanın foyesində ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın uşaqlara qayğısını əks etdirən fotoşəkillərdən ibarət stendlər qurulmuşdur.

Mehriban xanım poliklinikanın laboratoriyaları, müalicə-idman otağı, fizioterapiya, lor, stomatoloji, kardioloji bölmələri ilə tanış oldu. Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, 1975-ci ildən fəaliyyət göstərən tibb ocağı indiyədək əsaslı təmir edilməmişdi. Hazırda ən müasir avadanlıqla təchiz olunmuş poliklinikada 125 nəfər çalışır. Ərazidə yaşayan 13 minə





yaxın uşaq üçün nəzərdə tutulmuş poliklinika gün ərzində 60-70 nəfərə xidmət göstərir.

Yeniyetmə otağında kardioqraf, elektron boy və çəki ölçən cihazlar quraşdırılmışdır. Ultrasəs müayinəsi kabinetindəki müasir avadanlıq bütün insan orqanlarını müayinə etməyə imkan verir. Göz xəstəliklərinin müayinəsində ən qabaqcıl texnologiya əsasında hazırlanmış cihazlardan istifadə edilir.

Mehriban Əliyeva uşaqların peyvənd olunması prosesində oldu, tibb işçilərinə kömək etdi. Uşaqların valideynləri ilə səmimi söhbət edərək tövsiyələrini verdi. Fondun prezidentinə məlumat verildi ki, Prezident İlham Əliyevin 2005-ci il 21 oktyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"na (Elektron Azərbaycan) uyğun olaraq, Səhiyyə Nazirliyinin hazırladığı tədbirlər planı çərçivəsində elektron sağlamlıq kartlarının tətbiqinə başlanmışdır. Yeni doğulan hər bir uşaq üçün elektron sağlamlıq kartları yaradılır. Kartda uşaq haqqında şəxsi və tibbi məlumatlar (müayinələr, müalicələr, keçirdiyi xəstəliklər, qəbul etdiyi dərmanlar, peyvəndlər haqqında) olur. Həmin məlumatlar ümumi informasiya bankında da yerləşdirilir. Avrasiya məkanında ilk dəfə Azərbaycanda tətbiq edilən elektron sağlamlıq kartları doğum evlərində verilir.

Mehriban xanım yenicə peyvənd edilmiş uşaqların peyvənd olunmaları haqqında məlumatların yükləndiyi kartları və bayram hədiyyələrini valideynlərə təqdim etdi. Qarşıdan gələn bayramlar münasibətilə onlara təbrikini yetirdi.

Heydər Əliyev Fondunun prezidenti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə poliklinikanın kollektivini ürəkdən təbrik etdi, onlara uşaqların sağlamlığının keşiyində durmaq kimi şərəfli peşələrində uğurlar arzuladı.

*"Azərbaycan" qəzeti*
*28 dekabr 2007-ci il*



## MASALLIDA GÖZ XƏSTƏLİKLƏRİ İNSTİTUTUNUN FİLİALI AÇILMIŞDIR

2008-ci ilin oktyabrın 7-də akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun Masallı filialının açılışı olmuşdur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər.

Masallı şəhərinin mərkəzində, akademik Zərifə Əliyeva küçəsində yerləşən yeni səhiyyə müəssisəsinin ümumi sahəsi 850 kvadratmetrdir. Binanın foyesində görkəmli oftalmoloq alimin büstü qoyulmuşdur.

Filialda 6 çarpayılıq 3 palata, əməliyyat otağı, laboratoriya, ambulator, qəbul və müayinə şöbələri, konfrans salonu vardır.

Ən müasir avadanlığın quraşdırıldığı və regional əhəmiyyət daşıyan bu səhiyyə ocağında göz xəstəliklərinin müayinə və müalicəsi üçün hər cür şərait yaradılmışdır. Yüksək hazırlıqlı tibbi heyətin işləyəcəyi filialda respublikamızın cənub bölgəsinin sakinlərinə tibbi xidmət göstəriləcəkdir.

Prezident İlham Əliyev akademik Zərifə Əliyevaya həsr edilmiş guşə ilə tanış oldu. Burada görkəmli alimin, habelə Göz Xəstəlikləri İnstitutunun fəaliyyətinə aid fotoşəkillər toplanmışdır.





Dövlət başçısı filialda quraşdırılmış müasir avadanlıqla tanış oldu. Prezident İlham Əliyev səhiyyə ocağının kollektivinə müraciətlə dedi: "Sizi təbrik edirəm. Burada gözəl şərait var. Bu yaxınlarda Bakıdakı xəstəxanada da belə gözəl şərait olacaqdır. Amma burada əsas vəzifə yerli həkimləri hazırlamaqdan ibarətdir. Əlbəttə ki, sizin təcrübəniz burada həlledici rol oynayacaqdır. Həm əməliyyatlar aparacaqsız, həm də çalışın ki, burada yerli həkimləri də öyrədəsiniz. Gələcəkdə hər bir bölgənin öz həkimləri bu işlərlə məşğul olmalıdırlar. Sizə uğurlar arzulayıram və bir daha təbrik edirəm."

Sonra dövlət başçısı və xanımı filialın müasir standartlara cavab verən səyyar klinikası ilə tanış oldular.

***"Azərbaycan" qəzeti,***
***8 oktyabr 2008-ci il***



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI AFİNADA XƏRÇƏNG XƏSTƏLİYİNƏ TUTULAN UŞAQLARIN DOSTLUQ ASSOSİASİYASINDA OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2009-cu ilin fevralın 17-də Afinada "Xərçəng Xəstəliyinə Tutulan Uşaqların Dostluq Assosiasiyası"nda – "ELPİDA"da olmuşdur.

Mehriban xanım Əliyevanı Assosiasiyanın rəhbərləri hörmətlə qarşıladılar. Uşaqlar Heydər Əliyev Fondunun prezidentinə gül dəstəsi təqdim etdilər.

Burada xərçəng xəstəliyinə tutulan uşaqların, onların valideynlərinin iştirakı ilə keçirilən görüşdə YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis Assosiasiyanın fəaliyyəti barədə məlumat verdi. Xanım Vardinoyannis Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanımın nəcib və xeyirxah fəaliyyətindən, humanitar sahədə gördüyü işlərdən danışdı.

Marianna Vardinoyannis görüşdən xatirə olaraq Mehriban xanıma hədiyyə təqdim etdi. Assosiasiyanın binasında yaradılmış şəraitlə tanış olan Mehriban xanım uşaqlarla və onların valideynləri ilə söhbət etdi, uşaqlara Heydər Əliyev Fondunun hədiyyələrini təqdim etdi. Uşaqlar Mehriban xanıma öz əl işlərindən ibarət hədiyyə verdilər.

*"Azərbaycan" qəzeti,*
*18 fevral 2009-cu il*





## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ ALINMIŞ DAHA 10 HEMODİALİZ APARATI SƏHİYYƏ NAZİRLİYİNƏ TƏQDİM EDİLMİŞDİR

2009-cu ilin noyabrın 6-da Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Fondun humanitar yardım çərçivəsində əldə etdiyi 10 böyrək hemodializ aparatını Səhiyyə Nazirliyinə təqdim etmişdir.

Tibbi avadanlıq Almaniyanın "Fresenius Medical Care" şirkəti tərəfindən Heydər Əliyev Fonduna bağışlanan növbəti humanitar yardımdır. "Fresenius Medical Care" şirkəti ilə 2006-cı ildən başlanan əməkdaşlığın uğurlu olduğunu deyən Mehriban xanım həmin vaxtdan bəri Heydər Əliyev Fonduna 20 bahalı hemodializ aparatının hədiyyə edildiyini, Fondun bu aparatları Azərbaycanın Səhiyyə Nazirliyinə bağışladığını xatırlatmışdır.

Mehriban xanım Əliyeva dünyanın bir sıra nüfuzlu tibb şirkətləri ilə beynəlxalq əməkdaşlıq çərçivəsində Fonda xeyli tibbi avadanlığın daxil olduğunu və bunların hamısının Səhiyyə Nazirliyinə verildiyini diqqətə çatdırmışdır.

Fondun prezidenti 10 hemodializ aparatına görə Almaniya şirkətinin təmsilçisinə minnətdarlığını bildirmiş, bu hədiyyəni yüksək qiymətləndirdiyini demişdir.

*"Azərbaycan" qəzeti,*
*7 noyabr 2009-cu il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA RUSİYANIN TANINMIŞ TİBB XADİMLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2010-cu il yanvarın 22-də Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun "Tibb xadimləri" seksiyasının bir qrup nümayəndəsi ilə görüşmüşdür.

Görüşdə Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Fondun fəaliyyəti haqqında məlumat verdi.

Fondun humanitar, xüsusi ilə səhiyyə sahəsində bir çox layihələr həyata keçirdiyini deyən Azərbaycanın birinci xanımı qaçqın və məcburi köçkün ailələrdən, valideyn himayəsindən məhrum olan uşaqların problemlərinin hər zaman diqqət mərkəzində saxlanıldığını söylədi. Yarandığı gündən məqsədi və məramı yalnız xalqa xidmət olan Heydər Əliyev Fondunun insanların problemlərinin həllində böyük rolu vardır.

Azərbaycanda səhiyyə sahəsinin ən yüksək standartlara cavab verməsi üçün görülən işlər haqqında söhbət açılan görüşdə bu sahənin inkişafında beynəlxalq kadr mübadiləsinə, səhiyyə ocaqlarının ən müasir avadanlıqla təmin olunmasına xüsusi diqqət yetirildiyi vurğulandı.

Heydər Əliyev Fondunun xeyirxah fəaliyyətini yüksək qiymətləndirən qonaqlar Azərbaycana səfərdən məmnun qaldıqlarını bildirərək burada gördüklərinin onlarda xoş təəssürat oyatdığını diqqətə çatdırdılar.

*"Azərbaycan" qəzeti,*
*23 yanvar 2010-cu il*





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA TÜRKİYƏ TALASSEMİYA FEDERASİYASININ RƏHBƏRİ DURAN CANATAN İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Türkiyə Talassemiya Federasiyasının və Ağ dəniz qan xəstəlikləri Fondunun rəhbəri Duran Canatan ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun talassemiya xəstəliyi ilə bağlı eksperti təyin edilən Duran Canatanın xəstəliklə mübarizədə Fonda böyük dəstək göstərdiyini dedi.

Heydər Əliyev Fondunun talassemiyanın qarşısını almaq üçün həyata keçirdiyi proqramın artıq bir neçə ildir ki, icra olunduğunu qeyd edən Azərbaycanın birinci xanımı bu sahədə görülən işlər, Bakıda Talassemiya Mərkəzi barədə danışdı. Fondun prezidenti dedi ki, problemin ciddiliyi nəzərə alınaraq doktor Duran Canatanın təcrübəsinə ehtiyac vardır.

Türkiyə Talassemiya Federasiyasının və Ağ dəniz qan xəstəlikləri Fondunun rəhbəri Heydər Əliyev Fondunun talassemiya ilə mübarizədə fəaliyyətinin önəmini vurğuladı. Görüşdə talassemiyanın qarşısının alınması üçün predentiv tədbirlər – maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər müzakirə edildi.

*"Azərbaycan" qəzeti,*
*14 iyul 2010-cu il*



## BAKININ PİRŞAĞI QƏSƏBƏSİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ YENİDƏN QURULAN 34 NÖMRƏLİ ŞƏHƏR SƏHİYYƏ KOMPLEKSİ İSTİFADƏYƏ VERİLMİŞDİR

2011-ci ilin fevralın 25-də Bakının Pirşağı qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı surətdə yenidən qurulan 34 nömrəli şəhər səhiyyə kompleksi istifadəyə verilmişdir.

Kompleksin açılış mərasimində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva iştirak etmişdir.

Mərasim iştirakçıları Mehriban xanım Əliyevanı hərarətlə qarşıladılar. Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim edildi.

Mehriban xanım Əliyeva rəmzi açılışı bildirən lenti kəsdi və kompleks ilə yaxından tanış oldu.

Diqqətə çatdırıldı ki, Azərbaycanda səhiyyənin inkişafı və onun maddi-texniki bazasının gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Azərbaycanda səhiyyə müəssisələrinin





yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə qabaqcıl texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanması Heydər Əliyev Fondunun və qurumun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin prioritet istiqamətlərindəndir. Mehriban xanım Əliyeva tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə səhiyyə müəssisələrinin yenidən qurulması işlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Ana və uşaq sağlamlığının qorunması Fondun diqqətdə saxladığı əsas sahədir. Bu baxımdan Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən zəruri proqramlar və layihələr Azərbaycanda tibb sahəsinin inkişafına əvəzsiz töhfələr verir.

Azərbaycanın birinci xanımına məlumat verildi ki, 1980-ci illərdə binada ambulatoriya fəaliyyət göstərmişdir. Ötən ilin fevralında başlanılmış yenidənqurma işləri nəticəsində müasir avadanlıqla təchiz olunmuş tibb ocağının əlavə korpusu və təcili yardım binası inşa edilmişdir. 39 otaqdan ibarət səhiyyə müəssisəsində əhaliyə yüksək tibbi xidmət göstərilməsi üçün bütün zəruri şərait yaradılmışdır. Müxtəlif tibb xidmətinin göstərildiyi səhiyyə kompleksində İtaliya, Türkiyə, Almaniya və Koreya istehsalı olan müasir avadanlıq quraşdırılmışdır.

Heydər Əliyev Fondunun prezidenti pediatr otağı ilə tanış oldu, lor kabinetinə baxdı.

Bildirildi ki, burada xəstələrin müalicəsində lor kombaynı adlanan yeni aparatdan istifadə ediləcəkdir. Cərrah otağında anestezioloji qurğu, habelə əməliyyatlar zamanı nəbz və arterial təzyiqi ölçən kardiomonitor, elektroşok, həmçinin dərman preparatlarının yeridilməsi üçün tibbi infuzion və elektrosovurucu aparatlar vardır. Stomatoloji kabinet də səhiyyə müəssisəsinin digər otaqları kimi ən yeni avadanlıqla, o cümlədən müasir "Dentson" aparatı ilə təchiz olunmuşdur.

Kompleksin okulist otağında müayinə üçün "Tomey" aparatı quraşdırılmışdır. Müəssisədə elektrokardioqram, üçfunksiyalı ultrasəs müayinəsi aparatları da vardır. Kompleksdə lazer və maqnit terapiyası üçün fizioterapiya kabineti, peyvənd otağı fəaliyyət göstərir.

Azərbaycanın birinci xanımı "Heydər Əliyev Fondunun Sabunçu rayonuna hədiyyələri" adlı stendə baxdı.

Stenddə Fondun dəstəyi ilə rayon ərazisində inşa edilmiş sosial obyektlər – Bilgəh qəsəbəsində 11 nömrəli internat məktəbi, 231 nömrəli uşaq bağçası, Kürdəxanı Sağlamlıq Mərkəzi, Maştağa qəsəbəsində 21 nömrəli "Təbəssüm" uşaq sanatoriyası, Pirşağı qəsəbəsində 112 nömrəli orta məktəbin yeni korpusunu əks etdirən fotoşəkillər yer almışdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tibb işçilərini kompleksin açılışı münasibətilə təbrik edərək dedi:

– Sizi bir daha təbrik edirəm.

Çox gözəl kompleksdir. Tanış oldum, burada xəstələrin səhhəti ilə bağlı problemləri həll etmək üçün hər şey vardır. Bütün mütəxəssislərin öz kabinetləri vardır, avadanlıq ən müasirdir. İndi siz gərək xəstələrə yalnız və yalnız yaxşı baxasınız. Əlbəttə, həkimlərin də şəraiti yaxşı olmalıdır. Bu baxımdan burada çox gözəl şərait yaradılıbdır. Buna görə bir daha sizi təbrik

edirəm. Ümidvaram ki, ölkəmizdə bütün tibb müəssisələri bu səviyyədə olacaqdır. Bilirsiniz, son illər çoxlu yeni xəstəxanalar, diaqnostika mərkəzləri tikilir, eyni zamanda, köhnələri təmir olunur. Bu, çox yaxşı haldır. Bu, belə də davam edəcəkdir.

Kürdəxanı Sağlamlıq Mərkəzinin baş həkimi Esmiralda Abdullayeva çıxış edərək səhiyyə işçilərinə göstərdiyi yüksək diqqət və qayğıya görə Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi. Paytaxt ilə yanaşı, bölgələrdə də Fondun təşəbbüsü ilə yeni səhiyyə obyektlərinin inşa edildiyini, tibb müəssisələrinin yenidən qurulduğunu vurğulayan E.Abdullayeva Pirşağı qəsəbəsindəki 34 nömrəli şəhər səhiyyə kompleksinin kollektivi adından əminliklə bildirdi ki, bundan sonra əhaliyə daha yüksək səviyyədə tibbi xidmət göstəriləcəkdir.

Sonra Mehriban xanım Əliyeva səhiyyə kompleksinin nəzdində fəaliyyət göstərən 14 nömrəli təcili yardım stansiyasının filialı ilə tanış oldu. Burada 14 nəfərdən ibarət tibbi heyət çalışacaqdır.

Daha sonra Heydər Əliyev Fondunun prezidenti Pirşağı qəsəbəsinin inkişaf planını əks etdirən stendlərə baxdı. Qəsəbənin sosial məsələlərinin həlli ilə bağlı təkliflər verildi. Mehriban xanım Əliyeva bildirdi ki, Xəzər dənizinin sahilində yerləşən və Bakının ən qədim qəsəbələrindən biri olan Pirşağının mərkəzinin abadlaşdırılması ilə bağlı təkliflər nəzərdən keçiriləcək müvafiq işlər görüləcəkdir.

Azərbaycanın birinci xanımı görülmüş işlərdən razılığını bildirdi və tövsiyələrini verdi.

*"Azərbaycan" qəzeti,*
*26 fevral 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN YENİ TİKİLMİŞ UŞAQ KLİNİKASI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2012-ci ilin martın 7-də Milli Onkologiya Mərkəzinin yeni tikilmiş Uşaq klinikası ilə tanış olmuşdur.

Milli Onkologiya Mərkəzinin Uşaq klinikasının istifadəyə verilməsi səhiyyənin ən ağrılı problemlərinin həlli istiqamətində görülən əvəzsiz işdir. Klinika müasir təbabətin qlobal problemlərindən olan uşaqlarda onkoloji xəstəliklərin fəsadlarına qarşı mübarizədə çox mühüm funksiyanı yerinə yetirəcəkdir.

Respublika Uşaq Xəstəxanasında fəaliyyət göstərən 10 çarpayılıq bir bölmə tərəfindən göstərilən yardım onkoloji xəstəliyə düçar olan uşaqların böyük əksəriyyətini əhatə etmirdi. Tikintisinə 2009-cu ildən başlanılmış və artıq hazır olan Milli Onkologiya Mərkəzinin Uşaq klinikasının binası dördmərtəbəlidir. Klinikanın həyətində xüsusi zövqlə yaradılmış uşaq meydançası da vardır. Səhiyyə ocağının yerləşdiyi ərazinin ümumi sahəsi 5 min 200 kvadratmetrdir. Məhz uşaqlar üçün nəzərdə tutulduğundan görkəmi ilə digər səhiyyə ocaqla-

rından fərqlənən bu klinikanın birinci mərtəbəsində poliklinika şöbəsi və müxtəlif diaqnostik kabinetlər, ikinci və üçüncü mərtəbələrdə hər biri 30 çarpayılıq müalicə şöbələri, dördüncü mərtəbədə isə iki əməliyyat otağı olan cərrahi blok və reanimasiya şöbəsi yerləşir. Klinikada konfrans zalı, arxiv, xidməti otaqlar vardır. Burada mərkəzləşmiş havalandırma, yanğından mühafizə və rabitə sistemləri, həmçinin təhlükəsizliyin təmin edilməsi üçün müşahidə kameraları quraşdırılmışdır. Milli Onkologiya Mərkəzinin Uşaq klinikasının istifadəyə verilməsi bu sahədəki problemlərin həlli istiqamətində irəliyə atılan vacib addımdır.

Milli Onkologiya Mərkəzinin direktoru, akademik Cəmil Əliyev Azərbaycanın birinci xanımına məlumat verdi ki, respublikada onkoloji xəstəliyi olan 1000 nəfərə yaxın uşaq vardır. Klinikanın açılması ilə bu xəstələrin xaricdə müalicə almasına ehtiyac qalmayacaqdır. Mərkəzin Uşaq klinikası ən müasir tələblərə cavab verən tibbi müəssisə kimi layihələşdirilərək tikilmişdir. Uşaqların özlərini rahat hiss etmələri üçün klinikanın dəhlizlərinin divarları müxtəlif nağılların və cizgi filmlərinin qəhrəmanlarının şəkilləri ilə bəzədilmişdir. Bu isə klinikadakı ümumi şəraiti ev şəraitinə yaxınlaşdırır, qeyri xəstəxana ab-havası yaradır. Foyedə quraşdırılmış xüsusi monitorlarda klinikada olan bütün dərmanların siyahısı göstərilir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva əməliyyat və reanimasiya şöbələrində yaradılan şəraitlə tanış oldu. Burada iki əməliyyat otağı yerləşir. Bu otaqlar müasir narkoz aparatı, laminar hava axını, funksional əməliyyat masası, ən qabaqcıl tibbi cihazlar ilə təchiz edilmişdir. Həmçinin burada bakterosid və yanğına davamlı divarlar qurulmuşdur. Reanimasiya şöbəsi xüsusi avadanlıq vasitəsilə daim nəzarət altında saxlanılır. Bu şöbədə ən müasir süni tənəffüs aparatları vardır. Monitorlarda isə xəstənin təzyiqi, ürəyin kardioqramı, bədənin temperaturu, bir sözlə, pasiyentin bütün həyat parametrləri göstərilir.

Klinikada 24 saat ərzində fəaliyyət göstərən ekspress-laboratoriya da vardır. Tibb müəssisəsində uşaqlar yüksək dozalı dərmanlar qəbul edirlər. Bu səbəbdən onlar hər dörd saatdan bir analiz verir ki, bu dərmanların orqanizmdə sovrulması yoxlanılsın. Bu laboratoriyanın əsas məqsədi pasiyentlərdə digər patalogiyaların yaranmasının qarşısını almaqdır.

Tibb müəssisəsinin hər mərtəbəsində mətbəx, camaşırxana vardır. Xəstələrin yanına gələnlər uşaqlar ilə istirahət otaqlarında da görüşə bilərlər. Klinikada çoxlu stasionar palatalar vardır. Uşaq şöbəsində balacaların zövqünə və yaşına uyğun qurulan hər palatanın ayrıca vanna otağı, televizoru və müalicə almaq üçün lazımi şərait vardır. Palatalarda valideynlərin övladlarının yanında qalması da nəzərə alınmışdır. Bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, pediatrik yaş həddində, yəni 15-16 yaşadək olan onkoloji və hemotoloji xəstələr vaxtında klinikaya müraciət edərsə, onların tam sağalması mümkündür.

Klinikanın hər şöbəsində sümük iliyi, lyumbar punksiyalar və biopsiyaları üçün manipulyasiya otağı fəaliyyət göstərir. Bu otaq həm diaqnostik məqsədlər, həm də müalicənin səmərəliliyini araşdırmaq üçün yaradılmışdır. Klinikada müalicə olunan uşaqların tam sağalması üçün onların 1-2 il ərzində kimyəvi terapiya keçməsi vacibdir.





Tibb müəssisəsində məktəbli yaşında olan xəstə uşaqların tədrisi də nəzərə alınmışdır. Onlar üçün kompyuterlər ilə təchiz edilmiş dərs otağı yaradılmışdır. Dərs otağı müalicə aldıqları zaman uşaqların tədrisdən təcrid olunmaması məqsədi ilə qurulmuşdur.

Uşaq şöbəsində isə məktəbəqədər uşaqlar müalicə alacaqlar. Buradakı oyun və dərs otağı da məhz məktəbəqədər uşaqların tələbatlarına və maraqlarına uyğun yaradılmışdır.

Mehriban xanım Əliyeva klinikada müalicə olunan 2 yaşlı Nuray Abdulrəhmanlı və onun anası ilə görüşdü, balaca pasiyentin səhhəti ilə maraqlandı. Qax rayonundan olan Nuray göz almasının retinoblastoması diaqnozu ilə səkkiz ay əvvəl akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində əməliyyat olunmuşdur. Onun gözünə implantant qoyulmuşdur. Heydər Əliyev Fondunun prezidenti Nuray ilə söhbət etdi, hədiyyə verdi və ona tezliklə sağalmağı arzuladı.

Klinikanın daha bir pasiyenti – 11 yaşlı Zübəndə Xəlilovadır. Ucardan olan Zübəndə burun-qulağın karsinomasından müalicə olunur. Mehriban xanım Əliyeva Zübəndə ilə söhbət zamanı ona tezliklə sağalıb, məktəbə qayıtmağı arzuladı və ona hədiyyə təqdim etdi. Zübəndə Xəlilovanın anası klinikada müalicə üçün bütün şəraitin yaradıldığını dedi və buna görə minnətdarlığını bildirdi. Sonra xatirə şəkli çəkdirildi.

Şüa müalicəsinə ehtiyacı olan xəstə uşaqların binadan çıxmadan şüa terapiyası avadanlığının yerləşdiyi bunkerlərə getməsi üçün xüsusi keçid tikilmişdir. Burada çalışan mütəxəssislər Almaniya və Türkiyədə təcrübə keçmişlər. Xətti gücləndirici şüa terapiyası 3G formatlı cihazla təchiz edilmişdir. Maqnit-rezonans tomoqrafiyası kabinetində xüsusi aparat vasitəsilə baş-beyin, qarın boşluğunda, yumşaq toxuma və sümükdə olan patalogiyalar müəyyən edilir.

Rentgen-idarəetmə otağında isə rəqəmsal rentgen aparatı vasitəsilə ağ ciyər, qida borusu, mədə-bağırsaq və qarın boşluğunun ən dəqiq göstəricilərini əldə etmək mümkündür.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva yeni tikilmiş klinikanın kollektivini təbrik etdi, onlara işlərində uğurlar arzuladı.

*"Azərbaycan" qəzeti,*
*8 mart 2012-ci il*



1st Inte tiona Co rence
TRADITIO AL MEDIC NE A MATERIA
MEDIC MEDIEVAL M RIPTS»
aku, June 12-14, 2
Alain Tou ide
Mehriban A
amandopoulos



## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| Giriş sözü | | 5 |
| I FƏSİL. | Mehriban Əliyeva: çıxışlar, nitqlər | 13 |
| II FƏSİL. | Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin bəzi məqamları | 259 |
| III FƏSİL. | Azərbaycan Respublikasının birinci xanımı və deputat Mehriban Əliyeva siyasi səhnədə | 301 |
| IV FƏSİL. | YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müasir Azərbaycan təhsilinin inkişafında rolu | 347 |
| V FƏSİL. | Mehriban xanım Əliyeva və Azərbaycan səhiyyəsinin bu günü və gələcəyi | 383 |

Az 2014/1101

BAKI 2014

99681